# HEYDƏR ƏLİYEV

## MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

**_o n a l t ı n c ı   k i t a b_**

***iyun, 1998 - iyul, 1998***

**AZƏRNƏŞR**

**BAKI-2005**

**BBK** 32
**Ə**-56

Buraxılışına məsul

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**
**Ə** 56 **Müstəqilliyimiz əbədidir**. B., Azərnəşr, 2005, 552 s.

Əsrimizin böyük dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin oxuculara təqdim olunan bu növbəti cilddə apardığı danışıqlar, keçirdiyi görüşlər, etdiyi çıxışlar müstəqil, suveren Azərbaycan dövlətinin möhkəmləndirilib inkişaf etdirilməsinə, Azərbaycanın beynəlxalq nüfuzunun, onun haqq işinin dünya miqyasına yüksəldilməsinə, respublikamızın işıqlı gələcəyi, xalqımızın rifahı və tərəqqisi naminə aparılan geniş iqtisadi və siyasi islahatlara həsr olunmuş materiallar toplanmışdır.

Kitabda unudulmaz rəhbərin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına rəsmi səfəri zamanı keçirdiyi yüksək səviyyəli görüşləri, dərin məzmunlu danışıqları, imzalanmış sənədlər, dünyanın nüfuzlu mətbuat orqanlarına verdiyi bəyanat və müsahibələr Azərbaycan ilə Birləşmiş Krallıq arasında bütün sahələrdə əməkdaşlığın inkişaf etdirilməsində yeni mərhələnin təzahürüdür.

Kitabda, həmçinin görkəmli ədəbiyyat və incəsənət xadimləri ilə görüşlər, qaçqın və məcburi köçkünlərə böyük diqqət və qayğı, tarixi adət-ənənələrə yüksək qiymət və dəyərli tövsiyələr də öz əksini tapmışdır.

**BBK**-32

Ə 0801000000 / **M**-651(07)- 2004

© **Azərnəşr**, 2005

# KİTABIN İÇİNDƏKİLƏR

**İTALİYANIN MİLLİ BAYRAMI – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ İTALİYANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ**
*8 iyun 1998-ci il*............ **10**

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORİS NİKOLAYEVİÇ YELTSİNƏ**
*8 iyun 1998-ci il*............ **12**

**TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ NÖVBƏTİ ZİRVƏ GÖRÜŞÜNDƏ VƏ ASTANA ŞƏHƏRİNİN YENİ PAYTAXT ELAN OLUNMASI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK ETMƏK ÜÇÜN QAZAXISTAN RESPUBLİKASINA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB**
*9 iyun 1998-ci il*............ 13

**ASTANA HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİNDƏN SONRA JURNALİSTLƏRİN SUALLARINA CAVAB**
*9 iyun 1998-ci il*............ **14**

**ASTANA ŞƏHƏRİNDƏ TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ**
*9 iyun 1998-ci il*............ 15

**TÜRKDİLLİ DÖVLƏTLƏRİN V ZİRVƏ GÖRÜŞÜ İŞTİRAKÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI**
*9 iyun 1998-ci il*............ 17

**TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*9 iyun 1998-ci il*............ 21

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İSLAM KƏRİMOV İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*9 iyun 1998-ci il*............ **23**

**QAZAXISTANIN YENİ PAYTAXTI ASTANA ŞƏHƏRİNİN BEYNƏLXALQ TƏQDİMAT MƏRASİMİNDƏ – RƏSMİ AÇILIŞINDA NİTQ**
*10 iyun 1998-ci il*............ 24

**XALQ YAZIÇISI İSA HÜSEYNOVA**
*11 iyun 1998-ci il*............ 25

**XALQ ARTİSTİ HACIBABA BAĞIROVA**
*11 iyun 1998-ci il*............ **26**

**ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ MSTİSLAV ROSTROPOVİÇƏ «ŞÖHRƏT» ORDENİNİN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ NİTQ**
*13 iyun 1998-ci il*............ 27

**RUSİYANIN MİLLİ BAYRAMI – RUSİYA FEDERASİYASININ DÖVLƏT MÜSTƏQİLLİYİ HAQQINDA BƏYANNAMƏNİN QƏBUL OLUNMASI GÜNÜ MÜNASİBƏTİLƏ RUSİYANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ**
*12 iyun 1998-ci il*............ 30

**XALQ ARTİSTİ HACI XANMƏMMƏDOVA**
*14 iyun 1998-ci il*............ 32

RUSİYA TELEVİZİYASININ «TEMA» PROQRAMININ MAESTRO, MSTİSLAV ROSTROPOVİÇİN HƏYAT VƏ YARADICILIĞINA HƏSR EDİLMİŞ VERİLİŞİN ÇƏKİLİŞ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*15 iyun 1998-ci il*........................................................................................................ 33

ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ MSTİSLAV ROSTROPOVİÇLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*17 iyun 1998-ci il*........................................................................................................ 35

RUSİYANIN MƏŞHUR BALET USTALARI NADEJDA PAVLOVA VƏ VYAÇESLAV QORDEYEVİN, HABELƏ MOSKVANIN «RUS BALETİ» DÖVLƏT TEATRININ İŞTİRAKI İLƏ BALET GECƏSİNDƏN SONRA GÖRKƏMLİ SƏNƏTKARLARLA GÖRÜŞDƏ ÇIXIŞ
*18 iyun 1998-ci il*........................................................................................................ 37

XALQ RƏSSAMI ELBƏY RZAQULİYEVƏ
*19 iyun 1998-ci il*........................................................................................................ 38

BÖYÜK BRİTANİYANIN MİLLİ BAYRAMI –KRALİÇA II YELİZAVETANIN DOĞUM GÜNÜ MÜNASİBƏTİLƏ BÖYÜK BRİTANİYANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ
*19 iyun 1998-ci il*........................................................................................................ 39

MOSKVA AKADEMİEK SATİRA TEATRININ QRİQORİ QORİNİN EYNİ ADLI PYESİ ƏSASINDA HAZIRLANMIŞ «BƏXTLİ VƏ BƏXTSİZ» TAMAŞASINA BAXDIQDAN SONRA TEATRIN YARADICI KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*20 iyun 1998-ci il*........................................................................................................ 40

«HÜRRİYYƏT» QƏZETİNƏ
*22 iyun 1998-ci il*........................................................................................................ 41

AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT QEYDİYYATINDAN KEÇƏN SİYASİ PARTİYALARA
*23 iyun 1998-ci il* ....................................................................................................... 42

AZƏRBAYCAN MİLLİ ORDUSUNUN YARADILMASININ 80 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ NİTQ
*26 iyun 1998-ci il* ....................................................................................................... 43

RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ DÖVLƏT ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB MAQOMEDƏLİ MAQOMEDOVİÇ MAQOMEDOVA
*26 iyun 1998-ci il*........................................................................................................ 49

KABARDA-BALKAR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KOKOV VALERİ MÜHƏMMƏDOVİÇƏ
*26 iyun 1998-ci il*........................................................................................................ 50

QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ ÜMUMRESPUBLİKA MÜŞAVİRƏSİNDƏ NİTQ
*27 iyun 1998-ci il*........................................................................................................ 51
YEKUN NİTQ
*27 iyun 1998-ci il*........................................................................................................ 53

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ, ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ
*28 iyun 1998-ci il*........................................................................................................ 62

AZƏRBAYCAN RƏSSAMLAR İTTİFAQININ QURULTAYINA

*29 iyun 1998-ci il*........................................................................................................ 63

**RUMİNİYA PREZİDENTİ EMİL KONSTANTİNESKUNUN BİNƏ HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİNDƏ BƏYANAT**
*29 iyun 1998-ci il*........................................................................................................ **64**

**AZƏRBAYCAN PREZİDENTİNİN RUMİNİYA PREZİDENTİ EMİL KONSTANTİNESKU İLƏ TƏKBƏTƏK GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*30 iyun 1998-ci il*........................................................................................................ **65**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN VƏ RUMİNİYA PREZİDENTİ EMİL KONSTANTİNESKUNUN TƏKBƏTƏK GÖRÜŞÜ BAŞA ÇATDIQDAN SONRA HƏR İKİ ÖLKƏNİN NÜMAYƏNDƏ HEYƏTLƏRİ ARASINDA AZƏRBAYCAN-RUMİNİYA DANIŞIQLARINDA ÇIXIŞ**
*30 iyun 1998-ci il*........................................................................................................ 67

**AZƏRBAYCAN-RUMİNİYA SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT**
*30 iyun 1998-ci il*........................................................................................................ **69**

**RUMİNİYA PREZİDENTİ EMİL KONSTANTİNESKUNUN BƏYANATI**
*30 iyun 1998-ci il*........................................................................................................ **70**

**AZƏRBAYCAN RESPUBLİKASI İLƏ RUMİNİYA ARASINDA DOSTLUQ MÜNASİBƏTLƏRİNİN VƏ TƏRƏFDAŞLIĞIN İNKİŞAFI HAQQINDA BƏYANNAMƏ**
*30 iyun 1998-ci il*........................................................................................................ **72**

**AZƏRBAYCAN PREZİDENTİ ADINDAN RUMİNİYA PREZİDENTİ EMİL KONSTANTİNESKUNUN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ ZİYAFƏTDƏ NİTQ**
*30 iyun 1998-ci il*........................................................................................................ 74

**RUMİNİYA PREZİDENTİ EMİL KONSTANTİNESKUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ BAŞA ÇATDIQDAN SONRA BİNƏ HAVA LİMANINDA YOLA SALINMA MƏRASİMİNDƏ RUMİNİYA TELEVİZİYASINA MÜSAHİBƏ**
*1 iyul 1998-ci il*........................................................................................................ **76**

**AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR ORQANLARININ ŞƏXSİ HEYƏTİNƏ**
1 iyul *1998-ci il*........................................................................................................ **77**

**AZƏRBAYCAN POLİSİNİN** 80 **İLLİK YUBİLEYİNƏ VƏ POLİS GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ**
*2 iyul 1998-ci il*........................................................................................................ **78**

**ABŞ-ın MİLLİ BAYRAMI – İSTİQLALİYYƏT GÜNÜ MÜNASİBƏTİLƏ ABŞ-ın AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN ÖZ İQAMƏTGAHINDA TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ**
*4 iyul 1998-ci il*........................................................................................................ 83

**MOSKVA, SANKT-PETERBURQ, MDB VƏ BALTİK ÖLKƏLƏRİ JURNALİSTLƏRİNİN BÖYÜK BİR QRUPU İLƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ VƏ MÜSAHİBƏ**
*10 iyul 1998-ci il*........................................................................................................ **85**

**BİBİHEYBƏT MƏSCİD-ZİYARƏTGAH KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
*12 iyul 1998-ci il*........................................................................................................ 99

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JAK**

**ŞİRAKA**
*13 iyul 1998-ci il*........................................................................................................ **102**

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JAK ŞİRAKA**
*13 iyul 1998-ci il*........................................................................................................ **103**

**RESPUBLİKANIN ŞƏHƏR VƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇILARININ İŞTİRAKI İLƏ KEÇİRİLƏN MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ**
*14 iyul 1998-ci il* ........................................................................................................ 104
**YEKUN NİTQİ**
*14 iyul 1998-ci il* ........................................................................................................ **107**

**FRANSANIN MİLLİ BAYRAMI – BASTİLİYANIN ALINMASI GÜNÜ MÜNASİBƏTİLƏ FRANSANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ**
*14 iyul 1998-ci il*........................................................................................................ **113**

**BEYNƏLXALQ AMNİSTİYA TƏŞKİLATININ BAŞ KATİBİ PYER SANE CƏNABLARINA**
*17 iyul 1998-ci il*........................................................................................................ 115

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ CƏNAB KOFİ ANNANA**
*18 iyul 1998-ci il*........................................................................................................ 116

**ƏDRNƏ BƏLƏDİYYƏSİNİN SƏDRİ CƏNAB HƏMDİ SƏDƏFÇİYƏ QIRXPINAR AĞASI CƏNAB MÜSTAFA ŞAHİNƏ**
*18 iyul 1998-ci il*........................................................................................................ 118

**İZMİR KARŞIYAKA BƏLƏDİYYƏSİNİN SƏDRİ CƏNAB KAMAL BAYSAKA**
*18 iyul 1998-ci il*........................................................................................................ 119

**AZƏRBAYCAN RESPUBLİKASININ MƏTBUAT İŞÇİLƏRİNƏ**
*19 iyul 1998-ci il*........................................................................................................ 120

**BÖYÜK BRİTANİYAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB**
*19 iyul 1998-ci il*........................................................................................................ **121**

**BÖYÜK BRİTANİYANIN APARICI KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN YÜKSƏK VƏZİFƏLİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ BƏYANAT VƏ SUALLARA CAVAB**
*20 iyul 1998-ci il*........................................................................................................ **122**

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BEYNƏLXALQ İNKİŞAF ÜZRƏ DÖVLƏT KATİBİNİN MÜAVİNİ CORC FOULKS İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*20 iyul 1998-ci il* ........................................................................................................ 128

**BÖYÜK BRİTANİYANIN «ŞELL» ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU FİLL BOTS İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*20 iyul 1998-ci il*........................................................................................................ 129

**BÖYÜK BRİTANİYANIN «LAZMA» ŞİRKƏTİNİN PREZİDENTİ CO DARBİ VƏ BRAZİLİYANIN «PETROBRAZ» ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU RENATO BERTARİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*20 iyul 1998-ci il*........................................................................................................ 130

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ XARİCİ İŞLƏR ÜZRƏ NAZİRİ DAQ HENDERSONUN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ
*20 iyul 1998-ci il*............ 131

BÖYÜK BRİTANİYA ŞURASININ BAŞ DİREKTORU DOKTOR DEVİD DRİYURİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*20 iyul 1998-ci il*............ 132

BÖYÜK BRİTANİYANIN «MONUMENT OYL ƏND QAZ» ŞİRKƏTİNİN BAŞ DİREKTORU TİM EQQAR VƏ ŞİRKƏTİN İCRAÇI DİREKTORU TERRİ ADAMS İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*20 iyul 1998-ci il*............ 133

BÖYÜK BRİTANİYA– AZƏRBAYCAN CƏMİYYƏTİNİN TOPLANTISINDA NİTQ
*20 iyul 1998-ci il*............ 135

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ BÖYÜK BRİTANİYA-AZƏRBAYCAN CƏMİYYƏTİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ
*20 iyul 1998-ci il*............ 137

BÖYÜK BRİTANİYANIN «FÖRST» JURNALININ BEYNƏLXALQ PREZİDENTİ PATRİK KORMAKIN SUALLARINA CAVAB
*21 iyul 1998-ci il*............ 139

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKI İLƏ AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ BANKI ARASINDA BEYNƏLXALQ BANK-KREDİT XƏTTİ AÇILMASI HAQQINDA SAZİŞİN İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞ
*21 iyul 1998-ci il*............ 141

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ KRALİÇASI II YELİZAVETA İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*21 iyul 1998-ci il*............ 143

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ TONİ BLEYR İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*21 iyul 1998-ci il*............ 145

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN VƏ BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞI BAŞ NAZİRİNİN DOSTLUQ MÜNASİBƏTLƏRİ VƏ TƏRƏFDAŞLIQ HAQQINDA BİRGƏ BƏYANNAMƏSİNİN İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞ
*21 iyul 1998-ci il*............ 149

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN VƏ BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞI BAŞ NAZİRİNİN DOSTLUQ MÜNASİBƏTLƏRİ VƏ TƏRƏFDAŞLIQ HAQQINDA BİRGƏ BƏYANNAMƏSİ
*21 iyul 1998-ci il*............ 151

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ ÇARLZ FRANK İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*21 iyul 1998-ci il*............ 153

BİRLƏŞMİŞ KRALLIĞIN MÜDAFİƏ İŞLƏRİ ÜZRƏ DÖVLƏT KATİBİ CORC ROBERTSON İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*21 iyul 1998-ci il*............ 154

**BÖYÜK BRİTANİYANIN «BRİTİŞ PETROLEUM» ŞİRKƏTİNİN PREZİDENTİ CON BRAUN İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*21 iyul 1998-ci il*........................................ **155**

**BÖYÜK BRİTANİYANIN TİCARƏT VƏ SƏNAYE ÜZRƏ DÖVLƏT KATİBİ XANIM MARQARETT BEKETT İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*21 iyul 1998 - ci il*........................................ 156

**BÖYÜK BRİTANİYANIN ENERJİ ÜZRƏ DÖVLƏT NAZİRİ CON BATTL İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*21 iyul 1998-ci il*........................................ **158**

**Bİ-Bİ-Sİ TELEVİZİYA MÜXBİRİ İLƏ MÜSAHİBƏ**
*21 iyul 1998-ci il*........................................ **160**

**AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ LONDONUN LORD-MERİ RİÇARD NİKOLS TƏRƏFİNDƏN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ**
*21 iyul 1998-ci il*........................................ **161**

**BÖYÜK BRİTANİYANIN «AY-Bİ-Sİ» ŞİRKƏTİNİN TƏŞKİL ETDİYİ «AZƏRBAYCANDA BİZNES» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ**
*22 iyul 1998-ci il*........................................ **164**

**BÖYÜK BRİTANİYADA YAŞAYAN AZƏRBAYCANLILARLA GÖRÜŞDƏ NİTQ**
*22 iyul 1998-ci il*........................................ 170

**BRİTANİYA-AZƏRBAYCAN PARLAMENT QRUPUNUN ƏSASININ QOYULMASI MÜNASİBƏTİLƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ**
*22 iyul 1998-ci il*........................................ 175

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR ÜZRƏ KRAL İNSTİTUTUNDAKI GÖRÜŞDƏ NİTQ**
*22 iyul 1998-ci il*........................................ 176

**«BRİTİŞ PETROLEUM» ŞİRKƏTİNİN TƏŞKİL ETDİYİ AZƏRBAYCAN İNCƏSƏNƏT USTALARININ İŞTİRAKI İLƏ KONSERTDƏ ÇIXIŞ**
*22 iyul 1998-ci il*........................................ **183**

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ XARİCİ İŞLƏR VƏ BİRLİK İŞLƏRİ ÜZRƏ DÖVLƏT KATİBİ ROBİN KUK İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*22 iyul 1998-ci il*........................................ 184

**LONDONDA GÖRÜŞLƏR BAŞA ÇATDIQDAN SONRA ŞOTLANDİYANIN PAYTAXTI EDİNBURQ ŞƏHƏRİNİN LORD-PROVOSTU ERİK MİLİQAN İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*23 iyul 1998-ci il*........................................ **186**

**AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ EDİNBURQ ŞƏHƏRİNİN LORD-PROVOSTU ERİK MİLİQANIN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA ÇIXIŞ**
*23 iyul 1998-ci il*........................................ 187

**BÖYÜK BRİTANİYA KRALİÇASININ SUPERİNTENDANTI POLKOVNİK DEYVİD ANDERSON İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*23 iyul 1998-ci il*........................................ **188**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ŞƏRƏFİNƏ BİRLƏŞMİŞ KRALLIĞIN XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT NAZİRİ DAQ HENDERSONUN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ**
*23 iyul 1998-ci il*........................................................................................................ 189

**ŞOTLANDİYADA YAŞAYAN SOYDAŞLARIMIZLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*23 iyul 1998-ci il*........................................................................................................ 191

**ŞOTLANDİYANIN BİZNES DAİRƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ**
*23 iyul 1998-ci il*........................................................................................................ **192**

**LONDONDAKI AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNDƏ TÜRKİYƏNİN «SAMAN YOLU» TELEVİZİYASI MÜXBİRİNİN SUALLARINA CAVAB**
*24 iyul 1998-ci il*........................................................................................................ 196

**LONDONDAKI AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNDƏ AZƏRBAYCAN RƏSSAMLARININ SƏRGİSİNDƏKİ SÖHBƏTDƏN**
*24 iyul 1998-ci il*........................................................................................................ 197

**LONDONDAKI AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNDƏ BİR SIRA ŞİRKƏTLƏRİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*24 iyul 1998-ci il*........................................................................................................ 198

**LONDONDAN BAKIYA QAYIDARKƏN BÖYÜK BRİTANİYAYA RƏSMİ SƏFƏRİN YEKUNLARI BARƏDƏ TƏYYARƏDƏ JURNALİSTLƏRƏ MÜSAHİBƏ**
*24 iyul 1998-ci il*........................................................................................................ 199

**LONDONDAN BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB**
*24 iyul 1998-ci il*........................................................................................................ 203

**QEYDLƏR** ........................................................................................................ 204

**ŞƏXSİ ADLAR GÖSTƏRİCİSİ** ........................................................................ 222

**COĞRAFİ ADLAR GÖSTƏRİCİSİ** .................................................................. **225**

## İTALİYANIN MİLLİ BAYRAMI – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ İTALİYANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*«Hyatt-Recensi-Naxçıvan» mehmanxanası*

*8 iyun 1998-ci il*

Hörmətli cənab səfir!
Hörmətli xanımlar və cənablar!

Mən sizi İtaliya Respublikasının elan olunmasının 52-ci ildönümü münasibətilə ürəkdən təbrik edir, İtaliya xalqına sülh, əmin-amanlıq və səadət arzulayıram.

Biz müstəqil Azərbaycan ilə İtaliya Respublikası arasında əlaqələrə xüsusi əhəmiyyət veririk. Son zamanlar bu əlaqələrin bütün sahələrdə inkişaf etməsi bizdə böyük razılıq hissi doğurur. Məmnuniyyət hissi ilə demək istəyirəm ki, Azərbaycanda İtaliyanın səfirliyinin açılması və onun fəaliyyəti İtaliya – Azərbaycan əlaqələrinin inkişaf etdirilməsində mühüm hadisə olmuşdur.

Keçən ilin sentyabr ayında mənim İtaliyaya rəsmi səfərim zamanı İtaliya Respublikasının prezidenti cənab Skalfaro, Baş nazir cənab Prodi və başqa dövlət xadimləri ilə apardığımız danışıqlar və imzalanmış çox əhəmiyyətli sənədlər İtaliya–Azərbaycan əlaqələrinin inkişafı üçün böyük bir mərhələ açmışdır. İmzaladığımız sənədlər İtaliya–Azərbaycan əlaqələrinin hüquqi-normativ bazasının yaranmasının əsasını [5-6] qoymuşdur və əminəm ki, əməkdaşlığımız nəticəsində bundan sonra da ölkələrimiz arasında müxtəlif sənədlər imzalanacaq və onlar əlaqələrimizin genişlənməsinə kömək edəcəkdir. Keçən il İtaliyada olduğum günləri, Romada, Neapolda, Kapridə keçirdiyim saatları və çox mehriban görüşləri böyük məmnuniyyət hissi ilə xatırlayıram. Azərbaycan nümayəndə heyətinə İtaliyada çox böyük qonaqpərvərlik, diqqət və qayğı göstərilmiş və bizim səfərimiz, görüşlərimiz, danışıqlarımız dostluq və mehribanlıq şəraitində keçmişdir.

Şübhə yoxdur ki, bizim əlaqələrimiz, yəni dövlət rəhbərlərinin və hökumətə daxil olan şəxslərin İtaliyadan Azərbaycana, Azərbaycandan İtaliyaya səfərləri davam edəcəkdir və bu da əməkdaşlığımız üçün çox gözəl imkanlar yaradacaqdır. Bu baxımdan İtaliyanın sənaye nazirinin iyun ayının əvvəlində Azərbaycana səfəri, bizim görüşlərimiz, danışıqlarımız da böyük əhəmiyyət kəsb edir.

Hesab edirəm ki, iqtisadi sahədə əməkdaşlığımız müvəffəqiyyətlə irəliləyir. Xəzər dənizinin Azərbaycan sektorunda olan «Kürdaşı» yatağının müştərək işlənilməsi barəsində iyun ayının 2-də Bakıda Azərbaycan Dövlət Neft Şirkəti ilə İtaliyanın «Eni/ACİP» şirkəti arasında böyük müqavilə imzalandı. Məlumdur ki, İtaliyanın «ACİP» şirkəti Azərbaycana ilk dəfə 1995-ci ilin noyabr ayında gəlmişdir və o zaman bir çox şirkətlərlə, xüsusən Rusiyanın «LUKoyl» şirkəti ilə birlikdə «Qarabağ» neft yatağında iş görmək üçün müqavilənin iştirakçısı olmuşdur. İndi «Eni/ACİP» şirkəti Azərbaycanda fəaliyyətini həddindən artıq genişləndirir. Hesab edirəm ki, bu əməkdaşlıq Azərbaycan ilə İtaliya arasında bütün başqa sahələrdə olan əməkdaşlığa da öz təsirini göstərəcəkdir.

Şübhə yoxdur ki, İtaliyanın başqa şirkətləri üçün də Azərbaycanda yer var. Mən keçən ilin sentyabr ayında İtaliyada olarkən bu barədə öz fikirlərimizi bəyan etmişəm və bu gün də bəyan edirəm ki, İtaliyanın xüsusən orta və kiçik şirkətləri [6-7] Azərbaycanda müştərək çox iş görə bilərlər və biz də bunu arzu edirik.

İtaliya Avropanın böyük dövlətlərindən biridir, Avropa Birliyində və ümumiyyətlə dünya birliyində özünəməxsus, xüsusi yer tutur. İtaliya iqtisadi cəhətdən inkişaf etmiş ölkədir. İtaliya xalqı zəngin, qədim tarixə malik olan xalqdır. Bunları nəzərə alaraq, Azərbaycan İtaliya ilə bütün sahələrdə əməkdaşlıq etmək arzusundadır.

Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün 1992-ci ildə ATƏT-in Minsk qrupu yaranandan sonra İtaliya 1992-1993-cü illərdə ATƏT-in Minsk qrupunun sədri vəzifəsini həyata keçirmişdir. Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi məqsədi ilə 1993-cü ilin ikinci yarısında mən Minsk qrupunun sədri, İtaliyanın nümayəndələri ilə dəfələrlə görüşüb danışıqlar aparmışam. Hesab edirəm ki, onların burada gördükləri iş, bizim danışıqlarımız çox əhəmiyyətli olmuşdur.

İtaliya indi də ATƏT-in Minsk qrupunun üzvüdür və bizimlə əməkdaşlıq edir. 1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon zirvə görüşündə Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün prinsiplərin müəyyən edilməsi və qəbul olunmasında İtaliyanın da səsi əhəmiyyət kəsb etmişdir. Məmnuniyyətlə qeyd edirəm ki, Minsk qrupunun üzvü kimi İtaliya Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasında həmişə ədalətli və prinsipial mövqe tutmuşdur. Bu gün də İtaliya ATƏT-in Lis-

sabon zirvə görüşündə qəbul olunmuş prinsipləri Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün yeganə əsas kimi qəbul edir və əsas hesab edir.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu sahədə, yəni Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə tam həll olunması istiqamətində Minsk qrupunun üzvü kimi İta[7-8]liya Azərbaycanla əməkdaşlığını davam etdirəcək və öz səylərini bundan sonra da əsirgəməyəcəkdir.

İtaliya ilə Azərbaycan arasında əlaqələrin bir cəhəti də ondan ibarətdir ki, ümumiyyətlə İtaliya insanları çox cəlb edən ölkədir. İtaliyanın görməli yerləri ilə tanış olmaq üçün, yaxud ticarət məqsədi ilə Azərbaycandan İtaliyaya çox insanlar gedirlər. Bu da İtaliya–Azərbaycan əlaqələrinin genişlənməsinə kömək edir.

Bir sözlə, müstəqil Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında çox gözəl əlaqələr yaranmışdır və biz bunların sürətlə inkişaf etməsi üçün tələb olunan tədbirlərin hamısını öz tərəfimizdən həyata keçirəcəyik.

İtaliya Respublikasının və hökumətinin qarşısında da çox mühüm vəzifələr var. İtaliya Respublikası Avropa Birliyində, Dünya Birliyində fəal iştirak edərək, eyni zamanda öz ölkəsinin iqtisadiyyatının inkişafı və vətəndaşlarının rifahının daha da yaxşılaşdırılması sahəsində lazımi tədbirlər görür. Mən İtaliya Respublikasına və İtaliya xalqına gələcək bütün işlərdə müvəffəqiyyət arzu edirəm. İtaliyanın bütün vətəndaşlarına sülh, əmin-amanlıq və rifah arzulayıram. Bayramınız mübarək olsun. [8]

**RUSİYA FEDERASİYASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB BORİS NİKOLAYEVİÇ YELTSİNƏ**

Çox hörmətli Boris Nikolayeviç!

Sizi və Rusiya Federasiyasının bütün vətəndaşlarını Milli bayram – Rusiya Federasiyasının Dövlət Müstəqilliyi haqqında Bəyannamənin qəbul olunması günü münasibətilə ürəkdən təbrik edirəm.

Biz qarşılıqlı hörmət, etimad və hüquq bərabərliyi əsasında həyatın bütün sahələrində Azərbaycan-Rusiya əməkdaşlığının genişlənməsinə böyük əhəmiyyət veririk.

Hesab edirəm ki, xalqlarımız arasındakı ənənəvi dostluq münasibətlərinin regionumuzda sülh, sabitlik və tərəqqi naminə daha da inkişaf etməsi üçün çox böyük potensialı vardır.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Rusiyanın bütün vətəndaşlarına əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *8 iyun 1998-ci il*
[9]

## TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ NÖVBƏTİ ZİRVƏ GÖRÜŞÜNDƏ VƏ ASTANA ŞƏHƏRİNİN YENİ PAYTAXT ELAN OLUNMASI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK ETMƏK ÜÇÜN QAZAXISTAN RESPUBLİKASINA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*9 iyun 1998-ci il*

**S u a l: Cənab prezident, Qazaxıstan Respublikasına səfəriniz barədə mətbuat nümayəndələrinə nə demək istərdiniz?**

**C a v a b**: Bu səfər iki hadisə ilə əlaqədardır. Birincisi, Qazaxıstanın paytaxtında türkdilli ölkələrin dövlət başçılarının növbəti görüşü olacaqdır. İkincisi, Qazaxıstanın yeni paytaxtı var, bu paytaxtın açılışı, yəni dünyaya bəyan edilməsi münasibətilə orada görüş keçiriləcəkdir. Mən bu iki hadisə münasibətilə oraya gedirəm.

Qazaxıstan ilə Azərbaycan arasında çox sıx dostluq əlaqələri mövcuddur. Türkdilli ölkələrin dövlət başçılarının ənənəvi görüşlərinin də çox əhəmiyyəti vardır. Mən bütün bunları nəzərə alaraq bu dəvəti qəbul etmişəm və oraya gedirəm. Hesab edirəm ki, orada görüşlərim, danışıqlarım olacaqdır və bunların hamısı bizim üçün faydalıdır.

**M ü x b i r: Cənab prezident, bu gün iyunun 9-dur. Yəni Sizin Naxçıvandan Bakıya qayıtmağınızın beş ili tamam olur.**

**C a v a b**: Mən bunu unutmuşdum, çox sağ ol ki, yadıma saldın. [10-11]

**S u a l: Biz həmin günü Sizə xatırlatmaq istəyirik. Prezident Heydər Əliyev həmin gün nə düşünürdü və indi, bu gün – beş ildən sonra nə düşünür?**

**C a v a b**: Doğrudan da, iyunun 9-da bu hava limanına gəlmişəm. Başım o qədər qarışıqdır, unutmuşam ki, bu gün ayın 9-dur. Siz bilirsiniz ki, o vaxtdan beş il keçibdir. Bu beş il sizin gözünüzün qabağındadır. Mən o günü xatırlayıram. Çünki o, çox gərgin gün idi, Azərbaycanın çox mürəkkəb bir dövrü idi. Mənim üçün də Bakıya qayıtmaq çox çətin bir problem idi. Mən qayıtmaq istəmirdim, siz bunu bilirsiniz. Mənimlə dörd gün danışıqlar getmişdi. Ancaq mən vəziyyəti dərk edəndən sonra Bakıya gəldim. Amma, doğrusu, gələndə heç bilmirdim nə olacaqdır. Çünki burada, Azərbaycanda, Bakıda vəziyyət o qədər ağır, gərgin idi ki, mən sadəcə, xalqın bu çağırışına səs verərək gəldim, özümü xalqın içinə atdım. İndi Allaha şükür olsun ki, bu beş ildə biz çox şeylərə nail olmuşuq. Sağ olun. [11]

# ASTANA HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİNDƏN SONRA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*9 iyun 1998-ci il*

**S u a l**: **Cənab prezident**, **Qazaxıstana səfərinizin məqsədi barədə nə deyə bilərsiniz**?

**C a v a b**: Mən buraya dostumun – prezident Nursultan Nazarbayevin dəvəti ilə türkdilli dövlətlərin zirvə görüşündə, habelə Qazaxıstanın yeni paytaxtının təqdimatına həsr olunmuş şənliklərdə iştirak etməyə gəlmişəm. Bu tədbir çox böyük əhəmiyyəti olan hadisədir.

Türkdilli dövlətlərin başçılarının görüşləri, demək olar, altı ildir keçirilir və yaxşı ənənəyə çevrilmişdir. Lakin Qazaxıstan paytaxtının təqdimat mərasimi böyük tarixi hadisədir. Bununla əlaqədar mən qazax xalqının, Qazaxıstanın, onun prezidenti Nursultan Nazarbayevin sevincinə şərikəm. Təbrik edirəm. Bütün Qazaxıstan vətəndaşlarına, Astana şəhərinin bütün sakinlərinə səadət, firavanlıq və uğurlar arzulayıram.

**S u a l**: **Heydər Əliyeviç**, **necə bilirsiniz**, **yeni Qazaxıstanın inkişafı üçün Astananın nə kimi əhəmiyyəti olacaqdır**?

**C a v a b**: Hesab edirəm ki, bu ideya özlüyündə dahi bir ideyadır və şadam ki, o, həyata keçirilir. Əminəm ki, bunun bütün Qazaxıstanın çoxtərəfli, ahəngdar, geniş miqyaslı inkişafı üçün çox böyük əhəmiyyəti olacaqdır. [12]

## ASTANA ŞƏHƏRİNDƏ TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ

*9 iyun 1998-ci il*

Hörmətli dövlət başçıları!

Xanımlar və cənablar!

Sizi ürəkdən salamlayıram. Sizə və sizin xalqlarınıza xoşbəxtlik və firavanlıq arzulayıram.

Prezident Nursultan Nazarbayevi Qazaxıstan Respublikasının yeni paytaxtının – Astananın əsasının qoyulması münasibətilə təbrik edirəm, qonaqpərvərliyə və görüşümüzün gözəl təşkil olunmasına görə ona təşəkkürümü bildirirəm.

Türkdilli dövlətlərin başçılarının zirvə görüşü yaxşı ənənəyə çevrilmişdir və bu ənənə bizə problemlərimizi birlikdə, qardaşlıq şəraitində müzakirə etməyə, məsələlərin geniş dairəsi barədə fikir mübadiləsi aparmağa, gələcək üçün planlar müəyyənləşdirməyə imkan verir.

Dövlətlərimizin sıx, bərabərhüquqlu və səmərəli əməkdaşlığı zamanın hökmüdür, bizim bütün əvvəlki tariximizdən və müasir siyasi və iqtisadi proseslərin gedişindən irəli gələn obyektiv zərurətdir.

Yeni minilliyin astanasında ölkələrimizi nəinki tarixi köklər, adət və ənənələr, həm də dövlətlərimizin müstəqilliyi və suverenliyinin möhkəmləndirilməsi, regionumuzda sülhün və sabitliyin bərqərar edilməsi, vətəndaşlarımızın həyatının, rifahının yaxşılaşdırılması kimi ümummilli mənafelər birləşdirir. [13-14]

Əminəm ki, dünya sivilizasiyasının inkişafına böyük töhfə vermiş olan xalqlarımız bu vəzifələri uğurlu yerinə yetirəcək və XXI əsrə ulu əcdadlarımızın layiqli varisləri kimi qədəm qoyacaqlar.

Çox zəngin təbii ehtiyatlar, dünya iqtisadi sisteminə uğurlu inteqrasiya, yeni Avrasiya nəqliyyat dəhlizləri layihələrinin həyata keçirilməsi, Transxəzər enerji magistrallarının çəkilməsi, «Böyük İpək yolu»nun dirçəldilməsi ölkələrimiz üçün yaxşı perspektiv yaradır.

Yeni kommunikasiya sistemləri dünya bazarlarını təbii sərvətlərimiz üçün açacaq, xalqlarımızın firavanlığının artmasını təmin edəcək, onların təhlükəsizliyi və tərəqqisi üçün möhkəm zəmin yaradacaqdır.

Məmnunluqla qeyd etmək lazımdır ki, 1996-cı ilin may ayında Türkmənistanın Sərəxs şəhərində Transqafqaz nəqliyyat dəhlizi haqqında imzalanmış saziş uğurla həyata keçirilir. Bunun sayəsində Avropadan Asiyaya daşınan yüklərin miqdarı artaraq 1995-ci ildəki 352 min tondan 1997-ci ilin axırınadək 1 milyon 340 min tona çatmışdır. Gözlənildiyinə görə, 1998-ci ildə Transqafqaz dəhlizi ilə 4 milyon tondan çox yük daşınacaqdır.

Bakı – Ceyhan boru kəmərinin çəkilməsi ilə bağlı böyük və fəal iş görülür. Ümidvaram ki, Transxəzər enerji magistrallarının çəkilməsi məsələləri də yaxın vaxtlarda öz həllini tapacaqdır.

TRASEKA proqramı üzrə «Avropa-Qafqaz-Asiya» nəqliyyat dəhlizinin yaradılmasına dair Avropa Birliyinin layihəsinin həyata keçirilməsinə hazırlıq uğurla gedir. Bu ilin aprelində Bakıda hazırlıq müşavirəsi keçirilmişdir. Müşavirədə Avropa və Asiyanın on iki ölkəsinin ekspertləri, habelə Avropa komissiyasının nümayəndələri iştirak edirdilər.

Müşavirənin iştirakçıları əsas çoxtərəfli sazişin layihəsini və onun texniki əlavələrini müzakirə edib ümumən razılaşdır[14-15]mışlar. Müşavirədə hazırlanmış sənədlər qəti şəkildə razılaşdırılmaq və paraflanmaq üçün iştirakçı ölkələrin hökumətlərinə göndərilmişdir.

Sentyabrın 7-8-də Bakıda «Avropa–Qafqaz–Asiya» nəqliyyat dəhlizi layihəsində iştirak edən ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşünü keçirmək nəzərdə tutulur. Hörmətli dostlar, sizi bu zirvə görüşünə dəvət edirəm və onun nəticələrinin səmərəli olacağına ümid bəsləyirəm.

1992-ci ildə Ankarada keçirilmiş ilk zirvə görüşümüzdən sonra ölkələrimizin və xalqlarımızın həyatında çox hadisələr baş vermişdir. Bütün çətinliklərə baxmayaraq, biz dövlətlərimizin müstəqilliyinin möhkəmləndirilməsində, siyasi və iqtisadi islahatların aparılmasında, xalqlarımızın rifah halının yaxşılaşdırılmasında ciddi uğurlar qazanmışıq.

Bu müddətdə ikitərəfli münasibətlərimiz və regional əməkdaşlıq daha da inkişaf etmişdir. Şəxsi görüşlərimiz və dostluq münasibətlərimiz getdikcə daha da sıx xarakter alır və bunlar qarşıya çıxan problemləri uğurla həll etməyimizə imkan verir.

Dərin məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, ümumi mənəvi irsimizin təbliğinə və inkişafına böyük diqqət yetirilir. Qırğızların «Manas» eposunun minilliyinin, özbək xalqının böyük oğlu Əmir Teymurun 660 illiyinin, Şərqin görkəmli mütəfəkkiri, Azərbaycan şairi Füzulinin 500 illiyinin, böyük qazax şairi Abayın 150 illiyinin bayram edilməsi xalqlarımızın mədəni həyatında mühüm hadisələrə çevrilmişdir.

Ümumi sərvətimiz olan məşhur «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi 1999-cu ildə YUNESKO ilə birlikdə Azərbaycanda geniş qeyd ediləcəkdir.

Hörmətli dövlət başçıları!

Xalqlarımızın səadət və tərəqqisi üçün ən mühüm şətrlərdən biri sülh, təhlükəsizlik və sabitlikdir. Biz silahlı münaqişələrə, separatizm, təcavüzkar millətçilik təzahürlərinə, mövcud dövlət sərhədlərini zor gücünə

dəyişdirmək, müstəqil [15-16] dövlətlərin ərazi bütövlüyünü pozmaq cəhdlərinə yol verməmək üçün səylərimizi əsirgəməməliyik.

Azərbaycana qarşı Ermənistan Respublikasının təcavüzünün nəticələri sizin hamınıza yaxşı məlumdur. Ermənistan silahlı birləşmələri ərazilərimizin 20 faizini işğal ediblər, bir milyondan çox vətəndaşımız öz doğma yerindən-yurdundan didərgin salınıbdır, onlar qaçqına çevrilibdir və son dərəcə ağır şəraitdə yaşayırlar.

Azərbaycan xalqına çox böyük maddi və mənəvi ziyan vurulmasına baxmayaraq, biz münaqişənin sülh yolu ilə aradan qaldırılmasına tərəfdarıq, möhkəm və uzunmüddətli sülhə nail olmaq üçün hər şeyi edirik.

Atəşkəs haqqında 1994-cü ilin may ayında imzalanmış sazişin böyük əhəmiyyəti vardır. Münaqişə tamamilə aradan qaldırılanadək biz atəşkəs rejiminə ciddi şəkildə əməl edəcəyik.

Biz ATƏT-in Minsk qrupu ilə, onun həmsədrləri olan Rusiya, ABŞ və Fransa ilə fəal əməkdaşlıq edirik.

Azərbaycanın ədalətli, konstruktiv mövqeyi ATƏT-in 1996-cı ildə keçirilmiş Lissabon zirvə görüşündə dəstəklənmişdir. Bu zirvə görüşü Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması yolunda mühüm hadisə olmuşdur. Lissabon zirvə görüşü sülh sazişinin əsasını təşkil etməli olan başlıca prinsipləri təsdiqləmiş, hərtərəfli nizamasalma üçün lazımi hüquqi baza yaratmışdır.

Bu prinsiplər Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünü, Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa yüksək özünüidarə statusu verilməsini və Dağlıq Qarabağın bütün əhalisinə təhlükəsizlik üçün təminatı təsdiq edir.

Lissabon zirvə görüşündən sonra Minsk qrupunun həmsədrləri Ermənistan –Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün konkret təkliflər işləyib hazırlamışlar. Ümidvarıq ki, Ermənistan tərəfi həmsədrlərin təkliflərinə konstruktiv [16-17] mövqelərdən yanaşacaq, bu isə dayandırılmış danışıqlar prosesinə yenidən başlamağa və çoxdan gözlənilən sülhə nail olmağa imkan verəcəkdir.

Azərbaycanın işğal olunmuş əraziləri azad edilməlidir. Dinc sakinlər doğma yerlərinə-yurdlarına qayıtmalıdırlar. Bu labüddür və sülh nə qədər tez bərpa olunarsa, bunun həm Azərbaycana, həm Ermənistana, həm də bölgəmizin bütün ölkələrinə daha çox xeyri dəyər.

Hörmətli dövlət başçıları!

Keçən altı il bizi bir daha inandırır ki, türkdilli dövlətlərin zirvə görüşü öz zəruriliyini, həyat qabiliyyətini sübuta yetirmişdir və fəal əməkdaşlığımız üçün əlverişli şərait yaradaraq fayda gətirir. Biz türkdilli dövlətlərin forumunun fəaliyyətini dəstəkləyir və xalqlarımızın həyatında onun rolunu və əhəmiyyətini yüksək qiymətləndiririk.

Növbəti görüşümüzü Azərbaycanın paytaxtı Bakıda keçirməyi və onu xalqlarımızın böyük mədəniyyət abidəsi olan «Kitabi-Dədə Qorqud» dastanının 1300 illiyinin bayram edilməsi ilə bir vaxta salmağı təklif edirəm.

Diqqətinizə görə təşəkkür edirəm. [17]

## TÜRKDİLLİ DÖVLƏTLƏRİN V ZİRVƏ GÖRÜŞÜ İŞTİRAKÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI

*Astana*

*9 iyun 1998-ci il*

Türkdilli dövlətlərin V zirvə görüşü yenicə başa çatmışdır. Görüşdə məsələlər müzakirə edildi, dövlətlərimizin gələcək iqtisadi, mədəni əməkdaşlığının inkişafını, dövlətlərimiz arasında qarşılıqlı anlaşmanın və etimadın dərinləşməsini müəyyənləşdirən V zirvə görüşünün bəyannaməsi qəbul olundu. Əvvəllər olmayan və indi bir orqan kimi Xarici İşlər Nazirləri Şurası yanında işləyəcək katiblik haqqında əsasnamə qəbul edildi. Bu, bizim üçün çox mühümdür. Növbəti zirvə görüşünü gələn ilin yayında Bakıda keçirmək nəzərdə tutulmuşdur.

Dövlət başçıları sərhədlərimizin yaxınlığında – Hindistanda və Pakistanda nüvə sınaqları keçirilməsi ilə əlaqədar birgə bəyanat qəbul etdilər. Sənəddə deyilir ki, biz nüvə silahının yayılmasının əleyhinəyik, belə sınaqların əleyhinəyik və qonşularımızı – Hindistanla Pakistanı nüvə silahı sınaqlarının qadağan edilməsi haqqında müqaviləyə və bu silahın yayılması haqqında müqaviləyə dərhal qoşulmağa çağırırıq. Biz bir bölgədəyik, buna görə də bu məsələnin üstündən keçə bilməzdik. Biz istəyirik ki, bölgəmizdə sülh olsun, xalqlarımızın tərəqqisi naminə ticarət, qarşılıqlı etimad, mehriban qonşuluq münasibətləri olsun. [18-19]

Bununla da V zirvə görüşü başa çatdı. İndi biz sizin qarşınızdayıq. Sizin hər bir prezidentə bir sual verməyə imkanınız var. Sağ olun.

Sonra türkdilli dövlətlərin başçıları jurnalistlərin suallarına cavab verdilər.

S u a l: **Mənim sualım cənab Süleyman Dəmirəlinədir. Cənab prezident, təbiidir ki, Türkiyə Qazaxıstanı və onun paytaxtını dəstəkləyərək, böyük məbləğdə sərmayə qoymuşdur. Bunun nə kimi siyasi cəhəti var?**

**S ü l e y m a n  D ə m i r ə l**: Əziz dostum, prezident Nursultan Nazarbayevin qərarı ilə qardaş Qazaxıstanın paytaxtının Astanaya köçürülməsi sayəsində biz bu şəhəri görmək imkanına malikik. Sabah Astana bütün dünyaya məlum olacaqdır. Gələcək üçün ümidlər də bu qərarlarla bağlıdır. Türk xalqı adından qazax qardaşlara arzu edirəm ki, bu hadisə onlara səadət və uğurlar gətirsin. Arzu edirəm ki, Qazaxıstan Respublikası əbədi yaşasın.

S u a l: **Sual Qazaxıstan prezidentinədir. Siz bölgədə islam fanatizmi hərəkatına necə baxırsınız? Ölkənizdə belə bir problem varmı? Əgər varsa, onu necə həll etməli?**

**N u r s u l t a n  N a z a r b a y e v**: Dostum İslam Kərimovdan xahiş edirəm ki, mənim çıxışımı tamamlasın.

Hesab edirəm ki, belə bir problem bütövlükdə dünyada var. Biz bunu bilirik və özümüzü elə göstərməməliyik ki, belə bir problem yoxdur. Buna görə də dövlətlərimiz, - mən Mərkəzi Asiya dövlətlərini nəzərdə tuturam, - öz konstitusiyalarında yazmışlar ki, biz dünyəvi dövlətlərik, hakimiyyət uğrunda mübarizə aparan dini partiyaları qadağan etmişik. Bununla eyni zamanda konstitusiyalarımızda yazılmışdır ki, biz vicdan azadlığına tərəfdarıq, lakin vicdan azadlığı ölkələrimizin konstitusiyaları və qanunları ilə uyğunlaşdırılmalıdır. Biz hamımız öz konstitusiyalarımızda yazmışıq ki, bazar iqtisadiyyatlı demokratik cəmiyyətlər qururuq və onları [19-20] inkişaf etdirməyə çalışırıq. Buna görə də hakimiyyətə və konstitusiyaya qeyri-konstitusiya yolu ilə qarışmaq məqsədi ilə ekstremizmin islamdan və ya xristianlıqdan, hər hansı digər dinlərdən və ya siyasi hərəkatlardan yaranıb-yaranmamasından asılı olmayaraq, biz ona mənfi münasibət göstərəcəyik.

Bununla əlaqədar biz öz sərhədlərimizin yaxınlığında baş verən hadisələrdən narahatıq. Bu gün biz dedik ki, başı müsibətlər çəkən Əfqanıstan xalqı üçün sülhün tezliklə bərqərar olmasını arzulayırıq, arzu edirik ki, Tacikistana da tezliklə sülh gəlsin. Biz bu dövlətlərlə əməkdaşlıq, ticarət etmək istəyirik. Bu isə bizim hamımız üçün faydalı olacaqdır. Buna görə də dövlətlərimiz hər hansı tərəfdən, o cümlədən də dini tərəfdən olan ekstremizmi qətiyyən qəbul etmirlər. O, hətta islam ekstremizmi olsa da biz onu qəbul etməyəcəyik, hərçənd biz hamımız islam mədəniyyətinə mənsubuq.

İslam Abduqaniyeviç, xahiş edirəm bir şey əlavə edəsiniz.

**İ s l a m  K ə r i m o v**: Nursultan Abişeviçin dediklərinə qısaca olaraq bir şey əlavə etmək lazımdırsa, onda demək istərdim ki, bəli, həqiqətən, Mərkəzi Asiya bölgəsində müstəqil dövlətlər meydana gəldikdən sonra onların birmənalı şəkildə başlıca məqsədi açıq, demokratik, hüquqi dövlətlər yarat-maqdan ibarətdir; elə dövlətlər ki, onların qarşılarına qoyduqları başlıca dəyərlər insan hüquqları, dini etiqad azadlığı, vicdan azadlığıdır. Biz bunu əsas tutaraq yol verə bilmərik ki, Mərkəzi Asiya dövlətlərinin hüdudlarından kənarda olan bəzi şəxslər burada ideoloji boşluq əmələ gəldiyi barədə, demokratik dövlətlər deyil, islam dövlətləri və ya tamam başqa məqsədlər güdən dövlətlər yarandığı barədə təsəvvür, mif yaratsınlar, oyatsınlar. Bu mifi yaratmaq, məqsədinin həyata keçirilməsinin istiqamətlərindən biri belə bir haldan istifadə

etməkdir ki, bu dövlətlərdə, məsələn, Özbəkistanda əhalinin təxminən 70-80 faizi islama etiqad edir. [20-21]

İslam atalarımızın dinidir, bizim müqəddəs dinimizdir. Biz öz atalarımızın dinini əsla rədd etmirik. Əksinə, biz hesab edirik ki, əcdadlarımızdan bizə necə miras qalmışdırsa, elə həmin şəkildə də bu din mənəvi paklığa və mənən zənginləşməyə kömək edir.

Belə bir fikri bir daha nəzərə çarpdırmaq istəyirəm. İslamın ən mühafizəkar, mürtəce cərəyanlarından biri kimi vahabiliyə qarşı Özbəkistanda mübarizə aparılması qətiyyən o demək deyil ki, Özbəkistanda atalarımızın dini kimi islama qarşı mübarizə aparılır. Bu boşboğazlıqla adamları qəsdən çaşdırmağa can atanlar məşğul olurlar.

İslamın mürtəce, ekstremist cərəyanının təzahürlərindən biri olan vahabilik bizim üçün məhz ona görə təhlükəlidir ki, bu dinə etiqad edən gənclərimizə ideoloji təsir göstərilə bilər, gənclərimizin tərbiyəsinə lazımi diqqət yetirmədiyimiz üçün onlar kor-koranə surətdə vahabilik ideologiyası təsirinə düşə bilərlər.

Vahabilik nədir? Vahabilik bizə islam dininin köklərinə, yəni VII-VIII əsrlərə qayıtmağı təklif edən cərəyandır və tariximizin yeni, mütərəqqi, təkamül yolu ilə inkişafına aid nə varsa, onların hamısının qatı əleyhdarı olan cərəyandır. Buna görə də o, bolşeviklərin cərəyanı kimi bir cərəyandır. Təxminən belə bir ideologiyanın təbliğ edildiyi yadınızdadırmı: bizimlə olmayanlar bizim əleyhimizədirlər. Dinimizdəki vahabilik cərəyanı məhz bununla təhlükəlidir ki, o, vicdan azadlığını, dini etiqad azadlığını inkar edir. O, məhz buna görə çox təhlükəlidir. Məsələn, bu gün Özbəkistanda 12 dini konfessiya var, bizdə yəhudilər də var. Özbəkistanda 16 sinaqoq fəaliyyət göstərir. Bizdə katoliklər də, pravoslavlar da, bizim əsas dinimiz olan ənənəvi islam dini də dinc yanaşı yaşayırlar. Vahabilər isə təklif edirlər ki, hər şey rədd olunsun və ancaq onların dininə etiqad bəslənilsin. Lakin biz onlarla heç cür razılaşa bilmərik. Bu, çox təhlükəli bir cərəyandır. Biz bunu [21-22] başa düşərək, dövlətlərimizin ərazisində, xüsusən də Özbəkistanda bu cərəyanın yayılmasına heç vəchlə yol verə bilmərik. Mən bax bunları əlavə etmək istərdim.

**S u a l**: **Sual prezident Heydər Əliyevədir. Cənab prezident, Siz belə bir iddianı şərh edə bilərsinizmi ki, Bakı-Ceyhan layihəsinin həyata keçirilməsinə mane olmaq məqsədilə Rusiya Federasiyası Sizə təsir göstərir? Daha bir sual. İmzalanması sentyabr ayı üçün nəzərdə tutulan əsas boru kəmərinə dair sənəd nə dərəcədə hazırdır?**

**H e y d ə r Ə l i y e v**: Bilmirəm hansı dildə cavab verim. Rus dilində cavab verəcəyəm ki, hamıya aydın olsun.

Bakı-Ceyhan neft kəməri Xəzər dənizinin Azərbaycan sektorundan neftin ixracı üzrə əsas boru kəmərinin marşrutlarından biridir. 1994-cü ilin sentyabrında Azərbaycan Dövlət Neft Şirkəti Xəzər dənizinin Azərbaycan sektorundakı üç neft yatağının işlənilməsi haqqında 11 dünya neft şirkətindən ibarət konsorsiumla iri bir müqavilə imzaladı. Bu müqavilədə neftin ixracı üçün əsas neft kəməri çəkilməsi nəzərdə tutulur. Neftin Xəzər hövzəsindən dünya bazarlarına ixracı marşrutlarının bu müddətdə çox variantları tədqiq edilmişdir. Bilirsiniz ki, artıq bir neft kəməri – Bakı-Novorossiysk kəməri mövcuddur və 1994-cü ilin sentyabrında imzalanmış müqaviləyə uyğun olaraq konsorsium tərəfindən çıxarılan neft bu boru kəməri ilə ixrac edilir. Bakı-Supsa marşrutu ilə ikinci neft kəməri çəkilir. Supsa Gürcüstanda Qara dəniz limanıdır. Bu iki boru kəməri ilkin neftin ixracı üçün nəzərdə tutulmuşdur. Lakin böyük neft üçün, təkrar edirəm, 1994-cü ilin layihəsində əsas neft kəməri çəkilməsi nəzərdə tutulmuşdur. Bütün bu vaxt ərzində axtarışlar aparılmış, əsas neft kəmərinin müxtəlif marşrutları öyrənilmişdir.

Həqiqətən, çox marşrutlar var. Müxtəlif ölkələr gah bir, gah da digər marşruta üstünlük verirlər. Lakin Azərbaycan bəyan etmişdir və bu gün mən bir daha bəyan edirəm ki, biz [22-23] Bakı-Ceyhan xəttini neft borusu üçün ən məqbul marşrut sayırıq. İndi çox böyük hazırlıq işləri aparılır. Zənnimcə, sentyabrda konsorsium qəti qərar qəbul edəcəkdir və biz bu neft kəmərinin inşasına başlamalıyıq.

Lakin məsələ bundadır ki, son illərin iş təcrübəsinin gös-tərdiyi kimi, Xəzər hövzəsi neft və qaz ehtiyatları ilə çox zəngindir. 1994-cü ildə imzaladığımız birinci müqavilədən başqa, Xəzərin Azərbaycan sektorundakı yataqlara dair daha 10 müqavilə imzalamışıq. Bilirsiniz ki, Xəzər dənizində hər bir Xəzəryanı dövlətin öz sektoru var. Xəzər dənizinin başqa sektorlarında da çox zəngin yataqlar var. Buna görə də söhbət nəinki Azərbaycan sektorunda, həm də digər sektorlarda artıq çıxarılmaqda olan və çıxarılacaq neftin ixracından gedir. Buna görə də indi söhbətlər gedir və bu gün mən öz çıxışımda da dedim ki, görünür, Xəzəraşırı neft və qaz magistrallarının inşası ilə ciddi məşğul olmaq lazımdır. Bu magistrallar da Qafqazla, Türkiyə, Qara dəniz vasitəsilə Avropa ölkələrinə gedə bilər.

Biz Bakı-Ceyhan boru kəməri barədə qəti fikirdəyik və onu həyata keçirəcəyik.

**S u a l** : **Sual prezident İslam Kərimovadır. Siz Daşkənddən yola düşərkən bildirdiniz ki, türkdilli dövlətlərin başçılarının V görüşündən əsas məqsəd ən əvvəl iqtisadi vəziyyətlə, əhalinin həyat səviyyəsi ilə iqtisadi, humanitar məsələlərin, xalqlarımızın tarixinin, dilinin, mənəvi yaxınlığının oxşarlığını nəzərə alaraq, mədəniyyətin inkişaf etdirilməsi məsələlərinin həlli ilə bağlı problemdir. Siz bildirdiniz ki, bu zirvə görüşünə siyasi və ya hərbi-siyasi xarakter verilməsinin əleyhinəsiniz. Siz bugünkü müzakirədən və bugünkü zirvə görüşündə qəbul edilmiş qərarlardan razısınızmı?**

**İ s l a m K ə r i m o v**: Çox qısa cavab vermək istərdim. Bəli, mən türkdilli dövlətlərin başçılarının V görüşünün qərarından da, qəbul edilmiş bəyannamədən, hər bir dövlətin qarşısında [23-24] duran, eyni za-

manda hamımız üçün ümumi olan çox mühüm problemləri müəyyənləşdirən qərardan da razıyam. Zirvə görüşü, həllinə bütün ehtiyatlarımızı və imkanlarımızı yönəltməli olduğumuz məsələləri, problemləri göstərmişdir. Bu istiqamət hər şeydən əvvəl hərbi-siyasi məsələlərlə yox, həyati əhəmiyyətə malik olan iqtisadi əməkdaşlıqla – bu regionun ölkələrini, xalqlarını müxtəlif təhlükələrdən, xüsusilə bu gün açıq şəkildə özünü büruzə verən təhlükələrdən qorumaqla bağlı əməkdaşlıqla müəyyən edilir. Bəzi təhlükələr haqqında mən artıq qismən dedim, bu barədə başqa rəhbərlər də danışdılar. Bu əməkdaşlıq dini və digər ekstremizmin, terrorizmin ərazilərimizə yol tapmasına imkan verməməklə, narkotik vasitələrin yayılmasına qarşı mübarizə ilə bağlıdır. Hörmətli Heydər Əliyevin bir az əvvəl dediyi kimi, bizim əməkdaşlığımız həm də neftin nəqli ilə bağlıdır. Bəs neftin nəqli nə deməkdir? Bu, torpaqlarımızın, ərazilərimizin təkindəki zəngin ehtiyatları, hələ istifadə olunmamış böyük imkanları mümkün qədər tam reallaşdıraraq, bu ərazilərdə yaşayan xalqların həyatını daha da firavanlaşdırmaqla bağlıdır. Ona görə də bəyannamədə razılaşdırılan və öz əksini tapan məsələlərin siyahısının hətta təqribən təhlili də göstərir ki, biz bu məsələlərdən yayınmamışıq və onlar burada iştirak edən dövlətlərin hər biri üçün məqbuldur.

Nursultan Abişeviç də bu gün çox mühüm bir məsələni – Hindistanda və Pakistanda atom partlayışlarının keçirilməsi ilə bağlı yaranmış təhlükəyə bizim münasibətimizi vurğuladı, bu təhlükənin həmin ölkələrə bilavasitə yaxın olan ərazilər üçün böyük qorxu törətdiyini qeyd etdi. Biz, yəqin ki, bu təhlükəyə biganə qala bilmərik. Ona görə də, zənnimcə, Nazarbayevin təklif etdiyi bəyanatın layihəsi sərhədlərimizin bilavasitə yaxınlığında baş verən hadisələrə bizim ümumi münasibətimizi bildirir.

Ən başlıcası isə, təkrar edirəm, odur ki, biz bir daha yəqin etdik ki, bizim olduqca çox iqtisadi, mənəvi, humanitar xa[24-25]rakterli problemlərimiz, ərazilərimizdə sabitlik, onun qorunub saxlanılması məsələləri var. Bu məsələlər hər bir dövlət üçün eyni dərəcədə maraq doğurur. Mən çox şadam ki, hazırkı görüş bu problemlərin həll edilməsinə yönəldilmişdir.

Daha bir məsələ. Bizim zirvə görüşünün iclasını Qazaxıstanın yeni paytaxtı Astananın təqdimatı ilə bağlamaya bilmərəm. Hesab edirəm ki, bu iki hadisənin qovuşmasının və ya bir-birinin məntiqi davamı olmasının böyük mənası var. Yəqin ki, Bakıdakı növbəti görüş də Azərbaycan xalqının həyatındakı böyük hadisələrə təsadüf edəcəkdir. Təkrar edirəm, tariximizin böyük hadisələrini bir yerdə bayram etməyimizin mühüm mənası var. Astananın yeni paytaxt olması isə təkcə qazax xalqının deyil, həm də bir-birinə çox yaxın olan bütün türkdilli dövlətlərin tarixində yeni bir mərhələdir. Sizin sualınızın cavabında, bax, bunları demək istəyirdim.

**S u a l: Sual Mərkəzi Asiya İttifaqında sədrlik edən şəxs kimi prezident Əsgər Akayevədir. Hörmətli Əsgər Akayeviç, xahiş edirəm deyəsiniz, türkdilli dövlətlərin zirvə görüşünün qərarı Mərkəzi Asiya İttifaqının fəaliyyətinə hər hansı şəkildə təsir göstərirmi? Bizim İssık-Kul gölündə baş vermiş bədbəxt hadisə barədə ikinci sualımla, deyəsən, bir çox həmkarlarımın suallarını qabaqlamış olacağam. Prezident kimi siz bütün türkdilli xalqların bu sevimli istirahət zonasının indiki və gələcək taleyi barədə öz fikrinizi söyləyə bilərsinizmi?**

**Ə s k ə r A k a y e v**: Birinci suala cavab verərək deyim ki, türkdilli dövlətlərin başçılarının zirvə görüşü Mərkəzi Asiya İqtisadi İttifaqına müsbət təsir göstərəcəkdir, çünki bu, açıq ittifaqdır. Buna belə bir fakt sübutdur ki, bu il Mərkəzi Asiya İqtisadi İttifaqı öz tərkibini Tacikistanın hesabına genişləndirmişdir. Rusiya Federasiyası bu ittifaqda müşahidəçidir, ona digər ölkələr də maraq göstərirlər. Hesab edirəm ki, türkdilli ölkələrlə, Türkiyə Respublikası, Azərbaycan, Türkmənistan ilə nəqliyyat kommunikasiyaları, ticarət-iqtisadi əmək[25-26]daşlığı genişləndirmək imkanları gələcəkdə iqtisadiyyatlarımızın daha sürətlə inteqrasiyasının və daha sabit iqtisadi artımın təmin edilməsinin, əlbəttə, mühüm amilinə çevrilə bilər.

İkinci sual ilə əlaqədar deyim ki, İssık-Kul gölündə baş vermiş qəza, əlbəttə, bütün xalqımız üçün dərddir. Siz yəqin bilirsiniz ki, «Kurtor» qızıl mədəni kombinatına natrium-sianid aparan yük maşını qəzaya uğramışdır. Bu qəzanın iki xüsusiyyəti var. Əvvəla, bunun qəzanın baş verdiyi yerin sakinləri üçün, ikincisi isə, Qırğızıstanın, Mərkəzi Asiyanın incisi və nəinki bölgəmizin, həm də uzaq xarici ölkələrin bütün sakinlərinin sevimli istirahət yeri olan İssık-Kul gölü üçün ağır nəticəsi olacaqdır.

Ən əvvəl deməliyəm ki, bədbəxtlikdən, bu qəza gölün təxminən 20 kilometrliyində baş vermişdir və natrium sianidin düşdüyü bütün sudan həmin vaxt tarlaları suvarmaq üçün istifadə etmişlər. Kaş bu su gölə töküləydi. Bunun səbəbini aydınlaşdırım. Natrium-sianidin düşdüyü bütün su 20 minədək insan yaşayan 2-3 yaşayış məntəqəsinin taplalarına axmışdır. Əlbəttə, ən böyük ziyan bu adamların səhhətinə vurulmuşdur. Biz elə həmin gün Ümumdünya Səhiyyə Təşkilatının mütəxəssislərini dəvət etdik. Sonra Rusiya Federasiyasının və Kanadanın mütəxəssisləri də onlara qoşuldular.

Natrium-sianidlə bu və ya digər dərəcədə zəhərlənmiş olan əhalinin tamamilə sağaldılması üçün indi belə bir beynəlxalq komissiya işləyir. Bədbəxtlikdən, bir ölüm hadisəsi olmuşdur. Cavan bir qadın zəhərlənərək ölmüşdür. Ümumdünya Səhiyyə Təşkilatının, Müstəqil Beynəlxalq Komissiyanın köməyi ilə biz bu qəza nəticəsində zəhərlənmiş olan əhalinin tamamilə reabilitasiyası üçün bütün tədbirləri görürük. Deyərdim ki, bu, həmin qəzanın Qırğızıstan üçün ən dəhşətli nəticəsidir. Bu gün biz natrium-sianidlə zəhərlənmiş bütün torpaqları dezaktivizasiya edir və yenidən yararlı hala salmağa çalışırıq. [26-27]

Göl məsələsinə gəldikdə, bəli, biz bu məntəqələrin əhalisinə vurulmuş mənəvi və maddi dəyərin tam ödənilməsini tələb etdik. Həmin zərər «Kurtor» yatağını işlədən Kanada firmasının hesabına tamamilə ödənildi. Siz bilirsiniz ki, natrium-sianid suda tezliklə zərərsiz komponentlərə ayrılır və yaxşı olardı ki, dağ

çayı ilə gölə axaydı. Çayın mənsəbində bir qədər balıq tələf olardı. Əvəzində isə natrium-sianid zərərsiz komponentlərə ayrılardı. Dediyim kimi, çox təəssüf ki, bu su suvarılan sahələrə axdı. O ki qaldı gölə, beynəlxalq təşkilatların, Ümumdünya Səhiyyə Təşkilatı mütəxəssislərinin mötəbər rəyinə görə, hazırda göl natrium-sianidlə qətiyyən zəhərlənməyibdir. Respublika prezidenti kimi, mən bütün məsuliyyətimlə bəyan edirəm ki, İssık-Kul gölü yaşayır, sağlamdır və hamının sağlamlığını yaxşılaşdırmaq üçün istirahətə gəlməsini səbirsizliklə gözləyir. Çox sağ olun.

**Nursultan Nazarbayev**: Hörmətli prezident həmkarlarım, hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri, həmkarlarıma – dövlət başçılarına dəvəti qəbul etdiklərinə və bu zirvə görüşünü bizim yeni paytaxtımızın beynəlxalq təqdimatı ilə birləşdirmək təklifini qəbul etdiklərinə görə böyük minnətdarlığımı bildirmək istəyirəm. Yalnız xeyir və şərdə bir olan dostlar belə hərəkət edirlər.

Dünyanın hörmət etdiyi, nüfuzlu dövlət başçılarının sabah keçiriləcək təqdimatımızda iştirakı ona böyük məna verir. Biz, qazaxıstanlılar öz tərəfimizdən bildiririk ki, biz də qardaşlarımızın şənliklərində, burada olduğu kimi, onlarla bir yerdə olacağıq.

Astana Qazaxıstanın gələcəyi, dövlətimizin yeni qüdrətidir. Biz buradan bütün dünyaya demək istəyirik ki, biz heç kəsə iddiası olmayan, bütün yaxın və uzaq qonşuları ilə dostluq və mehribanlıq şəraitində yaşamaq istəyən sülhsevər xalqıq. Biz iqtisadiyyatımızı inkişaf etdirməklə adamlarımızın rifahını yaxşılaşdırmaq üçün gələcəyə baxırıq. Qonşularımızla, türkdilli qar[27-28]daşlarımızla əməkdaşlıq dövlətlərimizin hamısının iqtisadiyyatının inkişafına yardım göstərəcəkdir. Mən onlara çox minnətdaram.

İcazə verin öz adımdan, sizin adınızdan bu masa arxasında əyləşən prezidentlərə möhkəm cansağlığı, çox zəhmətli işlərində böyük uğurlar, onların xalqlarına tərəqqi, dilək və istəklərinin həyata keçməsini arzulayım. [28]

## TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Astana*

*9 iyun 1998-ci il*

**H e y d ə r Ə l i y e v**: Qardaş Türkiyə dövlətinin başçısı, əziz dostum Süleyman Dəmirəl!

Sizi Qazaxıstanın yeni paytaxtı Astana şəhərində zirvə görüşündə dostcasına və mehribanlıqla salamlayıram. Bu yeni görüşməyimizdən şərəf duyduğumu bildirirəm və bizim bu görüşümüz də dostluğumuz, əməkdaşlığımız üçün bir daha əhəmiyyətli olacağına əminəm.

Türkdilli dövlətlərin, xalqların rifahının yüksəlməsinə yönəldilmiş, böyük əhəmiyyətə malik bu görüşün ölkələrimiz arasında əlaqələrin və əməkdaşlığın inkişaf etməsinə yeni təkan verəcəkdir.

**S ü l e y m a n D ə m i r ə l**: Mən də, əziz dostum, qardaşım Heydər bəy, sizi səmimi-qəlbdən salamlayıram. Türkdilli ölkələrin dövlət başçılarının Astana zirvə toplantısında görüşlərimiz və orada qəbul olunmuş sənədlər dövlətlərimiz arasında əməkdaşlığın dərinləşməsinə geniş şərait yaradır və mühüm imkanlar açır. Hesab edirəm ki, çoxtərəfli iqtisadi əməkdaşlığımızda əldə olunmuş xeyli irəliləyiş sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinə kömək edəcəkdir.

**H e y d ə r Ə l i y e v**: Türkiyə ilə Azərbaycan arasındakı tarixi dostluq, qardaşlıq əlaqələri daim inkişaf edir. Bu əlaqələrin bütün xətlər, istiqamətlər üzrə gündən-günə inkişaf et[29-30]məsini yüksək qiymətləndirirəm. Bu, bizi çox sevindirir və Azərbaycan tərəfindən məmnuniyyətlə, böyük sevinclə qarşılanır. Bizim müstəqilliyimiz əldə olunan kimi, Türkiyə Cümhuriyyəti dünya dövlətləri içərisində birinci olaraq dərhal Azərbaycan Respublikasının müstəqilliyini tanıdı. Bu dövrdə sizin daim qayğınız, diqqətiniz, Azərbaycanın müstəqilliyi üçün fəaliyyətiniz unudulmazdır, bizim üçün xüsusilə əhəmiyyətlidir. Ancaq Türkiyə-Azərbaycan dostluğuna qısqananlar, mane olmaq istəyənlər də var. Xoşbəxtlikdən bunların heç biri mane ola bilmir və bilməyəcəkdir. Bizim dostluğumuz, qardaşlığımız əbədidir, nə vaxtsa heç kəs bu dostluğu poza bilməz.

**S ü l e y m a n D ə m i r ə l**: Bu gün siz müstəqil Azərbaycan respublikasının müdrik rəhbəri, bütün dünyada böyük nüfuza və hörmətə malik olduğunuzu bir daha sübut etdiniz. Azərbaycan Respublikasında son illər əldə olunmuş uğurları, apardığınız sülh siyasətini böyük iftixar hissi ilə vurğulamaq istəyirəm. Siz həqiqətən çox böyük işlər görmüsünüz. Azərbaycanın müstəqilliyinin və təhlükəsizliyinin möhkəmləndirilməsində sizin xidmətləriniz çox böyükdür. Bütün bunlar təkcə Türkiyədə deyil, bütün dünyada izlənilir. İndi Azərbaycan dünya birliyində nüfuzlu yer tutur və biz onun müstəqilliyinin əbədi olmasını istəyirik.

Azərbaycan ilə Türkiyə arasında əməkdaşlığı ardıcıl surətdə inkişaf etdirməliyik, ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsi üçün bütün imkanlardan istifadə olunmasını vacib hesab edirəm. Heç bir qüvvə iki qardaş ölkənin dostluğuna, qardaşlığına və əməkdaşlığına zərər vura bilməz.

**H e y d ə r Ə l i y e v**: Məlum olduğu kimi, Ermənistanın Azərbaycana ərazi iddiaları və təcavüzü nəticəsində yaranmış 10 ildən çox davam edən Ermənistan-Azərbaycan münaqişəsi həll edilməmiş qalıb, bu günə kimi davam edir. Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına səy göstə[30-31]rir. Biz bu münaqişənin ATƏT-in Lissabon zirvə görüşündə qəbul olunmuş prinsiplər və həmsədrlərin irəli sürdükləri təkliflər əsasında tezliklə aradan qaldırılmasına çalışırıq.

**S ü l e y m a n D ə m i r ə l**: Bu münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılması üçün Minsk qrupu çərçivəsində aparılan danışıqlar Türkiyədə də diqqətlə izlənilir.

Türkiyə qardaş Azərbaycanın ədalətli işini həmişə müdafiə etmiş və bu problemin Lissabon zirvə görüşündə müəyyənləşdirilmiş prinsiplər əsasında həll olunması sahəsində öz səylərini bundan sonra da davam etdirəcəkdir.

Türkiyə bir daha Ermənistan silahlı birləşmələrinin işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılmasının və yurd-yuvalarından didərgin düşmüş insanların öz yerlərinə qaytarılmasının, ölkələrimiz arasında mədəni və iqtisadi ədaqələrin daha da genişləndirilməsinin labüdlüyünü vurğulayır.

**H e y d ə r Ə l i y e v**: Hörmətli Süleyman bəy, artıq sizə məlumdur ki, Xəzər bölgəsi olduqca böyük neft və qaz ehtiyatlarına malikdir. 1994-cü il sentyabrın 20-də biz xarici ölkələrin neft şirkətləri konsorsiumu ilə «Əsrin müqaviləsi»ni imzaladıq. Həmin kontraktın bağlanması Azərbaycanın suveren hüquqlarının bərqərar edildiyinin, tam müstəqil dövlət kimi öz sərvətlərinin sahibi olduğunun, iqtisadiyyatımızın dünya iqtisadiyyatına qoşulması üçün zəmin yaradıldığının, Azərbaycanın bazar iqtisadiyyatı yolu ilə getmək əzmində olduğunun, ictimai-siyasi həyatımızda hökm sürən sabitliyin ifadəsi idi. «Əsrin müqaviləsi»nin, onun ardınca digər neft kontraktlarının bağlanması Azərbaycanın iqtisadi yüksəlişinin başlanması üçün çox zəngin potensial yaratdı.

Bilirsiniz ki, Xəzər dənizinin Azərbaycan sektorundan neftin ixracı üzrə müxtəlif marşrutlar irəli sürülmüşdür. Bu barədə dəfələrlə danışıqlar, müzakirələr aparılmış, marşrutlar nəzərdən keçirilmişdir.

Müzakirələr zamanı mən hər dəfə eyni fikri demişəm ki, Azərbaycanda hasil edilən neftin dünya ba[31-32]zarına çatdırılması üçün Bakı-Ceyhan neft kəmərini yaratmaq lazımdır. Bu əsas məsələlərdən biridir. Bu gün də mən bir daha bəyan etdim ki, Xəzər dənizi hövzəsindən enerji ehtiyatlarının Bakı-Ceyhan marşrutu üzrə  dünya bazarına çıxarılmasını məqbul sayırıq və onu həyata keçirəcəyik. Bu barədə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı üzrə 1998-ci il sentyapbrın 7-8-də Bakda keçiriləcək beynəlxalq konfransda qəti qərar qəbul ediləcəkdir. Bu, bir daha Türkiyə-Azərbaycan əlaqələrinin inkişaf etdiyini, genişləndiyini bildirir. [32]

## ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İSLAM KƏRİMOV İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Astana*

*9 iyun 1998-ci il*

**İ s l a m  K ə r i m o v**: Hörmətli cənab prezident Heydər Əliyev, Sizi səmimiyyətlə salamlayıram və Sizinlə yenidən görüşməkdən məmnun qaldığımı bildirirəm. Siz zəmanəmizin görkəmli dövlət xadimisiniz. Azərbaycanın müstəqilliyinin və təhlükəsizliyinin möhkəmləndirilməsində, son illər Gənc Azərbaycan Respublikasının Dünya Birliyində layiqli yer tutmasında Sizin misilsiz xidmətləriniz var. Sizin rəhbərliyiniz altında Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu, iqtisadi islahatlar müvəffəqiyyətlə həyata keçirilmiş, bu sahədə əldə olunmuş böyük uğurları xüsusi vurğulamaq istəyirəm. Bu gün Azərbaycanı sizsiz, sizi Azərbaycansız təsəvvür etmək mümkün deyildir. Əmin olduğumu bildirirəm ki, müstəqil Azərbaycan tezliklə dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevriləcəkdir.

Bölgədə olan ağır bir problemin – Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasını əsas kimi qəbul etməyinizin bölgədə əmin-amanlığın bərpa olunmasında xüsusi əhəmiyyəti vardır. Özbəkistan Azərbaycanın haqq işini dəstəkləyir və bu münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində Lissabon prinsipləri əsasında həllinə tərəfdardır.

**H e y d ə r  Ə l i y e v**: Səmimi sözlərə görə, cənab prezident, sizə təşəkkürümü bildirirəm. Azərbaycan və özbək xalq[33-34]ları arasında gözəl ənənələrə malik tarixi dostluq münasibətlərinin gündən-günə möhkəmləndirilməsindən, ölkələrimizin bütün sahələrdə əməkdaşlığının sürətlə inkişaf etməsindən razı qaldığımı vurğulayıram.

Demokratiya, bazar iqtisadiyyatı yolunu seçmiş Azərbaycan və Özbəkistan respublikalarının müstəqilliyi və suverenliyi əbədi və sarsılmazdır. Dost ölkələrimizin əlaqələrinin daha da sıxlaşdırılması sahəsində görülən işlərin böyük əhəmiyyəti vardır.

Bildiyiniz kimi, bizim bölgəmizdə son illər mövcud olan müsbət dəyişikliklərlə yanaşı, ağır problem – Ermənistan–Azərbaycan münaqişəsi də vardır. Biz bu münaqişənin sülh yolu ilə həll olunmasını əsas kimi qəbul etmişik və bu sahədə təşəbbüslər irəli sürmüşük. Məsələnin sülh yolu ilə həll olunmasında ATƏT-in Minsk qrupunun həmsədrləri bu məsələnin həll olunmasına çox böyük maraq göstərirlər. Münaqişənin sülh yolu ilə aradan götürülməsi, bölgəmizdə sülhün yaranması Azərbaycan xalqı üçün çox vacib bir problemdir.

Əmin olduğumu bildirirəm ki, Astana zirvə görüşündə müzakirə olunmuş məsələlər türkdilli ölkələrin qarşılıqlı surətdə faydalı əməkdaşlığının möhkəmləndirilməsində böyük əhəmiyyət daşıyacaqdır.

Bizim ölkələrimiz arasında yaranmış iqtisadi əməkdaşlıq Özbəkistan – Azərbaycan əlaqələrinin bu günü və gələcəyi üçün xüsusi əhəmiyyət kəsb edir. Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndirilməsində Avropa – Qafqaz – Asiya nəqliyyat dəhlizinin daha da inkişaf etdirilməsi əhəmiyyətli rol oynayacaqdır. Sağ olun. Səmimi söhbət üçün təşəkkür edirəm. [34]

## QAZAXISTANIN YENİ PAYTAXTI ASTANA ŞƏHƏRİNİN BEYNƏLXALQ TƏQDİMAT MƏRASİMİNDƏ – RƏSMİ AÇILIŞINDA NİTQ

*10 iyun 1998-ci il*

Hörmətli prezident Nursultan Nazarbayev, möhtərəm dövlət, hökumət başçıları!

Xanımlar və cənablar!

Sizi böyük və fərəhli bayram – Qazaxıstanın yeni paytaxtı Astananın əsasının qoyulması münasibətilə ürəkdən təbrik edirəm və Astana şəhərinə xoşbəxt gələcək arzulayıram.

Sizə, bütün qazax xalqına, bütün Qazaxıstan vətəndaşlarına Azərbaycan xalqının səmimi qardaş salamını yetirirəm.

Qazax xalqının zəngin, qədim tarixi var. Bu tarix ərzində qazax xalqının çox qələbələri, nailiyyətləri, habelə müsibətləri və məğlubiyyətləri olmuşdur. Lakin qazax xalqının ən xoşbəxt dövrü onun öz dövlət müstəqilliyini əldə etdiyi, Milli azadlıq qazandığı və öz problemlərini özünün həll etmək, öz müqəddəratını özünün müəyyənləşdirmək imkanı tapdığı dövrdür.

Elə bugünkü tarixi hadisə – Qazaxıstanın yeni paytaxtı Astana şəhərinin əsasının qoyulması hadisəsi də qazax xalqının, Qazaxıstanın dövlət müstəqilliyinin və Milli azadlığının nəticəsidir.

Açığını deyək, Qazaxıstan həm öz ərazisinə görə, həm də təbii sərvətlərinə, coğrafi, coğrafi-siyasi mövqeyinə, əhalisinin sayına görə böyük ölkədir. O, öz məsələlərini əvvəllər də özü həll edə bilərdi, lakin bu imkandan məhrum idi. İndi biz [35-36] görürük ki, qısa müddətdə, müstəqillik illərində Qazaxıstan necə də dəyişir və necə böyük işlər görülür. Şübhə yoxdur ki, bu işlər gələcəkdə öz gözəl nəticələrini verəcəkdir. Bu dövrün ən görkəmli nəticələrindən biri də Qazaxıstanın yeni paytaxtı Astana şəhərinin əsasının qoyulmasıdır.

Mən xoşbəxtəm və şadam ki, bu şənliklərdə iştirak edirəm və tarixi hadisənin şahidiyəm. Bu, həqiqətən tarixi hadisədir, çünki dövlətin paytaxtının bir yerdən başqa yerə köçürülməsi faktları dünya tarixində o qədər də çox deyildir. Ancaq mən əminəm ki, bu gün müstəqil Qazaxıstanın paytaxtına çevrilən Astana şəhəri Qazaxıstanın həmişəlik paytaxtı olacaq və paytaxt bir daha heç yerə köçürülməyəcəkdir.

Bu gün həmin tarixi hadisədən danışarkən qazax xalqının lideri, Qazaxıstanın prezidenti Nursultan Nazarbayevin rolunu və xidmətlərini xüsusi qeyd etmək lazımdır. Açığını deyək, siz dövlət adamlarısınız, nəyin necə edildiyini bilirsiniz. Bu, çətin bir iş, çətin bir vəzifə idi. Əlbəttə, bu, özlüyündə böyük ideyadır. Lakin bununla yanaşı, bu ideyanın reallaşması çoxlu qüvvə, enerji və ən başlıcası isə iradə tələb edirdi. Bu işdə parlamentin, hökumətin iradəsi, xalqın iradəsi də olub, lakin, başlıcası, prezident Nursultan Nazarbayevin təşkilatçı rəhbər iradəsi özünü göstərmişdir.

Mən bu gün qazax xalqını, bütün Qazaxıstan vətəndaşlarını təbrik edirəm. Mən prezident Nursultan Nazarbayevi bu görkəmli qələbə münasibətilə çox böyük sevinc hissi ilə təbrik edirəm. Şübhə yoxdur ki, bu qələbə tarixdə qalacaq və gələcək nəsillər tərəfindən layiqincə qiymətləndiriləcəkdir.

Azərbaycan və qazax xalqları arasında dostluğun qədim kökləri var, bu köklər əsrlərin dərinliklərinə gedib çıxır və biz sevinclə deyə bilərik ki, indi, bizim günlərdə bu dostluq yeni məna kəsb etmişdir, çünki bu münasibətlər artıq müstəqil Qazaxıstanın və müstəqil Azərbaycanın münasibətlərinə əsaslanır. Biz Qazaxıstanın uğurlarına sevinirik, biz qazax xalqı[36-37]nın azadlıq, müstəqillik yolunda qazandığı uğurlara sevinirik, şadıq ki, Qazaxıstan yeni paytaxtını yaratmaq üçün indiki mürəkkəb keçid dövründə bu qədər çox qüvvə, enerji, maliyyə vəsaiti sərf edə bilmişdir.

Əziz dostlar, mən sizi təbrik edirəm, əziz Nursultan Nazarbayev, Sizi təbrik edirəm. Sizə xoşbəxtlik, firavanlıq arzulayır və inanıram ki, Qazaxıstanın müstəqilliyi əbədi və dönməz olacaqdır.

Astana şəhərinə eşq olsun!

Yaşasın müstəqil Qazaxıstan! [37]

## XALQ YAZIÇISI İSA HÜSEYNOVA

Hörmətli İsa Hüseynov!

Sizi – Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz 50-ci illərdən bədii yaradıcılığa başlayaraq qısa bir müddətdə öz əsərlərinizlə oxucuların dərin rəğbətini qazanmısınız. Ədəbiyyatımızda insana, onun zəngin, mürəkkəb mənəvi dünyasına marağı gücləndirən roman və povestləriniz bütöv bir nəslin formalaşmasında böyük rol oynamışdır. İdeoloji buxovlardan uzaqlaşaraq həyata obyektiv baxış yaradan, insan şəxsiyyətinə, ləyaqətinə ehtiram hissləri təbliğ edən əsərləriniz sonrakı yazıçılar nəslinin təşəkkül tapmasına öz müsbət təsirini göstərmişdir.

Müasirlərimizin əxlaqi saflığı, psixoloji ovqatları, milli dəyərlərlə yaşamaq səyləri sizin nəsrinizdə yüksək sənətkarlıqla təsvirini tapmışdır. Siz öz bədii yaradıcılığınızda Azərbaycanımızın tarixi keçmişinə, dilinə və mədəniyyətinə böyük maraq doğurmaqla xalqımızın milli şüurunun inkişafına əhəmiyyətli xidmət göstərmisiniz.

Uzaq və yaxın tariximizdəki uğurlarımızın və itkilərimizin bədii təhlilini həssaslıqla, ürək yanğısı ilə verən romanlarınız ədəbiyyat həvəskarları tərəfindən böyük maraq və rəğbətlə qarşılanmış, bir sıra dillərə tərcümə olunmuş, müxtəlif xarici ölkələrdə nəşr edilmişdir.

Siz respublikada öz dəst-xətti ilə seçilən məhsuldar ssenarist kimi də məşhursunuz. Milli kinomuzun parlaq səhifələri sayılan «Ulduzlar sönmür», «Nəsimi», «Tütək səsi», «Nizami» kimi bədii filmlərin ssenariləri sizin qələminizin məhsuludur. Tarixi keçmişimizin dərk olunmasında mühüm rol oy[38-39]nayan bu filmlər indinin özündə də tərbiyəvi təsir gücünü və dəyərini qoruyub saxlayır.

Sizin yaradıcılığınızın ən yetkin və məsul çağı respublikamızın müstəqilliyinin gənclik dövrünə təsadüf edir. İndi ölkə həyatının başqa sahələrində olduğu kimi, mədəniyyət və ədəbiyyatın inkişafı qarşısında da geniş üfüqlər açılmışdır. Əminəm ki, siz milli ədəbiyyatımızı qələminizdən çıxan yeni dəyərli sənət nümunələri ilə zənginləşdirəcəksiniz.

Sizə uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *11 iyun 1998-ci il*
[39]

## XALQ ARTİSTİ HACIBABA BAĞIROVA

Hörmətli Hacıbaba Bağırov!

Sizi – Azərbaycanın görkəmli teatr və kino aktyorunu anadan olmağınızın 65 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm. Siz teatr səhnəmizdə özünəməxsus orijinal üslubda yaddaqalan obrazlar yaratmaqla tamaşaçıların böyük məhəbbətini qazanmış mahir gülüş ustasısınız. Cəmiyyətimizin mənəvi saflaşmasına xidmət edən çoxşaxəli yaradıcılığınız ölkəmizdə komediya janrının ənənələrini davam etdirərək müasir Azərbaycan mədəniyyətini zənginləşdirmişdir.

Səhnədə göstərdiyiniz fəaliyyətlə yanaşı, sizin kinematoqrafiya sahəsində də xüsusi xidmətləriniz vardır. Kinofilmlərimizdə oynadığınız müxtəlif xarakterli rollar tamaşaçıların yaddaşında həmişəlik qalmış və kino sənətimizin diqqətəlayiq uğurları kimi qiymətləndirilmişdir.

Azərbaycanda aktyorların yeni nəslinin yetişdirilməsində sizin böyük zəhmətiniz olmuşdur. Teatr rəhbəri və teleşou təşkilatçısı kimi göstərdiyiniz fəaliyyət də istedadınızın yeni mühüm çalarlarını aşkar etmişdir. Fitri istedad, milli kolorit və təbii yumorla səciyyələnən sənətiniz sizi xalqımızın sevimlisi etmişdir. Əminəm ki, yaradıcılığınız, yeni obrazlar bundan sonra da tamaşaçılarda nikbin əhval-ruhiyyə oyadacaq və sənətinizin pərəstişkarlarını sevindirəcəkdir.

Sizə xoşbəxtlik, uzun ömür və yaradıcılığınızda yeni-yeni uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *11 iyun 1998-ci il*
[40]

## ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ MSTİSLAV ROSTROPOVİÇƏ «ŞÖHRƏT» ORDENİNİN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ NİTQ

*Prezident iqamətgahı*

*13 iyun 1998-ci il*

Hörmətli Mstislav Leopoldoviç Rostropoviç, əziz Slava!
Xanımlar və cənablar!

Bu gün mən çox xoş bir missiyanı yerinə yetirməli – zəmanəmizin böyük musiqiçisi Mstislav Postropoviçə müstəqil Azərbaycanın yüksək mükafatı olan «Şöhrət» ordenini təqdim etməliyəm.

Mstislav Leopoldoviç Rostropoviç Azərbaycanda, Bakıda doğulmuş, yeniyetmə illərini burada keçirmişdir. Rostropoviçlər ailəsi uzun illər ərzində Bakıda yaşamışdır. Mstislav Rostropoviçin atası Leopold Rostropoviç Azərbaycanda yüksək professional musiqi təhsilinin təşəkkülünə və inkişafına böyük töhfə vermişdir. Böyük Üzeyir Hacıbəyovla, musiqi sənətinin digər çox görkəmli xadimləri ilə birlikdə o, Şərqdə ilk ali musiqi məktəbinin – Azərbaycanda konservatoriyanın əsasını qoymuşdur. Leopold Rostropoviç ali musiqi məktəbimizin, indiki Musiqi Akademiyasının təşəkkülündə və inkişafında bir çox illər iştirak etmişdir.

Rostropoviçləri Azərbaycanla bir çox başqa şeylər də bağlayır. Sonralar Mstislav Rostropoviç Moskvada məşhur musiqiçi, musiqi sənəti xadimi olmuş, ən əvvəl özünün qeyri-[41-42]adi istedadı, əməksevərliyi, fədakarlığı sayəsində böyük şan-şöhrət qazanmışdır. O özünün bir çox əsərləri ilə, coşğun, geniş fəaliyyəti ilə rus, dünya musiqi sənətini zənginləşdirmişdir. Bu gün biz həmyerlimiz, dostumuz barədə böyük sevinc hissi ilə deyə bilərik ki, Mstislav Rostropoviç bir musiqiçi kimi, musiqi sənəti xadimi kimi formalaşmaqda böyük yol keçərək dünyanın görkəmli musiqiçilərindən biri olmuş, bütün dünyada şöhrət, nüfuz qazanmışdır.

Onun yaradıcılıq fəaliyyəti, musiqi sənətinin, ümumən dünyada bütün mədəniyyətin inkişafına töhfəsi bir çox ölkələr, dövlətlər tərəfindən, dünyanın bir çox məşhur mədəniyyət, incəsənət, musiqi xadimləri tərəfindən yüksək qiymətləndirilmişdir.

Slava Rostropoviç dünyada belə yüksək nüfuza nail olmuş, belə yüksək ad və belə şöhrət qazanmış tək-tək insanlardan biridir. Yenə deyirəm, bu, ən əvvəl onun fitri, bənzərsiz istedadı və fədakarlığı, əməksevərliyi, öz peşəsinə, sənətinə, öz işinə sədaqəti ilə bağlıdır.

Bununla yanaşı, Mstislav Rostropoviç dünyada digər cəhətdən də məşhurdur. O öz professional musiqiçi fəaliyyəti, mədəniyyət sahəsində yaradıcılıq fəaliyyəti ilə yanaşı, azadlıq, müstəqillik, insan hüquqlarını müdafiə rəmzinə, zorakılığa, ədalətsizliyə qarşı etiraz rəmzinə çevrilmişdir. Bu baxımdan musiqi, incəsənət və mədəniyyət sahəsində fəth etdiyi uca zirvələrlə müqayisədə onun vətəndaş mövqeyi həyatında heç də az əhəmiyyət kəsb etmir.

Sovet İttifaqında totalitar rejimin mövcud olduğu o ağır illərdə Mstislav Rostropoviçin özündə cəsarət taparaq, bütün bunlara qarşı öz etiraz səsini ucaltması, nəinki sadəcə olaraq öz fikrini bildirməsi, həm də adamların hüquqlarının, azadlığın müdafiəsi uğrunda fəaliyyət göstərməsi, özü də qətiyyətlə fəaliyyət göstərməsi həqiqətən hünərdir, qəhrəmanlıqdır. [42-43]

Hər şeyin artıq arxada qaldığı indiki vaxtda bu, müəyyən dərəcədə adi, özlüyündə təbii olan bir hala çevrilmişdir. Əgər fikrən o illərə qayıtsaq və o vaxtlar Mstislav Rostropoviçin coşğun vətəndaş fəaliyyəti ilə bağlı hər şeyi və o dövlətdə – bizim hamımızın yaşadığı Sovet İttifaqında onun ətrafında yaranmış vəziyyəti xəyalımızda canlandırsaq, bunun nə demək olduğu aşkar olar. Ona görə də hesab edirəm ki, bu, həqiqətən hünər, qəhrəmanlıqdır və özünü tamamilə doğrultmuşdur.

İndi dünya dəyişmişdir, dünya azadlıqsevər adamların görmək istədikləri kimi, Mstislav Rostropoviçin görmək istədiyi kimi olmuşdur. Buna görə də indi biz demokratiyadan, azadlıqdan, şəxsiyyət azadlığından, insan hüquqlarından danışarkən yaşamış olduğumuz o ölkədə, o rejimdə bu proseslərin necə baş verdiyini, bu gün reallığa çevrilmiş hallar barəsində öz fikirlərini yalnız və yalnız tək-tək adamların, - onların arasında Mstislav Rostropoviç də vardı, o vaxtlar mərd-mərdanə söyləməyə necə cürət etdiklərini aydın təsəvvür edirik.

Öz dahi musiqi fəaliyyəti, mədəniyyət sahəsində fəaliyyəti ilə yanaşı, Rostropoviç özünün məhz vətəndaşlığı, vətəndaş hüquqları uğrunda coşğun, cəsarətli fəaliyyəti sayəsində dünyada nüfuz qazanmışdır. Azərbaycanda biz, Mstislav Rostropoviçin həmyerliləri bütün bunları izləyirdik. Şəxsən mən Mstislav Rostropoviçin şəxsiyyətinə dərin hörmət bəslədiyimə görə, onun nəinki musiqi sahəsində, həm də vətəndaş hüquqlarının müdafiəsi sahəsində fəaliyyətini çox diqqətlə izləyirdim.

Əlbəttə, biz təşviş keçirir, narahat olurduq. Lakin həyat Mstislav Rostropoviçin haqlı olduğunu təsdiq etdi. İndi biz Azərbaycanda milli azadlıq, dövlət müstəqilliyi əldə edərək, bu azadlığın olmasını istəyənlə-

rin hamısına öz ehtiramımızı böyük minnətdarlıq hissi ilə bildiririk. Onlardan biri, ən parlaq, ən görkəmli şəxsiyyət Mstislav Rostropoviç idi. [43-44]

Mstislav Leopoldoviç Moskvada özünün coşğun fəaliyyəti illərində Azərbaycanla əlaqələrini heç vaxt kəsməmiş, Azərbaycanın incəsənət, musiqi xadimləri ilə yaradıcılıq və dostluq münasibətləri saxlamış, onlara kömək etmiş, dəstək vermişdir. Yəni o, - mən bunu xüsusi sevinc hissi ilə deyirəm, - doğulduğu, yaşadığı, valideynlərinin də yaşayıb- yaratdıqları torpağı heç zaman unutmamışdır. Buna görə də Azərbaycanın musiqi, incəsənət xadimləri ona həmişə böyük hörmət və məhəbbət hissləri bəsləmişlər.

Bilirəm ki, hətta o illərdə, Rostropoviç totalitarizmə qarşı etiraz səsini qaldırdıqda, vətəndaş hüquqları uğrunda çıxış etdikdə onun hərəkətinin müdafiəsi üçün kimlərinsə öz fikrini açıq söyləməsinin çətin olduğu vaxtlarda çoxları qəlbində onunla razı idi. Hərçənd ola bilsin ki, məlum səbəblərə görə o adamlar eynilə onun kimi hərəkət edə bilmirdilər. Buna görə də biz Mstislav Rostropoviçin Azərbaycanla həmişə yaradıcılıq əlaqələri saxlamasını, öz təsirini və köməyini göstərməsini qiymətləndiririk.

Mstislav Rostropoviçin Azərbaycanla qarşılıqlı münasibətlərində ötən ildən yeni mərhələ başlanmışdır. Bu mərhələ 1997-ci il martın 27-də Parisdə mən əziz dostum Slava ilə görüşdüyüm və bu böyük musiqiçinin, həmyerlimizin 70 illiyinə həsr olunmuş şənliklərdə onun dəvəti ilə, Fransa prezidentinin dəvəti ilə iştirak etdiyim vaxtdan başlanmışdır. Onda mən onun yubileyinin Azərbaycanda, öz vətənində mütləq qeyd olunmasını təklif etdim. Ona görə ki, əgər həmyerlimizin yubileyi Parisdə təntənə ilə qeyd edilmişsə, onun doğulduğu Azərbaycanda belə şənliklər keçirilməsəydi, torpaq bundan inciyərdi.

Əlbəttə, insan həyatı boyu öz yaşayış yerini, öz iş yerini dəyişir. Bu, istənilər adam üçün təbii haldır. Az insan tapılar ki, onlar doğulduqları yerlərdə bütün ömürləri boyu qalsınlar. Slava da Azərbaycandan, Bakıdan getdikdən sonra bir çox [44-45] şəhərlərdə və ölkələrdə yaşamışdır. Lakin insanın doğulduğu torpaq onun əsas vətənidir. Bilmirəm kim necə hesab edir, ancaq mən belə hesab edirəm. Buna görə də ötən il biz dostumuz Slava Rostropoviçin 70 illiyini burada böyük sevinclə qeyd etdik.

Mən şadam ki, o günlər yaxşı keçdi və nəinki yubilyar üçün, bizim üçün, həm də bütün Azərbaycan ictimaiyyəti üçün hadisəyə çevrildi. Buna görə də mən Rostropoviçin Azərbaycanla münasibətlərinin məhz yeni mərhələsinin başlandığını deyirəm. Bu mərhələnin epizodik deyil, əksinə, sabit, daimi xarakter daşıdığını belə bir fakt sübut edir ki, dostumuz Slava iyunun 7-dən Bakıdadır, burada böyük və səmərəli iş aparır, gənc musiqiçilərimizlə məşğul olur və bununla da müstəqil Azərbaycanın musiqiçi kadrlarının hazırlanmasına çox böyük kömək və dəstək göstərir. Bu, çox yüksək qiymətə layiqdir.

Rostropoviçin il ərzindəki iş cədvəlinin necə olduğunu biz bilirik, hər halda, mən yaxşı bilirəm. O, dünyanın bir çox musiqi mərkəzləri ilə, müxtəlif ölkələrin paytaxtları, müxtəlif ölkələrlə o dərəcədə bağlıdır ki, aldığı böyük təkliflər, öz yaradıcılıq fəaliyyətini həyata keçirməyə dair özünün planları əsas götürülərək, onun bütün vaxtı tam bir il əvvəlcədən nəinki günlər üzrə, hətta saatlar üzrə bölünmüşdür.

Belə bir fəaliyyət şəraitində Azərbaycana bu qədər günlər ayırmaq, Azərbaycanın musiqi sənətinin gənc kadrlarının hazırlığı ilə məşğul olmaq son dərəcə böyük köməkdir. Ümid etmək istəyirəm ki, incəsənət xadimlərimiz, xüsusən Mstislav Rostropoviç ilə təmasda olmaq, onun məsləhətlərini almaq, ondan dərs almaq xoşbəxtliyi nəsib olmuş gənc musiqiçilər bu gözəl imkandan maksimum səmərə ilə istifadə edəcəklər.

Buna görə də bu gün qeyd etməyə şadam ki, Azərbaycan ilə böyük musiqiçi Rostropoviç arasında əlaqələrin, münasibətlərin yeni mərhələsinin artıq öz konkret nəticələri var. [45-46] Ümidvaram ki, bu nəticələr gələcəkdə daimi və sabit xarakter daşıyacaqdır.

Mstislav Rostropoviç dünyanın bütün ölkələrində böyük nüfuza malikdir. O, haraya gedirsə-getsin, harada olursa-olsun, hər yerdə nəinki incəsənət, mədəniyyət xadimlərinin, həm də bütün ölkə ictimaiyyətinin diqqət mərkəzindədir. Bu, onun malik olduğu keyfiyyətlərə və xidmətlərə görə təbii haldır.

Azərbaycanda ona xüsusi hörmət, məhəbbət hissləri bəslənilir və onun burada olması ilə əlaqədar xüsusi sevinc hissi duyulur. Buna görə də, əziz Slava, sizin Azərbaycanda olmağınız bizim üçün, ictimaiyyətimiz, dövlətimiz üçün böyük hadisədir.

Əziz Slava, bunu da ayrıca qeyd etmək istəyirəm ki, bu günlər siz Azərbaycanın həyatının çox ciddi problemlərinə – Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü ilə, Azərbaycan ərazisinin bir hissəsinin işğalı ilə, işğal olunmuş topraqların sakinlərinin öz doğma yerlərindən didərgin salınması ilə bağlı problemlərə də böyük diqqət yetirdiniz və dünən gördüyünüz kimi, bu insanlar çox ağır şəraitdə, çadırlarda və həyat üçün uyğunlaşdırılmamış digər müxtəlif yerlərdə yaşayırlar. Dünən bütün gününüzü buna həsr etməyinizi mən yüksək qiymətləndirirəm.

Bizə çoxlu qonaqlar gəlir, biz hamıya Azərbaycanın indiki reallığı ilə tanış olmağı təklif edirik. Deməliyəm ki, onların çoxu bizim xahişimizi qəbul edir, öz yerindən-yurdundan zorla çıxarılmış köçkün insanların yaşadıqları yerlərə gedirlər. Bunlar Bakıda, onun ətrafında olan yerlər, Azərbaycandakı çoxlu çadır şəhərcikləridir, siz dünən onlardan bəzilərində olmusunuz. Ancaq öz yerindən-yurdundan zorla çıxarılmış köçkün insanların, Azərbaycan vətəndaşlarının yaşadıqları yerlərə belə geniş proqram üzrə sizin etdiyiniz səfəri çox az adam etmişdir. Siz burada da özünüzün böyük diqqətinizi, həssaslığınızı və insaniyyətinizi nümayiş etdirmisiniz. [46-47]

Sizi müşayiət edən şəxslər Azərbaycanın bugünkü həyatının bu sahəsi ilə necə diqqətlə tanış olmağınız və dünən necə həyəcan keçirməyiniz barədə mənə danışıblar. Bəlkə də sırf qonaqpərvərlik baxımından siz-

də belə həyəcan doğurmağımız lazım deyildi. Ancaq, eyni zamanda, siz dözümlü, bir çox sarsıntılara, məhrumiyyətlərə, çətinliklərə məruz qalmış insansınız, siz bərkdən-boşdan çıxmış insansınız. Ona görə də həmin saatlar sizin üçün ağır olsa da, öz doğma yerlərindən zorla qovulub çıxarılmış, altı ildən artıq çox çətin şəraitdə yaşayan və yalnız bir şeyi – öz doğma yurdlarına qayıtmağı gözləyən bu insanlar, hər halda, sizin torpağınızın övladlarıdır. Onlar hər şeylərinin – evlərinin, şəhərlərinin, kəndlərinin, qəsəbələrinin dağıldığını, talan olunduğunu bilsələr də, öz yerlərinə qayıtmaq istəyirlər. Mən onlarla dəfələrlə görüşmüşəm və həmişə də deyirlər ki, təki öz torpaqlarına, hətta quruca yerlərinə, doğmalarının, əzizlərinin, əcdadlarının dəfn olunduğu torpaqlara qayıtsınlar, sonra isə necə yaşamağın çarəsini özləri tapacaqlar.

Siz bütün bunları öz gözünüzlə gördünüz.Əziz Slava, dünənki səfərinizə görə sizə xüsusi təşəkkür etmək istəyirəm. Bu da təsadüfi deyildir. Çünki şəxsiyyət kimi siz öz fəaliyyətinizlə mədəniyyətin, incəsənətin, musiqinin hüquqlarını çoxdan aşmısınız. Siz vətəndaş hüquqları uğrunda çıxış etdiyiniz vaxtdan etibarən vətəndaş kimi, şəxsiyyət kimi bu cür fəaliyyətə geniş şəkildə qoşulmusunuz. Sizin dünən gördükləriniz bu təcavüz, vəhşilik nəticəsində tək-tək adamların deyil, Azərbaycanın bir milyon vətəndaşının hüquqlarının tapdalandığını, pozulduğunu göstərən haldır.

Əziz Slava, həyatımızda belə iştirakınıza görə çox sağ olun. Bu səbəbdən də şəxsən mən sizi təkcə qonaq, bizim keçmiş həmyerlimiz, görkəmli musiqiçi hesab etmirəm. Mən sizin simanızda həmişə böyük vətəndaşı, təkcə bir çox məsələlərə biganə qalmayan cəsarətli insanı deyil, həm də insan azadlığı, [47-48] hüquqları pozularkən bütün işlərə fəal surətdə qarışan bir insanı görmüşəm.

Bəzi fikirlərimi deyərkən eyni zamanda hesab edirəm ki, bütün ictimaiyyətin, Azərbaycan dövlətinin rəyini və fikirlərini ifadə edirəm. Əziz Slava, uğurlarınız münasibətilə, gözəl fəaliyyətiniz münasibətilə və müstəqil Azərbaycanın yüksək dövlət mükafatı olan «Şöhrət» ordeni ilə təltif edilməyiniz münasibətilə sizi bir daha təbrik etmək istəyirəm. Bilirsiniz ki, bu da çox əlamətdardır. Siz Azərbaycan torpağında doğulanda Azərbaycan azad, müstəqil deyildi. İndi isə Azərbaycan azad ölkədir, müstəqil dövlətdir. Dünya Birliyində özünün layiqli yerini tapmış ölkədir, demokratikləşdirmə prosesinin fəal getdiyi, demokratik, hüquqi, dünyəvi dövlət qurulan, demokratik cəmiyyət formalaşdırılan, demokratikləşdirməyə, bazar iqtisadiyyatı yaradılmasına və Azərbaycanın dünya iqtisadi sisteminə, ümumən dünya birliyinə qovuşmasına yönəldilən siyasi və iqtisadi islahatlar həyata keçirilən ölkədir.

Ölkəmizin əvvəllər malik olmadığı öz atributları, ordenləri var. «Şöhrət» ordeni də Azərbaycanın dövlət mükafatıdır. Yeri gəlmişkən, mənə xoşdur ki, bu ordenin adı ilə sizin adınız eynidir.

Sizi bir daha təbrik edirəm və bu yüksək mükafatı sizə böyük məmnuniyyətlə təqdim etmək istəyirəm. Əziz Slava, sizə möhkəm cansağlığı arzulayıram. Şadam ki, səhhətiniz yaxşıdır, mən bunu görürəm.

Mən sizdən bir qədər yaşlıyam, lakin biz bir nəslin adamlarıyıq. Ona görə də kimin səhhətinin necə olduğunu uzaqdan müəyyənləşdirə bilərəm. Allaha şükür ki, səhhətiniz çox yaxşıdır. Qoy o, daha da möhkəm olsun, çünki sizin planlarınız, niyyətləriniz elədir ki, onları həyata keçirmək üçün ən azı hələ bu qədər də ömür gərəkdir. İstəyirəm ki, bunların hamısı çin olsun.

Sizə yeni yaradıcılıq uğurları, bütün ictimai, siyasi fəaliyyətinizdə yeni müvəffəqiyyətlər arzulamaq istəyirəm. [48-49]

Sizin gözəl ailəniz, Qalina Pavlovna Vişnevskaya kimi qəşəng xanımınız var. Ərlə arvadın eyni bir sahədə çalışması, üstəlik, onların eyni baxışlara malik olması xoşbəxtlikdir. Görkəmli müğənni olan Qalina Pavlovna Vişnevskaya o çətin dövrdə, siz cəsarətli vətəndaş addımı atanda sizə vəfalı dost oldu. O, həmişə sizinlə birlikdə idi. Bu gün də sizinlədir. Bu, böyük səadətdir. Möhkəm arxa olanda insan həmişə daha cəsarətlə hərəkət edir. Sizin yaxşı uşaqlarınız, nəvələriniz var. Şadam ki, Allah bu baxımdan səxavətini sizdən əsirgəməyib, sizə sərvət veribdir. İstəyirəm ki, sizin bu sərvətiniz daha da artsın.

Sizə ən xoş, ən yaxşı arzularımı bildirirəm. Sizi bir daha təbrik edirəm! [49]

## RUSİYANIN MİLLİ BAYRAMI – RUSİYA FEDERASİYASININ DÖVLƏT MÜSTƏQİLLİYİ HAQQINDA BƏYANNAMƏNİN QƏBUL OLUNMASI GÜNÜ MÜNASİBƏTİLƏ RUSİYANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*«Gülüstan» sarayı*

*12 iyun 1998-ci il*

Tərcüməçi olmadığını nəzərə alaraq, rusca danışmalı olacağam. Hesab edirəm ki, əgər indi mən dövlət dilində, Azərbaycan dilində deyil, bizim çox hörmət etdiyimiz və Azərbaycanda geniş yayılmış rus dilində danışsam, məni Rusiya nümayəndələri də, Azərbaycan vətəndaşları da düz başa düşərlər.

Hörmətli cənab səfir!

Möhtərəm xanımlar və cənablar!

Sizi bayram münasibətilə – Rusiya Federasiyasının dövlət suverenliyi haqqında bəyannamənin qəbul olunmasının 8-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm.

Rusiyanın zəngin tarixində əlamətdar hadisələr çoxdur. Lakin bu hadisənin xüsusi əhəmiyyəti var. Məhz 1990-cı ilin iyununda Rusiyanın dövlət suverenliyi haqqında bəyannamənin qəbul edilməsi ilə Rusiya Federasiyasının həyatında yeni mərhələ – yeni Rusiya, bazar iqtisadiyyatına malik yeni demokratik dövlət quruculuğu mərhələsi, demokratik cəmiyyətin formalaşması, Rusiyanın həyatının bütün sahələrini [50-51] demokratikləşdirməyə yönəldilmiş siyasi və iqtisadi islahatlar aparılması mərhələsi başlanmışdır.

Bu, Rusiya üçün, rusiyalılar üçün böyük hadisədir. Lakin onun həm Azərbaycan üçün, həm də Sovet İttifaqının süqutu ilə əlaqədar öz dövlət müstəqilliyini qazanmış digər ölkələr üçün böyük əhəmiyyəti var. Məhz Rusiya dövlət suverenliyi haqqında bəyannaməni qəbul etməklə Sovetlər İttifaqının süqutunun bünövrəsini qoydu, Sovetlər İttifaqına daxil olan digər respublikalara dövlət suverenliyi haqqında aktlar qəbul etməyin zəruri olduğunu nümunə göstərdi. Bu, tarixi hadisədir və o, keçmişdə Sovetlər İttifaqının tərkibinə daxil olan respublikalar əsasında müstəqil dövlətlər yaranmasına gətirib çıxardı. Bu, öz dövlət müstəqilliyini əldə etmiş və azad, müstəqil dövlətə çevrilmiş Azərbaycan üçün də tarixi hadisədir.

Məmnuniyyət hissi ilə deyə bilərəm ki, 1990-cı ildən sonra getmiş proseslər hər bir respublikaya ziyan vursa da, Azərbaycan isə keçmişdə Sovet İttifaqına daxil olan hər hansı di- gər respublikaya nisbətən bəlkə daha çox zərər çəksə də, nəticə etibarilə bu proses çox müsbətdir, çünki dövlət müstəqilliyi qazanmış ölkələr azad inkişaf yoluna qədəm qoymuş və müəyyən uğurlara nail olmuşlar.

Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında dövlətlərarası münasibətlər məhz bu əsas üzərində təşəkkül tapmışdır. Bu gün biz böyük məmnuniyyət hissi ilə deyə bilərik ki, bu münasibətlər dostluğun, bütün sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığın möhkəm təməlinə əsaslanır. Ötən il iyulun 3-də Moskvada Kremldə Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında imzalanmış müqavilə də dostluq münasibətlərimizi daha da inkişaf etdirmək üçün, bütün sahələrdə əməkdaşlığımızı genişləndirmək və dərinləşdirmək üçün etibarlı normativ-hüquqi zəmindir. Bu əməkdaşlıq uğurla həyata keçirilir, biz xeyli nəticələr əldə etmişik. Səfirin öz çıxışında gətirdiyi bəzi rəqəmlər, məlumatlar buna [51-52] inandırıcı sübutdur ki, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında dövlətlərarası münasibətlərin inkişafının həqiqətən çox müsbət prosesi gedir. Biz Azərbaycanda buna böyük əhəmiyyət veririk.

Azərbaycan Rusiya ilə iki əsr ərzində bağlıdır. Bir dövlətin tərkibində olduğumuz dövrdə Azərbaycan Rusiyadan çox şey almışdır. Elmin, mədəniyyətin, təhsilin, iqtisadiyyatın və həyatın bir çox digər sahələrinin inkişafı – bütün bunlar Rusiya ilə qarşılıqlı münasibətlərin, onunla ünsiyyətin Azərbaycan xalqına, Azərbaycana səmərəli təsirilə bağlıdır. Bu, bizim keçmişimizdir və biz bunu qiymətləndiririk, indi Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında dostluq münasibətləri, xoş münasibətlər də bu əsas üzərində qurulur.

Həyata keçirilmiş işləri layiqincə qiymətləndirərək bu gün demək olar ki, əməkdaşlığımızı dərinləşdirmək üçün, əlaqələrimizi genişləndirmək üçün imkanlar hələ çoxdur. Böyük xoşbəxtlikdir ki, bütün bunlar baş verir, bütün sahələrdə əməkdaşlıq ildən-ilə genişlənir və dərinləşir. Biz Azərbaycanda buna böyük əhəmiyyət veririk və bu əməkdaşlığın səmərəli və qarşılıqlı surətdə faydalı olmasına səy göstəririk.

Mən əsla şübhə etmirəm ki, Rusiya Federasiyası ilə Azərbaycan arasında dostluq münasibətlərinin yaxşı perspektivi var, bu münasibətlər əbədi, pozulmaz olacaqdır. Biz belə hesab edirik və zənnimcə, bizim bu mövqeyimizi Azərbaycan vətəndaşları, ölkəmizin bütün əhalisi dəstəkləyir.

Biz Azərbaycanda yaşayanların hamısını ölkəmizin tamhüquqlu vətəndaşları hesab etmişik və edirik. Azərbaycanın rus əhalisi burada bir ildir, on ildir yaşamır, ruslar Azərbaycanın yerli sakinləri, onun tamhüquqlu vətəndaşlarıdır. Mən «Sodrujestvo» cəmiyyətinin, habelə Moskvadakı Rusiya – Azərbaycan Cəmiyyətinin gördüyü işləri çox yüksək qiymətləndirirəm. Əlbəttə, bu cəmiyyətlər insanlar, vətəndaşlar ara-

sında əlaqələrin daha da yaxınlaşmasına və möhkəmlənməsi[52-53]nə imkan yaratmaq üçün gərəkdir və təbii ki, bizə, dövlətə, hökumətə münasibətlərimizin möhkəmlənməsi və inkişafı sahəsində öz fəaliyyətimizi həyata keçirməyə kömək edirlər.

Lakin açığını demək istəyirəm ki, Azərbaycandakı rus əhalisi Rusiya Federasiyası tərəfindən hər hansı xüsusi yardıma və ya xüsusi qayğıya möhtac deyildir. Çünki ruslar Azərbaycanın yerli vətəndaşlarıdır, onun tamhüquqlu vətəndaşlarıdır. Buna görə də əmin ola bilərsiniz ki, müstəqil Azərbaycan dövlətinin siyasəti – bütün sənədlərimizdə, xüsusən 1995-ci ildə qəbul edilmiş konstitusiyamızda elan olunmuş siyasətimiz milliyyətindən, dilindən, dini etiqadından asılı olmayaraq bütün Azərbaycan vətəndaşlarının tam hüquqlarını təmin edir.

Rus əhalisinə, rus dilinə, rus mədəniyyətinə Azərbaycanda xüsusi hörmət var. Bu təbiidir və bunu başa düşmək olar. Ona görə ki, bir çox mədəniyyət, elm, təhsil xadimlərimiz, iqtisadiyyat sahəsində, digər sahələrdə uğurla çalışmış və bu gün də çalışan insanlar rus dilində, Moskvanın, Peterburqun, digər Rusiya şəhərlərinin ali məktəblərində təhsil almışlar, çox yüksək elmi hazırlıq keçmişlər. Məgər bütün bunları unutmaq olarmı? Yaxud, bütün bunları lazımınca qiymətləndirməmək mümkündürmü? Azərbaycan xalqı çox qədirbilən xalqdır. O bu xalqın, - mən Azərbaycan xalqını nəzərdə tuturam, - xeyrinə atılan hər bir yaxşı addımı həmişə çox yüksək qiymətləndirmişdir. Azərbaycan xalqının Rusiya ilə, rus xalqı ilə, rus mədəniyyəti, elmi ilə ünsiyyət sayəsində qazandıqları unudulmazdır və çox qiymətlidir.

Buna görə də əgər burada hansı dövrdəsə Azərbaycanın rusdilli əhalisinin və ya rus millətindən olan əhalisinin, hörmətli səfirin dediyi kimi, həqiqətən köçüb getməsi prosesi baş vermişsə, bu, qeyri-normal haldır. Bu, bir tərəfdən Azərbaycanda baş vermiş mürəkkəb proseslərlə, digər tərəfdən isə 1993-cü ilədək Azərbaycanda hakimiyyətdə olan adamların [53-54] ümumən milli siyasət sahəsində, o cümlədən rus əhalisinə münasibətdə siyasət sahəsində yeritdikləri düzgün olmayan siyasətlə bağlı idi. Bildiyiniz kimi, o vaxtdan bəri bu məsələlər tənzimlənmişdir və təkrar edirəm, 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş konstitusiyada öz təcəssümünü tapmışdır. Mən isə suveren, müstəqil Azərbaycanın prezidenti kimi, Azərbaycan Konstitusiyasının həyata keçirilməsinin təminatçısıyam. Mən milliyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşının, o cümlədən rus millətinə mənsub hər bir adamın hüquqlarının müdafiəsinin təminatçısıyam.

Hesab edirəm ki, indi bu məsələdə bizim heç bir problemimiz yoxdur və olmayacaq, onlar gələcəkdə də olmayacaq-dır. Çünki Azərbaycanda həyata keçirdiyimiz siyasət dönməzdir və əbədi xarakter daşıyır.

Şadam ki, bu gün bu gözəl «Gülüstan» sarayında Rusiyanın milli bayramına çoxlu adam toplaşmışdır. Mən buraya daxil olanda səfirə dedim: «Bir bax, burada nə qədər adam var». O dedi: «Biz çox adam dəvət etmişik və hamı gəlmişdir». Çox yaxşı ki, səfirlik çox adam dəvət etmişdir, o da yaxşıdır ki, dəvət alanların hamısı gəlmişdir. Bunların hər ikisi bir-birini tamamlayır, Rusiya ilə Azərbaycan arasında, rus xalqı ilə Azərbaycan xalqı arasındakı münasibətləri göstərir.

İnanıram ki, Azərbaycan ilə Rusiya arasında münasibətlər dönmədən inkişaf edəcək və möhkəmlənəcəkdir. Biz əməkdaşlığımızın genişlənməsi və dərinləşməsi üçün öz tərəfimizdən hər şeyi edəcəyik.

Rusiyada gedən demokratikləşdirmə prosesləri, siyasi və iqtisadi islahatların aparılması, əlbəttə, ən əvvəl Rusiyanın özü üçün, rusiyalıların özləri üçün çox böyük əhəmiyyətə malikdir. Ancaq eyni zamanda bunun ötən bir çox illər, onilliklər ərzində Rusiya ilə bağlı olmuş ölkələr üçün, o cümlədən Azərbaycan üçün də əhəmiyyəti var. Biz bu prosesləri böyük maraqla izləyirik, çətinlikləri, mürəkkəb halları görürük. Bu[54-55]nunla yanaşı, əminik ki, Rusiyada demokratikləşdirmənin həyata keçirilməsi istiqamətində güclənən irəliləyiş dönməzdir. Biz Rusiyada demokratiyanın inkişafı və möhkəmlənməsi naminə, siyasi və iqtisadi islahatlar aparılması naminə görülən, Rusiyanın birdəfəlik və həmişəlik, bütün zamanlarda sülhsevər, demokratik, azad dövlət olması üçün, Rusiyanın həmişə dostumuz, mehriban qonşumuz olması üçün görülən bütün işləri və tədbirləri tamamilə dəstəkləyirik.

Sizin hamınızı bugünkü bayram münasibətilə bir daha təbrik edirəm. Bütün rusiyalılara sülh, əmin-amanlıq, firavanlıq arzulayıram. Sizə cansağlığı və xoşbəxtlik arzulayıram. Bayramınız mübarək olsun. [55]

## XALQ ARTİSTİ HACI XANMƏMMƏDOVA

Hörmətli Hacı Xanməmmədov!

Sizi – Azərbaycanın görkəmli bəstəkarını 80 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz Azərbaycan musiqi mədəniyyətində öz sözü, öz dəst-xətti ilə seçilən sənətkarlardansınız. Yarım əsrlik yaradıcılığınız ərzində müxtəlif janrlarda bəstələdiyiniz yaddaqalan əsərlər sizə nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda da şöhrət gətirmişdir. Sənətkar həyatınızı ən çox səciyyələndirən və geniş dinləyici kütləsinə tanıtdıran isə tar ilə simfonik orkestr üçün yazdığınız konsertlərdir. Sizin adınız Azərbaycanın bəstəkarlıq məktəbi tarixinə milli ənənələri müasir musiqi sənətinin nailiyyətləri ilə üzvü şəkildə birləşdirən bu janrın yaradıcısı kimi həmişəlik daxil olmuşdur. Kamança ilə simfonik orkestr üçün bəstələdiyiniz konsertdə də siz Azərbaycan milli musiqi alətlərinin hələ istifadə olunmamış imkanlarını böyük ustalıqla nümayiş etdirmisiniz.

Siz ölkəmizdə gözəl mahnılar müəllifi kimi də yaxşı tanınırsınız. Emosionallıq, ürəyəyatımlılıq və zəriflik hisslərini aşılayan, doğma diyarımızı, onun insanlarını, təbiətini, füsunkar mənzərələrini tərənnüm edən mahnılarınız vətənimizə, xalqımıza olan vurğunluğunuzu göstərir.

Respublikamızda neçə-neçə musiqiçilər nəslinin yetişdirilməsində sizin böyük zəhmətiniz vardır. Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunda və Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasında göstərdiyiniz fəaliyyətinizdə siz milli musiqi mədəniyyətimizin incəliklərini gənc nəslə məharətlə çatdırmısınız. Sizin dirijorluğunuz da yüksək qiymətləndirilir. [56-57]

Milli alətlərə dərin maraq doğuran, onların inkişafı üçün geniş imkanlar açan, musiqisevərlərin zövqünü oxşayan sənət yolunuz gənc musiqiçilər üçün böyük bir örnəkdir. İnanıram ki, sizin yaradıcılığınız Azərbaycanımızın musiqi mədəniyyətinin inkişafında bundan sonra da öz əvəzedilməz rolunu oynayacaqdır.

Sizə uzun ömür, cansağlığı və fəaliyyətinizdə uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 iyun 1998-ci il*
[57]

## RUSİYA TELEVİZİYASININ «TEMA» PROQRAMININ MAESTRO, MSTİSLAV ROSTROPOVİÇİN HƏYAT VƏ YARADICILIĞINA HƏSR EDİLMİŞ VERİLİŞİN ÇƏKİLİŞ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*15 iyun 1998-ci il*

**H e y d ə r Ə l i y e v**: Sizi, ümumiyyətlə və xüsusən Azərbaycanda həyata keçirdiyiniz bütün işlərə görə təbrik edirəm. Sabah sizin konsertinizi gözləyirik. Yeri gəlmişkən, keçmiş vaxtlarda necə olduğunu bilmirəm, amma, ola bilsin, bu, birinci haldır ki, siz Bakıda simfonik orkestrə dirijorluq edəcəksiniz.

**M s t i s l a v R o s t r o p o v i ç** : Bəli, bu, ilk dəfə olacaqdır.

**H e y d ə r Ə l i y e v** : Siz dünyanın bir çox şəhərlərində, paytaxtlarında olduqca uğurla dirijorluq etmisiniz, hər yerdə yolunuzu gözləyirlər. Amma öz vətəninizdə siz Üzeyir Hacıbəyov adına Dövlət Simfonik Orkestrinə ilk dəfə olaraq dirijorluq edəcəksiniz.

**M s t i s l a v R o s t r o p o v i ç** : Heydər Əliyeviçin mühafizəsi barədə bir neçə kəlmə demək istəyirəm. Bu, dünyada ən çox musiqisevər mühafizə dəstəsidir. Ona görə ki, hər hansı digər prezidentə nisbətən Heydər Əliyev konsertlərdə daha tez-tez olur. Buna görə də onlar musiqini dinləyir və başa düşürlər.

**H e y d ə r Ə l i y e v**: Musiqini, xüsusən də sizin musiqinizi onlar nəinki başa düşür, həm də sevirlər. Bu qədər dostlarım, [58-59] - bu dostlar isə siz və buraya toplaşanlardır, - olduğu halda mən prinsipcə mühafizə dəstəsinə ehtiyac duymuram. Hərçənd ki, prezidentin mühafizə edilməsinə ehtiyac var.

**M s t i s l a v R o s t r o p o v i ç**: Biz istəyirik ki, Sizi mühafizə etsinlər.

**Y u l i Q u s m a n**: Biz artıq dedik ki, maestro qaçqınların yanında olmuşdur, Siz onu «Şöhrət» ordeni ilə təltif etdiniz, onun doğma şəhərinin fonda olması üçün Bakıda belə yüksək nöqtəni məxsusi seçdik. Lakin maestronun bu sözləri xüsusilə təsirlidir ki, Azərbaycan musiqiçilərinin yeni nəsli – Üzeyir Hacıbəyovun, Bülbülün, Qara Qarayevin işlərinin davamçıları yetişirlər. Maestronun öz gözəl məktəbi barədə söhbəti gözəldir. Burada Mstislav və Leopold Rostropoviçlər adına məktəbin uşaqları çıxış etdilər – bu, tamamilə fantastik aləm idi.

**H e y d ə r Ə l i y e v**: Bilirsinizmi, Bakı özünün digər layiqli keyfiyyətləri ilə yanaşı, sözün ən yüksək anlamında həmişə ən musiqili şəhər olmuşdur. Professional, simfonik musiqi, opera musiqisi burada həmişə böyük nüfuza malik olmuşdur. Buna görə də təsadüfi deyil ki, Mstislav Rostropoviç kimi dahi musiqiçi də Azərbaycan torpağında, Bakıda doğulmuşdur. Təsadüfi deyil ki, bir vaxtlar onun atası buraya məhz işləməyə, bununla bərabər, Azərbaycan xalqına yüksək professional musiqi məktəbi yaradılmasına kömək etməyə gəlmişdi. Bu, təsadüfi deyildi.

Vaxt vardı, buna maraq nəinki azalmırdı, həm də vəziyyət sadəcə olaraq elə idi ki, bəlkə də adamların musiqidən istədikləri kimi bəhrələnməyə, simfonik orkestrin konsertlərində olmağa və ya məhz simfonik yönümdə musiqi təhsili almağa imkanı yox idi. Amma srağagün, biz Musiqi Akademiyasında olarkən və bir neçə gün ərzində sizinlə birlikdə olmuş adamları birlikdə dinləyərkən mən oturub düşünürdüm – bu, necə böyük səadətdir, yeni nəsil yetişir, istedadlar var. Onlar həqi[59-60]qətən çox görkəmli istedadlardır və Azərbaycan xalqı arxayın ola bilər ki, Azərbaycanda musiqi sənətinin, professional musiqi ənənəsi irəliləyəcək, inkişaf edəcəkdir. Slava, bu baxımdan sizin xidmətiniz, sizin rolunuz qiymətsizdir.

Bu gün biz sizinlə Bakı şəhərinin yüksək bir nöqtəsindəyik, bura elə bir yerdir ki, adətən, bütün bakılılar buradan şəhərin, dənizin seyrinə dalırlar, Azərbaycanla, Bakı ilə ilk dəfə tanış olanlar hökmən buraya gəlirlər, çünki buradan çox şey görünür. Burada, vaxtilə sizin də dəfələrlə olduğunuz, - burada mən də çox olmuşam, - bu yüksək nöqtədə şadam ki, sizinlə birlikdəyəm, şadam ki, siz öz dostlarınızın əhatəsindəsiniz. Aydın səmaya, Xəzər dənizinə, gözəl şəhərə baxaraq deyirəm: Ümumən incəsənətin, musiqinin inkişafı üçün etdiyiniz hər şeyə görə sağ olun, Azərbaycana, Azərbaycan incəsənətinə, Azərbaycan mədəniyyətinə göstərdiyiniz çox böyük köməyə görə sağ olun.

**Y u l i Q u s m a n**: Heydər Əliyeviç, bu gün bizimlə birlikdə olduğunuza görə sağ olun. Bu gün biz çox dedik ki, Mstislav Rostropoviç BMT-nin sülh və xoşməramlı elçisidir. Ancaq mənə elə gəlir ki, onun sənəti, musiqisi ölkələrimizi bütün söhbətlərə, bütün siyasətçilərə nisbətən daha möhkəm bağlayır.

**M s t i s l a v R o s t r o p o v i ç**: Balaca bir əlavə. Heydər Əliyeviç buraya gələndə biz onun bundan əvvəl mənim ciddi musiqi barəsində dediyim belə bir fikri təkrarladığını qeyd etdik: Ciddi musiqini qavramaq üçün dinclik gərəkdir. Heydər Əliyeviç dedi ki, vaxt var idi musiqi tənəzzül edirdi. Çünki qarmaqarışıqlıq, hər şeyə görə – həyata görə, quruluşa görə narahatlıq dövrü idi. Mən bu dəfə buraya gələndə gördüm ki, ötən ildəkinə nisbətən daha çox dinclik, daha çox əminlik var. Əgər bundan sonra da belə getsə, - hökmən belə olacaq, - klassik musiqi çağı da gələcək, onda Siz könül xoşluğu ilə, [60-61] can rahatlığı ilə konsertə gələcək və böyük musiqidən həzz alacaqsınız.

**H e y d ə r  Ə l i y e v**: Bu gün mənim Bakıya qayıtmağımın beş ili tamam olur. O günləri xatırlayıram – 1993-cü ilin iyun ayını və bu günü. Sual verə bilərlər: mən bu beş ildə nəyi ən mühüm nailiyyət hesab edirəm? Əvvəla, müharibəni, qan tökülməsini, ikincisi, ictimai-siyasi sabitliyi, dincliyi, insanların azadlığını təmin etmək mümkün oldu. Buna görə də əmin ola bilərsiniz ki, vaxt ötdükcə daha çox sabitlik olacaq, daha çox azadlıq olacaq, daha çox dinclik olacaqdır. Sağ olun.

**Y u l i  Q u s m a n**: Heydər Əliyeviç, proqramda olduğunuza görə sağ olun.

**M s t i s l a v  R o s t r o p o v i ç**: Bu gün Sizin hamınızı Milli Qurtuluş günü münasibətilə bir daha təbrik etmək istəyirəm. Mən bu günü Sizinlə birlikdə bayram edirəm.

**H e y d ə r  Ə l i y e v**: Sağ olun. [61]

## ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ MSTİSLAV ROSTROPOVİÇLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident sarayı*

*17 iyun 1998-ci il*

**H e y d ə r  Ə l i y e v**: Əziz Mstislav Leopoldoviç! Sizi səmimi-qəlbdən salamlayıram. Çox böyük təəssüf hissi ilə bildirirəm ki, Bakını belə tez tərk edirsiniz. Bütün bu günlər ərzində siz Azərbaycan ictimaiyyətinin diqqət mərkəzində idiniz. Bu günlər maestro üçün də, xalqımız üçün də maraqlı, səmərəli, məzmunlu və böyük əhəmiyyətə malik günlər idi.

Coşğunluqla çalışan, fəaliyyətiniz təkcə mədəniyyət, musiqi sahəsini deyil, məsələlərin, o cümlədən ictimai-siyasi fəaliyyətlə bağlı məsələlərin daha geniş dairəsini əhatə edən bir insan kimi Siz öz üzərinizə belə böyük yük götürən dahi musiqiçi bunu öz ürəyinizin çağırışı ilə, vicdanınızın tələbi ilə və öz insani təbiətinizin hökmü ilə edirsiniz.

Ona görə də bizə təəccüblü deyil ki, iyunun 7-dən başlayaraq Siz burada gərgin cədvəllə işləmisiniz. Sizin bütün həyatınız gərgin cədvəl üzrə gedir. Mən bunu başa düşürəm. Lakin bu, bizim ictimaiyyətimiz üçün təəccüblüdür, çünki insan istedadının yüksək sahəsi ilə – musiqi, özü də yüksək professional musiqi ilə məşğul olan yaradıcı insan düşüncələr, yaradıcılıq axtarışları, ona yeni ilham verən istirahət üçün, adətən, çox vaxta malikdir. Mənim fikrimcə Mstislav Rostropoviç bu kateqoriyadan olan adamlardan özünün məhz coşğun, fəal işi [62-63] ilə, gərgin fəaliyyət cədvəli ilə fərqlənir və onun xoş təəccüb doğuran, qeyri-adi təəssürat yaradan xüsusiyyəti və bənzərsizliyi də elə bundan ibarətdir. Sizi kim tanımasa da, mən yaxşı tanıyıram, ona görə də buna çox təəccüblənmirəm, əksinə, heyranam. Belə düşünürəm ki, bu günlər siz öz vətəninizi – Azərbaycanı, Bakını yenidən fəth etdiniz. Sizin bu günlər Azərbaycanın ictimai-siyasi və mədəni həyatına verdiyiniz töhfəyə görə, indi göstərdiyiniz çox böyük köməyə görə və Azərbaycanda musiqi sənətinin, yüksək professionalizmin inkişafına gələcək köməyinizə görə, habelə maestronun köhnə dostlarının və Azərbaycan musiqiçilərinin gənc nəslinin taleyinə qayğıkeş münasibətinizə görə Sizə təşəkkürümü bildirirəm.

Ermənistan tərəfindən hərbi təcavüzlə bağlı işlərə, Azərbaycan ərazisinin bir hissəsinin işğal olunması, vətəndaşlarımızın öz doğma yerlərindən zorla didərgin salınması ilə əlaqədar xalqımızın düşdüyü vəziyyətə canıyananlıqla yanaşdığınıza görə, təcavüzlə əlaqədar hər şeylərini itirən və bütün çətinliklərə baxmayaraq, başlıca niyyətləri doğma yerlərinə qayıtmaq olan bu mərd, qəhrəman insanların yaşadıqları çadır şəhərciklərinə getdiyinizə görə Sizə ayrıca təşəkkür etmək istəyirəm.

Mən çox şadam ki, bir gün əvvəl olmuş o əla konsertinizdə iştirak etdim və bu konsertdən çox məmnun qaldığımı bildirirəm. Sizin Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik orkestri ilə dirijor kimi çıxış etməyiniz, Qərbin dahi ustadlarının və Azərbaycan bəstəkarı Qara Qarayevin mürəkkəb və maraqlı əsərlərinin səsləndirilməsi böyük mədəniyyət, incəsənət, musiqi bayramı oldu. Bununla bərabər, bu, sizin yeni yaradıcılıq qələbənizdir, müvəffəqiyyətinizdir. Bilirəm ki, siz uzun illər ərzində Londonda, Parisdə, Nyu-Yorkda, Vaşinqtonda, Tokioda dünya şöhrətli simfonik orkestrlərə dirijorluq etmisiniz, mən hələ Moskva və Sankt-Peterburqu de[63-64]mirəm. Bakı bu şəhərlərlə və onların orkestrləri ilə hələlik bəhsləşə bilməz, amma, zənnimcə, orkestrimizin daha yüksəyə qalxmasında sizin iştirakınız ona belə orkestrlərlə bir sırada olmağa kömək edəcəkdir. İndiki halda musiqiçilərimiz də, mən də sizə böyük ümidlər bəsləyirik. Dünən siz belə böyük və nəcib işin yaxşı bünövrəsini qoydunuz.

Sizin Bakıdan getməyinizdən bir daha təəssüfləndiyimi bildirirəm. Sizin bu günlərdə gördüyünüz bütün işlər Azərbaycanın, onun mədəniyyətinin tarixinə, şübhəsiz, ən parlaq səhifə kimi daxil olacaqdır. Hesab edirəm ki, bu, gələcəkdə böyük əməkdaşlığımızın, böyük yolun başlanğıcıdır; elə yolun ki, biz sizinlə bu yolla gedərək, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirəcək, onu demokratiyanın, azadlığın, sivilizasiyanın bütün müasir dünya standartlarına cavab verən dövlətə çevirəcəyik. Bununla birlikdə, bu, Azərbaycan mədəniyyətinin, xüsusən onun simfonik musiqisinin daha da inkişaf etdirilməsi üçün bizim sizinlə birlikdə getdiyimiz yolun başlanğıcıdır. Çox sağ olun.

**M s t i s l a v  R o s t r o p o v i ç**: Hörmətli prezident, mənim unvanıma söylədiyiniz xoş sözlərə, görülən işlər barədə ətraflı məlumat verdiyinizə görə Sizə öz təşəkkürümü bildirirəm. Eyni zamanda bildirmək istəyirəm ki, mən Azərbaycanı tərk etmirəm. Bu fikirlə razılaşmaq mənim üçün çox çətindir. Mən buradan yalnız müvəqqəti olaraq gedirəm. Həmişə sevdiyim Azərbaycan mənim üçün yeni səpgidə açılmış, məndə yeni ruh yüksəkliyi yaratmışdır.

Cənab Heydər Əliyev! Gördüyünüz bu iki fotoalbomu Sizə hədiyyə olaraq hazırlamışam. Onlardan biri mənim qaçqınların çadır şəhərciyinə getməyimdən bəhs edir və jurnalistlərə üz tutub demək istəyirəm ki, bu səfəri mən öz təşəbbüsüm ilə həyata keçirmişəm. Həmin şəhərciklərdə yaşayan insanların layiq olmadıqları bədbəxtlik barədə fikir məni həmişə narahat edibdir. Mən öz sənətimlə qaçqınları sevindirmək

üçün [64-65] violonçelimi özümlə oraya aparmaq istəmişdim. Lakin belə etmədim, yalnız ona görə ki, indi güzəranı çox pis olan qaçqınların məni düzgün başa düşməməsini istəməmişəm. Amma bunu mən adamlar öz doğma yerlərinə qayıtdıqdan sonra onları sevindirmək üçün, onlara həyatlarının yaxşı olacağına ümid vermək üçün mütləq edəcəyəm.

Çadır şəhərciyinə səfərdən aldığım təəssüratı bölüşərək vurğulamaq istəyirəm ki, mənim orada gördüklərim bütün həyatımda bəlkə də ən güclü təəssüratdır. Bütün bunlar mənim yaddaşıma həmişəlik həkk olacaqdır. Mən söz verirəm ki, qaçqınların öz doğma yerlərinə qayıtması məsələsində irəliləyişlə hər gün maraqlanacağam. Belə düşünürəm ki, vicdanın oyanacağı və hər şeyin öz yerini tutacağı vaxt gəlib çatmalıdır.

Cənab Heydər Əliyev! Bu ikinci fotoalbom isə mənə «Şöhrət» ordeni təqdim olunmasına həsr edilmişdir. Bunu mən həyatımda ən mühüm, unudulmaz anlar adlandırıram.

**Heydər Əliyev**: Hörmətli Mstislav Leopoldoviç! Sizin Bakıya indiki səfərinizə həsr olunmuş bu fotoalbomu, «Şöhrət» ordenin təqdim olunmasına dair materiallar verilmiş «Bakinski raboçi» qəzetinin nömrəsini, habelə bu saatı unudulmaz görüşlərimizdən yadigar olaraq hədiyyə verirəm.

**Mstislav Rostropoviç**: Bakıya səfərim məndə çox böyük sevinc hissləri doğurmuşdur. Lakin indiki səfərimdə mütəəssir olmuşam. Mən özümü həmişə dünyada ən xoşbəxt insan sanmışam, hətta məruz qaldığım çətinliklər mənim xeyrimə olmuşdur – mən zəmanəmizin dahi insanları ilə – Pikasso, Şaqal, Araqon, Çarli Çaplin, Sikorski ilə görüşmək imkanı qazanmışam. Lakin mən Azərbaycan qaçqınlarının düşərgələrində olduqdan, öz doğma ocaqlarını itirmiş insanların ağır həyat və məişət şəraiti ilə tanış olduqdan sonra özümü xoşbəxt hesab edə bilmirəm. Hesab edirəm ki, bu adamlar xoşbəxt olduqdan sonra mən özümü yenidən xoşbəxt saya bilərəm. [65-66]

Üzümü mətbuat nümayəndələrinə tutaraq, Azərbaycan qaçqınlarının faciəsi barədə, habelə prezident Heydər Əliyevə qaçqınların böyük məhəbbəti, ona böyük ümidlər bəslədikləri barədə dünyaya daha çox məlumat verməyin zəruri olduğunu söyləmək istəyirəm. Belə düşünürəm ki, bu, məhəbbət və bu ümidlər onların ən gözəl keyfiyyətidir. Müharibənin dayandırılmasında Azərbaycan dövlətinin başçısının xüsusi xidməti olduğunu nəzərə çarpdırıram. Mən bu insanı çox sevirəm və ona inanıram. [66]

## RUSİYANIN MƏŞHUR BALET USTALARI N
## ADEJDA PAVLOVA VƏ VYAÇESLAV QORDEYEVİN, HABELƏ MOSKVANIN «RUS BALETİ» DÖVLƏT
## TEATRININ İŞTİRAKI İLƏ BALET GECƏSİNDƏN
## SONRA GÖRKƏMLİ SƏNƏTKARLARLA GÖRÜŞDƏ ÇIXIŞ

*Respublika sarayı*

*18 iyun 1998-ci il*

Uğurlu çıxışlarınıza görə Sizə ürəkdən təşəkkürümü bildirirəm. Sizin hamınızı gözəl çıxışınız münasibətilə təbrik edirəm. Bu gün bizdə incəsənət bayramı, balet bayramıdır. Hər şeydən öncə sizə Azərbaycana, Bakıya gəlməyə imkan tapdığınıza və bugünkü gözəl çıxışlarınızı iyunun 15-də qeyd etdiyimiz milli Qurtuluş günümüzə həsr etdiyinizə görə sizə təşəkkür etmək istəyirəm. Respublikamıza, xalqımıza böyük diqqətinizə görə sağ olun.

Siz çıxışınızı layiqincə alqışlayan bütün tamaşaçılara böyük sevinc və zövq verdiniz. Siz Bakıya ilk dəfə gəlmişsiniz. Rus baletinin gözəl ustaları Nadejda Pavlova və Vyaçeslav Qordeyev və bütün bu qədd-qamətli və qəşəng balerinalar Bakıya ilk dəfə gəlmişlər. Siz bu gün çox əla rəqs etdiniz. Bu, böyük bayramdır və yəqin hiss etdiniz ki, tamaşaçılar sizi səhnədən buraxmaq istəmirdilər. Mən çox şadam ki, siz öz gözəl sənətinizi bizim tamaşaçılarımıza, xalqımıza göstərdiniz. Mən şadam ki, bu gün saraya toplaşmış ictimaiyyətimiz sizi bir daha şəxsən gördü. Çünki siz böyük incəsənət ustalarısınız və sizin[67-68]lə hər görüş estetik zövqdən başqa, həm də böyük hadisədir. Çox sağ olun. Sizə ürəkdən təşəkkür edir, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıram. Siz hamınız gözəl formadasınız və öz parlaq sənətinizi hələ uzun illər nümayiş etdirəcəksiniz. Rus baleti ən yüksək sənətkarlıq nümayiş etdirir. Mən şadam ki, rus baleti öz layiqli adını, ənənələrini saxlayır və siz bu gün bunu çox gözəl nümayiş etdirdiniz. Bir daha çox sağ olun. [68]

## XALQ RƏSSAMV ELBƏY RZAQULİYEVƏ

Hörmətli Elbəy Rzaquliyev!

Sizi – Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsini anadanolma gününüz münasibətilə və yaradıcılığınızın 50 illiyi ilə ürəkdən təbrik edirəm.

Siz müasir Azərbaycan rəngkarlığında öz fərdi üslubu ilə seçilən, müxtəlif janrlarda maraqlı əsərlər yaradan rəssam kimi tanınırsınız. Tarixi mövzulara və doğma diyarın təbiətinə həsr olunmuş tablolarınız yaradıcılığınızın mühüm bir hissəsini təşkil edir. Əməyi və zəhmət adamlarını təsvir edən rəsmləriniz Azərbaycanda həyata keçirilən quruculuq işlərinin əsl salnaməsidir. Qədim və müasir Bakıya həsr etdiyiniz silsilə əsərlər ölkəmizin paytaxtının təkrarolunmaz gözəlliyini tərənnüm edir və hər bir azərbaycanlı üçün xüsusi əhəmiyyət kəsb edir.

Obrazların psixologiyasına, daxili aləminə nüfuz etmək bacarığı ilə yaratdığınız portretlər müasir insanın düşüncə və hisslərini, ziddiyyətli və zəngin mənəvi keyfiyyətlərini dərk etməyə çağırır. Səfərləriniz zamanı dünyanın bir çox ölkələrinin həyatına və təbiətinə həsr etdiyiniz lövhələr yaradıcılığınızda mövzu rəngarəngliyinə əyani sübutdur.

Siz milli kinematoqrafiyamızın inkişafında öz bilik və bacarığını sərf etmiş kino rəssamı kimi də şöhrət tapmısınız. Azərbaycan kinosunun nadir inciləri sayılan «Arşın mal alan», «Ögey ana», «Görüş», «Sevil» və başqa filmlərin bədii tərtibatçısı və geyim eskizlərinin müəllifi olaraq onların böyük uğur qazanmasında mühüm rol oynamısınız. Filmlər üçün yaratdığınız eskizlərin bir çoxu öz bədii dəyərinə görə müstəqil rəsm əsərləri kimi dəfələrlə sərgilərdə nümayiş etdirilmişdir. [69-70]

Sizin – müasir dövrümüzün aktual mövzularını böyük məharətlə işləyən fırça ustasının keçdiyi sənət yolu gənc rəssamlar nəsli üçün gözəl bir nümunədir. Əminəm ki, öz yeni əsərlərinizlə pərəstişkarlarınızı bundan sonra da sevindirəcək və Azərbaycan təsviri sənət məktəbini daha da zənginləşdirəcəksiniz.

Sizə uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *19 iyun 1998-ci il*
[70]

## BÖYÜK BRİTANİYANIN MİLLİ BAYRAMI – KRALİÇA II YELİZAVETANIN DOĞUM GÜNÜ MÜNASİBƏTİLƏ BÖYÜK BRİTANİYANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*«Hyatt-Recensi-Naxçıvan» mehmanxanası*

*19 iyun 1998-ci il*

Hörmətli cənab səfir!
Hörmətli xanımlar və cənablar!

Sizi Böyük Britaniyanın Milli bayramı – kraliçanın doğum günü munasibətilə ürəkdən təbrik edir, sizə və Böyük Britaniyanın bütün vətəndaşlarına sülh, əmin-amanlıq, səadət və tərəqqi arzulayıram.

Böyük Britaniyanın zəngin tarixi, onun xalqının bəşər mədəniyyətinə verdiyi dəyərli töhfələr Azərbaycanda da yüksək qiymətləndirilir. Müasir dövrdə Böyük Britaniya dünyanın aparıcı dövlətlərindən biri olaraq beynəlxalq aləmdə özünəməxsus yer tutur və dünyada gedən proseslərdə fəal iştirak edir. Dünyada sülhü, əmin-amanlığı təmin etmək üçün Böyük Britaniyanın apardığı siyasəti və əməli fəaliyyəti biz yüksək qiymətləndiririk.

Böyük Britaniya ilə Azərbaycan arasındakı əlaqələr ölkəmiz dövlət müstəqilliyi əldə edəndən sonra yaranıbdır və məmnuniyyətlə qeyd etmək olar ki, müvəffəqiyyətlə inkişaf [71-72] edir. 1994-cü ilin fevral ayında Böyük Britaniyaya səfərim zamanı aparılan danışıqlar və keçirilən görüşlər nəticəsində ölkələrimiz arasında böyük əhəmiyyət kəsb edən sənədlər imzalanmışdır. Bunların əsasında ötən illər Böyük Britaniya–Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün xeyli iş görülüb və biz müsbət nəticələr əldə etmişik.

Bizim iqtisadi sahədəki əməkdaşlığımızı xüsusi qeyd etmək lazımdır. Xəzər dənizinin Azərbaycan sektorunda dünyanın bir çox neft şirkətləri ilə görülən müştərək işlərdə Böyük Britaniyanın şirkətləri görkəmli yer tutur. Keçən il noyabr ayının 12-də «Çıraq» yatağından ilk neft alınmasında da Böyük Britaniyanın «Bi-Pi» şirkəti ilə Azərbaycanın əməkdaşlığının rolu olmuşdur.

Sevindirici hal budur ki, bizim əməkdaşlığımız təkcə neft şirkətləri çərçivəsində yox, bir çox başqa sahələrdə də uğurla irəliləyir. Biz bunların hamısını yüksək qiymətləndiririk.

Azərbaycanın Böyük Britaniya ilə əlaqələri respublikamızın dövlət müstəqilliyinin möhkəmlənməsi, xüsusən Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində də müvəffəqiyyətlidir.

Böyük Britaniya hökumətinin Şimali İrlandiyada münaqişənin həll olunması sahəsində əldə etdiyi nailiyyətlər bizi sevindirir və mən bu münasibətlə təbrik edirəm. Şübhəsiz ki, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında bu təcrübədən istifadə etməyə çalışacağıq. Ancaq biz hesab edirik ki, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının üzvü kimi Böyük Britaniyanın ümumiyyətlə Azərbaycanın hüquqlarının qorunması və ölkəmizin ərazi bütövlüyünün bərpası sahəsində daha da çox imkanları var. Bu imkanlardan istifadə edilməsi bizim üçün çox əhəmiyyətli olardı. [72-73]

Böyük Britaniya ilə Azərbaycan arasındakı əməkdaşlığın elm, mədəniyyət və həyatın başqa sahələrində də irəli getməsi bizi sevindirir. İqtisadi əməkdaşlığımızın yeni perspektivləri açılır və güman edirəm, gələn ay Böyük Britaniyaya rəsmi səfərim zamanı müvafiq danışıqlar aparmağa və sazişlər əldə etməyə nail olunacaqdır.

Müstəqil dövlət kimi Azərbaycan dünyanın bütün ölkələri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaradaraq, Böyük Britaniya ilə əlaqələrinə xüsusi əhəmiyyət verir. Böyük Britaniyanın Azərbaycandakı səfirliyi də bizim bu əlaqələrimizin inkişaf etməsi üçün faydalı fəaliyyət göstərir.

Mən bu bayram günü Böyük Britaniyanın bütün vətəndaşlarına, bütün xalqlarına Azərbaycan xalqı adından yeni-yeni uğurlar arzulayıram. Əmin olduğumu bildirmək istəyirəm ki, bizim əlaqələrimiz getdikcə genişlənəcək və daha da yüksək səviyyələrə qalxacaqdır. Bayram münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Bayramınız mübarək olsun! [73]

## MOSKVA AKADEMİEK SATİRA TEATRININ QRİQORİ QORİNİN EYNİ ADLI PYESİ ƏSASINDA HAZIRLANMIŞ «BƏXTLİ VƏ BƏXTSİZ» TAMAŞASINA BAXDIQDAN SONRA TEATRIN YARADICI KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Azərbaycan Dövlət Akademik*
*Milli Dram Teatrı*

*20 iyun 1998-ci il*

Mən sizə təşəkkür etməyə, Azərbaycana gəldiyinizə görə, Bakıda istilərə baxmayaraq, burada çox müvəffəqiyyətlə keçən tamaşalarınıza görə və parlaq sənətinizə görə sizə çox sağ olun deməyə gəldim. Çox sağ olun.

Bakıda bu vaxt belə isti olduğunu xatırlamıram. Bizdə adətən iyulda çox isti olur. Sizin teatr böyük şöhrətə malikdir. Azərbaycanda sizin teatrı həmişə sevmişlər. Mən, oğlum, övladlarım sizin teatrın, sizin sənətin pərəstişkarlarıyıq. Keçmiş vaxtlarda siz Bakıya gəlirdiniz və biz görüşürdük. Mən Moskvada yaşayıb işləyən vaxtlarda da sizin teatrınıza gedirdim. Şadam ki, sizi böyük fasilədən sonra yenidən görürəm. Doğrudur, sizi, xüsusən Mixail Mixayloviçi və Aleksandr Anatolyeviçi televiziya ilə bəzən görürəm. Sizə baxdıqda sevinirsən ki, heç dəyişməyibsiniz, qocalmayıbsınız, yenə də gözəl, yenə də şən, gülərüzsünüz, həmişə də öz yaradıcılığınızı təkmilləşdirirsiniz. Mən sizin teatrın uğurlarına çox şadam. Sizi Azərbaycanda uğurlu qastrol və Bakı səhnəsində müvəffəqiyyətli çıxışlar münasibətilə təbrik edirəm. [74-75]

Teatra, konsertə getmək mənim üçün heç də vəzifələrin formal şəkildə yerinə yetirilməsi demək deyildir, bu mənim şəxsi istəyimdir. Bizdə hamının, o cümlədən də mənim işlərim çoxdur. Respublikamızda işlər və problemlər hər hansı ölkədəkinə nisbətən daha çoxdur. Siz ölkəmizdə nə kimi mürəkkəb məsələlər və çətinliklər olduğunu yəqin bilirsiniz. Lakin çox məşğul olsaq da, teatrla görüş, incəsənətlə görüş həmişə bizi sevindirir, böyük ilham verir və işdə kömək edir. Buna görə də mən Azərbaycanda olmuş Slava Rostropoviçin konsertlərinə, bizim Musiqi Akademiyasında onun şagirdlərinin konsertinə getdim, Nadejda Pavlovanın və Vyaçeslav Qordeyevin balet gecəsində oldum. Söz düşmüşkən, onlar Azərbaycana ilk dəfə olaraq gəlmişdilər. Ancaq biz öz mədəniyyətimizi də unutmuruq. Mən milli teatrımızın tez-tez qonağı oluram. Teatrsız həyat yoxdur.

Bilirsinizmi, mən Respublika sarayında Nadejda Pavlovanın və Vyaçeslav Qordeyevin balet gecəsində olarkən ziyalıların nümayəndələri ilə görüşdüm və onların çoxu mənimlə söhbət əsnasında dedi ki, maddi çətinliklərə baxmayaraq, incəsənət onlar üçün hər şeydən mühümdür. Azərbaycanda dünya incəsənətinin nümayəndələri ilə görüşmək üçün hər cür şərait yaradılması ziyalılarımızı çox sevindirir.

Biz öz milli incəsənətimizi çox qiymətləndiririk, lakin Rusiya incəsənətini də dəyərləndiririk, bizim mədəniyyətimiz qarşılıqlı surətdə çox sıx bağlıdır. Azərbaycan incəsənəti kimi bizə rus incəsənəti də əzizdir.

Çox sağ olun. Sizə yeni -yeni yaradıcılıq uğurları arzulayıram.

**Aleksandr Şirvindt** *«Rusiyanın xalq artisti»*: Hörmətli cənab prezident, səmimi, xoş sözlərə görə sağ olun! Sağ olun ki, vaxt tapıb tamaşamıza gəldiniz. Biz artıq dörd gündür Bakıdayır. Sizinlə birlikdə biz də Slava Rostropoviçin konsertində, sonra Vyaçeslav Qordeyevin və Nadejda Pavlo[75-76]vanın balet gecəsində olduq. Bu gün Siz bizim qonağımızsınız. Elə təsəvvür yarana bilər ki, Sizin dövlət işləriniz çox deyildir, amma əslində başqa cürdür. Yəni dövlətin rəhbəri onun ölkəsinin mədəniyyətinin nə ilə yaşadığını bilmək istəyir. Əgər Siz üstəlik başqa ölkənin mədəniyyətinə də diqqət yetirirsinizsə, deməli, mədəniyyət yaşayacaqdır. Çox sağ olun. [76]

## «HÜRRİYYƏT» QƏZETİNƏ

Hörmətli hürriyyətçilər!

Sizi qəzetinizin 50 illik yubileyi münasibətilə səmimi qəlb-dən təbrik edir, bütün işlərinizdə yaradıcılıq uğurları diləyirəm.

«Hürriyyət» Türkiyə Cümhuriyyətinin ictimai-siyasi və mədəni həyatında əhəmiyyətli rol oynamış bir qəzetdir. İlk sayı 1948-ci ildə işıq üzü görən bu qəzet sonrakı illərdə böyük Atatürk ideyalarına sədaqətlə xidmət edərək Türkiyə həyatının ayrılmaz hissəsinə çevrilmiş, ölkədə söz, mətbuat və informasiya azadlığının yaranması, demokratiyanın inkişafı üçün önəmli xidmətlər göstərmişdir. «Hürriyyət»in ən böyük xidmətlərindən biri dünya xalqlarının ümumbəşəri dəyərlərinin Türkiyədə yayılması və milli dəyərlərlə sintezinin yaradılması olmuşdur. Eyni zamanda türk xalqlarının tarixi-mədəni irsinin, adət-ənənələrinin dünya ictimaiyyətinə çatdırılması, Türkiyənin dünya birliyinə inteqrasiya olunması sahəsində də bu qəzet mühüm rol oynamışdır.

Azərbaycan müstəqillik qazandıqdan sonra «Hürriyyət» qəzeti respublikamızda geniş yayılmış, iki dost və qardaş ölkə olan Türkiyə və Azərbaycan arasında möhkəm təmas yaratmışdır. Xalqlarımızın intensiv informasiya mübadiləsində, elmi, mədəni və ictimai əlaqələrinin inkişafında diqqətəlayiq xidmətlər göstərmişdir.

Arzu edirəm ki, «Hürriyyət» bundan sonra da xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrinin inkişafı üçün öz imkanlarını əsirgəməsin.

Sizə dərin hörmətlə

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *22 iyun 1998-ci il*
[77]

## AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT QEYDİYYATINDAN KEÇƏN SİYASİ PARTİYALARA

1998-ci ilin payızında keçiriləcək Azərbaycan Respublikası prezidentinin seçkiləri müstəqil Azərbaycanın yeni Konstitusiyası əsasında aparılan ilk seçkilərdir. Azərbaycan Respublikasının müstəqillik qazandığı dövrdən birinci dəfədir ki, prezident seçkiləri əmin-amanlıq, siyasi sabitlik və siyasi plüralizm şəraitində keçirilir. Mütərəqqi ölkələrin dövlət quruculuğu təcrübəsinə uyğun hazırlanan və bu yaxınlarda Milli Məclis tərəfindən qəbul edilən «Azərbaycan Respublikası prezidentinin seçkiləri haqqında» və «Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası haqqında» qanunlar bu seçkilərin demokratik, azad və sağlam siyasi rəqabət və tam aşkarlıq şəraitində keçirilməsinin hüquqi zəminini yaradıbdır.

Azərbaycan Respublikasının dövlət başçısı Konstitusiyaya əsasən Azərbaycan xalqının vahidliyini təcəssüm edir. Ona görə də prezident seçkilərinin keçirilməsində və nəticələrinin müəyyən edilməsində bütün vətəndaşlara bu sahədə nəzarət üçün imkan yaradan mexanizmlərin və institutların təsis edilməsi, şübhəsiz, bir şərtdir. Bununla əlaqədar, bütün seçki hərəkətləri və seçki tədbirləri tam aşkar keçirilməli, seçkilərin bütün mərhələlərində müşahidəçilərin azad və maneəsiz iştirakı təmin edilməlidir. Eyni zamanda, seçki komissiyaları səsvermənin nəticələrini müəyyən edərkən tam sərbəst və qərəzsiz hərəkət etməli və cəmiyyətdə mövcud olan müxtəlif siya si qüvvələr arasında arbitr olmalıdırlar. Bu və ya digər seçki [78-79] komissiyasının üzvünün siyasi baxışları, onun bu və ya digər prezidentliyə namizədə olan münasibəti seçkilərin nəticələrinin müəyyən edilməsində qərəzli hərəkət etmək üçün səbəb olmamalıdır.

Cəmiyyətdə siyasiləşmə proseslərinin kifayət qədər yayılmağı səbəbindən bir çox siyasi partiyalar cəmiyyətin yalnız məhdud dairələrinin siyasi baxışlarını ifadə edirlər. Lakin buna baxmayaraq, hesab edirəm ki, qanunda seçkilərin keçirilməsində aşkarlıq və açıqlıq prinsiplərinin əsas götürülməsində şübhə üçün yer qoyulmaması nöqteyi-nəzərindən fəal siyasətlə məşğul olan qurumların, siyasi partiyaların Azərbaycanın siyasi həyatının ən mühüm hadisəsi olan prezident seçkilərində daha fəal iştirak etmələrini təmin etmək məqsədilə müşahidəçilər institutundan başqa, əlavə imkanlar da yaradıla bilər.

«Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası haqqında» qanunun ikinci maddəsinə əsasən Mərkəzi Seçki Komissiyasının 12 üzvü hakimiyyətlər bölgüsü və hakimiyyətlərin tarazlaşdırma prinsiplərinə əsasən Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən, digər 12 üzvü isə Azərbaycan Respublikası prezidenti tərəfindən təyin edilir. Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizədlərin seçilməsində həm Azərbaycan Respublikasının prezidenti, həm də Azərbaycan Respublikasının Milli Məclisi tam sərbəstdirlər. Lakin, hesab edirəm ki,Mərkəzi Seçki Komissiyasının tərkibinə namizədlərin müəyyən edilməsi üçün mümkün qədər geniş imkanlar yaradılmalı və belə namizədlərin sayı mümkün qədər çox olmalıdır. Bu məqsədlə, Azərbaycan Respublikasında dövlət qeydiyyatından keçən bütün siyasi partiyalara müraciət edərək bildirirəm ki, onlar Azərbaycan Respublikası prezidentinə Mərkəzi Seçki Komissiyasının tərkibinə təyin edilmək üçün öz bitərəf namizədlərini təklif edə bilərlər. [79-80]

Əminəm ki, əksəriyyəti ixtisasca hüquqşünas olan həmin namizədlər müəyyən peşəkar tələblərə cavab verəcəklər və Mərkəzi Seçki Komissiyasının tərkibinə Azərbaycan Respublikasının prezidenti tərəfindən təyin edilərək seçkilərin nəticələrini qərəzsiz və sərbəst müəyyən etməyə qadir olacaqlar.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *23 iyun 1998-ci il*
[79]

## AZƏRBAYCAN MİLLİ ORDUSUNUN YARADILMASININ 80 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ NİTQ

*Respublika sarayı*

*26 iyun 1998-ci il*

Əziz əsgərlər, zabitlər, döyüşçülər!

Hörmətli xanımlar və cənablar!

Sizi Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü, Azərbaycan Milli Ordusunun yaranmasının 80 illik yubileyi, bayram münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Azərbaycanın Silahlı Qüvvələrində öz şərəfli xidmətlərini yerinə yetirən, səngərlərdə duran, hərbi hissələrdə fəaliyyət göstərən, cəbhə bölgəsində Ermənistan silahlı qüvvələri ilə üz-üzə duraraq Azərbaycanın torpaqlarını, vətənimizi qoruyan əsgərləri, döyüşçüləri ürəkdən təbrik edirəm.

Biz 26 iyun gününü bayram elan etmişik. Bu, tam əsaslıdır, məqsədəuyğun, qanunauyğundur. Çünki 80 il bundan öncə məhz bu gün Azərbaycan Xalq Cümhuriyyətinin- ölkəmizin müstəqilliyini elan edən xalq cümhuriyyətinin, müstəqil Azərbaycanı qurub-yaradan, hələ Gəncədə fəaliyyət göstərən hökumətin ilk addımlarından biri Azərbaycanın Milli Ordusunun yaranması haqqında verdiyi qərar olmuşdur. Həmin qərara, addıma böyük hörmət əlaməti olaraq biz 26 iyun gününü Azərbaycanın Silahlı Qüvvələri, ordusu günü elan etmişik.

Ötən 80 il müddətində Azərbaycan xalqı ordu quruculuğu sahəsində mürəkkəb, ziddiyyətli və eyni zamanda şərəfli bir [81-82] yol keçmişdir. Bu 80 ilin mərhələləri, hər mərhələnin də özünəməxsus əhəmiyyəti vardır. Bu, bizim 80 illik tariximizdir. Bizim bugünkü ordumuz, Silahlı Qüvvələrimiz, müstəqil Azərbaycanın Silahlı Qüvvələri bu 80 illik yoldan keçərək bugünkü nizami ordu səviyyəsinə gəlib çatmışdır.

Azərbaycan xalqının qədim, zəngin dövlətçilik tarixi vardır. Azərbaycanın dövlətçilik tarixində ordu qurulması, yaranması, dövləti, ölkəni qorumaq üçün qüdrətli olması həmişə diqqət mərkəzində dayanıbdır. Azərbaycan xalqı çoxəsrlik tarixində çox döyüşlərdən çıxmış, yadelli basqınlara cavab verərək, torpaqlarını qoruyaraq, qonşu xalqların, ölkələrin təcavüzünün qarşısını alaraq, yaxud da öz ərazisinin bərpasını təmin edərək çox döyüşlər etmiş, döyüşlərdən çıxmışdır. Azərbaycan xalqı tarix boyu görkəmli qəhrəmanlıq nümunələri göstərmişdir. Azərbaycan xalqının igid oğulları öz qəhrəmanlıqları ilə dastana çevrilmişlər, nəsillərdən-nəsillərə, dillərdən-dillərə keçmişlər. Koroğlu, Babək kimi adlar bizim tarixi keçmişimizə aid olsa da, xalqımız üçün bu gün də qəhrəmanlıq, cəsurluq nümunələridir, hər bir Azərbaycan gənci üçün örnəkdir.

XIX-XX əsrlərdə Azərbaycan öz dövlətçiliyindən məhrum olandan sonra, çar Rusiyasının tərkibində olduğu zaman da Azərbaycan xalqının görkəmli nümayəndələri həmin orduda xidmət etmiş və Azərbaycan oğlunun, əsgərinin hərbi peşəkarlıq sahəsində nəyə qadir olduğunu dəfələrlə sübut etmişlər.

Doğrudur, respublikamız çar Rusiyasının tərkibində olduğu zaman azərbaycanlıları, müsəlmanları orduya cəlb etmirdilər, ordudan azad edirdilər. Biz tarixi təhlil edərkən bunun nə qədər mənfi nəticələr verdiyini görürük. Millətimiz, xalqımız hərbi peşədən məhrum olmuşdu. Ancaq bununla yanaşı, o dövrdə hakim dairələrlə bağlı olan xan sülalələri övladlarını hərbi xidmətə göndərir, bunu özlərinə böyük şərəf hesab edirdilər. Onlar yüksək səviyyəli hərbi məktəblərdə təh[82-83]sil alaraq böyük rütbələr almağa nail olurdular. Onlar hamısı çar Rusiyasının ordusunda xidmət etmişlər. Azərbaycanlı bəzi görkəmli sərkərdələr, generallar Rusiyanın XIX əsrdə apardığı müharibələrdə iştirak etmiş və qəhrəmanlıq nümunələri göstərmişlər. Bununla bərabər, xatırladığım bu faktların bu gün bizim üçün əhəmiyyəti ondan ibarətdir ki, bunlar xalqımızın, millətimizin nəyə qadir olduğunu göstərir.

Çar Rusiyasının ordusunda azərbaycanlılar, müsəlmanlar xidmət etmədikləri halda Azərbaycan oğulları rus ordusunun yüksək səviyyəli hərbi məktəblərini bitirib, döyüşlərdə böyük peşəkarlıq, qəhrəmanlıq nümunələri göstərib, general rütbələri alıb, yüksək ordenlərlə təltif ediliblərsə, bunlar Azərbaycan xalqının, oğullarının nəyə qadir olduğunu göstərir. Bunlar tariximizin sovet dövründə unudulmuş səhifələridir, faktlardır. Ancaq biz bu gün tariximizi bərpa edərkən bunların hamısını öyrənməliyik və xalqımız bunu bilməlidir.

Naxçıvan xanları sülaləsindən bir neçə general çox uğurla xidmət etmişlər: general Ehsan xan, general Kalbalı xan, Hüseyn xan, İsmayıl xan, Cəmşid xan Naxçıvanskilər. Bakıxanovlar sülaləsindən bir çox generallar Azərbaycanın tarixində və rus ordusunun tarixində görkəmli yer tutmuşlar. Talışxanovlar sülaləsindən bir çox generallar bizim tariximizin səhifələrində öz yerlərini tutmuşlar. General Fərəc bəy Ağayev, general Ağalarov, general Ərəblinski və başqaları - bunlar hamısı XIX əsrdə və XX əsrin əvvəllərində orduda xidmət etmiş yüksək rütbəli generallar, Azərbaycan oğullarıdır.

Rus ordusunda böyük hörmət qazanmış Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski tariximizdə adlarını çəkdiyim generallara nisbətən daha da tanışdırlar. Onlar Rusiya - Yaponiya müharibəsində iştirak etmişlər, qəhrəmanlıq nümunələri göstərmişlər, sonra isə 1918-ci ildən başlayaraq Azərbaycanda Silahlı Qüvvələrin yaranmasında böyük xidmətləri olmuşdur. [83-84]

Bəli, bu gün böyük məmnuniyyət hissi ilə qeyd etmək olar ki, 1918-ci ildə xalq cümhuriyyəti, Azərbaycanın ilk demokratik hökuməti dövlət quruculuğu işini çox mürəkkəb və çətin bir dövrdə apardığı zaman Silahlı Qüvvələrin yaranmasına və ordu quruculuğuna xüsusi əhəmiyyət vermiş, qayğı gös-tərmişdir. Xalq Cümhuriyyətinin iki illik - iki il tam olmamışdır - tarixini bu gün vərəqləyərkən ordu quruculuğu sahəsində nə qədər dəyərli işlər gördüyü doğrudan da böyük hörmət hissi doğurur.

Azərbaycanın ilk hərbi naziri – Baş nazir Fətəli xan Xoyski olmuşdur. Ancaq az bir müddətdən sonra Səməd bəy Mehmandarov hərbi nazir, Əliağa Şıxlinski hərbi nazirin müavini təyin edilmişlər. Baş qərargahın rəisi isə polyak millətindən olan Sulkeviç olmuşdur. Onlar çox işlər görmüşlər. O vaxt gənc, müstəqil Azərbaycan Ermənistan təcavüzünə, Ermənistanın Azərbaycanda törətdiyi təxribatlara qarşı mübarizə, döyüşlər aparırdı və uğurlu işlər görürdü.

Xalq Cümhuriyyəti süqut edəndən sonra Azərbaycan Sovet Sosialist Respublikası yaşadığı əvvəlki iki il müddətində ordu quruculuğu ilə məşğul olmuşdur. O vaxt, 1920-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının Hərbi Dəniz Nazirliyi yaranmışdı. Azərbaycan öz Silahlı Qüvvələrini yaradır və inkişaf etdirirdi. Doğrudur, bu ordu dərhal sonra XI Qızıl Ordunun tərkibinə keçmişdi. Ancaq buna baxmayaraq bu, Azərbaycan Respublikasının özünün yaratdığı hərbi hissələr olmuşdur. Xalq Cümhuriyyəti kimi, Azərbaycan Sovet Sosialist Respublikasının hökuməti də Azərbaycanın mövcud olan hərbi mütəxəssislərindən istifadə etmişdir.

Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski uzun müddət çar Rusiyasının ordusunda xidmət edəndən, Xalq Cümhuriyyəti dövründə müstəqil Azərbaycan ordusunun yaranmasına rəhbərlik edəndən sonra Azərbaycan Sovet Sosialist Respublikasında da ordu qurmaq, yaratmaq, azərbaycanlıla[84-85]ra hərbi təhsil, təlim vermək işləri ilə məşğul olmuşlar. Bu, çox maraqlıdır, səciyyəvidir, amma eyni zamanda təbiidir. Çünki hərbi peşə, ixtisas birinci növbədə hərbi təhsil, təcrübə, bilik, hərbi təlim-tərbiyə, döyüş təcrübəsi tələb edir. Bunlar olmayanda ordu qurmaq, Silahlı Qüvvələr yaratmaq mümkün deyildir. Əgər bunlar, peşəkar hərbçilər varsa, ordu quruculuğunda onlardan səmərəli istifadə etmək olar. Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski buna əyani sübutdur.

Qeyd etdiyim kimi, Cəmşid Naxçıvanski Naxçıvan xanları sülaləsindən çıxmış generallardan biridir. O, çar Rusiyası ordusunda xidmət etmiş, xalq cümhuriyyəti zamanı Azərbaycanın diviziya komandiri olmuş və Qarabağda erməni təxribatçılarına, təcavüzkarlarına qarşı döyüşlər aparmış, sonra isə sovet ordusunda xidmət etmişdir. O, nə qədər böyük təcrübəli bir insan olmuşdur ki, o vaxt Sovetlər İttifaqının ən yüksək hərbi məktəbi olan Frunze adına Moskva Hərbi Akademiyasında kafedra müdiri vəzifəsində işləmişdir.

Doğrudur, təəssüf etməliyik ki, belə kadrların bəziləri, bəlkə də çoxları sonralar sovet hakimiyyətinin repressiya qurbanları oldular. Onların çoxu 30-cu illərdə öldürüldülər, məhv oldular, o cümlədən Cəmşid Naxçıvanski də 1937-ci ildə repressiya qurbanı oldu.

Mən bu fikirləri deməklə onu bildirmək istəyirəm ki, ordu quruculuğu, Silahlı Qüvvələrin yaranması böyük səriştə, təcrübə, bilik tələb edir. Bunu ilk Azərbaycan Xalq Cümhuriyyətinin, hökumətinin rəhbərləri çox gözəl bilirdilər. Ona görə də hərbi mütəxəssislərin, keçmişdə xidmət etmiş generalların, zabitlərin təcrübəsindən, xidmətlərindən səmərəli istifadə edirdilər.

Bunlar hamısı Azərbaycanda ordu quruculuğunun tarixinə aid səhifələrdir. Çünki 80 illik yubiley deyəndə biz ortada heç bir şeyi itirməməliyik. Bir daha deyirəm, Azərbaycan xalqı keçmiş dövrlərdə də, öz ordusu olduğu zamanda da güclü or[85-86]du yaratmağa qabil olubdur. Azərbaycan xalqı hətta müstəqil olmadığı halda da, başqa dövlətin tərkibində, yaxud başqa bir rejimdə yaşadığı zamanda da yenə hərbi peşəni mənimsəməyə çalışıb və çox gözəl nümunələr göstəribdir.

İkinci dünya, Böyük Vətən müharibələri zamanı Azərbaycanın yeni böyük hərbçilər, zabitlər, generallar korpusu yarandı. 1941-ci ildə, Böyük Vətən müharibəsi başlayan zaman, ümumiyyətlə müharibənin gedişi dövründə Azərbaycan vətəndaşlarının 700 mini cəbhəyə göndərilmiş, onlardan 300 mini həlak olmuş, geriyə qayıtmamışdı. Onların əksəriyyəti azərbaycanlılar olmuş və Azərbaycan oğulları alman faşizmi ilə aparılan döyüşlərdə böyük qəhrəmanlıq nümunələri göstərmişlər.

Onların adları xalqımızın tarixində daim yaşayacaqdır. İsrafil Məmmədov, Qafur Məmmədov, Hüseynbala Əliyev, Mehdi Hüseynzadə kimi Sovet İttifaqı qəhrəmanları həqiqətən böyük igidliklər göstərmişlər. O illərdə azərbaycanlılardan yüksək səviyyəli zabitlər və generallar da yetişmişdir. Həzi Aslanovun qəhrəmanlığı bütün dünyaya məlumdur. General Həzi Aslanov, general Akim Abbasov, general Mahmud Əbilov və bir çox başqa generallar, zabitlər İkinci dünya müharibəsi zamanı yetişmiş Azərbaycan generalları, zabitləridirlər.

O illər Azərbaycan xalqının müharibədə iştirakı bir neçə xüsusi Azərbaycan diviziyalarının tərkibində olmuşdur. 1941-ci ildən başlayaraq Azərbaycanda 402-ci, 369-cu, 223-cü, 416-cı diviziyalar təşkil olunmuşdur və onların əksəriyyəti azərbaycanlılardan ibarət idi. Onlar Qafqazın müdafiəsində, sonra isə alman faşist qoşunlarının Sovet İttifaqı ərazisindən çıxarılmasında, hətta Berlinə qədər qovulmasında işti-

rak etmişlər. Bu diviziyalar vaxtilə, hələ 20-ci illərdə Azərbaycanda yaranmış 77-ci diviziyanın əsasında 1941-1944-cü illərdə yaranmış diviziyalar idi. 77-ci diviziya da çox böyük döyüş, qəhrəmanlıq yolu keçmişdir. 416-cı Taqanroq diviziyası Berlinə qədər getmişdir. 223-cü diviziya Belqradın alınmasında, Ru[86-87]mıniya və başqa ölkələrdə faşist ordularının məhv olunmasında iştirak etmişdir. Bunlar hamısı Azərbaycan xalqının hərbi peşəyə bağlı və hərbi peşə kimi bir peşəyə yiyələnməyə qadir olduğunu əyani surətdə göstərir.

İkinci dünya, Böyük Vətən müharibələrində Azərbaycandan iştirak edənlərin çoxları yüksək qəhrəmanlıq nümunələri göstərib ordenlərlə, medallarla təltif olunmuşlar. Ancaq təəssüflər olsun ki, müharibə zamanı yaranmış milli diviziyalar müharibə qurtarandan sonra, 1940-cı illərin sonunda, 1950-ci illərdə dağıdıldı. Beləliklə də Azərbaycan millətindən olan zabit korpusu da get-gedə dağıldı. Demək olar ki, 1960-cı illərdə azərbaycanlılardan sovet ordusunda yüksək zabit, general səviyyəsində xidmət edənlər azaldı və yoxa çıxdı.

Şübhəsiz ki, həmin dövrdə biz hərbi peşəkarlıq sahəsində, xalqımızın bu işə münasibətində müəyyən mənada itirmişik. Ancaq biz bunu da aradan götürməyə çalışdıq. 1960-1970-ci illərin əvvəllərində müşahidələr onu göstərdi ki, sovet ordusuna Azərbaycandan hər il 60-70 min gənc səfərbər edilir, onlar hərbi mükəlləfiyyət, iki illik hərbi xidmət keçirlər. Ancaq bunların içərisində peşəkar hərbçilər ya olmur, ya da çox az olurdu. Azərbaycanlı gənclərin hərbi məktəblərdə təhsil almağa marağı çox azalmışdı. Bu, müəyyən qədər təbiidir. Çünki əgər XIX əsrdə Azərbaycan xanları öz övladlarını çar ordusunda xidmət etməyə, yüksək dərəcəli hərbi məktəblərdə oxumağa göndərməyi özləri üçün böyük şərəf hesab edirdilərsə və bu, onlara hörmət gətirirdisə, bu, öz-özünə yox, onların fəaliyyəti nəticəsində olurdu.

İkinci dünya müharibəsi zamanı ümumi səfərbərlik oldu. Azərbaycan oğulları qəhrəmanlıq nümunələri göstərdilər, müharibə zamanı yetişdilər, yüksək zabit, general rütbələri aldılar. Əgər təkcə Azərbaycan diviziyalarını yox, ümumiyyətlə milli diviziyaları dağıtmasaydılar, şəbhəsiz ki, bizim peşəkar hərbi kadrlarımız daha da çox ola bilərdi. [87-88]

Ona görə də biz 1970-ci illərin əvvəllərində azərbaycanlılardan ibarət peşəkar hərbi kadrlar hazırlanması məsələsini xalqımızın əsas vəzifələrindən biri kimi ortaya atdıq. Nə üçün?

Birincisi, mən bu gün açıq deməliyəm ki, bizim, xalqımızın şərəfinə toxunurdu ki, orduda azərbaycanlı zabit, general ya yoxdur, ya da azdır. İkinci tərəfdən, bu, bizə ona görə toxunurdu ki, səfərbər olunanların əksəriyyəti ikinci-üçüncü dərəcəli hissələrə, inşaat batalyonlarına göndərilirdi. Beləliklə də onlar ikiillik xidmət zamanı yüksək hərbi peşəkarlıq təcrübəsi əldə edə bilmirdilər. Əgər XIX əsrdə millətimizin orduda xidmət etməsinə məhdudiyyət qoyulurdusa Azərbaycan xanları generallar hazırlanmasına xüsusi diqqət verirdilərsə, bəs XX əsrin ikinci yarısında nə üçün biz azərbaycanlılardan generallar, yüksək rütbəli zabitlər hazırlamamalıyıq? Ona görə də biz bu işlə çox ciddi məşğul olduq və 1972-ci ildə Cəmşid Naxçıvanski adına orta hərbi məktəb yarandı, indi onun adı hərbi kollecdir. O, xalqımıza çox böyük xidmət etdi və bu gün də xidmət edir. Ancaq biz təkcə bununla kifayətlənmədik.

Azərbaycanda 1939-cu ildə sovet ordusunun iki hərbi məktəbi yaranıbdır. Onlardan biri Ümumi Hərbi Komandirlər Məktəbi, ikincisi Hərbi Dəniz Donanması Məktəbidir. Bu məktəblər Azərbaycanda 1939-cu ildən yaranıbdır, on illərlə respublikamızda yerləşibdir. Ancaq mən 1970-ci ildə bu məktəblərin işi ilə tanış olarkən gördüm ki, hər bir məktəb ildə 300 müdavim qəbul etdiyi halda, Ümumi Hərbi Komandirlər Məktəbində cəmisi 10-15 nəfər azərbaycanlı təhsil alır, Hərbi Dəniz Donanması Məktəbində isə 1-2 nəfər azərbaycanlı oxuyur. Hərbi məktəblər Azərbaycanda, Bakıda yerləşirdi, amma orada oxuyanların tam əksəriyyəti azərbaycanlı deyildi. Bu, bir tərəfdən o vaxt aparılan siyasət - sovet hakimiyyətinin siyasəti idi. Onlar o vaxt orduda yüksək vəzifələrdə başqa millətlərdən və xüsusən, Azərbaycan millətindən olan in[88-89]sanları görmək istəmirdilər. İkinci tərəfdən də Azərbaycanda hərbi peşəyə soyuq münasibət var idi. Biz bunların aradan qaldırılması üçün tədbirlər gördük. Biz Naxçıvanski adına hərbi məktəb yaratmaqla yanaşı, Azərbaycanda yerləşən iki ali hərbi məktəbə - baxmayaraq ki, onlar birbaşa Moskvaya, Sovet İttifaqı Müdafiə Nazirliyinə tabe idilər - hər il azərbaycanlıların qəbul edilməsinə nail olduq.

Bununla yanaşı, 1970-ci illərdən bu iş tədricən getdi. 1970-ci illərin axırında biz hər il Sovetlər İttifaqının cürbəcür şəhərlərində yerləşən təxminən 45-dən artıq hərbi məktəbə hərbi təhsil almaq üçün Azərbaycandan ümumən 800-900 nəfər gənc göndərirdik. Bunların hamısını edərkən biz öz xalqımız haqqında düşünürdük. Düşünürdük ki, xalqımızda hərbi peşə itməsin, - çar Rusiyası vaxtı demişdilər ki, «müsəlmanlar orduda qulluq edə bilməz», - xalqımız hərbi peşədən məhrum olmasın. Mən eyni zamanda o vaxt düşünürdüm ki, gələcəkdə bu bizə lazım olacaqdır.

İndi təsəvvür edin, əgər bunları etməsəydik, müstəqillik əldə edəndə ordumuzda hansı zabitlərdən istifadə edə biləcəkdik? O illərdə biz eyni zamanda, sovet ordusunun sıralarında azərbaycanlıların irəliyə çəkilməsi ilə də məşğul olurduq. Biz hər bir belə işi Azərbaycan xalqı üçün əlamətdar hadisə kimi qiymətləndirirdik.

Məsələn, hələ 1940-cı illərdən Bakıda böyük bir hərbi hissə - hava hücumundan müdafiə dairəsi yerləşirdi. Onun vəzifəsi təkcə Bakını mühafizə etmək deyildi. O, bütün Qafqazı, hətta Rostova, Volqoqrada qədər olan ərazini mühafizə etməkdən ötrü böyük bir hərbi hissə idi.

Amma orada azərbaycanlılar xidmət etmirdilər. Nəhayət, bir neçə azərbaycanlının orada xidmət etməsi mümkün oldu. Orada zenit-raket qoşunlarına komandan ilk dəfə azərbaycanlı Hüseyn Rəsulbəyov təyin olundu. O, general-leytenant rütbəsinə gəlib çatdı. Bu, xalqımız üçün böyük bir hadisə oldu. [89-90]

O vaxt mən arayırdım ki, sovet ordusunda harada azərbaycanlı var, onlara kömək edək, irəliyə çəkək, onların inkişafına yardım göstərək.General Bərşadlı da onlardan biridir. O vaxt mən arayarkən onu sovet ordusunun Almaniyadakı hissəsində tapdım. O, orada ordu komandanının müavini idi. Mən onu Azərbaycana dəvət etdim və Bakıda yerləşən Hərbi Komandirlər Məktəbinə rəis təyin etdim. Həmin məktəbin rəisi həmişə rus olurdu, müavini isə mən işlədiyim dövrdə bir neçə erməni idi. Amma bu məktəb Azərbaycanda yerləşirdi. General Bərşadlını həmin məktəbə rəis təyin etmək asan məsələ deyildi. Ancaq mən onu təyin etdirdim ki, onun vasitəsilə oraya çoxlu azərbaycanlılar qəbul olunsun, hərbi peşəyə alışsınlar və bu peşəni, zabit peşəsini öyrənsinlər və fəaliyyət göstərsinlər.

Bakıda Xəzər Hərbi Dəniz Donanması 1920-ci ildə yaranıbdır. Hələ çar Rusiyası vaxtından var idi. Orada da qətiyyən azərbaycanlı yox idi. Biz admiral Qasımbəyovu Kronştadtdan tapıb gətirdik. İlk dəfə olaraq Xəzər Hərbi Dəniz Donanmasına komandan admiral Qasımbəyovu təyin etdim.

Xatirimdədir, general-polkovnik Ağahüseynov 1970-ci illərin əvvəllərində burada polk komandiri, zabit idi. Mən çox qayğı göstərdim, çalışdım ki, o, inkişaf etsin, inkişaf da etdi. Sonra Volqoqradda diviziya komandanı, Rostovda korpus komandanı oldu və nəhayət, Bakı Hava Hücumundan Müdafiə Hərbi Dairəsinin komandan müavini, general-polkovnik rütbəsinə gəlib çatdı. O vaxta qədər sovet ordusunda bir nəfər də azərbaycanlı general-polkovnik rütbəsinə çatmamışdı. Bir azərbaycanlı kimi bu məni narahat edirdi və biz buna da nail olduq. Mən o vaxt bir çox belə yüksək zabit, general rütbəli kadrların irəliyə çəkilməsinə, Azərbaycanın bugünkü hərbi mütəxəssis, zabit kadrlarının yetişməsinin əsasını qoymağa çalışırdım.

Allaha şükürlər olsun ki, görülən bu işlər öz nəticəsini veribdir. Müdafiə naziri Səfər Əbiyev indi bu gün raport verir ki, iki hərbi məktəb fəaliyyət göstərir və Hərbi Dəniz Do[90-91]nanması Məktəbi bazasında hərbi akademiya yaranır. Bunlar çox sevindirici hallardır. Çünki bizim ordumuzun gələcək inkişafı hərbi kadrların hazırlanması və onların peşəkarlıq səviyyəsinin daim yüksəlməsi ilə bağlıdır.

Mən bu tarixi məqamları bu gün yada salaraq, eyni zamanda, qeyd etmək istəyirəm, - təəssüflər olsun ki, Azərbaycan Ermənistan tərəfindən təcavüzə məruz qaldığı halda, xüsusən Azərbaycan öz dövlət müstəqilliyini əldə etdiyi zaman bu peşəkar hərbi kadrlardan istifadə edə bilmədi, ola bilər ki, bu da bizim məğlubiyyətlərimizin səbəblərindən biri oldu.

Yəni biz əgər iki əsri - XIX, XX əsrləri götürsək, Azərbaycan xalqı bu hərbi ixtisası mənimsəmiş bir xalq olmuşdur. Azərbaycan xalqı ayrı-ayrı mərhələlərdə görkəmli hərbi mütəxəssislər, zabitlər, generallar meydana çıxarmışdır. Belə olan halda 1990-cı illərin əvvəllərində Azərbaycan Ermənistan tərəfindən təcavüzə məruz qaldığı zaman bu kadrların hamısını yığıb onlardan istifadə etmək lazım idi. Ancaq təəssüf ki, bunlar olmamışdır. O vaxt biz çox itkilər vermişik. Müdafiə naziri Səfər Əbiyev bu barədə danışdı, bunu təkrar etməyə ehtiyac yoxdur.

Ölkəmizin ordu quruculuğunun son mərhələsi Azərbaycan dövlət müstəqilliyini əldə edəndən indiyə qədər olan mərhələdir. Bu mərhələ çox çətin, ağır olubdur. Çünki Azərbaycanın ümumiyyətlə, müstəqillik əldə etdiyi dövr başdan-ayağa ağır, çətin dövr olubdur. Öz torpaqlarını Ermənistanın təcavüzündən müdafiə etdiyi zaman Azərbaycan dövlət müstəqilliyini əldə edibdir. Amma eyni zamanda Azərbaycanın daxilində ictimai-siyasi vəziyyət qeyri-sabit, çox gərgin olubdur. Bunlar hamısı da Azərbaycanda normal ordu qurmaq üçün şərait yaratmayıbdır, bəziləri bunu heç qurmaq da istəməyiblər. Ancaq son beş ildə aparılan işlər indi Azərbaycanda nizami ordunun yaranmasını göstərir. [91-92]

Mən bu gün böyük məmnuniyyətlə qeyd etmək istəyirəm ki, artıq Azərbaycanın müasir tələblərə cavab verə biləcək nizami ordusu vardır. Orduda lazımi nizam-intizam, qanun-qayda var və Azərbaycanın bugünkü ordusu, Silahlı Qüvvələri Azərbaycan torpaqlarını etibarlı müdafiə etməyə qadirdir.

Biz buna çətin yollardan keçərək nail olmuşuq. Ancaq əldə etdiyimiz nailiyyət bizi arxayınlaşdırmamalıdır. Azərbaycanda ordunun inkişaf etməsi, möhkəmlənməsi dövlətimizin və xalqımızın ən əsas vəzifəsidir. Biz həmişə həmrəy olaraq bəyan etmişik ki, Azərbaycanın dövlət müstəqilliyi əbədidir və sarsılmazdır. Bu bəyanatı həmişə reallaşdırmaq üçün, bu fikirləri əməli surətdə daim həyata keçirmək üçün biz orduya xüsusi qayğı göstərməliyik, onu möhkəmləndirməli və inkişaf etdirməliyik.

Azərbaycan sülhsevər dövlətdir. Biz heç vaxt müharibə istəmirik. Çünki Azərbaycan müstəqil dövlət kimi qarşısında duran problemləri həll etməlidir. Onları hətta həll etdikdən sonra da Azərbaycanın kiminləsə müharibə etməyə ehtiyacı yoxdur. Bizim siyasətimiz məlumdur: bütün qonşularımızla sülh, mehribanlıq və qarşılıqlı anlaşma şəraitində yaşamaq, yaşadığımız bölgədə sülh və əmin-amanlıq yaratmaq istəyirik. Məhz buna görə də Ermənistan - Azərbaycan münaqişəsini, Dağlıq Qarabağ problemini sülh yolu ilə həll etmək istəyirik. Bu səbəbdən 1994-cü ilin may ayında atəşin dayandırılması haqqında saziş imzalamışıq və atəşkəs rejimini qoruyub saxlayırıq.

Bu gün qeyd etmək istəyirəm ki, atəşkəs rejiminin qorunub saxlanması, birinci Azərbaycanın apardığı prinsipial, sülhsevər siyasətin nəticəsidir. İkincisi, bu siyasətin həyata keçirilməsi Azərbaycanın Silahlı Qüvvələrinin, ordumuzun xidmətlərinin nəticəsidir.

Dünyada, demək olar, analoqu olmayan bir haldır ki, bir-biri ilə müharibə vəziyyətində olan Ermənistanın və Azər[92-93]baycanın Silahlı Qüvvələri yaxın məsafədə qarşı-qarşıya durduqları halda heç bir ayırıcı, kənar qüvvənin iştirakı olmadan dörd ildir ki, atəşkəsi qoruyub saxlayırıq. Biz bununla özümüzün sülhsevər, atəşkəsə sadiq olduğumuzu sübut edirik. Həqiqət budur ki, burada Ermənistan tərəfinin də səylərini qiymətləndirmək lazımdır. Bu müddətdə onlar da atəşkəsin saxlanmasına çalışıblar. Əgər belə olmasaydı, bir tərəf heç vaxt atəşkəsi saxlaya bilməzdi. Ancaq fərq ondan ibarətdir ki, hərbi təcavüz nəticəsində Azərbaycanın torpaqlarının bir qismi işğal olunubdur. Bu torpaqlardan bir milyondan artıq vətəndaşımız zorla çıxarılıbdır. İşğal olunmuş ərazilərdə varidatımız talan edilibdir, dağıdılıbdır, yaşayış yerlərimiz viran qoyulubdur. Böyük itkilər vermişik. Bütün bunlara baxmayaraq biz sülhsevər siyasət yeridirik, atəşkəs rejiminə riayət etmişik və edirik.

Bu gün Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması sahəsində müəyyən çətinliklər yaranıbdır. Sülh danışıqları prosesi bir qədər tormozlanıbdır. Bu, bizim günahımız deyil. Biz bu prosesi sürətləndirmək istəyirik. Minsk qrupunun həmsədrlərinə bu barədə öz fikirlərimizi dəfələrlə demişik. Bu gün də bəyan edirəm ki, ATƏT-in Lissabon sammitinin prinsipləri üzrə Minsk qrupunun həmsədrləri olan Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa nümayəndələrinin keçən ilin sentyabr ayında verdikləri təkliflər əsasında məsələnin sülh yolu ilə həll edilməsinə tərəfdar olmuşuq və bu gün də tərəfdarıq. Problemin bu yolla həll edilməsini sürətləndirmək istəyirik. Güman edirəm ki, Minsk qrupunun həmsədrləri bu sahədə öz səylərini artıracaqlar və danışıqlar prosesi sürətlənəcəkdir. Ancaq bunlara baxmayaraq mən bu gün bir daha bəyan edirəm ki, Azərbaycan atəşkəs sazişinə sadiqdir,məsələ sülh yolu ilə həll olunana qədər bu rejimi bundan sonra da qoruyub saxlayacaqdır. [93-94]

Bu fikirləri bir daha bəyan edərək bildirmək istəyirəm ki, ordumuzu daha da inkişaf etdirib gücləndirərək heç də döyüşlər aparmaq istəmirik.

Müharibə etmək istəmirik, sadəcə olaraq biz bir müstəqil dövlət kimi öz ölkəmizin ərazisinin etibarlı qorunması üçün müvafiq səviyyəli Silahlı Qüvvələrə malik olmaq istəyirik. Bu baxımdan ordumuzun, Silahlı Qüvvələrimizin, bizim hamımızın qarşısında çox böyük vəzifələr durur. Biz orduya, Silahlı Qüvvələrə qayğını artırmalıyıq. Onun hər bir problemi dövlətin və hökumətin himayəsi altında olmalı, vaxtlı-vaxtında baxılmalı və həll edilməlidir.

Mən dövlət başçısı və Ali Baş Komandan kimi bəyan edirəm ki, bundan sonra da bu vəzifənin yerinə yetirilməsinə çalışacağam.

Xalqımızın, ictimaiyyətin üzərinə böyük vəzifələr düşür. Bu da ondan ibarətdir ki, xalqın ayrılmaz hissəsi sayılan ordumuz xalqın və vətəndaşların qayğısı altında olmalıdır. Xalq ordunu daim sevməli, ona kömək etməlidir. Əgər xalq azad, sərbəst yaşamaq istəyirsə, ölkəsinin, torpaqlarının toxunulmazlığını arzu edirsə, gərək hər şeydən öncə orduya qayğı göstərsin. Ordunun hörmətini qaldırmaq lazımdır. Hərbi peşə Azərbaycanda ən hörmətli peşələrdən biri olmalıdır. Hər bir vətəndaş Azərbaycan əsgərinə, zabitinə hörmət, ehtiram və qayğı göstərməlidir. Güman edirəm ki, xalqımızda vətənpərvərlik hissi güclüdür. Vətənpərvərlik hissi güclü olduqda isə orduya qayğı və münasibət gündən-günə artacaqdır.

Hər bir Azərbaycan vətəndaşı, hər bir gənc orduda xidmət etməyi özünün şərəfli borcu hesab etməlidir. Bu, vətəndaşlıq borcudur. Xatırladım ki, Sovet İttifaqının tərkibində olarkən hər il Azərbaycandan 60, hətta 70 min gənc sovet ordusu sıralarına səfərbər edilirdi. İndi ordumuza ildə bu qədər gənc lazım deyil. Amma nə qədər lazımdırsa, o qədər də olmalıdır. Hər bir azərbaycanlı gənc bilməlidir ki, orduda xidmət etmə[94-95]yən cəmiyyətdə hörmət qazana bilməz. Əksinə, cəmiyyətdə insanlara orduda xidmət etmələrinə görə yaxşı münasibət, xüsusi hörmət göstərilməlidir. Belələri orduda xidmət etməyənlərdən fərqləndirilməlidir. Mən üzümü Azərbaycan gənclərinə tutub bildirirəm ki, onlar öz vətəndaşlıq borclarını şərəflə yerinə yetirməlidirlər. Gənclər bu şərəfə nə qədər nail ola bilsələr, cəmiyyətimizdə o qədər də hörmət qazanacaqlar.

Eyni zamanda mən gənclərin valideynlərinə müraciət edirəm. Nahaq yerə valideynlər öz övladlarını orduda xidmət etməkdən yayındırmaq istəyirlər. Siz öz övladınıza kömək etmirsiniz. Çünki orduda xidmət edən hər bir gənc mətinləşir, bərkiyir. Orduda xidmət etmək kimi çətin yolu keçənlər gələcək həyatlarında hər bir çətinliyin öhdəsindən gəlməyə qadir olurlar. Hörmətli valideynlər, ona görə də övladlarınızın həyatda müvəffəq olmalarını, uğur qazanmalarını istəyirsinizsə birinci növbədə onları hərbi xidmətə göndərin. Qoy getsinlər, əsgər olsunlar. Əsgər adı Azərbaycanda ən şərəfli ad olmalıdır. Kim ki, əsgər olub, o, hörmətli adam hesab edilməlidir. Əsgər olmayan isə qoy özü hesabını aparsın. Bir sözlə, xalqın, vətəndaşların, ictimaiyyətin orduya qayğısı, münasibəti müxtəlif yollarla həyata keçirilməlidir. Bunların bəzilərini mən bildirdim.

Həhayət, ordunun qarşısında duran vəzifə barədə. Ordu, Müdafiə Nazirliyi, Silahlı Qüvvələrin komandanları, bütün Silahlı Qüvvələr dövlətin, hökumətin, xalqın onlara göstərdikləri qayğıya layiq xidmət etməlidirlər. Biz orduda xidmət edənlərin maddi vəziyyətini daim yaxşılaşdırmağa, ayrı-ayrı təşkilatların da orduya yardımı artırmasına çalışırıq və bundan sonra da çalışacağıq.

Biz mövcud imkanlarımız daxilində orduya qayğı göstəririk. Ordumuz, hərbi hissələrimiz, Silahlı Qüvvələrimiz, əsgərlər və zabitlər bu qayğıya cavab olaraq, birincisi, gərək sədaqətlə xidmət etsinlər. İkincisi, gərək onlar hərbi hissələrdə yüksək vətənpərvərlik, sədaqət, mənəviyyat əhval-ruhiyyəsi [95-96] yaratsınlar, bu keyfiyyətlərə malik olsunlar. Bəli, ordu siyasətə qarışmamalıdır. Kim ordunu siyasətə qat-

maq istəyirsə o, Azərbaycan Konstitusiyasını pozur və biz buna yol verməyəcəyik, belə halların qarşısını alacağıq. Ancaq orduda xidmət edən hər bir əsgər, zabit, general bilməlidir ki, o, müstəqil Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycan dövlətinin, dövlətçiliyinin, ərazimizin müdafiəsi, ölkəmizin konstitusion əsaslarının qorunması hər bir əsgərin, zabitin, döyüşçünün borcudur. Zabitlərin öz peşəkarlıqlarını artırması, ali hərbi məktəblərdə təhsil sisteminin yaxşılaşdırılması, hərbi hissələrdə sağlam mənəvi mühitin yaradılması və bütün yabançı meyllərin aradan qaldırılması komandirlərimizin, zabitlərimizin, Silahlı Qüvvələrin rəhbərlərinin müqəddəs vəzifəsidir. Bu vəzifələri gərək hamı yerinə yetirsin.

Mən Azərbaycanda ordu quruculuğunun 80 illik tarixini müəyyən qədər xatırlatdım. Bu gün Azərbaycanda İkinci dünya müharibəsinin iştirakçıları yaşayır. Yəqin ki, onlardan bu salona dəvət olunanlar da var. Biz onlara həmişə hörmət və ehtiramla yanaşmalı, qayğı göstərməliyik. Onlar cəmiyyətimizin hörmətli adamlarıdır. Yüksək mənəviyyata malik olan hər bir azərbaycanlı gərək İkinci dünya müharibəsinin veteranlarına hörmət və ehtiram göstərsin. Eyni zamanda onların da təcrübəsindən istifadə etmək, onlarla hərbi hissələrin əlaqələrini genişləndirmək lazımdır. Onlar böyük döyüşlərdən keçmiş, zəngin həyat təcrübəsi görmüş adamlardır.

Ermənistanın Azərbaycana təcavüzü başlanandan indiyədək xalqımız itkilər, şəhidlər veribdir. O illər hərbi hissələrimizdə müxtəlif mənfi hadisələrlə, hərəkətlərlə yanaşı, Azərbaycan oğullarının əksəriyyəti qəhrəmanlıqla vuruşublar, qan töküblər, şəhid, əlil olublar. Şəhid olmuş Rasimin atası bu gün burada həyəcanlı nitq söylədi. Onun sözlərini həyəcansız dinləmək mümkün deyil, yeganə oğlunu itiribdir, gənc mayor oğlunu. Şəhid olmuş belə gənclər, Rasim kimilər Azərbaycan xalqının fəx[96-97]ridirlər. Biz onların xatirəsini həmişə qəlbimizdə saxlamalı, qəhrəmanlıq nümunələrindən gənclərin tərbiyə olunmasında, onlarda hərbi peşəyə həvəs oyatmaqda istifadə etməliyik.

Azərbaycanın torpaqlarının qorunması uğrunda həyatını qurban vermiş, şəhid olmuş Azərbaycan oğullarının xatirəsi bizim üçün əzizdir. Bu bayram günü onların xatirəsini bir dəqiqəlik sükutla yad etməyinizi rica edirəm.

Allah rəhmət eləsin.

Mən bu gün şəhidlərin xatirəsi qarşısında baş əyərək bəyan edirəm ki, Azərbaycan ordusu dövlətçiliyimizin, ərazi bütövlüyümüzün qorunmasında, torpaqlarımızın azad edilməsində bundan sonra da fədakarcasına çalışacaq və biz ərazi bütövlüyümüzün təmin edilməsinə nail olacağıq. Yeritdiyimiz daxili və xarici siyasət ölkəmizin qüdrətini gündən-günə artırır.Sülhsevər siyasətimiz Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə təminat verir. Ölkəmizin Silahlı Qüvvələri, ordumuz Azərbaycanın etibarlı müdafiə olunmasının qarantıdır.

Mən Silahlı Qüvvələrimizə, Azərbaycan əsgərinə qarşılarında duran bütün vəzifələrin yerinə yetirilməsində yeni-yeni uğurlar arzulayıram.

Bu gün biz ilk dəfədir ki, Azərbaycanın Silahlı Qüvvələri gününü yüksək səviyyədə bayram edirik. Bununla da yeni bir ənənə yaranır. Hesab edirəm ki, Azərbaycanın Silahlı Qüvvələri günü bir bayram kimi xalqımızın həyatına daxil olacaq, xalqla ordunun birliyini, dövlətimizin və xalqımızın orduya olan qayğısını nümayiş etdirəcəkdir. Mən bütün Azərbaycan xalqına sülh, əmin-amanlıq arzulayıram. Əmin-amanlığımızın və sülhün keşiyində bizim qəhrəman əsgərlərimiz durubdur.

Azərbaycan əsgərinə eşq olsun! [97]

**RUSİYA FEDERASİYASI**
**DAĞISTAN RESPUBLİKASININ**
**DÖVLƏT ŞURASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ CƏNAB**
**MAQOMEDƏLİ MAQOMEDOVİÇ MAQOMEDOVA**

Hörmətli Maqomedəli Maqomedoviç!

Dağıstan Respublikası Dövlət Şurasının sədri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Sizə yenidən yüksək etimad göstərilməsi qardaş Dağıstanda sabitliyin möhkəmləndirilməsi, sosial-iqtisadi və mədəni inkişafın təmin edilməsi işində Sizin danılmaz xidmətlərinizə sübutdur.

Biz Azərbaycanla Dağıstan arasında tarixən təşəkkül tapmış dostluq əlaqələrinə, bizim mehriban qonşuluq və bir-birimizə kömək ənənələrimizin genişləndirilməsinə və dərinləşdirilməsinə böyük əhəmiyyət veririk.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, bütün Dağıstan xalqlarına sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 iyun 1998-ci il*
[98]

**KABARDA-BALKAR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KOKOV VALERİ MÜHƏMMƏDOVİÇƏ**

Hörmətli Valeri Mühəmmədoviç!

Nalçik şəhərində idman yarışları zamanı baş vermiş faciəli hadisələr nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən sarsıtdı.

Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına səmimi başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 iyun 1998-ci il*
[99]

# QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ ÜMUMRESPUBLİKA MÜŞAVİRƏSİNDƏ NİTQ

*Respublika sarayı*

*27 iyun 1998-ci il*

Hörmətli bacılar, qardaşlar, həmvətənlər!
Xanımlar və cənablar!

Azərbaycan Respublikasının bugünkü respublika müşavirəsi ölkəmizdə mühüm problemlərdən biri olan qaçqınların və məcburi köçkünlərin məsələlərinə həsr olunubdur.

Azərbaycanda kütləvi surətdə qaçqın və köçkün problemləri 1988-ci ildən başlayıbdır. Mən son mərhələni nəzərdə tuturam. Bu da Ermənistanın Azərbaycana qarşı torpaq iddiasından – Dağlıq Qarabağ vilayətinə, respublikamızın Ermənistan ilə Azərbaycan arasındakı sərhədlərdə olan bəzi yaşayış məntəqələrinə iddiasından başlanıbdır. Bu iddialar sonra hərbi əməliyyatlara və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə çevrilibdir. Biz artıq Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində respublikamızın ərazi bütövlüyünün pozulmasını görürük. 1988-ci ildə Ermənistanda Azərbaycana qarşı torpaq iddiaları hərəkatı başlayandan Ermənistanın ekstremist, mürtəce qüvvələri ölkəmizin daxilində olan separatist qüvvələrlə bərabər, bütün bu faciələrin baş verməsinə gətirib çıxardılar.

Bu tarixi mərhələlər sizə məlumdur, ancaq bir daha yadınıza salmaq istəyirəm. İlk dəfə 1988-ci ildə, demək olar, hələ [100-101] 1986, 1987-ci illərdə Ermənistan Azərbaycanın sərhədindəki yaşayış məntəqələrinin, kəndlərin bəzilərinin guya ona mənsub olduğunu iddia edərək həmin torpaqları zəbt edə bilmişdi. Sonra 1988-ci ildən Ermənistanın bu sahədə təcavüzkar, qəsbkar əməlləri başladı və Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilməsi haqqında Ermənistanın təzyiqi, apardığı işlər nəticəsində və respublikamızın o vaxtkı rəhbərliyinin bu məsələlərə diqqət yetirməməsi, məsuliyyətsiz yanaşması nəticəsində Dağlıq Qarabağ vilayəti Azərbaycanın tərkibindən çıxıb Ermənistana daxil olmaq barədə qərar qəbul etdi. Bu, çox ciddi bir hal idi. Ancaq təəssüflər olsun ki, o vaxt Azərbaycanın rəhbərliyi buna lazımi münasibət göstərə bilmədi. Azərbaycanın ərazisinə edilən qəsdin, başlanan təcavüzün qarşısını vaxtında ala bilmədi. Bu da münaqişənin başlanmasına səbəb oldu.

O dövrdəki hadisələr sizə məlumdur. 1988-ci ildə ermənilər özləri törətdikləri bütün cinayətlərdən, təxribatlardan və Azərbaycana qarşı təcavüzkar hərəkətlərindən istifadə edərək, Ermənistanda yaşayan azərbaycanlıların zorla çıxarılmasına, onların qaçqın vəziyyətinə düşməsinə nail oldular.

Azərbaycan tərəfi, rəhbərliyi yenə də buna qarşı adekvat addımlar ata, tədbirlər görə bilmədi, ən azı passiv müdafiə mövqeyini tutdu. Beləliklə, Ermənistanda, öz doğma torpaqlarında, diyarlarında yaşayan azərbaycanlılar Ermənistandan kütləvi surətdə çıxarıldılar, qaçqın oldular.

Siz bu barədə bilirsiniz ki, XX əsrdə Ermənistanın azərbaycanlılara qarşı soyqırımı və qədim Azərbaycan torpaqlarında vaxtilə yaranmış Ermənistan dövlətinin azərbaycanlıları öz doğma torpaqlarından tədricən çıxarması, onları deportasiya etməsi haqqında məlumatlar, faktlar bizim qərarlarımızda, fərmanlarımızda, sənədlərimizdə öz əksini tapıbdır. Ermənistan hakimiyyəti əsrin əvvəlindən başladığı bu siyasətə 1988-ci ildə demək olar ki, son nöqtəni qoymağa nail oldu və [101-102] azərbaycanlılar öz doğma yurdlarından, torpaqlarından zorla çıxarıldılar, qaçqın oldular. Onların bir qismi o vaxtkı Sovetlər İttifaqının respublikalarında, Rusiyada, tam əksəriyyəti isə gəlib Azərbaycanda yerləşdilər.

Sonra Ermənistanın Azərbaycana qarşı torpaq iddiası davam etdi. Bunlar hamısı müharibəyə çevrildi, qanlı döyüşlər getdi. Nəhayət, Ermənistanın Azərbaycana hərbi təcavüzü baş verdi. Məhz bunların nəticəsində Dağlıq Qarabağda yaşayan azərbaycanlılar o illər, hələ 1989-1990-cı illərdə öz yerlərindən-yurdlarından zorla çıxarıldılar, köçürüldülər. Hətta o illər Orta Asiyada baş vermiş hadisələrlə əlaqədar Azərbaycana pənah gətirmiş, Dağlıq Qarabağda yerləşdirilmiş Axısxa türklərinin bir qismi də oradan zorla çıxarıldılar, köçürüldülər.

Beləliklə, 1992-ci ildə Dağlıq Qarabağ Vilayətinin ərazisi azərbaycanlılardan demək olar ki, tamamilə təmizləndi, yəni azərbaycanlılar Dağlıq Qarabağ Vilayətinin ərazisindən zorla çıxarıldılar, köçürüldülər.

Bununla yanaşı, həmin illər gedən müharibə nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ ətrafında olan bir neçə rayonunu işğal etdi. Həmin rayonların sakinləri, bizim soydaşlarımız bu işğal nəticəsində öz yerlərini-yurdlarını tərk etməyə məcbur oldular, məcburi köçkün vəziyyətinə düşdülər.

Azərbaycan bu on il ərzində böyük bir faciə içərisində yaşamış, qurbanlar vermiş, insanlar tələf olmuş, böyük itkilərə məruz qalmışlar və bir milyondan artıq azərbaycanlı öz doğma yerindən-yurdundan didərgin, qaçqın, köçkün vəziyyətinə düşərək belə vəziyyətdə yaşayır.

Beləliklə, biz qaçqınlar və köçkünlər haqqında danışanda birinci növbədə Ermənistandan zorla çıxarılmış və qaçqın düşmüş insanları nəzərdə tuturuq. Sonra Ermənistan ilə Azərbaycanın sərhədlərində olan bir sıra yaşayış məntəqələri, [102-103] kəndlər Ermənistan tərəfindən işğal olunduğuna görə həmin yerlərdən zorla çıxarılmış, didərgin düşmüş soydaşlarımızı, Dağlıq Qarabağ Vilayətinin ərazisindən çıxarılmış azərbaycanlıları və respublikamızın Dağlıq Qarabağ ətrafında olan inzibati rayonlarının işğalı nəticəsində oradan zorla çıxarılmış soydaşlarımızı nəzərdə tuturuq. Bütün bunlarla bərabər, 1944-cü ildə vaxtilə Gürcüstanla Türkiyə sərhədində olan doğma yurdlarından çıxarılmış Axısxa türkləri sonralar – 1960-1970-ci illərdə Orta Asiyadan köçüb Azərbaycanda məskunlaşmış, artıq respublikamızın vətəndaşlarına çevrilmişlər. Ancaq Axısxa türklərinin ikinci belə böyük bir hissəsi Orta Asiyada Fərqanə və Oş hadisələri baş verdiyi zaman oradan köçürülmüş və onların bir qismi Azərbaycana gələrək respublikamızda özlərinə məskən tapmışlar.

Beləliklə, Azərbaycanda əhalinin bir milyondan çoxu qaçqın və köçkün statusuna malikdir. Bunların əksəriyyətinin yaşamaq üçün lazımi şəraiti yoxdur. Məlumdur ki, onlar respublikamızın müxtəlif rayonlarında dövlət binalarında, yataqxanalarda, istirahət evlərində, sanatoriyalarda, məktəblərdə, başqa cürbəcür binalarda - yaşayış üçün normal şəraiti olmayan binalarda yerləşdiriliblər. Onların böyük bir hissəsi neçə ildir ki, çadırlarda, dəmir yolu vaqonlarında yaşayır. Yenə də deyirəm, onların əksər hissəsi çox ağır vəziyyətdə yaşayır.

Son illər Azərbaycan bir çox sosial-iqtisadi problemlərlə rastlaşmaqla yanaşı, belə bir ağır, faciəli sosial-iqtisadi, mənəvi, humanitar problemlə də üzləşibdir. Mən deyə bilərəm ki, bu amilə görə dünyada Azərbaycana bərabər bir dövlət tapmaq mümkün deyildir. Hər halda biz öz işlərimizi həmişə keçmişdə Sovet İttifaqına mənsub olmuş respublikalarla müqayisə edirik. Heç bir respublika belə ağır və çətin problemlə rastlaşmayıbdır. Bütün bu problem həmişə Azərbaycan dövlətinin, hökumətinin, ictimaiyyətinin əsas problemi olub və bu gün də əsas problemidir. [103-104]

Bu problemlə biz son beş ildə çox ciddi məşğul oluruq, mümkün olan işləri görürük, lazımi tədbirləri həyata keçiririk. Ancaq şübhəsiz ki, bunlar hamısı yerindən-yurdundan didərgin düşmüş insanların həyatını normal səviyyəyə çatdırmayıb və çatdıra da bilməz. Çünki bu insanların normal vəziyyətdə yaşaması yalnız və yalnız onların öz yerlərinə-yurdlarına qayıtması və müvafiq yaşayış şəraiti yaranması nəticəsində ola bilər. Ancaq bizim apardığımız tədbirlər, gördüyümüz işlər əhalimizin bu hissəsinin vəziyyətini mümkün qədər yaxşılaşdırmaqdan və mövcud çətinlikləri aradan qaldırmaqdan ibarət olubdur.

Ötən bu illər həmin problemlərlə əlaqədar bir çox qərarlar qəbul etmişik, fərmanlar imzalanıbdır, tədbirlər görülübdür. Bu gün isə belə bir müşavirənin çağırılması indiki zərurətdən doğubdur. Bugünkü müşavirənin məqsədi mövcud vəziyyəti - qaçqınların, köçkünlərin vəziyyətini təhlil etmək və problemlərini həll etməkdən ibarətdir, mövcud nöqsanları aradan qaldırmaq üçün tədbirlər görməkdən, Azərbaycanda qaçqın və köçkün vəziyyətində yaşayan insanların özlərini dinləmək və onların fikirlərini bilməkdən ibarətdir. Buna görə də bu gün biz demək olar, ilk dəfə olaraq bütün köçkün və qaçqın əhalinin nümayəndələrini bir yerə yığmışıq, bu salona dəvət etmişik.

Ötən illərdə şəxsən mənim qaçqınlarla, köçkünlərlə çox görüşlərim olubdur. Çadır şəhərciklərində də, onların yaşadıqları, məskunlaşdıqları ayrı-ayrı yerlərdə də, rayonlarda da görüşlərim keçirilibdir. İşğal edilmiş rayonların nümayəndələri ilə görüşlərim olubdur. Belə görüşlər eyni zamanda bəzi xarici ölkələrin başçılarının Azərbaycana səfəri zamanı onlarla birlikdə də həyata keçirilibdir. Bunlarla yanaşı, mən bu məsələ ilə daim maraqlanaraq, vəziyyət haqqında məlumatlar alıram. Ancaq bugünkü müşavirədə daha geniş, ətraflı, düzgün, obyektiv məlumat almaq bizim hamımız üçün lazımdır. [104-105]

Qaçqın və köçkün vəziyyətində yaşayanların nümayəndələri ilə yanaşı, bu müşavirəyə Azərbaycanın dövlət və hökumət orqanlarının rəhbərləri, şəhər və rayonların icra hakimiyyəti başçıları, bu məsələyə münasibəti olan təşkilatların və mətbuatın nümayəndələri də dəvət ediliblər.

Mən hesab edirəm ki, biz bu gün dövlət və hökumət orqanlarının bu məsələ ilə məşğul olan məsul şəxslərinin, həm də qaçqın və köçkün vəziyyətində yaşayanların nümayəndələrinin məlumatlarını və fikirlərini dinləyib, bu sahədə işlərimizin bundan sonra daha da yaxşı aparılması üçün lazımi tədbirlər görə bilərik.

Bizim müşavirəmiz tam işgüzar xarakter daşıyır. Mən çox arzu edirəm ki, burada söz demək istəyənlərin hamısı fikirlərini bildirsinlər. Hər bir adama söz demək imkanı veriləcəkdir. Mən çox arzu edərdim ki, çıxış edən şəxslər hər şeyi doğru-düzgün, obyektiv bildirsinlər.

Biz Azərbaycanda belə bir ağır problemin olduğunu heç vaxt inkar edə bilmərik. Əksinə, bu, bizim həyatımızın bir hissəsidir və çox çətin, ağır hissəsidir. Heç vaxt inkar etmək olmaz ki, bu sahədə problemlər var. Bu problemlər şübhəsiz ki, vardır. Bunu inkar etmək mümkün deyildir. Heç kəs deyə bilməz ki, bu işlərdə nöqsanlar yoxdur. Nöqsanlar da vardır, - haradasa çoxdur, haradasa azdır. Bu da vardır. Eyni zamanda heç kəs inkar edə bilməz ki, Azərbaycanın dövləti, hökuməti daim məşğuldur və qaçqınların, köçkünlərin yaşaması, əmək fəaliyyətinə cəlb olunması və onların həyatındakı çətinliklərin aradan qaldırılması üçün lazımi tədbirlər görülür. Ancaq bütün bunlara baxmayaraq, mən arzu edərdim ki, bugünkü müşavirəmizdə biz bu problemlə əlaqədar daha da doğru-düzgün təsəvvür əldə edək və gələcək işlərimizi bunun əsasında daha yaxşı qura bilək.

Bu sahə ilə məşğul olan şəxslər müşavirədə məlumat verməlidirlər. Mən arzu edərdim ki, bundan sonra qaçqınlar, köçkünlər öz fikirlərini, təkliflərini, arzularını bildirsinlər. [105-106]

Bilirsiniz ki, hələ 1995-ci ildə bu problemlərlə daha da ciddi məşğul olmaq üçün mənim fərmanımla Nazirlər Kabinetində xüsusi vəzifə - Baş nazirin müavini vəzifəsi təsis edilibdir və qaçqınların, köçkünlərin problemi ilə əlaqədar hökumət komissiyası yaradılıbdır.

## YEKUN NİTQİ

Əziz dostlar, bacılar, qardaşlar!

Müşavirə iştirakçılarından çoxsaylı yazılı müraciətlər almışam. Bunların hamısı buradadır. Ancaq saat artıq 7-dir. Əgər səhərə qədər dözə bilərsinizsə, hamıya söz verə bilərəm. Neçə saat dözə bilərsinizsə, o qədər də işləyək. Mən belə başa düşürəm ki, dözə bilərsiniz, amma eyni zamanda hesab edirsiniz ki, daha deyilənlər bəsdir.

Əziz dostlar! Əziz bacılar, qardaşlar!

Mən hesab edirəm ki, bugünkü gün bizim ölkəmizin, xalqımızın tarixinə düşəcəkdir. Çünki Azərbaycana Ermənistanın təcavüzü nəticəsində qaçqınlar və köçkünlər yaranandan indiyə qədər ilk dəfədir ki, burada, möhtəşəm Respublika sarayında bütün qaçqınların, köçkünlərin nümayəndələri toplaşmış və Azərbaycanın dövlət, hökumət orqanlarının rəhbərləri ilə birlikdə problemləri müzakirə edirlər. Mən şəxsən sizinlə yenidən görüşməyimdən çox məmnunam. Sizinlə görüşmək həmişə məndə çox həyəcan doğurur. Ona görə həyəcanlanıram ki, sizin vəziyyətinizi yaxşı bilirəm və anlayıram. Eyni zamanda ona görə həyəcanlanıram ki, sizi belə mərd, dözümlü, etibarlı insanlar kimi görürəm, sizi qəhrəman insanlar kimi görürəm.

Bu gün də çox həyəcanlı gündür. Mən hər bir çıxışı çox diqqətlə dinlədim. Düzdür, bəzi natiqlər vaxtdan çox istifadə etdiklərinə görə digərlərinin çıxış etmək imkanına mane oldu[106-107]lar. Ancaq mən bunlara baxmayaraq, hər bir deyilən sözdə səmimiyyət hiss etdim. Mən bu gün fürsətdən istifadə edərək sizə, əziz bacılar, qardaşlar, köçkünlər, qaçqınlar və sizin simanızda, Azərbaycanda yaşayan bütün qaçqınlara, köçkünlərə öz hörmət-ehtiramımı bildirirəm, sizə olan sevgi, məhəbbətimi izhar edirəm və sizi əmin edirəm ki, mən sizin və bütün vətənimizin ən böyük problemi ilə bundan sonra da daim məşğul olacağam.

Azərbaycan dövlət müstəqilliyini əldə edərkən və ondan öncəki illərdə də Ermənistanın təcavüzü ilə rastlaşmışdır və hamıya məlum olan səbəblərdən bu təcavüz Azərbaycan ərazisinin bir qisminin işğalına gətirib çıxarıbdır. İşğal olunmuş Azərbaycan torpaqlarından bizim soydaşlarımız zorla çıxarılıb didərgin düşüblər. O zaman Ermənistanda yaşayan azərbaycanlılar da zorla, böyük təzyiqlər və böyük təcavüzlər nəticəsində qaçqın düşüblər. Qeyd etdiyim kimi, Orta Asiyadan da Azərbaycana gəlib yerləşmiş Axısxa türkləri, qaçqınları vardır. Ona görə də Azərbaycanda indi iki problem vardır, - bu, əslində bir problemdir, - birincisi, Azərbaycan torpaqlarının bir qisminin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmasıdır, ikincisi də işğal edilmiş torpaqlardan bu ərazilərin sakinlərinin didərgin salınması, zorla çıxarılması, köçkün vəziyyətinə düşməsidir. Qeyd etdim ki, bu, bir problemdir, amma iki hissədən ibarətdir və bir-biri ilə bağlıdır. Biz bu problemləri həll etmək istəyirik. Yəni, bizim qarşımızda duran ali vəzifə, ali məqsədimiz işğal olunmuş torpaqları azad etmək, Azərbaycan ərazisindən Ermənistan silahlı qüvvələrinin hamısını çıxarmaqdır, bunun nəticəsində isə yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızın öz torpaqlarına, öz evlərinə, öz yurdlarına qayıtmasıdır.

Bilirsiniz ki, biz bu problemlə daim məşğul oluruq. Bu gün sizə bir daha bəyan etmək istəyirəm ki, bu, Azərbaycan dövlətinin, hökumətinin və şəxsən Azərbaycanın dövlət başçısı, [107-108] prezidenti kimi, mənim qarşımda duran ən əsas vəzifədir və daim - hər gün, hər saat mənim diqqət mərkəzimdədir.

Burada, Bakıda Azərbaycanın başçısı kimi fəaliyyət göstərdiyim beş il müddətində mənim fəaliyyətimin əksər hissəsi yalnız və yalnız bu problemin həll olunmasına həsr edilibdir. Ancaq problem həll olunmayıbdır. Ona görə də biz seçim qarşısındayıq. Nə etməli? Qeyd etdim ki, bizim ali vəzifəmiz, məqsədimiz işğal olunmuş torpaqları azad etmək, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək və yerlərindən didərgin düşmüş soydaşlarımızı öz yurdlarına qaytarmaqdır. Seçim qarşısındayıq. Hansı yol ilə getməliyik, nə etməliyik? Bunun iki mümkün yolu vardır: bir yol yenidən döyüşləri başlayıb, işğal olunmuş torpaqları müharibə yolu ilə nəyin bahasına olur-olsun azad etmək və sizləri, bütün qaçqınları, köçkünləri öz yerlərinə-yurdlarına qaytarmaq, digər yol həmin məsələni sülh yolu ilə, danışıqlar yolu ilə həll etməkdir. Başqa yol yoxdur. Hər halda mən başqa yol görmürəm. Bilirsiniz ki, şəxsən mən ikinci yolu seçmişəm, ona üstünlük yermişəm. Bu məqsədlə də 1994-cü il may ayının 12-də Ermənistanla Azərbaycan arasında 1988-ci ildən gedən hərbi münaqişədə atəşkəs haqqında saziş imzalanıbdır və bu saziş dörd ildən artıqdır yerinə yetirilir. Atəş yoxdur, döyüşlər getmir, qan tökülmür, insanlar tələf olmur, atəşkəs rejimi yaşayır. Ancaq atəşkəs haqqında saziş imzalayarkən biz, şübhəsiz ki, bunu məsələnin sülh yolu ilə həll olunması istiqamətində bir vasitə kimi qəbul etmişik. Bu gün də belə hesab edirik.

Bizim ötən dörd il müddətində bu istiqamətdə, bu sahədə gördüyümüz işlər göz qabağındadır, sizə məlumdur. Hesab edirəm ki, çox iş görmüşük və müəyyən nailiyyətlər əldə etmişik. Mən bunu tam məsuliyyətlə, tam qətiyyətlə deyirəm. Çünki, təkrar edirəm, görülən işlər, bizim əməli fəaliyyətimiz, hər gün, hər dəqiqə bu sahədə həyata keçirdiyimiz tədbirlər həm respublika ictimaiyyətinin, həm də dünya ictimaiyyətinin [108-109] gözünün qarşısındadır. Siz bunları görürsünüz, müşahidə edirsiniz. Ən böyük nailiyyət ondan ibarətdir ki, dörd ildən artıqdır atəş yoxdur. Bu, bizim sülhsevər siyasətə, sülh siyasətinə sadiqliyimizi

nümayiş etdirir və həqiqətən məsələnin sülh yolu ilə həll olunmasına üstünlük verdiyimizi nümayiş etdirir. Biz bunun nəticəsində ölkəmizdə daxili ictimai-siyasi vəziyyəti sağlamlaşdırdıq. Siz bu gün bu barədə çox danışdınız. 1988-ci ildən Azərbaycanın daxilində baş vermiş qarmaqarışıqlığı, pozuculuğu, hakimiyyətsizliyi, məsuliyyətsizliyi aradan qaldırdıq, ictimai-siyasi vəziyyəti sabitləşdirdik.

Şübhəsiz ki, bilirsiniz, - bu, asan olmadı. Çünki daxildə yaranmış vəziyyətdən öz şəxsi mənafeləri üçün istifadə edən şəxslər, qruplar, cinayətkar dəstələr həddindən ziyadə idi, həddindən çox idi. Onlar artıq belə vəziyyətə öyrənmişdilər və bu yolda özlərinə görə çoxlu mənfəət götürmüşdülər, özlərinə görə «uğurlar» əldə etmişdilər. Ona görə bu, bir-iki adamın qarşısını almaq deyildi. Böyük cinayətkar silahlı dəstələrin, qrupların qarşısını almaq lazım idi, onları zərərsizləşdirmək lazım idi, insanları onlardan xilas etmək lazım idi. Azərbaycan onlardan qurtulmalı idi və biz Azərbaycanın bu qurtuluşuna nail ola bildik. İndi Azərbaycanda daxili vəziyyət sabitdir, insanlar rahat yaşayırlar. Doğrudur, bunu pozmaq istəyənlər də vardır. Siz bu barədə öz fikirlərinizi bildirdiniz. Amma mən bu gün bəyan edirəm ki, heç kəs buna nail ola bilməz. O ağlını itirmiş adamlar heç olmasa qoy ağıllarını yerinə qoysunlar.

Beləliklə,bizim əldə etdiyimiz nailiyyət atəşkəsin yaranması, atəşkəsin nəticəsində Azərbaycanda daxili ictimai-siyasi vəziyyətin sabitləşdirilməsi, sakitliyin əldə olunması və bunların nəticəsində də Azərbaycanda siyasi, iqtisadi islahatların həyata keçirilməsi və insanların rifah halının yaxşılaşdırılması üçün lazım olan tədbirlərin görülməsidir. Siz bunları görülən işlərin nəticəsində bilirsiniz, görürsünüz. [109-110]

Ən əsas nəticə ondan ibarətdir ki, biz beynəlxalq ictimaiyyəti Azərbaycanın haqlı olduğuna inandıra bilmişik. Beynəlxalq ictimaiyyətdə Ermənistan-Azərbaycan münaqişəsinin səbəbləri və səbəbkarları haqqında fikri demək olar ki, çox mənada müsbət istiqamətdə dəyişdirə bilmişik. Yəni ədalətli, obyektiv fikir formalaşdırmağa nail ola bilmişik. Məhz bunların nəticəsində beynəlxalq təşkilatlarda və xüsusən ATƏT-in 1994-cü ilin dekabrında Budapeştdəki zirvə görüşündə, sonra ATƏT-in 1996-cı ildəki Lissabon zirvə görüşündə Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün müəyyən irəliləmələrə nail olmuşuq. Lissabon zirvə görüşündə qəbul olunmuş qərar, bəyanat nəhayət, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinin prinsiplərini müəyyən edibdir. Bu prinsiplər əsasında ATƏT-in Minsk qrupunun həmsədrləri Rusiya, ABŞ, Fransa 1997-ci ildə və 1998-ci ilin ötən aylarında çox səylər göstərmişlər, konkret təkliflər irəli sürmüşlər. Beləliklə, sülh prosesi gedir. Ləng, çətin gedir, ağır gedir, amma irəliyə gedir. Bunun ləng getməsinin səbəbi də şübhəsiz ki, Ermənistanın bu barədə tutduğu qeyri-konstruktiv mövqeyidir. Ancaq ATƏT, onun Minsk qrupu və Minsk qrupunun həmsədrləri öz səylərini davam etdirirlər və mən ümidvaram ki, bundan sonra da davam etdirəcəklər.

Beləliklə, məsələnin sülh yolu ilə həll olunması bir günün, bir ayın, bir ilin işi deyildir. Bunun üçün vaxt, zaman lazımdır. Dediyim kimi, ötən dörd il müddətində biz xeyli iş görmüşük və mən məsələnin sülh yolu ilə həll olunmasına nikbin əhval-ruhiyyə ilə baxıram.

Ancaq mən dedim, - işğal olunmuş torpaqların azad edilməsinin digər yolu da vardır. O yol işğal olunmuş torpaqları döyüşlər, vuruşlar vasitəsilə, müharibə vasitəsilə azad etməkdir. Bu, bizim haqqımızdır. Biz heç bir ölkənin, dövlətin torpağına göz dikməmişik və bu gün də dikmirik. Baxmayaraq [110-111] ki, XIX-XX əsrlərdə Azərbaycanın xəritəsi Azərbaycanın zərərinə olaraq dəyişilibdir və tarixi torpaqlarımızın bir qismi bu gün bizim müstəqil Azərbaycan Respublikasının ərazisindən kənardadır. Bu, böyük məsələdir. Amma biz isə öz haqqımız uğrunda – Azərbaycan dövlət müstəqilliyini əldə edərkən beynəlxalq təşkilatlar tərəfindən, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmış ərazimizin bütövlüyü uğrunda mübarizə aparırıq, bu xəritənin üzərində mübarizə aparırıq, yəni bu xəritənin bərpa olunması uğrunda mübarizə aparırıq. Ona görə də mən deyirəm ki, bu, bizim haqqımızdır.

Mən bu gün sizə bunu açıq-aydın deyirəm və radio, televiziya vasitəsilə ölkəmizdə bizi dinləyənlər də bunu eşidirlər. Deyirəm ona görə ki, bir daha sizinlə, xalqla məsləhətləşək: hansı yolla getməliyik? Mən sizinlə məsləhətləşməyi daha da vacib hesab edirəm. Çünki siz işğal olunmuş torpaqların sahiblərisiniz. Sizin ata-baba yurdunuz, doğma torpaqlarınız işğal altındadır. Bu, bütün Azərbaycan Respublikasınındır, Azərbaycan xalqınındır. Amma bilavasitə sizin yaşadığınız yerlərdir. Ona görə də mən sizinlə məsləhətləşməyi vacib hesab edirəm: biz hansı yolla gedək? Sülh, danışıqlar yolu ilə, yaxud da özümüzü səfərbər edək, gücümüzü toplayaq, nəyin bahasına olur-olsun torpaqlarımızın azad edilməsinə qalxaq? Fikriniz nədir? Qoy sizin fikirlərinizi bir-iki nəfər uca səslə ifadə etsin.

**Y e r d ə n  s ə s l ə r**:

Cənab prezident, siz bizim ağsaqqalımızsınız.Bu milləti bəladan Siz xilas edə bilərsiniz. Ona görə də Siz nə məsləhət görürsünüz, o da olsun. Biz Sizin arxanızca getməyə hazırıq.

Cənab prezident, əgər bu məsələ sülh yolu ilə həll olunmasa, biz torpaqlarımızı nəyin bahasına olursaolsun almağa hazırıq. Sizin fikriniz bütün xalqın fikridir. Siz hansı yolu göstərirsinizsə, biz o yolla getməliyik. Bütün Azərbaycan xalqı Sizin mövqeyinizi, fikirlərinizi dəstəkləyir. [111-112]

Möhtərəm prezident, halva-halva deməklə heç vaxt ağız şirin olmur. Burada hərə bir söz danışır. Biri deyir, torpaqlarımızı müharibə yolu ilə alaq. Amma çox adam öz övladını əsgəri xidmətə göndərmir, göndərəndə də gündə gedib oğlunu hərbi hissədən evə gətirib yanında saxlayır. Siyasət ancaq və ancaq sülh siyasəti olmalıdır. Biz Sizin sülh siyasətinizi möhkəm müdafiə etməliyik. İnanırıq ki, Sizin şəxsinizdə, sizin sayənizdə torpaqlarımızı işğaldan azad edəcəyik.

Mən bütün anaların, qadınların hamısının adından deyirəm: Biz müharibə istəmirik, buna razı deyilik. İndiyə qədər verdiyimiz şəhidlər bəs deyilmi? Biz sülh istəyirik. Arzu edirik ki, dünya şöhrətli siyasətçi, xalqımızın müdrik oğlu Heydər Əliyev sülh yolu ilə torpaqlarımızı azad eləsin və biz qaçqın və məcburi köçkünləri öz yerimizə-yurdumuza qaytarsın. Cənab prezident, bu yolda Sizə Allahdan kömək diləyirik.

**Heydər Əliyev**: Aydındır, sakit olun. Mən bəzi sözləri və çox gur səslə danışan insanları eşitdim. Sizin sözlərinizin tam əksəriyyəti onu ifadə edir ki, siz məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarısınız. Mən hesab edirəm ki, məsələnin sülh yolu ilə həll olunması sahəsində hələ böyük imkanlar vardır. Bu imkanlar ondan ibarətdir ki, Azərbaycan bütün dünyaya sübut edib ki, ərazisinin 20 faizinin işğal edilməsinə, böyük itkilər verməsinə baxmayaraq, işğal olunmuş torpaqlarda sizin, Azərbaycanın var-dövlətinin viran olmasına, dağıdılmasına baxmayaraq, biz sülhsevər siyasət aparırıq. Biz bunu dünyaya nümayiş etdirmişik. Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar bunu yüksək qiymətləndirirlər. O mənada yox ki, yüksək qiymətləndirirlər və hesab edirlər ki, biz elə belə vəziyyətdə olmalıyıq. Yüksək qiymətləndirirlər və hesab edirlər ki, məsələni məhz sülh yolu ilə daha da müvəffəqiyyətlə həll etmək olar. Ona görə də mən hesab edirəm ki, məsələnin sülh yolu ilə həll edilməsi sahəsində hələ böyük imkanlar vardır. Biz bu imkanlardan istifadə etməliyik. Mən sizin [112-113] ümumi fikrinizi cəmləyərək bəyan edirəm ki, bundan sonra da biz məsələnin sülh yolu ilə həll olunmasına çalışacağıq. Ancaq siz də bilin, Azərbaycanın bütün vətəndaşları da, dünya da bilməlidir ki, Azərbaycan heç vaxt öz ərazisinin bir qarışını belə heç bir ölkəyə, başqa dövlətə verə bilməz. Dağlıq Qarabağ Azərbaycan topağıdır və Dağlıq Qarabağa Lissabon sammitinin qərarına görə Azərbaycan dövlətinin tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu verilə bilər. Biz heç vaxt Dağlıq Qarabağın müstəqil olmasına, yaxud da Ermənistana bağlanmasına razı ola bilmərik və buna heç vaxt yol verməyəcəyik.

Azərbaycanın işğal edilmiş torpaqları azad olmalıdır, Ermənistan silahlı qüvvələri Azərbaycanın bütün ərazisindən çıxarılmalıdır. Azərbaycan dövləti bütün ərazisinə tam nəzarət etməlidir və işğal olunmuş torpaqlardan didərgin düşmüş soydaşlarımız yerlərinə-yurdlarına qayıtmalıdır. Mən inanıram ki, biz buna nail olacağıq. Siz öz yerinizə-yurdunuza, doğma torpağınıza qayıdacaqsınız. Biz bu məsələ ilə məşğul olacağıq. Ancaq bu da vaxt tələb edir. Hesab edirəm ki, indiyə qədər hamımız dözmüşük, bundan sonra da dözməliyik ki, məsələni dediyiniz kimi, sülh yolu ilə həll edək. Bu yolda, bu istiqamətdə bu siyasəti aparmaq üçün birinci növbədə mən sizin, işğal olunmuş torpaqlardan didərgin düşmüş bacı-qardaşlarımızın və bütün Azərbaycan xalqının dəstəyinə arxalanıram.

Azərbaycan torpaqlarının işğal olunması və sizin yerinizdən-yurdunuzdan didərgin düşməyiniz bizim hamımız üçün dərddir. Bu, bütün xalqın, bizim millətimizin, dövlətimizin dərdidir. Bu, sizin dərdinizdir, amma bu dərdi hamımız çəkirik. Siz hamıdan çox çəkirsiniz. Çünki əgər biz ölkəmizin ərazi bütövlüyünün pozulmasının, əhalimizin bir qisminin yerindən-yurdundan didərgin düşməsinin dərdini çəkiriksə, şəhidlərin, itkilərin dərdini bir yerdə çəkiriksə, amma siz bütün [113-114] xalqın, vətənimizin dərdini çəkməklə yanaşı, hərəniz öz dərdinizi, ailənizin, evinizin dərdini də çəkirsiniz. Ona görə mən sizi anlayıram. Kim desə ki, hamının dərdi sizin dərdiniz kimidir, bu, doğru, düz olmazdı. Mən bir dövlət başçısı kimi sizin - yerindən, obasından didərgin düşmüş hər bir ailənin, evin dərdini çəkirəm. Amma hər bir ailə öz dərdini daha da əziyyət içində çəkir. Ona görə bu dərdi hamımız bir yerdə çəkirik.

Bilirsiniz, mən də sizin nə qədər əziyyət içində olduğunuzu, nə qədər problemlər içində olduğunuzu yaxşı bilirəm. Bilin, əmin olun ki, hər birinizin dərdi mənim şəxsi dərdimdir, qəlbimi incidir. Mən sizin, xalqımızın hamısının bu dərddən qurtarmasını özüm üçün ən böyük xoşbəxtlik hesab edirəm.

Bizim hamımızı incidən və yaralarımızı sızıldadan verdiyimiz şəhidlərdir. Azərbaycan xalqı 1988-ci ildən indiyə qədər çox şəhidlər veribdir. Bu, bizim xalqımızın şəhidləridir. Amma sizlərin, əziz bacılar, qardaşlar, hər birinizin öz ailənizin, evinizin, kəndinizin, qəsəbənizin, rayonunuzun şəhidi vardır. Ona görə də deyirəm ki, sizin dərdiniz hamının dərdindən ağırdır. Mən Azərbaycanın torpaqlarının müdafiəsi yolunda şəhid olmuş bütün övladlarımızın ruhunu bir dəqiqəlik sükutla yad etməyinizi xahiş edirəm.

Allah bütün şəhidlərə rəhmət eləsin.

Əminəm ki, biz torpaqlarımızı azad edəndən sonra, sizin yerlərinizə-yurdlarınıza qayıtmağınızı təmin edəndən sonra şəhidlərin xidməti daha da yüksəklərə qalxacaqdır. Biz onları heç vaxt unutmayacağıq. Onlar öz şəhidliyi, qəhrəmanlığı ilə öz adlarını millətimizin tarixinə yazıblar. Bu da böyük şərəfdir.

Belə bir dövrdə, belə bir zamanda sizin, elindən-obasından didərgin düşmüş qaçqınların, köçkünlərin vəziyyəti və problemlərinin həll olunması bizim əsas vəzifəmizdir. Bu barədə bu gün ətraflı danışıldı. Məruzələrdə geniş məlumatlar veril[114-115]di. Sizin çıxışlarınızda bu barədə həm məlumatlar verildi, həm də bir çox məsələlər irəliyə sürüldü, təkliflər verildi. Hesab edirəm ki, bugünkü müşavirə bundan sonra qaçqınların, köçkünlərin, didərgin düşmüş insanların problemlərinin həll olunması üçün çox əhəmiyyətlidir. Mən hesab edirəm ki, bu gün verilən təkliflərin hamısı öyrənilməlidir və imkan dairəsində onlar öz həllini tapmalıdır.

Sizin verdiyiniz təkliflər, irəli sürdüyünüz fikirlər hamısı yazılıbdır. Mən sabah, ola bilər, o biri gün xüsusi sərəncam verəcəyəm. Komissiya təşkil edirəm. O komissiyaya Baş nazir Artur Rasizadə sədrlik edəcəkdir və onlar qısa bir zamanda problemlərin həll olunması üçün əməli təkliflər hazırlayıb təqdim edəcəklər.Bu, təkcə sizin verdiyiniz təkliflərlə əlaqədar deyildir. Sizin verdiyiniz təkliflər eyni zamanda bir

çox başqa fikirləri də meydana çıxarır. Ona görə mən bu məsələyə çox geniş çərçivədə baxıram və hesab edirəm ki, biz əməli işlər görməliyik. İndi verilən təkliflərin hansının yerinə yetirilməsinin mümkün olub-olmamasını demək istəmirəm. Eyni zamanda bildirmək istəyirəm ki, bizim imkanlarımız da məhduddur. Ancaq [115-116] sizi əmin edirəm ki, bütün Azərbaycanın bugünkü iqtisadi potensialını, imkanlarını səfərbər edib sizin vəziyyətinizin yüngülləşməsi, yaxşılaşması üçün, verdiyiniz təkliflərin həyata keçirilməsi üçün lazımi tədbirlər görəcəyik.

Biz son vaxtlar iqtisadi islahatlar apararaq iqtisadiyyatda müəyyən dirçəlişə nail olmuşuq. Bu çətindir. Çünki bilirsiniz ki, Azərbaycan keçmiş Sovetlər İttifaqına mənsub olan başqa ölkələr kimi, ağır və çətin iqtisadi keçid dövrünü yaşayır. Biz bütün sahələrdə keçid dövrünü yaşayırıq. Mən indi iqtisadiyyatdan danışıram. Çünki bu problemlərin həll olunmasının əksəriyyəti iqtisadiyyatla, maddi və maliyyə imkanlarımızla bağlıdır. Bu dövrü yaşayırıq. Yenə də deyirəm, bizim apardığımız iqtisadi islahatlar müəyyən nəticələr verir. Ancaq bunlar o qədər deyil ki, biz sizin problemlərinizin həll edilməsi üçün istənilən qədər vəsait ayıra bilək.

İndi baxın, Azərbaycan müharibə aparıbdır, böyük itkilər veribdir, ərazisinin 20 faizi işğal olunubdur. Azərbaycanda bir milyondan artıq qaçqın, köçkün, didərgin yaşayır. Burada çıxışlarda deyildi, - qaçqınlardan, köçkünlərdən nə qədər adam işsizdir.

Bunların hamısı Azərbaycanın dövlət büdcəsinin çərçivəsində həll olunmalıdır. Amma dövlət büdcəsinə də gəlir gərək istehsalatdan gəlsin, iqtisadi fəaliyyətimizdən gəlsin. Əgər bəzi obyektiv səbəblərə görə bizim istehsal sahələrinin çoxu işləyə bilmirsə, məhsul istehsal edə bilmirsə, yaxud istehsal olunan məhsul dünya bazarında özünə yer tapa bilmirsə, biz onda hansı mənbələrdən vəsait alıb bu işlərimizi görə bilərik?

Əgər biz müəyyən dirçəliş əldə edə bilmişiksə, bunlar apardığımız iqtisadi siyasətin, iqtisadi islahatların nəticəsidir və Azərbaycana xarici investisiyanın, sərmayənin gətirilməsinin nəticəsidir. Təsəvvür edin, keçən il Azərbaycana bir milyard 300 milyon dollar xarici sərmayə gəlibdir. Əgər bunlar olmasaydı nə olardı? Amma çətinlik dövrü keçirən başqa ölkələrdən bizim fərqimiz odur ki, bizim bir milyondan artıq qaçqınımız vardır, bunların əksəriyyəti işləmir. Siz Rusiyanı götürün. Əgər Rusiyanın, Moskvanın televiziyasına baxırsınızsa, görürsünüz, - 15-20 gündür ki, Komidən gəlmiş şaxtaçılar Moskvada hökumətin binasının qabağında məskən salıblar, gecə-gündüz orada qalırlar. Ona görə ki, neçə aylardır maaşlarını ala bilmirlər. Yolları kəsirlər. Təkcə Moskvada deyildir, başqa yerdə də vardır. Dünən göstərdilər - Kiyevdə beş saat ərzində şəhərin mərkəzi prospektlərindən birinin yolunu kəsiblər. Orada qaçqın yoxdur, onlar müharibə aparmayıblar, onlar böyük dövlətlərdir, onların böyük iqtisadi imkanları vardır. [116-117]

Amma görürsünüz, büdcəni normal hala sala bilmirlər. Prezident hökuməti istefaya göndərdi, yeni bir hökumət yaratdı. Həmin hökumət indi böhrana qarşı proqram hazırlayır, yəni böhranın əleyhinə proqram. Bu proqram nə deməkdir? O deməkdir ki, xərcləri azaltmaq lazımdır. Xərclər isə insanlara verilən məvaciblərdir, müavinətlərdir və s. Bunları azaltmaq, gəlirləri artırmaq istəyirlər. Gəlirləri artıra bilmirlər. Xərcləri də azaltmağa məcburdurlar. Çünki büdcə buna dözmür. Bunu siz bilirsiniz, bilməyənlər üçün də mən deyirəm. Bu, bizə bənzər ölkələrdə hazırda ümumi problemdir. Ona görə də biz gərək bütün imkanlarımızı ölçək-biçək ki, görək nə edə bilərik.

Biz qaçqınlara, köçkünlərə kömək etmək üçün beynəlxalq humanitar təşkilatların yardımlarını alırıq. Bu yardımlar haqqında burada İzzət Rüstəmov, Gülabbas Qəhrəmanov, Abid Şərifov və başqaları məlumat verdilər. Mən bu gün fürsətdən istifadə edərək Azərbaycana humanitar yardım göstərən bütün ölkələrə, beynəlxalq təşkilatlara təşəkkürümü bildirirəm. Hesab edirəm ki, biz bu ölkələrə, beynəlxalq təşkilatlara minnətdar olmalıyıq. Çünki onların göstərdikləri humanitar yardım sizin problemlərin həll olunmasına müəyyən qədər kömək edir. Mən onların hamısına Azərbaycan dövləti adından təşəkkür edirəm. amma eyni zamanda hesab edirəm ki, Azərbaycana bu yardımlar daha da artıq ola bilər.

Məsələn, bilirsiniz ki, 1992-ci ilin oktyabr ayında ABŞ Konqresi Azərbaycana qarşı ədalətsiz bir qərar qəbul edibdir. Bu qərar da ondan ibarətdir ki, «Azərbaycan Ermənistanı blokadaya aldığına görə» Azərbaycana ABŞ hökuməti tərəfindən hər bir yardım qadağan edilir, ona embarqo qoyulur. Deyə bilərəm ki, bu, ABŞ-ın Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin içərisində yeganə bir ölkəyə göstərdiyi belə münasibətdir. Bu ədalətsizlikdir. [117-118]

Bilirsiniz ki, biz neçə ildir danışıqlar aparırıq ki, həmin 907-ci maddə aradan götürülsün və Azərbaycana yardım edilsin. Əgər bu maddə olmasa idi, başqa humanitar yardımlarla bərabər, Azərbaycan ABŞ-dan ildə azı 100 milyon dollar birbaşa yardım ala bilərdi. Ermənistan, Gürcüstan belə yardımı hər il alırlar. Ermənistan həddindən artıq çox alır. MDB-yə daxil olan başqa ölkələr də alırlar. Amma Azərbaycan bundan məhrumdur.

Bilirsiniz, bu ədalətsizlikdir. Biz son illər ABŞ-la çox sıx əlaqələr yaratmışıq, dövlətlərarası xoş münasibətlər, tərəfdaşlıq münasibətləri vardır. ABŞ-ın böyük şirkətləri Azərbaycanda neft sənayesində və sənayenin başqa sahələrində çox işlər görürlər. Demək, gəlir götürürlər. Biz onlarla bir-iki il yox, otuz-qırx illik müqavilələr imzalamışıq. ABŞ-ın Azərbaycana böyük maddi marağı vardır və bu maddi marağı Azərbaycan dövləti təmin edir. Belə olan halda gərək Azərbaycana qarşı bu ədalətsizlik olmasın. Ancaq təəssüf ki, bu vardır.

Bilirsiniz ki, mən və mənimlə bərabər bizim hökumət üzvləri, parlament bu barədə çox danışıqlar aparırıq. Mən Amerikanın prezidenti ilə bu barədə dəfələrlə danışıqlar aparmışam. Keçən il Amerikada rəsmi səfərdə olarkən Vaşinqtonda ABŞ prezidenti cənab Bill Klintonla və başqa dövlət rəhbərləri ilə danışıqlar aparmışam. Həmin o qərarı qəbul etmiş Konqresdə 40-dan çox konqresmen, senat üzvü ilə danışıq aparmışam. Onlar vaxtaşırı buraya da gəlirlər və onların hər biri ilə bu barədə danışıqlar aparıram.

Ancaq hələ məsələ həll olunmur və hər dəfə bizə deyirlər ki, bilirsiniz, bu qərar, doğrudan da, ədalətsizdir. Ancaq vaxtilə bunu Konqresdə erməni diasporunun təsiri altında ayrı-ayrı konqresmenlər veriblər, qəbul edilib, indi bunu ləğv etmək mümkün deyildir və bunun ləğv olunmasına yenə erməni [118-119] diasporu təsir edir, öz tərəfdarları olan konqresmenlərin vasitəsilə bunun ləğv olunmasının qarşısını alırlar.

Erməni diasporunun Azərbaycana qarşı düşmən münasibəti 1988-ci ildən məlumdur. Həmin ildən, Ermənistan - Azərbaycan münaqişəsi yaranandan erməni diasporu bütün dünyada, o cümlədən ABŞ-da, Fransada belə bir əhval-ruhiyyə, fikir yaratdı ki, guya Azərbaycan burada erməniləri öldürür, dağıdır, ermənilərin hüquqlarını tapdalayır. Guya burada Azərbaycan günahkardır, ermənilər isə günahsızdırlar və guya ermənilər zərərçəkmiş tərəfdir. Mən sizə dedim ki, biz son illər bu fikri müəyyən qədər dəyişdirə bilmişik. Amma hələ ki, erməni diasporu ABŞ-da güclüdür və bunu Amerikanın prezidenti, Fransanın prezidenti də etiraf edirlər.

Məsələn, Ermənistan Amerikanın birbaşa dövlət yardımından savayı, ayrı-ayrı zəngin ermənilərin də yardımını alır. Bu yaxınlarda məlumat verdilər ki, ABŞ-da yaşayan zəngin bir erməni Ermənistana 100 milyon dollar yardım etmək haqqında qərar qəbul edib və bu günlərdə o, Ermənistanda olubdur. Danışıqlar aparıblar ki, bu yardımı hara göndərəcəklər. Görürsünüz, onlara bir tərəfdən ABŞ dövləti 100 milyon dollardan artıq yardım edir, digər tərəfdən bir şəxs 100 milyon dollar yardım edir, amma qalanları da yardım edirlər. Humanitar təşkilatlar bizə yardım etdikləri kimi, onlara da yardım edirlər.

Beləliklə, biz eyni şəraitdə, vəziyyətdə deyilik. Biz bu gün də 907-ci maddənin ləğv olunması uğrunda mübarizə aparırıq və burada çıxışlarda da deyildi ki, ayın 23-də senator Braunbəkin təşəbbüsü ilə «Böyük İpək yolu» haqqında qanun layihəsi Senatın birinci komitəsində qəbul olunubdur. Əgər bu qanun tam qəbul olunarsa, 907-ci maddənin zəifləməsi, yaxud da tamamilə aradan götürülməsi olacaqdır. Ancaq eyni zamanda siz eşitdiniz ki, özlərini müxalifət səviyyəsində aparan bəzi vətəndaşlarımız hətta orada bizim bu işimizə də ma[119-120]ne olurlar. Yalnız öz şəxsi mənafelərinə görə. Ancaq onlar heç bir şeyə nail ola bilməzlər. Biz öz işimizi aparırıq və aparacağıq.

Beləliklə, mən beynəlxalq təşkilatların yardımı haqqında burada təəssüf hissi ilə deyirəm ki, biz ABŞ-ın yardımından məhrumuq. Ancaq güman edirəm ki, bizim ardıcıl surətdə apardığımız iş öz nəticəsini verəcəkdir.

Ümumiyyətlə, mən bunları çatdırmaqla bizim imkanlarımızı sizə daha da aşkar bildirmək istəyirəm. Bunların hamısına baxmayaraq, bir də qeyd edirəm və bəyan edirəm ki, biz bütün mövcud imkanlardan istifadə edib qaçqınların, köçkünlərin maddi vəziyyətinin yaxşılaşması üçün tədbirlər görəcəyik.

Ancaq hesab edirəm ki, əgər elə mövcud şəraitdə də buraxılmış nöqsanlar olmasaydı, ayrı-ayrı insanlar vəzifəsindən sui-istifadə edərək qaçqınlar,köçkünlər üçün ayrılmış vəsaitləri, yaxud gələn yardımın bir qismini mənimisəməsəydilər, şübhəsiz ki, vəziyyət başqa cür ola bilərdi. Mən bu baxımdan hesab edirəm ki, Nazirlər Kabineti, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən aparılan işlər hələ qənaətbəxş deyildir. Burada bildirildi, mən də müşavirəni açarkən dedim ki, hələ 1995-ci ildə məhz bu sahəyə xüsusi diqqət yetirərək mən Baş nazirin bu məsələ üzrə müavini vəzifəsini təsis etdim və bu vəzifəyə İzzət Rüstəmovu təyin etdim. İzzət Rüstəmov çox saf mənəviyyatlı bir adamdır, namuslu insandır, fədakar adamdır, onun oğlu da vətən yolunda şəhid olubdur, şəhid atasıdır, alimdir. Bu keyfiyyətlərinə görə onu bu vəzifəyə təyin etmişəm. Çalışır, ancaq mən bu gün demək istəyirəm ki, onun gördüyü işlər hələ yetərli deyildir. Bəzən işlərə səthi yanaşır, insanlara inanır. Baş nazirin müavini olduğu halda nə üçün orada ayrı-ayrı yoxlamalar təyin edəydim? Baş nazirin müavini, Qaçqınlar Komitəsi və Nazirlər Kabinetində bu sahəyə baxan şöbə gərək vaxtında bunlara nəzarət [120-121] edəydilər, bu nöqsanlara, bu cinayət hallarına yol verməyəydilər. Qaçqınlar Komitəsi də çox qeyri-qənaətbəxş işləyir. Qeyd etməliyəm ki, ümumiyyətlə, Qaçqınlar Komitəsi yaranandan pis işləyibdir. O heç vaxt yaxşı işləməyibdir.

Doğrudur, mən 1993-cü ildə buraya gələndə başım çox işlərə qarışıq idi, bu Qaçqınlar Komitəsinin işi ilə məşğul olmağa o qədər də imkanım yox idi. Məlumdur ki, bu da Nazirlər Kabinetinin tərkibindədir və uzun müddət Nazirlər Kabinetinə kimlərin rəhbərlik etdiyini yaxşı bilirsiniz: demək olar ki, 1994-cü ilin sonuna qədər Surət Hüseynov, ondan sonra Fuad Quliyevi təyin etdim, o da etimadı doğrulda bilmədi. Beləliklə, bu Qaçqınlar Komitəsinin işinə bir lazımi rəhbərlik olmamışdır. Buraya əvvəllər İrşad Əliyev rəhbərlik edirdi. Biz onu kənd təsərrüfatı naziri qoyduq, ona böyük vəzifə verdik. Amma sonra gördüm ki, heç o da yaxşı işləməyibdir. Ondan sonra bir müddət bu vəzifə boş qaldı. Həmin o birinci müavin əvəz etdi, hansı ki, indi cinayətə görə həbs olunubdur. Sonra isə Gülabbas Qəhrəmanovu təyin etdik. Mən onu təyin edəndə çox böyük ümidlər bəslədim və ona dedim ki, bu, çox məsuliyyətli işdir. Ancaq təəssüf olsun ki, o, işə başlayandan sonra orada ciddi nəticələr görmədim. Əgər belə olmuş olsaydı, nə üçün xüsusi bir komissiyanın təyin olunması lazım idi? Mən məcbur oldum xüsusi komissiya yaratdım və bu komissiyaya əmək və əhalinin sosial müdafiəsi naziri Əli Nağıyevi sədr təyin etdim. O komissiyanın yoxlaması nəticə-

sində orada humanitar yardımların mənimsənilməsi və başqa cinayət halları meydana çıxmışdır. Yaxşı, əgər Əli Nağıyev nazir olaraq komissiyaya sədrlik edib bu nöqsanları, cinayət hallarını meydana çıxara bilibsə, Qaçqınlar Komitəsinin sədri də nazirdir, bu hökumətin üzvüdür, özü niyə bunları aşkar etməmişdir? Buna imkan var idi. Çünki vəzifəyə yeni təyin olunmuşdu, əvvəllər orada işləməmişdi. Demək, hər şeyi aşkara çıxara bilərdi. Amma çıxarmamışdır. [121-122]

Beləliklə, ayrı-ayrı adamların vəzifədən sui-istifadə etməsi və humanitar yardımların mənimsənilməsi halları aşkar olunubdur. İndi materiallar prokurorluqdadır. Baş prokuror burada məruzə etdi. Cinayətkarlar cinayət məsuliyyətinə cəlb olunubdur və cəzalarını çəkməlidirlər. Heç kəsə bu yolda güzəşt olmamalıdır.

Bilirsiniz, şübhəsiz ki, bu hallar birinci növbədə bizi, dövləti narahat edir. Ancaq bizim işlərimizə zidd olan ayrı-ayrı qüvvələr də bunlardan istifadə edib şişirdirlər və problem yaradırlar. Eldar Həsənov burada məruzə etdi ki, guya müxalifət düşərgəsində duran bəzi adamlar hətta ABŞ-a məlumat verirlər ki, gələn humanitar yardımın yarısı hökumət tərəfindən mənimsənilir. Axı bu qədər də yalan, vicdansızlıq, insafsızlıq ola bilməz! Onlar bunu xəbər verərək təklif edirlər ki, Azərbaycana humanitar yardım göndərməyin. Xalqa nə qədər xəyanət etmək olar? Həmin bu adamlar hələ demək olar ki, bəlkə də siyasətin nə olduğunu bilmədikləri vaxtda Heydər Əliyev Azərbaycanda 1969-cu ildən başlayaraq korrupsiya ilə, ayrı-ayrı vəzifəli şəxslərin vəzifədən sui-istifadə etməsi ilə, dövlət əmlakının, xalqın əmlakının mənimsənilməsi halları ilə ardıcıl mübarizə aparıb və bu mübarizənin nəticəsində də çox işlər görülübdür. Mən bu mübarizəni prezident kimi bu gün də aparıram, sabah da aparacağam. Bu, ən əvvəl, mənim şəxsi mənəviyyatımla bağlıdır. Mən vəzifəsindən sui-istifadə edən, başqasının malını mənimsəyən, özünə cinayət yolu ilə mal, sərvət toplayan adamlara həyatım boyu, həmişə nifrət etmişəm, onlarla həmişə mübarizə aparmışam, həmişə mənəvi saflığımı qorumuşam və mənəvi saflıq uğrunda mübarizə aparmışam. Mənim şüurlu həyatımın demək olar ki, əlli ildən çox hissəsi buna həsr olunubdur, mən bu yoldan heç vaxt dönməmişəm və dönməyəcəyəm. Korrupsiya ilə, cinayətkarlıqla, cürbəcür mənfi işlərlə məşğul olan adamlar indi gəlib Azərbaycanda özlərini «ədalət müdafiəçisi», yaxud da «təmiz[122-123]lik müdafiəçisi» kimi qələmə vermək istəyirlər. Bu, heç vaxt alınmayacaqdır. Bu, heç vaxt mümkün deyildir. Sizlərə heç kim inanmaz. Çünki inandırmağa əsasınız yoxdur. Amma mənim əsasım vardır. Yenə də deyirəm, bu əsasımın da əlli ildən artıq tarixi vardır. Bu mövqedə olaraq, bu mənəviyyatla yaşayaraq mən bu gün də bütün dövlət, hökumət orqanlarından qəti tələb edirəm ki, cinayətkarlıqla mübarizə gücləndirilsin, hökumət, dövlət adamlarının vəzifəsindən sui-istifadə etməsi hallarının qarşısı alınsın və o cümlədən qaçqınlara, köçkünlərə aid olan məsələlərdə bu hallarla daha da kəskin mübarizə aparılsın.

Ümumiyyətlə, hesab edirəm ki, cinayətkarı bağışlamaq olmaz. Ancaq kimisə, haradasa – əgər günahını başa düşübsə – əfv etmək olar. Bilirsiniz ki, mən çoxlarını əfv etmişəm. Ancaq bu gün də, gələcəkdə də deyirəm ki, qaçqın malına, köçkün malına, humanitar yardıma əl uzadan adamın əli kəsilməlidir. Bu adamlar qanunun tələbləri ilə, ən yüksək maddələri ilə cəzalanmalıdırlar. Bu gün Qaçqınlar Komitəsindən tələb edirəm və onun sədri Gülabbas Qəhrəmanovu xəbərdar edirəm. Xəbərdar edirəm ki, mən onun işini qeyri-qənaətbəxş hesab edirəm və tələb edirəm ki, bu işdə dönüş yaransın. Şübhəsiz ki, əgər dönüş yaranmasa, müvafiq tədbirlər görüləcəkdir. İzzət Rüstəmova xəbərdarlıq edirəm, mənim ona olan hörmət-ehtiramımla yanaşı, hesab edirəm ki, o bu məsələlərlə daha da ciddi məşğul olmalıdır. Baş prokuror meydana çıxmış məsələlərin istintaqını axıra qədər aparmalıdır və cinayətkarlar kimliyindən asılı olmayaraq qanun əsasında cəzalanmalıdırlar.

Hesab edirəm ki, mən dediyim bu tədbirlərin hazırlanması və həyata keçirilməsində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin strukturunun dəyişilməsi, onun lazım olsa genişlənməsi, yerli orqanların fəaliyyətinə nəzarət və başqa məsələlər də öz əksini tapmalıdır. Bu komitə [123-124] hökumətin vacib strukturlarından biridir və komitənin işinə bu prinsipə müvafiq münasibət göstərilməlidir. Ancaq qaçqınların, köçkünlərin işi ilə təkcə bu komitə, yaxud da Nazirlər Kabinetinin şöbəsi, bu iş üçün təyin edilmiş Baş nazirin müavini məşğul olmamalıdır. Bu, onların vəzifəsidir. Hesab edirəm ki, hər bir hökumət, dövlət orqanı qaçqınlarla, köçkünlərlə ciddi məşğul olmalıdır, onlara qayğı göstərməlidir.

Bir sözlə, Azərbaycanda qaçqınlara və köçkünlərə dövlət qayğısı, ümumxalq qayğısı artırılmalıdır. Mən bütün dövlət, hökumət orqanlarından tələb edirəm ki, öz işlərini mənim bu tələbim əsasında qursunlar. Nazirlər, komitə sədrləri, hökumət üzvləri bu işlərlə ciddi məşğul olmalıdırlar. Bu problemdə hərə öz yerini tapmalıdır. Yəni, bu problemin həll olunması üçün işin hansı sahəsinə kömək edə bilərsə, çəkilib kənarda durmamalıdır. Bu, bizim ümummilli, ümumxalq işimizdir. Bu, şəhər və rayonlarda yerli icra orqanlarının bilavasitə bir nömrəli vəzifəsidir. Amma mən hiss edirəm, təəssüflər olsun ki, bəzi rayon, şəhər icra hakimiyyəti başçıları bu məsələlərlə lazımi səviyyədə məşğul olmurlar. Hesab edirəm ki, hər bir şəhərdə, rayonda, qəsəbədə bizim yerli orqanların imkanlarını səfərbər edərək qaçqınlara, köçkünlərə daha da çox qayğı göstərmək olar, onların problemlərini daha da yaxşı həll etmək olar. Burada bəzi görülmüş işlər haqqında məlumatlar verildi. Yəni, müsbət təcrübədən səmərəli istifadə etmək lazımdır. Artur Rasizadə, bu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin yerlərdəki şöbələri icra hakimiyyətinə bağlıdırmı?

**Artur Rasizadə**: Bəli, onlara bağlıdır.

**H e y d ə r Ə l i y e v**: Əgər bağlıdırsa, niyə bizim yerli icra hakimiyyəti orqanları bu işlərlə məşğul olmurlar? Buna da baxmaq lazımdır. Mən indi burada məsələləri detallaşdırmaq istəmirəm. Görürsünüz, çox problemlər çıxır. Ona görə də mən dərhal böyük bir komissiyanın təşkil olunması barədə qərar qə[124-125]bul etdim ki, bunların hamısına birlikdə, kompleks şəkildə baxılsın. Bir sözlə, yerli icra hakimiyyəti orqanlarından bir daha qəti tələb edirəm ki, bu vəzifələri yerinə yetirsinlər.

Qaçqın rayonların icra hakimiyyəti başçılarının və hakimiyyət orqanlarının üzərinə çox böyük vəzifələr düşür. Təəssüflər olsun, bəzən siqnallar gəlir ki, bu hakimiyyət orqanlarının bəzi şəxsləri tərəfindən qaçqınlara lazımi qayğı göstərilmir və bəzən də ayrılan vəsaitlər mənimsənilir. Bunlara da yol vermək olmaz. Mən qaçqın rayonların icra hakimiyyəti başçılarından bir daha tələb edirəm ki, onlar öz vəzifələrini layiqincə yerinə yetirsinlər. Hansı çətinlikləri, problemləri varsa, Nazirlər Kabinetinə, Prezident Aparatına, şəxsən mənə müraciət etsinlər. İmkan çərçivəsində hər bir problemi həll etmək mümkündür. Ancaq problemi özündən uzaqlaşdırıb böyük bir problemə çevirmək lazım deyildir.

Hesab edirəm ki, qaçqınların, köçkünlərin məskunlaşdığı yerlərdə də hörmətli adamlar, ağsaqqallar, müəllimlər və həmvətənləri soydaşları ilə daha da mehriban olmalıdır və onların işləri ilə məşğul olmalıdırlar. Bir-birinə kömək etməlidirlər. Mən bilirəm, bu, şübhəsiz ki, vardır. Ancaq mən istəyirəm ki, bu, daha da yüksək səviyyədə olsun.

Burada bir çox məsələlər aydın oldu, amma mən o torpaq məsələsini qeyd etmək istəyirəm. Buna baxmaq lazımdır. İndi torpaq islahatı proqramına görə torpaqlar özəlləşdirilir. Doğrudan da, əgər bələdiyyəyə ayrılmış torpaq sahələrindən rayonların ərazisində yerləşmiş köçkünlərə, qaçqınlara ayırıb nəsə vermək olarsa, buna da baxmaq lazımdır. Hesab edirəm burada da müəyyən iş görmək olar. Nəyə görə torpaq boş qalsın? Əgər torpaq istifadə olunmursa, yaxud səmərəli istifadə olunmursa, müəyyən bir dövr üçün bunu vermək olar ki, onlar istifadə etsinlər. Qaçqınların, köçkünlərin yaşadığı yerlərdə onların yaşayış şəraitini daim yaxşılaşdırmaq lazımdır. Bu, bizim əsas vəzifəmizdir. Burada yenə də yerli icra haki[125-126]miyyəti orqanları öz imkanlarından istifadə edib çox işlər görə bilərlər.

Eyni zamanda, fikrimi bildirmək istəyirəm ki, gərək hər biriniz öz yerinizə – yurdunuza dönmək arzusu ilə yaşayasınız. Özünüzə haradasa bir ev, yaşayış yeri tapıb, orada daimi məskunlaşıb öz torpağınızı, dədə-baba yerinizi-yurdunuzu unutsanız, bilin ki, bu, öz yerinizə və babalarınızın ruhuna xəyanət olar. Biz sizinlə birlikdə o yerlərə qayıtmalıyıq və o yerlərdə Azərbaycanın, beynəlxalq təşkilatların imkanları ilə, - bu barədə Dünya Bankı bizə çox qəti sözlər veribdir, - onların imkanları ilə sizin hamınıza yeni evlər, binalar, xəstəxanalar, məktəblər tikəcəyik və o şəhərlər, kəndlər, qəsəbələr hamısı yenidən həyat alacaqdır.

Biz də bu duyğularla yaşamalıyıq. Yoxsa, haradasa bir yerdə əlinə bir mənzil keçirib orada yerləşəsən və hesab edəsən ki, sənə torpaq da, ev də, dağ da, meşə də, o bulaqlar da, o çaylar da, o qayalar da lazım deyil, - heç kəs buna yol verməməlidir. Bu, biz azərbaycanlıların və xüsusən Azərbaycanın kənd sakinlərinin mənəviyyatına uyğun şey deyildir. Mən bizim Azərbaycan rayonlarında, kəndlərində yaşayan insanların öz torpağına, kəndinə, çayına, bulağına, çeşməsinə nə qədər bağlı olduğunu bilirəm. Çox arzu edirəm ki, bu bağlılıq hissini siz heç vaxt unutmayasınız, bu hissiyyatı itirməyəsiniz. Ona görə də sizin indi yaşadığınız yerlərdə yaşayışınız müvəqqəti xarakter daşıyır. Şübhəsiz ki, müvəqqəti yaşamaq üçün də şəraiti günü-gündən yaxşılaşdırmaq lazımdır. Amma əsas istiqamət, əsas yol doğma torpağa qayıtmaqdır, orada yenidən evlər tikmək, yenidən yaşayış yaratmaqdan ibarətdir.

Ermənistan qaçqınları düşünə bilər – bəs onlar nə edəcəklər? Axısxa türkləri də deyə bilərlər – bəs onlar nə edəcəklər? Mən hesab edirəm ki, vaxt gələcək, Ermənistandan zorla çıxarılmış soydaşlarımız öz doğma torpaqlarına qayıdacaqlar, Axısxa türkləri öz dədə-baba torpaqlarına – Gürcüstan ərazisinə qayı[126-127]dacaqlar. Mən buna inanıram. Bütün bu işləri görmək üçün, dediyim kimi, məsələni sülh yolu ilə həll etmək üçün biz gərək dünya ictimaiyyətinə Azərbaycanın düşdüyü vəziyyət, qaçqınlar, köçkünlər haqqında, onların dözülməz vəziyyəti haqqında məlumat verək. Biz bu barədə çox zəif işləyirik.

Siz burada qeyd etdiniz ki, mən xarici ölkələrdən gələn dövlət başçılarını, hökumət üzvlərini, elm, mədəniyyət xadimlərini çalışıram ki, qaçqınların yaşadıqları yerlərə, çadır şəhərciklərinə göndərim. Nə üçün? Bəzən onların vaxtı olmur. Ancaq mən xahiş edirəm və buna nail oluram. Ona görə ki, görsünlər. Görməyəndə təsəvvür edə bilmirlər ki, insan altı il çadırda, vaqonun içində, vaqonun altında yaşaya bilər, - bunu təsəvvür edə bilmirlər.

Yaxın vaxtlarda məşhur musiqiçi Mstislav Rostropoviç burada, Bakıda idi. O, dünyanın ən məşhur adamlarından biridir, dünyanın bir çox ölkələrinin prezidentlərinin yaxın dostudur, böyük-böyük təşkilatlarla da çox əlaqəsi vardır. O, özü maraq göstərdi və mənim vertolyotumla gedib bunun hamısını gözləri ilə gördü. Qayıdandan sonra gəlib mənə dedi ki, mən onları görəndən sonra özümə gələ bilmirəm. Təsəvvür edə bilmirdim ki, insanlar belə vəziyyətdə yaşaya bilərlər. Biz çadır şəhərciklərində, vaqonun altında yaşayan insanlarla onun görüşlərini videokassetə almışdıq. O, onları götürdü, dedi ki, aparıb bunları yayacağam.

Bir-iki il bundan qabaq Amerikanın böyük siyasi xadimi Bjezinski Bakıya gəlmişdi. Mən ondan xahiş etdim, o gedib çadır şəhərciklərinə baxdı. Gəldi, mənə dedi ki, mən dünyada qaçqınlar, köçkünlər yaşayan çox düşərgələrdə olmuşam, amma beləsini görməmişdim. Bilirsiniz, gərək biz çalışaq ki, bu, ayrı-ayrı

adamlara yox, bütün dünya ictimaiyyətinə çatsın. Təəssüf ki, biz bunu indiyə qədər edə bilməmişik. Bu da bizim zəifliyimizdir, passivliyimizdir. Təəssüf ki, bu, millətimizin mənfi keyfiyyətlərindən biridir. [127-128]

Mən keçən il ABŞ-a rəsmi səfərə gedərkən qaçqınlar haqqında bir kitab düzəltdik. Bu, tələsik oldu. Çünki mənim səfərimin vaxtına az qalmışdı. Mən onu ABŞ-da payladım. İnsanlarda nə qədər təsir oyatdı! Amma bunların hamısı epizodik bir şeydir. Ona görə hesab edirəm ki, bu komissiyanın təklifləri içərisində biz gərək xüsusi təbliğat strukturu yaradaq. Gərək qaçqınların, köçkünlərin vəziyyəti haqqında daim kitablar, albomlar, plakatlar, filmlər, videofilmlər, başqa şeylər yaradılsın və daim bütün ölkələrə göndərilsin. Xüsusən, Ermənistan – Azərbaycan münaqişəsini həll etməyə qoşulmuş ölkələrə göndərilsin, onların ictimaiyyəti görsün.

Ermənistanın bir çox ölkələrdə diasporları vardır. O diasporların etdiyi şeyləri heç Ermənistanın özü edə bilmir. Məsələn, keçən il Amerika prezidenti Bill Klintonun dəvəti ilə mənim ABŞ-a rəsmi səfərim ərəfəsində onlar nə qədər işlər gördülər. Hələ mənim səfərimdən üç ay öncə Amerikada bütün ermənilərə yaydılar, prezident Bill Klintonun adına məktublar təşkil etdilər ki, Azərbaycan prezidentinin ABŞ-a gəlməsinə yol verilməsin. Prezident Bill Klintona nə qədər təzyiqlər göstərməyə çalışdılar. Nə qədər işlər görməyə çalışdılar, cürbəcür böhtanlar, yalan yazılar dərc olunan qəzetlər buraxdılar. Bunların yalanı, böhtanı da odur ki, guya Azərbaycanda demokratiya yoxdur, insan hüquqları pozulur. Guya ki, xaricdə yaşayan həmin ermənilər Azərbaycanda demokratiya ilə maraqlanırlar, onlar guya Azərbaycanda azərbaycanlıların hüquqlarının pozulmasından narahatdırlar.

Xeyr, bu belə deyil, sadəcə, bizim bu müxalifətin yalandan uydurub onların ağzına atdığı sözləri onlar götürüb öz mənafeləri üçün istifadə edirlər. Amma görün, hansısa bir ölkədə Ermənistan prezidenti oraya gedəndə beş nəfər azərbaycanlı varmı ki, onun əleyhinə çıxsın? Yoxdur. Bizim belə imkanımız yoxdur. Nəinki buna imkanımız yoxdur, bizim içimizdən [128-129] həmin o ermənilərlə birlikdə əleyhimizə işləyənlər çoxdur. Bu da vardır.

Belə olan halda biz gərək xüsusi təbliğat sistemi yaradaq. Bu təbliğat da kiməsə nəyisə yalandan çatdırmaq üçün yox, Azərbaycanın bugünkü reallığını, işğal olunmuş torpaqlarının vəziyyətini, qaçqın, köçkün şəraitində yaşayan insanların vəziyyətini gərək daim cürbəcür vasitələrlə dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara çatdırmaq üçün lazımdır. Bunlar hamısı bizim ümumi məsələmizin, yəni, məlum məsələnin sülh yolu ilə həll olunması, təmin edilməsi üçün çox vacib şərtlərdir. Hesab edirəm ki, bizim hökumət, dövlət orqanları gözləmədən bu işlə məşğul olmalıdırlar. Hərə öz sahəsində çox iş görə bilər. Amma, eyni zamanda, bunu daha da mütəşəkkil aparmaq üçün bu komissiyanın təklifləri içində bu da olmalıdır. Biz bununla əlaqədar lazımi tədbirlər görməliyik.

Əziz dostlar, beləliklə, mən bu problemlərin bir çoxuna toxundum və ürəyimdə olan sözləri sizə açıq-aydın dedim. Sizi də dinlədim. Ona görə də hesab edirəm ki, bugünkü gün bizim üçün çox səmərəli gündür və əminəm ki, biz bu görüşdən sonra çox ciddi tədbirlər hazırlayıb həyata keçirə bilərik.

Bu gün siz buradakı çıxışlarınızda mənim fəaliyyətim, gördüyüm işlər haqqında fikirlərinizi bildirdiniz, hissiyyatlarınızı izhar etdiniz. Mən bütün bunlara görə sizə təşəkkür edirəm. Çox sağ olun. Mənim həyatımın mənası xalqa xidmət etməkdən ibarətdir. Mənim həyatım ölkəmin, xalqımın gözü qarşısındadır. Əgər mənim bu xidmətimi bir vətəndaş da anlaya bilirsə və bunu qiymətləndirə bilirsə, bu, mənim üçün əhəmiyyətlidir. Ona görə də dediyiniz sözlərə görə çox sağ olun, təşəkkür edirəm.

Siz eyni zamanda gələcək prezident seçkiləri barədə də öz fikirlərinizi bildirdiniz. Həqiqətən belədir. Mən beş il bundan öncə də Azərbaycanda prezident olmaq arzusunda olmamışdım. Siz bunu bilirsiniz və məni buraya siz gətirmisiniz, xalq [129-130] gətiribdir. Naxçıvandan buraya gələrkən mənimlə dörd gün danışıqlar aparıldı. Mən buraya gələrkən bildim ki, odun-alovun içinə gedirəm. Mən Naxçıvandan uçub Bakıya enəndə o dəqiqə, o an artıq özümü şəhid hesab etdim. Mən buraya vəzifə üçün yox, xalqımın dərdinə qalmaq üçün gəldim. 1993-cü ilin oktyabrında da prezident seçkiləri təyin olunanda mən öz namizədliyimi vermədim. İndi özlərini namizəd vermək istəyən adamlar, - şübhəsiz, namizəd vermək təbiidir, qoy versinlər, - amma başqaları haqqında yalan, böhtan deyən adamlar o vaxtlar, 1993-cü ildə bəs nəyə görə gəlib öz namizədliklərini vermədilər? Nə üçün? Gəlib namizədliklərini verəydilər, xalq da görəydi və kimi istəyərdi onu da seçərdi. Mən öz namizədliyimi vermədim, amma siz məni seçdiniz. Buna görə çox sağ olun.

Beş ildir ki, mən sizə, doğma xalqıma, doğma vətənimə və müstəqil Azərbaycana sədaqətlə xidmət edirəm. Mən bundan sonra da xidmət edəcəyəm, harada olur-olsun, hansı vəzifədə olur-olsın xidmət edəcəyəm. Doğma xalqıma xidmət etmək mənim həyatımın mənasıdır. Mən bunsuz yaşaya bilmərəm. Amma prezident kimi seçəcəksiniz – bunu özünüz bilərsiniz.

**Y e r d ə n s ə s**: Bizim yeganə prezidentimiz yalnız və yalnız Heydər Əliyev ola bilər. Cənab prezident, bizim növbəti prezidentimiz də siz olacaqsınız. Xalqın ümidgahı sizsiniz.

**H e y d ə r Ə l i y e v**: Mən sizə onu bəyan edirəm ki,beş il müddətində Azərbaycanda ictimai-siyasi sabitlik yaranıb, insanlar rahat yaşayırlar. Dörd ildən artıqdır ki, sülhdür, qan tökülmür, atəş yoxdur. Günbəgün, aybaay, ilbəil Azərbaycanın beynəlxalq aləmdə adı, hörməti yüksəlir. Azərbaycan dünyanın bir çox dövlətləri ilə qarşılıqlı faydalı əlaqələr qurub və bu əlaqələr inkişaf edir. Azərbaycanda demokratiya yaranıb inkişaf edir, bundan sonra da inkişaf edəcəkdir. Azərbaycan vətəndaşlarının azadlığı, onların

haqları Konstitusiya ilə qorunur və bundan sonra da qorunacaqdır. Azər[130-131]baycan bazar iqtisadiyyatı yolu ilə gedir, iqtisadi islahatlar keçirir və bunları axıra çatdıracaqdır. Azərbaycan bir müstəqil dövlət kimi bundan sonra da yaşayacaq, yüksələcək və Azərbaycanın müstəqilliyi əbədi, dönməz olacaqdır. Mənim də, sizin də borcumuz odur ki, bu yolda xalqımıza, vətənimizə, müstəqil dövlətimizə sədaqətlə xidmət edək. Əmin olun ki, mən bundan sonra da sədaqətlə xidmət edəcəyəm.

Burada təklif oldu ki, bizim bugünkü yığıncağımızın adından, Azərbaycandakı bütün qaçqınların adından dünya dövlətlərinə, beynəlxalq təşkilatlara müraciət göndərək. Hesab edirəm ki, bu təklif düzgün təklifdir.

Mən sizdən xahiş edirəm, mənim salamımı, hörmət və ehtiramımı bütün qaçqınlara, çadırlarda yaşayan köçkünlərə çatdırasınız. Mən sizin hamınızı qucaqlayıram, öpürəm. Sizə, qaçqın və köçkün vəziyyətində yaşayan bütün bacı-qardaşlarıma cansağlığı, səadət, əmin-amanlıq, gələcək işlərdə uğurlar arzulayıram. Sağ olun. [131]

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ, ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ**

Əziz dostum və qardaşım Süleyman Dəmirəl!

Türkiyənin Adana bölgəsində baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı xəbərindən çox kədərləndim. Bu faciəli anlarda sizinlə olduğumu, dərdinizə şərik çıxdığımı bildirirəm.

Sizə, bütün qardaş türk xalqına, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə baş-sağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzu edirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 iyun 1998-ci il*
[132]

## AZƏRBAYCAN RƏSSAMLAR İTTİFAQININ QURULTAYINA

Hörmətli qurultay nümayəndələri!

Sizi və sizin şəxsinizdə Azərbaycan rəssamları və heykəltəraşlarını respublikamızın ictimai və mədəni həyatında mühüm hadisə – Azərbaycan Rəssamlar İttifaqı qurultayının açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Təməli XVI əsrdə dahi miniatür rəssamı Sultan Məhəmməd tərəfindən qoyulmuş Azərbaycan rəssamlıq məktəbinin qədim və zəngin tarixi vardır. Bu məktəbin görkəmli nümayəndələri təsviri sənətin müxtəlif janrlarında yaratdıqları əsərlərində doğma yurdumuzun füsunkar gözəlliyini, xalqımızın qəhrəmanlıq tarixini, yüksək mənəvi dəyərlərini, azadlıq və xoşbəxtlik amallarını təsvir etməklə onun həyat salnaməsini yazmışlar. Siz öz sələflərinin zəngin ənənələrini ləyaqətlə davam etdirən Azərbaycan rəssamlarının nümayəndələrisiniz. Onların fədakar və səmərəli əməyi ilə yaradılmış sənət abidələri xalqımızın mədəni həyatının nadir incilərini təşkil edərək onun milli şüurunun, estetik zövqünün möhkəmlənməsinə və inkişafına xidmət edir.

Azərbaycan rəssamları və heykəltaraşları xalqımızın azadlıq uğrunda keçdiyi mübarizə yolunu, məruz qaldığı təcavüzün nəticələrini, gündəlik qayğılarını və düşüncələrini öz yaradıcılıqlarında əks etdirərək günümüzün real mənzərəsini yaradır və onu gələcək nəsillər üçün yaddaş kitabına çevirirlər. Qanlı Yanvar hadisələrini, erməni silahlı dəstələrinin Qarabağ müharibəsində törətdiyi vəhşilikləri, Xocalı faciəsini, müharibə nəticəsində qaçqın və məcburi köçkün həyatı ya[133-134]şamaq məcburiyyətində qalmış vətəndaşlarımızın düçar olduğu ağır vəziyyəti təsvir edən əsərlər Azərbaycan təsviri sənət ustalarının vətəndaşlıq mövqeyinin parlaq ifadəsidir.

Azərbaycan rəssamlarının və heykəltaraşlarının respublikamızda və xarici ölkələrdə təşkil etdiyi sərgilər gözəl ənənəyə çevrilmişdir. Bu sərgilər ölkəmizin mədəni həyatının ayrılmaz hissəsini təşkil edir, dünya xalqlarını Azərbaycanla, onun üzləşdiyi problemlərlə tanış etmək üçün mühüm vasitə rolunu oynayır.

Müstəqil Azərbaycan dövlətinin qarşısında günün tələblərindən doğan mühüm və məsul vəzifələr durur. Bu vəzifələrin yerinə yetirilməsi yaradıcı ziyalılardan, o cümlədən sizin ittifaqın üzvlərindən də öz səylərini artırmalarını tələb edir. Ümidvaram ki, qurultayınız bu istiqamətdə müzakirələr apararaq Azərbaycan təsviri sənətinin XXI əsrdə inkişaf yollarının müəyyən olunmasında əhəmiyyətli rol oynayacaqdır.

Bu nəcib işinizdə sizə yeni-yeni uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 iyun 1998-ci il*
[134]

## RUMINİYA PREZİDENTİ EMİL KONSTANTİNESKUNUN BİNƏ HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİNDƏ BƏYANAT

*29 iyun 1998-ci il*

Hörmətli cənab prezident!
Hörmətli qonaqlar!

Sizi Azərbaycanda ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Rumıniya ilə Azərbaycan arasında faydalı əlaqələr yaranıbdır və artıq bu əlaqələrin müəyyən nailiyyətləri mövcuddur. Dövlətlərimiz, hökumətlərimiz arasında müqavilələr, sazişlər, çox əhəmiyyətli sənədlər imzalanıbdır.

Hörmətli prezident Emil Konstantinesku, sizin Azərbaycana bu rəsmi səfəriniz Rumıniya - Azərbaycan əlaqələrinin inkişafda olmasını nümayiş etdirir. Mən ümidvaram ki, biz ölkələrimizin, dövlətlərimizin arasında əlaqələrin gələcək inkişafı ilə əlaqədar mühüm məsələləri müzakirə etmək imkanına malik olacağıq. Cənab prezident, mən bilirəm ki, buna sizin - Rumıniyanın da, bizim - Azərbaycanın da ehtiyacı vardır. Mən bununla bərabər arzu edərdim ki, siz, Azərbaycana ilk dəfə səfər edən Rumıniya prezidenti Azərbaycanla, paytaxtımız Bakı şəhəri ilə mümkün qədər tanış ola biləsiniz, bizim bu günümüzü görə biləsiniz. Əmin ola bilərsiniz ki, siz Azərbaycanda qonaqpərvərlik, dostluq və mehribanlıq şəraitində olacaqsınız. İnanıram ki, bizim danışıqlarımız, görüşlərimiz çox səmərəli olacaq, həm Rumıniya üçün, həm Azərbaycan üçün faydalı olacaqdır. Bir daha sizi salamlayıram. Xoş gəlmisiniz! [135]

## AZƏRBAYCAN PREZİDENTİNİN RUMINİYA PREZİDENTİ EMİL KONSTANTİNESKU İLƏ TƏKBƏTƏK GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident sarayı*

*30 iyun 1998-ci il*

**H e y d ə r Ə l i y e v**: Hörmətli cənab Emil Konstantinesku! İlk öncə mən Sizi səmimi qəlbdən salamlayıram və mənim dəvətimi qəbul edərək respublikamıza rəsmi səfərə gəldiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Bu səfərin Azərbaycan ilə Rumıniya arasında qarşılıqlı surətdə faydalı əlaqələrin daha da inkişaf etdirilməsinin hər iki tərəf üçün çox faydalı olduğunu qeyd etmək istərdim.

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra ölkələrimizin əlaqələri ardıcıl surətdə möhkəmləndirilir və əmin olduğumu bildirirəm ki, prezident Emil Konstantineskunun ölkəmizə rəsmi səfəri Azərbaycan-Rumıniya əməkdaşlığının inkişafında yeni mərhələ açacaqdır.

Bir çox sahələrdə münasibətlərin daha da sıxlaşdırılması məqsədi ilə ölkələrimiz arasında bağlanmış müqavilələri yüksək qiymətləndirirəm və bildirirəm ki, bu gün imzalanması nəzərdə tutulan sənədlərin də Azərbaycan–Rumıniya əməkdaşlığında böyük əhəmiyyəti olacaqdır.

Gənc müstəqil respublikamızda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində həyata keçirilən tədbirlərin, islahatların müvəffəqiyyətlə aparılması nəticəsində bir çox uğurlar əldə olunmuşdur. Öz iqtisadiyyatının dünya iqtisadiyyatı ilə daha sıx bağlanmasına çalışan Azərbaycan xarici [136-137] ölkələrlə əlaqələrinin möhkəmləndirilməsinə daim xüsusi diqqət yetirir.

Bazar münasibətlərini, demokratik inkişaf yolunu seçmiş respublikamızda özəlləşdirmə proqramının müvəffəqiyyətlə yerinə yetirildiyini bildirirəm və onu da demək istərdim ki, dünya ölkələrinin işgüzar dairələrinin və şirkətlərinin geniş fəaliyyəti üçün Azərbaycanda hər cür şərait və imkanlar vardır.

Qədim neft diyarı olan ölkəmizin Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi üçün dünyanın ən nüfuzlu şirkətləri ilə tarixi müqavilələr imzalanmışdır. Bu gün fəxrlə demək istəyirəm ki, 1994-cü ildə bağlanmış «Əsrin müqaviləsi»nin müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində 1997-ci ilin noyabrında «Çıraq» yatağından ilkin neft hasil edilmişdir.

Azərbaycan neftini dünya bazarına çıxaracaq kəmərlərin marşrutları haqqında onu demək istəyirəm ki, neft şimal istiqamətində artıq Qara dənizə çatdırılır, Bakı-Supsa kəməri tikilir və biz Bakı-Ceyhan kəmərinin inşası üçün də müəyyən hazırlıq işləri aparırıq.

Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi dünya ölkələrinin qarşılıqlı surətdə faydalı əlaqələrinin daha da möhkəmləndirilməsində böyük perspektivlərə malikdir. Avropada yerləşən Azərbaycan ilə Rumıniya arasında əlaqələrin durmadan inkişaf etməsində bu dəhlizin fəaliyyətindən səmərəli istifadə edilməsi də böyük əhəmiyyətə malikdir.

Qədim İpək yolunun bərpası sahəsində respublikamızda böyük işlər görülmüşdür. Avropa Birliyinin himayəsi altında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı üzrə 1998-ci il sentyabrın 7-8-də Bakıda keçiriləcək beynəlxalq konfransa hazırlıq işləri aparılır. Mən sizi, cənab Emil Konstantinesku həmin tədbirdə iştirak etməyə bir daha dəvət edirəm. [137-138]

Bildirirəm ki, Azərbaycan müstəqilliyə nail olduqdan sonra problemlərlə də qarşılaşmışdır. Bunlardan ən ağrılısı Ermənistanın Azərbaycana qarşı on ildən bəri davam edən hərbi təcavüzüdür. Bu təcavüz nəticəsində Ermənistan silahlı qüvvələri tərəfindən ölkəmizin ərazisinin 20 faizi işğal olunmuş, bir milyondan çox vətəndaşımız yerindən-yurdundan zorla qovularaq çadırlarda ağır vəziyyətdə yaşayır. Bu münaqişənin ATƏT-in Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplər əsasında sülh yolu ilə aradan qaldırılması üçün Azərbaycan böyük səylər göstərir və 1994-cü ilin mayında atəşkəs haqqında razılıq əldə olunmuşdur. Azərbaycan tərəfi ATƏT-in Minsk qrupu həmsədrlərinin son təkliflərini danışıqlar prosesini intensivləşdirmək üçün əsas kimi qəbul etmişdir. Biz Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə iki mərhələdə aradan qaldırılması barədə həmsədrlərin – Rusiyanın, ABŞ-ın, Fransanın irəli sürdüyü təklifləri qəbul etmişik və münaqişənin tezliklə sülh yolu ilə həll olunmasına çalışırıq.

**E m i l K o n s t a n t i n e s k u**: Cənab Heydər Əliyev, məni respublikanıza rəsmi səfərə dəvət etdiyiniz üçün Sizə təşəkkür edirəm. Sizin kimi görkəmli bir dövlət xadimi ilə görüşmək şərəfinə nail olduğumdan da məmnunluq hissi duyuram. Rumıniya çox ölkələrlə müxtəlif sahələrdə əlaqələr saxlayır. Azərbaycanla da bütün sahələrdə sıx əlaqələr qurmaq bizim üçün mühüm əhəmiyyət kəsb edir.

Demokratik inkişaf yolu ilə inamla addımlayan müstəqil Azərbaycanda əldə olunmuş nailiyyətləri görməkdən məmnun qaldığımı bildirirəm.

Cənab prezident, biz dəfələrlə görüşüb söhbət etmişik. Sizin kimi tanınmış siyasi xadimin təcrübəsi şəxsən mənim üçün çox böyük əhəmiyyətə malikdir.

Mən ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsində mühüm rolu olan əsas sahələrin yüksək vəzifəli şəxsləri[138-139]ni də özüm ilə bərabər Azərbaycana gətirmişəm. Rumıniya Avropa ilə Asiyanın

qovuşduğu yerdə coğrafi-siyasi cəhətdən xüsusi əhəmiyyət daşıyan respublikanızla əlaqələrin bundan sonra daha da sıxlaşması üçün bütün imkanlardan istifadə edəcəkdir.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə, beynəlxalq normalara uyğun surətdə tezliklə aradan qaldırılmasına Rumıniyanın da tərəfdar olduğunu nəzərinizə çarpdırıram. Biz ATƏT-in Lissabon zirvə görüşündə qəbul olunmuş prinsipləri və Minsk qrupu həmsədrlərinin təkliflərini yüksək qiymətləndiririk.

Azərbaycan və Rumıniya Avropa dövlətləridir. Bölgədə sülhün, əmin-amanlığın bərqərar edilməsi bütün Avropa, eləcə də Qafqaz ölkələri üçün vacibdir. Azərbaycanın çox böyük gələcəyi vardır və mən ölkənizin tezliklə dünya iqtisadiyyatının sürətli inkişafında böyük rol oynayan bir respublikaya çevriləcəyinə əminəm.

Azərbaycanla bütün sahələrdə sıx əlaqələr qurmağa Rumıniyanın çox böyük maraq göstərdiyini bir daha nəzərinizə çarpdırmaq istəyirəm. Bu gün imzalanacaq sənədlər də böyük əhəmiyyət daşıyacaqdır və əmin olduğumu bildirirəm ki, bu sənədlər dövlətlərimizin münasibətlərinin möhkəmləndirilməsində mühüm rol oynayacaqdır.

**H e y d ə r Ə l i y e v**: Hörmətli Emil Konstantinesku, səmimi və xoş sözlərə görə Sizə təşəkkür edirəm və Sizin respublikamıza rəsmi səfərə gəlməyinizdən çox məmnun qaldığımı bir daha vurğulayıram. [139]

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN VƏ RUMINİYA PREZİDENTİ EMİL KONSTANTİNESKUNUN TƏKBƏTƏK GÖRÜŞÜ BAŞA ÇATDIQDAN SONRA HƏR İKİ ÖLKƏNİN NÜMAYƏNDƏ HEYƏTLƏRİ ARASINDA AZƏRBAYCAN-RUMINİYA DANIŞIQLARINDA ÇIXIŞ

*Prezident sarayı*

*30 iyun 1998-ci il*

Hörmətli prezident!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda salamlayıram, ölkəmizə xoş gəlmişsiniz! Mən Rumıniya prezidentinin Azərbaycana rəsmi səfərini çox mühüm hadisə hesab edirəm.

Hörmətli prezident Emil Konstantinesku, mənim dəvətimi qəbul edib Azərbaycana rəsmi səfərə gəlməyiniz münasibətilə sizə təşəkkür edirəm. Hesab edirəm ki, sizin bu səfəriniz Rumıniya-Azərbaycan əlaqələrinin inkişaf etməsində mühüm bir mərhələ olacaqdır.

Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra, təxminən üç il bundan əvvəl bizim ölkələrimiz arasında əlaqələr dövlət başçıları arasında olan görüşlərlə başlayıbdır. Bizim əlaqələrimiz ötən üç il müddətində müsbət istiqamətdə inkişaf edibdir, biz bu sahədə müəyyən nailiyyətlər əldə etmişik. Ən əsası odur ki, bir-birimizi daha da yaxından tanımışıq, aramızda inam yaranıbdır və əlaqələrimizi sürətlə inkişaf etdirmək üçün bunlar yaxşı əsasdır. [140-141]

Ötən dövrdə dövlətlərimiz arasında bir neçə müqavilə, sazişlər imzalamışıq. Güman edirəm ki, bugünkü görüşlərin, danışıqların nəticəsində də müəyyən sənədlər imzalanacaqdır və biz ölkələrimiz arasında olan əməkdaşlığı, dostluğu daha da genişləndirib inkişaf etdirə biləcəyik.

Cənab prezident, biz sizinlə indi təkbətək çox ətraflı söhbət etdik. Çox məmnunam ki, bu söhbətimiz zamanı açıq, səmimi və işgüzar danışıqlar oldu. Siz ölkəniz, onun bugünkü vəziyyəti, problemləriniz haqqında mənə məlumat verdiniz, öz tərəfimdən mən də bu məsələlər barədə sizə geniş məlumat verdim. Nümayəndə heyətlərimiz qarşısında bir daha bildirmək istəyirəm ki, Azərbaycan Rumıniya ilə bütün sahələrdə əlaqələri inkişaf etdirmək əzmindədir.

Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra ölkədə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi aparır. Ölkəmizdə demokratik, iqtisadi islahatlar həyata keçirilir və bunlar öz müsbət nəticələrini verir. Azərbaycanda bazar iqtisadiyyatı bərqərar olub və inkişaf edir, özəlləşdirmə proqramı həyata keçirilir, iqtisadiyyatın, xüsusən xarici ticarətin liberallaşdırılması sahəsində də böyük işlər görülür. Azərbaycana xarici investisiyanın cəlb olunmasında da nailiyyətlərimiz az deyildir.

Bilirsiniz ki, Azərbaycan qədim neft ölkəsidir. Ola bilər ki, indi Azərbaycanın neft sənayesinin yeni perspektivli bir mərhələsi başlayıbdır. Xəzərin Azərbaycan sektorunda ölkəmizin zəngin neft, qaz yataqları vardır. Respublikamızın bütün ərazisində belə yataqlar mövcuddur. Biz həmin yataqların birgə işlənilməsi üçün xarici şirkətlərlə müştərək işlər görürük. Bu sahədə tarixi müqavilələr imzalanıbdır. Biz keçən ildən ilkin neftin hasil edilməsinə başlamışıq.

Bakı-Novorossiysk boru kəməri ilə ilkin neft artıq Qara dəniz sahillərinə ixrac edilir.Biz Qərb istiqamətində ikinci boru kəmərini, Bakı-Supsa kəmərini tikirik və Xəzərin [141-142] Azərbaycan sektorundakı yataqlardan gələcəkdə hasil olunacaq nefti dünya bazarına çıxaracaq böyük neft kəmərinin, Bakı-Ceyhan kəmərinin inşası sahəsində də müəyyən işlər aparırıq.

Azərbaycan Avropa ilə Asiyanın qovuşağında tutduğu coğrafi-siyasi, strateji vəziyyətinə görə Avropa və Asiya ölkələri arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi üçün çox böyük işlər görür. Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi bu baxımdan çox böyük əhəmiyyət kəsb edir. Bu nəqliyyat dəhlizi yaranıb və artıq istifadə edilir.Biz bu magistraldan, yəni bərpa olunan qədim İpək yolundan bu yolun üzərində yerləşən bütün ölkələrin istifadə etməsi sahəsində müəyyən hazırlıq işləri aparırıq. Sentyabrın 7-8-də bununla əlaqədar Bakıda İpək yolu üzərində olan ölkələrin dövlət və hökumət başçılarının toplantısını keçirmək nəzərdə tutulubdur.Biz bunu Avropa Birliyi ilə birlikdə hazırlayırıq. Cənab prezident, sizi, Rumıniyanı da bu sammitdə iştirak etməyə dəvət etmişik. Ümidvaram ki, biz sentyabr ayında bu sahədə mühüm bir addım ata biləcəyik.

Azərbaycan xarici siyasət sahəsində əlaqələrini bütün ölkələrlə sülh və əmin-amanlıq şəraitində qurmaq istəyir, qarşılıqlı surətdə faydalı əlaqələr yaradır. Rumıniya ilə Azərbaycan arasında yaranmış əlaqələr buna əyani nümunədir.

Biz ölkəmizi əhatə edən qonşu ölkələrlə də sülh, əmin-amanlıq və mehriban qonşuluq şəraitində yaşamaq istəyirik. Ancaq Ermənistan ilə Azərbaycan arasında on ildən bəri davam edən münaqişə buna mane olan amildir. Bu münaqişə nəticəsində Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. İşğal edilmiş ərazilərimizdən bir milyondan çox Azərbaycan vətəndaşı öz yerlərindən-yurdlarından zorla çıxarılıb, didərgin salınıbdır. Bir neçə il müharibə gedib, döyüşlər olub, qan tökülübdür. Ermənistan ilə Azərbaycan arasındakı müharibəni 1994-cü ildə dayan[142-143]dırmışıq, atəşkəs haqqında saziş imzalamışıq və biz dörd ildən artıqdır ki, bu sazişə əməl edirik.

Azərbaycan ərazilərinin işğal olunmasına, ölkəmizə dəymiş maddi və mənəvi zərbələrə, bir milyondan çox azərbaycanlının yerindən-yurdundan didərgin düşərək qaçqın vəziyyətində yaşamasına baxmayaraq, biz məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq. Biz bu işdə ATƏT-in Minsk qrupunun fəaliyyətinə ümidlər bəsləyirik.

ATƏT-in 1996-cı ilin dekabrında keçirilmiş Lissabon zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün prinsiplər müəyyən edilibdir. Bu prinsiplər üç hissədən – Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınmasından, Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu verilməsindən, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin olunmasından ibarətdir.

Biz bu prinsipləri əsas götürürük, ATƏT-in Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransanın keçən ilin sentyabrında verdikləri təklifləri qəbul etmişik. Biz bu münaqişənin həmin təkliflər əsasında sülh yolu ilə həll olunması məsələsi üzərində işləyirik. Biz konstruktiv mövqe tuturuq, bir çox güzəştlərə gedirik. Ancaq biz Azərbaycanın ərazi bütövlüyünün pozulmasına yol verə bilmərik və Dağlıq Qarabağa dövlət müstəqilliyi statusu verilməsinə heç vaxt razı ola bilmərik. Ümid edirik ki, münaqişə sülh yolu ilə həll oluna bilər. Biz ATƏT-in bütün üzvlərinə böyük ümidlər bəsləyirik.

Cənab prezident, siz ATƏT-in Lissabon zirvə görüşündə iştirak edirdiniz. Məmnuniyyətlə qeyd edirəm ki, siz Lissabonda, ATƏT-in zirvə görüşündə həmin prinsiplərin qəbul olunmasına səs verdiniz. Ümid edirəm ki, siz gələcəkdə də bu mövqeyinizdə duracaqsınız və Azərbaycanın bu probleminin sülh yolu ilə həll olunmasında öz səylərinizi əsirgəməyəcəksiniz. [143-144]

Azərbaycan Avropa ölkəsidir və Avropa ilə Asiyanın qovuşduğu bir yerdədir. Azərbaycan Avropa Şurasına daxil olmaq istəyir, həyatını, bütün işlərini, iqtisadiyyatını və dövlət quruluşunu Avropa standartlarına uyğun qurmağa çalışır. Bizim əməkdaşlığımızın bu məsələlər üçün də çox əhəmiyyəti vardır.

Mən hesab edirəm ki, bizim ölkələrimiz arasında yaranmış əlaqələr gələcəkdə daha da genişlənə və inkişaf edə bilər. Biz öz tərəfimizdən bunun üçün çalışacağıq. Sizi bir daha salamlayıram.

* * *

Cənab prezident, əvvəla, Rumıniya-Azərbaycan əlaqələri haqqında dediyiniz fikirlərə görə sizə təşəkkür edirəm və sizinlə mənim həmfikir olduğumu bir daha bildirmək istəyirəm.

Azərbaycan haqqında, ölkəmizin bugünkü real vəziyyəti, Azərbaycan dövlətinin siyasəti, iqtisadi, siyasi sahələrdə apardığı işlər haqqında dediyiniz müsbət fikirlərə və xoş sözlərə görə sizə təşəkkür edirəm.

Mən sizinlə bərabər təxminən iki saat ərzində apardığımız danışıqların çox əhəmiyyətli olduğunu qeyd etmək istəyirəm. Təkbətək və indi nümayəndə heyətlərinin üzvləri ilə birgə apardığımız danışıqlarımız, siz qeyd etdiyiniz kimi, bunların hamısının aşkarlıq şəraitində, Azərbaycan və Rumıniya mətbuat işçilərinin qarşısında keçməsi onu göstərir ki, biz bütün məsələlər barəsində bir-birimizlə səmimiyik və açığıq.

Əgər sizin numayəndə heyətinizin başqa sözü yoxdursa, güman edirəm, biz hazırlanmış sənədlərin imzalanmasına, sonra isə mətbuat konfransına başlaya bilərik. [144]

## AZƏRBAYCAN-RUMİNİYA SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Prezident sarayı*

*30 iyun 1998-ci il*

Hörmətli cənablar, xanımlar, hörmətli mətbuat nümayəndələri!

Dünən Rumıniyanın prezidenti cənab Emil Konstantinesku mənim dəvətimlə Azərbaycana rəsmi səfərə gəlmişdir. Mənim dəvətimin və bu səfərin məqsədi Rumıniya-Azərbaycan əlaqələrinin inkişaf etməsi üçün yeni addımlar atmaqdan ibarətdir. Dünən və bu gün apardığımız danışıqlar zamanı biz ölkələrimiz arasındakı əlaqələrə, beynəlxalq məsələlərə aid, regionumuzda vəziyyət və bir çox başqa problemlər haqqında fikir mübadiləsi aparmış və bir çox məsələlər barəsində eyni fikirdə olduğumuzu bəyan etmişik.

Bu gün prezident cənab Emil Konstantinesku ilə mənim aramda iki saat ərzində təkbətək danışıqlar olmuşdur. Sonra nümayəndə heyətlərinin iştirakı ilə danışıqlarımız davam etmişdir. Mən bu danışıqları çox əhəmiyyətli, məzmunlu və çox səmərəli hesab edirəm. Bir daha qeyd edirəm, biz hər iki tərəfi maraqlandıran, demək olar, bütün məsələlər barəsində fikir mübadiləsi aparmışıq.

Rumıniya ilə Azərbaycan arasında əlaqələr Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra yaranıbdır. Bu əlaqələr [145-146] üç il bundan öncə dövlət başçıları səviyyəsində yaranıb və bu günə qədər davam edir. Bizim dövlətlərimiz arasında bir çox müqavilələr, sazişlər, sənədlər imzalanmışdır. Rumıniya ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında müqavilə var. Bunlar hamısı ötən üç ildə gördüyümüz işlərin nəticəsidir. Bu gün isə biz irəliyə getmək üçün yeni addımlar atırıq və prezident cənab Emil Konstantineskunun səfəri bunun üçün yaxşı imkanlar açır.

Biz danışıqlar zamanı qeyd etdik ki, ölkələrimiz məsafəcə bir-birinə çox yaxındır. Biz bir regiona mənsubuq və Rumıniya da, Azərbaycan da Avropaya daxildirlər. İqtisadi əməkdaşlığımız üçün çox böyük imkanlar var. Bu baxımdan Xəzər dənizi ilə Qara dəniz arasında olan yollar, Avropa-Qafqaz-Asiya nəqliyyat magistralının yaranması və başqa vasitələr çox əhəmiyyətlidir.

Cənab Emil Konstantinesku Rumıniyanın bugünkü vəziyyəti və qonşuları ilə olan əlaqələri haqqında geniş məlumat verdi. Mən isə Azərbaycanın bugünkü vəziyyəti və regionda, Qafqazda olan vəziyyət, Azərbaycanın qonşuları ilə əlaqələri haqqında çox geniş məlumat verdim.

Bizim fikirlərimiz eyni oldu ki, ölkələr arasında əlaqələr Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in prinsipləri, beynəlxalq hüquq normaları əsasında qurulmalıdır. Ölkələrin, dövlətlərin ərazi toxunulmazlığı, ərazi bütövlüyü əsas prinsiplərdən biridir. Bu barədə Rumıniyanın da qarşısında bir çox məsələlər olmuşdur və bəlkə bu gün də var. Amma Azərbaycanın qarşısında çox ciddi problemlər var.

Mən çox məmnuniyyətlə qeyd edirəm ki, bu məsələlər ətrafında apardığımız danışıqlar bizim tam eyni fikirdə olduğumuzu göstərdi. Mən Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması haqqında da prezident cənab Emil Konstantineskuya çox geniş məlumat verdim. Bir daha qeyd edirəm ki, mən bu görüşlərimizi, danışıqlarımızı çox səmərəli, [146-147] əhəmiyyətli hesab edirəm. Hesab edirəm ki, biz gələcək üçün yaxşı əsas yaradırıq.

Rumıniya ilə Azərbaycan arasında əlaqələri inkişaf etdirmək üçün bu gün burada imzalanmış sənədlər də çox əhəmiyyətlidir. Bu baxımdan Rumıniya ilə Azərbaycan arasındakı əlaqələrə dair Rumıniya prezidentinin və Azərbaycan prezidentinin imzaladıqları bəyannaməni mən çox yüksək qiymətləndirirəm. Bu bəyannamənin bütün müddəaları Rumıniyanın və Azərbaycanın dünyada gedən proseslər, regionda, Avropada olan məsələlər və Qafqaz regionundakı proseslər haqqında eyni fikirdə olduğunu bir daha təsdiq edir.

Bizim danışıqlarımız hələ bundan sonra da davam edəcək, prezident cənab Emil Konstantinesku bu gün də, sabah da ölkəmizlə daha geniş tanış olmaq imkanları əldə edibdir. Ümidvaram ki, səfər müvəffəqiyyətlə başa çatacaq və bizim qonaqlarımız Azərbaycana səfərlərindən razı olacaqlar.

Mən burada, mətbuat qarşısında Rumıniya xalqına, dövlətinə Azərbaycanın hörmət və ehtiramını bir daha bildirirəm. Rumıniyanın prezidenti cənab Emil Konstantineskuya hörmət və ehtiramımı bildirirəm. [147]

## RUMİNİYA PREZİDENTİ EMİL KONSTANTİNESKUNUN BƏYANATI

Cənab prezident Əliyev!

Xanımlar və cənablar!

İcazə verin, hər şeydən əvvəl, mehriban münasibətə, bizim nümayəndə heyətinə göstərilən qayğıya, Azərbaycanın paytaxtı gözəl Bakı şəhərində bizə göstərilən hörmətə görə Sizə və Azərbaycan xalqına minnətdarlığımı bildirim. [147-148]

Prezident Heydər Əliyev görkəmli siyasətçidir və qarşılıqlı maraq doğuran məsələləri son illər ərzində onunla bir neçə dəfə səmimi və konstruktiv şəraitdə müzakirə etmək mənə nəsib olmuşdur.

Gördüyünüz kimi, Rumıniya nümayəndə heyəti çox böyük tərkibdədir. Biz burada Rumıniyanın xarici işlər, ticarət və sənaye, nəqliyyat nazirliklərinin, Elmlər Akademiyasının, maliyyə qurumlarının məsul şəxsləri ilə təmsil olunmuşuq. Bu, Azərbaycanın Xəzər regionunda oynadığı böyük rola, həm Avropada, həm də Asiyada oynadığı böyük rola görə və bizim bu görüşlərə verdiyimiz xüsusi əhəmiyyətə görədir.

Rumıniya və Azərbaycan qədim ənənələrə, tarixə malik iki ölkədir və onlar eyni proseslərlə, tamamilə yeni təcrübə ilə üzləşirlər. Ümid edirəm ki, hər iki ölkə bu prosesdən uğurla çıxacaqdır.

Biz bu gün prezident Əliyev ilə söhbətimiz zamanı iqtisadi-ticarət əməkdaşlığının əsasını qurmağa çalışdıq və hər iki tərəfi maraqlandıran mövzulara toxunduq. Bunlar neft, qaz, nəqliyyat sahələrində əməkdaşlıq haqqındadır. Mən əminəm ki, hər iki ölkənin biznesmenləri, şirkət rəhbərləri arasında daimi ünsiyyət ticarət əlaqələrinin inkişafına, Uzaq Şərqdən Mərkəzi Avropaya və əksinə, Mərkəzi Avropadan Uzaq Şərqə malların bu ölkələr vasitəsilə daşınmasına kömək edəcəkdir.

Mərkəzi Avropa Ticarət Təşkilatının üzvü kimi, Rumıniya dövləti həm Azərbaycanla, həm də Xəzər hövzəsinə daxil olan digər ölkələrlə əlaqələrin genişlənməsini istəyir. Əminəm ki, bu gün imzalanmış sənədlər - dostluq və tərəfdaşlıq haqqında bəyannamə, dövlət mətbuat agentlikləri arasında əməkdaşlıq haqqında sənəd, nəqliyyat haqqında sənəd xalqlarımız və hökumətlərimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə, dinc, vahid, sülhsevər Avropa ölkələrinin bir-birinə yaxınlaşmasına xidmət edəcəkdir. [148-149]

* * *

S u a l: **Sualım cənab Konstantineskuyadır. Xəzər neftinin Rumıniya ərazisi ilə hansı həcmdə nəql edilməsi nəzərdə tutulur və bununla əlaqədar Azərbaycan tərəfi hansı güzəştlərə ümid bəsləyə bilər? Bu barədə Bakıda nə kimi razılaşmalar əldə olunubdur?**

**E m i l K o n s t a n t i n e s k u**: Rumıniya bu nəqliyyat dəhlizində iştirak etmək üçün artıq infrastruktura malikdir. Bunlar, əslində Rumıniyanın bütün ərazisindən keçən neft-qaz kəmərləridir. Bu kəmərlər Rumıniyanın Qara dənizdəki Konstansa limanından Macarıstana, habelə Mərkəzi Avropanın neft və qaz ehtiyatlarına malik olmayan bütün ölkələrinə çıxır. İkinci cəhət isə odur ki, Konstansa limanında Rumıniyanın neft terminalı var. Konstansa limanı gücünə görə Qara dənizdə ən böyük və Avropada beşinci limandır. Rumıniya neft emalı kombinatlarının kompleks sisteminə malikdir, o cümlədən Konstansada böyük neftayırma kombinatı və onun öz limanı var. İstehsal gücləri gətiriləcək bütün neftin emalını təmin edə bilər. Neft kimyası sənayemizin böyük istehsal gücü var.

Neft və qaz kəmərlərindən əlavə, Rumıniyada bütün istiqamətlərdə daşımaları təmin edə bilən dəmir yolu şəbəkəsi, habelə Avropa standartlarına uyğun avtomobil yolları mövcuddur.

Eyni zamanda Konstansa limanı bütün başqa limanlarla əlaqəlidir, inteqrasiya olunmuş nəqliyyat və elektrik enerjisi sistemi ilə qarşılıqlı surətdə bağlıdır.

Bütün bunlar göstərir ki, təkcə xam neftin deyil, həm də neft məhsullarının nəqlini təmin etmək mümkündür. Əgər qısaca desək, Rumıniya ərazisi ilə Balkana və Avropanın başqa yerlərinə ildə 30 milyon ton neft nəql etmək olar. Balkana gəldikdə, Sloveniya, Xorvatiya, Serbiya istiqamətlərini, habe[149-150]lə Almaniya və Avstriya da daxil olmaqla, Mərkəzi Avropa ölkələrini xatırlatmaq olar. Nümayəndə heyətimizin tərkibindəki ekspertlər sizə «Rumıniya yolların kəsişməsində» adlanan layihəni təqdim edə bilərlər. Buradakı şəkillər, xəritələr dediklərimizin hamısını əhatə edir.

S u a l: **Hər iki prezidentə sualım var. Birinci sualım Azərbaycan prezidentinədir. Azərbaycanın böyük neftinin nəqlinə dair Azərbaycanın başladığı danışıqlara Rusiya, Ukrayna, Gürcüstan və Türkiyə kimi, Rumıniya da dəvət ediləcəkmi? Rumıniya prezidentinə sualım isə belədir: Rumıniya Azərbaycanın neft yataqlarının işlənilməsində iştirak etmək niyyətindədirmi?**

**H e y d ə r Ə l i y e v**: Azərbaycan neftinin, yəni Xəzər dənizindən hasil olunacaq neftin dünya bazarlarına çıxarılması üçün Qərb istiqamətində bir neçə yol var. İndi konsorsium tərəfindən Xəzər dənizindən hasil olunan nefti artıq bir neft kəməri, Bakı-Novorossiysk kəməri ilə ixrac edirik. İkinci, Bakı-Supsa neft kəməri Qara dənizin Supsa limanına çəkilir. O kəmərlə də neft ixrac olunacaqdır. Böyük neft kəmərinin - Bakı-Ceyhan kəmərinin də tikilməsi nəzərdə tutulubdur. Bunlardan əlavə, Qazaxıstan və

Türkmənistanın neft məhsullarının Xəzər dənizindən, Qafqazdan keçməklə Qara dəniz vasitəsilə Avropaya daşınması məsələləri müzakirə olunur.

İmkanlar çoxdur. Şübhəsiz ki, Rumıniya bu imkanlarda iştirak edəcəkdir. Biz bu işlərdə Rumıniyanı özümüzün tərəfdaşımız hesab edirik. Rumıniyanın prezidenti cənab Konstantinesku məndən əvvəl suala cavab verərkən onların nə qədər böyük imkanları olduğu barədə məlumat verdi.

**E m i l K o n s t a n t i n e s k u**: Mən cənab Əliyevə bir daha təşəkkür etmək istərdim ki, o infrastrukturun ən vacib layihələrindən birini dəstəkləyir. Dünya miqyaslı bu layihə gələn minillik üçün nəzərdə tutulmuşdur. Bu, Sakit okeandan [150-151] Atlantik okeanına - Yaponiya və Çindən Fransa və İspaniyaya qədər uzanacaq layihədir.

Rumıniya və Azərbaycan bu Transkontinental dəhlizin ortasında əsas yer tuturlar. Həm də bu halda Bakı və Konstansa çox mühüm nöqtələrə çevrilir. Bütün bunların başqa baxımdan da əhəmiyyəti var. Biz enerji ehtiyatları sektorunda işləyənlərin zərb-məsələni unutmamalıyıq: Neft kəmərləri məhz neftin tapıldığı yerlərdən keçir və deməli, sülh də qorunur.

Bu layihəyə Rumıniyanın cəlb olunmasına gəldikdə isə, hesab edirəm ki, bizim çox yaxşı imkanlarımız var. Mən təhsilimə görə geoloqam, Azərbaycanın Baş naziri isə neft avadanlığı sahəsində böyük mütəxəssisdir. Yeri gəlmişkən, o, nəinki neft avadanlığına yaxşı bələddir, həm də rumın dilini bilir. Bu, bir daha göstərir ki, Rumıniya və Azərbaycan sənayeləri arasında ənənəvi əlaqələr mövcuddur. Bunu bilməyənlərə isə deyə bilərəm ki, neftin sənaye üsulu ilə çıxarılmasına ilk dəfə ötən əsrin ikinci yarısında eyni vaxtda Bakıda və Ployeştidə başlanmışdır. Rumıniya və Azərbaycan həmin dövrdə neftin ən mühüm ixracçıları idilər və Amerika Birləşmiş Ştatları - orada da neft hasilatına təxminən həmin vaxt başlanmışdır, - ilə birlikdə sənayenin bu sahəsinin pionerləri olmuşlar.

**S u a l: Mənim birinci sualım prezident Əliyevə olacaqdır. Rumıniyanın Bakıdan Konstansaya gedəcək neft marşrutu layihəsi barəsində Sizin fikriniz necədir?**

**H e y d ə r Ə l i y e v**: Mən bu barədə fikrimi dedim. Əvvəlki suala cavab verərək bu barədə çox geniş dedim. Ancaq bir də təsdiq edirəm ki, Xəzər dənizindən hasil olunan neftin Avropaya ixrac edilməsində Azərbaycan ilə Rumıniya arasında, Bakı ilə Konstansa arasındakı nəqliyyat əlaqələri xüsusi əhəmiyyət kəsb edir. Hesab edirəm ki, Bakı-Konstansa xətti bu barədəki çoxşaxəli layihələrin bir hissəsi olacaqdır. [151-152]

**S u a l: Növbəti sualım prezident Konstantineskuyadır. Siz bu layihənin reallığa çevrilməsini necə görürsünüz?**

**E m i l K o n s t a n t i n e s k u**: Mən prezident Əliyev ilə olan söhbətimizin nəticəsindən xüsusi məmnunluq duyuram. Dediyim kimi, təşəbbüsçüsü cənab Əliyev olan layihə Rumıniya üçün də çox vacibdir. Uzun çəkən söhbətimiz zamanı biz razılaşdıq ki, bu layihəni dünya miqyasında dəstəkləmək üçün birləşərək səylərimizi əlaqələndirək.

**S u a l: Mənim sualım cənab Konstantineskuyadır. Sizin tərcümeyi-halınızla az-çox maraqlanan adamlar bilirlər ki, hüquqşünas karyerasından imtina edib geologiyanı seçmiş və bu sahədə böyük nailiyyət qazanmısınız, Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü seçilmisiniz. Siyasi karyeranızla maraqlananlar isə bilirlər ki, 90-cı illərdə universitet tələbə həmrəyliyinə başçılıq etmiş, 1996-cı ildə prezident seçilmisiniz. Bütün bunlara nəzər salaraq soruşmaq istərdim: Siz özünüz və rumın xalqı üçün ən böyük nailiyyət nəyi hesab edərdiniz? Sizin üçün nə çətin olub - müxalifətdə olmaq, yoxsa hakimiyyətin reallıqları ilə hesablaşmaq? Çox sağ olun.**

**E m i l K o n s t a n t i n e s k u**: Sizin dediyiniz kimi, mən universitetdə müəllim olmuşam. Mən faktiki olaraq müəllim, professoram və prezidentlikdən gedəndən sonra professor olaraq qalacağam. Mənim müəllimlik təcrübəm öyrətmişdir ki, bəzən suallar onların cavablarından məntiqli olur. Siyasətçi kimi təcrübəm göstərir ki, həmin vaxt üçün vacib olan bir məsələni həll etdikdən sonra o, əhəmiyyətini itirir və həll edilməli yeni məsələ daha vacib olur.

Müxalifətdəki və sonrakı təcrübəmi nəzərə almaqla deyə bilərəm ki, əgər müxalifət poeziyadırsa, hakimiyyət nəsrdir. Özü də adicə nəsr yox, çətin, dramatik, bəzən də faciəvi nəsrdir. Ona görə ki, bu termin altında nə isə çox mühüm bir məqam, yəni öz üzərinə məsuliyyət götürmək başa düşülür. Özü də elə bir məsuliyyət ki, onu öz adından deyil, bütün xalqın [152-153] adından üzərinə götürürsən və bu, hər bir prezident üçün çox mürəkkəbdir.

Mülki cəmiyyətdən gələn bir adam kimi, təcrübəmdə başa düşmüşəm ki, prezident üçün seçicilərin mandatı ilə deyil, tarixlə müqavilə bağlamaq daha vacibdir. Bu, prezident seçilən adam üçün əsas məqsəd olmalı və onun bütün həyatında iz buraxmalıdır.

Nailiyyətlərə gəldikdə isə, əgər bunları sən özün qiymətləndirirsənsə, bunun heç bir mənası və əhəmiyyəti yoxdur. Prezident Əliyev kimi, mənim də taleyim elə gətiribdir ki, keçid dövrünü yaşayan ölkənin prezidenti olmuşam. Mən vurğuladım ki, bu keçid dövründə, deyək ki, pis və ya nisbətən yaxşı qərarlar arasında heç bir seçim yoxdur. Əgər biz nəyəsə nail olmuşuqsa, bunu tarix sübut edəcəkdir. [153]

# AZƏRBAYCAN RESPUBLİKASI İLƏ RUMINİYA ARASINDA DOSTLUQ MÜNASİBƏTLƏRİNİN VƏ TƏRƏFDAŞLIĞIN İNKİŞAFI HAQQINDA BƏYANNAMƏ

Azərbaycan Respublikası və Rumıniya aralarındakı dostluq münasibətlərini və əməkdaşlığı inkişaf etdirməyə səy göstərərək, hər iki suveren tərəfdaşın mənafeləri naminə bir-biri ilə qarşılıqlı əlaqənin daha da möhkəmləndirilməsi əzmini ifadə edərək, tərəfdaşlıq münasibətlərinin inkişafının siyasi, iqtisadi, sosial və mədəni sahələrdə əməkdaşlığın genişləndirilməsinə imkan yaradacağına əmin olaraq,

İki ölkənin maddi və intellektual potensiallarından daha dolğun şəkildə istifadə edilməsi, tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsi vəzifələrinin həyata keçirilməsinə kömək edən mexanizmlərin yaradılması zərurətini dərk edərək aşağıdakılar barədə razılığa gəldilər:

1. Azərbaycan Respublikası və Rumıniya Birləşmiş Millətlər Təşkilatı nizamnaməsinin və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının əsas sənədlərinin prinsiplərini rəhbər tutaraq öz münasibətlərini bir-birinin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət edilməsi və dəstəklənməsinə əsaslanan qarşılıqlı hörmət, etimad və tərəfdaşlıq ruhunda qururlar.

Onlar hər iki dövlətin və cəmiyyətin demokratik qurumlarının və təsisatlarının fəaliyyət göstərməsi, habelə bazar iqtisadiyyatının inkişafı məqsədi ilə görülən tədbirlərdə bir-birinə qarşılıqlı dəstək verəcəklər.

Bu məqsədlərlə onlar Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, habelə digər [154-155] beynəlxalq təşkilatlar çərçivəsində də ikitərəfli əməkdaşlığın inkişafı üçün əlverişli şərait yaradacaqlar.

Azərbaycan tərəfi, 2001-ci ildə Rumıniyanın ATƏT-də sədrliyə namizədliyini dəstəklədiyini bildirmişdir.

Rumıniya tərəfi, Azərbaycanın Avropa Şurasının və Ümumdünya Ticarət Təşkilatının tam hüquqlu üzvlüyünə namizədliyini dəstəklədiyini bildirmişdir.

2. Hər iki dövlət, dövlətlərin ərazi bütövlüyünə və insan hüquqlarına hörmət məsələsində öz mövqelərini təsdiq edərək, hər cür mübahisələrin yalnız sülh vasitəsilə, Birləşmiş Millətlər Təşkilatının nizamnaməsinə, habelə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının prinsiplərinə uyğun olaraq həll edilməsinə tərəfdar olduğunu bildirir.

Tərəflər dövlətlərarası münasibətlərdə zor işlətmək və ya zor işlətməklə hədələməyin yolverilməz olduğu prinsipinə tərəfdar olduqlarını bir daha təsdiq edərək BMT nizamnaməsinə və ATƏT-in müvafiq sənədlərinə uyğun olaraq, münaqişələrin dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına hörmət və riayət edilməsi əsasında sülh yolu ilə nizamlanmasına tərəfdar çıxırlar.

Onlar təhlükəsizlik və etimad tədbirlərinin gücləndirilməsi üzrə ümumavropa qərarlarını, habelə müvafiq müqavilələrdən irəli gələn öhdəlikləri həyata keçirmək əzmini ifadə edirlər.

3. Tərəflər öz ölkələrinin Avropa və Transatlantika siyasi və iqtisadi təşkilatlarına inteqrasiyası prosesində qarşılıqlı fəaliyyət göstərəcəklər. Onlar vahid və bölünməz Avropada etimad və təhlükəsizlik mühitinin möhkəmləndirilməsi, Avropa qitəsində münaqişələrin tezliklə sülh yolu ilə həll edilməsi və yeni gərginlik ocaqlarının yaranmasının qarşısının alınması məqsədi ilə qarşılıqlı fəaliyyətin zəruriliyi ilə razılaşırlar. Tərəflər regional təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsində mühüm rol oynamalı olan Avropa-Atlantika Tərəfdaşlıq Şurası və NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsin[155-156]də, onun gələcək təkamülündə ikitərəfli və çoxtərəfli əməkdaşlığa böyük əhəmiyyət verir, Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Lissabon sammitinin üç prinsipi əsasında tezliklə sülh yolu ilə həll edilməsini qətiyyətlə dəstəkləyirlər.

4. Azərbaycan Respublikası və Rumıniya, müxtəlif səviyyələrdə siyasi dialoqun, o cümlədən parlamentlərarası əlaqələrin inkişafına tərəfdar çıxırlar və ikitərəfli və beynəlxalq məsələlər üzrə məsləhətləşmələr keçirəcəklər. Mövcud olan protokola əsasən, hər iki dövlətin xarici işlər nazirlikləri arasında qarşılıqlı əlaqələrin fəallaşdırılması haqqında razılıq əldə olunmuşdur.

Tərəflər qısa müddətdə hər iki paytaxtda səfirliklər səviyyəsində diplomatik nümayəndəliklərin mübadiləsi barədə razılığa gəlmişlər.

Onlar bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan qarşılıqlı surətdə faydalı iqtisadi əməkdaşlığın inkişafına və mal dövriyyəsinin əhəmiyyətli dərəcədə artmasına kömək edəcəklər. Sərmayələrin, texnologiyaların və patentlərin qorunması üzrə yeni sazişlərin bağlanması daxil olmaqla bu qəbildən olan əməkdaşlıq üçün əlverişli şəraitin təmin edilməsinə dair tədbirlər görəcəklər.

Tərəflər kiçik və orta müəssisələrin fəaliyyətinə lazımi dəstək verilməsini xüsusi nəzərə almaqla, iki ölkənin dövlət müəssisələri, xüsusi firmaları və mülkiyyət növündən asılı olmayaraq maliyyə-bank idarələri arasında əməkdaşlığa və kooperasiyaya əlverişli şərait yaradacaqlar.

Onlar habelə bazar iqtisadiyyatının formalaşması və təşəkkül tapması prosesində təcrübə mübadiləsi aparacaq və bir-birinə yardım göstərəcək, menecerlərin xüsusi təlimi, elm və texnika sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

5. Hər iki dövlət nəqliyyat xətləri və onlarla bağlı nəqliyyatın bütün sahələrində infrastruktur, habelə tranzit xətləri sahəsində əməkdaşlığı həyata keçirəcəklər. Bununla əlaqədar onlar kom[156-157]pleks daşımalar haqqında sazişin tezliklə başlanması haqqında razılığa gəlmişlər. Onlar kommunikasiya xətlərinin təkmilləşdirilməsi və inkişafına dair tədbirlər görəcəklər.

Tərəflər ticarət-iqtisadi əməkdaşlığın inkişafının mühüm vasitəsi olan Avrasiya nəqliyyat dəhlizinin yaradılmasına və fəaliyyət göstərməsinə müstəsna əhəmiyyət verir və bu dəhlizin sabit inkişafının təmin edilməsinə yönəldilmiş səyləri dəstəkləyirlər. Onlar Avropa Birliyinin dəstəyi ilə, TASİS və FARE proqramları imkanlarından müştərək istifadə, habelə çoxtərəfli maliyyə təşkilatlarının və xüsusi kapitalın cəlb olunması yolu ilə TRASEKA və İNOQEYT layihələrinin müvəffəqiyyətlə başa çatdırılması və Avropa nəqliyyat şəbəkəsinə daxil olunması məqsədi ilə sıx əməkdaşlıq edəcəklər.

6. Tərəflər müəllif hüquqlarının qorunması, habelə intellektual mülkiyyətin qorunması və istifadəsi məsələlərində bilavasitə və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edəcəklər.

7. Hər iki dövlət ətraf mühitin qorunması sahəsində əməkdaşlıq üzrə birgə tədbirlərə əlverişli şərait yaradacaqdır.

8. Tərəflər ayrıca sazişlər əsasında hər iki dövlətin müdafiə strukturları arasında əlaqələrin yaradılmasına və inkişafına kömək edəcək və hərbi-texniki sahədə qarşılıqlı fəaliyyəti həyata keçirəcəklər.

9. Hər iki dövlət mədəniyyət, elm, maarif və səhiyyə sahələrində əməkdaşlığa kömək edəcəkdir.

Onlar qarşılıqlı əsasda bir-birinin dilinin öyrənilməsinə və ədəbiyyatının yayılmasına, habelə yaradıcı işçilər və dairələr arasında əlaqələrə imkan yaradacaqlar.

Azərbaycan Respublikası və Rumıniya onların mətbuat vasitələri, radio, televiziya və kinematoqrafiyaları arasında informasiya mübadiləsinə və əməkdaşlığa əlverişli şərait yaradacaqlar. Bu məsələlərə dair xüsusi sazişlər yaxın zamanda imzalanacaqdır. [157-158]

Hər iki dövlət turizmin qarşılıqlı surətdə inkişafına, gənclər və tələbələr, həmkarlar təşkilatları və digər qeyri-hökumət təşkilatları mübadiləsinə, habelə vətəndaşların insanlararası əlaqələrinə imkan yaradacaqdır.

10. Hər iki dövlət heç bir ayrı-seçkilik olmadan və qanun qarşısında tam bərabərlik şəraitində, insan hüquqları və milli azlıqların hüquqları üzrə ümumi qəbul edilmiş beynəlxalq standartlara, habelə xüsusilə insan hüquqları ümumi bəyannaməsinin və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının sənədlərinin müvafiq müddəalarına uyğun olaraq, rumın mənşəli Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan mənşəli Rumıniya vətəndaşlarının milli, mədəni, dil və dini özgürlüyünün qorunması, özünüifadəsi və inkişafı məqsədi ilə onların hüquqlarının həyata keçirilməsi üçün əlverişli şərait yaradacaqdır.

11. Hər iki dövlət mütəşəkkil cinayətkarlıqla, o cümlədən terrorizm, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, silah və incəsənət əsərlərinin qanunsuz ticarəti, saxta ödəmə vasitələri və sənədlərin istehsalı və dövriyyəyə buraxılması və qanunsuz miqrasiya ilə mübarizə sahəsində ikitərəfli qaydada, habelə regional və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edəcəkdir.

1998-ci il iyunun 30-da Bakı şəhərində iki nüsxədə, hər biri Azərbaycan və rumın dillərində imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Prezidenti** | **Rumıniya Prezidenti** |
| **HEYDƏR ƏLİYEV** | **EMİL KONSTANTİNEVSKİ** |

[158]

## AZƏRBAYCAN PREZİDENTİ ADINDAN RUMINİYA PREZİDENTİ EMİL KONSTANTİNESKUNUN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ ZİYAFƏTDƏ NİTQ

*30 iyun 1998-ci il*

*«Gülüstan» sarayı*

Hörmətli cənab prezident!
Hörmətli xanımlar və cənablar!

Mənim dəvətimi qəbul edib Azərbaycana rəsmi səfərə gəldiyinizə görə sizə təşəkkür edirəm.

Hörmətli cənab Konstantinesku, Azərbaycana rəsmi səfəriniz, dünən, bu gün burada keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və imzalanmış sənədlər Rumıniya-Azərbaycan əlaqələrində yeni bir mərhələ açır.

Rumın və Azərbaycan xalqları arasındakı əlaqələrin tarixi qədimdir və zəngindir. Bu əlaqələri elm və mədəniyyət xadimləri, neftçilər, sadə adamlar yaradıblar. Xalqlarımız bu əlaqələrdən keçmiş zamanlarda çox bəhrələniblər.

Rumıniya ilə Azərbaycanın dövlətlərarası əlaqələri isə Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra başlanmışdır. Bu əlaqələrin yaşı hələ azdır. 1991-ci ilin sonunda respublikamız öz dövlət müstəqilliyini elan edəndə Rumıniya Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olubdur. Bundan sonra ölkələrimiz arasında diplomatik əlaqələr yaranıbdır. 1995-ci ildə isə Rumıniya ilə Azərbaycan arasında dövlətlərarası, hökumətlərarası əlaqələrin hüquqi-normativ bazası yaradılmışdır. [159-160]

Mən 1995-ci il iyulun 1-2-də Rumıniyada rəsmi səfərdə idim. Bu, Azərbaycan prezidentinin Rumıniyaya ilk rəsmi səfəri idi. Bu səfər zamanı biz dövlətlərimiz, hökumətlərimiz arasında geniş miqyasda ilk danışıqlar apardıq və əlaqələrimizi tənzimləyən çoxsaylı sazişlər, sənədlər imzaladıq. 1996-cı ilin mart ayında Rumıniya ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında böyük bir müqavilə imzalanmışdır. 1995-ci ilin iyul ayından indiyə qədər üç il keçibdir. Üç ildən sonra Rumıniyanın prezidenti hörmətli cənab Konstantinesku Azərbaycanda rəsmi səfərdədir.

Bizim bugünkü danışıqlarımız çox əhəmiyyətli, məzmunlu, səmərəli olmuşdur. Biz dövlətlərarası bir neçə sənəd imzaladıq. Azərbaycan Respublikası ilə Rumıniya arasında dostluq münasibətlərinin və tərəfdaşlığın inkişafı haqqında Rumıniya və Azərbaycan prezidentlərinin imzaladığı bəyannamə çox böyük əhəmiyyət kəsb edir. Mən bu bəyannaməni çox vacib sənəd hesab edirəm. Çünki bu bəyannamədə həm dövlətlərimiz arasındakı əlaqələrin inkişaf etdirilməsi yolları, prinsipləri göstərilibdir, həm də ölkələrimiz üçün çox vacib olan beynəlxalq hüquq normalarının hər iki dövlət tərəfindən şərtsiz qəbul olunması ifadə edilibdir.

Beləliklə, biz gələcək əlaqələrimizin çox tutarlı əsasını yaratdıq. Hesab edirəm ki, bu görüşlər zamanı biz irəliyə doğru böyük addımlar atırıq.

Ölkələrimiz arasında əməkdaşlıq ötən illərdə müxtəlif formalarda olmuşdur. Mən Rumıniya ilə Azərbaycan arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı xüsusi qiymətləndirirəm. Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığımız çox əhəmiyyətlidir. Mən ATƏT çərçivəsində əməkdaşlığımızı xüsusi qeyd edirəm. Çünki bu təşkilat Avropanın təhlükəsizliyi və Avropa ölkələri arasında əməkdaşlığın genişləndirilməsi üçün çox vacib bir təşkilatdır. Bu, bizim üçün bir də ona [160-161] görə əhəmiyyətlidir ki, ATƏT-in və onun yaratdığı Minsk qrupunun vasitəsilə biz Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasını təmin edirik.

Rumıniya da, Azərbaycan da keçid dövrü yaşayırlar. Bu keçid dövründə həm Rumıniyanın, həm də Azərbaycanın qarşısında bir çox mürəkkəb, çətin problemlər vardır. Biz beynəlxalq təşkilatlarda əməkdaşlıq edərək və ikitərəfli əlaqələrimizi genişləndirərək bu problemlərin həll edilməsinə nail oluruq.

Mən bugünkü danışıqlarda qeyd etdiyim kimi, Azərbaycan üçün ən əsas problem Qafqaz bölgəsində sülh, əmin-amanlıq yaradılmasıdır. Bu sülhün, əmin-amanlığın yaranması üçün isə Qafqazda olan münaqişələrə son qoyulmalıdır. Biz bütün münaqişələrə son qoyulmasını istəyirik. Biz Gürcüstan ilə Abxaziya arasında olan münaqişənin sona çatmasını, Şimali Qafqazdakı münaqişələrin, o cümlədən Çeçenistanda olan münaqişənin ləğv edilməsini istəyirik. Biz Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasını və Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli, etibarlı sülh yaranmasını istəyirik.

Hörmətli cənab prezident, mən bu barədə sizə bu gün ətraflı məlumat verdim və Azərbaycanın bu münaqişənin sülh yolu ilə həll edilməsi mövqeyində daim dayandığını bildirdim.

Hörmətli cənab prezident, mən çox məmnunam ki, siz bu məsələlərdə çox düzgün mövqedə durursunuz. Mən sizi təbrik edirəm ki, Rumıniyanın qonşu ölkələrlə olan münaqişələrinin həllinə nail ola bilmisiniz. Rumıniya uzun illər belə problemlərlə qarşılaşdığına və bu problemlərin sülh yolu ilə həllinə nail ola bildiyinizə görə siz bizim problemimizi bəlkə də başqalarından daha yaxşı bilirsiniz.

ATƏT-in 1996-cı ilin dekabrında Lissabonda keçirilən zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması barədə çox mühüm prinsiplər bəyan edi[161-162]libdir. Cənab prezident, siz ATƏT-in Lissabon zirvə görüşünün iştirakçısısınız və həmin prinsiplərin qəbul olunmasına səs vermisiniz və beləliklə bizə kömək etmisiniz. Buna görə mən sizə bir daha təşəkkür edirəm. Bəyan edirəm ki, Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması uğrunda biz bundan sonra da mübarizə aparacağıq.

Rumıniya-Azərbaycan əlaqələrinin çox gözəl perspektivləri vardır. Bu perspektivlər bizim bugünkü danışıqlarımızda çox gözəl əks olundu. Xəzər dənizinin, ümumiyyətlə Asiyanın, Qafqazın təbii sərvətlərindən istifadə olunmasında başqa ölkələrlə bərabər, Rumıniya ilə də əməkdaşlıq etməyimiz çox əhəmiyyətlidir.

Bu gün biz Avropa Birliyinin TRASEKA proqramının həyata keçirilməsi barədə də geniş fikir mübadiləsi apardıq və Böyük İpək yolunun bərpa olunması ilə əlaqədar hazırlanan layihəni də birlikdə müzakirə etdik. Cənab prezident, mən böyük məmnuniyyətlə qeyd edirəm ki, siz, Rumıniya hökuməti bu layihənin həyata keçirilməsinə çox böyük maraq göstərirsiniz. Hesab edirəm ki, Rumıniya bu layihənin həyata keçirilməsinin çox fəal iştirakçısı olacaqdır. İnanıram ki, İpək yolu üzərində olan ölkələrin bu il sentyabrın 7-8-də Azərbaycanda, Bakıda keçiriləcək sammitində siz öz iştirakınızla bu layihənin həyata keçirilməsinə yardım edəcəksiniz.

Rumıniya-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün başqa çox böyük imkanlar da vardır. Bizim ölkələrimizin bir-birinə çox böyük bənzərliyi vardır. Ölkələrimizin təbiəti də, insanları da bir-birinə çox bənzəyirlər, bizim adət-ənənələrimizdə də oxşarlıqlar çoxdur. Rumıniya Qara dənizin, Azərbaycan isə Xəzər dənizinin kənarında yerləşir. Xəzər dənizi ilə Qara dənizin gələcəkdə daha da birləşməsi, yəni bu iki dənizin sahillərində olan infrastrukturların inkişaf etdirilməsi mühüm vəzifələrdən biridir. Hesab edirəm, Avropa–Qafqaz-[162-163]Asiya nəqliyyat magistralının yaranmasında və inkişaf etdirilməsində Rumıniyanın çox mühüm rolu olacaqdır.

Mən hesab edirəm ki, bütün bunlara görə ölkələrimizin geniş əməkdaşlıq etmək üçün böyük imkanları vardır. Bizim əməkdaşlığımız bir də ona görə vacibdir ki, Rumıniyanın da, Azərbaycanın da tutduğu yol demokratiya, iqtisadi islahatlar, insan haqlarının qorunması yoludur.

Cənab prezident, mən bilirəm ki, sizin rəhbərliyiniz altında Rumıniyada bu sahədə çox işlər görülür. Azərbaycanda da biz eyni yolu tutmuşuq və gələcəkdə də bu yolla gedəcəyik. Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət qurulur. Azərbaycan hüquqi, demokratik, dünyəvi dövlət kimi, Avropa Birliyinin bütün strukturlarında iştirak etmək əzmindədir.

Azərbaycanın Avropada xüsusi yeri vardır. Çünki Azərbaycan Avropa və Asiya qitələrinin birləşdiyi yerdə yerləşir. Eyni zamanda, Avropa ilə Asiyanın birləşməsində də Azərbaycanın böyük rolu vardır. Biz bütün bu sahələrdə Rumıniya ilə gələcəkdə də əməkdaşlıq etmək arzusundayıq.

Cənab prezident, mən hesab edirəm ki, Sizin Azərbaycana rəsmi səfəriniz hər iki ölkə – həm Azərbaycan, həm də Rumıniya üçün çox əhəmiyyətlidir.

Cənab prezident, mən xalqınıza, ölkənizə gələcək bütün işlərinizdə uğurlar arzulayıram.

Mən rumın xalqının, Rumıniya hökumətinin, Rumıniyanın prezidenti, dostumuz, qonağımız cənab Konstantineskunun şərəfinə badə qaldırmağınızı xahiş edirəm.

Cənab prezident, sizin şərəfinizə! [163]

## RUMİNİYA PREZİDENTİ EMİL KONSTANTİNESKUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ BAŞA ÇATDIQDAN SONRA BİNƏ HAVA LİMANINDA YOLA SALINMA MƏRASİMİNDƏ RUMİNİYA TELEVİZİYASINA MÜSAHİBƏ

*1 iyul 1998-ci il*

Rumıniya televiziyasının mənə verdiyi fürsətdən istifadə edərək ən səmimi duyğularımı və ən xoş arzularımı bütün Rumıniya vətəndaşlarına yetirmək istəyirəm.

Rumıniya prezidenti, dostumuz, cənab Emil Konstantineskunun Azərbaycana səfəri çox əlamətdar hadisə oldu. Biz çox səmərəli iş apardıq, mühüm dövlətlərarası sənədlər imzaladıq və Rumıniya–Azərbaycan münasibətlərinin daha da inkişaf etməsinin yeni mərhələsini açdıq.

Biz Azərbaycanda Rumıniya ilə dostluq, tərəfdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsinə böyük əhəmiyyət veririk. Elə dünən Rumıniya və Azərbaycan prezidentlərinin imzaladıqları əsas sənəd də Rumıniya ilə Azərbaycan arasında dostluğun və tərəfdaşlığın daha da inkişaf etdirilməsi haqqında bəyannamədən ibarətdir. Bir çox elə məsələlər var ki, onlarla əlaqədar tərəfdaşlığımız müvəffəqiyyətlə inkişaf edə bilər, əməkdaşlığımız isə daha səmərəli ola bilər. Xəzər dənizinin energetika ehtiyatlarından istifadə məsələsi həmin məsələlər arasında mühüm yer tutur. Bilirsiniz ki, Xəzər dənizində və Mərkəzi Asiya bölgəsində, Qafqazda olduqca böyük neft və qaz ehtiyatları var. İndi biz Avropanın və Amerika Bir[164-165]ləşmiş Ştatlarının bir çox iri neft şirkətlərinin iştirakı ilə bu yataqların işlənməsinə dair böyük layihələr həyata keçiririk. Bununla əlaqədar neftin Qərb bazarlarına nəqli məsələsi ortaya çıxır. Odur ki, Qara dənizdə Konstansa kimi mühüm limanı olan Rumıniya bütün bölgəmiz üçün çox əhəmiyyətli məntəqədir.

Bununla əlaqədar başqa layihə də var və o, daha geniş əhəmiyyətə malikdir - söhbət qədim Böyük İpək yolunun bərpasından gedir. Bu layihə TRASEKA proqramına uyğun olaraq müəyyən dərəcədə Avropa Birliyinin İqtisadi Komissiyası tərəfindən həyata keçirilir. Lakin indi qarşıda belə böyük həcmdə duran «İpək yolu» məsələsi TRASEKA proqramının çərçivəsindən kənara çıxır. Yaponiyadan başlayıb Çin vasitəsilə Mərkəzi Asiyaya, Xəzər dənizi vasitəsilə Azərbaycana, Gürcüstana, Qara dənizə, oradan da ta Fransa, İspaniya və İrlandiyayadək Avropa ölkələrinə gələn «İpək yolu»ndan söhbət gedir. Beləliklə, geniş ərazisi, əlverişli coğrafi, coğrafi-strateji mövqeyi və böyük limanları, xüsusilə Konstansa kimi limanı olan Rumıniya bu «İpək yolu» üstündə çox mühüm yer tutur. Təbii ki, burada Dunay çayı və o yanda Reyn çayı bu İpək yolunun bir hissəsidir.

Biz həmin layihə ilə bağlı məsələləri prezident cənab Emil Konstantinesku ilə ətraflı müzakirə etdik və şadam ki, bu layihənin həyata keçirilməsini sürətləndirmək barədə baxışlarımızın və istəyimizin tamamilə uyğun gəldiyi aşkara çıxarıldı.

İpək yolunun iştirakçıları olan ölkələrin sentyabrın 7-8-də Azərbaycanda zirvə toplantısı keçiriləcəkdir. Ümidvaram ki, Rumıniya prezidenti cənab Konstantinesku bu toplantının fəal iştirakçısı olacaqdır.

Prezident Konstantinesku sentyabrın axırları üçün Rumıniyada «Xəzərin ehtiyatları və Qərb» adlı böyük konfrans keçirməyi nəzərdə tutmuşdur. Şübhəsiz ki, bu konfransda [165-166] Azərbaycan da fəal iştirak edəcəkdir. Mənə elə gəlir ki, digər çox yaxşı imkanlarla yanaşı, bu böyük layihələr də Rumıniya ilə Azərbaycan arasında gələcək əməkdaşlıq üçün yaxşı zəmindir.

Biz Rumıniya və Azərbaycan üçün bu çox mühüm və perspektivli məsələləri müzakirə etdik və zənnimcə, yekdil rəyə gəldik. Buna görə də çox şadam ki, prezident Emil Konstantinesku mənim dəvətimi qəbul edib, Bakıya rəsmi səfərə gəldi və burada böyük, səmərəli iş apardı. Bizim aramızda xoş, səmimi münasibətlər yarandı, mən bu münasibətləri çox qiymətləndirirəm və ümidvaram ki, onlar Rumıniya ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da möhkəmlənməsi naminə davam və inkişaf etdiriləcəkdir.

Bütün Rumıniya vətəndaşlarına, rumın xalqına bir daha sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.
[166]

**AZƏRBAYCAN RESPUBLİKASI**
**DAXİLİ İŞLƏR ORQANLARININ**
**ŞƏXSİ HEYƏTİNƏ**

Hörmətli polis əməkdaşları!

Sizi Azərbaycan polisinin yaradılmasının 80 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

1918-ci il iyul ayının 2-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə peşəkar milli polis orqanları yaradılmışdır. Bu, Xalq Cümhuriyyətinin həyatında böyük hadisə olmuş və dövlətçiliyimizin möhkəmlənməsində, əhalinin təhlükəsizliyinin qorunmasında mühüm rol oynamışdır.

Ötən 80 ildə Azərbaycan polisi öz peşəkarlıq səviyyəsini getdikcə yüksəldərək çətin və şərəfli yol keçmiş, tarixin sınaqlarından ləyaqətlə çıxaraq mütəşəkkil və mübariz bir quruma çevrilmişdir. İctimai-siyasi quruluşdan və şəraitdən asılı olmayaraq ölkəmizin bütün inkişaf mərhələlərində polis istər daxili cinayətkarlara, istərsə də əhalinin əmin-amanlığı üçün təhlükə törədən digər qüvvələrə qarşı əzmlə mübarizə aparmış, əsl fədakarlıq və peşəkarlıq nümunələri göstərmişdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra daxili işlər orqanlarının şəxsi heyətinin üzərinə daha böyük məsuliyyət düşmüşdür. Azərbaycan polisi bir tərəfdən milli müdafiə funksiyalarını yerinə yetirərək ərazi bütövlüyümüz uğrunda erməni qəsbkarlarına və separatizmə qarşı ağır döyüşlərdə iştirak etmiş, bu yolda yüzlərlə qurban vermişdir. Digər tərəfdən isə dövlətçiliyimiz əleyhinə yönəldilmiş cinayətkar qəsdlərin və başqa qeyri-konstitusion əməllərin, vətəndaş qarşıdurmasının, kütləvi və mütəşəkkil cinayətkarlıq təzah[167-168]ürlərinin, cəzasızlıq mühitinin aradan qaldırılmasında önəmli xidmətlər göstərmişdir. Əlamətdar haldır ki, daxili işlər orqanlarının şəxsi heyəti bütün bu proseslərdə Azərbaycan xalqının, Azərbaycan dövlətinin maraqlarını, özlərinin vətəndaşlıq borclarını və xidmətin mənafeyini hər şeydən üstün tutmuşdur.

İndi bizim demokratik ideallarıın bərqərar olduğu və möhkəmləndiyi müstəqil dövlətimiz, bütün xalq tərəfindən qəbul edilmiş Konstitusiyamız, onların keşiyində duran mətinləşmiş strukturlarımız, o cümlədən dövlətin əsas sütunlarından olan mübariz polisimiz vardır. Respublikada cinayətkarlığın qarşısı alınıb, əmin-amanlıq yaranıb, asayiş bərpa olunub. İnsanlar rahat, sakit və sərbəst yaşayır, dinc şəraitdə işləyir və istirahət edir. Bütün bu işlərdə polisin xidməti və rolu danılmazdır.

Bu gün polis orqanlarının bütün diqqəti və səyləri sosial-iqtisadi və siyasi islahatların rəvan aparılması üçün ölkədə ictimai asayişin və əmin-amanlığın təmin olunmasına, qanunçuluğun möhkəmlənməsinə, cinayətkarlıqla daha qətiyyətli mübarizə aparılmasına, insanların və vətəndaşların azadlıqlarının və hüquqlarının qorunmasına yönəlməlidir.

Polis peşəsi ağır peşədir. O, bir tərəfdən yüksək vətəndaşlıq məsuliyyəti, cəsarət, şəxsi mətanət, ikinci tərəfdən bilik, dərrakə, elm, təhsil və təcrübə tələb edir. Bunların hamısı bir yerdə cəmləşməsə, biz layiqli və mütəşəkkil polis yarada bilmərik. Cinayətkarlığın qarşısının alınması, dövlətin yaratdığı bütün imkanlardan respublika vətəndaşlarının bəhrələnməsi üçün dinc şəraitin təmin edilməsi, asayişin və qanunçuluğun möhkəmləndirilməsi naminə polis daim öz peşəkar səviyyəsini yüksəltməli, gündəlik işini müasir tələblərə, beynəlxalq təcrübəyə və normalara uyğun qurmalıdır.

Əmin olduğumu bildirirəm ki, daxili işlər orqanlarının hər bir əməkdaşı bundan sonra da Azərbaycan Respublika[168-169]sı Konstitusiyasına və qanunlarına dönmədən riayət edərək, ölkədə asayişi və ictimai təhlükəsizliyi təmin edəcək, xidməti andına sadiq qalaraq polis adını şərəflə qoruyacaqdır.

Sizə bu çətin və məsuliyyətli işinizdə uğurlar, hər birinizə səadət və xoşbəxtlik arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *1 iyul 1998-ci il*
[169]

## AZƏRBAYCAN POLİSİNİN 80 İLLİK YUBİLEYİNƏ VƏ POLİS GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

*Azərbaycan Dövlət Opera və Balet Teatrı*

*2 iyul 1998-ci il*

Hörmətli xanımlar və cənablar, dostlar!

Sizi Azərbaycan polisinin 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm. Sizə - Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bütün əməkdaşlarına çox şərəfli işinizdə böyük uğurlar arzulayıram.

Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ildə müstəqil bir dövlət kimi ilk addımlarını atarkən müstəqil dövlət üçün çox zəruri, vacib olan polisin yaranmasını qərara almışdır və 1918-ci il iyul ayının 2-də Azərbaycan milli polisi yaranmışdır. Bu, bizim tariximizdə çox əlamətdar bir hadisədir.

Azərbaycan xalqı uzun bir tarixi dövrdə demək olar ki, ilk dəfə özünün doğma, milli, müstəqil polisini yaratmışdır. Məhz Azərbaycan polisinin, milisinin yarandığı gündən indiyə qədər onun xidmətlərini nəzərə alaraq müstəqil respublikamızda 2 iyul günü Azərbaycan Polisi günü adlandırılıbdır və bu barədə lazımi fərman verilibdir. Bugünkü təntənəli yığıncaq, yubiley mərasimi də məhz buna həsr olunubdur.

Xalq Cümhuriyyəti yaranandan indiyə qədər Azərbaycanın 80 illik tarixi bir neçə mərhələdən ibarətdir. Bütün bu mərhələlərdə Azərbaycan polisi, milisi, daxili işlər orqanları daim xalqla olmuş, xalqın ayrılmaz hissəsi olmuş, xalqına, ölkəsinə, dövlətinə sədaqətlə xidmət etmişdir. [170-171]

Bu tarixi dövrdə Azərbaycan polisinin, milisinin, daxili işlər orqanlarının çox əhəmiyyətli nailiyyətləri də, itkiləri də, uğurları da, səhvləri də olmuşdur. Bu tarixin çox parlaq səhifələri də, ancaq ləkəli, qara səhifələri də vardır. Amma bunlar hamısı bizimdir, Azərbaycanındır, xalqındır. Bu, bizim xalqımızın tarixinin səhifələridir.

Azərbaycanda 80 il ərzində polisin, milisin, daxili işlər orqanlarının əldə etdiyi nailiyyətlər, uğurlar, şübhəsiz ki, xalqımıza, ölkəmizə fayda vermişdir. Amma eyni zamanda, buraxılan səhvlər xalqımıza böyük itkilər gətirmişdir. 1920-1930-cu və xüsusən 1937-1938-ci illərin repressiya dövründə Azərbaycanın Daxili İşlər Nazirliyi və onun tərkibindəki milis də bu repressiyaların iştirakçıları olmuşlar. Ancaq bunlara baxmayaraq, polis, milis, Daxili İşlər Nazirliyi orqanlarında ötən dövrdə - 80 il ərzində işləmiş, çalışmış, əməkdaşlıq etmiş insanların tam əksəriyyəti öz xalqına, doğma torpağına, Azərbaycana sədaqətlə xidmət etmişdir.

Azərbaycan Daxili İşlər Nazirliyinin əməkdaşları respublikamızın bütün vətəndaşları ilə birlikdə Böyük Vətən müharibəsində də öz xidmətlərini göstərmişlər. Ermənistanın Azərbaycana təcavüzü başlanandan bəri və döyüşlər gedən illərdə Azərbaycan milisi, polisi, Respublika Daxili İşlər Nazirliyinin əməkdaşları torpaqlarımızın qorunmasında şücaətlə vuruşmuşlar, qəhrəmanlıq nümunələri göstərmişlər.

Milis, polis işçiləri, Daxili İşlər Nazirliyinin əməkdaşları öz xidməti vəzifələrini həyata keçirərək, Azərbaycan vətəndaşlarının, dövlətin, xalqın mənafeyini qoruyaraq canlarını qurban vermiş, həlak olmuşlar. Belə qəhrəmanların xatirəsi heç vaxt unudulmayacaqdır. Onların qəhrəmanlıq nümunələri bizim qəlbimizdə daim yaşayacaq və bugünkü, gələcək nəsillər, müstəqil Azərbaycanın polis əməkdaşları üçün həmişə örnək olacaqdır.

Azərbaycanın Daxili İşlər Nazirliyinin, milis, polis orqanlarının tarixində son on il çox mürəkkəb, ziddiyyətli, çətin və [171-172] ağır dövr olmuşdur. Bu on ildə Azərbaycanın Daxili İşlər Nazirliyində sədaqətlə xidmət edən insanlar öz vətəndaşlıq borcuna sadiq qalmış, öz xidməti vəzifələrini layiqincə yerinə yetirmişlər. Ancaq eyni zamanda, bu müddətdə Azərbaycanda gedən ictimai-siyasi proseslərin ucbatından və ayrı-ayrı vəzifəli şəxslərin etdikləri cinayətin, xalqa xəyanətin nəticəsində Daxili İşlər Nazirliyinin bir çox əməkdaşlarının özləri cinayətkarlara çevrilmişlər, peşələrinə ləkə gətirmişlər və ümumiyyətlə, Daxili İşlər Nazirliyi orqanlarının işinə böyük zərbələr vurmuşlar.

Bütün bunlara baxmayaraq, Azərbaycanın Daxili İşlər Nazirliyi orqanları yaşamış, inkişaf etmişdir və bu gün o, müstəqil Azərbaycan dövlətinin, vətəndaşlarının, xalqımızın, respublika Konstitusiyasının keşiyində duran bir orqandır.

Son on il içərisində Azərbaycanın Daxili İşlər Nazirliyi orqanlarında olan vəziyyət və eyni zamanda görülən işlər haqqında, ümumiyyətlə, 80 illik tarix barədə respublika daxili işlər naziri Ramil Usubov ətraflı məlumat verdi. Mən onu xüsusi qeyd etmək istəyirəm ki, Daxili İşlər Nazirliyi orqanlarında nə qədər mənfi hallar olmuşdursa da, bu orqanlarda çalışan şəxsi heyətin əksəriyyəti öz mənliyini qorumuş, vətənə, xalqa sədaqətini daim saxlamışdır. Məhz bunun nəticəsində bu gün biz Azərbaycan Daxili İşlər Nazirliyində sağlam, mübariz, öz vəzifəsini peşəkarcasına yerinə yetirə bilən böyük bir heyəti görürük.

Son illər ölkəmizdə Azərbaycanın dövlətçiliyinə, Konstitusiyasına, konstitusion quruluşuna, xalqımıza, vətəndaşlara qarşı edilən cinayətlərin qarşısının alınmasında respublika Daxili İşlər Nazirliyi böyük xidmətlər göstərmiş, yaxşı nailiyyətlər əldə etmişdir. 1994-cü ilin oktyabrında Azərbaycanda dövlət çevrilişinə cəhd göstərilən zaman, 1995-ci ildə ölkəmizə düşmən olan müxtəlif qüvvələrin səylərini özündə cəmləyən,

Daxili İşlər Nazirliyinin tərkibində olan OMON [172-173] dəstəsinin böyük cinayət törətdiyi və respublikamızda hakimiyyəti devirməyə cəhd etdiyi vaxt, o illər və ondan sonrakı dövrdə Azərbaycanda ciddi təxribat cəhdlərinin, terror aktlarının qarşısının alınmasında Daxili İşlər Nazirliyi və onun əməkdaşları böyük xidmətlər göstərmiş, uğurlar əldə etmişlər.

Əziz dostlar, mən sizin bütün bu xidmətlərinizi yüksək qiymətləndirirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz bundan sonra da öz üzərinizə düşən vəzifələri layiqincə yerinə yetirəcəksiniz.

Polis peşəsi ağır, çətin peşədir. Polis peşəsinə öz həyatını sərf edən insan bir çox xüsusi keyfiyyətlərə malik olmalıdır. Polis əməkdaşı birinci növbədə ölkəsinin dövlətinə, Konstitusiyasına, qanunlarına tam sadiq olmalıdır. Polis əməkdaşı bilikli, öz sahəsində yüksək təhsilə, yaxşı təcrübəyə malik, iradəli, cəsarətli, qorxmaz olmalıdır. Polis əməkdaşı saf mənəviyyata malik olmalıdır. Polis əməkdaşı yalnız və yalnız qanun çərçivəsində fəaliyyət göstərməlidir, qanunun aliliyini daim rəhbər tutmalıdır, qanuna həmişə hörmət etməlidir. Polis əməkdaşı vətəninə, torpağına hədsiz sədaqətli və istənilən vaxt öz vəzifəsini yerinə yetirərək həyatını belə qurban verməyə hazır olmalıdır.

Azərbaycanın bugünkü polisinin, daxili işlər orqanları əməkdaşlarının əksəriyyəti belə keyfiyyətlərə malikdir. Əgər belə olmasaydı, Daxili İşlər Nazirliyi son illərdə artıq bütün ictimaiyyətimizə məlum olan nailiyyətləri əldə edə bilməzdi.

Bu gün biz böyük məmnuniyyət hissi ilə qeyd edə bilərik ki, 80 illik tarixi ərzində Azərbaycan polisi, daxili işlər orqanları böyük təcrübə toplamış, böyük bilik potensialı əldə etmiş, dünya təcrübəsindən xeyli bəhrələnmiş, mütəşəkkilləşmiş bir təşkilatdır.

Respublikanın polis işçiləri, Daxili İşlər Nazirliyi Azərbaycanın dövlətçiliyini, Konstitusiyasını, Azərbaycan vətən[173-174]daşlarının hüquq və azadlıqlarını qorumaq üçün çox mühüm əhəmiyyət kəsb edən bir dövlət orqanıdır. Bütün bunlar sizin, bizim, hamımızın, Azərbaycan xalqının milli sərvətidir. Biz bundan sonra da Azərbaycan Respublikasının daxili işlər orqanlarının işinin təkmilləşdirilməsinə və orqanlarda qanun-qaydanın, nizam-intizamın möhkəmlənməsinə, peşəkarlıq səviyyəsinin yüksəlməsinə fikir verməliyik, öz səylərimizi göstərməliyik.

Bütün müsbət nəticələrlə yanaşı, bu gün, yubiley günü polisin, Daxili İşlər Nazirliyinin qarşısında duran vəzifələr haqqında da deməyi lazım bilirəm. Vəzifələrimiz məlumdur. Onlar birinci növbədə Azərbaycanın Konstitusiyasında, qanunlarında, prezidentin fərmanlarında əks olunubdur. Siz bu vəzifələrin yerinə yetirilməsi üçün daha da səmərəli işlər görməlisiniz. Bunun üçün böyük imkanlar da vardır. İndi bizim üçün müstəqil dövlətimizin polisini, Daxili İşlər Nazirliyini dünya standartları səviyyəsinə qaldırmaq imkanı vardır. Çünki biz müstəqil dövlətik, müstəqil ölkəyik. Biz öz işimizi özümüz qururuq.

Bu gün Azərbaycan polisinin 80 illiyi haqqında danışarkən, ötən 80 il ərzində polisin keçdiyi yola layiqli qiymət verərkən eyni zamanda qeyd etmək lazımdır ki, biz müstəqil olmadığımız dövr - 70 il içində Azərbaycan Respublikası özünün Daxili İşlər Nazirliyinin işini istədiyi kimi qurmaq imkanına malik olmamışdır. O vaxt Azərbaycan Daxili İşlər Nazirliyində hətta milis kiçik leytenantı rütbəsi vermək üçün gərək Sovetlər İttifaqının Daxili İşlər Nazirliyinin əmri olaydı. Təkcə rütbə vermək məsələsi deyildir. Rəhbər vəzifələrin əksəriyyətinə kadrlar Moskvanın, Sovetlər İttifaqı Daxili İşlər Nazirliyinin əmrləri ilə təyin olunurdu. Bizim xalqımıza, millətimizə xas olmayan bir çox adətlər, ənənələr güclə həyatımızın bir çox sahələrinə, o cümlədən Daxili İşlər Nazirliyinin işinə də tətbiq olunurdu. [174-175]

Ancaq indi Azərbaycanın Daxili İşlər Nazirliyi müstəqil dövlətin nazirliyidir, Azərbaycan polisi müstəqil Azərbaycanın polisidir və Daxili İşlər Nazirliyinin rəhbərliyinə çox böyük səlahiyyətlər verilibdir. Vəzifə bu səlahiyyətlərdən düzgün, səmərəli, qanunlar əsasında istifadə etməkdən ibarətdir. Ümid edirəm ki, indiyə qədər, xüsusən son üç ildə toplanmış təcrübə əsasında Azərbaycanın Daxili İşlər Nazirliyi öz işini günü-gündən təkmilləşdirəcəkdir, əməkdaşların peşəkarlıq səviyyəsi artacaqdır və Daxili İşlər Nazirliyinin, Azərbaycan polisinin qarşısında duran vəzifələr daha da müvəffəqiyyətlə həyata keçiriləcəkdir. Bir də qeyd etmək istəyirəm ki, vəzifələr haqqında danışanda Daxili İşlər Nazirliyinin əsas vəzifəsi xalqa xidmət etmək, hər bir Azərbaycan vətəndaşına xidmət etmək, Azərbaycan dövlətinə xidmət etməkdən ibarətdir.

Son üç ildə Daxili İşlər Nazirliyinin Azərbaycanın digər hüquq-mühafizə orqanları ilə birlikdə apardığı işlər nəticəsində, həyata keçirdiyi tədbirlər və əməliyyatlar nəticəsində Azərbaycanda cinayətkarlığa qarşı mübarizə güclənibdir, cinayətkarlıq azalıbdır, ictimai asayişin vəziyyəti yaxşılaşıbdır və bunlar hamısı Azərbaycanda mövcud ictimai-siyasi sabitliyin yaranmasına kömək edibdir.

Ötən illəri unutmaq lazım deyildir. Cəmi beş il bundan öncə Azərbaycanda vətəndaş müharibəsi gedirdi, polisin kimə xidmət edib-etmədiyi məlum deyildi, - o, ayrı-ayrı cinayətkar dəstələrə, qüvvələrə xidmət edirdi və vətəndaşların təhlükəsizliyi təmin olunmurdu. O günlər hamımızın xatirindədir. İnsanlar daim təhlükə altında yaşayırdılar. İnsanlar rahat əmək fəaliyyəti göstərə bilmirdilər, rahat istirahət edə bilmirdilər, öz həyatlarını istədikləri kimi qura bilmirdilər və bəziləri də hesab edirdi ki, elə belə də olmalıdır. Çünki belə bir vəziyyəti yaradanlar bu vəziyyətdən öz şəxsi mənafeləri üçün faydalanırdılar və xalqın, vətəndaşların hüquqları, azadlıqları, onların vəziyyəti belələrini qətiyyən maraqlandırmırdı. [175-176]

1995-ci ildən cəmi üç il keçibdir. Bu üç il müddətində nə qədər müsbət dəyişikliklər vardır! Mən Daxili İşlər Nazirliyinin işində keçmişdə buraxılan səhvlər,qara ləkələr haqqında deyəndə Daxili İşlər Nazirliyinin içində cinayətkarlar dəstəsinin yaranmasını xüsusi qeyd edirəm. Bilirsiniz, bu, ola bilər ki, son dövrdə

başqa ölkələrlə müqayisədə analoqu olmayan bir hadisədir. O vaxt keçmiş Sovetlər İttifaqının respublikalarında Xüsusi Təyinatlı Milis Dəstələri yaradılmışdı. Bu dəstələrin yaradılmasının məqsədi mütəşəkkil cinayətkarlarla mübarizə aparmaqdan və Daxili İşlər Nazirliyinin, milisin çox güclü bir strukturu olmaqdan ibarət idi. Bu, Azərbaycanda da yaranmışdı və yaranan zamandan sonra, xüsusən Ermənistanın təcavüzündən Azərbaycan torpaqlarının qorunmasında Xüsusi Təyinatlı Milis Dəstəsinin – OMON-un xidmətləri olmuşdur. Əgər səhv etmirəmsə, o dəstənin içərisindən 45 nəfər şəhid olmuşdur. Onlar vətən, torpaq yolunda şəhid olmuşlar. Biz onların qəhrəmanlığını heç vaxt unuda bilmərik və onların silahdaşlarının sonra cinayət yoluna düşməsi, cinayətkar dəstəyə çevrilməsi Xüsusi Təyinatlı Milis Dəstəsinə mənsub olmuş, qəhrəmanlıq göstərmiş, şəhid olmuş insanların xidmətlərinə heç vaxt ləkə sala bilməz. Ancaq sual olunur: Bəs nə cür oldu ki, belə bir dəstə, qəhrəmanlıq nümunələri göstərmiş dəstə sonra bir cinayətkar dəstəsinə çevrildi? Bunun kökü o insanların özündə deyildir. Bunun kökü o vaxt Azərbaycanda gedən mürəkkəb və qeyri-normal ictimai-siyasi proseslərlə əlaqədardır. Bunun kökü o vaxt Azərbaycanda hakimiyyət uğrunda silahlı mübarizə aparmaq xəstəliyi ilə əlaqədardır və dövlət strukturları, silahlı strukturlar olduğu halda, Azərbaycanın ayrı-ayrı vəzifəli şəxslərinin, bəzən də heç vəzifəsi olmayan şəxslərin, ancaq böyük vəsait sahiblərinin özləri üçün cinayətkar silahlı dəstələr yaratması ilə bağlıdır. Məhz belə bir vəziyyətdə, ölkənin rəhbərliyində cinayətkarlıq geniş yayıldığı bir zaman, Azərbaycanın daxili işlər na[176-177]ziri Həmidov cinayətkar bir adam olduğu zaman, şübhəsiz ki, çox sağlam niyyətlərlə yaranmış polis dəstəsi sonra cinayətkar dəstəyə çevrildi.

Bizim xalqımız bu ağır, böyük itkilərlə müşayiət olunmuş dövrü yaşamışdır. Məmnunluq doğuran odur ki, biz bütün bunlara son qoya bilmişik və 1995-ci ildən bu yana bu cinayətkarlıqla mübarizə aybaay, ilbəil güclənib, genişlənibdir. Hüquq-mühafizə orqanlarının işi bir-biri ilə sıx əlaqələndirilib və bunların nəticəsində də indi Azərbaycanda insanlar ictimai-siyasi sabitlik, əmin-amanlıq, rahatlıq şəraitində yaşayırlar. Bu, bizim dövlətimizin siyasətinin nəticəsidir və onun ardıcıl surətdə həyata keçirdiyi tədbirlərin nəticəsidir. Bu, bizim qanunların tətbiq olunmasının nəticəsidir. Bu, eyni zamanda hüquq-mühafizə orqanlarının, o cümlədən Daxili İşlər Nazirliyinin gördüyü işlərin, fəaliyyətinin nəticəsidir.

Görülən işlər qiymətləndirilir. Ancaq mən istərdim ki, bu gün, bayram günü, yubiley günü Daxili İşlər Nazirliyinin bütün əməkdaşları, Azərbaycanın bütün hüquq-mühafizə orqanları öz səylərini çatışmazlıqların, nöqsanların aradan qaldırılmasına, işlərin daha da yaxşı təşkil edilməsinə yönəltsinlər, cinayətkarlığın tamamilə aradan qaldırılmasına nail olsunlar. Son illərin təcrübəsi onu göstərir ki, bu mümkündür, biz buna nail ola bilərik. Güman edirəm ki, bu nailiyyətlərdən ruhlanan hüquq-mühafizə orqanlarının əməkdaşları, Azərbaycanın Daxili İşlər Nazirliyinin əməkdaşları bundan sonra bizi daha da müsbət nəticələrlə sevindirəcəklər.

Ramil Usubov burada rəqəmlər gətirdi ki, Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələr arasında cinayətkarlıqla mübarizə nədən ibarətdir və Azərbaycan bu göstəricilərə görə müsbət mənada fərqlənir. Bu, çox yaxşı haldır. Bu, bizi sevindirməlidir, ruhlandırmalıdır. Ancaq biz öz işimizi tək bununla ölçməməliyik, öz işimizi mövcud vəziyyətlə ölçməliyik. Əgər bu gündə vətəndaşların həyatına sui-qəsd edilirsə, kimsə [177-178]kimisə öldürə bilirsə, kimsə kimisə narahat edə bilirsə, kimsə hansısa başqa cinayət edə bilirsə, deməк, hələ görüləsi işlər çoxdur, biz hələ istənilən səviyyəyə gəlib çatmamışıq. Ümid edirəm ki, əgər hüquq-mühafizə orqanları hamısı birlikdə bundan sonra da əldə etdiyi təcrübələrdən istifadə edərək işləri daha yaxşı qurmuş olsalar, biz qarşıdakı illərdə respublikamızda cinayətkarlıqla mübarizədə, ictimai asayişin qorunmasında, dövlətçiliyimizin, vətəndaşların hüquqlarının qorunmasında daha da yüksək səviyyəyə çata bilərik. Hesab edirəm ki, buna imkan vardır.

Hər bir hüquq-mühafizə orqanında çalışan əməkdaş öz işinin dövlət, xalq üçün nə qədər vacib olduğunu dərk etməlidir və işini yalnız və yalnız xalqın, ölkənin mənafeyi üçün aparmalıdır.

Mən bu gün, bayram günü təəssüf hissi ilə demək istəyirəm ki, hüquq-mühafizə orqanlarının işində, o cümlədən Daxili İşlər Nazirliyinin işində nöqsanlar da çoxdur. Bu nöqsanların bir qismi işin təşkili ilə əlaqədardır, bir qismi isə ayrı-ayrı əməkdaşların vəzifələrindən sui-istifadə etməsi və bəzən hətta cinayətkarlıq yoluna düşməsi ilə əlaqədardır. Hüquq-mühafizə orqanlarının işçiləri, Daxili İşlər Nazirliyinin əməkdaşları bilməlidirlər ki, onlar Azərbaycanın başqa vətəndaşlarından fərqli olaraq xüsusi imtiyazlara, statusa malikdirlər və bu imtiyazlardan, qanunla onlara verilən hüquqlardan doğru-düzgün istifadə etməlidirlər. Daxili İşlər Nazirliyinin işçisi hansısa bir vətəndaşı saxlaya, qanun çərçivəsində lazımi əməliyyat apara bilər. Başqa vətəndaşlara belə imkanlar verilmir. Daxili İşlər Nazirliyi əməkdaşlarının xidməti formaları, xidməti rütbələri, cəmiyyətdə özfəaliyyətlərini həyata keçirmək üçün imkanları onları Azərbaycanın başqa vətəndaşlarından fərqləndirir. Ona görə bütün bu səlahiyyətlərdən, imtiyazlardan, imkanlardan yalnız qanun çərçivəsində, ölkənin, xalqın mənafeyi naminə istifadə etmək lazımdır. Təəssüflər [178-179] olsun ki, Daxili İşlər Nazirliyinin əməkdaşları içərisində vəzifəsindən sui-istifadə edənlər, bəzən cinayət edənlər də vardır. Onların bəziləri məsuliyyətə cəlb olunublar. Belə hallar başqa hüquq-mühafizə orqanları əməkdaşlarının içərisində də vardır.

Hüquq-mühafizə orqanları hamısı birlikdə Azərbaycanda cinayətkarlıqla mübarizəni gücləndirməlidirlər. Bir daha qeyd edirəm, ancaq eyni zamanda, onlar qanun çərçivəsində hərəkət etməlidirlər. Onların

fəaliyyəti Azərbaycanda demokratik, siyasi, iqtisadi islahatların həyata keçirilməsinə kömək etməlidir, mane olmamalıdır.

Təəssüflər olsun ki, bəzi hallarda hüquq-mühafizə orqanlarının bəzi əməkdaşları guya öz vəzifələrini yerinə yetirərək, Azərbaycanda islahatların keçirilməsinə mane olur, özlərinə aid olmayan işlərə qarışır və beləliklə də dövlətə, xalqa kömək etmək əvəzinə, ümumi işimizə zərər gətirirlər.

Azərbaycanda cinayətkarlıqla mübarizə hər bir cinayətə qarşı olmalıdır. Amma indi biz iqtisadi islahatlar həyata keçirdiyimiz zaman hüquq-mühafizə orqanları bilməlidirlər ki, onlar harada cinayət axtarmalıdırlar, harada isə cinayət axtarmağa ehtiyac yoxdur. Təəssüf olsun ki, bəzən bunu anlamayanlar, yaxud da qəsdən, - o yerdə ki, cinayət yoxdur, ya da o yerdə ki, sadəcə, bizim yeni qanunlar əsasında iqtisadi islahatlar aparılır və bunun nəticəsində müəyyən tədbirlər həyata keçirilir, - oraya müdaxilə olunur və beləliklə də ümumi işimizə zərər vurulur. Bunların qarşısı alınmalıdır.

Cinayətkarlıqla mübarizədə korrupsiya ilə, rüşvətxorluqla mübarizə xüsusi yer tutmalıdır. Bu, təkcə hüquq-mühafizə orqanlarının işi deyil, bütün dövlət orqanlarının, hökumətin işidir, ümumxalq işidir. Ancaq hüquq-mühafizə orqanlarının bunun üçün xüsusi imkanları var. Ona görə də korrupsiya ilə, rüşvətxorluqla mübarizə sahəsində hüquq-mühafizə orqanlarından daha da çox səmərəli iş tələb olunur. Ancaq təəssüflər [179-180] olsun ki, hüquq-mühafizə orqanlarının əməkdaşları içərisində də korrupsiya ilə, rüşvətxorluqla məşğul olanlar var və bəzən az deyildir.

Mən dedim ki, özünü polis peşəsinə həsr edən adam saf mənəviyyata malik olmalıdır. Bu, təkcə polisə aid deyildir. Hər bir Azərbaycan vətəndaşı mənəviyyatca saf olmalıdır. Ancaq dövlət işində çalışan adamlar, hüquq-mühafizə orqanında işləyənlər, Daxili İşlər Nazirliyinin əməkdaşları bu keyfiyyətə mütləq malik olmalıdırlar. Bu, əsas tələblərdən biridir və mən bu bayram günü bu məsələni qaldıraraq bütün hüquq-mühafizə orqanlarından bir daha tələb edirəm ki, korrupsiya ilə, rüşvətxorluqla mübarizə gücləndirilsin.

Bu mübarizəni gücləndirmək üçün birinci növbədə hüquq-mühafizə orqanlarının içərisində korrupsiya ilə məşğul olan, rüşvətxorluq edən insanlar aşkara çıxarılmalı, ifşa edilməli və məsuliyyətə cəlb olunmalıdır. Əgər bu olmasa, hüquq-mühafizə orqanlarının gördüyü başqa işlər də ictimaiyyət, xalq tərəfindən lazımi dərəcədə qiymətləndirilə bilməz. Bir daha qeyd edirəm, özünü polis peşəsinə həsr edən insan, hüquq-mühafizə orqanlarında işləyən hər bir şəxs birinci növbədə mənəviyyatca saf olmalıdır. Bütün başqa çatışmazlıqları, nöqsanları bağışlamaq olar, onlara dözmək də olar. Amma bu nöqsanı, - əgər buna nöqsan demək olarsa, - bağışlamaq, bu hallara dözmək olmaz.

Bizim hüquq-mühafizə orqanları indi elə bir səviyyədədirlər ki, onlar korrupsiya ilə, rüşvətxorluqla mübarizə aparmağa qadirdirlər, -əgər öz içərilərində olan belə halları birinci növbədə aşkara çıxarıb özlərinin kollektivlərini təmizləsələr!

Daxili İşlər Nazirliyinin əməkdaşları Konstitusiyaya, dövlətçiliyə daim sadiq olmalıdırlar. Bəli, Daxili İşlər Nazirliyinin əməkdaşları, ümumiyyətlə Daxili İşlər Nazirliyi siyasətdən kənar olmalıdır. Xatirinizdədir, 1988-1989-cu illərdə – hələ Sovet İttifaqı yaşadığı zaman, müəyyən islahatlar həyata [180-181] keçirildiyi bir zaman hüquq-mühafizə orqanlarının siyasətsizləşdirilməsi məsələsi kəskin durmuşdu. Hələ o vaxt.

Ancaq təəssüflər olsun ki, o vaxt hüquq-mühafizə orqanlarının siyasətsizləşdirilməsi haqqında daha çox danışanlar və çıxış edənlər 1992-ci ildə Azərbaycanda hakimiyyətə gələndən sonra hüquq-mühafizə orqanlarını tam siyasiləşdirdilər.

Nə ilə anlamaq olardı ki, Azərbaycanın Daxili İşlər naziri daxili işlər naziri olaraq «Boz qurd» Partiyası yaratmışdı? Daxili İşlər Nazirliyinin işçilərini məcbur edirdi ki, «Boz qurd» Partiyasına daxil olsunlar və «Boz qurd» olsunlar. Daxili İşlər Nazirliyində ən fəxri ad «Boz qurd» adı idi! Nə qədər dəhşətli bir dövr, nə qədər dəhşətli vəziyyət idi. Bu adamlar o vaxt da, indi də çox böyük iddialarla yaşayırlar, demokratiyadan dəm vururlar. Hansı demokratiyadan söhbət gedə bilər ki, daxili işlər naziri siyasətlə məşğul idi, nazirliyin tərkibində «Boz qurd» Partiyası yaratmışdı, müdafiə naziri siyasətlə məşğul idi. Başqa əməkdaşlar da – həm orduda, həm də Daxili İşlər Nazirliyində gecə-gündüz siyasətlə məşğul idilər.

Bunların hamısına son qoyulubdur və bundan sonra bunlara heç vaxt imkan verməyəcəyik. Hüquq-mühafizə orqanları tam siyasətsiz, siyasətdənkənar olmalıdırlar. Hüquq-mühafizə orqanları üçün dövlətin mənafeyinin qorunması ilə hər bir vətəndaşın hüquqlarının qorunması eyni səviyyədə durur. Vətəndaşların hüququnu qoruyaraq, cəmiyyətdən cinayətkarlığı sıxışdırıb çıxararaq dövlətçiliyin qorunması üçün yaxşı zəmin yarana bilər. Güman edirəm ki, son illər Azərbaycanda Daxili İşlər Nazirliyində və digər hüquq-mühafizə orqanlarında yaranmış vəziyyət bu tələblərə cavab verir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu sahədə işlər bundan sonra da davam edəcək və hüquq-mühafizə orqanları, Daxili İşlər Nazirliyi Konstitusiyanın nəzərdə tutduğu səviyyədə duracaqlar və öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklər. [181-182]

Bu gün məmnuniyyət hissi ilə qeyd edirəm ki, Azərbaycanın Daxili İşlər Nazirliyi, onun orqanları, Azərbaycan polisi yaxşı səviyyədədir. Gələcəkdə Azərbaycan polisinin, Daxili İşlər Nazirliyinin işlərini daha da səmərəli etmək üçün yaxşı zəmin yaranıbdır. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz, Daxili İşlər Nazirliyinin bütün əməkdaşları qarşınızda duran vəzifələrin hamısını şərəflə, layiqincə yerinə yetirəcəksiniz.

Hörmətli polis əməkdaşları, hörmətli Daxili İşlər Nazirliyi əməkdaşları, mən sizə bütün işlərinizdə uğurlar arzulayıram. Sizin hər birinizə cansağlığı, ailə səadəti, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və əbədi edilməsi yolunda, Azərbaycanın dövlətçiliyinin qorunması yolunda yeni-yeni uğurlar arzulayıram. Sağ olun. [182]

## ABŞ-ın MİLLİ BAYRAMI – İSTİQLALİYYƏT GÜNÜ MÜNASİBƏTİLƏ ABŞ-ın AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN ÖZ İQAMƏTGAHINDA TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*4 iyul 1998-ci il*

Hörmətli cənab səfir!

Hörmətli xanımlar və cənablar!

Sizi Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik günü münasibətilə səmimi qəlbdən təbrik edirəm. Amerika Birləşmiş Ştatları qısa tarixi bir zamanda-222 il ərzində böyük yol keçmiş, dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrindən biri olmuşdur.

Amerika Birləşmiş Ştatları dünyada demokratiyanın inkişaf etdirilməsi üçün çox xidmətlər göstərmiş və demokratik ölkə nümunəsi kimi dünyanın hər yerində demokratiyanın yaranmasına və inkişaf etməsinə təsir edir. Mən bu bayram günü Amerika Birləşmiş Ştatlarının dövlətinə, hökumətinə, bütün vətəndaşlarına uğurlar arzulayıram. Amerika xalqına sülh, əmin-amanlıq və səadət diləyirəm.

Amerika ilə Azərbaycan arasındakı əlaqələrin tarixi böyükdür. Ancaq Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra bizim ölkələrimiz və dövlətlərimiz arasında yaranan əlaqələr çox böyük əhəmiyyət kəsb edir. Biz Amerika Birləşmiş Ştatları ilə olan əlaqələrimizə xüsusi əhəmiyyət veririk və bütün sahələrdə münasibətlərimizi inkişaf etdirmək əzmindəyik. Keçən il, 11 ay bundan əvvəl Amerika Birləşmiş Ştatlarına mənim ilk rəsmi səfərim zamanı ABŞ prezidenti cənab [183-184] Bill Klinitonla, vitse-prezident cənab Albert Qorla, dövlət katibi xanım Olbraytla, hökumətin başqa üzvləri ilə çox səmərəli görüşlər keçirilmiş, danışıqlar aparılmışdır.

İlk dəfə olaraq Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında dövlətlərarası, hökumətlərarası böyük əhəmiyyət daşıyan sənədlər imzalanmışdır. İmzalanmış sənədlər Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında olan əlaqələri daha da yüksək səviyyəyə qaldırmış və bu əlaqələrin çox etibarlı hüquqi-normativ bazasını yaratmışdır. Bu sənədlərin içərisində Amerika-Azərbaycan əlaqələri haqqında Amerika prezidenti cənab Bill Klinton və Azərbaycan prezidenti tərəfindən imzalanmış birgə bəyanat bizim üçün tarixi əhəmiyyət kəsb edir.

Məmnuniyyətlə xatırladıram ki, həmin bəyanatda Amerika-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün çox əhəmiyyətli müddəalar öz əksini tapmışdır. Amerika-Azərbaycan əlaqələrinin siyasət, təhlükəsizlik, iqtisadiyyat və ticarət sahəsində inkişaf etdirilməsi vasitəsilə ölkələrimiz, dövlətlərimiz arasında partnyorluq münasibətlərinin genişləndirilməsi bu bəyanatın əsas müddəalarından biridir.

Birgə bəyanatda göstərilir ki, Amerika Birləşmiş Ştatları Azərbaycanın müstəqilliyini, təhlükəsizliyini, suverenliyini, ərazi bütövlüyünü və demokratik inkişafını dəstəkləyir. Bizim Vaşinqtonda apardığımız danışıqlar nəticəsində imzaladığımız birgə bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması barəsində də çox əhəmiyyətli müddəalar öz əksini tapmışdır. Amerika Birləşmiş Ştatları bəyan etmişdir ki, ABŞ Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll olunmasına tərəfdar çıxır və məsələnin sülh yolu ilə həll edilməsini, bölgədə uzunmüddətli sülhün və sabitliyin yaranmasını çox əhəmiyyətli hesab edir. Amerika Birləşmiş Ştatları bu münasibətlə Rusiya və Fransa ilə birlikdə ATƏT-in Minsk qrupunda fəaliyyətini davam etdirməyi bəyan [184-185] etmişdir. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, bu bəyanatda göstərilən müddəalar daimidir və Amerika Birləşmiş Ştatlarının hökuməti buna həmişə sadiq olacaqdır.

Bəyanatda göstərilmişdir ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ATƏT-in Lissabon sammitinin üç prinsipi əsasında olmalıdır. Bunları xatırladaraq, mən bu gün bir daha ümidvar olduğumu bildirmək istəyirəm ki, Amerika Birləşmiş Ştatları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması sahəsində bütün səylərini davam etdirəcəkdir, ATƏT-in Minsk qrupu, onun həmsədrləri - Rusiya, Fransa ilə birlikdə Amerika Birləşmiş Ştatları məsələnin sülh yolu ilə həll edilməsinə nail olacaqlar.

Hesab edirəm, çox əlamətdar hadisədir ki, Vaşinqtonda, Ağ Evdə ilk dəfə olaraq Xəzərin Azərbaycan sektorundakı yataqların Amerika Birləşmiş Ştatlarının şirkətləri ilə müştərək işlənilməsi sahəsində uzunmüddətli, çox geniş miqyaslı müqavilələr imzalanmışdır. Həmin gün - keçən il avqust ayının 1-də dörd müqavilə imzalanmışdır. 1994-cü ilin sentyabr ayında imzalanmış ilk müqavilədən sonra bir neçə başqa müqavilələrin imzalanması və xüsusən Vaşinqtonda dörd müqavilənin imzalanması - bunlar hamısı Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında iqtisadi əlaqələrin nə qədər geniş və perspektivli olduğunu göstərir.

Mən Amerika Birləşmiş Ştatlarında rəsmi səfərdə olarkən Amerikanın Konqresində də çoxsaylı görüşlərimi, danışıqlarımı və xüsusən Konqresin Nümayəndələr Palatasının sədri cənab Qinqriçlə və komitə sədrləri ilə çox ətraflı danışıqlarımı da xüsusi minnətdarlıqla qeyd edirəm. Səfər zamanı Vaşinqtonda,

Nyu-Yorkda, Hyüstonda, Çikaqoda çox görüşlər olmuşdur. Bunlar hamısı yalnız və yalnız Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında olan əlaqələri bütün sahələrdə genişləndirmək, inkişaf etdirmək məqsədi daşıyırdı. [185-186]

Məmnuniyyət hissi ilə qeyd edirəm ki, biz Vaşinqtonda imzaladığımız sənədlərin həyata keçirilməsi üçün ötən aylar bir çox müştərək işlər görmüşük və bunlar bizim gələcəkdə də görəcəyimiz işlərin əsasını qoyubdur.

Cənab səfir, siz Amerika Birləşmiş Ştatlarının Azərbaycana göstərdiyi humanitar yardım haqqında burada dediniz. Mən bu yardımlara görə təşəkkür edirəm. Məmnunam ki, qeyd etdiyiniz kimi, siz bu yardımın miqdarını üç dəfə artırmısınız.

Məmnunam ki, 907-ci maddəyə əlavə haqqında da siz öz fikirlərinizi bildirdiniz. Ancaq siz də, Amerikanın və Azərbaycanın burada olan vətəndaşları da yaxşı bilirlər ki, 907-ci maddəyə 1992-ci ildə edilmiş əlavə Azərbaycana ABŞ dövləti tərəfindən göstərilən hər bir yapdıma embarqo qoyub, onu qadağan edibdir. Sizin dediyiniz yardımlar ABŞ-ın qeyri-dövlət təşkilatları tərəfindən olunur. Amma Amerika Birləşmiş Ştatları hökumətinin, dövlətinin müstəqillik əldə etmiş başqa ölkələrə göstərdiyi yardım kimi yardımdan Azərbaycanın məhrum olması, şübhəsiz ki, bizi incidir və narahat edir.

Məlumdur, biz hamımız bilirik ki, Amerika hökuməti və şəxsən prezident cənab Bill Klinton 907-ci maddəyə əlavənin ləğv olunmasına tərəfdardır. Prezident Bill Klintonun bu barədə fikirləri keçən il avqustun 1-də bizim imzaladığımız birgə bəyanatda da öz əksini tapıbdır. Amma təəssüf edirəm ki, ötən aylar müddətində həmin bu fikirlər reallaşdırıla bilməyibdir.

Senator cənab Sem Braunbək tərəfindən irəli sürülmüş, İpək yolunun bərpası haqqında Amerika Konqresində müzakirə olunan qanun layihəsi çox böyük əhəmiyyət kəsb edir. Bu qanun layihəsi Azərbaycanın və bizim bölgədə olan başqa dövlətlərin Avropa Birliyi ilə İpək yolunun bərpa edilməsi haqqında apardığı işlərlə və hazırladığı proqramlarla üst-üstə düşür. [186-187]

Artıq məlumdur ki, Avropa Birliyinin iqtisadiyyat komissiyası ilə birlikdə Azərbaycan bu il sentyabrın 7-8-də Bakıda İpək yolu xətti üzərində olan ölkələrin, dövlətlərin zirvə görüşünü keçirəcəkdir. İnanıram ki, İpək yolunun bərpa olunması və beləliklə, Avropa-Qafqaz-Asiya nəqliyyat magistralının daha da səmərəli istifadə edilməsi üçün bu zirvə görüşündə çox əhəmiyyətli qərarlar qəbul olunacaqdır. Mən çox arzu edərdim ki, senator cənab Sem Braunbəkin irəli sürdüyü İnək yolu haqqında qanun layihəsi Amerika Konqresi tərəfindən qəbul olunsun. Bunlar hamısı bizim əlaqələrimizin inkişaf etdirilməsinə çox kömək edəcəkdir və ümumiyyətlə, Amerika Birləşmiş Ştatlarının Avropa-Qafqaz-Asiya magistralında iştirakı üçün çox böyük imkanlar yaradacaqdır. Biz öz tərəfimizdən bu sahədə və bütün başqa sahələrdə Amerika Birləşmiş Ştatları ilə əməkdaşlığımızı bundan sonra da sürətləndirmək əzmindəyik.

Cənab səfir, bu gün buradakı nitqinizdən də mən belə hiss etdim ki, siz bu barədə artıq xeyli işlər görmüsünüz. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bizim əlaqələrimizin inkişaf etdirilməsi üçün bundan sonra daha da ciddi addımlar atılacaqdır.

Biz Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında yaranmış partnyorluq əlaqələrini yüksək qiymətləndiririk və bu əlaqələri daim inkişaf etdirməyə çalışacağıq.

Mən bayram münasibətilə sizi bir daha təbrik edirəm. Sizin hamınıza cansağlığı və işlərinizdə uğurlar arzulayıram. Amerika Birləşmiş Ştatlarına sülh, əmin-amanlıq və rifah arzulayıram. Sağ olun. [187]

## MOSKVA, SANKT-PETERBURQ, MDB VƏ BALTİK ÖLKƏLƏRİ JURNALİSTLƏRİNİN BÖYÜK BİR QRUPU İLƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ VƏ MÜSAHİBƏ

*Prezident sarayı*

*10 iyul 1998-ci il*

Şadam ki, siz toplaşıb respublikamıza səfər etdiniz. İndi bir çox ölkələrin jurnalistləri bizə qonaq gəlirlər – müxtəlif vaxtlarda, müxtəlif tərkibdə və miqdarda. Amma son vaxtlar bizə əsasən Rusiyadan, habelə MDB və Baltikyanı ölkələrdən bu qədər jurnalist gəldiyi yadımda deyildir. Buna görə də sizin Azərbaycana səfəriniz artıq hadisəyə çevrilir və mən buna şadam.

Biz istəyirik ki, respublikamız necə varsa, onun haqqında nə az, nə də çox, beləcə məlumata malik olsunlar. Mən həmişə buna şad oluram ki, insanlar bizə qonaq gəlir, ölkəmizə səfər edirlər. Doğrudur, bu, heç də həmişə gözlənilən nəticələri vermir, çünki bəzən insan öz subyektiv hisslərinə uyur, hər şey ona əslində olduğu kimi görünmür. Ancaq bunun bizim üçün onsuz da heç bir əhəmiyyəti yoxdur. Vacib olan budur ki, həyatımızla, ölkəmizlə, dövlətimizlə daha yaxından tanış olsunlar.

O ki qaldı Rusiyaya və MDB ölkələrinə, bizi keçmişdə çox şey bağlamışdır, bu gün də çox şey bağlayır. Ona görə də sizin səfəriniz xüsusi əhəmiyyət kəsb edir. Hər necə olsa da, biz artıq neçə illərdir ki, birbirimizdən asılı vəziyyətdə deyilik. Buna baxmayaraq, məsələn, Rusiya mətbuatı MDB ölkələrinə [188-189] həmişə yer ayırır və əlbəttə, MDB ölkələrində də ən çox Rusiya mətbuatını oxuyurlar. Rusiya mətbuatında dərc edilən məqalələr - fərqi yoxdur, istər yaxşı olsun, istərsə də yaxşı olmasın, - həmişə böyük maraq və müvafiq əks - səda doğurur.

Bütün bunları nəzərə alaraq şadam ki, siz buraya gəlmisiniz. Bilmirəm, nəyi görməyə imkan-macal tapdınız, sizdə nə kimi təəssüratlar var, sabah hansı təəssüratla yola düşəcəksiniz. Lakin bundan asılı olmayaraq, mən bu faktın özünü müsbət bir fakt kimi qiymətləndirirəm və sizə təşəkkür edirəm ki, vaxt tapıb respublikamıza gəldiniz, bu günlərdə bizdə oldunuz, həyatımızla tanış oldunuz. Sağ olun.

**Heydər Əliyev**: İndi isə, gəlin söhbətimizin formasını müəyyənləşdirək. Siz hansı formanı istəsəniz, mən onu qəbul etməyə hazıram.

**Jurnalistlər**: Biz Azərbaycanın bölgələrinə səfərlərdən çox böyük təəssürat almışıq, buna baxmayaraq, əvvəlcə respublikada vəziyyət barədə Sizin rəyinizi dinləmək, sonra isə söhbəti sual-cavab formasında qurmaq istərdik.

**Heydər Əliyev**: Yaxşı, mən sizin dediklərinizlə razılaşıram. Keşmişdə Sovet İttifaqına daxil olmuş digər ölkələr kimi, indi Azərbaycan da öz tarixinin keçid mərhələsini yaşayır. Bu mərhələ ölkələrimizdə öz spesifikaları və xüsusiyyətləri ilə keçir, lakin əsasən eyni xarakter daşıyır. Biz Azərbaycanın dövlət müstəqilliyinə nail olmasını respublikamızda ən başlıca və mühüm tarixi hadisə hesab edirik. Bizim üçün bu, XX əsrin ən böyük hadisəsidir.

Tarixdən bilirsiniz ki, 1918-ci ildə Azərbaycanda ilk dəfə demokratik cümhuriyyət yaradıldı, bu cümhuriyyətin hökuməti 23 ay mövcud oldu, 1920-ci ilin aprelində isə sovet hakimiyyəti qurulması ilə əlaqədar onun varlığına son qoyuldu. 1920-ci ildən 1922-ci ilədək Azərbaycan Sovet Sosialist Respublikasının müəyyən müstəqilliyi vardı, yəni o, hər hansı digər dövlət qurumuna daxil olmayan respublika idi, amma [189-190] kommunist partiyası, kommunist rejimi, deməli, ÜK/B/P və ya Rusiya Kommunist Partiyası tərəfindən idarə edilirdi.

Azərbaycan 1922-ci ildən Sovet İttifaqının tərkibində olmuş və 1991-ci ilin axırlarında Sovet İttifaqının dağılması ilə əlaqədar müstəqil dövlətə çevrilmişdir.

Müstəqilliyin əldə edilməsi dövrü Azərbaycan üçün çox mürəkkəb olmuşdur. Mürəkkəblik bundan ibarət olmuşdur ki, Azərbaycan onun ərazisinin bir hissəsinə - Dağlıq Qarabağa Ermənistanın iddiası ilə əlaqədar onunla hərbi münaqişə vəziyyətində idi. Bildiyiniz kimi, bu münaqişə 1988-ci ilin fevralında başlamışdır. O vaxtlar Sovet İttifaqı hələ mövcud idi. Təəssüf ki, o vaxtkı sovet dövləti, sovet hökuməti 1988-ci ildə bu münaqişənin qarşısını almaq, onun güclənməsinə, böyük qan tökülməsinə, sonra isə böyük müharibəyə çevrilməsinə yol verməmək üçün, zənnimcə, bütün imkanlara malik olduğu halda, bunu etmədi.

Bu münaqişə 1988-1989-1990-cı və 1991-ci illərdə, Sovet İttifaqının hələ mövcud olduğu illərdə davam etdi. Sovet İttifaqının hələ mövcudluğu dövründə, Ermənistanla Azərbaycanın bir dövlətə daxil olduğu halda təxminən 4 il ərzində bu iki müttəfiq respublika arasında qanlı münaqişə davam etdi. Buna görə də Azərbaycanda müstəqilliyin əldə edilməsi o vaxt, Ermənistanla Azərbaycan arasında hərbi əməliyyatlar, münaqişə olan vaxtda baş verdi. Təbii ki, bu, Azərbaycanın vəziyyətini çətinləşdirdi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə vəziyyəti, həmçinin çətinləşdirən başqa bir hal bundan ibarət olmuşdur ki, həmin vaxtadək Azərbaycanın özünün daxilində ictimai-siyasi vəziyyət sabit deyildi. Bir tərəfdən, bu qeyri-sabitlik münaqişə vəziyyəti ilə bağlı idi, çünki həmin vaxtadək Azərbaycan əra-

zisinin bir hissəsi artıq işğal olunmuşdu. Hər halda Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistan silahlı birləşmələri tərəfindən tamamilə işğal edilmişdi, Dağlıq Qa[190-191]rabağın hüdudlarından kənardakı və Ermənistanla Azərbaycan arasında sərhəd zonasındakı bəzi digər yaşayış məntəqələri işğal olunmuşdu. Oradan bütün azərbaycanlılar qovulub didərgin salınmışdı, artıq 1991-ci ildə onlar öz ölkəsində qaçqınlara çevrilmişdilər. Təbii ki, bu, daxili siyasi vəziyyəti çətinləşdirirdi.

Digər tərəfdən, o vaxt daxili siyasi vəziyyəti bu da çətinləşdirirdi ki, Azərbaycanda kommunist rejiminə qarşı xalq kütlələrinin çıxışlarının çox fəal prosesi gedirdi. Bu, nə ilə bağlı idi? Azərbaycanda xalq, kütlə, adamların böyük əksəriyyəti Azərbaycan, Sovet İttifaqı rəhbərliyini bunda təqsirləndirirdilər ki, onlar Azərbaycanın, Azərbaycan xalqının mənafelərini qorumaq iqtidarında deyildilər. Azərbaycan xalqı təcavüzə, müxtəlif növ qırğınlara məruz qalmışdı və sair. Bu, etiraza səbəb oldu, ona gətirib çıxardı ki, 1988-1989-cu və 1990-cı illərdə Azərbaycanda xalq kütlələrinin fəal çıxışları, küçə və meydanlarda mitinqlər oldu. Burada, Bakıda, dəniz sahilində «Azadlıq» adlı böyük bir meydan var. Həmin aramsız mitinqlər orada keçirilirdi.

Buna görə də o vaxt sovet rəhbərliyi, təbii olaraq, Moskva, Azərbaycan, Bakı rəhbərliyi cəza tədbirləri görür, xalqı qovub dağıdır, fövqəladə vəziyyət elan edirdilər, bu isə adamlarda daha çox etiraza səbəb olurdu. O vaxt belə bir vəziyyətdən istifadə edərək burada Xalq Cəbhəsi yaradıldı. O, vəziyyətdən, adamların narazılığından, etirazlarından istifadə edirdi.

Kommunist rejiminə, kommunist, sovet rəhbərliyinə qarşı adamların bu kortəbii etirazları güclənərək sonra ayrı-ayrı şəxslər tərəfindən əslində hakimiyyət uğrunda müəyyən dərəcədə mübarizəyə çevrildi. Elə oldu ki, təxminən 1990-cı ildə, hətta 1989-cu ildə, 1991-ci ildə hakimiyyət uğrunda mübarizə gedirdi.

1990-cı ilin yanvarında Azərbaycana, Bakıya sovet qoşunlarının iri kontingentinin yeridilməsi ilə əlaqədar Azər[191-192]baycanda vəziyyət xüsusilə mürəkkəbləşmişdi. Qoşunların yeridilməsi, bildiyiniz kimi, Azərbaycan xalqına, respublikaya çox böyük mənəvi zərbə vurdu. Siz buradakı qəbiristanlığı görmüsünüz. Dövlətin öz xalqına qarşı təcavüzünün nə ilə nəticələndiyini görmüsünüz.

Bütün bunlar sonralar da davam etdi və 1992-ci ilin əvvəlində hakimiyyət dəyişdi. 1991-ci ilin axırında seçilmiş prezident istefa verdi. Sonra müvəqqəti rəhbərlik dövrü oldu, prezident seçkiləri elan etdilər və 1992-ci ilin iyun ayında yeni prezident seçildi. Amma bu hakimiyyət bir il yaşadı.

1993-cü ilin may-iyun aylarında Azərbaycanda vəziyyət xüsusilə kəskinləşdi. Elə həmin hakimiyyətdən olan, amma iqtidara gəlmək istəyən qüvvələr bu hakimiyyətə qarşı çıxdılar. Azərbaycanda, əslində vətəndaş müharibəsi başlandı, Gəncədə, burada, Bakıda qan töküldü. Bilirsiniz ki, həmin dövrdə mən Bakıya dəvət olundum və biz Azərbaycanda vəziyyətin sabitləşdirilməsi prosesinə başladıq.

Vəziyyət çətin, mürəkkəb idi. Ancaq biz hər halda vəziyyəti ardıcıl olaraq sabitləşdirə bildik. Ötən dövrün mühüm hadisəsi odur ki, biz 1992-ci il may ayının 12-də, yəni 1988-ci ilin fevralında münaqişənin başlandığı vaxtdan bəri ilk dəfə olaraq, Ermənistanla atəşkəs haqqında saziş imzaladıq. O vaxtdan atəşkəs rejimi mövcuddur, hərbi əməliyyatlar yoxdur. Xarakterik cəhət budur ki, belə uzunmüddətli atəşkəs rejimini digər ölkələrin və beynəlxalq təşkilatların hansısa sülhyaratma, ayırıcı qüvvələri cəlb olunmadan təmin etmək mümkün olur. Əgər siz orada, indi Ermənistan və Azərbaycan Silahlı Qüvvələri arasında təmas xəttinin keçdiyi yerlərin yaxınlığında olsaydınız, görərdiniz ki, Ermənistan silahlı birləşmələri və Azərbaycan Silahlı Qüvvələri bir-birindən 200–300 metr aralı, bir-birinə qarşı dayanmışlar.

Biz bu atəşkəs rejimini dörd ildən artıqdır ki, qoruyub saxlayırıq və hesab edirəm ki, bu, çox mühüm nailiyyətdir. Sazi[192-193]şin bağlanması faktı da, atəşkəs rejimini qoruyub saxlamağın mümkün olması da, şübhəsiz ki, həm Azərbaycanın, həm də Ermənistanın qarşılıqlı səylərinin nəticəsidir. Biz – Azərbaycanın və Ermənistanın prezidentləri dəfələrlə birgə bəyan etmişik ki, böyük sülh sazişi bağlanana, münaqişəyə son qoyulana qədər atəşkəs rejimini qoruyub saxlayacağıq. Baxmayaraq ki, bu, bizim üçün çox ağırdır, çünki Azərbaycan ərazisinin 20 faizi işğal olunub, həmin ərazidə hər şey dağıdılıb, talan edilibdir. O yerlərin sakinləri, - bunlar isə bir milyon nəfərdən çoxdur, - azərbaycanlılar öz yurd-yuvalarından zorla qovulub çıxarılıb. Onlar çox çətin şəraitdə, əksəriyyəti çadırlarda yaşayır. Hesab edirəm ki, sizlərdən kimlərsə bu çadır şəhərciklərinə gedib və bunu bilirsiniz.

Bütün bu vəziyyət indiki keçid dövründə Azərbaycanın həyatını çətinləşdirir. Bunun üstünə əlavə çətinliklər də gəlir. Təəssüf ki, Azərbaycanda hakimiyyəti silah gücünə ələ keçirmək cəhdləri ayrı-ayrı qruplar, siyasi qüvvələr üçün bir xəstəliyə çevrilmişdir. Artıq qeyd etdiyim kimi, 1993-cü ilin iyun ayında əslində vətəndaş müharibəsi getməsinə, Azərbaycanın parçalanmaq təhlükəsi olmasına və sairəyə baxmayaraq, biz bunun qarşısını aldıq. 1994-cü ilin oktyabr ayında dövlət çevrilişinə cəhd göstərildi. Bunu edən Baş nazir 1993-cü ilin iyun ayında o vaxtkı rejimlə münaqişəyə başlamışdı. O, mənim tövsiyəmlə Azərbaycanın Baş naziri təyin edilmişdi, ancaq bu, ona azlıq edirdi. O, silah yolu ilə bütün hakimiyyəti ələ keçirmək istəyirdi və 1994-cü ilin oktyabr ayında belə bir cəhd göstərildi.

Lakin həmin vaxtadək Azərbaycanda vəziyyət artıq sabitləşmişdi, xalq başa düşmüşdü ki, daha belə yaşamaq olmaz. Ona görə də bu cür cəhd göstərildikdə, - o vaxt isə, təəssüf ki, bir çox silahlı dəstələr hələ Baş nazirin ixtiyarında idi, - mən xalqa müraciət etməli oldum və xalq bizi dəstəklədi. Televiziya ilə mənim müraciətimdən sonra indi sizinlə olduğumuz [193-194] bu binanın qarşısındakı meydana gecə təxminən yarım milyon adam toplaşdı və bizi müdafiə etdi.

Əlbəttə, biz bu cinayətkarlarla məsələni aydınlaşdırmalı olduq. Onların hərəsi bir tərəfə qaçdı, bəzilərini yaxalamaq mümkün oldu, bəziləri qaçdılar. Sonra onlardan bir çoxunu müxtəlif ölkələrdə tutmaq və məhkəməyə vermək mümkün oldu.

Buna baxmayaraq, bu, bəzi siyasi qüvvələrə dərs olmadı. 1995-ci ilin mart ayında yeni dövlət çevrilişinə cəhd edildi. Bu cəhd daxili işlər nazirliyinin xüsusi təyinatlı polis dəstəsi tərəfindən olmuşdu. Yeri gəlmişkən, 1994-cü ilin oktyabr ayında Baş nazirlə birlikdə onlar da çevriliş cəhdində iştirak etdilər. Lakin onlar xalqın gəldiyini və mövcud konstitusiya hakimiyyətinin müdafiəsinə qalxdığını gördükdə öz mövqelərini dərhal dəyişdilər və bildirdilər ki, həmin sui-qəsddə iştirak etməmişlər və prezidenti dəstəkləyirlər, hakimiyyəti dəstəkləyirlər.

Bir neçə aydan sonra onlar Azərbaycandakı müəyyən siyasi qüvvələrin, bəzi xarici xüsusi xidmətlərin köməyindən istifadə edərək, hər halda, silahlı çevrilişə getməyi qərara aldılar. Bu, 1995-ci ilin mart ayında baş verdi. Bunun da qarşısını almaq mümkün oldu. O vaxt adamlar həlak oldular - qiyam qaldıranlardan da, hakimiyyəti müdafiə edənlərdən də ölənlər oldu. Qiyamçıların bir çoxu yenidən qaçıb aradan çıxdı, əksəriyyəti artıq bu müddətdə yaxalanmış və məhkəməyə verilmişdir. Bəziləri müxtəlif ölkələrdə gizlənir.

Sonra Azərbaycan prezidentinə qarşı digər terror cəhdləri də oldu. Onlardan ən böyüyü 1995-ci ilin mart ayında baş vermiş terror cəhdidir. O vaxt Azərbaycan prezidentinin təyyarəsini, yəni məni raketlə vurmağa cəhd göstərildi. Onda mən böyük bir nümayəndə heyəti ilə Danimarkaya səfərdən qayıdırdım. Allaha şükür olsun, Allah kömək etdi, onlar bu niyyəti həyata keçirə bilmədilər. Biz bu sui-qəsdin üstünü aç[194-195]dıq. Təəssüf ki, bunlar da Moskvadan idarə edilənlər idi, hərbçilər, generallar idi. Biz raketləri də tapdıq, adamları da tapdıq, hamını tapdıq və məsuliyyətə cəlb etdik.

Başqa terror cəhdləri də olmuşdur, lakin onların da qarşısı alındı. Bu cür ən təhlükəli cəhd 1996-cı ilin dekabrında XTPD-nin qaçıb gizlənə bilmiş üzvləri tərəfindən törədilmişdir. Onlar Rusiya ərazisində gizlənirdilər, Moskvada idilər, sonra Dağıstan ərazisində yaşadılar, Azərbaycan ərazisinə qanunsuz olaraq keçib Bakıya gəldilər. Onların prezidenti cismən məhv etmək yolu ilə hakimiyyəti ələ keçirmək kimi çox ciddi planları vardı. Ancaq bizim hüquq mühafizə orqanları bunun da qarşısını ala bildilər.

Təbii ki, bütün bunlar da birlikdə Azərbaycanda vəziyyəti çətinləşdirir və Azərbaycanın keçid dövrünün xüsusiyyətini digər MDB dövlətlərin keçid dövrünün xüsusiyyətindən müəyyən dərəcədə fərqləndirir.

İndi Azərbaycanda ictimai-siyasi vəziyyət sabitdir və bu sabitlik 1995-ci ilin təxminən axırlarından yaranmışdır. 1995-ci ilin noyabrında biz müstəqil Azərbaycanın ilk Konstitusiyasını qəbul etdik, elə həmin il çoxpartiyalı əsasda, demorkatik prinsiplər əsasında Azərbaycan Parlamentinə seçkilər keçirdik. Parlament işləyir, Konstitusiyamız fəaliyyət göstərir. Biz dövlət quruculuğu, iqtisadiyyatın yenidən qurulması, nəzərdə tutduğumuz bütün tədbirlərin həyata keçirilməsi sahəsində fəaliyyət göstəririk.

Biz lap əvvəldən Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət, cəmiyyət qurmaq vəzifəsini qarşımıza qoymuşıq. Hesab edirəm ki, bununla əlaqədar çox iş görə bilmişik. Ancaq eyni zamanda, siz yaxşı bilirsiniz ki, bu iş çox vaxt tələb edir. Biz bu yolu tutmuşuq və bu yolla gedirik.

İqtisadi sahədə bizim strateji xəttimiz çoxdan müəyyən olunubdur. Bu, bütün sahələrdə iqtisadi islahatlar aparmaq, bazar iqtisadiyyatı prinsiplərini bərqərar etmək xəttidir. He[195-196]sab edirəm ki, bu istiqamətdə, xüsusən mülkiyyətin özəlləşdirilməsi sahəsində çox iş görülmüşdür. Torpaq islahatı haqqında qəbul etdiyimiz və torpağın xüsusi mülkiyyətə verilməsini nəzərdə tutan qanunu çox ciddi addım hesab edirəm. Biz bu qanunu həyata keçiririk və bu, kənd təsərrüfatı sahəsində özünün müsbət nəticələrini verir.

Kiçik və orta müəssisələrin özəlləşdirilməsi artıq həyata keçirilmişdir. Orta müəssisələr hələ tam özəlləşdirilməyibdir. İndi bizim qarşımızda iri müəssisələrin özəlləşdirilməsi proqramı durur. Birincisi, qeyd etdiyim hadisələrlə əlaqədar biz bu məsələdə müəyyən qədər ləngimişik. Çünki 1993-cü ildə heç bir islahat həyata keçirə bilmədik. Bunu 1994-cü ildə də edə bilmədik. İslahatların aparılmasına əslində 1995-ci ildə başlamışıq. Ancaq eyni zamanda biz harada nə edildiyinə baxır, yaxşı təcrübəni götürməyə, pis olanı isə tətbiq etməməyə çalışırıq. Ona görə də ləngiməyimizin bu mənada köməyi olur ki, bizə oxşar digər respublikaların təcrübəsini görür və mümkün qədər az səhv etməyə çalışırıq.

İqtisadiyyat sahəsində çox mühüm istiqamətlərdən biri xarici investisiyaların Azərbaycana cəlb olunmasıdır. Hesab edirəm ki, Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarının müştərək işlənilməsi barədə dünyanın müxtəlif ölkələrinin, - Avropa ölkələrinin, ABŞ-ın, Rusiyanın və digər ölkələrin, - iri neft şirkətləri ilə böyük müqavilələr imzalamaqla biz bu sahədə çox şeyə nail olmuşuq. Bu müqavilələr artıq həyata keçirilir, Azərbaycana investisiya axınını, yeni iş yerlərinin açılmasını təmin edir və şübhəsiz ki, gələcək inkişaf üçün çox yaxşı baza yaradır.

Bizim islahatlarımız xarici ticarəti, iqtisadiyyatın bütün sahələrini də əhatə edir və bir də təkrar edirəm, öz müsbət nəticələrini verir. Biz maliyyə sahəsini sabitləşdirə bilmişik. 1994-cü ildə bizdə inflyasiya çox yüksək idi. Az olsa da, 1995-ci ildə də var idi. Amma 1996-cı ildən başlayaraq bizdə, əslin[196-197]də, inflyasiya yoxdur. İnflyasiyanın illik səviyyəsi 2-3, maksimum 4 faizdir ki, bu da tamamilə normal hal sayılır.

Bizim valyutamızın - manatın məzənnəsi sabitdir, hətta dollara nisbətdə bir qədər möhkəmlənir.

Bizim ölkəmiz açıqdır, sərmayəçilər olduqca çoxdur, ticarət tam sərbəstdir. Mən artıq dedim, bizimlə müqavilələr bağlamış iri şirkətlərdən əlavə, çoxlu digər şirkətlər də bu müqavilələrin həyata keçirilməsinə qoşulur. Məsələn, çox da böyük ölkə olmayan Norveçi götürək, bizdə onun 70-dək şirkəti işləyir. 15-dən çox iri şirkətin daimi ofisi var. Mən hələ ABŞ, Böyük Britaniya şirkətlərini və başqalarını demirəm.

Rusiya bizim müqavilələrdə əsasən «LUKoyl» şirkəti vasitəsilə iştirak edir. Biz Rusiyanın başqa şirkətlərini də dəvət etmişdik. «Rosneft» əvvəlcə böyük maraq göstərirdi, biz hətta ona müvafiq yataq da təklif etmişdik. Ancaq, nədənsə, sonra uzaqlaşdılar. Biz Rusiya şirkətlərinə də təkliflər edirik. Ancaq, şübhəsiz ki, onların investisiya imkanlarından söhbət gedir. Hiss edirəm ki, hazırda «LUKoyl»un vəsaiti var, ona görə də bizim 4 müqaviləmizdə iştirak edir. Bir il bundan öncə, iyul ayının 3-də mən Moskvada rəsmi səfərdə olarkən, Xəzərin Azərbaycan sektorunun şimal hissəsindəki bir yataq barədə Kremldə hətta «LUKoyl» ilə xüsusi müqavilə imzaladıq və indi o, orada işləri genişləndirir. Həmin yataqda «LUKoyl» tam sahibkardır, qalan müqavilələrdə isə müxtəlif həcmdə payı var. Burada «LUKoyl»un böyük ofisi var, deyəsən, birini də tikir. Müxtəlif sahələrdə Rusiyanın digər şirkətləri də işləyirlər. Amma mən indi daha çox neft sahəsi haqqında danışıram.

Demokratiyaya, siyasi plüralizmə gəldikdə, biz hesab edirik ki, bunlar bizdə tamamilə mövcuddur. Bizdə 30-dək siyasi partiya qeydə alınıbdır. Doğrudur, onların əksəriyyəti kiçik partiyalardır, ola bilsin, ancaq adları vardır. Orada bir neçə adam var. Amma bu partiya nə vaxtsa qeydə alınıb, bəzən [197-198] haradasa, nəsə deyir. Nə demək olar, partiyadır. Partiya kimi mövcud olan bir neçə partiya var, lakin onlar qeydiyyatdan keçmək imkanına malik deyildir, çünki müvafiq şərtləri yerinə yetirə bilmirlər.

Bizdə olduqca çox qəzet var. Siz jurnalistsiniz, bu sahə sizə daha yaxşı məlumdur. Onların hamısı, ümumiyyətlə, özəl qəzetdir, əksəriyyəti müxalifətə mənsubdur. Dövlətin mövqeyini üç qəzet - «Azərbaycan», «Xalq qəzeti» və «Respublika» işıqlandırır. Qalan bütün qəzetlər özəl şəxslərə və ya siyasi partiyalara mənsubdur. Bizdə bəzi siyasi partiyaların 4-5 qəzeti var və onlar fəal çıxış edirlər.

Mətbuat azadlığı tamamilə təmin edilmişdir, söz, dini etiqad, vicdan azadlığı təmin olunmuşdur. Azərbaycan çoxmillətli respublikadır və biz bunu özümüz üçün şərəf hesab edirik. Milliyyətindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşları bərabər hüquqlara malikdirlər. Bilirəm, Rusiyanı rus əhalisi, rusdilli əhali həmişə maraqlandırır və narahat edir. Lakin bu barədə danışmaq istəmirəm. Qoy bu barədə Azərbaycanda yaşayan ruslar danışsınlar. Hesab edirəm ki, nəinki ruslar, həm də milli mənsubiyyətindən asılı olmayaraq hamı burada normal yaşayırlar, problem yoxdur. Bizdə yəhudilər də yaşayır. Qərb ölkələrinin, İsrailin nümayəndələri buraya tez-tez gəlir, onlarla görüşür, sonra isə mənim yanımda olur və həmişə də razı qaldıqlarını söyləyirlər ki, burada yaşayan yəhudilər sıxışdırılmır, heç bir təzyiqə məruz qalmırlar. Ruslar, ukraynalılar, digər millətlər də beləcə yaşayırlar.

Bizdə üç konfessiya var. Bildiyiniz kimi, ölkəmizdə əsas din islam dinidir. Burada pravoslav kilsəsi, yəhudi kilsəsi - sinaqoq və konfessiya da var. Mənə xoşdur ki, bizim bu dini idarələrin başçıları öz aralarında çox sıx əlaqə saxlayırlar və mən onları müxtəlif qəbullarda, səfirliklərdə tez-tez bir yerdə görürəm. Onlar həmişə bir yerdədir, öz aralarında yaxşı münasibət saxlayırlar. Demək istəyirəm ki, Azərbaycanda milli əda[198-199]vət, milli ziddiyyətlər qətiyyən yoxdur. Mən bunu da çox mühüm nailiyyət sayıram. Halbuki, o ağır illərdə - 1989-cu, 1990-cı, 1991-ci, 1992-ci illərdə Azərbaycanın rus, rusdilli əhalisi buradan köçüb gedirdi. 1993-cü ildən sonra bu köç-köç nəinki dayandırıldı, hətta, mənə deyilənlərə görə, köçüb getmiş olan bəzi rusdilli sakinlər yavaş-yavaş geri, bura qayıdırlar.

Zənnimcə, fəxr edə biləcəyimiz başlıca cəhət bundan ibarətdir ki, dalbadal bir neçə il ərzində adamların fövqəladə vəziyyət rejimi şəraitində yaşadıqları, Bakıda və bir çox digər şəhərlərdə daim qadağan saatı qoyulduğu, hər tin başında avtomatçıların durduğu, axşamlar adamların küçəyə çıxa bilmədikləri Azərbaycanda indi adamların azad-asudə yaşaması, sərbəst istirahət etməsi və gündüz də, gecə də, səhər də, axşam da qorxub-çəkinmədən hərəkət etməsi üçün şərait yaradılmışdır.

Əlbəttə, iqtisadi vəziyyət keçid dövrünün şəraitinə uyğundur. Ancaq məmnunluqla demək istəyirəm ki, biz 1996-cı, 1997-ci illərdə, 1998-ci ilin ötən aylarında iqtisadiyyatda artıma malik olmuşuq. Təxminən 1989-1990-cı illərdən bəri Azərbaycanda sənaye istehsalı, daxili ümumi məhsul və digər iqtisadi göstəricilər hər il aşağı düşürdü. Tənəzzülün sürəti çox yüksək idi. Sənaye istehsalı və ya ümumi daxili məhsul istehsalı hər il 20-25 faiz azalırdı.

1995-ci ilin axırı - 1996-cı ilin əvvəlində biz bunu dayandıra bildik. O vaxtadək biz azalmanın sürətini aşağı salırdıq, sonra isə azalmanı dayandırdıq. 1996-cı ildə həm ümumi daxili məhsul, həm də sənaye məhsulu istehsalının bir qədər artımına nail olduq. 1997-ci ildə ümumi daxili məhsulun artımı 8,5 faiz olmuş, sənaye istehsalı isə təxminən 1,3 faiz artmışdır. 1998-ci ilin ötən ayları ərzində bu göstəricilər daha da yüksək olmuşdur. Hesab edirəm ki, bu ilin axırında 1997-ci ildəkindən daha yaxşı göstəricilər əldə edəcəyik. [199-200]

Şübhəsiz ki, bütün bunlar insanların həyat səviyyəsinə öz təsirini göstərir. Nəzərə alsaq ki, bir milyon qaçqınımız var, onların əksəriyyəti işsizdir, insanların hamısına istədikləri həyat səviyyəsini təmin etmək bizim üçün çətindir. Bununla belə, son iki ildə biz əmək haqqını ardıcıl olaraq artırmışıq. Ən başlıcası isə, bizdə qiymətlər sabitdir, ərzaq və sənaye malları sarıdan qıtlıq yoxdur, çeşidi də çoxdur və sairə. Bunların hamısı insanların həyat səviyyəsini ümumən yüksəltməyə imkan verir.

Biz prezident seçkilərinə gedirik. Bilirsiniz ki, Mərkəzi Seçki Komissiyası Azərbaycan prezidentinin seçkilərini oktyabrın 11-nə təyin etmişdir, çünki oktyabrın 10-da mənim səlahiyyət müddətim qurtarır. Seçkilər də oktyabrın 11-nə təyin olunmuşdur. Biz seçkilərə tam demokratiya prinsipləri əsasında gedirik. Müxalifətdəki partiyalar özlərini bir qədər şıltaq aparırlar. Əlbəttə, hamısı yox. Hansısa prinsipsiz zəmində birləşmiş bir qrup var. Eybi yoxdur. Hesab edirəm ki, seçkilərin azad, ədalətli keçirilməsi təmin olunacaq, seçkilərin demokratik, azad və ədalətli keçirilməsi üçün hər cür şərait yaradılacaqdır. Bu, təmin olunacaqdır. Hazırkı prezident kimi, mən bu öhdəliyi öz üzərimə götürürəm və onu təmin etmək üçün hər şeyi edəcəyəm.

Giriş sözü kimi deyə biləcəyim təxminən bunlardır. Düzü, danışmaq istəmirdim, amma elə alındı ki, ola bilsin, çox danışdım. Ancaq, eyni zamanda, artıq heç nə demədim. Bəlkə də dediklərim sizə məlumdur, amma yəqin ki, bunları mənim dilimdən eşitməyin əhəmiyyəti var.

İndi isə sizi dinləməyə hazıram.

**«Bek» qəzetinin müxbiri**, **Moskva**: Cənab prezident, biz ölkənizin bir sıra bölgələrinə getdik və əmin olduq ki, Siz xalq arasında çox məşhursunuz. Bununla əlaqədar belə bir sual vermək istərdim: Siz prezident seçkilərinə hansı hisslərlə gedirsiniz? Deyək ki, Rusiyada olduğu kimi, gələcəkdə siyasi varis haqqında məsələ Sizin də qarşınızda durur mu? [200-201]

**H e y d ə r Ə l i y e v**: Seçkilərə hansı hisslərlə gedirəm? Mən bunu demişəm və bu gün də fürsətdən istifadə edib deyirəm ki, öz namizədliyimi irəli sürmürəm. Hətta 1993-cü ildə də belə olmuşdu.

Siz tarixi bilirsiniz. 1993-cü ildə Azərbaycanda, Bakıda vətəndaş müharibəsi başlayanda məni Naxçıvandan buraya dəvət etdilər. Mən 1990-cı ilin yayından 1993-cü ilin iyun ayına qədər Naxçıvanda yaşamışam. Tərcümeyi-halım sizə məlumdur, buna vaxt sərf etmək istəmirəm. Mən 1987-ci ilin oktyabr ayında Sov.İKP Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrindən getdim, Moskvada yaşayırdım, təqiblərə məruz qalırdım. Bakıya qoşun yeridiləndə, 1990-cı il yanvar ayının 21-də mən buna qarşı etirazla çıxış etdim. Bundan sonra mənə qarşı təzyiqlər daha da çoxaldı.

10 gündən sonra bəzi qəzetlərdə, ən əvvəl, o vaxt ən nüfuzlu olan «Pravda» qəzetində tibb elmləri doktoru Əfəndiyevin imzası ilə mənim haqqımda «Əliyevçilik və şirin zəmanələr üçün fəryad» sərlövhəsi altında bütöv bir səhifəlik məqalə verildi. Əfəndiyev iki gündən sonra hər yerə teleqram vurub bildirdi ki, onun bu məqaləyə heç bir dəxli yoxdur. Lakin mənə hər cür şər-böhtan atırdılar. Ondan əvvəl də atırdılar, sonra isə daha çox iftiralar yağdırmağa başladılar, çünki mən o vaxt Qorbaçov başda olmaqla Siyasi Büronun, Sov.İKP MK-nın həyata keçirdiyi aksiyaya qarşı etiraz edirdim. Buna görə də həmin təqiblər məni Moskvadan çıxıb getməyə vadar etdi.

Mən Bakıya gəldim, amma uzun illər ərzində yaşayıb işlədiyim və Bakı üçün, Azərbaycan üçün çox işlər gördüyüm doğma şəhərimdə mənə yaşamağa imkan vermədilər. Bir-iki gündən sonra Bakı şəhərini də tərk edib Naxçıvana getməli oldum. Naxçıvan o vaxtda da təcrid edilmişdi, blokadada idi, indi də belədir. Mən orada 1993-cü ilədək yaşadım. 1993-cü ildə məni dəvət etdilər və artıq beş ildir buradayam. [201-202]

1993-cü ildə mən buraya gələndə burada da vəziyyət çox mürəkkəb idi, tək qalmışdım-prezidenti əvəz edirdim, parlamentin sədri idim, Baş nazir yox idi. Sonra mən Baş nazir təyin etdim. Lakin siz onun kim olduğunu bilirsiniz. Mənim üçün ağır idi. Buna baxmayaraq, legitim hakimiyyətə malik olmaq üçün prezident seçkiləri təyin etməli oldum. Oktyabrda seçkilər keçirildi. Amma öz namizədliyimi bundan əvvəl də irəli sürməmişdim. Mən dedim: Kim istəyirsə, qoy o da öz namizədliyini irəli sürsün.

Ancaq mənim namizədliyimi irəli sürdülər. Mən razılıq verdim və seçildim. Bunu bu gün də deyirəm. Hesab edirəm ki, beş ildə Azərbaycanda çox işlər görmüşəm. Nə kimi işlər gördüyümü sizə danışdım. Ona görə də indi mən yenidən prezident seçilməyim uğrunda mübarizə aparmaq istəmirəm. Əgər mən ölkəyə lazımamsa, öz xalqıma lazımamsa, onda seçkilərdə iştirak etməkdən boyun qaçırmayacağam. Mən seçkilərə məhz bu hisslərlə gedirəm. Ümidvaram ki, seçki kampaniyasında iştirak etsəm, mənə səs verəcəklər. Hər halda, prezident seçilməyim üçün lazım olan miqdarda səs verəcəklər.

**L a t v i y a t e l e v i z i y a s ı n ı n m ü x b i r i**: Necə bilirsiniz, Ermənistan-Azərbaycan münaqişəsi necə inkişaf edəcəkdir? Görüşdüyümüz adamlar təsdiq edirlər ki, bu ərazilər işğal olunmuşdur və qaytarılmalıdır. Artıq neçə illərdir antisanitariya şəraitində, çox pis şəraitdə yaşayan qaçqınları gördük. Yəni qarşıya bir az siyasi sual çıxır: Onlar hələ nə qədər bu cür şəraitdə yaşayacaqlar?

**H e y d ə r Ə l i y e v**: Siz özünüz hər şeyi gördünüz. Bu, bizim faciəmizdir. Həqiqətən, onlar uzun müddətdən bəri belə şəraitdə yaşayırlar. Çoxları bu cür şəraitdə təxminən altı ildir yaşayır. Çox ağırdır. Bununla belə, siz Azərbaycan xalqının nə qədər dözümlü, sülhsevər, dinc xalq olduğunu yəqin qiymətləndirə bilərsiniz. Azərbaycanlılar heç kəsə basqın etmə[202-203]yiblər. Azərbaycan xalqı heç kəsin - nə Ermənistanın, nə Gürcüstanın, nə Rusiyanın, nə də İranın ərazisinə göz dikməyibdir. Mən həmsərhəd və qonşu olduğumuz ölkələri nəzərdə tuturam.

Keçmişdə Azərbaycanın böyük ərazisi olmuşdur. Lakin müstəqillik əldə edilən vaxtadək hər bir ölkənin, o cümlədən də Azərbaycanın öz sərhədləri var idi. Biz məhz bu sərhədlər daxilində yaşamaq istəyirik. Beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmış bizim bu dövlət sərhədləri pozulub və Azərbaycan ərazisinin 20 faizini Ermənistan silahlı birləşmələri işğal edibdir. Həmin torpaqlarda yaşa-

mış azərbaycanlılar isə oradan qovulmuşlar. Çoxları məhv edildi, çox adam həlak oldu. Sağ qalanlar isə oradan köçüb getdi və çadırlarda yaşayırlar.

Əlbəttə, onlar öz yerlərinə qayıtmalıdırlar. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Ərazi bütövlüyü prinsipi Helsinki aktının, Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in əsas prinsipidir. Biz istəyirik ki, dünya birliyi və başqa ölkələr, o cümlədən münaqişədə olduğumuz Ermənistan bu prinsipə, nəhayət, hörmət etsinlər. Çünki əgər bu gün həmin prinsip Azərbaycan barəsində pozularsa, sabah Qazaxıstan barəsində, birisi gün isə hər hansı digər ölkə, elə Rusiyanın özü barəsində pozulacaqdır.

Buna görə də biz hesab edirik ki, işğal olunmuş torpaqlar azad edilməlidir, öz yaşayış yerlərindən qovulmuş adamlar torpaqlarına qayıtmalıdırlar. Onların orada necə yaşayacağı isə gələcəyin məsələsidir. Misal üçün, Füzuli rayonunda Ermənistan silahlı birləşmələri təxminən 23 kəndi işğal etmiş və dağıtmışdır. Sonra, 1994-cü ilin əvvəllərindən döyüş əməliyyatları zamanı qoşunlarımız Ermənistan silahlı birləşmələrini oradan vurub çıxartdılar. Orada hər şey dağıdılmışdı. Dünya Bankı, Avropa Birliyi bizə yardım göstərirlər və orada artıq çox şey bərpa edilmişdir. Bərpa olunmuş kənd və qəsə[203-204]bələrə 40 minədək adam qayıtmışdır. Bir sözlə, beynəlxalq təşkilatların, o cümlədən Avropa Birliyinin iqtisad komissiyasının, Dünya Bankının bu işğal olunmuş ərazilərin bərpasına dair proqramı var. Belə düşünürəm ki, bu, vaxtla bağlı işdir və böyük problem olmayacaqdır. Ən başlıca problem işğal olunmuş əraziləri azad etməkdən, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməkdən ibarətdir ki, adamların öz yaşayış yerlərinə qayıtmağa imkanı olsun.

Bundan ötru nə edilir? Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə aradan qaldırmaq üçün 1992-ci ildə yaradılan ATƏT-in Minsk qrupu bu istiqamətdə işləyir. Təəssüf ki, hələlik real nəticələr yoxdur. Lakin 1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon zirvə görüşündə münaqişənin sülh yolu ilə tənzimlənməsinə dair prinsiplər qəbul edildi. Bunlar üç prinsipdən ibarətdir: Birincisi - Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünün tanınması; ikincisi - Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində özünüidarə statusu verilməsi; üçüncüsü - Dağlıq Qarabağın bütün əhalisinin, həm erməni, həm də azərbaycanlı əhalisinin təhlükəsizliyinə təminat verilməsi.

Biz bu prinsiplərlə razılaşdıq. ATƏT-in həmsədrləri - Rusiya, ABŞ və Fransa təxminən 1997-ci ildən başlayaraq həmin prinsiplər əsasında təkliflər hazırlamağa başladılar. 1997-ci ilin sentyabr ayında bu təkliflər həm Azərbaycana, həm də Ermənistana təqdim edildi. Biz bu prinsiplərlə razılaşdıq, hərçənd onları özümüz üçün ideal saymırıq. Lakin bu münaqişəyə son qoymaq, Ermənistanla Azərbaycan arasında sülh yaratmaq, bu vəziyyətdən çıxmaq üçün biz həmin prinsiplərlə razılaşdıq.

Ermənistan tərəfi bu prinsipləri uzun müddət müzakirə etdi. Sonra sabiq prezident Ter-Petrosyan razılıq verdi ki, bu prinsiplər nizamasalmanın əsası kimi götürülsün. Amma Ermənistanda rəylər uyğun gəlmədi. 1997-ci ilin oktyabr ayında [204-205] Strasburqda bizim görüşümüz - Ermənistan prezidenti Levon Ter-Petrosyanın və Azərbaycan prezidentinin görüşü oldu. Orada biz belə birgə bəyanat verdik ki, Ermənistan ilə Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına sadiq qalırıq və ATƏT-in Minsk qrupu həmsədrlərinin təkliflərini əsas etibarı ilə qəbul edirik.

Lakin sonra bu, Ermənistanda öz inkişafını tapmadı. Bu, sizə məlumdur. Ona görə də buna vaxt sərf etmək istəmirəm. İş ilişib qalmışdır. ATƏT-in həmsədrləri - Rusiya, Birləşmiş Ştatlar və Fransa regionda - Ermənistanda da, Dağlıq Qarabağda da, Azərbaycanda da oldublar. Onlar öz məsləhətləşmələrini davam etdirirlər və biz onların tərəfindən yeni tədbirlər gözləyirik.

Aprelin 29-da Moskvada MDB dövlət başçılarının iclası keçirilərkən mən Ermənistanın yeni prezidenti cənab Robert Koçaryanla görüşdüm. Biz onunla ətraflı danışdıq, öz baxışlarımızı şərh etdik. Sonra mənim onunla Krımda qısa görüşüm oldu. Bir sözlə, bizim aramızda artıq ünsiyyət yaranmışdır. Biz hesab edirik ki, bu prinsiplər, ATƏT-in həmsədrlərinin təklifləri əsasında irəliləməliyik. Başqa yol yoxdur.

Bildiyiniz kimi, son vaxtlar orada verilmiş bəyanatlar nəinki sülh prosesinə kömək etmir, əksinə, böyük narazılıq doğurmuşdur. Lakin həmsədrlər bu bəyanatlara öz münasibətlərini bildirdilər. Belə düşünürəm ki, biz irəliləməliyik. Başqa yol yoxdur. Biz məsələnin sülh yolu ilə həll edilməsinə tərəfdarıq. Biz Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək özünüidarə statusu verilməsinə tərəfdarıq. Biz heç vaxt razılaşa bilmərik ki, ərazimizin hər hansı bir hissəsi başqa ölkənin əlinə keçsin. Dağlıq Qarabağın müstəqilliyi ilə heç vaxt razılaşa bilmərik və heç vaxt razılaşmayacağıq ki, Azərbaycanın ərazi bütövlüyü həmişəlik pozulsun. Biz bununla razılaşa bilmərik. Bütün bu hallar müvəqqəti xarakter daşıyır. Belə düşünürəm ki, beynəlxalq hüquq, dünya birliyi və BMT-[205-206]nin, ATƏT-in prinsipləri, əlbəttə, bizim səylərimizlə – Azərbaycanın və Ermənistanın səyləri ilə münaqişənin sülh yolu ilə aradan qaldırılmasını təmin etməlidir.

Zənnimcə, məsələ sülh yolu ilə həll olunmayınca, bu adamlar, necə deyərlər, dözməlidirlər. Bilirsinizmi, indi biz onlar üçün abad evlər tikə bilmərik. Onlar öz yaşayış yerlərinə qayıtmalıdırlar. Bizim belə imkanımız, sadəcə olaraq, yoxdur. Malik olduğumuz imkanlar onlara kömək göstərməyə imkan verir ki, onlar yaşasınlar. Evlər ucaltmağa, nə isə başqa işlər görməyə imkanımız, sadəcə olaraq, yoxdur. Buna görə də mən bütün bu qaçqınlara, zərər çəkmiş insanlara, bu cəsur adamlara, öz ölkəsinin vətənpərvərlərinə minnətdaram ki, onlar bu cür vəziyyətə dözürlər. Mən onlara minnətdaram ki, onlar bu məsələnin sülh yolu ilə həll ediləcəyinə inanırlar. İnanırlar ki, biz onların öz doğma yerlərinə qayıtmasına nail olacağıq.

«**İ z v e s t i y a» q ə z e t i n i n m ü x b i r i**: Heydər Əliyeviç, 1993-cü ildə «İzvestiya» qəzeti Milli Məclisdə Sizin ilk çıxışınız barədə yazmışdı. Qəzet yazmışdı ki, qrossmeyster Əliyev dərs verir. Sizin dərslərin nəticələrini biz iki rayonun - qruppa ilə getdiyimiz Quba və Xaçmazın timsalında gördük. Respublika həqiqətən yüksəlişdədir və ona diqqət olduqca böyükdür.

Mən xəbərlər barəsində danışmaq istəyirəm. Biz burada olarkən öyrəndik ki, «İzvestiya» qəzeti Azərbaycanda cəmi 300 nüsxə tirajla yayılır. Mən redaksiyadan «İzvestiya»nın burada müxbir məntəqəsinin və nümayəndəliyinin açılması, yaxud başqa cür desək, «İzvestiya»nın Azərbaycana qayıtması məsələsini öyrənmək tapşırığı almışam. Çünki bir vaxtlar biz burada 16 min tirajla çıxırdıq. Bununla əlaqədar Sizdən kömək göstərməyinizi xahiş edirik. Odur ki, belə bir sualım var: Rusiyanın kütləvi informasiya vasitələrinə, o cümlədən «İzvestiya» qəzetinə münasibətiniz necədir, hansı Rusiya qəzetlərini oxuyursunuz? [206-207]

**H e y d ə r Ə l i y e v**: Sualınızın birinci hissəsinə cavab verirəm ki, sizin burada öz müxbir məntəqənizi açmağınıza və «İzvestiya»nın Azərbaycanda daha böyük tirajla yayılması üçün tədbirlər görməyinizə etirazım yoxdur. Ümumiyyətlə deyim ki, ölkəmiz bütün ölkələrin və ən əvvəl Rusiyanın mətbuatı üçün açıqdır. Azərbaycanda Rusiyanın bir çox qəzetlərini oxuyurlar. Yeri gəlmişkən, bir çox adamlar, zənnimcə, bunun hesabına qazanırlar. Onlar Rusiya qəzetlərini Moskvada alıb buraya gətirir, satır və bunun hesabına qazanırlar. Bu da pis deyil. Həm adamlar qazanc əldə edirlər, həm də bu qəzetlərə tələbat ödənilir. Odur ki, bizdə hər hansı qəzet yayıla bilər. Heç kəs üçün heç bir məhdudiyyət, heç bir qadağa yoxdur.

Rusiya qəzetlərinə gəldikdə isə, bilirsinizmi, bu məsələyə toxunmaq istəmirəm. Hər qəzetin öz ləyaqəti və nöqsanı var. İndi mətbuat azaddır. Belə düşünürəm ki, Rusiyada da, Azərbaycanda da bəzi jurnalistlər söz, mətbuat azadlığından sui-istifadə edirlər. Bilmirəm, Rusiyada necədir, lakin bizdə bəzən qəzetlərdə müxtəlif adamların barəsində, prezidentin ünvanına təhqirlər yazırlar. Axı mən onları məhkəməyə verəsi və məhkəmədə çəkişəsi deyiləm. Nə deyirəm, yazırlar, qoy yazsınlar. Belə düşünürəm ki, hər kəs öz tərbiyəsinin, öz mədəniyyətinin səviyyəsinə uyğun olaraq hərəkət edir. Əgər mədəniyyətsiz, tərbiyəsiz adamlar həm də qəzet nəşr edə bilərsə və təhqiramiz ifadələr işlədərsə, biz siyasi plüralizmə, mətbuat azadlığına sabit şərait yaratmaq üçün bunların hamısına dözməliyik.

Buna görə də Moskva qəzetləri barəsində bir söz deməyəcəyəm. İndi mənim, sadəcə olaraq, imkanım yoxdur. İndi Moskvada nə qədər qəzet çıxır. Elə düşünürsünüz ki, onları oxumağa mənim imkanım var?

Hansı qəzetləri oxuyuram? Mən Moskva qəzetlərini daim oxumuram. Keçmişdə elə idi ki, səhərlər mütləq oxuyurdum, [207-208] məsələn, «Pravda»nı. Mən öz keçmişimdən heç vaxt imtina etmirəm və əksinə, keçmişimlə fəxr edirəm. Məsələn, mən bu qəzeti çox sevirdim və mən Azərbaycanda və ya Moskvada işləyərkən bu qəzetin səhifələrində mənim məqalələrim, yaxud fəaliyyətim haqqında məlumatlar dəfələrlə dərc edilmişdi. Lakin Azərbaycana qoşun yeridilməsinə qarşı mənim çıxışımdan sonra bu qəzet həmin qoşunların yeridilməsi barədə düşünməkdənsə, alçaq bir yol tutub mənə böhtanlar yağdırmağa başladı. 1990-cı ildə mən uzun illər ərzində tanış olduğum qəzetin redaktoru Frolova zəng vurub dedim: « Bura baxın, təkzib üçün və ya öz fikrimi bildirmək üçün mənə qəzetin səhifəsində iki-üç xətlik yer verin». O cavab verdi: «Biz bunu edə bilmərik». Mən o vaxtlar televiziyaya rəhbərlik edəndə və həmçinin uzun illər ərzində birlikdə işlədiyimiz Nenaşova zəng vurdum. Dedim: «Öz münasibətimi bildirmək üçün mənə iki dəqiqə vaxt verin». O cavab verdi: «Siz ki bizim qaydaları bilirsiniz. Olmaz. Siz ki özünüz işləmisiniz. Biz bunu edə bilmərik». Əlbəttə, bundan sonra «Pravda»nı daha oxumadım. Əgər burada «Pravda»nın nümayəndəsi varsa, qoy inciməsin. Mən o qəzeti oxumuram. Ola bilsin bu, mənim məsələyə subyektiv münasibətimdir. Hər bir adamın öz subyektiv hisslərini ifadə etməyə haqqı var.

Ona görə də mənim nəinki Rusiya qəzetlərini, hətta yerli qəzetləri oxumağa imkanım, sadəcə olaraq, yoxdur. Hərdən elə məqalələri oxuyuram ki, onlar məndə maraq doğurur. Mənə deyirlər ki, maraqlı bir məqalə var. Mən onu oxuyuram. Deyə bilərəm ki, səhərlər bütün qəzetləri mütləq gözdən keçirirəm. Mütləq. Yəni mən onları oxumuram, sadəcə olaraq, nəzərdən keçirirəm. Baxıram, görüm nə kimi mövzu var, nə kimi sərlövhə var. Hər hansı məqalə diqqətimi cəlb etdikdə mən onu oxuyuram. Buna təxminən bir saat vaxt sərf edirəm. Sadəcə olaraq, vaxtım yoxdur. Qalanlarına seçib baxıram. Əgər mənə desələr ki, hər hansı faydalı və ya maraqlı məqalə, [208-209] yaxud bizdə narazılıq doğuran məqalə var, onda mən bu məqalə ilə, şübhəsiz, tanış oluram ki, münasibəti müəyyənləşdirim – bu, narazılıq doğrudur, ya yox. Bax, belə.

**M o l d o v a r a d i o s u n u n M o s k v a m ü x b i r i**: Görünür, mən əvvəlcə Lənkəranda 26 fermerlə görüşdə bizə verilmiş bir tapşırığı yerinə yetirməliyəm. Bizdən xahiş etdilər ki, Heydər Əliyeviçi bu diyara dəvət edək. Onlar buna çox ümid bəsləyirlər. Hesab edirəm ki, tapşırığı yerinə yetirdim.

**H e y d ə r Ə l i y e v**: Sağ olun. Televiziya qarşısında deyirəm ki, yaxın vaxtlarda oraya mütləq gedəcəyəm.

**M o l d o v a r a d i o s u n u n M o s k v a m ü x b i r i**: Siz MDB-nin gələcəyini necə təsəvvür edirsiniz? Bu, bir sual. İkinci sual: Bu yaxınlarda Rumıniya prezidenti Emil Konstantineskunun Azərbaycana rəsmi səfəri oldu. Nə kimi danışıqlar aparıldı və hansı sazişlər imzalandı?

**H e y d ə r  Ə l i y e v**: MDB-nin gələcəyi barədə. Siz MDB dövlət başçılarının noyabr ayında Kişinyovda keçirilmiş görüşünü xatırlayırsınız. O vaxt MDB-nin mövcudluğu ərzində ilk dəfə olaraq MDB-nin vəziyyəti çox açıq, tənqidi təhlil edildi. Bu təhlil ondan ibarətdir ki, biz hamımız MDB-nin vəziyyətindən, fəaliyyətindən narazı idik. Biz hamımız MDB Dövlət Başçıları Şurası sədrinin bu işi necə həyata keçirməsindən narazı idik. O vaxt Rusiya prezidenti Boris Yeltsin axırda dedi: «Bəli, siz bütün bunları mənim haqqımda söyləyirsiniz, gəlin tədbirlər görək».

Sonra dövlət başçılarının iclası aprelin 29-da Moskvada oldu. Onda biz ancaq təşkilati məsələ ilə kifayətləndik, forum hazırlanması barədə razılığa gəldik. Forumu iyul ayında keçirmək istədik. İndi isə deyirlər ki, payızda keçirilsin.

MDB, bax, belə bir vəziyyətdədir. Hesab edirəm ki, əgər MDB-nin fəaliyyəti beynəlxalq təşkilatların dünya praktikasında təşəkkül tapmış prinsiplərinə uyğun gələrsə, MDB yaxşı beynəlxalq orqan ola bilər. Təəssüf ki, bu, MDB-nin fəaliyyə[209-210]tində hələlik yoxdur. Belə beynəlxalq təşkilatlar hüquq bərabərliyini, bir-birinin suverenliyinə hörmət bəslənməsini və mənafelərin uyğunlaşdırılmasını tələb edir. Məsələn, mən MDB-nin fəaliyyətindən narazıyam. Mən bunu hələ 1993-cü ilin dekabr ayında, biz Aşqabadda görüşərkən demişdim.

Başa düşürsünüzmü, qəribə bir haldır - MDB-yə daxil olan iki dövlət bir-biri ilə hərbi münaqişədədir, MDB məkanında çoxlu münaqişə var. Gürcü-abxaz münaqişəsi var. Rusiyanın özündə, Şimali Qafqazda münaqişə var. İki dövlət arasında da münaqişə var. O ölkələrdə münaqişə ölkənin daxilində gedir. Məsələn, Gürcüstanda bu, Gürcüstanın daxili işidir. Yaxud, Şimali Qafqazda münaqişə Rusiyanın daxili işidir. Burada isə MDB-yə daxil olan iki dövlət bir-biri ilə münaqişədədir. Əgər beynəlxalq təşkilat buna fikir vermirsə, buna lazımınca münasibət göstərmirsə, üstəlik, ötən ilin əvvəllərində müəyyən edildiyi kimi, atəşkəsin üçillik dövrü ərzində Rusiya Ermənistana bir milyard dollarlıq silah göndəribsə, onda MDB necə etimad doğura bilər? Həm də bu məsələni Moskvanın özündə qaldırdılar, bu işi elə oradaca üzə çıxardılar. Bizim bundan xəbərimiz yox idi, silahın haradan haraya daşındığını öyrənmək üçün nə Rusiyada, nə də Ermənistanda kəşfiyyat aparmırdıq. Bu işi Rusiya Mudafiə Nazirliyi üzə çıxartdı. Dövlət Duması bu məsələni müzakirə etdi, prokurorluğa tapşırıq verilməsi haqqında qərar qəbul etdi. Prokurorluqda bütün sənədlər var ki, bir milyard dollar məbləğində bu silahlar qanunsuz, qeyri-leqal, özü də təmənnasız olaraq verilmişdir. Belə isə bu münaqişəni necə tənzimləmək olar? Biz atəşkəsə nail olduq ki, daha müharibə olmasın, bu yandan isə Rusiyanın Müdafiə Nazirliyi Ermənistanı silahlandırır.

Yaxud da, məsələn, - bu barədə açıq deyirəm, bu haqda bir daha deyə bilərəm,-mən başa düşmürəm, məsələn, Ermənistanda nə üçün hərbi bazalar olmalıdır, nədən ötrü? Biz MDB tərkibindəyik, gəlin, birliyin bütün dövlətləri üçün ümumi [210-211] qaydalar işləyib hazırlayaq. Əgər Rusiya hesab edirsə ki, Ermənistanın Azərbaycanla hərbi münaqişə vəziyyətində olduğu bir vaxtda Ermənistanda hərbi baza saxlamaq olar və əgər bunu normal sayırsa, bu, məndə rəğbət doğurmur.

Ona görə də deyirəm ki, əlbəttə, biz çox istəyirik ki, MDB həqiqətən beynəlxalq orqan olsun, biz əməkdaşlıq edə bilək. Buna ehtiyac var. Çünki bizim tarixi əlaqələrimizi, - keçmişdə birlikdə olmağımızı, iqtisadi baxımdan sıx bağlılığımızı, insanların bir-biri ilə çox sıx bağlı olmasını, - qırmaq mümkün deyildir. Buna görə də MDB çox zəruri təşkilatdır. Bu baxımdan qarşılıqlı etimada, hörmətə mane olan nə varsa, hamısını aradan qaldırmaq lazımdır. Əgər bu edilmirsə, onda, şübhəsiz, hər kəs fikirləşir ki, nə üçün belədir?

Mən öz iradlarımı açıq deyirəm. Bu gün də deyirəm və iki il bundan öncə də bu barədə demişəm. Ona görə də mənim mövqeyim belədir ki, biz MDB-nin fəaliyyətindəki nöqsanları aradan qaldırmalı, MDB-ni daha səmərəli beynəlxalq orqana, beynəlxalq təşkilata çevirməliyik. Azərbaycan bunu həqiqətən istəyir.

O ki qaldı Rumıniya prezidentinin Azərbaycana səfərinə, bildiyiniz kimi, Rumıniya ilə bizim aramızda mehriban münasibətlər yaranmışdır. Mən 1995-ci ildə bu ölkəyə rəsmi səfər etmişəm. 1996-cı ilin mart ayında Rumıniya prezidenti İon İliyesku Azərbaycanda rəsmi səfərdə olmuşdur. İndi Rumıniyada rəhbərlik dəyişmiş, Emil Konstantinesku prezident seçilmişdir. Biz onunla beynəlxalq təşkilatlarda görüşmüşdük və mən onu Azərbaycana dəvət etdim. O, təkcə Azərbaycanda deyil, habelə Gürcüstanda və Ermənistanda da olmuşdur.

Biz onunla ilk növbədə dövlətlərarası məsələlərimizi, münasibətlərimizin inkişafı məsələlərini müzakirə etdik. Eyni zamanda biz Rumıniyanın və Azərbaycanın daxil olduqları Qara dəniz iqtisadi əməkdaşlığında əlaqələrimizlə bağlı məsə[211-212]ləri, xüsusən Transqafqaz nəqliyyat dəhlizinin, yəni Avropa-Qafqaz-Asiya magistralının gələcək inkişafı haqqında məsələni, daha dəqiq desək, Böyük İpək yolunun bərpası haqqında məsələni, - Avropa Birliyinin proqramı üzrə bu, TRASEKA proqramıdır, - müzakirə etdik. Bu məsələyə Rumıniya da böyük maraq göstərir. Yeri gəlmişkən qeyd edim ki, buna Moldovanın da marağı çox böyükdür. Moldovanın prezidenti, mənim dostum Pyotr Kirilloviç Luçinski Azərbaycanda rəsmi səfərdə olmuşdur. Biz bu məsələləri onunla da müzakirə etmişik.

Sentyabrın 7-8-də Bakıda TRASEKA proqramı üzrə Böyük İpək yolunun bərpası məsələsinə dair beynəlxalq konfrans keçiriləcəkdir. Bu konfransı Avropa Birliyi Azərbaycanla birgə hazırlayır. Həmin konfransda İpək yolu üzərində yerləşən ölkələr iştirak edəcəklər. Bunlar isə Yaponiyadan tutmuş, zənnimcə,

Böyük Britaniyaya və hətta İrlandiyaya qədər məsafədə yerləşən təxminən 34 ölkədir. Bu məsələ də müzakirə mövzusu olmuşdur.

Ölkələrimiz arasında yaxşı münasibətlər mövcuddur. Biz bunları inkişaf etdirmək və dərinləşdirmək istəyirik. Bir sözlə, bizim söhbətlərimizin məqsədi budur.

**«Delovıye lyudi» jurnalının müxbiri, Moskva**: Azərbaycanda və Gürcüstanda bir çox siyasətçilər Rusiyanın xarici siyasət strategiyasından danışarkən onu qeyri-ardıcıl və sonu bəlli olmayan strategiya kimi səciyyələndirirlər. Məsələn, Ermənistana bir milyard dollarlıq silah verilməsini, Azərbaycan gəmilərinin Volqa-Don kanalından keçməsi problemini və Azərbaycan yüklərinin Rusiya-Azərbaycan sərhədindən nəql edilməsi problemini belə sonu bəlli olmayan və qeyri-ardıcıl aksiyalar sırasında sadalayırlar. Rusiyanın Ermənistanı bu cür dəstəkləməsində Rusiyanın iqtisadi maraqları olduğunu görmək mümkündürmü? Mən neftlə bağlı maraqları nəzərdə tuturam. Yəni böyük neft kəməri[212-213]nin məhz Novorossiyskədək çəkilməsi üçün Qarabağdan Azərbaycana müəyyən təzyiq vasitəsi kimi istifadə edilirmi?

İkinci əlavə bir sual: Qarabağ probleminin həlli Boris Yeltsinin iradəsindən nə dərəcədə asılıdır?

**Heydər Əliyev**: Burada Rusiyanın iqtisadi maraqları olması fikri ilə mən razılaşmazdım. Çünki Rusiyanın iqtisadi maraqları üçün Azərbaycanda hər hansı maneələr yoxdur. Biz Rusiya üçün açığıq. Yeri gəlmişkən, Rusiya ilə çox fəal ticarət gedir. Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsini Aleksandr Viktoroviç yəqin məndən yaxşı bilir.

**Aleksandr Bloxin** (Rusiyanın səfiri): Azərbaycanla? 320 milyon.

**Heydər Əliyev**: Yəqin, biz birinci yerdəyik?

**Aleksandr Bloxin**: Bəli.

**Heydər Əliyev**: Rusiya ilə birinci yerdəyik. Burada problem yoxdur. Yenə deyirəm, Rusiyanın Azərbaycanda iqtisadi fəaliyyəti üçün heç bir məhdudiyyət və maneə yoxdur. Bundan ötrü bizə təzyiq göstərmək lazım deyil, Ermənistanı və Dağlıq Qarabağı silahlandırmaq lazım deyildir. Bu, sadəcə olaraq, ağılsız siyasətin, daha doğrusu, ağılsız fəaliyyətin nəticəsidir.

Mənə elə gəlir ki, Rusiyada, hər halda, məsələn, ölkə rəhbərliyinin iradəsi ilə deyil, məhz ayrı-ayrı nazirliklər tərəfindən çox işlər görülür. Bütün bunları Müdafiə Nazirliyi etmişdir. Bu tədbirlərin Rusiya prezidenti və ya Baş naziri ilə nə dərəcədə razılaşdırıldığını bilmirəm. Bu barədə danışmaq istəmirəm. Lakin hər halda bu cür hərəkətlər var.

Rusiyadan olduqca çox şey asılıdır. Boris Yeltsindən də çox şey asılıdır. Ola bilsin ki, Ermənistan-Azərbaycan münaqişəsinin həlli hər hansı bir ölkədən deyil, ən çox Rusiyadan asılıdır. Mən bunu açıq çıxışlarımda da, prezident Boris Nikolayeviç Yeltsinlə şəxsi söhbətlərimdə də dəfələrlə demişəm. Yeri gəlmişkən, Rusiya rəhbərliyi bunu bilir. Belə düşünürəm [213-214] ki, əgər Rusiya rəhbərliyi bu işə lazımınca girişsə, münaqişəni daha tez bir zamanda aradan qaldırmaq olar, bu məsələ daha belə uzanmaz. Bir sözlə, Rusiyadan çox şey asılıdır.

**«Tverskaya, 12» qəzetinin müxbiri**: Moskva hökumətinin qəzetini təmsil etdiyimə görə mənim sualım Moskva ilə qarşılıqlı münasibətlər, inkişafın perspektivləri barəsindədir. Çünki məndə elə təsəvvür yaranıb ki, paytaxt regionu, xüsusən Yuri Lujkov münasibətlərin inkişafına, hətta Rusiya hökumətinə nisbətən daha böyük maraq göstərir. Bu, bəlkə belə deyildir?

**Heydər Əliyev**: Rusiyanın hakimiyyət dairələrini bir-birinə qarşı qoymaq istəmirəm. Təkcə bir şey deyə bilərəm ki, Azərbaycanın Moskva bələdiyyəsi ilə, xüsusən Mer Yuri Mixayloviç Lujkov ilə çox yaxşı münasibətləri var. Prezident olduğum dövrdə o, buraya, məncə, iki dəfə gəlibdir. Mən də Moskvada olarkən dəfələrlə onun yanına getmişəm. Onunla görüşüb söhbət etmişəm.

Rusiya paytaxtının 800 illiyi ərəfəsində biz burada Moskvanın mədəniyyət günlərini keçirdik. Çox böyük nümayəndə heyəti, mədəniyyət xadimləri və Yuri Mixayloviç Lujkovun özü buraya gəlmişdilər. Biz onunla Respublika sarayında Azərbaycanda Moskva mədəniyyəti günlərinin yekun mərhələsini keçirdik.

Bizim aramızda yaxşı iqtisadi münasibətlər də yaranmışdır. Bizim Bakı şəhəri Moskva ilə iqtisadi cəhətdən çox sıx əməkdaşlıq edir. Hətta ola bilsin ki, yaxın vaxtlarda Moskva neft şirkəti burada yataqların birində işləməyə başlayacaqdır. Bu işlə Yuri Şafrannik məşğul olur. Bir sözlə, aramızda çox yaxşı münasibətlər var. Bu, ümumən yaxşı nümunədir.

Yeri gəlmişkən, Rusiyanın bir çox bölgələri ilə yaxşı münasibətlərimiz var. Məsələn, Həştərxan vilayəti ilə. Onun qubernatoru Qujvin burada olub, biz Həştərxan ilə Azərbaycan arasında iqtisadi saziş imzalamışıq. Bizim Tatarıstanla müna[214-215]sibətlərimiz çox sıxdır. Mən hələ Şimali Qafqaz respublikalarını demirəm. Onlarla bizim aramızda çox sıx iqtisadi münasibətlər var. Biz hesab edirik ki, Rusiya böyük ölkədir. Azərbaycanla Rusiya Federasiyasının subyektləri arasında birbaşa münasibətlər yaradılması iqtisadi əlaqələr baxımından qarşılıqlı fayda gətirəcəkdir. Biz belə də edirik.

**«Novoye vremya» qəzetinin müxbiri**: Cənab prezident, son vaxtlar dünyanın müxtəlif ölkələrinin, o cümlədən bölgəmizin kütləvi informasiya vasitələrində yazılır ki, Azərbaycan-İran münasibətləri, yumşaq desək, dostluq xarakteri ilə fərqlənmir. Siz bu xəbərləri necə şərh edərdiniz?

**Heydər Əliyev**: İndi iş elə gətirmişdir ki, Ermənistan-İran münasibətləri çox müvəffəqiyyətlə inkişaf edir, Azərbaycan-İran münasibətləri isə, sizin qiymətləndirdiyiniz kimi, çox da yaxşı səviyyədə deyil-

dir. Nə demək olar, bilirsinizmi, bir vaxtlar, Sovet İttifaqı dövründə həmişə qorxudurdular ki, islam təməlçiliyi İrandan Azərbaycan vasitəsilə Sovet İttifaqına keçə bilər. Buna görə də Azərbaycanı daim nəzarət altında saxlayırdılar, onu nəzərdə tuturdular ki, Azərbaycan İranın təsiri altına düşə bilər. Sovet İttifaqı dövründə Moskvadakı və yeri gəlmişkən, Ermənistandakı bəzi siyasətçilər Sovet İttifaqının rəhbərliyini hətta qorxudub deyirdilər ki, Azərbaycana göz qoymaq lazımdır, çünki İran Azərbaycanı ələ keçirə bilər, çünki onların dini birdir, çünki orada da azərbaycanlılar var.

Görürsünüzmü, indi nələr olur. İndi, Azərbaycanın da müstəqil olduğu, Ermənistanın da müstəqil olduğu bir dövrdə Ermənistanla İran arasında çox yaxşı münasibətlər, dostluq münasibətləri var. Əvvəllər bizi bunda təqsirləndirirdilər ki, biz bir dinə mənsubuq, az qala Azərbaycanda da təməlçilik inkişaf edir. Lakin mən bilmirəm, indi Ermənistanda islam təməlçiliyi nə dərəcədə inkişaf edir, hər halda, onların arasında böyük dostluq var. Ancaq biz də istəyirik ki, İranla dost[215-216]luq münasibətlərimiz olsun. İran Şərqin iri bir ölkəsidir. İranda çoxlu azərbaycanlı yaşayır - müxtəlif rəqəmlər göstərirlər, bəziləri 30 milyon, başqaları 25 milyon deyir. Biz onları hesablamamışıq, mətbuatda göstərilən rəqəmlərdən istifadə edirik. Hər halda, İranda azərbaycanlılar çoxdur. Hətta İranın paytaxtı Tehranın özündə, deyilənlərə görə, sakinlərin yarısından çoxu Azərbaycan millətindən ibarət olan adamlardır, İranın şimal vilayətlərində isə əhalinin yüz faizi azərbaycanlılardan ibarətdir.

Bizim İranla böyük sərhədimiz var. Ermənistan da İranla həmsərhəddir və onların sərhədinin uzunluğu cəmi 40 kilometrdir. Biz isə 1300 kilometr uzunluğunda sərhədə malikik. Əlbəttə, bizim tarixi talelərimizdə, tarixi keçmişimizdə, adət və ənənələrimizdə oxşar cəhətlər çoxdur, biz eyni bir dinə – islam dininə mənsubuq. Biz bir-birimizlə iqtisadi cəhətdən də çox bağlıyıq. Buna görə də İranla ən yaxşı münasibətlərə, dostluq münasibətlərinə malik olmaq istəyirik. Biz İran üçün, İrana qarşı heç vaxt pis bir iş görməmişik və görməyəcəyik, əksinə, müxtəlif səbəblər üzündən meydana çıxan bütün çətinliklərə baxmayaraq, İranla dostluq münasibətlərini möhkəmlətmək üçün hər şeyi etmişik və edəcəyik.

**«Moskovskaya pravda» qəzetinin müxbiri**: Heydər Əliyeviç, siyasətçilər - istər gənc, istərsə də xatırladığımız siyasətçilər arasında Sizi ən müdrik siyasətçi adlandırırlar. Mənim sualım bəlkə də bir qədər mücərrəddir. Şəxsən Sizin üçün, əvvəla, siyasətçinin səadəti, ikinci isə, insanın səadəti məhz nədədir?

**Heydər Əliyev**: Verdiyiniz qiymətə görə sağ olun. Mən başqa siyasətçilərdən bəlkə də yaşa görə fərqlənirəm, çünki indi mən MDB-də bütün siyasətçilərdən yaşlıyam. Mən MDB hüdudlarından kənara çıxmıram. Siyasətçi üçün səadət nədədir? Bilirsiniz ki, mənim 75 yaşım var. Mən 55 ildir əmək [216-217] fəaliyyəti ilə məşğulam – bu, kifayət qədər çoxdur. İndi də işləməkdən yorulmuram.

Bu beş ildə Azərbaycanda həyata keçirdiyim işləri, - mən hələ Azərbaycanda keçmişdə qurub-yaratdıqlarımı demirəm, - özüm üçün böyük xoşbəxtlik hesab edirəm.

Hər bir insanın həyatının məqsədi insanın özü tərəfindən müəyyən edilir. Lakin bununla yanaşı, müəyyən ümumi meyarlar da var. Mən dövlət fəaliyyətinə, siyasi həyata gənclik illərindən cəlb edilmiş adamam. Mən siyasətdə böyümüşəm. Təbii ki, mən siyasətdən kənarda qala bilməzdim. 1987-ci ilin axırlarında istefa verdim və təxminən bir ildən sonra mənə qarşı böhtanlar, o cümlədən bəzi Moskva qəzetlərində və mənim sevdiyim, məni sevmiş qəzetlərdə böhtanlar başlandı, - onlar mənim barəmdə çox ədalətsiz yazılar dərc edirdilər. Mən incidim. Özümə söz verdim ki, siyasətdən gedəcəyəm, uzaqlaşacağam və uzaqlaşdım.

Mən şəxsi həyatımda da, ailədə də və sairədə də olduqca çox çətinliklər görmüşəm. Moskvadan, isti mənzilimdən blokadada olan, qışda şaxtanın 40 dərəcəyə çatdığı Naxçıvana gəlib çıxdım. Hətta kabinetdə də paltoda və papaqda oturur, əllərimi belə qızdıra bilmirdim. Amma mən bu şəraitdə yaşayır və hesab edirdim ki, bir daha siyasətə qayıtmamalıyam. Ancaq tale elə gətirdi ki, 1993-cü ildə siyasətə qayıtdım. Xalqım, respublikam üçün ən ağır bir dövrdə qayıtdım. Ötən bu beş il müddətində nə etmişəmsə, bunu özüm üçün böyük xoşbəxtlik sayıram.

O ki qaldı şəxsi həyatıma, mənim övladlarım, nəvələrim var. Bu, şəxsi həyatımda ən böyük xoşbəxtlikdir. Mən məmnunam ki, layiqli övladlarım - qızım və oğlum var, nəvələrim var. Onlar layiqlidirlər və hesab edirəm ki, gələcəkdə Azərbaycanın layiqli vətəndaşları olacaqlar. Bu, mənim xoşbəxtliyimdir.

**«Vesti» proqramının müxbiri**: Cənab prezident, mənim iki sualım var. Boris Nikolayeviçlə Sizin şəxsi [217-218] münasibətləriniz kifayət qədər mürəkkəb olmuşdur. Biz isə bilirik ki, ali səviyyəli siyasətçilərin şəxsi münasibətləri bizim siyasətdə, hətta ən ekstremal siyasi məsələlərdə çox böyük rol oynayır. Sizin münasibətləriniz indi necədir? Bir qədər yadlaşmanı aradan qaldıra bilmisinizmi? Bu, birinci sual.

İkincisi: Dünən biz üç rayonda olduq, ən müxtəlif təbəqələrə mənsub insanlarla söhbət etdik, onları rəsmi binadan çıxardıq ki, öz rəhbərlərindən çəkinməsinlər. Şübhəsiz ki, hamı Sizə çox yaxşı münasibət bəsləyir. Bunun da səbəbini başa düşürük, çünki Siz atəşi dayandıra bilmisiniz və indi adamlar Sizə danışıqlar prosesinin başlıca iştirakçısı kimi baxırlar. Ancaq bizə elə gəldi ki, - Siz özünüzə abidə qoyulmasını, Sizi hansısa simvola çevirməyi qadağan etməyinizə baxmayaraq, - adamlar bu qadağanı pozurlar və zaman-zaman, deyək ki, «Heydər bulağı», daha nə isə meydana gəlir. Siz buna necə baxırsınız?

**Heydər Əliyev**: Bilmirəm, nə üçün bəzən belə fikir söyləyirlər ki, Yeltsinlə mənim münasibətlərim mürəkkəbdir. Mənim Yeltsinlə həmişə normal və xoş münasibətlərim olubdur. Məsələn, mən o illəri

götürürəm. Yeltsin Sverdlovsk Bilayət Partiya Komitəsinin birinci katibi işləyirdi, mən Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi işləyirdim. Aramızda elə bir dostluq yox idi, ancaq MK-nın plenumlarında, sessiyalarda görüşür, bir-birimizi mehribanlıqla salamlayırdıq. Doğrudur, hansısa xüsusi, şəxsi əlaqələrimiz yox idi. Mən Moskvada Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini işləyən vaxt Yeltsin Moskvaya dəvət olundu və Sov.İKP MK-nın tikinti şöbəsinin müdiri təyin edildi. Bizim işgüzar əlaqələrimiz var idi, xüsusən də ona görə ki, Nazirlər Kabinetində mən nəqliyyat və tikintiyə kuratorluq edirdim, o isə tikinti şöbəsinin müdiri idi. Biz çox vaxt bir-birimizlə telefonla əlaqə saxlayırdıq.

Hətta xatirimdədir, Arkadi Brejnev nəqliyyat tikintisi naziri təyin olunmuşdu, - indi bu nazirlik yoxdur, ancaq o, deyə[218-219]sən, hansısa nəqliyyat tikintisi təşkilatına rəhbərlik edir, - və Nazirlər Sovetində bu sahəyə kuratorluq edən birinci müavin kimi mən onu təqdim etməli idim. Yeltsin də oraya gəldi və tikinti şöbəsinin müdiri kimi təqdimatda iştirak etdi. Biz oraya birlikdə gedib, birlikdə də qayıtdıq.

O, vilayət partiya komitəsinin birinci katibi işləyəndə mən Siyasi Büronun üzvü idim. Mən onun işlərinə çox müsbət yanaşır və onu dəstəkləyirdim. Yeri gəlmişkən, - bunu bəlkə də heç kim bilmir, - 1987-ci ilin oktyabr ayında Yeltsin plenumda çıxış edəndə Siyasi Büro üzvlərinin, demək olar, hamısı çıxış edib Yeltsini pisləyəndə və dostlarından bəziləri onun çıxışının arxadan vurulan bıçaq zərbəsi olduğunu bəyan edəndə, mən Yeltsinin əleyhinə çıxış etmədim. Ona görə də Yeltsinin məndən narazı olmağa əsası yoxdur. Əgər Yeltsin mənim barəmdə nə vaxtsa hansısa bəyanatlar veribsə, - keçmiş vaxtlarda bunlar olubdur, - mən bunları ciddi qəbul etmirəm. Ona görə də bizim aramızda hansısa mürəkkəb münasibət olduğunu deyə bilmərəm. Mənim onunla dostluğum olmayıb, amma bir-birimizə heç bir ədavətimiz də olmayıbdır.

Mən burada prezident olanda, hələ prezident olmazdan əvvəl - prezidentin səlahiyyətlərini həyata keçirirdim - ona zəng etdim və Moskvaya getdim. Hələ prezidentin vəzifələrini icra edərkən MDB-yə daxil olmaq məsələlərini onunla müzakirə etdim, çünki Azərbaycan o vaxt MDB-yə daxil deyildi. Keçmiş rəhbərlik MDB-yə daxil olmaqdan imtina etmişdi. Artıq Azərbaycanın rəhbəri kimi mənim onunla ilk görüşüm oldu. Sonralar aramızda normal münasibətlər yarandı. Mənim rəsmi səfərim oldu. Biz ötən il iyulun 3-də Kremldə mühüm sənədlər imzaladıq. Buna görə də mən ona böyük hörmət bəsləyirəm. Hərçənd sizdə, Rusiyada ona münasibət müxtəlifdir.

Onun axırıncı dəfə seçildiyi prezident seçkiləri zamanı mən mənən onun tərəfində idim. Gizlətmirəm. Bu seçki kampa[219-220]niyası ərəfəsində Yeltsin Kislovodskda görüşməyi xahiş etdi. O, Şimali Qafqaz respublikalarının rəhbərləri ilə görüşürdü və təklif etdi ki, bu görüşdə Gürcüstan, Ermənistan və Azərbaycan prezidentləri də iştirak etsinlər. Gizlətmirəm, bu, ötən söhbətdir. Mən bu görüşə getmək istəmirdim, ona görə yox ki, Yeltsini müdafiə etmək istəmirdim, Ermənistanla münasibətlərimizlə bağlı mənim başqa mülahizələrim vardı. Mən bu görüşə getmək istəmirdim. Lakin o vaxt Rusiya Baş nazirinin birinci müavini olan Aleksey Alekseyeviç Bolşakov buraya gəldi. O mənimlə bir neçə saat danışıq apardı və Yeltsinin adından opaya getməyimi xahiş etdi. Dedi ki, siz getməsəniz başqa prezidentlər də getməyəcəkdir. Mən başa düşdüm ki, bəli, Qafqazda ümumi həmrəylik yaratmaq üçün bu zəruridir. Mən Kislovodska gəldim və orada onu dəstəkləyən çıxış etdim və Şimali Qafqaz respublikalarının rəhbərlərinə birbaşa müraciət etdim. Onlardan bir çoxunu çoxdan tanıyıram və onlar da məni tanıyır. Yeri gəlmişkən, mənə hörmət bəslədiklərinə görə onlara minnətdaram. Mən onlara açıq dedim ki, Rusiyada islahatlar xəttini, demokratikləşdirməni dəstəkləmək lazımdır, bizə demokratik Rusiya lazımdır, bunun üçün isə Yeltsini müdafiə etmək lazımdır. Mən bunu açıq şəkildə dedim və televiziya bunun hamısını göstərdi.

Buna görə də münasibətlərimizdə hansısa çətinliklərin olması fikri ilə razılaşa bilmərəm. Hesab edirəm ki, hazırda münasibətlərimiz normaldır, yaxşıdır və istəyirəm ki, bunlar Rusiya və Azərbaycan arasında dostluq münasibətlərinin bundan sonra da möhkəmlənməsi naminə həmişə yaxşı olsun. Bilirsiniz, biz, - dövlət başçıları, -etimad göstərilmiş adamlar subyektiv hisslərə qapıla bilmərik. Bizim buna ixtiyarımız yoxdur. Çünki xalqın taleyi, dövlətin taleyi, ölkənin taleyi subyektiv hisslərdən və bütün şəxsi münasibətlərdən yüksəkdə durmalıdır. Mən həmişə bu prinsipləri rəhbər tutmuşam və bu gün də rəhbər tuturam. [220-221]

İkinci sual barədə. Mən sizin dediyiniz bütün hallara mənfi münasibət bəsləyirəm. Belə şeyləri qadağan edirəm. Siz burada yəqin hiss etdiniz ki, adamların çoxu mənə böyük hörmət, hətta məhəbbət bəsləyir. Bu məhəbbət, bu hörmət isə müxtəlif şəkildə ifadə olunur. Mən iki, üç il bundan əvvəl hiss etdim ki, haradasa mənim büstlərimi hazırlamağa və haradasa yaymağa başlamışlar. Mən bunu qadağan etdim. Prospektlərdə mənim böyük portretlərimi asmağa başladılar. Mən bunu da qadağan etdim. Prezidentin portreti ola bilər və olmalıdır, çünki o prezidentdir - dövlətin rəmzidir. Lakin küçədə yox, meydanda yox. Mən bütün bunları qadağan etdim.

Naxçıvanda yaşayarkən mənim iştirakımla Yeni Azərbaycan Partiyası yaradıldı və məni bu partiyanın sədri seçdilər. Bu partiyanın fəallarından biri öz pullarını sərf edərək mənim böyük büstümü hazırlamış və onu Bakının rayonlarından birində, bu partiyanın ofisi qarşısında qoymağa cəhd etmişdi. Bu, mənə məlum oldu, mən buna yol verilməməsi barədə göstəriş verdim. O, şəhərin merinə, rayonun icra hakimiyyəti başçısına tabe olmadı. Mən onu yanıma dəvət etməli oldum. Bu işə iki saat vaxt sərf etdim. O ağladı, dedi ki, bunu mənə olan məhəbbətinə görə edir. Mən ona dedim ki, sənin hisslərini başa düşürəm, sağ ol, lakin bununla mənə xeyir gətirmirsən. O soruşdu ki, bəs nə edim. Mən dedim ki, bu büstü haradasa gizlət. Mən

həyatda olmayanda qoya bilsən, qoy. Mən hamıya deyirəm: Əgər siz məni həqiqətən belə qiymətləndirirsinizsə və adımı əbədiləşdirmək istəyirsinizsə, bacarsanız, bunu mən dünyamı dəyişəndən sonra edin.

**Sankt-Peterburq televiziyasının müxbiri**: Mənim iki sualım var. Birincisi, Azərbaycanın başlıca sərvəti olan neft barəsindədir. Bu günlərdə Rusiya və Qazaxıstan prezidentləri Xəzər dənizinin dibinin bölüşdürülməsi haqqında müqavilə imzalamışlar. Bu müqavilə barəsində və [221-222] Xəzərin neft sərvətlərinin birgə işlənilməsi haqqında Sizin rəyinizi, Azərbaycanın mövqeyini eşitmək istərdim.

İkinci sualım tamamilə başqa mövzudadır. Biz burada öyrəndik, bizə dəfələrlə dedilər ki, Azərbaycanda və Bakıda cinayətkarlıq yoxdur. Biz Bakıda çox gec, gecə saat birdə, ikidə çıxıb gəzirdik, - şəhərə baxmaq istəyirdik, - həqiqətən çox sakit, çox mehriban, çox ürəyəyatan şəhərdir. Eyni zamanda Rusiyanın kriminal aləmində məhz azərbaycanlı cinayətkar qruplaşmalar kifayət qədər mühüm rol oynayır. Mən Moskva barədə deməyəcəyəm, ancaq Sankt-Peterburqda azərbaycanlı qruplaşması narkotiklərlə ticarətə nəzarət edir. Bu adamlar, - zənnimcə, Rusiyada yaşayan azərbaycanlılar arasında belələri azdır, - rusiyalıların nəzərində Azərbaycan haqqında təsəvvürə xeyli təsir göstərirlər. Bu uyğunsuzluğu aradan qaldırmaq üçün, ola bilsin, Rusiyanın orqanları ilə birlikdə nə iş görülür ki, burada bizə qarşı olduğu kimi, Rusiyada da azərbaycanlılara xeyirxah münasibət bəslənilsin?

**Heydər Əliyev**: Mən birinci suala cavab verəcəyəm. Xəzər dənizinin dibinin bərabər məsafə prinsipi üzrə orta xətt boyunca öz sektorlarına bölünməsi haqqında prezident Boris Yeltsinin və prezident Nursultan Nazarbayevin saziş imzalamaları haqqında xəbəri böyük sevinclə qarşıladım. Bu, bizim 1994-cü ilin sentyabr ayından bəri, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarından istifadə olunmasına dair ilk müqaviləni imzaladığımız vaxtdan müdafiə etdiyimiz prinsipdir. Biz həmişə bu mövqedə olmuşuq və indi də həmin mövqedəyik ki, Xəzər dənizini Xəzəryanı ölkələr arasında sektorlara bölmək lazımdır. Ancaq bizim bu mövqeyimiz nə Rusiyada, nə də İranda dəstəklənmədi, Qazaxıstan, Türkmənistan da buna ümumən müsbət yanaşmırdılar. Ancaq vaxt keçdi, hər halda həyat göstərdi ki, bundan yaxşı prinsip tapmaq mümkün deyildir. Hesab edirəm ki, Rusiya və Qazaxıstanın atdıqları addım düzgündür. Mən bunu [222-223] alqışlayıram. Biz bu prinsip barədə mövqeyimizdə möhkəm dayanırıq.

Rusiyada, o cümlədən Sankt-Peterburqda azərbaycanlılar tərəfindən olan cinayətkarlığa gəldikdə isə, bilirsiniz, mən açıq deyirəm, bunu eşitmək bizim üçün ağırdır. Əgər biz Azərbaycanda cinayətkarlığın qarşısını ala bilmişiksə, - mən artıq qeyd etdim ki, üç il bundan öncə, hətta iki il bundan öncə də belə deyildi, həm də bu, asanlıqla başa gəlməyib, ümumən bizim, o cümlədən hüquq-mühafizə orqanlarımızın böyük, gərgin işinin nəticəsidir, -azərbaycanlıların Rusiyada, Sankt-Peterburqda kriminal hərəkətlər etməsi ağır gəlir. Ancaq bununla yanaşı, biz Rusiya ərazisində iş apara bilmərik. Hər bir ölkə öz ərazisi üçün cavabdehdir və hər bir ölkə özünün şəhərində, yaxud ölkəsinin ərazisində öz qanunlarına müvafiq olaraq iş görməlidir.

Mən hesab etmirəm ki, orada cinayət törədənlər təkcə azərbaycanlılardır. Əgər Sankt-Peterburqda cinayətkarlıq çoxdursa və bu cinayətkarlığın olmasında azərbaycanlılar günahkardırlarsa, onlar da bütün başqaları kimi cəzalandırılmalıdırlar. Bəs onları nə üçün cəzalandırmırlar? Nə üçün tutmurlar? Nə üçün? Mən sizə açıq deyirəm, bizim elə imkanımız yoxdur ki, Rusiya kimi böyük ölkəyə öz nümayəndələrimizi göndərək ki, orada cinayət törədən azərbaycanlıları Rusiyanın və ya hansısa şəhərlərin hüquq-mühafizə, yaxud digər dövlət orqanları ilə birlikdə tutsunlar. Cinayətkar harada cinayət törədirsə, hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq, orada da məsuliyyətə cəlb edilməlidir - qanunla bu belədir. Əgər Sankt-Peterburqda yaşayan azərbaycanlılar, - birincisi, bəlkə də onlar artıq Azərbaycan vətəndaşı deyillər, çünki Rusiyada çox insanlar yaşayır, ancaq onlar Rusiya vətəndaşlarıdır, - cinayət törədirlərsə, Rusiya hüquq-mühafizə orqanlarının onlara qarşı qanun tətbiq etməyə tam ixtiyarı var. Əgər bu qanun tətbiq edilmirsə, bu, bizdə təəssüflə ağrı [223-224] doğurur, xüsusən də ona görə ki, siz deyirsiniz, bu, müəyyən dərəcədə Azərbaycanın imicini gözdən salır. Mən bu fikirlə razıyam. Biz birlikdə mübarizə aparmalıyıq.

**«Veçernyaya Moskva» qəzetinin müxbiri**: Heydər Əliyeviç, Qarabağ üstündə münaqişə başlayanda Siz Moskvada idiniz. Cəsarətlə deyə bilərəm ki, nadir istisna olmaqla, bütün Rusiya mətbuatı münaqişəni heç də həmişə ermənilərə rəğbətlə deyil, amma ermənilərin mövqeyindən işıqlandırırdı. Bu, niyə belə oldu? İndi bu məsələ barəsində bəzi şeylər dəyişmişdir, 1994-cü ildən sonra ona daha obyektiv yanaşmağa başlamışlar. Sizcə, nə üçün belə olmuşdu, bu münaqişə nə üçün belə tərəfkeşliklə işıqlandırılırdı?

**Heydər Əliyev**: Bilirsinizmi, Ermənistan mətbuatının nümayəndələri buradadır. Demək istəyirəm ki, biz, şəxsən mən belə mövqelərdə dururuq: Keçmişdə nə olubsa, qoy keçmişdə də qalsın, irəliləmək və sülhə nail olmaq lazımdır. Mən bu fürsətdən istifadə edib sizə və bütün dünyaya bəyan etmək istəyirəm ki, biz münaqişənin sülh yolu ilə aradan qaldırılmasını, Ermənistan ilə Azərbaycan arasında sülh, özü də uzunmüddətli sülh, etibarlı sülh, möhkəm sülh yaranmasını istəyirik. Başqa yol yoxdur. Mənim çoxillik həyat təcrübəm və ümumiyyətlə, bəşər tarixi, müxtəlif ölkələrdə, müxtəlif bölgələrdə müharibələrin tarixi göstərir ki, bu siyasət perspektivsiz siyasətdir. Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünə əməl etmək şərti ilə Ermənistan ilə Azərbaycan arasında sülh sazişi bağlamaq, əvvəlki mehriban qonşuluq müna-

sibətlərini yaratmaq lazımdır. Prinsiplər haqqında sizə danışdım. Ona görə də keçmişə qayıtmaq istəməzdim.

Lakin bir halda ki, sual vermisiniz, deməliyəm - faciə də məhz bundadır ki, münaqişəni öz aralarında xalqlar deyil, ayrı-ayrı ekstremist, çox qatı millətçi ünsürlər yaratmışlar. Onlar həmişə olublar. Mən Azərbaycanda bir çox illər işləmişəm və respublikaya təxminən 14 il rəhbərlik etmişəm. Dağlıq Qa[224-225]rabağa yaxşı bələdəm, bu vilayəti, necə deyərlər, eninə-uzununa gəzib-dolaşmışam. Mən Ermənistanda dəfələrlə olmuşam və ermənistanlı həmkarlarım da Azərbaycanda dəfələrlə olublar. Azərbaycanda mənim fəaliyyətimin bütün dövrü ərzində bizim aramızda böyük dostluq olubdur. Mən Dağlıq Qarabağa, Stepanakertə - indiki Xankəndinə gələndə məni Azərbaycanın hər hansı digər yaşayış məntəqəsindəkindən daha yaxşı qarşılayırdılar. Necə dostluq vardı! Birdən-birə bunların hamısı alt-üst oldu. Bunu həmin məqsədi güdən ayrı-ayrı ekstremistlər alt-üst etdilər.

Bu gün mən belə bir faktı xatırlayıram. 1975-ci ildə Azərbaycanda sovet ədəbiyyatı günləri keçirilirdi. Biz Sovet İttifaqının bütün respublikalarından, təbii olaraq, həm də Rusiyadan, Moskvadan ən görkəmli ədəbiyyat xadimlərini dəvət etmişdik. Mən o günləri Azərbaycanın tarixində xüsusi hadisə kimi xatırlayıram. O vaxt görkəmli adamlar bizdə qonaq oldular - onların bir çoxu artıq aramızda deyildir. Mərhum Marietta Şaginyan ilk dəfə gəlmişdi. Özünün mənə dediyinə görə, Azərbaycanda, Bakıda 1948-ci ildən olmamışdı. Burada nə isə bir münaqişə baş vermişdi, o çıxıb getmişdi və buraya gəlmirdi. 1975-ci ildə isə gəldi. O vaxt mən onunla ilk dəfə şəxsən tanış oldum. Ondan xahiş etdim: Marietta Sergeyevna, bilirsinizmi, bu günlər qurtardıqdan sonra, zəhmət olmasa, Dağlıq Qarabağa gedin, Azərbaycanın ermənilər yaşayan bəzi digər bölgələrinə gedin, onlarla görüşüb danışın, bir görün orada nə kimi məsələlər var. Sonra mənə danışarsınız.

O, iyirmi gün burada mənim şəxsi qonağım oldu. Dağlıq Qarabağda, Gəncədə - o vaxtkı Kirovabadda, başqa yerlərdə oldu, Bakıda çoxları ilə görüşüb ünsiyyət saxladı. Burada çoxlu erməni yaşayırdı. Sonra biz onunla görüşdük. O, yanıma gəlib dedi: Bilirsinizmi, mən buraya, Bakıya Yerevandan gəlmişəm. On gün Yerevanda qaldım, mehmanxanada yaşayırdım. Həmkarlarım - alimlər, yazıçılar yanıma gəldilər, [225-226] Sov.İKP MK-ya yazıb imzaladıqları bir məktubu mənə verdilər və xahiş etdilər ki, Dağlıq Qarabağın Azərbaycandan alınıb Ermənistana verilməsi barədə məktubu mən də imzalayım. Mən onları dinləyib dedim: Siz dəli olmusunuz, bu, nəyinizə gərəkdir? O vaxtlar o, Dağlıq Qarabağda hələ olmamışdı. Deyirdi ki, biz bir ölkədə - Sovet İttifaqında yaşayırıq. İndi problem yaratmaq nəyinizə lazımdır? Dedi ki, mən onları söyüb biabır etdim və qovdum.

Mən bu faktı nə üçün xatırlayıram? Belə cəhdlər hələ 1975-ci ildə, hələ 1965-ci ildə də olmuşdu, lakin onda bunların qarşısı vaxtında alınmışdı. O vaxtlar Marietta Şaginyan burada oldu və öz təəssüratı barədə, Dağlıq Qarabağda keçirdiyi görüşlər barədə mənə danışdı. Sonralar biz onun ömrünün sonunadək dost olduq, məktublaşdıq.

Ekstremist, separatçı hərəkətlər həmişə olmuşdur. Bunların qarşısını almaq lazım idi. Bütün bəla bundadır ki, 1988-ci ildə, 1987-ci ilin axırında onlar baş qaldırdılar və Qorbaçov onlarla sövdələşməyə girdi, onları ümid etdi ki, Dağlıq Qarabağı Ermənistan Respublikasının tərkibinə verəcəkdir və beləliklə, onlar fəal çıxışa başladılar. Buna Qorbaçov, onun ətrafındakılar və mətbuat tərəfindən əvvəlcədən müəyyən dərəcədə dəstək verildiyinə görə, sizin dediyiniz həmin vəziyyət yarandı. Onlar Dağlıq Qarabağı qoparmaq və Ermənistana vermək iddiası ilə bu münaqişəni başladılar, özləri isə Azərbaycanı günahlandırdılar.

Mən sonralar bu barədə dedim və indi də xatırlayıram. Axı münaqişə 1988-ci ilin fevral ayında başlanmışdı. Qorbaçov bu məsələni yalnız 1989-cu ildə Ali Sovetin iclasında müzakirə etdi. Özü də o vaxt Ali Sovetin sədri Qromıko idi, Qorbaçov isə Baş katib kimi bu məsələni müzakirə etdi və qərara gəldi ki, bilirsiniz, Dağlıq Qarabağ üzrə xüsusi idarə yaratmaq və Dağlıq Qarabağı Moskvaya tabe etmək lazımdır. Ağıllı bir şey tapa bilmədi. Bununla da o özü Sovetlər İttifa[226-227]qının dövlət quruluşu prinsipini pozdu. Ona görə də belə vəziyyət yarandı.

Bəli, o zaman mən Moskvada yaşayırdım, ancaq heç bir hüququm yox idi. Mən, - bundan cəmi yarım il öncə Siyasi Büronun tərkibinə daxil olan, Qorbaçovla, başqaları ilə bir yerdə oturan və iclaslarda iştirak edən insan, - bunu hiss edəndə, bundan xəbər tutanda onlarla əlaqə saxlamağa, Siyasi Büronun digər üzvləri ilə görüşməyə çalışdım. Mənim telefon zənglərimə heç kim cavab vermirdi. Əgər azacıq ağılları olsaydı, - Əliyev on dörd il Azərbaycana rəhbərlik etmiş, beş il Siyasi Büronun üzvü olmuş, ondan əvvəl 25 il Azərbaycanda DTK-da işləmişdir, - fikirləşərdilər ki, gəlin, heç olmasa, ondan soruşaq ki, indi nə etməliyik. Onunla razılaşmamaq olar, ancaq o, bizə nə isə deyəcəkdir. Əlaqə saxlamaq, məsləhət vermək üçün göstərdiyim bütün cəhdlərə onlar əsla məhəl qoymadılar. Bu münaqişənin qarşısını hələ 1988-ci ildə, 1989-cu ildə almaqdan ötrü nə isə etmək üçün göstərdiyim bütün cəhdlər heç bir nəticə vermədi. Məni tamamilə təcrid etdilər. İndi isə budur, acı nəticələrini dadırıq. Qorbaçovun Dağlıq Qarabağda etdikləri sonradan Abxaziyada, Osetiyada, daha sonra Çeçenistanda, Şimali Qafqazda baş verdi. Bütün bu münaqişələrin günahkarı Qorbaçov və onun rəhbərlik etdiyi Sov.İKP MK-nın Siyasi Bürosu və sovet hökumətidir.

* * *

Hörmətli dostlar, sizinlə görüşə bildiyimə və mənə bu imkanı verdiyinizə, habelə öz fikirlərimi söyləməyə imkan yaratdığınıza görə məmnun qaldığımı bildirmək istəyirəm. Hesab edirəm ki, siz mənim fikirlərimi dediyim kimi açıqlayacaqsınız. Mən hesab etmirəm ki, kimsə hansısa təhrifə yol vermiş olsun. Mən jurnalistikaya, mətbuata, jurnalistlərə hörmətlə yanaşır, onların əməyini çox faydalı, çox lazımlı sayıram, xüsusən də yeni hakimiyyət, yeni dövlət, yeni demokratik quruluş yaratdığımız bir vaxtda. Mətbuatsız demokratikləşdirmə ola bilməz. Müxalifətsiz demo[227-228]kratikləşdirmə ola bilməz. Mətbuat müəyyən dərəcədə müxalifət rolunu da oynayır. Yeri gəlmişkən, Sovetlər İttifaqı dövründə «Literaturnaya qazeta», bütün başqa qəzetlərlə müqayisədə, müəyyən dərəcədə müxalifətdə dayanan qəzet idi. Buna görə də onu çox oxuyurdular, amma bəziləri onu xoşlamırdı. Mən «Literaturnaya qazeta»da çıxış etmişəm. 1980-ci və ya 1981-ci ildə «Qoy ədalət zəfər çalsın» sərlövhəsi altında ümumən mənəviyyat problemləri haqqında, o cümlədən Azərbaycanda mənəviyyat uğrunda necə mübarizə apardığımız barədə bütöv bir səhifə verilmişdi. Həmin məqalə böyük əks-səda doğurmuşdu. Mən o zaman korrupsiya ilə, mənəviyyata zidd olan müxtəlif hallarla necə mübarizə apardığımızdan danışmışdım.

8 il sonra elə həmin «Literaturnaya qazeta» mənim əleyhimə yazılmış böhtanlarla dolu məqalə dərc etdi. Eybi yoxdur. Bütün bunlar keçmişdə qalmışdır. İndi tarix kimin kim olduğunu göstərdi. Hər halda, bu böhtançı məqaləni hazırlayan adamlar indi, demək olar, yoxdur. Əliyev isə bütün bunlara davam gətirdi və hazırda müstəqil Azərbaycanın prezidentidir.

Mən bütün bunları görmüşəm, bütün bunlardan keçmişəm və hesab edirəm ki, mətbuat da müxalifət rolu oynayır, ancaq sağlam, normal, konstruktiv müxalifət rolu. Bu isə istər Rusiyada, istərsə də Azərbaycanda hər şeyi demokratikləşdirmək üçün çox lazımdır. Əmin ola bilərsiniz ki, Azərbaycanın prezidenti kimi mən demokratiyanın inkişaf etdirilməsi mövqeyində möhkəm dayanıram. Rusiya ilə dostluq münasibətləri olmasını istəyirəm, ancaq imperiya Rusiyası ilə deyil, demokratik Rusiya ilə. Keçmiş Rusiya ilə deyil, bugünkü, daha çox isə gələcək Rusiya ilə. Bu işdə isə sizin rolunuz böyükdür. Sizə öz fəaliyyətinizdə uğurlar arzulayıram. Diqqətinizə görə sağ olun. [228]

## BİBİHEYBƏT MƏSCİD-ZİYARƏTGAH KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*12 iyul 1998-ci il*

Əziz bacılar, qardaşlar, həmvətənlər!
Əziz azərbaycanlılar, müsəlmanlar!

Mən sizi bu bayram - böyük peyğəmbər həzrəti Məhəmməd əleyhissəlamın mövlud günü münasibətilə təbrik edirəm, sizin hamınıza cansağlığı, Azərbaycan xalqına, müsəlmanlarına, bütün dünya müsəlmanlarına sülh, əmin-amanlıq və səadət arzulayıram.

Bu gün - bizim üçün əziz olan bu bayram günü Azərbaycan Respublikasının, məmləkətinin, xalqının həyatında tarixi hadisə baş verir. Biz bu gün XIII əsrdə - 700 il bundan əvvəl müqəddəsliyə çevrilmiş bu yerdə toplaşmışıq. Bu müqəddəs yer həzrəti İmam Museyi-Kazimin qızı, həzrəti İmam Rzanın bacısı həzrəti Hökümənin torpağa verildiyi, onun məzarı olan yerdir. Bu yer o vaxtdan indiyə qədər müsəlmanlar üçün müqəddəs yerə çevrilmişdir. Müsəlmanlar bu yeri əsrlər boyu ziyarət etmiş, burada özlərinə ümid, pənah axtarmışlar, dinimizə, Allaha, peyğəmbərə dua etmişlər, özlərini yaşatmışlar, islam dininə sadiq olduqlarını nümayiş etdirmişlər.

Biz fəxr edirik ki, islam aləmində islamı təmsil edən müqəddəs yerlərdən Azərbaycanda da vardır. Bu müqəddəs yerlərdən ən əzizi bu gün bizim toplaşdığımız yer - həzrəti Hökümənin qəbri, bu qəbrin üzərində vaxtilə ucaldılmış məscidin olduğu yerdir. Allaha, islama sadiq olan insanlar 700 il bundan öncə bu yerdə böyük məscid qurub-yaradıblar [229-230] və bura Allah evi, islam məbədi kimi daha da geniş vüsət alıbdır, ziyarətgah olubdur. Müsəlmanlar, azərbaycanlılar 700 il həmin məsciddə, bu müqəddəs yerdə Allaha dua ediblər, mənəvi arzularını yerinə yetiriblər, öz dininə, əxlaqına, mənəviyyatına sadiq olduqlarını nümayiş etdiriblər. İslam dini insanlarda ən yüksək keyfiyyətləri tərbiyə etməyə, formalaşdırmağa çalışıbdır.

İslam dininin dəyərləri ən yüksək mahiyyətə malik olan mənəvi dəyərlərdir. Bu dəyərləri yaşatmaq, insanları bu uca, ülvi, yüksək mənəvi dəyərlər səviyyəsində tərbiyə etmək Allahın buyruğudur, Məhəmməd peyğəmbərin qoyduğu yoldur. Mən böyük iftixar hissi ilə deyirəm ki, Azərbaycan xalqı bütün çətinliklərdən, bəlalardan, məhrumiyyətlərdən, zillətlərdən keçərək öz dininə, mənəvi dəyərlərinə daim sadiq olmuşdur və heç bir hakimiyyət, hökmdar bunların məhv edilməsinə nail ola bilməmişdir.

Burada, bu müqəddəs yerdə vaxtilə ucaldılmış məscid 60 il bundan öncə vəhşicəsinə partladılmışdır, dağıdılmışdır. Bizim mənəviyyatımıza, mənəvi dəyərlərimizə, islam dininə böyük zərbə vurulmuşdur. Xalqımız, millətimiz bu zərbəni almış, yaralanmış, əzilmiş, ancaq məhv, məğlub olmamış, bu zərbələrə, yaralara, əziyyətlərə dözməyə məcbur olmuşdur. Lakin bütün bunlara dözərək, bu müqəddəs yerə olan sevgisini, məhəbbətini, inamını qəlbində yaşatmış və bu müqəddəs yerdən heç vaxt ayrılmamışdır. Təsadüfi deyildir ki, bu məscid dağılandan sonra da və burada həzrəti Hökümənin qəbri bərbad olunandan sonra da insanlar bu yeri özləri üçün daim nicat, ümid yeri etmişlər. Bu yer bir ziyarətgah kimi öz mənasını heç vaxt itirməmişdir. İnsanlar buraya daim ziyarətə gəlmişlər, burada öz arzularını yerinə yetirmişlər, yaşamaq, yaratmaq üçün bu müqəddəs yerdən dayaq, mənəvi güc, dəstək almışlar. [230-231]

Bunlar hamısı Azərbaycan xalqının tarixidir. Bizim böyük və qədim tariximizin şanlı, şöhrətli, uğurlu səhifələri ilə yanaşı, faciəvi səhifələri də vardır. Bunlar hamısı bizimdir. Biz uğurlarımızla, qələbələrimizlə, xalqımızın tarix boyu nailiyyətləri ilə fəxr etmişik. Bunlar xalqımızı yaşadıb, irəliyə aparıb, inkişaf etdirib. Ancaq biz tariximizin əziyyətli, əzablı, faciəvi səhifələrinə, mərhələlərinə isə dözmüşük. Bizim qeyrətli, namuslu ata-babalarımız, əcdadlarımız bütün bunlara dözüblər, ancaq sınmayıblar, sarsılmayıblar, iradələrini itirməyiblər, umidlə yaşayıblar. Bizim mənəvi, islami dəyərlərimiz nəsillərdən-nəsillərə keçib, yaşayıb, gəlib bu günlərə çatıb. Bunlar bu gün də xalqımızın, millətimizin ən böyük mənəvi sərvətidir.

Biz bu müqəddəs yerdə abadlıq işləri aparılmasına və vaxtilə dağıdılmış məscidin bərpa edilməsinə bir neçə il bundan öncə başlamışıq. Xalqımız bu məscidin bərpa edilməsini daim istəyibdir. Xüsusən sovet hakimiyyəti dağılandan, Azərbaycanda dövlət müstəqilliyi əldə edildikdən, dinimizə - islam dininə azadlıq veriləndən sonra insanlarda bu istək, arzu daha da artmışdır. Bu gün bizim üçün böyük tarixi hadisə, böyük xoşbəxtlikdir ki, bu arzularımızı artıq yerinə yetirə bilmişik. Burada, bu müqəddəs yerdə gözəl, bu müqəddəs yerə, islamiyyətə, millətimizə, xalqımıza layiq bir məscid tikib yarada bilmişik. Bu, tarixi hadisədir. Bu bayram günü biz buraya bu məscidin yenidən doğulması, dünyaya gəlməsi münasibətilə toplaşmışıq. Bu, Azərbaycan müsəlmanları, güman edirəm, bütün islam aləmi üçün ikiqat bayramdır. Məhəmməd peyğəmbərin mövlud günü həzrəti Hökümənin, həzrəti imamlarımızın övladlarının, qohumlarının qəbirləri üzərində əzəmətli bir məscidin açılması ikinci bir bayramdır.

Əziz bacılar və qardaşlar, mən bu tarixi hadisə münasibətilə sizi, bütün Azərbaycan xalqını, islam aləmini təbrik edirəm. ümidvar olduğumu bildirmək istəyirəm ki, bu məscid bundan [231-232] sonra daha da genişlənəcək, böyüyəcək və xalqımıza, islamiyyətə ədəbi, sonsuz olaraq öz xidmətini göstərəcəkdir.

Mən bu məscidə, binaya baxarkən həddindən artıq sevinirəm. Azərbaycanda böyük memarlıq abidələri vardır. Bu abidələri xalqına, millətinə əsrlər boyu xidmət edən insanlar yaradıblar. Azərbaycanda – Bakıda və respublikamızın başqa şəhərlərində, yaşayış məntəqələrində son onilliklərdə böyük və gözəl memarlıq abidələri yaradılmışdır. Bu məscid öz xüsusi mənası və məqsədi ilə bərabər, xalqımızın böyük, dəyərli və gözəl memarlıq abidəsidir. Beləliklə, bu məscid Azərbaycanın mədəniyyət, memarlıq tarixini zənginləşdirən bir abidədir. Bunun mənası həqiqətən çox yüksəkdir. O, həm ibadətgahdır, həm müqəddəs yerdir, həm ziyarətgah, həm də gözəl memarlıq abidəsidir. Umid edirəm ki, gələcək nəsillər bizim bu tarixi, xeyirxah işimizi layiqincə qiymətləndirəcək, bu məscidi, ziyarətgahı əbədi yaşadacaq və bu müqəddəs yerin başına keçmişdə gəlmiş bəlalara bir daha yol verməyəcəklər.

Mən, eyni zamanda, bu məscidin tikilməsini Azərbaycan xalqının, müsəlmanlarının və islam dininə hörmət edən, sadiq olan insanların ümumxalq işi kimi qiymətləndirirəm. Məhz ümumxalq işi nəticəsində biz bu gün bu gözəl ibadətgahın, abidənin önünə toplaşmışıq. Ona görə də bu işdə az da, çox da zəhmət göstərənlərin hər biri hörmətə layiqdir.

Mən hamıya təşəkkür edirəm. Xüsusən Bakı Şəhər İcra Hakimiyyəti və icra hakimiyyətinin başçısı burada çox işlər görübdür. Mən onların gördüyü işləri xüsusi qiymətləndirirəm, onlara təşəkkür edirəm. Burada çalışan və bu müqəddəs yerə daim bağlı olan, həqiqətən vətənpərvərlik, öz millətinə sədaqət nümayiş etdirən Hacı Hikmətin xidmətlərini xüsusi qiymətləndirirəm. Mən hər dəfə buraya gələndə Hacı Hikməti nəinki görmüşəm, onun bu yerə nə qədər bağlı olduğunun, xidmət göstərdiyinin şahidi olmuşam. Ona görə də hörmətli Hacı Hikmətə və burada onunla bərabər fəaliyyət göstərən [232-233] din xadimlərinin hamısına hörmətimi, ehtiramımı və təşəkkürümü bildirirəm.

Görülən bu işlər Azərbaycanda islam dininin bugünkü vəziyyətini nümayiş etdirir. Bugünkü vəziyyət də odur ki, ölkəmizdə, cəmiyyətimizdə islam dini özünəməxsus yer tutubdur, mənəvi dəyərlərimizin daşıyıcısı və mənəvi qida mənbəyi kimi xalqımıza xidmət edibdir. Hesab edirəm ki, bu, xalqımızın son illərdə ən gözəl nailiyyətlərindən biridir.

Bizim doğma islam dinimizin Azərbaycanda öz yerini tapmasında, insanların öz dini etiqadlarını yerinə yetirməsində, dinimizin özünəməxsus yer tutmasında Qafqaz Müsəlmanları İdarəsi və bu idarənin başçısı şeyxülislam Hacı Allahşükür Paşazadənin xüsusi xidmətləri vardır. Azərbaycanın prezidenti kimi, mən bu fürsətdən istifadə edərək, respublikamızda islam dininin bütün tələblərinin yerinə yetirilməsi və insanlara vicdan azadlığının verilməsi sahəsində əldə etdiyi nailiyyətlərə, Azərbaycanda xalqın, millətin birliyinin, həmrəyliyinin möhkəmləndirilməsində, inkişaf etməsində göstərdiyi fəaliyyətə görə Qafqaz Müsəlmanları İdarəsinə və onun rəhbəri hörmətli Hacı Allahşükür Paşazadəyə hörmət və ehtiramımı bildirirəm, ona və onun ətrafında olan bütün din xadimlərinin hamısına təşəkkür edirəm. Əziz qardaşlar, gələcək işlərinizdə sizə uğurlar arzulayıram.

Bu müqəddəs yeri, ziyarətgahı abadlaşdıran, bu məscidin inşasında iştirak edən hər bir kəs öz millətinə, xalqına, dininə böyük xidmət göstərmişdir. Ona görə mən memarlara, inşaatçılara, fəhlələrə, hətta burada kərpic üstünə bir kərpic qoyan hər bir kəsə təşəkkür edirəm, minnətdarlığımı bildirirəm.

Bu gün gördüyümüş məscid, bu böyük abidə bizi sevindirir. Ancaq hesab edirəm ki, bu, işin birinci mərhələsidir. Bu tikinti layihə üzrə tamamilə başa çatmalıdır. Bu gün bəyan edirəm ki, bu məscid kompleksinin layihə üzrə tam sona çatmasını mən öz himayəmə götürürəm və onun həyata keçirilməsi üçün [233-234] bütün imkanları yaradacağam, lazım olan yardımları edəcəyəm.

Bu müqəddəs yerin ətrafı da ona layiq olmalıdır. Ona görə mən hesab edirəm ki, bu məscidin ətrafında adablıq işləri aparılmalıdır. Ola bilər, bu abadlıq işləri ətrafdakı bəzi binaların yerinin dəyişdirilməsi ilə əlaqədar olsun. Hesab edirəm ki, biz bu müqəddəs yeri gərək hər cəhətdən layiqli edək. Çünki artıq bu məscid tikiləndən, onun içərisində həzrəti Hökümənin və imam övladlarının qəbirlərinin yeri xüsusi müəyyən ediləndən sonra bu müqəddəs yer təkcə Azərbaycan müsəlmanları üçün yox, bütün dünya müsəlmanları üçün böyük bir ziyarətgaha çevriləcəkdir. Buraya ziyarətə gələnlərin sayı ilbəil artacaqdır. Ona görə də, hesab edirəm ki, bu məscidin ətrafında böyük bir kompleks yaradılmalıdır. Din xadimlərimiz əgər mənim bu fikirlərimlə razılaşsalar, belə bir layihənin mənə təqdim olunmasını arzu edərdim. Mən belə bir layihənin həyata keçiriləcəyinə söz verirəm.

Biz islam aləminin bir hissəsiyik. İslam dünyasında islam tarixinə məxsus olan müqəddəs yerlər, ziyarətgahlar vardır. Biz fəxr etməliyik ki, bu müqəddəs yerlərdən, ziyarətgahlardan Azərbaycanda da vardır. Onların ən hörmətlisi və ən qiymətlisi bu gün bizim toplaşdığımız yerdir. Ona görə də islam aləminin müqəddəs ziyarətgahı kimi bu yer dünyada tanınmalıdır, təbliğ olunmalıdır ki, islam tarixi bu yerin bu gününün və keçmişinin izahı ilə daha da dolğunlaşsın. Bir də ona görə ki, islam tarixinin hər bir müqəddəs yeri ümumi tarix kitablarında öz yerini tapsın. Bu işi də görmək lazımdır. Hesab edirəm ki, bunların hamısını etmək üçün mənim irəliyə sürdüyüm təkliflər çox lazımdır. Siz bununla razısınızmı?

**(Yerdən səslər: bəli, razıyıq).**

Əziz bacılar, qardaşlar, dostlar!

Bizim həyatımızda xoşbəxt günlər o qədər də çox deyildir. Həyatımız ağırdır, çətindir. Ancaq bu gün Allaha şükür etmə[234-235]liyik ki, biz xoşbəxt dəqiqələr yaşayırıq, bayram günündə bir yerə toplaşmışıq,

öz peyğəmbərimizin mövlud gününü bir yerdə bayram edirik və bunu gözəl bir hadisə ilə bərabər qeyd edirik. Bu, böyük xoşbəxtlikdir.

Mən bu xoşbəxt gün, bayram münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Sizə, bütün Azərbaycan xalqına, doğma millətimizə öz sevgimi, məhəbbətimi bildirirəm. Sizi əmin edirəm ki, Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı bizim milli mənəvi ənənələrimizin yaşaması üçün ən əsas zəmanətdir. Əmin ola bilərsiniz ki, Azərbaycanın dövlət müstəqilliyi indi etibarlı əllərdədir. Əmin ola bilərsiniz ki, Azərbaycan xalqının milli azadlığının, dövlət müstəqilliyinin gündən-günə möhkəmlənməsi üçün mən və bütün Azərbaycan dövləti əlimizdən gələni edirik və bundan sonra da edəcəyik. Beləliklə, biz xalqımızı yaşadacağıq, millətimizi bir millət kimi yaşadacağıq, Azərbaycan xalqının dünya xalqları içərisindəki layiqli yerini möhkəmləndirəcəyik. Dünya xalqlarını həm ölkəmizdə, həm də dünyada Azərbaycanın milli, mənəvi, dini dəyərlərinə hörmət etməyə çağıracağıq və buna nail olacağıq. Bunların hamısı üçün bizim xalqımızda milli birlik, həmrəylik lazımdır. Bu, bu gün vardır və əminəm ki, bu birlik, həmrəylik günü-gündən artacaqdır. Mən sizi əmin edirəm ki, Azərbaycanın milli azadlığı, dövlət müstəqilliyi günü-gündən möhkəmlənəcək, sarsılmaz, əbədi, sonsuz olacaqdır.

Mən sizin hamınıza cansağlığı arzu edirəm, hər birinizə ailə xoşbəxtliyi arzulayıram. Xalqımıza, millətimizə xoşbəxt gələcək, sülh, əmin-amanlıq arzu edirəm. Sağ olun. [235]

**FRANSA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB JAK ŞİRAKA**

Möhtərəm cənab prezident, əziz dost!

Fransa Xarici İşlər Nazirliyinin və Paris şəhəri bələdiyyəsinin yardımı ilə 1998-ci ilin 3 iyun tarixində Parisdə Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) parlamentinin ilk sədri Əlimərdan bəy Topçubaşovun yaşadığı (Dekamp küçəsi, 37) binanın divarına xatirə lövhəsinin vurulması xəbəri məni sevindirdi.

Ölkəniz tərəfindən atılmış bu addım bizim dövlətimiz üçün həqiqətən böyük əhəmiyyət kəsb edir və xalqlarımız arasında dostluq və əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir.

Fürsətdən istifadə edərək Sizə və Fransa xalqına cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 iyul 1998-ci il*
[236]

**FRANSA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB JAK ŞİRAKA**

Hörmətli cənab prezident, əziz dost!

Sizi Fransanın milli yığma futbol komandasının dünya çempionatında parlaq qələbə qazanması və dünya çempionu olması münasibətilə ürəkdən təbrik edirəm. Televiziya ekranında Sizin və bütün fransızların sevincini görmək mənə həqiqətən böyük ləzzət verdi. Sizin dostunuz kimi mən də bu sevincə şərikəm. Əminəm ki, Fransanın milli bayramı ərəfəsində qazanılan bu uğur Sizə və Fransa xalqına böyük ruh vermişdir.

Sizə və dost Fransa xalqına yeni qələbələr, cansağlığı və çiçəklənmə arzulayıram.

Səmimiyyətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 iyul 1998-ci il*
[237]

## RESPUBLİKANIN ŞƏHƏR VƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇILARININ İŞTİRAKI İLƏ KEÇİRİLƏN MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*14 iyul 1998-ci il*

Bu gün siz burada aparatda işləmisiniz, Ramiz Mehdiyev mənə məlumat verdi ki, prezident seçkiləri ilə əlaqədar yerli icra hakimiyyəti orqanlarının vəzifələri barəsində fikir mübadiləsi aparılıb və lazım olan izahatlar verilibdir. Mən sadəcə, sizinlə qısa müddətdə görüşmək və sizin vəzifələriniz haqqında öz fikirlərimi demək istəyirəm.

Prezident seçkiləri haqqında respublikamızda qanun qəbul olunubdur. Qəbul edilmiş qanun Azərbaycanda prezident seçkilərini sərbəst, azad, ədalətli keçirmək üçün özündə bütün tələbləri əks etdirir. Bu qanun ümumi demokratik prinsiplərə uyğundur və onlara cavab verir. Hesab edirəm ki, bu qanun əsasında Azərbaycanda prezident seçkilərini yüksək səviyyədə, demokratiyanın tələblərinə uyğun səviyyədə keçirmək mümkündür.

Ancaq sizə məlumdur ki, biz seçkilərin keçirilməsinə xüsusi əhəmiyyət verərək və demokratik prinsiplərin Azərbaycanda ardıcıl surətdə tətbiq elilməsini özümüz üçün mühüm vəzifə hesab edərək, qanun müzakirə olunarkən ATƏT-in Demokratiya İnstitutu ilə məsləhətləşmələr aparmışdıq, onların rəyləri verilmişdir. Amerika Birləşmiş Ştatlarının Demokratiya İnstitutundan da müəyyən tövsiyələr, fikirlər alınmışdır. Qa[238-239]nun qəbul olunan zaman onların əksəriyyəti nəzərə alınmışdır və qəbul edilmiş qanunda öz əksini tapmışdır.

Ancaq biz öz işimizi daha da etibarlı tutmaq üçün, qanun qəbul olunandan sonra onu ATƏT-in Demokratiya İnstitutuna göndərdik ki, onlar bir də baxsınlar, rəylərini versinlər. Amerika Birləşmiş Ştatlarının Demokratiya İnstitutu da qəbul olunmuş qanunu aldı. Onlar bəzi tövsiyələr verdilər. Verilmiş tövsiyələrdə göstərilmişdir ki, bu tövsiyələr Mərkəzi Seçki Komissiyasının qanunu həyata keçirmək üçün qəbul edəcəyi təlimatlarda, nizamnamələrdə öz əksini tapa bilər. Bu müddətdə Azərbaycanın siyasi partiyalarından da təkliflər alınmışdır.

Bunların hamısını nəzərə alaraq, mən belə fikrə gəldim ki, əgər bu tövsiyələri, yəni demokratiya institutlarının tövsiyələrini və siyasi partiyaların təkliflərini təlimatlarda əks etdirə biləcəyiksə, yaxşı olar ki, onlar da qanun səviyyəsinə qaldırılsın. Buna görə də qəbul olunmuş qanuna müəyyən dəyişikliklər, əlavələr edilməsi haqqında Milli Məclisə təkliflər göndərdim. Bir neçə gün bundan öncə, iyul ayının 10-da bu təkliflər Milli Məclisdə müzakirə olundu. Müzakirə zamanı da bəzi təkliflər irəli sürülmüşdü, onlar da nəzərə alındı. Beləliklə, qanuna dəyişikliklər və əlavələr edilib və qanun bu dəyişikliklər və əlavələrlə Azərbaycanda prezident seçkilərinin yüksək səviyyədə keçirilməsi üçün yaxşı əsas yaradır.

Vəzifə bu qanunun həyata keçirilməsindən ibarətdir. Qanuna görə prezident seçkilərini Mərkəzi Seçki Komissiyası aparır. Mərkəzi Seçki Komissiyası prezident seçkilərinin gününü təyin edibdir. Qanunu da Mərkəzi Seçki Komissiyası və onun yaradacağı ərazi, məntəqə seçki komissiyaları həyata keçirməlidirlər.

Bu, prezident seçkilərinin sərbəst, ədalətli, azad, demokratik şəraitdə keçirilməsi üçün əsas şərtdir. Azərbaycanın hakimiyyət orqanları, icra orqanları seçkilərin keçirilməsinə, seçki [239-240] komissiyalarına yardım etməlidirlər. Ancaq seçkilərə qarışmamalı, müdaxilə etməməlidirlər. Bu da ən əsas şərtlərdən biridir. Yardım nə cür, hansı məsələlər barəsində olmalıdır? Mənə verilən məlumata görə, bu gün artıq bu barədə ətraflı danışmısınız.

Ancaq mən də istərdim ki, mənim iştirakımla bizim şöbənin müdiri Şahin Əliyev burada bir daha qısaca desin - icra hakimiyyəti orqanları nəyi edə bilməzlər və hansı məsələlərə qarışmamalıdırlar, nələr qadağan olunur və seçkilərin keçirilməsinə yardım etmək üçün hansı işləri görməlidirlər.

**Ş a h i n Ə l i y e v** (*Prezidentin İcra Aparatının qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri*)*:*

Hörmətli cənab prezident!

Hörmətli müşavirə iştirakçıları!

Keçmiş illərin praktikasından fərqli olaraq Milli Məclis tərəfindən qəbul edilmiş qanun beynəlxalq standartlara tam uyğun hazırlanıb və qəbul olunubdur. Ona görə beynəlxalq aləmdə qəbul edilmiş prinsiplərə əsasən dövlətin seçkilərə qarışması qarşısında çox möhkəm qadağanlar qoyulur. Bu qadağanlar əvvəllər bizim qanunvericilikdə bu şəkildə mövcud olmayıbdır.

Qadağanlar qoyulmasından əlavə, qanunun 9-cu maddəsində seçkilərin aparılmasına dövlət orqanları tərəfindən müdaxiləyə görə, seçki sənədlərinin, - bu, çox geniş məfhumdur, - saxtalaşdırılmasına görə cinayət məsuliyyəti və inzibati məsuliyyət nəzərdə tutulur. Bu o deməkdir ki, hər bir dövlət orqanının işçisi seçkiqabağı kampaniyanın aparılmasına, seçkilərin keçirilməsinə müdaxilə edərsə, o, ya cinayət məsuliyyətinə, ya da inzibati məsuliyyətə cəlb olunur.

Əsas qadağanlar nədən ibarətdir? Birincisi, yerli icra hakimiyyəti orqanları və digər dövlət orqanları imzaların yığılmasına heç cür müdaxilə etməməlidirlər. Ona görə qanunda nəzərdə tutulur ki, namizədlərin lehinə imzalar yalnız və yal[240-241]nız yaşayış yerləri üzrə yığıla bilər. Bu o deməkdir ki, heç bir dövlət orqanında bu və ya digər namizədin dəstəklənməsinə yönəldilən imzaların yığılması qadağandır və qanuna görə bu, hüquq pozuntusu hesab edilir.

Digər bir qadağan. Müxtəlif təşəbbüs qruplarının və ya siyasi partiyaların bu və ya digər namizədlərin dəstəklənməsinə yönəldilən tədbirlərinə dövlət orqanları bitərəf qalmalıdırlar. Yəni, bu məqsədlər üçün binaların, otaqların ayrılması hər bir siyasi partiyanın öz daxili işidir və onlar öz imkanlarını əsas götürərək bu məsələni həll etməlidirlər. İcra hakimiyyəti və dövlət orqanları müəyyən öhdəliklər daşımağa o andan başlayırlar ki, namizədlər qeydə alınsın, məntəqə və ərazi seçki komissiyaları təşkil edilsin. Yalnız bu mərhələdən sonra icra hakimiyyətlərinin bu qurumlara yardımı məsələsi ortaya çıxır. Bundan əvvəl heç kimə heç bir yardım göstərilə bilməz.

Digər çox ciddi məsələ icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilən ilkin tədbirlərə aiddir. Bu da seçici siyahılarının tərtib edilməsidir. Seçici siyahıları vətəndaşların faktiki yaşadıqları ünvanlar üzrə tərtib olunmalıdır. Formal şəkildə qeydiyyatı əsas götürərək seçiciləri siyahılara daxil etmək qadağandır. Çünki əks halda belə bir vəziyyət alına bilər ki, məsələn, siyahıya 100 nəfər seçici daxil edilsin, lakin səsverməyə faktiki olaraq 30 nəfər gəlsin. Əlbəttə ki, bu da bütün müşahidəçilərin, xüsusilə beynəlxalq müşahidəçilərin diqqət mərkəzində olacaq ki, seçici siyahıları necə tərtib edilmişdir. Qanuna görə seçici siyahılarının tərtib edilməsi bilavasitə yerli icra hakimiyyəti orqanlarının vəzifələrinə aiddir.

Digər bir məsələ seçkiqabağı təşviqatın aparılmasıdır. Qanuna görə dövlət hər bir namizəd üçün dövlət kütləvi informasiya vasitələrində eyni əsaslarla təşviqat təşkil etməlidir. Bu o deməkdir ki, rayonlarda çıxan yerli qəzetlərdə, yerli radio verilişlərində, televiziya şirkətlərində, - əgər belələri varsa, - hər bir namizəd üçün eyni vaxt ayrılmalıdır. Dövlət tədbirləri [241-242] işıqlandırılanda seçkiqabağı təşviqat məsələsinə xüsusi diqqət verilməlidir. Ona görə ki, dövlətin fəaliyyəti işıqlandırılarkən bu və ya digər namizədin lehinə, yaxud əleyhinə səs verilməsi barədə çağırışlar qadağandır. Bu, seçkilərin keçirilməsinin müşahidəsi zamanı ən mühüm iradlardan biri ola bilər.

Seçkiqabağı kampaniyanın maliyyələşdirilməsi barədə. Seçkiqabağı kampaniya maliyyələşdirilərkən dövlət orqanları üçün qadağanlar qoyulur ki, onlar heç bir namizədin seçkiqabağı fonduna vəsait köçürə bilməzlər. Bu, qəti qadağandır. İanələr könüllü ictimai təşkilatlar, özəl müəssisələr və digər qurumlar tərəfindən könüllü olmalıdır. Maliyyə məsələlərinə dövlətin bu qaydada - ianə qaydasında qarışması qadağandır.

Digər bir qadağan. Dövlət orqanlarının vəzifəli şəxsləri seçki günü seçki məntəqələrində ümumiyyətlə ola bilməzlər, içəri girə bilməzlər, ixtiyarları yoxdur. Yalnız məntəqə seçki komissiyasının dəvəti ilə, - bu dəvət şifahi olmamalı, qərar qəbul edilməlidir, - seçki məntəqəsinə polis nəfəri daxil ola bilər. Polis nəfəri mütləq formada olmalıdır. Formasız polis nəfərinin səsvermə günü seçki məntəqəsinə daxil olması qəti qadağandır. Bunu yerlərdə daxili işlər orqanlarının müvafiq bölmələri həyata keçirməlidir.

Yerli icra hakimiyyəti orqanları bütün seçki komissiyalarına yardım etməlidirlər. Qanuna görə seçki komissiyaları tam müstəqildirlər, onların dövlət orqanlarından heç bir asılılığı yoxdur və yalnız qanuna tabedirlər. Qanunun 4-cü maddəsində bu haqda xüsusi müddəa var. Seçki komissiyasına hər bir yardım onun sorğusu ilə göstərilməlidir. Seçki komissiyası sorğu verməyibsə, müraciət etməyibsə, heç nə etmək lazım deyildir. Müvafiq sorğu olubsa, yerlərdəki bütün dövlət orqanları imkanları daxilində tələbatları ödəməlidirlər.

Bu nə deməkdir? Ən mühüm məsələ səsvermə üçün otağın ayrılmasıdır. Onu bilavasitə yerli icra hakimiyyəti orqanları ayırmalıdır. Digər məsələ həm ərazi, həm də məntəqə seçki [242-243] komissiyalarının maddi-texniki təchizatıdır. Bu da yerli icra hakimiyyəti orqanları tərəfindən edilməlidir. Eyni zamanda yerlərdəki digər dövlət orqanları, yerli qurumlar bu məsələyə kömək göstərməlidirlər.

Səsvermə günü əhalinin səsvermədə iştirakı üçün şəraitin yaradılması barədə. Bu da yerli icra hakimiyyəti orqanlarının vəzifəsinə daxildir.Yəni, ucqar yerlərdə yaşayan seçicilər üçün səsvermə günü imkan daxilində müvafiq nəqliyyat vasitələri təmin edilməlidir. Onlar səsvermədə iştirak etməkdə çətinlik çəkməməlidirlər.

Qeyd etmək istərdim ki, deyilən məsələlər, - seçkilərə heç cür qarışmamaq, qıraqda durmaq, - çox mühümdür və bunun mühümlüyünü birdən-birə dərk etmək bəlkə də çox çətindir. Bunu dərk etmək üçün Ermənistanda keçirilmiş seçkilər barədə beynəlxalq təşkilatların sənədini oxumaq kifayətdir ki, orada necə ciddi qanun pozuntularına yol verilibdir. Nəticədə Ermənistanın seçilmiş prezidentinin nüfuzuna beynəlxalq aləmdə ciddi xələl gəlibdir.

ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu xüsusi kitabça buraxıbdır. Kitabça rus dilindədir və «ATƏT-in DTİHB-nin seçkilərə nəzarətə dair təlimatı» adlanır. Bir neçə gündən sonra bu kitabçanın üzü çıxarılaraq bütün icra hakimiyyəti orqanlarının başçılarına göndəriləcəkdir. Ona görə ki, beynəlxalq müşahidəçilərin hansı məqamlara xüsusilə fikir verməsi bu kitabçada vurğulanır. Məsələn, belə müddəalar var: seçkiqabağı kampaniyanın qorxu və ya sərbəstlik, açıqlıq şəraitində keçməsinə xüsusi diqqət yetirilsin; bölgələrdə seçkiqabağı təşviqat ünsürləri - plakatlar, vərəqələr və sairə olub-olmamasına

xüsusi diqqət verilsin. Kitabçada bu cür məsələlər açıqlanır və mən əminəm ki, yerli icra hakimiyyəti orqanlarının başçıları kitabça ilə tanış olduqdan sonra onlarda qadağanlar haqqında daha açıq-aydın məlumat olar. Çox sağ olun. [243]

## YEKUN NİTQİ

Hörmətli müşavirə iştirakçıları!

Biz Azərbaycanda ardıcıl surətdə demokratik dövlət quruculuğu prosesini həyata keçiririk. Məmnuniyyətlə qeyd edirəm ki, bu sahədə artıq xeyli nailiyyətlərimiz var. Azərbaycanda demokratiyanın, siyasi və iqtisadi islahatların həyata keçirilməsi ardıcıl surətdə təmin olunur. Bunlar təkcə siyasi, ictimai nəticələr yox, eyni zamanda Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunması və respublikamızın iqtisadiyyatının inkişaf etməsi, insanların rifah halının tədricən yaxşılaşması kimi nəticələr veribdir.

Bu, bizim tutduğumuz strateji yoldur. Bu, Azərbaycanın 1995-ci ildə qəbul etdiyi Konstitusiyasında öz əksini tapıbdır. Konstitusiya bizim əsas qanunumuzdur, ali qanunumuzdur. Bundan başqa bizim ayrı əsas qanunumuz yoxdur, başqa bir ideologiyamız, kitabımız yoxdur. Əsas kitab, əsas qanun, əsas ideologiya - hamısı Azərbaycanın Konstitusiyasındadır. Konstitusiyanı yerinə yetirmək, ardıcıl surətdə həyata keçirmək də bizim tarixi vəzifəmizdir.

Qeyd etdiyim kimi, bu sahədə çox işlər görülmüşdür. Azərbaycanda son illər ictimai-siyasi sabitlik əldə olunubdur. Ümumiyyətlə, ictimai-siyasi ab-hava, iqlim, mühit tamamilə dəyişilibdir. İnsanlar azad, sərbəst yaşayır, demokratiyanın cəmiyyətimizə verdiyi bəhrələrdən istifadə edir, aparılan islahatların nəticəsindən istifadə edirlər. Bunlar hamısı bizim ölkəmizi inkişaf etdirir.

1995-ci ildə ilk dəfə parlament seçkilərinin keçirilməsində də biz demokratiya yolunda böyük bir addım atdıq. Demokratik prinsiplər, çoxpartiyalı sistem əsasında parlament seçdik. Milli Məclisimiz - ali qanunvericilik orqanımız seçilibdir. Qanunvericilik orqanı bu müddətdə bizim üçün lazım olan çoxsaylı qanunlar qəbul edibdir. Bu qanunlar da bütün sahə[244-245]lərdə fəaliyyətimizi təmin edir və onun həyata keçirilməsində bizə kömək edir.

İndi biz demokratiya sahəsində daha bir güclü addım atırıq. Bu da qəbul etdiyimiz Konstitusiya əsasında ilk prezident seçkiləridir. Bu prezident seçkiləri Azərbaycanda demokratiyanın daha da yüksəyə qalxmasını nümayiş etdirməlidir. Ona görə yox ki, biz ölkəmizdə, ya da ölkəmizdən xaricdə kiməsə sadəcə göstərmək istəyirik ki, demokratiya yolu ilə gedirik. Yox! Demokratiya bizim üçün həyatımızda yeni bir amildir. O mənada ki, dünya demokratiyası əsasında bunu bir ilə, iki ilə, üç ilə mənimsəmək və demokratiya sahəsində inkişaf etmiş ölkələrin, dövlətlərin səviyyəsinə çatmaq mümkün deyildir. Ancaq biz bu yolda nə qədər cürətlə, inamla, sürətlə getsək, o qədər də tez həmin səviyyəyə çatacağıq.

Məqsəd bundan ibarətdir. Məqsəd ondan ibarət deyildir ki, kiməsə göstərək ki, biz demokratik seçkilər keçiririk. Məqsəd ondan ibarətdir ki, Azərbaycanda demokratiya həm bu gün üçün, həm də gələcək üçün kök salsın. Elə kök salsın ki, gələcəkdə onu heç kəs laxlada bilməsin, tərpədə bilməsin, Azərbaycanda heç kəs başqa bir rejim, başqa bir sistem qurmağa nail ola bilməsin. Çünki Azərbaycanın vətəndaşı və dövlət başçısı kimi mən inanıram ki, xalqımızın gələcəyi üçün Azərbaycanda demokratiyanın tam bərqərar olması əsas şərtdir. Bu, xalqımızın həm daxili həyatını, həm də xaricdən Azərbaycanın müdafiəsi üçün çox əsas şərtlərdən biridir.

Ona görə də prezident seçkilərinin keçirilməsində qəbul olunmuş qanuna riayət edilməli və onun həyata keçirilməsi yüksək səviyyədə, professionallıqla, ağılla olmalıdır. Bir də qeyd edirəm ki, qəbul olunmuş qanun və bu qanuna edilmiş əlavələr, - hamısı bir yerdə qanun kimi hesab edilir, - Azərbaycanda prezident seçkilərini keçirmək, demokratiyanın inkişafında böyük bir irəliləyiş əldə etmək üçün çox güclü əsasdır. [245-246]

Ancaq ikinci hissəsi - bu seçkilərin keçirilməsi, qəbul olunmuş qanunun icra edilməsidir. Mənim arzum-istəyim və bu münasibətlə bütün Azərbaycan xalqına müraciətim ondan ibarətdir ki, hər kəs qəbul olunmuş qanunun hər bir müddəasının doğru-düzgün həyata keçirilməsinə xidmət göstərsin. Hər kəs çalışsın ki, qəbul olunmuş qanunun həyata keçirilməsində səhvlər buraxılmasın, qanun pozuntusuna yol verilməsin, təhrif olmasın, işimizə ziyan verən başqa hallar olmasın.

Sizə isə bu barədə birbaşa tapşırıq verirəm. Siz - buraya toplaşanlar Azərbaycanın icra hakimiyyətinin rəhbər vəzifəli şəxslərisiniz. Ona görə həm mərkəzdə, Bakıda, həm də yerlərdə, bütün sahələrdə sizin fəaliyyətinizdən çox şey asılıdır. Bu qanunun həyata keçirilməsi hər bir vətəndaşın fəaliyyətindən asılıdır. Hər şey ən çox yaranacaq seçki komissiyalarından asılıdır, Mərkəzi Seçki Komissiyasından asılıdır. Ancaq Azərbaycanın bütün mərtəbələrdə olan icra hakimiyyəti orqanlarından da çox şey asılıdır.

Mən burada deyilənləri təkrar etmək istəmirəm. O şeyi ki, etmək olmaz, onu etməyin. O şeyə ki, qanun yol vermir, qadağan edir, onu etməyin. Eyni zamanda o vəzifələr ki, sizin üzərinizə düşür - qanunun həyata keçirilməsinə kömək etmək, - onu edin. Səmimiyyətlə, ürəkdən, anlayaraq edin ki, siz bununla Azərbaycanda bu qanunun həyata keçirilməsində öz xidmətinizi göstərirsiniz, öz payınızı verirsiniz və ümumi işimizə, yəni Azərbaycanda demokratiyanın daha da irəliyə getməsinə xidmət edirsiniz. Bu, şərəfli işdir, çox şərəfli vəzifədir. Güman edirəm ki, siz bunları edəcəksiniz.

Narahat edən nədir? Keçmişin adət-ənənələri, keçmişdə olan bəzi qanun-qaydalar, yəni qanun-qaydalar deyil, yaranmış təcrübə desək, bu, daha düzgün olar. Təəssüflər olsun ki, bəziləri keçmişdə yaranmış bu mənfi təcrübədən çətin ayrılır, yaxud da ayrıla bilmirlər. [246-247]

Ümumiyyətlə mən uzun illər dövlət işində işlədiyim zaman müşahidələrdən əldə etdiyim nəticə bir də bundan ibarətdir ki, bəziləri həmişə belə edirlər. Soruşursan ki, niyə belə etmisən, axı bunu belə etmək lazım deyil-

dir. Deyirlər ki, «biz həmişə belə edirdik, keçmişdə də belə edirdik, ona görə belə edirik». Belə hadisələrə təkcə indi yox, on il, iyirmi il bundan öncə də rast gəlmək olardı: «biz həmişə belə etmişik, belə də edirik».

Bu, hamıya məlumdur. Ancaq bir daha qeyd etmək istəyirəm ki, keçmişin bizim üçün, bu günümüz, gələcəyimiz üçün faydalı təcrübəsindən istifadə etməliyik. Amma bu günün tələblərinə uyğun olmayan, ona zidd olan və bugünkü işimizə zərər gətirən keçmişin təcrübələrindən imtina etməliyik, onların bu gün təkrar olunmasına yol verməməliyik.

Bu, mənim bütün sahələrə aid ümumi fikrimdir. Ancaq konkret bu sahəyə gəldikdə, - keçmişdə, sovet hakimiyyəti vaxtında seçkilər keçirilibdir, bir çoxlarınız o vaxtlar da işləmisiniz, seçkiləri nə cür keçirmisiniz, bilirsiniz, - təəssüflər olsun ki, o əhval-ruhiyyə, görülən işlər indi bəzən təkrar olunur. Mən sizə qəti olaraq bildirmək istəyirəm: kim keçmişdə olan mənfi təcrübədən bu gün bu və ya digər miqyasda istifadə edəcəksə, yaxud tətbiq edəcəksə, o, çox ciddi cəzalanacaqdır. Çox ciddi cəzalanacaqdır! Qanunda qoyulmuş qadağanları kim pozacaqsa, o, ciddi cəzalanacaqdır. Ona görə də keçmişdə olan, bu gün üçün zidd olan əhval-ruhiyyələrdən tam uzaqlaşmaq lazımdır, bu seçkilərdə onlardan istifadə edilməsinə yol verilməməlidir. Hər bir kəs, - mən birinci növbədə icra orqanlarının işçilərini nəzərdə tuturam, - yalnız və yalnız bu qanun çərçivəsində hərəkət etməlidir.

Demək, əsas şərt ondan ibarətdir ki, icra orqanları seçki komissiyalarının işinə qarışmasınlar, seçki işinə qarışmasınlar, heç bir müdaxilə etməsinlər. Seçki prosesinin təşkil edilməsi üçün yardım, kömək ancaq deyilən çərçivədə olmalıdır. O çərçivədən çıxmaq lazım deyildir. [247-248]

Mən bu gün bir neçə dəfə demişəm ki, seçkilər azad, sərbəst, ədalətli keçirilməlidir. Ona görə də prezidentliyə namizədliyini irəli sürmüş hər bir Azərbaycan vətəndaşı siyasi mənsubiyyətindən asılı olmayaraq, qanunun ona verdiyi bütün imkanlardan tamamilə istifadə etmək imkanı əldə etməlidir. Heç kəsi heç bir yerdə məhdudlaşdırmaq olmaz.

Bəzi siyasi partiyalar cürbəcür bəyanatlar verirlər, seçkilərin saxtalaşdırılacağı haqqında, yerli icra orqanlarının bu işə qarışacaqları barədə əvvəldən fikirlər söyləyirlər. Şübhəsiz ki, bunlar qərəzli fikirlərdir. Siz gərək bütün işlərinizi elə qurasınız ki, hətta ən qərəzli bir fikir heç vaxt ümumi işimizə zərər gətirə bilməsin.

Seçki prosesində hər bir namizəd eyni hüquqa malikdir və bütün imkanlardan eyni dərəcədə istifadə etməlidir. Şübhəsiz ki, siz də bu işə qarışmayaraq, eyni zamanda əlinizdə olan hakimiyyətə görə kiməsə bu imkanları çox, kiməsə az yaratmaq kimi işlərə gərək yol verməyəsiniz. Hamı sizin üçün eynidir, hansı partiyaya mənsubdur, hansı seçki birliyinə mənsubdur - bunun əhəmiyyəti yoxdur. Bu da demokratiya üçün əsas şərtlərdən biridir, bəlkə də ən əsas şərtdir.

Azərbaycanda seçicilər sərbəst surətdə, kimə istəyirlərsə ona səs verməlidirlər. Şübhəsiz ki, qanun çərçivəsində, Mərkəzi Seçki Komissiyasının tutduğu təqvim əsasında təbliğat - təşviqat işləri aparılacaqdır. Hər bir namizəd öz namizədliyinin prezidentliyə daha da layiq omlasını sübut edəcəkdir. Bunların hamısı üçün imkan yaradılmalıdır. Qanun çərçivəsində, qanunun verdiyi imkanlar yaradılmalıdır. Siz kənardan bu imkanları yaratmalısınız, amma bu işlərə qarışmamalısınız. Heç bir işə qarışmamalısınız.

Burada bir məsələ də vardır və mən bu barədə öz fikrimi bildirmək istəyirəm. Mənə olan müraciətlərdən, gələn məktublardan, radio-televiziya vasitəsilə aldığım məlumatlardan görürəm ki, bir çox yerlərdə mənim yenidən prezident ol[248-249]mağımı arzu edirlər. Bir müddət öncə də demişəm, bu gün də deyirəm, - mən bu ağır vəzifəni beş il vicdanla, namusla aparmışam və səlahiyyətim başa çatan günə qədər aparacağam. Hesab edirəm ki, millətimiz, xalqımız üçün çox işlər görmüşəm. Ancaq mən öz namizədliyimi irəli sürməmişəm və sürmürəm. Olan müraciətlərə cavab da, razılığımı da verməmişəm. Bu, gələcəyin işidir. Ona görə də mənim haqqımda bu barədə təbliğat aparmağa ehtiyac yoxdur. Əgər gələcəkdə mən də prezident seçkilərində prezidentliyə namizəd kimi qeydə alınsam, onda, bütün başqa namizədlərə nə imkanlar veriləcəksə, mənə də o imkanlar çərçivəsində münasibət göstərilməlidir, bir damcı da artıq olmamalıdır.

Azərbaycan televiziyasına artıq göstəriş vermişəm ki, dövlət başçısı, prezident kimi mənim fəaliyyətim mətbuatda, informasiya orqanlarında şübhəsiz ki, lazımi səviyyədə, yalnız bu keyfiyyətdə öz əksini tapmalıdır, ancaq «Heydər Əliyev yenidən prezident olmalıdır, biz onu təbliğ edirik, istəyirik» - belə verilişlər televiziyada, radioda, mətbuatda tamamilə kəsilməlidir.

Birinci, - mən sizinlə səmimi danışıram, - mənim belə bir təbliğata ehtiyacım yoxdur. Mənim beş ildə gördüyüm işlər hər bir vətəndaşın lazımi qərar qəbul etməsi üçün əsas verir. Əlbəttə, bu işləri qiymətləndirməyənlər vardır. Elələri var ki, bəyan edirlər ki, «prezident kimi Heydər Əliyev heç bir iş görməyibdir, vəzifəni apara bilməyibdir və apara bilmir». Onlar gəlib prezident olmaq, Azərbaycanı daha da yaxşı inkişaf etdirmək istəyirlər. Bu təbiidir, buna heç kəs təəccüblənməməlidir. Əgər biz siyasi plüralizmdən, söz, fikir azadlığından söhbət aparırıqsa, hər insan öz fikrini düşündüyü kimi ifadə edir. Onu başqa cür düşünməyə məcbur etmək lazım deyildir. Bu, keçmişdə qalıbdır.

Mən belə fikirləri təbii hesab edirəm. Onlar məni incitmir, narahat etmir. Çünki, birincisi, bilirəm ki, hələ keçmişdəki [249-250] qalsın, bu beş il müddətində mən nə işlər görmüşəm. İkincisi də, mən bilirəm ki, beləlari azlıq təşkil edir. Azərbaycan vətəndaşlarının çoxu həmin bəd sözləri deyənlərlə razı deyillər. Bu,

artıq məlumdur. Ona görə də əlavə təbliğat aparıb sübut etmək ki, Heydər Əliyev kimdir, Heydər Əliyevin xidmətləri nədən ibarətdir, - buna ehtiyac yoxdur.

Bu gün iyul ayının 14-dür. Bu, dünya üçün əlamətdar bir gündür - Fransa inqilabı, Bastiliyanın alınması günüdür. Bu gün Fransanın milli bayramıdır. Amma bu, mənim üçün də əlamətdar gündür. Çünki düz 29 il bundan öncə - 1969-cu il iyul ayının 14-də mən Azərbaycan Respublikasının başçısı seçilmişəm. Bu 29 il göz qabağındadır. İndi bəziləri nəyisə unudur. Bunu unudanlar var, amma unutmayanlar çoxdur. Ola bilər ki, kimsə hafizəsində bunu unutsun, amma Azərbaycanda bu tikilənləri, yaradılanları unutmaq mümkün deyildir. Bunlar hamısı göz qabağındadır. Bu 29 il içərisində yaşamış, böyümüş, təhsil, elm almış insanlar—bunlar hamısı göz qabağındadır. Ona görə də mənim təbliğata ehtiyacım yoxdur.

O adamlar ki, hələ heç bir şey etməyiblər, amma hesab edirlər ki, Azərbaycanda prezident olsalar daha da yaxşı işləyə bilərlər, sübut etməlidirlər ki, nə cür ola bilər, onlar daha yaxşı işləyərlər? Onlar bunu sübut etməlidirlər.

Sizə bunları deyərək bir daha bildirmək istəyirəm ki, indi məni təbliğ etməyə ehtiyac yoxdur. Belə hərəkətlər bizim ümumi işimizə ancaq zərər verir. Xahiş edirəm, bunu nəzərə alasınız. Mən Prezident Aparatına bu barədə göstəriş verirəm ki, bu işlərə nəzarət olunsun. Mənim dediyim sözlər, verdiyim göstərişlər haradasa pozulursa, bu barədə lazımi ölçülər götürəcəyəm.

Bir daha qeyd edirəm, prezidentliyə hər bir namizədə bütün imkanlar yaradılmalıdır. Qanun çərçivəsində iclas keçirilməlidir, - keçirsin, adam imza toplamalıdır, - toplasın. Qa[250-251]nun ona nə imkan verirsə onu da etsin. Lazımdırsa, hər bir kəsə də bu barədə kömək edin. Amma mane olmayın və onlara əziyyət verməyin.

Mən bu gün bəyan edirəm ki, Azərbaycanda demokratiya inkişaf edir. Bu üç ay müddətində - Azərbaycan prezidentinin seçilməsi prosesində demokratiya daha da sürətlə inkişaf edəcəkdir və hər bir vətəndaşın hüququ qorunacaqdır. Hər bir siyasi partiyanın öz fəaliyyətini həyata keçirməsi üçün bütün imkanlar yaranıb və bundan sonra da yaranacaqdır. Hər bir vətəndaşın da özünü prezidentliyə namizəd göstərməsi, hüquqlarından istifadə etməsi üçün bütün imkanlar yaranacaqdır. Bir prezident kimi bunu mən təmin edirəm. Mənim icra orqanlarım olduğunuza görə bunu təmin etməyi sizə tapşırıram.

Mən inanıram ki, məsuliyyətimizi hamımız birlikdə dərk edirik. Məsuliyyətimiz Azərbaycanda demokratik dövlət quruculuğu sahəsində yeni bir güclü addım atmaqdan, Azərbaycanda prezident seçkilərini müasir tələblərə, demokratik prinsiplərə uyğun keçirib xalqın istədiyi adamın prezident seçilməsini təmin etməkdən ibarətdir. Xalq kimə səs verəcəksə, o da prezident olacaqdır. Xalqın iradəsi hər bir şeydən üstündür. Hər birimiz də xalqın iradəsinə hörmətlə yanaşmalıyıq. Bu, sizin vəzifənizdir.

Bugünkü müşavirədən istifadə edərək, bu məsələdən əlavə bir-iki məsələyə də toxunmaq istəyirəm.

Birincisi, bilirsiniz ki, cənub bölgəmizdə zəlzələ olubdur. Lerik, Astara, Lənkəran, Yardımlı, Masallı, Biləsuvar, İmişli rayonlarında zəlzələ hiss olunubdur. Zəlzələ nəticəsində dağıntılar ən çox Lerik, Lənkəran, Astara, Yardımlı rayonlarında baş veribdir. Mən səlahiyyətli nümayəndələrimizi dərhal yerlərə göndərdim, lazımi tədbirlər gördük. Fövqəladə hallar üzrə dövlət komissiyasının sədri Abid Şərifov bütün başqa vəzifəli şəxslərlə birlikdə yerlərdə oldu, danışdı. Onlar rayon icra hakimiyyəti başçıları ilə birlikdə işlər görüblər. [251-252]Mən Lerik, Lənkəran, Astara, Yardımlı rayon icra hakimiyyəti başçıları ilə telefonla əlaqə saxladım, danışdım. Aldığımız məlumata görə, vəziyyət əvvəlki günlərə nisbətən daha da ağırdır. Hətta bu gün mənə məlumat verdilər ki, Lerik rayonunun ən ucqar kəndindəki 150 evdən 100-ü tamamilə dağılmışdır. Xoşbəxtlikdən insan tələfatı yoxdur. Müəyyən xəsarət almış bəzi adamlara tibbi yardım göstərilir.

Mənim göstərişimlə hazırlanmış sərəncamı bu gün imzalamışam, onu artıq mətbuata verdim. Baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması, zəlzələdən zərər çəkmiş insanlara yardım edilməsi ilə əlaqədar bu sərəncamda lazımi göstərişlər vermişəm və müvafiq tədbirlərin həyata keçirilməsini tələb etmişəm. Mən sərəncam vermişəm ki, büdcənin ehtiyat fondundan-onu da deməliyəm ki, bizim ehtiyat fondumuz çox məhduddur, bilirsiniz ki, büdcədə vəziyyət çox gərgindir,bunun müəyyən səbəbləri vardır - 5 milyard manat vəsait ayrılsın və bu məqsədlər üçün istifadə edilsin.

Mən eyni zamanda, müvafiq nazirliklərə tapşırıqlar vermişəm ki, onlar öz imkanlarından istifadə edərək lazımi tədbirlər görsünlər. Siz sərəncamda bunları oxuyacaqsınız. Həmin sərəncam mətbuatda dərc olunacaqdır. Sizdən - yerli icra hakimiyyəti orqanlarından tələb edirəm ki, siz hər bir rayonda bütün təşkilatların - həm dövlət, həm də özəl təşkilatların imkanlarını səfərbər edəsiniz ki, zəlzələnin vurduğu ziyan tezliklə aradan qaldırılsın. Bu ziyan əsasən insanların yaşadığı yerlərə dəyibdir. Bunlar aradan qaldırılmalıdır və insanların yaşayış yerləri qısa müddətdə bərpa olunmalıdır ki, onlar normal yaşaya bilsinlər.

Rayon icra hakimiyyəti başçılarından xahiş edirəm ki, zəlzələdən zərər çəkmiş bütün vətəndaşlarımızın hamısına mənim salamımı çatdırasınız. Bildirəsiniz ki, onların həyatı ilə bağlı olan bugünkü və gələcək bütün işlər mənim şəxsi nəzarətimdədir, qayğım altındadır. [252-253]

Güman edirəm ki, yerli icra orqanlarının imkanları çoxdur, bunlardan sadəcə olaraq səmərəli istifadə etmək lazımdır.

Bu gün mən Yardımlı rayonunun icra hakimiyyəti başçısı ilə telefonla danışdım. Mən maraqlandım ki, Yardımlı rayonunda iqtisadi vəziyyət necədir. Çünki mən islahatların, xüsusən aqrar sektorda islahatların

necə həyata keçirilməsi və nə cür nəticələr verməsi ilə yaxından maraqlanıram. Məlumdur, hamınız bilirsiniz ki, mən bu məlumatları mütəmadi olaraq alıram. Bizim iqtisadi islahatlarımız öz gözəl nəticələrini verir. Hesab edirəm, iqtisadiyyat, xüsusən də insanların rifah halı yaxşı inkişaf edir. Ancaq mən işin üstündə duran adamlardan hər dəfə məlumat almaq istəyirəm. Şübhəsiz ki, mən Prezident Aparatından, Nazirlər Kabinetindən, nazirliklərdən, Statistika Komitəsindən verilən məlumatlara inanıram.Ancaq mən hər dəfə istəyirəm ki, yerlərdən də məlumat alım.

Məsələn, Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı rayonun iqtisadi göstəriciləri haqqında mənə bir neçə rəqəm dedi və bu məni sevindirdi. Çünki mən Yardımlı rayonunu yaxşı tanıyıram. Keçmişdə biz çox çalışırdıq ki, rayonda kənd təsərrüfatı müəyyən qədər inkişaf etsin, insanlar yaxşı yaşaya bilsinlər. Ancaq onu istənilən səviyyəyə qaldıra bilmirdik. Lakin rayon icra hakimiyyətinin başçısı bu gün mənə çox yaxşı rəqəmlər dedi.

Düzdür, iqtisadi islahatların gedişi ilə əlaqədar bu gün müzakirələr aparmağa mənim vaxtım yoxdur. Mən Yardımlı rayon icra hakimiyyətinin başçısını 5-6 dəqiqəlik dinləmək istəyirəm ki, o, bu məsələləri desin, - çoxlarınız bu işlə məşğulsunuz, - həm siz, həm də burada oturan başqa vəzifəli rəhbər şəxslər biləsiniz.

**Əli Quliyev** (*Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı*):

Hörmətli cənab prezident!

Dünyada tanınmış, seçilmiş bir şəxsiyyət, ağsaqqal kimi, Sizin qarşınızda çıxış etmək mənim üçün bir qədər çətindir. [253-254]

Mən bütün müşavirələrdə bir daha dərk etmişəm ki, Siz kənddə gedən proseslər haqqında dəqiq məlumat almaq istəyirsiniz. Amma biz bunu Sizə çox vaxt dəqiq çatdıra bilməmişik.

Ayın 9-da təbii fəlakət baş veribdir. Daha ağır fəlakət gözlənilirdi. Azərbaycanın cənub bölgəsində bəlkə də son yüz ildə belə böyük təkanla zəlzələ olmamışdır. Allaha şükür olsun ki, insan tələfatı baş vermədi. Mən vaxtınızı çox almaq istəmirəm, rayonumuz haqqında qısa məlumat verəcəyəm.

İyulun 9-da saat 20.23 dəqiqədə zəlzələ baş verdi. Bu, təxminən 30-35 saniyə çəkdi. Çox həyəcanlı bir vəziyyət idi. Biz bu barədə rəhbərliyə məlumat verdik. Cənab prezident, Sizin tapşırığınızla fövqəladə hallar üzrə dövlət komissiyası cənub bölgəsinə dərhal öz nümayəndələrini göndərdi. İyulun 10-da biz fövqəladə hallar üzrə dövlət komissiyasının üzvləri ilə birlikdə kəndlərə xüsusi nümayəndələr göndərdik və dəymiş ziyanı müəyyənləşdirməyə başladıq.

Cənab prezident, mən Yardımlı camaatının, əhalisinin minnətdarlığını Sizə çatdırmağı özümə borc bilirəm. Doğrudur, təbii fəlakətin qarşısını almaq mümkün deyil. Amma dövlət başçısının camaata diqqəti, qayğısı təbii fəlakətin ağır nəticələrini unutdurur. Əhali təskinlik tapır ki, bizim dövlətimiz və dövlət başçımız vardır.

Mən təbii fəlakət haqqında Sizə məlumat vermişəm. Bütün əlaqədar təşkilatların bu barədə məlumatı vardır. Mən telefon danışığımız zamanı da dedim, indi çıxışımda bir daha deyirəm ki, xalqın Sizə olan inamı və respublikada yaratdığınız birlik nəticəsində biz təbii fəlakətin vurduğu ziyanları Allah qoysa, tezliklə aradan qaldıracağıq. Hər şey bərpa ediləcək, işlər qaydasına düşəcəkdir. Doğrudur, müəyyən çətinliklər olacaq, ancaq mən əminəm ki, bütün problemlər öz həllini tapacaqdır.

Cənab prezident, respublika rəhbərliyinin və rayonların icra hakimiyyəti başçılarının iştirak etdiyi bugünkü müşavi[254-255]rədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov və Naxçıvan camaatına öz minnətdarlığımı bildirirəm. Onlar qonşu rayonlarla eyni anda bizə öz kömək əllərini uzatdılar. Bunu bütün Yardımlı camaatı bilir. Bu, bizə çox böyük mənəvi dayaq oldu.

Cənab prezident, mən rayonumuz haqqında Sizə məlumat vermək istəyirəm.

**Heydər Əliyev**: Bəli, mən sənə ona görə söz verdim ki, islahatların nəticələri haqqında məlumat verəsən.

**Əli Quliyev**: Mənə elə gəlir ki, vəzifədə işləyən adamların hamısının Yardımlı haqqında təsəvvürü vardır. Bu rayon 1930-cu ildə sovet hakimiyyəti vaxtında yaradılıb. Yardımlı 1930-cu ildən 1993-cü ilin ikinci yarısına qədər dövlətdən həmişə asılı vəziyyətdə olubdur. Rayonun tarixində iki dəfə iqtisadi dönüş baş veribdir. Rayonun iqtisadiyyatının əsasını əkinçilik, heyvandarlıq, tütünçülük təşkil edir. 1975-ci ildə təkcə Yardımlının yox, respublikanın bütün dağlıq rayonlarının iqtisadiyyatının yüksəldilməsi barədə Azərbaycan KP MK-nın qərarı oldu. Həmin qərar əsasında Yardımlı rayonunda da üzüm bağları salındı. Bunun da nəticəsində uzun illər təsərrüfatda işləyib əmək haqqı almayan adamların vəziyyəti yaxşılaşdı. Bunlar hamısı tarixi faktlardır, onu heç kəs inkar edə bilməz.

Cənab prezident, mən torpaq islahatının həyata keçirilməsi ilə əlaqədar onu bildirmək istəyirəm ki, respublikamızın bütün rayonlarında olduğu kimi, Yardımlıda da torpaq inventarizasiya edildi, əmlak uçota alındı, konkret planlar hazırlandı. Biz həmin plan əsasında da torpağı ayrı-ayrı ailələrə verdik. Nəticə göz qabağındadır.

Mən bir-iki rəqəmi misal gətirmək istəyirəm. 1985-1986-cı illərdə Yardımlıda kənd təsərrüfatı üçün bütün lazımi texnika olduğu halda, 2000-2500 hektar torpaqda əkin aparılırdı. Son nəticədə hər hektardan 180-200 kiloqram taxıl götürürdük. [255-256] Qoyulan xərcin hamısı itib-batırdı, camaat əliboş qalırdı.

Amma 1996-cı ildə Yardımlı rayonunun şəxsi təsərrüfatları, yəni torpaq alan ailələr 13 min hektar sahədə əkin apardılar və 19 min ton taxıl götürdülər.

Rayonumuzda 48 min əhali yaşayır. Keçən il Yardımlıda adambaşına 480 kiloqram taxıl istehsal olunubdur. Ötən il rayonumuzda 5 min tona qədər kartof, 15 min ton paxlalı bitkilər, bostan-tərəvəz məhsulları istehsal edilibdir. Bütün bunlar isə camaatımızın süfrəsinə daxil olubdur.

Mən daha bir neçə rəqəmi Sizin nəzərinizə çatdırmaq istəyirəm. 1996-cı ildə rayonumuzun ümumi gəliri 17 milyard manat olubdur. Lakin 1997-ci ildə ümumi gəlir 47 milyard manata çatıbdır. Bunun hamısı torpaq islahatının və özəlləşdirmə proqramının həyata keçirilməsi nəticəsində əldə edilibdir.

Cənab prezident, müxalifət qüvvələrinin nümayəndələri elə danışırlar ki, onlar guya bir iş görən adam olublar. Amma onların etdiklərinin hamısı göz qabağında idi. Təkcə bir faktı demək istəyirəm ki, 1993-cü ilin əvvəlində mən məcburiyyət qarşısında qalıb Dağıstandakı dostlarımın yanına adam göndərdim. Onlar gedib Dağıstandan 5 ton un gətirdilər, mən onu yardımlılar arasında kiloqram-kiloqram böldüm. İndi Yardımlı əhalisinin 98 faizi çörəyə pul vermir. Camaat yağla, ətlə, digər kənd təsərrüfatı məhsulları ilə özü-özünü təmin edir. Görəsən müxalifətin nümayəndələri hakimiyyətdə olsaydılar nə edəcəkdilər? Axı biz onların nə etdiklərini gördük. Görünür, aralarında elə bir ağıllı adam yoxdur, onları başa sala bilsin ki, axı haqqı danmaq olmaz.

Cənab prezident, mən başa düşürəm ki, aşağı pillədə müəyyən adamlar müxtəlif vəzifələrdə işləməlidir. Amma Siz çox əzab çəkirsiniz.

**H e y d ə r Ə l i y e v**: Mənim əzab çəkməyimlə sənin işin yoxdur. Mən sənə ona görə söz vermişəm ki, rəqəmlərdən da[256-257]nışasan. Burada başqa söz demək lazım deyil, mənim vaxtım yoxdur.

Deyirsən ki, vaxtilə 2000 hektar əkilib, indi isə 13 min hektar sahə əkilir. Sonra dedin ki, 19 min ton taxıl götürmüsünüz. Elədirmi?

**Ə l i Q u l i y e v**: Bəli. Rayonda mal-qaranın sayı 20 minə çatıbdır.

**H e y d ə r Ə l i y e v**: 19 min ton taxıl götürülübdür, mal-qaranın sayı 20 minə çatıbdır? Əvvəl nə qədər idi?

**Ə l i Q u l i y e v**: Əvvəllər mal-qaranın sayı 13-14 min idi. Qoyun-keçinin sayı qabaqlar 35-40 min idisə, hazırda 70 mindir.

**H e y d ə r Ə l i y e v**: Deməli, əvvəllər 35-40 min, indi isə 70 min qoyun-keçi, 20 min iribuynuzlu qaramal vardır. Keçən il 19 min ton taxıl götürmüsünüz. Rayonun ümumi gəliri 1996-cı ildə 17 milyard manat, keçən il isə 47 milyard manat olubdur. Axı Yardımlıda belə göstəricilər heç vaxt olmayıbdır.

Mən Yardımlını yaxşı tanıyıram. Ona görə də bu gün sən telefonda bu rəqəmləri mənə deyəndə dedim ki, mən sənə çıxış üçün söz verəcəyəm. Mən sənə bu rəqəmləri demək üçün söz vermişəm, təbliğat aparmaq üçün yox.

**Ə l i Q u l i y e v**: Cənab prezident, qoy müxalifətdə olanlar da bilsinlər ki, burada nə kolxoz sədrinin, nə də sovxoz direktorunun fəaliyyətindən söhbət getmir. Rayonun ümumi əhalisinin zəhməti üzərinə kölgə salmaq olmaz.

**H e y d ə r Ə l i y e v**: Başqa bir rəqəm varsa de, təbliğat aparma.

**Ə l i Q u l i y e v**: Söhbət açılası rəqəmlər də var, sözüm də çoxdur. Amma mən vaxt məhdudiyyətini nəzərə alıram. Təkcə onu demək istəyirəm ki, 1993-cü ilin yanvarında rayonumuzda müxtəlif markalı 56 şəxsi minik avtomobili olubdur. Amma bu gün rayonda 3500-ə qədər traktor, kombayn və digər kənd təsərrüfatı maşınları, «Mersedes», digər markalı minik avtomobilləri vardır. [257-258]

Əvvəllər Yardımlıda mişar daşını yalnız evlərin tinini düzəltmək üçün alırdılar. Ancaq indi rayonumuzda ildə 200-250 ailə mişar daşından çox müasir tipli, qəşəng evlər tikir.

Vaxtilə özümə ev tikdirdim, məni partiyadan çıxarmaq istədilər. Amma bu gün Yardımlıda elə evlər tikirlər ki, mənim evim onların yanında heç nədir.

**H e y d ə r Ə l i y e v**: Çünki o vaxtlar dövlətli adam hesab olunurdun, ona görə də partiyadan çıxarmaq istəyirmişlər. İndi tikilən evlər ondan yaxşıdırmı?

**Ə l i Q u l i y e v**: Bəli, çox-çox yaxşıdır. O vaxt bəlkə istəsəm də bu gün rayonda tikilənlər kimi ev tikə bilməzdim.

Cənab prezident, Siz bizim, Azərbaycanın ağsaqqalısınız. Siz Azərbaycan üçün zəhmət çəkirsiniz, cəfakeşlik göstərirsiniz.

**H e y d ə r Ə l i y e v**: Əyləş, təbliğat aparma.

Bu rəqəmlər özü-özlüyündə göstərir ki, bizim iqtisadi siyasətimiz nə qədər düzgündür və onun necə gözəl nəticələri vardır. Ola bilər, burada əyləşənlərin bəziləri Yardımlı rayonunu tanıyır, çoxları isə o qədər tanımır. Amma mən Yardımlı rayonunu yaxşı tanıyıram. Mən Yardımlı rayonunda ilk dəfə 1960-cı ildə olmuşam. Yardımlı və Lerik o vaxt Azərbaycanın ən kasıb dağlıq rayonlarından idi. Ona görə də mən Azərbaycana rəhbərlik edərkən çox çalışırdım ki, iqtisadi cəhətdən ən geridə qalmış rayonların iqtisadiyyatını inkişaf etdirim. 1970-1980-ci illərdə kənd rayonlarının əksəriyyətinin iqtisadiyyatı çox yüksəldi.

Burada düzgün qeyd edildi ki, 1975-ci ildə dağlıq rayonların sosial-iqtisadi problemlərinin həll olunması ilə əlaqədar böyük bir qərar qəbul etdik. Həmin qərara əsasən bu rayonların inkişaf etdirilməsi üçün çox iş görüldü. Lerik, Yardımlı rayonları üçün nəzərdə tutulan xüsusi bir tədbir də ondan ibarət idi ki, biz ora-

da üzümçülüyü geniş tətbiq etməyə başladıq. O vaxt Azərbaycanda üzümçülüyün tətbiq olunması tarixi bir hadisə idi. Biz üzümçülüyü dövlətin, sovet hökumətinin [258-259] bu sahəyə ayırdığı vəsait hesabına tətbiq edirdik. O dövrdə uzun müddət zəhmət haqqı ala bilməyən adamlara üzüm bağlarını şumlamaq, əkmək, becərmək üçün hələ məhsul götürmədən beş il ərzində yüksək əmək haqqı verilirdi. Mən dediyim bu beş il üzüm bağlarının məhsul verməsi müddətidir. Amma bizim saldığımız bağlar əslində o vaxt üç ildən sonra bəhrə verirdi, məhsul gətirirdi. Yenə də deyirəm, amma üzümçü məhsul götürmədən beş il müddətində məvacibini alırdı. Bilirsiniz ki, bu, rayonların çoxunda inkişafa səbəb oldu, nə qədər insan özü üçün ev tikdi, rayonlar abadlaşdı.

Mən fikirləşirdim ki, bəs bu dağlıq rayonlar necə olsun? Rəhmətlik akademik Həsən Əliyev bu işlərlə çox məşğul olurdu. O, bir neçə dəfə təklif verdi ki, Lerik, Yardımlı rayonlarında üzüm bağları salmaq olar. Doğrusu, çoxları buna inanmırdı, mən də inanmırdım. Çünki Lerik, Yardımlı dağlıq rayonlardır.

Bilirsiniz ki, dağlıq rayonlarda, adətən, üzüm bağları olmur. Üzüm bağları əsasən bizim aran rayonlarında, yaxud aran və dağlıq rayonların qovuşuğunda olur. Ancaq o, gəlib bizə sübut elədi ki, yox, mən təcrübə aparmışam, bu rayonlarda üzüm bağları salmaq və yaxşı nəticə əldə etmək olar. Biz Lerikdə və Yardımlıda üzüm bağları saldıq. O vaxt Yardımlı rayonunda 8 min ton üzüm məhsulu alınmışdı. Bu, rayon üçün böyük bir nəticə idi. Lerik rayonunda bundan da çox alınmışdı.

**Y e r d ə n s ə s** : Cənab prezident, 14 min ton.

**H e y d ə r Ə l i y e v**: Bəli, Lerikdə 14 min ton üzüm istehsal edilmişdi. Həmin rayon üçün bu, böyük bir iş idi. Ancaq hətta o da bugünkü iqtisadi nəticəni vermirdi. Çünki şübhəsiz ki, istehsal edilən məhsuldan gəlir əldə olunurdu, insanların həyat şəraiti yaxşılaşırdı. Amma axı indi bir çox sahələrdən gəlir götürülür. Əgər vaxtilə Yardımlıda cəmi 2 min hektar sahədə taxıl əkilirdisə, indi 13 min hektar əkilir.

Bilirsiniz, əgər 47 min əhalisi olan rayonda 19 min ton məhsul götürülübsə, görün hər bir adama nə qədər taxıl düşür. [259-260] Mən onu da xatırlayıram, vaxtilə sovet hökuməti - bilirsiniz ki, o vaxt mən həm burada, həm də Moskvada işləyəndə bu hökumətin rəhbər orqanlarında idim - ərzaq proqramı hazırlamışdı. Sovet İttifaqında bu proqramı həyata keçirməklə adambaşına bir ton taxıl götürmək qarşıya məqsəd qoyulmuşdu, amma heç kəs inanmırdı ki, ona nail olmaq mümkündür. Beləliklə, 300 milyon əhali var idi, demək, 300 milyon ton taxıl istehsal etmək qarşıya məqsəd qoyulmuşdu. Ancaq sovet hökuməti dövründə ən yaxşı vaxtda ildə 200-210 milyon ton taxıl götürülürdüsə, bu, böyük bir hadisə hesab olunurdu. Elə illər də olurdu ki, cəmi 160, 170, 180 milyon ton məhsul götürülürdü. Sovet İttifaqı əhalisini çörəklə təmin etmək üçün xarici ölkələrdən ildə təxminən 50-60 milyon ton taxıl alınırdı. Neft satılırdı, əvəzində xarici ölkələrdən - Amerikadan, Kanadadan taxıl alınırdı ki, camaat çörəksiz qalmasın.

Yəni, vaxtilə ən yüksək səviyyəli alimlərin və Rusiyanın çox yüksək taxıl məhsulu verən taxılçılıq vilayətlərinin cəlb edildiyi məqsədə indi Yardımlı rayonu iki ildə nail olubdur. Əgər Yardımlı adambaşına 500 kiloqram taxıl götürübsə, görün nə qədər imkanlar var. Bu, nəyin nəticəsidir? O vaxtlar biz nə qədər çalışırdıqsa, bu qədər məhsul ala bilmirdik. Orada taxıl əkilirdi, ancaq hər hektardan 7-8 sentner məhsul götürülürdü, ondan artıq alınmırdı. Məsələn, biz respublikada taxılın məhsuldarlığını orta hesabla 23-24 sentnerə qaldırmışdıq. Amma Yardımlıda ən yüksək nəticə 9 sentnerə çatırdı, bundan çox olmurdu. Lakin indi onlar heç özləri də hesablamırlar, hər hektardan nə qədər taxıl götürürlər ki, 19 min ton məhsul olur. Qaramalın sayı qısa müddətdə 5 min baş artıbdır. Bilirsiniz, biz bu nəticəni əldə etməyə nə qədər çalışırdıq? İribuynuzlu mal-qaranı orada-burada oğurlayırdılar, deyirdilər ki, bala olmadı, filan olmadı. Hər qoyundan, inəkdən neçə bala alanda qəhrəman olurdular və sair, - canımız artıq bunlardan qurtarıbdır. [260-261]

Bəli, sən evlərin tikilməsi haqqında söhbət açdın. Mən 1960-cı ildə o rayona ilk dəfə gəlmişdim. Orada evlərə baxdım, hamısı palçıqdan idi, heç kərpicdən də deyildi. Mən ora gedəndə Rayon Partiya Komitəsinin sınıq-salxaq bir binası var idi. O vaxt Milli Təhlükəsizlik Komitəsində işləyirdim, rayon şöbəsinin iki otaqdan ibarət binası var idi. Havalar soyuq idi, şaxtadan dondum, orada otura bilmədim. Amma deyirsən ki, indi Yardımlıda mişar daşından evlər tikilir. Yəqin ki, mişar daşı Bakıdan aparılıb. Bakıdan mişar daşı aparasan, ev tikəsən, - bu, çox yaxşı haldır.

Bütün bunlar bizim həyata keçirdiyimiz iqtisadi islahatların nəticələridir. Mən bu gün iqtisadi islahatların nəticələrini müzakirə etmək fikrində deyiləm. Sadəcə olaraq, bununla onu təsdiq edirəm ki, iqtisadi islahatları ardıcıl surətdə həyata keçirmək lazımdır. Mən əminəm ki, bu il, gələn il bütün sahələrdə, o cümlədən aqrar sektorda, kənd təsərrüfatında bizim iqtisadi göstəricilərimiz daha da yüksək olacaqdır.

Mən çox sevinirəm ki, yardımlılar indi belə yaxşı yaşayırlar. Çünki vaxtilə Yardımlı, Lerik və başqa dağlıq rayonların vəziyyəti üçün mənim ürəyim ağrıyırdı. İndi isə mən çox sevinirəm. Məndən həm yardımlılara, həm leriklilərə, həm də bütün rayonların əhalisinə salam çatdırın. Qoy belə işləsinlər, belə də nəticələr əldə etsinlər.

Bugünkü müşavirəmizin əsas məqsədi ondan ibarətdir ki, qarşıda olan bu böyük siyasi tədbirin həyata keçirilməsində sizin hər biriniz öz vəzifənizi layiqincə yerinə yetirəsiniz. Mən ümidvaram ki, bugünkü danışığımız sizə kömək edəcəkdir. Bu sahədə əsas məsələləri həll edən Mərkəzi Seçki Komissiyasının sədri Cəfər Vəliyevdir. Siz bu məsələləri onunla birlikdə həll edəcəksiniz. Sağ olun. [261]

## FRANSANIN MİLLİ BAYRAMI – BASTİLİYANIN ALINMASI GÜNÜ MÜNASİBƏTİLƏ FRANSANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*«Hyatt-Recensi-Naxçıvan» mehmanxanası*

*14 iyul 1998-ci il*

Hörmətli xanımlar və cənablar!

Sizi Fransanın milli bayramı – Bastiliyanın alınması günü münasibətilə ürəkdən təbrik edirəm. Sizə, bütün Fransa xalqına, vətəndaşlarına sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Fransız xalqı böyük və zəngin tarixə malikdir, bəşəriyyətə, bəşər tarixinə böyük töhfələr vermişdir. Dünyada elmin, mədəniyyətin, təhsilin inkişafında fransız xalqının müstəsna rolu vardır.

Demokratiyanın inkişafı, insan hüquqlarının qorunması sahəsində Fransanın bəşəriyyətə verdiyi töhfələr xüsusi qeyd edilməlidir. Bu gün Fransa dünyanın iqtisadi cəhətdən ən inkişaf etmiş ölkələrindən biridir.

Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının, ATƏT-in, Avropa Birliyinin, Avropa Şurasının fəal üzvü kimi Fransa dünya iqtisadiyyatında özünəməxsus rol oynayır və dünyada sülhün, əmin-amanlığın qorunmasında böyük xidmətlər göstərir. Fransa ilə Azərbaycan arasında əlaqələrin böyük və çox gözəl tarixi vardır. 1918-ci ildə Azərbaycanda yaranmış xalq cümhuriyyəti parlamentinin ilk sədri Əlimər[262-263]dan Bəy Topçubaşovun Azərbaycan Demokratik Respublikasının səlahiyyətli nümayəndəsi kimi Fransada fəaliyyət göstərməsi və bu ölkəni özünə ikinci vətən hesab etməsi bu əlaqələrin ən gözəl nümunələrindən biridir. Mən Əlimərdan bəy Topçubaşovun xatirəsinə göstərilən hörmətə və onun Parisdə yaşamış olduğu evə xatirə lövhəsinin vurulmasına görə Fransa hökumətinə təşəkkürümü bildirirəm.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Fransa ilə Azərbaycan arasında əlaqələr sürətlə inkişaf etməyə başlamışdır. Mən ölkələrimiz arasında əlaqələrin inkişafı sahəsində ötən illərdə əldə olunan nailiyyətləri müsbət qiymətləndirirəm. Azərbaycanda fransız dilinə, Fransa mədəniyyətinə olan hörmət və ehtiram bu illərdə xeyli artmışdır. Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirinin dəvəti ilə respublikamızın müxtəlif təbəqələrinin çoxsaylı nümayəndələrinin bu bayram günü şənliyə toplaşması da ölkəmizdə Fransaya olan böyük marağın təzahürüdür.

Biz ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı sahəsində də son illər yaxşı nailiyyətlər əldə etmişik. Bütün bunlar və mövcud vəziyyət Fransa–Azərbaycan əlaqələrində bir çox sahələrdə, xüsusən iqtisadiyyat sahəsində daha böyük uğurlar əldə edildiyini göstərir.

Fransa hökumətinin dünyada sülhün və əmin-amanlığın bərqərar olunması sahəsində göstərdiyi fəaliyyət xüsusi əhəmiyyət kəsb edir. Mən Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması sahəsində Fransanın fəaliyyətini xüsusi qeyd edirəm. Fransa ATƏT-in Minsk qrupunun üzvü və ötən ilin əvvəlindən Rusiya və Amerika Birləşmiş Ştatları ilə birlikdə Minsk qrupunun həmsədri kimi Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün çox ciddi addımlar atır. Mən Fransanın prezidenti hörmətli cənab Jak Şirakın bu münasibətlə səmimi fəaliyyətini və ardıcıl siyasətini xüsusi qiymətləndirirəm. [263-264]

Keçən ilin yanvar ayında Fransada rəsmi səfərdə olduğum zaman prezident Jak Şirakla apardığım danışıqlar, keçirdiyim görüşlər və ondan sonra beynəlxalq təşkilatların toplantılarında bizim görüşlərimiz və danışıqlarımız Fransa–Azərbaycan əlaqələrinin inkişaf etməsində böyük rol oynamışdır. Ümidvaram ki, Fransanın prezidenti Jak Şirak və Fransa hökuməti Ermənistan -Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması sahəsində bundan sonra da öz səylərini əsirgəməyəcəkdir, bunun nəticəsində biz Qafqazda sülhün və əmin-amanlığın yaranmasına nail ola biləcəyik. Hörmətli səfir, mən sizin nitqinizdə Fransanın bu barədə mövqeyinin bir daha bəyan edilməsini yüksək qiymətləndirirəm.

Bu gün biz buraya fransız xalqının böyük qələbəsi bayramı münasibətilə toplaşmışıq. Son günlər biz Fransanın yeni böyük bir qələbəsinin də şahidi olduq. Fransada keçirilən futbol üzrə dünya çempionatı yarışları dünyanın hər yerində, demək olar ki, hər bir qitədə çox böyük maraqla izlənildi. Bu yarışlar hamıda çox böyük maraq doğurdu. Futbol çox kütləvi, demək olar ki, dünyada çox böyük maraq cəlb edən bir oyundur. Futbol üzrə dünya çempionatının məhz sizin ölkənizdə keçirilməsi bütün futbol həvəskarlarının Fransaya və Parisə hörmət və ehtiramının əlaməti idi.

Bu futbol yarışlarını mən də televiziya vasitəsilə izləyirdim. Gizlətmirəm, çox həvəs göstərirdim ki, Fransa yığma futbol komandası qalib gəlsin. Düzü, heç inanmırdım ki, onlar dünya çempionatının qalibi olacaqlar. Ancaq bizim dostlarımız sübut etdilər ki, fransız xalqı başqa sahələrdə olduğu kimi, futbol yarışlarında da böyük nailiyyətlər əldə edə bilər. Bu yarışları televiziya ekranlarından izləyənlərin hamısı, o cümlədən mən də bütün fransızların bu qələbə üçün nə qədər çalışdıqlarının şahidi olduq. Bu qələbə fransızlara böyük sevinc gətirdi. Ona görə də bu gün ikiqat bayramdır. Onlardan biri Bastiliyanın alınması, digəri isə fransızların futbol üzrə [264-265] dünya çempionu olması bayramıdır. Mən bu bayram münasi-

bətilə sizi ürəkdən təbrik edirəm. Mən fransız xalqına təbriklərimi dostum prezident Jak Şiraka göndərdiyim təbrik məktubunda ifadə etmişəm.

Sizi bu iki bayram münasibətilə bir daha təbrik edirəm, sizin hamınıza cansağlığı, səadət arzulayıram. Bayramlarınız mübarək olsun. [265]

## BEYNƏLXALQ AMNİSTİYA TƏŞKİLATININ BAŞ KATİBİ PYER SANE CƏNABLARINA

Hörmətli cənab Pyer Sane!

Azərbaycanda insan hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində aparılan işə verdiyiniz yüksək qiymətə görə sizə öz minnətdarlığımı bildirirəm.

Müstəqillik qazandıqdan sonra demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu özünün inkişaf yolu seçən ölkəmiz qanunvericilik aktlarını beynəlxalq aləmdə yekdilliklə qəbul edilmiş dəyərlər əsasında yaratmağa başlamışdır.

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi məqsədi ilə ölkəmizdə hər bir insanın təbii və ayrılmaz hüququ olan yaşamaq hüququna əsaslı təminatlar verilmiş, insanın həyatdan məhrum edilməsi yolverilməz hesab olunmuşdur. Bununla da Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğvi ölkəmizin dünyəvi dövlət olduğunu bir daha sübut etmişdir.

İnsan hüquqlarının təmin edilməsi ölkəmizdə gedən böyük demokratik proseslərin tərkib hissəsi kimi daim dövlətin diqqət mərkəzində olan məsələlərdən biridir.

Yaxşı məlumdur ki, sülh olmadan insan hüquqlarına tam riayət olunması mümkün deyil. Sülh elə bir şəraitdir ki, bütün insanlar zorakılıqdan, qorxudan azad yaşayırlar və onların təhlükəsiz yaşamaq hüququ təmin edilir.

Burada xüsusi qeyd etmək istərdim ki, 1988-ci ildən bəri davam edən Ermənistanın Azərbaycana silahlı təcavüzü nəticəsində bir milyondan artıq soydaşımızın adi insan hüquqları pozulmuşdur. Lakin buna baxmayaraq, Azərbaycan Respublikası sülhsevər siyasətini davam edərək ölkədə siyasi [266-267] sabitliyə, vətəndaş həmrəyliyinə nail olmuş, hər bir insanın hüquq və azadlıqlarının müdafiəsi üçün ardıcıl və məqsədyönlü iş aparmışdır. Hesab edirəm ki, bütün bunlar Azərbaycanın insan haqlarına nə qədər hörmət etməsinə əyani sübutdur. Çünki insan haqları bizi insanilәşdirən mənbədir. İnsan haqları insan mövcudluğunun və birgə yaşayışının bünövrəsi olmaqla heç bir mədəniyyətə yad deyil və bütün millətlərə xasdır.

İnsan hüquqlarının qorunması gündəlik həyatımızda öz real təminatını tapmaqla yanaşı, həm də hüquqi normativ sənədlərdə reallaşmışdır.

Belə ki, Azərbaycan Respublikasında BMT-nin ümumdünya insan hüquqları Bəyannaməsinin 50 illik yubileyinin təntənəli keçirilməsi məqsədi ilə sərəncam imzalayaraq bu münasibətlə keçiriləcək tədbirlər proqramını təsdiq etmişəm. Proqramda ədliyyə, məhkəmə, prokurorluq, polis orqanlarının əməkdaşları, vəkillər və hüquq sahəsində ixtisaslaşan ali təhsil müəssisələrinin müəllimləri üçün insan hüquqlarına dair tədrisin təmin edilməsi nəzərdə tutulmuşdur. Əminəm ki, bu tədbirlərin həyata keçirilməsi hökumətimiz ilə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının İdarəsi arasında əlaqələrin inkişaf etdirilməsinə xidmət edəcəkdir. Həmçinin Azərbaycan Respublikasının hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının insan hüquqları üzrə mərkəzi arasında əməkdaşlıq proqramının imzalanması barədə sərəncam vermişəm.

Daha sonra Azərbaycanın konkret inkişaf mərhələsinə uyğun olaraq insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədi ilə insan hüquqlarının müdafiəsinə dair dövlət proqramı təsdiq edilmişdir.

Bu gün məqsəd ondan ibarətdir ki, hər bir şəxs insan hüquqlarının həyata keçirilməsində və qorunmasında öz məsuliyyətini dərk etsin. [267-268]

Hər bir şəxsin həyatında və cəmiyyətdə insan hüquqlarının reallığa çevrilməsi amalı ilə yaşayan Azərbaycan dövləti insan hüquqları sahəsində iyirmiyədək beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur.

Yəqin sizə məlumdur ki, bu ilin fevral ayında imzaladığım «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» fərmanla ölüm cəzasının tam ləğv edilməsinə dair öhdəlikləri nəzərdə tutan «Mülki və siyasi hüquqlar üzrə beynəlxalq paktın ikinci fakültətiv protokolu»na və insan hüquqları sahəsində mövcud olan digər beynəlxalq sazişlərə qoşulması barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə tapşırıq vermişəm.

Biz insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla, o cümlədən qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı böyük məmnuniyyətlə qəbul edirik. Avropa Şurası, ATƏT-in Demokratik İnstitutlar və İnsan Hüquqları Bürosu, Beynəlxalq Amnistiya, İnsan Hüquqlarını Müşahidə edən Helsinki Təşkilatı və digər beynəlxalq təşkilatlarla əməkdaşlığımızı inkişaf etdirmək üçün bütün imkanlardan istifadə edəcəyik.

Məsuliyyətlə deyə bilərəm ki, bu gün ölkəmizdə insan hüquqlarının müdafiəsi sahəsində aparılan işlər, qazanılan dəyərlər beynəlxalq norma və prinsiplərdən irəli gəlir və Azərbaycan Respublikası məhz bu prinsiplər vasitəsilə insan ləyaqətini bundan sonra da təmin etmək əzmindədir.

Hörmətlə

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 iyul 1998-ci il*

[268]

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ CƏNAB KOFİ ANNANA

Hörmətli cənab Baş katib!

Məmnuniyyətlə Sizin məktubunuzla tanış oldum. Toxunduğunuz məsələlərin vacibliyi şübhəsiz ki, bütün dövlətlərin diqqət mərkəzindədir.

Böyük ruh yüksəkliyi ilə Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illik yubileyini qeyd edirik. Məhz bu bəyannamədə insan hüquqları sahəsində ilk rəsmi sənədlərdən biri olmaqla onun mətnində təsbit olunmuş ümumbəşəri hüquqların dəyəri tam şəkildə səciyyələndirilir.

Bəşəriyyətin indiki inkişaf mərhələsi planetimizin sosial-siyasi və mənəvi simasının ən dərin dəyişiklikləri ilə əlamətdardır. Əlbəttə, bu dəyişikliklər müsbət xarakter daşıyır və beynəlxalq münasibətlərin abhavasına olduqca əlverişli təsir göstərir.

Azərbaycan Respublikası da baş verən proseslərdən kənarda qalmamışdır. Sülh və tərəqqi yolunda Azərbaycan dövləti öz siyasətini həmişə bəşəriyyətin yüksək və daimi dəyərlərinə - demokratiyaya, insan hüquqlarının və azadlıqlarının təmin edilməsinə yönəltmişdir.

Hörmətli dost!

Güman edirəm ki, Azərbaycanda son illərdə əldə edilmiş nailiyyətlərlə tanış olmaq sizin üçün maraqsız olmayacaq.

1995-ci ildə ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi və çoxpartiyalı parlamentinin seçilməsi cəmiyyətin demokratikləşdirilməsi və hüquqi dövlətin qurulması prosesinin ən vacib mərhələlərin[269-270]dən biridir. Konstitusiya, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin müddəalarını özündə əks etdirərək və demokratik cəmiyyətlərin təcrübəsini nəzərə alaraq yaradılmışdır. Qanunvericilik sistemində mövcud olmuş müstəsna cəza tədbiri - ölüm cəzası - dövlətimizə keçmiş Sovet İttifaqından acınacaqlı miras kimi qalmışdır. Halbuki 1993-cü ilin iyun ayından başlayaraq, Azərbaycanda ölüm hökmü icra olunmamış, faktiki olaraq onların icrasına tərəfimdən moratorium qoyulmuşdur. Sonradan bu moratorium reallığa çevrilərək, Azərbaycanda ölüm hökmünün ləğv edilməsi zərurətinə gətirib çıxarmışdır.

İnsan hüquqlarının təmin edilməsini ümumdövlət vəzifəsi hesab edərək, bu il fevralın 3-də ölüm cəzasının ləğv edilməsi təşəbbüsü ilə parlamentə müraciət etdim və humanist akt qəbul edildi.

Bununla da Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğvi ölkəmizin dünyəvi, demokratik və hüquqi dövlət quruculuğu yolunda mühüm bir addım oldu.

Lakin dövrümüzün reallığı ondan ibarətdir ki, insanların təhlükəsiz yaşamaq hüququ bir çox yerlərdə kobudcasına pozulur və bunların başlıca amili müharibələrdir.

Şübhəsiz ki, insan hüquqlarını təmin edən demokratik dövlət müharibəni birinci başlamaz. Burada xüsusi qeyd etmək istəyirəm ki, 1988-ci ildən bəri davam edən Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü nəticəsində on minlərlə insanlar həlak olmuş, onların yaşadıqları yerlər dağıdılmış, mədəni sərvətlər məhv olunmuş, ailə üzvləri arasında əlaqələr kəsilmiş, bir milyondan artıq soydaşlarımız öz yurdlarından didərgin düşmüş və böyük faciələrə düçar olmuşlar. Lakin bütün bunlara baxmayaraq, bir daha bəyan edirəm ki, Azərbaycan dövləti münaqişəni yalnız sülh yolu ilə həll etmək niyyətindədir. Biz sülhü insan həyatında ən ülvi məqsəd hesab edirik. Digər tərəfdən sülhün öz-özünə bərqərar olacağını he[270-271]sab etmək sadəlövhlük olardı. Müharibələr bütün bəşəriyyəti böyük bir təhlükə altında qoyur. Odur ki, bütün dövlətlər, beynəlxalq təşkilatlar və hər bir insan sülhün bərqərar olunmasında məsuliyyət daşıyır və onun qorunub saxlanılmasına öz səylərini əsirgəməməlidir.

Bu gün hər bir şəxsin həyatında və cəmiyyətdə insan hüquqlarının reallığa çevrilməsi amalı ilə yaşayan Azərbaycan dövləti insan hüquqları sahəsində 20-dək beynəlxalq konvensiya və sazişlərə, o cümlədən 1992-ci il iyulun 21-də «Uşaq hüquqlarına dair», 1995-ci il iyunun 30-da isə «Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında» konvensiyalara qoşulmuşdur və üzərinə götürdüyü öhdəliklərə sadiqdir.

Yəqin sizə məlumdur ki, bu ilin may ayında Azərbaycan hökuməti ilə BMT-nin İnkişaf Proqramının «Qadın hüquqları-insan hüquqları, Qadınlar hərbi münaqişələrdə» mövzusunda subregional konfransı keçirilmişdir.

İnsan hüquqlarının müdafiəsi sahəsində zəruri hüquqi mexanizmlərin yaradılması məqsədi ilə bu ilin fevral ayında «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» fərman, aprel ayında isə «Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyinin keçirilməsi haqqında» sərəncam imzalamışam və müvafiq tədbirlərin keçirilməsi barədə tapşırıqlar vermişəm. Bununla bağlı insan hüquqlarının müdafiəsinə dair dövlət proqramının təsdiq edilməsi, BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyi münasibətilə yubiley tədbirlərinin keçirilməsi üzrə komissiyanın yaradılması və BMT-nin Azərbaycandakı nümayəndəliyi ilə insan hüquqlarının müdafiəsinə dair proqramın hazırlanmasını, ölkəmizdə Ombudsman təsisatının, insan hüquqları problemləri üzrə elmi tədqiqat institutunun yaradılması barədə təkliflərimi xüsusilə qeyd etmək

istərdim. Bu günlərdə Azər[271-272]baycan hökuməti ilə BMT-nin İnsan Hüquqları Üzrə Mərkəzi arasında əməkdaşlıq proqramının təsdiqlənməsi gözlənilir.

Sizi əmin etmək istərdim ki, əldə etdiyimiz nailiyyətlərlə kifayətlənməyərək, biz demokratiyanın möhkəm binasının qurulması yolunda fəal iş aparmaqda davam edirik. Bu binada ölkəmizin hər bir vətəndaşı azad yaşamaq hüququna nail olacaq və onun ictimai quruluşu dünyanın ən zəngin nümunələrindən geri qalmayacaqdır.

Dərin hörmət və ehtiramla,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 iyul 1998-ci il*
[272]

**ƏDRNƏ BƏLƏDİYYƏSİNİN SƏDRİ**
**CƏNAB HƏMDİ SƏDƏFÇİYƏ**
**QIRXPINAR AĞASI**
**CƏNAB MÜSTAFA ŞAHİNƏ**

Hörmətli bələdiyyə sədri!
Hörmətli ağa!

Böyük tarixi ənənələrə malik Qırxpınar yağlı güləşi üzrə 637-ci yarışların başlaması münasibətilə sizi ürəkdən təbrik edirəm. Yarışda iştirak edən mindən artıq pəhləvanı salamlayır, onlara və yarışın təşkilatçılarına uğurlar arzulayıram.

Mühüm rəsmi səfərə yola düşdüyüm üçün bu yarışları ziyarət etmək imkanım olmadı. Ümid edirəm ki, əziz dostum və qardaşım, Türkiyə prezidenti cənab Süleyman Dəmirəl ilə birlikdə növbəti yarışları yaxından izləyə biləcəyəm.

Qəhrəman atalarımızın milli idmanı olan yağlı güləşin bütün türk dünyasına yayılması işində sizə müvəffəqiyyətlər diləyirəm. Bu yolda böyük xidmətlər göstərmiş dostum, Qırxpınar ağası Ağa Hüseyn Şahinin də tezliklə müalicəsini bitirib, sağ-salamat Qırxpınara dönməsini ürəkdən arzu edirəm.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 iyul 1998-ci il*
[273]

**İZMİR KARŞIYAKA BƏLƏDİYYƏSİNİN SƏDRİ**
**CƏNAB KAMAL BAYSAKA**

Hörmətli Kamal Baysak!

İzmir Karşıyaka Bələdiyyə Məclisi tərəfindən 1997-ci ilin İnsan haqları mükafatı ilə təltif olunduğuma görə sizə və məclisin bütün üzvlərinə dərin təşəkkürümü bildirirəm.

Azərbaycanın müstəqilliyi, ölkəmizdə demokratiyanın inkişafı və insan hüquqlarının müdafiəsi, Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin möhkəmləndirilməsi yolunda fəaliyyətimin bu cür yüksək qiymətləndirilməsi mənim üçün çox xoşdur.

Əvvəlcədən əldə edilmiş razılığa əsasən Londonda səfərdə olacağımdan mükafatın təqdimat mərasimində iştirak edə bilməyəcəyimə görə mənim adımdan məkafatı almağı Azərbaycan Respublikasının Türkiyədəki səfirinə həvalə edir və bir daha sizə öz minnətdarlığımı bildirirəm.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 iyul 1998-ci il*
[274]

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏTBUAT İŞÇİLƏRİNƏ

Hörmətli mətbuat işçiləri!

Sizi 22 iyul - Milli Mətbuat günü münasibətilə təbrik edir və hər birinizə səmimi arzularımı yetirirəm.

Azərbaycan mətbuatı yarandığı gündən xalqın arzu və istəklərinin ifadəçisinə çevrilərək onun yüksək əxlaqi dəyərlərinin, ictimai-siyasi ideallarının, mədəniyyətinin formalaşması, inkişafı və qorunmasına öz önəmli töhfələrini vermişdir.

Kütləvi informasiya vasitələri demokratiya və aşkarlığın mühüm vasitəsidir. Müstəqillik əldə etdiyi andan ümumbəşəri dəyərləri, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan Respublikası insan hüquqlarının, söz və mətbuat azadlığının qorunmasını ən mühüm vəzifə kimi irəli sürmüşdür. Ölkə Konstitusiyasında təsbit olunmuş fikir və söz azadlığı, siyasi plüralizm prinsipləri dövlətin mətbuat və informasiya siyasətinin əsasını təşkil edir.

Azərbaycanda çoxşaxəli mətbuat və informasiya sistemi yaradılmışdır. Yüzlərlə kütləvi informasiya vasitəsi - teleradio şirkətləri, informasiya agentlikləri, qəzet və jurnallar azad surətdə fəaliyyət göstərir. Onların müstəqil qurulması, sərbəst fəaliyyəti və inkişafı üçün bütün zəruri tədbirlər görülür.

Azərbaycanın mütərəqqi mətbuat ənənələrinin davam etdirilməsi və müasir beynəlxalq təcrübə ilə zənginləşdirilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması və professional səviyyəsinin yüksəldilməsi, onların imkanlarından hüquqi dövlət quruculuğunda, vətən[275-276]daş cəmiyyətinin formalaşdırılması və inkişafında, demokratik islahatların həyata keçirilməsində səmərəli istifadə edilməsi həm dövlətdən, həm də mətbuat işçilərindən xüsusi səy və ciddi məsuliyyət tələb edir. Dövlət jurnalistlərin qeyri-adi, zəhmət tələb edən əməyini qiymətləndirir, bu sahədə mövcud olan problemləri həll etmək üçün əlindən gələn hər şeyi edir və bundan sonra da edəcəkdir.

Əmin olmaq istədiyimi bildirirəm ki, Azərbaycanın kütləvi informasiya vasitələrində çalışan azad jurnalistlər ordusu respublikamızda və onun ətrafında baş verən hadisələrin geniş ictimaiyyətə çatdırılmasında və bütün dünyaya yayılmasında yüksək professionallıq, obyektivlik, prinsipiallıq, əsl dövlətçilik və vətəndaşlıq mövqeyi nümayiş etdirəcəkdir.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *19 iyul 1998-ci il*
[276]

## BÖYÜK BRİTANİYAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB

*19 iyul 1998-ci il*

**S u a l: Cənab prezident, Böyük Britaniya ilə Azərbaycan arasında olan münasibətlərin indiki səviyyəsi göstərir ki, Sizin Londona növbəti səfəriniz iki ölkə arasında münasibətlərin inkişafında yeni mərhələ açacaqdır. Bu barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Bəli, bizim ölkələrimiz arasında münasibətlər çox yaxşıdır. Bunların əsasını 1994-cü ilin fevral ayında mənim Böyük Britaniyaya ilk səfərim zamanı qoymuşuq. Biz o vaxt dostluq və əməkdaşlıq haqqında birgə bəyanat və bir çox müqavilələr, sazişlər imzalamışıq. Ona görə də bizim ölkələrimiz, dövlətlərimiz arasında bütün sahələrdə əməkdaşlıq etmək üçün lazımi, yetərli qədər hüquqi-normativ baza vardır. Bunun əsasında da bu əməkdaşlıq ötən illərdə inkişaf edibdir və bunun nəticələri göz qabağındadır.

Böyük Britaniyanın çoxsaylı şirkətləri Azərbaycanda fəaliyyət göstərir. Böyük Britaniya öz şirkətləri vasitəsilə Azərbaycana böyük sərmayələr, investisiyalar qoyur. İndi bu əlaqələri daha da yüksəyə qaldırmaq, inkişaf etdirmək üçün şübhəsiz ki, bu səfər əhəmiyyətlidir. Məni Baş nazir cənab Toni Bleyr dəvət edibdir. Mən bu dəvəti qəbul etmişəm və bu gün oraya gedirəm. Bizim görüşlərimiz, danışıqlarımız olacaqdır və hesab edirəm ki, yaxşı nəticələr verəcəkdir. [277-278]

**S u a l: Cənab prezident, səfər zamanı sənədlərin imzalanması nəzərdə tutulurmu?**

**C a v a b:** Bizim bütün sahələrdə mövqelərimizin bir daha müəyyənləşdirilməsi təsdiq ediləcəkdir. Əsas sənəd birgə bəyanat olacaqdır, amma başqa sənədlər də imzalanacaqdır.

**S u a l: Cənab prezident, icazə verin, Sizə ANS teleşirkəti adından səfərlə bağlı olmayan bir sual verim. Bu yaxınlarda müxalifətin mövqeyini əks etdirən şərtlərin bəziləri Sizin tərəfinizdən qəbul olundu. Yəni bu, böyük bir güzəşt kimi qiymətləndirilir. Amma indi müxalifət deyir ki, əgər Mərkəzi Seçki Komissiyasında altı yer müxalifətə verilərsə, biz seçkilərdə iştirak edərik. Kifayət qədər güzəşt addımı atmış iqtidar bu güzəştə də gedəcəkmi?**

**C a v a b:** Onda sən də de ki, «mənə beş yer verilməsə mən ANS-də işləməyəcəyəm». Bilirsiniz, bu məsələlər onlar dediyi kimi heç vaxt həll oluna bilməz. Çünki, «mən bunu istəyirəm, onu istəyirəm». Nə üçün? Sən belə danış ki, «mən ANS-də işləmək üçün gərək mənə üçqat məvacib verəsən». Deyə bilərsən?

**S u a l: Möhtərəm prezident, bu səfər çərçivəsində iqtisadi sahədə nələr gözlənilir?**

**C a v a b:** Ola bilər ki, iqtisadi sahədə neft yataqlarının müştərək istifadə olunması üçün böyük bir müqavilə imzalansın. Sağ olun. [278]

## BÖYÜK BRİTANİYANIN APARICI KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN YÜKSƏK VƏZİFƏLİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ* BƏYANAT VƏ SUALLARA CAVAB

*London, «Klaricis» mehmanxanası*

*20 iyul 1998-ci il*

Hörmətli xanımlar və cənablar!

Mən sizi salamlayıram və bu gün səhər sizinlə görüşməyimdən məmnun olduğumu bildirmək istəyirəm.

Bildiyiniz kimi, mən dünən axşam Londona, Birləşmiş Krallığa rəsmi səfərə gəlmişəm, bu gün və qarşıdakı günlərdə burada bir çox görüşlər keçirəcəyəm.

Mənim bu səfərim Azərbaycan ilə Birləşmiş Krallıq arasında mövcud olan əlaqələri inkişaf etdirmək məqsədi daşıyır. [279-280] Bildiyiniz kimi, bu əlaqələr 1991-ci ilin sonunda Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra yaranıbdır. 1992-ci ilin mart ayında Birləşmiş Krallıq ilə Azərbaycan arasında diplomatik əlaqələr yaranıb, 1993-cü ilin sonunda Birləşmiş Krallığın Bakıda səfirliyi açılıbdır. 1994-cü ilin yanvar ayında Birləşmiş Krallıqda – Londonda Azərbaycanın səfirliyi açılıbdır.

1994-cü ilin fevral ayında mənim - Azərbaycan prezidentinin Birləşmiş Krallığa ilk rəsmi səfərim olmuşdur. Bu səfər zamanı Birləşmiş Krallıq ilə Azərbaycan arasında bir çox hökumətlərarası vacib sənədlər imzalanmışdır. Bu sənədlərdən ən mühümü, ən əsası Böyük Britaniya ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında birgə bəyannamədir. Birləşmiş Krallığın Baş naziri və Azərbaycanın prezidenti tərəfindən imzalanmış bəyannamə ölkələrimiz arasında əlaqələrin ilk hüquqi-normativ bazasını yaratmışdır. 1994-cü ilin fevral ayında bir neçə başqa müqavilə də imzalanmışdır.

Ondan sonrakı dövrdə həm Londonda, həm də Bakıda Azərbaycan ilə Birləşmiş Krallıq arasında müqavilələr və sazişlər imzalanmışdır. Ölkələrimiz, dövlətlərimiz arasındakı əlaqələrin hüquqi-normativ bazası yetərli qədər yaranmışdır.

Ötən illərdə ölkələrimiz arasında, demək olar ki, bütün sahələrdə əməkdaşlıq yaranmış və genişlənmiş, iqtisadi əlaqələrimiz sürətlə inkişaf etməkdədir. Birləşmiş Krallığın bir çox böyük şirkətləri Azərbaycanda bizimlə müştərək işlər görürlər. Bu, birinci növbədə neft sahəsinə aiddir və onunla əlaqədar başqa sənaye sektorlarına aiddir. Eyni zamanda telekommunikasiya, infrastruktur və başqa sahələrdə də uğurlu əməkdaşlıq edirik.

Bilirsiniz ki, Azərbaycan Qafqazda yerləşən və çox strateji əhəmiyyətə, çox əlverişli coğrafi mövqeyə malik olan bir ölkədir. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu [280-281] prosesi gedir. Bu sahədə çoş işlər görülübdür. 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olunub və 1995-ci ilin noyabr ayında çoxpartiyalı sistem, demokratik prinsiplər əsasında Azərbaycanın ilk parlamenti seçilibdir.

Azərbaycanın həyatının bütün sahələrində demokratik islahatlar həyata keçirilir və bu proses siyasi, iqtisadi, sosial sahələri əhatə edir. İqtisadi sahədə Azərbaycan bazar iqtisadiyyatı yolu ilə getməyi özünün strateji yolu kimi müəyyən edib və bu yolla irəliləyir. Artıq bir çox iqtisadi islahatlar aparılıbdır. Özəlləşdirmə proqramı ardıcıl surətdə həyata keçirilir. Aqrar sahədə islahatlar aparılır, biz torpağın xüsusi mülkiyyətə, yəni kəndlilərə verilməsi haqqında qanun qəbul etmişik. Bunu həyata keçiririk və müsbət nəticələrini əldə edirik.

Həyata keçirilən islahatlar əvvəlki illərdə iqtisadiyyatda ardıcıl surətdə davam edən geriləmənin qarşısını alıb və son illərdə iqtisadiyyatda artım müşahidə olunur. Bu, şübhəsiz ki, vətəndaşlarımızın rifah halının az da olsa yaxşılaşmasını təmin edibdir.

Sizə məlumdur ki, Azərbaycanın böyük və ağrılı problemi də var. Hələ 1988-ci ildə, Azərbaycan Sovetlər İttifaqının tərkibində olduğu zaman, Ermənistanın Azərbaycana qarşı təcavüzü başlayıbdır. O il, 1988-

---

* Görüşdə «Tayms» qəzeti redaktorunun xarici məsələlər üzrə müavini Riçard Biston, «Qardian» qəzetinin diplomatik redaktoru Yan Börkl, «İnterneşnl Herald Tribün» qəzetinin London redaktoru Tom Borkl, «Observer» qəzetinin xarici xəbərlər üzrə redaktoru Leonard Doyl, «Yueropean» qəzetinin xarici xəbərlər üzrə redaktoru Robert Foks, «Si-En-En» televiziyasının büro rəisi Çarlz Hof, «Deyli Teleqraf» qəzetinin diplomatik redoktoru Kristofer Lokvud, həmin qəzetin aparıcı jurnalisti Saymon Skott Plamer, «Radio «4» stansiyasının aparıcısı, «Ceyms» informeşn qrup»un direktoru Alfred Rolinqton, «Ekonomist» jurnalının Avropa üzrə redaktoru Ksən Smayli, «Müstəqil televiziya xəbərləri»nin İTN-in baş redaktoru Riçard Teyt, «Faynenşl Tayms» qəzetinin xarici məsələlər üzrə nümayəndəsi Stefan Uoqstil, həmin qəzetin neft və qaz məsələləri üzrə müxbiri Robert Korzayn, Böyük Britaniya Xarici İşlər Nazirliyi İnformasiya İdarəsinin nümayəndəsi Çarlz Hey və başqaları iştirak edirdilər.

ci ildə Ermənistan Azərbaycanın tərkibində olan Dağlıq Qarabağ vilayətini Azərbaycandan ayırıb özünə birləşdirmək məqsədi ilə bu təcavüzə başlayıbdır. Sonra müəyyən səbəblərdən bu təcavüz genişlənib və nəhayət, müharibəyə çevrilibdir. Müharibə nəticəsində Azərbaycanın ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. İşğal edilmiş torpaqlardan bir milyondan artıq azərbaycanlı öz yerindən-yurdundan zorla çıxarılıbdır. Onlar indi Azərbaycanın başqa regionlarında qaçqın-köçkün vəziyyətində, ağır şəraitdə və əksəriyyəti çadırlarda yaşayırlar. [281-282]

1994-cü ilin mayında biz atəşi, müharibəni dayandırmışıq. Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş imzalanıbdır və münaqişənin sülh yolu ilə həll edilməsinə çalışırıq. Bu məsələ ilə ATƏT-in 1992-ci ildə yaratdığı Minsk qrupu məşğul olur. ATƏT bu məsələni 1994-cü ilin dekabr ayında Budapeşt zirvə görüşündə, 1996-cı ilin dekabr ayında Lissabon zirvə görüşündə müzakirə edibdir. 1996-cı ilin dekabrında Lissabon zirvə görüşündə bu münaqişənin sülh yolu ilə həll edilməsi üçün prinsiplər müəyyən olunmuşdur. Bu prinsiplər aşağıdakılardır: birincisi, Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması; ikincisi, Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində özünüidarəetmə statusu verilməsi; üçüncüsü, Dağlıq Qarabağın bütün əhalisinin – həm azərbaycanlıların, həm də ermənilərin təhlükəsizliyinin təmin edilməsi.

Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa 1997-ci ildə bu prinsiplər əsasında təkliflər hazırlayıb irəli sürmüşlər. Keçən il, 1997-ci ilin sentyabr ayında bu təkliflər Minsk qrupunun həmsədrləri tərəfindən həm Azərbaycana, həm də Ermənistana təqdim olunmuşdur. Biz bu təklifləri məsələnin həlli üçün, sülh danışıqlarının aparılması üçün əsas kimi qəbul etmişik. Ermənistanda isə bu təkliflər keçən il qəbul olunmuşdur. Sonra isə hələ ki, bu təkliflərə münasibət göstərilməyibdir.

Beləliklə, dörd ildən artıqdır ki, atəş yoxdur. Ancaq sülh də yaranmayıbdır. Azərbaycana vurulmuş bütün zərbələrə baxmayaraq, biz məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarıyıq və bu sahədə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Mən umidvaram ki, Birləşmiş Krallıqda olduğum zaman bizim çox səmərəli danışıqlarımız olacaq və Birləşmiş Krallıq ilə Azərbaycan arasındakı əlaqələri bütün sahələrdə irəliyə aparmaq, inkişaf etdirmək üçün lazımi müştərək tədbirlər görə [282-283] biləcəyik. Biz bunu istəyirik və bu məqsədlə də mən Londona gəlmişəm.

Diqqətinizə görə təşəkkür edirəm. İndi isə, əgər lazım olsa, suallara cavab verməyə hazıram.

**K r i s t o f e r  L o k v u d**: Burada mənim əlimin altında sizin, Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatı var. Bu bəyanatda Xarici İşlər Nazirliyi Rusiyanı Azərbaycanla Ermənistan arasındakı münasibətlərin destabilizasiya olunmasında günahlandırır. Xüsusilə, Rusiyanı Ermənistana silah verilməsində, C-300 raketlərinin göndərilməsində günahlandırır. Xahiş edərdim bu məsələ ilə əlaqədar Siz öz fikirlərinizi açıqlayasınız.

**H e y d ə r  Ə l i y e v**: Şübhəsiz ki, Xarici İşlər Nazirliyinin bəyanatı elə mənim fikirlərimdir. Bilirsiniz ki, prezidentin razılığı olmasa, xarici işlər naziri belə bəyanatlar verə bilməz. Ancaq mən sizin sualınızı anlayıram. Yəqin ki, siz nəyisə dəqiqləşdirmək istəyirsiniz. Həqiqətən, bu məsələ bizi çox narahat edir. İndi Cənubi Qafqazda, Zaqafqaziyada üç müstəqil dövlət var: Gürcüstan, Azərbaycan, Ermənistan. Bu respublikaların üçü də keçmişdə Sovetlər İttifaqının müttəfiq respublikaları olmuşlar.

Mən artıq sizə bildirdim ki, hələ Sovetlər İttifaqının tərkibində olarkən - 1988-ci ildə Ermənistan Azərbaycana qarşı təcavüzə başlayıbdır. Mən hesab edirəm ki, o vaxt Sovetlər İttifaqının başçıları, hökuməti bu münaqişənin qarşısını ala bilərdilər. Ancaq bunu etməyiblər və mənim fikrimcə, bunu ona görə etməyiblər ki, o vaxtlar, hələ Sovetlər İttifaqının tərkibində olarkən Ermənistanla Azərbaycana münasibət eyni olmayıbdır.

SSRİ dağılandan sonra Azərbaycandan Sovetlər İttifaqının ordu hissələri, deməli, Rusiyanın ordu hissələri çıxarılıbdır. Bilirsiniz ki, Sovetlər İttifaqı dağılandan sonra Rusiya, Sovetlər İttifaqının varisi kimi onun hərbi hissələrinin də sa[283-284]hibi oldu. Ancaq Ermənistanda və Gürcüstanda Rusiyanın hərbi hissələri indiyə qədər var. Özü də nəinki keçmişdə olan hərbi hissələri var, son illər Rusiyanın Ermənistandakı hərbi hissələrini çox gücləndiriblər.

Keçən il, 1997-ci ilin avqust ayında Rusiya ilə Ermənistan arasında böyük bir hərbi müqavilə imzalanıb, - hərbi müttəfiqlik haqqında, - Rusiyanın Ermənistanda olan hərbi hissələrinə Rusiyanın hərbi bazaları statusu verilibdir. Biz buna etiraz etmişik və bu gün də etiraz edirik. Çünki Ermənistanla Azərbaycan arasında hərbi münaqişə var.

Ermənistan da, Azərbaycan da MDB-nin üzvləridir. Azərbaycan MDB-nin üzvü olduğuna görə Azərbaycanın prezidenti kimi mən MDB-də bəyan etmişəm ki, MDB-yə daxil olan dövlətlər arasında hərbi münaqişə olmamalıdır və olan bu münaqişələr də ləğv edilməlidir.

Beləliklə də, Rusiya MDB-nin üzvü olduğuna görə Azərbaycanla, Ermənistanla eyni münasibətdə olmalıdır. Ancaq buna baxmayaraq, Rusiya Ermənistandakı hərbi hissələrini ilbəil genişləndirir və gücləndirir. İyul ayının 15-16-da Rusiyanın müdafiə naziri Ermənistanda olduğu zaman orada hərbi hissələrdə olub, çıxışlar edib, bəyanatlar veribdir. Hətta bəyan edib ki, biz buraya C-300 raketləri də gətirəcəyik. Biz bu məsələlərə biganə qala bilmərik. Çünki Rusiyanın hərbi hissələrinin Ermənistanda olması Ermənistana daha da çox silahlanmaq üçün imkanlar yaradır.

Azərbaycanın işğal olunmuş torpaqlarında Ermənistanın silahlı qüvvələri yerləşibdir və bizə məlumdur ki, Rusiyanın Ermənistanda yerləşmiş hərbi hissələrində xidmət edənlərin təxminən 50 faizi yerli erməni millətinə və Ermənistan vətəndaşlığına mənsub olan adamlardır. Bu, məsələnin bir tərəfidir.

İkinci tərəfi isə ondan ibarətdir ki, hələ keçən ilin əvvəlində, yəni 1997-ci ilin mart ayında Rusiyanın rəsmi dairələri öz[284-285]ləri bəyan etdilər ki, son üç ildə Rusiyanın Müdafiə Nazirliyi qanunsuz, gizli olaraq Ermənistan silahlı qüvvələrinə 1 milyard dollar dəyərində cürbəcür xarakterli silah və hərbi sursat vermişdir. Biz buna etiraz etmişik. Mən Rusiyanın prezidenti Boris Yeltsinə müraciət etmişəm ki, bu məsələ ilə əlaqədar araşdırma aparılsın, Ermənistana qeyri-qanuni, gizli verilmiş silahlar geri qaytarılsın. Ancaq bu barədə də bir iş görülməyib və üstəlik, indi Rusiyanın müdafiə naziri gəlib Ermənistanda belə bəyanatlar verir. Bu bizi çox narahat edir və ümumiyyətlə, Qafqazda vəziyyəti gərginləşdirir. Ona görə də Azərbaycanın Xarici İşlər Nazirliyi belə bir bəyanat veribdir.

**R i ç a r d  B i s t o n**: Azərbaycandan Qara dənizə çəkiləcək ixrac boru kəmərləri barədə kifayət qədər danışılıbdır. Bilmək istərdim ki, son dövrlərdə İranda baş verən hadisələr, xüsusilə, İranda liberal qüvvələrin hakimiyyətdə təmsil olunması, İran ilə Qərb arasında münasibətlərin mülayimləşməsi gələcəkdə əsas boru kəmərinin İrandan keçməsi imkanını yaradırmı? Beləliklə, gələcəkdə Azərbaycandan boru kəmərlərinin Qərbə deyil, Cənub istiqamətində, İran ərazisindən çəkilməsi ehtimalı varmı?

**H e y d ə r  Ə l i y e v**: Bildirmək istəyirəm ki, Xəzər dənizi hövzəsində həddindən çox neft ehtiyatları vardır. Bu, həm Azərbaycanın ərazisində və Xəzərin Azərbaycana məxsus olan sektorundadır, eyni zamanda Xəzərin şərq sahilində - Qazaxıstanın və Türkmənistanın neft yataqlarıdır, Xəzərin Qazaxıstan, Türkmənistan və Rusiya sektorlarında olan zəngin neft yataqlarıdır. Güman edirəm ki, Xəzərin İran sektorunda da neft yataqları var. Ona görə də bu neft və qaz məhsulunun gələcəkdə dünya bazarlarına uzunmüddətli ixrac edilməsi üçün bir neçə neft kəməri ola bilər. Güman edirəm ki, bu, belə də olacaqdır.

Ancaq biz indi bugünkü məsələ üzərində işləyirik. O da ondan ibarətdir ki, 1994-cü ilin sentyabr ayında biz dünyanın [285-286] böyük neft şirkətləri ilə, o cümlədən Birləşmiş Krallığın «Bi-Pi» şirkəti ilə, «Remko» şirkəti ilə də böyük bir müqavilə imzalamışıq. Bu müqavilə əsasında biz təxminən 2003-2005-ci illərdə həmin bu müqavilə sahəsindən ildə 40 milyon tona qədər neft hasil edəcəyik. Ona görə də bu müqavilə imzalanarkən əsas neft kəməri orada yazılıbdır. Biz Azərbaycandan əsas neft kəmərinin Gürcüstan ərazisi vasitəsilə Türkiyə ərazisinə Bakı-Ceyhan marşrutu ilə keçirilməsini nəzərdə tutmuşuq. Azərbaycan bu gün də bu fikirdədir.

Ancaq bu böyük neft kəməri hələ çəkilənə qədər biz neftin ixracını təmin etməliyik. Ona görə də Bakıdan Qara dənizə, Rusiyanın Novorossiysk limanına bir neft kəməri artıq çəkilibdir, işləyir. Biz keçən ilin noyabr ayında aldığımız ilk nefti bu kəmərdə ixrac edirik. Azərbaycandan, Bakıdan Gürcüstanın Qara dəniz sahilindəki Supsa limanına boru kəməri çəkilir. 1999-cu ilin əvvəlində bu kəmərin tikintisi də başa çatacaq və şübhəsiz ki, biz ondan istifadə etməyə başlayacağıq. Ancaq bu neft kəmərlərinin tutumu böyük deyildir. İkincisi də, onlar nefti Qara dənizdə olan limanlara nəql edir,oradan isə tankerlərlə başqa yerlərə daşımaq lazım olur. Bakı-Ceyhan neft kəməri isə birbaşa Xəzər dənizi hövzəsindən təkcə Azərbaycan neftini yox, gələcəkdə Qazaxıstan, Türkmənistan neftini də Aralıq dənizindəki Ceyhan limanına nəql etmək məqsədi daşıyır. Bu,bizim əsas qərarımızdır.

Ancaq eyni zamanda, əgər şərait imkan versə, İrandan da bir neft kəməri keçə bilər. Ola bilər, Mərkəzi Asiyadan Şərq ölkələrinə də başqa bir neft kəməri olsun. Bunları istisna etmək olmaz.

**R u b e n  X a l a d**: Mən Sizə bir ümumi sualla müraciət etmək istəyirəm. Səhv etmirəmsə, sonuncu dəfə Sizi ya 1986-cı, ya da 1987-ci ildə Qızıl meydanda görmüşəm. O zaman Siyasi Büronun üzvü kimi Siz orada paradın qəbul olunmasında iştirak edirdiniz. Səhv etmirəmsə, 1987-ci ildə Siz Siyasi Bürodan [286-287] istefa vermisiniz. Bilmək istərdim ki, Siz o zamanlar Azərbaycanın bir müstəqil dövlət olacağı barədə düşünürdünüzmü?

**H e y d ə r  Ə l i y e v**: Düşünürdüm. Mən daim Azərbaycanın müstəqil olmasını arzu etmişdim. Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi yaşaması üçün mən vaxtilə Azərbaycanın rəhbəri olduğum zaman, hesab edirəm ki, az iş görməmişdim. Moskvada Siyasi Büronun üzvü olmaqla bərabər, mən eyni zamanda Sovetlər İttifaqının Nazirlər Soveti sədrinin birinci müavini, yəni Baş nazirin birinci müavini idim. Bu işlərdə işləmək yalnız öz xalqıma xidmət etmək məqsədi daşımışdır.

Biz hamımız, o cümlədən mən də bizdən əvvəl, yəni bizim iştirakımız olmadan yaranmış bir quruluşda, bir dövlətdə yaşayırdıq. Belə bir dövlətdə, belə bir quruluşda yaşayaraq öz xalqıma, öz millətimə xidmət etmək mənim üçün əsas məqsədlərdən biri idi. Mən bunu Azərbaycanın başçısı olduğum zamanda da, - təxminən on dörd il, - hər gün etmişdim, Moskvada işlədiyim zaman da etmişdim. 1987-ci ilin oktyabr ayında Moskvada bütün vəzifələrdən istefa verməyimin də əsas səbəblərindən biri o idi ki, o vaxt Sovetlər İttifaqına mənsub olan millətlərə, ayrı-ayrı xalqlara ədalətli münasibət göstərilmirdi və bu məsələlərdən mən narazı idim.

Mən indi sizə danışdım, - Moskva, Rusiya Cənubi Qafqazda olan xalqlara, respublikalara eyni münasibət göstərmir. Mən sizə konkret faktlar gətirdim. Amma bu, yeni şey deyildir. Biz Sovetlər İttifaqının tərkibində olanda da bunu hiss edirdik. Mən Siyasi Büronun üzvü idim, amma hiss edirdim ki, bu Siyasi Büro və xüsusən Sovetlər İttifaqının lap böyük rəhbərləri hər bir xalqa eyni münasibət göstərmirlər. Bunlar məndə Azərbaycanın müstəqil olması hisslərini daha da gücləndirmişdi.

Təsadüfi deyil ki, mən istefaya gedəndən sonra və xüsusən 1990-cı ildə, hələ Sovetlər İttifaqı dağılmamışdan əvvəl artıq [287-288] açıq çıxış edirdim ki, Azərbaycan müstəqil olmalıdır və Sovetlər İttifaqı dağılmalıdır. 1990-cı ilin yanvar ayında Qorbaçovun göstərişi ilə sovetlərin böyük qoşun hissəsi Bakıya yeridilib qırğın törətdikdən sonra mən Kommunist Partiyasını tərk etdim, bəyanat verdim və Azərbaycanın müstəqil olması haqqında çıxışlar etdim.

Sizi razı sala, sualınıza cavab verə bildim? Mən sizinlə görüşümdən məmnunam. Əgər 1987-ci ildə görüşəndə belə danışa bilməmişiksə, indi danışırıq. Amma 1986-cı ildə mən Moskvada mətbuat mərkəzində xarici müxbirlərlə böyük bir mətbuat konfransı keçirmişdim. Ola bilər ki, siz orada olmamısınız, çünki mən orada çox suallara cavab vermişdim.

**R o b e r t  M u r**: O zaman mən də həmkarım kimi, Qızıl meydanda Silh müşahidə edənlər arasında olmuşdum. İstərdim ki, keçmiş Siyasi Büronun üzvü, Sovet İttifaqını yaxşı tanıyan bir şəxs, təcrübəli dövlət xadimi kimi Rusiyanın gələcəyi barədə Sizin fikirlərinizlə tanış olaq. Sizcə, Rusiyada demokratik proseslər o qədər dərin kök atıbmı ki, geriyə dönmək prosesi mümkün olmasın? Yaxud, Bakıdan baxarkən Rusiyanın gələcəyi barədə nə kimi narahatlıq yaranır? Rusiyanın gələcək taleyi barədə nə deyə bilərsiniz? Xüsusilə, istərdik ki, Sizin Yeltsin və qarşıdakı əsr barədə fikirlərinizi bilək.

**H e y d ə r  Ə l i y e v**: Mən məmnuniyyətlə cavab verərəm. Bilirsiniz, mən ümumiyyətlə, proqnoz verməkdən həmişə çəkinirəm. Cürbəcür tədqiqatlar aparıb proqnoz verənlərə də o qədər inanmıram. Çünki mənim böyük həyat təcrübəm var.

**R o b e r t  M u r**: Biz tədqiqat işləri aparırıq və çörəyimiz də ondan çıxır.

**H e y d ə r  Ə l i y e v**: Elə sizin çörəyinizin çıxması üçün də müəyyən cavablar verəcəyəm. Amma siz tədqiqatçısınız, mən isə əməli fəaliyyət göstərən adamam. Mən cürbəcür proqnozların həyata keçməməsinin dəfələrlə şahidi olmuşam. [288-289]

Rusiya haqqında indi dəqiq fikir demək çox çətindir. Mən sizə açıq deyim: Rusiyadakı vəziyyət sizi maraqlandıran kimi, Azərbaycanı, bizi də maraqlandırır, hətta bizi narahat edir. Çünki biz bilavasitə Rusiya ilə sərhəddəyik və ətrafımız Rusiya qoşunları ilə doludur. Əgər hələ nəzərə alsanız ki, Rusiya indi İranla çox əməkdaşlıq edir və sizə dedim ki, Ermənistanla əməkdaşlıq edir. Biz bu üçlük alyansının ortasındayıq, ona görə də Rusiya bizi çox narahat edir.

Rusiyada iqtisadi vəziyyət çox gərgindir. İndi ölkə iqtisadi böhran keçirir. Beynəlxalq valyuta fondu söz verib onlara 15 milyard dollar kredit ayırsın. Amma kreditin şərtləri də çox ağırdır. Gələcəkdə bu kreditin altından necə çıxacaqlar, - mən bilmirəm. Məsələn, baxmayaraq ki, bizdə 1 milyon qaçqın var və çox çətin şəraitdə yaşayırıq, biz heç vaxt belə kreditləri qəbul eləyə bilmərik. Çünki mən tək bu gün üçün yox, gələcək üçün də düşünürəm. Bəlkə də mənim yaşımda olan adam fikirləşərdi ki, nə kredit lazımdırsa alım, öz dövrümü yaşayım, gələcəkdə nə olur-olsun. Amma mən xalqımın gələcəyi haqqında bugünkündən daha çox düşünürəm. Xalqımın gələcəyi haqqında da düşünərək Rusiyadakı vəziyyətdən narahatam.

İndi orada kommunistlər müxalifətdədirlər. Məsələn, Azərbaycanda kommunistlər yoxdur. Sual olunur - bəs nə üçün? Sizin səfir də bunu yaxşı bilir. Nə üçün? Çünki Azərbaycanın bir nömrəli kommunisti Heydər Əliyev idi. Heydər Əliyev Kommunist Partiyasından hələ 1990-cı ildə imtina etdiyinə görə, qalanları Heydər Əliyevə o qədər inanırlar ki, bu gün Azərbaycanda Kommunist Partiyasına inam yoxdur. Bağışlayın, mən özümü tərifləmək istəmirəm, ancaq bu fakt yəqin sizə sübut edər ki, Heydər Əliyevə Azərbaycanda inanırlar.

Yeltsin də keçmiş kommunistdir, mənimlə bərabər Siyasi Büronun tərkibində idi. Düzdür, mən Siyasi Büronun üzvü idim, o, Siyasi Büro üzvlüyünə namizəd idi. Ancaq Kommu[289-290]nist Partiyasının ən böyük təşkilatının - Moskva Partiya Təşkilatının başçısı idi. İndi o, kommunistlərdən imtina edibdir. Amma Rusiyada olan adamlar, çoxları kommunistlərdən imtina etməyiblər.

Mən məsləhət görürəm ki, tədqiqatçı kimi siz bu paralellərə bir az fikir verəsiniz. Məsələn, mən Yeltsinlə və Rusiyanın indiki demokratik hökuməti ilə yaxşı əlaqələr yaradıram. Amma Rusiyanın kommunistləri ilə mənim əlaqəm yoxdur. Ayrı-ayrı respublikalarda, məsələn, Ermənistanda Kommunist Partiyası var, özü də güclüdür, Gürcüstanda da Kommunist Partiyası var, o da güclüdür və Rusiyada olan kommunist partiyaları onlarla əlaqədədir. Amma Azərbaycanda yoxdur və heç bir əlaqə də saxlaya bilmirlər.

Mən öz fikrimi deyirəm ki, Rusiya gərək demokratik prosesləri inkişaf etdirsin və Kommunist Partiyasının hakimiyyətə gəlməsinə imkan verməsin. Ona görə də Yeltsinlə bərabər, başqa liderlər də olmalıdır, hansılar ki, Kommunist Partiyasının liderlərinə qarşı dura bilərlər. Amma orada bəzi siyasi xadimlər var, doğrudan da, müəyyən bir nüfuza malikdirlər, ancaq onlar hansı məsləkə qulluq edirlər, - onu da mən başa düşmürəm. Rusiyada na olacaq? Mən bunu deyə bilmərəm. Amma inanıram ki, Rusiyanın tutduğu bu demokratik yol inkişaf edəcəkdir. Yəni, kommunistlərin, kommunist sisteminin bərpa olunması mümkün deyildir.

Məsələn, mən sizə bir şey deyə bilərəm. Biz iki il bundan öncə parlamentdə qanun qəbul etmişik - torpağın şəxsi mülkiyyətə verilməsi haqqında. İnsanlara torpağı həm satmaq, həm də almaq hüququ verilibdir. Bu da yaxşı nəticələr verir. Prezident Yeltsin çalışır ki, belə bir qanun qəbul etsin, amma bu qanunu parlamentdən keçirə bilmir. İki gün bundan öncə bu məsələ yenə də parlamentdə müzakirə edildi. Bəyan etdilər ki, Rusiyada torpağın satılmasına-alınmasına icazə vermək olmaz. Onların belə çətin problemləri

var. Ru[290-291]siyada özəlləşdirmə çox geniş gedibdir, aqrar sektordan başqa. Amma bu, hələ ki, onlarda iqtisadiyyatın inkişaf etməsinə bir şərait yarada bilməyibdir.

Mən bilmirəm, onlar nə üçün vergiləri yığa bilmirlər. Məsələn, biz yergiləri yığırıq və insanlara məvacib də veririk. Baxmayaraq ki, neftin qiyməti, bilirsiniz, çox aşağı düşübdür. Bizim gəlirimizin çoxu neftdən gəlir. Ona görə bu il iqtisadiyyatımızda müəyyən gərginlik əmələ gəlibdir. Amma buna baxmayaraq, biz vergiləri yığırıq və özü də daha da artıqlaması ilə yığıb bu vəziyyətdən çıxırıq.

Mən hesab edirəm ki, Rusiyada bu demokratik qüvvələr nəhayət, qalib gələcəklər. Mən nəinki bunu belə hesab edirəm, bunu çox arzu edirəm. Əgər bu olmasa, Rusiya yenə də imperiyaya çevriləcəkdir. Hələ bu gün də Rusiyada imperiya əhval-ruhiyyəsi var. Ona görə də mən həmişə deyirəm ki, bizə demokratik Rusiya lazımdır. Müasir Rusiya, yeniləşmiş Rusiya lazımdır. Biz yenidən rus imperiyası ilə yaşamaq istəmirik. Çünki biz iki yüz il rus imperiyasının hakimiyyəti altında yaşamışıq. Proqnoz verməyərək, mən bu fikirləri sizə çatdırdım.

**S t e f a n U o q s t i l**: İcazənizlə, bu sualın davamı olaraq Sizə belə bir sualla müraciət edim: Sizcə, Rusiyanın yeni imperiya kimi meydana çıxmasının qarşısını almaq üçün Qərb nələr etməlidir? Xüsusilə, mən istərdim ki, Qərbin Qafqaz bölgəsinə olan münasibəti barədə Sizin fikirlərinizi öyrənim. Sizcə, Qərb Qafqazda daha fəal siyasət yeritməlidir? Sizcə, Qərb ölkələri Qafqazla və Rusiya ilə bağlı nələri etməli və nələri etməməlidir?

**H e y d ə r Ə l i y e v**: Birinci növbədə, Qərb bütün imkanlarından istifadə edərək çalışmalıdır ki, Rusiyada demokratik proseslər inkişaf etsin və dönməz olsun. İkincisi, Qərb Qafqazda və xüsusən Cənubi Qafqaz ölkələrində öz fəaliyyətini daha da genişləndirməlidir - həm iqtisadi cəhətdən, bu ölkə[291-292]lərdə bütün demokratik proseslərin həyata keçirilməsi cəhətdən, həm də ki, bu ölkələrin müstəqilliyini dəstəkləmək yolu ilə.

MDB-yə daxil olan dövlətlər - keçmiş Sovetlər İttifaqı respublikalarının heç birisi indi öz müstəqilliyini əldən vermək istəmir. Ancaq eyni zamanda, yenə də bəzən Rusiyada müəyyən qüvvələr - Belarus ilə Rusiya bir ittifaq yaratdılar, sonra başqaları ilə ittifaq yaradıb hansısa bir formada MDB-ni fövqəlmilli bir quruma çevirmək istəyirlər.

Rusiyanın hərbi hissələrinin, hərbi bazalarının Ermənistanda və yaxud MDB-nin başqa dövlətlərində olması onların müstəqilliyni, şübhəsiz ki, müəyyən qədər zəiflədir. Gürcüstanda da Rusiyanın hərbi hissələri var. Amma onlar özləri öz qanunları ilə yaşayırlar. Şübhəsiz ki, Gürcüstanın müstəqilliyinə bu, müəyyən qədər zərər gətirir. Mən bilirəm ki, Gürcüstanda xalq və prezident istəmirlər ki, Rusiyanın hərbi hissələri orada yerləşsin. Ermənistanın İranla, Türkiyə ilə olan sərhədlərini Rusiyanın sərhəd qoşunları qoruyur.

Bir-iki il bundan öncə bizə də dəfələrlə təklif edilirdi ki, Rusiyanın qoşunları gəlsin, Azərbaycanın İranla, Türkiyə ilə sərhədlərini bizimlə müştərək qorusunlar. Biz buna imkan vermirik. Mənə dəfələrlə müraciət etdilər, buna razı olmadım. Buna görə məndən narazıdırlar. Amma Ermənistan əksinə,bunu istəyir. Gürcüstan indi istəyir ki, Türkiyə ilə olan sərhədlərindən Rusiyanın qoşunlarını çıxartsın, amma Rusiya tərəfindən buna müqaviməti hiss eləyir.

Demək, bu faktlar göstərir ki, Rusiya tərəfindən bu və ya başqa yolla müstəqilliyə müəyyən qədər zərər gətirmək cəhdləri var. Buna görə Qafqaz ölkələrinin müstəqilliyinə daha da çox dəstək vermək lazımdır. İmperiya siyasətinin tamamilə ləğv edilməsi üçün lazımdır ki, Rusiya tam demokratik bir ölkə olsun. Bilirsiniz ki, Azərbaycan NATO ilə tərəfdaşlıq haqqında saziş imzalayıbdır. Biz bu sahədə əməkdaşlıq edirik [292-293] və edəcəyik. Biz - Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova bir dördlük - GUAM qrupu yaratmışıq. Bunun özü də müəyyən qədər bizim müstəqilliyimizi təmin etmək üçün yaranmış bir qrupdur. Beləliklə, biz müstəqilliyimizi qoruyuruq, amma bizi dəstəkləmək lazımdır.

**S a y m o n S k o t t P l a m e r**: Cənab prezident, Siz Azərbaycanın xarici neft şirkətləri ilə imzaladığı müqavilələrə toxundunuz. Mənim sualım «Günəşli» yatağının dayazda yerləşən hissəsinin reabilitasiyası ilə əlaqədardır. Bu məsələ ilə bağlı son dövrdə elə bir məlumat ala bilməmişik. «Günəşli» yatağının dayazda yerləşən hissəsinin reabilitasiyası layihəsinin həyata keçirilməsi nə vaxt olacaq və bu barədə nə deyə bilərsiniz?

**H e y d ə r Ə l i y e v**: Bu layihənin həyata keçirilməsi üçün bizim Dövlət Neft Şirkəti başqa şirkətlərlə - həm Amerika şirkətləri, həm də «Konoko» və «Remko» şirkətləri ilə danışıqlar aparır. Güman edirəm ki, onlar müqavilənin şərtlərini razılaşdırandan sonra biz bunu həyata keçirəcəyik. Çünki bu, bizim üçün çox vacib məsələdir.

**R o b e r t K o r z a y n**: Siz söylədiniz ki, proqnoz vermək fikrində deyilsiniz, proqnoz verməyi sevmirsiniz. Amma biz yenə də istərdik ki, bu ilin sonunda olacaq prezident seçkilərinin nəticələri barədə Sizin fikirlərinizi dinləyək.

**H e y d ə r Ə l i y e v**: Nəticələr məndən asılı deyil, seçkilərdən asılıdır. Oktyabr ayının 11-də Azərbaycanda prezident seçkiləri keçiriləcəkdir. Azərbaycanın bugünkü prezidenti kimi, mən bu seçkilərin tam demokratik şəraitdə keçirilməsi üçün bütün imkanları yaratmışam və bundan sonra da yaradacağam. Mən beş ildir ki, Azərbaycana rəhbərlik edirəm. mənim əsas məqsədlərimdən biri də Azərbaycanda demokratik

prosesləri yaratmaq və inkişaf etdirməkdir. Bu sahədə Azərbaycanda prezident seçkiləri xüsusi əhəmiyyətə malikdir. [293-294]

Bilirsiniz, Azərbaycanda demokratiya yeni bir şeydir. Siz demokratiya ilə yüz illərlə məşğulsunuz. Amma biz cəmisi 6 ildir ki, müstəqillik əldə etmişik. Müstəqilliyi əldə edəndən sonra da Azərbaycanın başına gələn vəziyyətlər sizə məlumdur. Bir tərəfdən də müharibə şəraitindəyik. Amma buna baxmayaraq, imkanlarımız dairəsində demokratiyanı inkişaf etdiririk və etdirəcəyik. Güman edirəm ki, prezident seçkiləri bu sahədə böyük bir addım olacaqdır. Tam demokratik şəraitdə xalq kimə səs versə, o da prezident olacaqdır.

**R i ç a r d B i s t o n**: Siz Qərbin Azərbaycana dəstəyinin mühümlüyü barədə fikirlərinizi açıqladınız. Amma bilmək istərdim ki, Siz bunu deyərkən Qərbin Azərbaycan ilə hərbi alyansının yaradılmasını da nəzərdə tutursunuzmu? Siz Rusiyanın imperiya siyasətinin qarşısını, Qafqazdakı hərbi mövcudluğunun qarşısını almaq üçün Qərblə hərbi ittifaqların qurulmasını da nəzərdə tutursunuzmu?

«İndependent»dən olan cənab isə suala əlavə etdi ki, Siz NATO ilə Azərbaycanın əməkdaşlığı barədə fikirlərinizi açıqladınız, amma NATO-nun özünün də qəbul etdiyi, bəyan etdiyi kimi, «Sülh naminə tərəfdaşlıq» proqramı bir növ rəmzi xarakter daşıyan proqramdır. Yəni, bu proqram NATO ilə həmin ölkələrin ciddi hərbi alyansının yaradılmasına icazə vermir. Siz «Sülh naminə tərəfdaşlıq» proqramının fəal, işlək bir mexanizmə çevrilərək bu ölkələrə həqiqi hərbi yardım göstərilməsinə imkan yaratmamasından narahatsınızmı?

**H e y d ə r Ə l i y e v**: Bilirsinizmi, mən ümumiyyətlə, hərbi ittifaqların əleyhinəyəm. Əgər mən Rusiya ilə Ermənistan arasında yaranmış hərbi ittifaqı tənqid edirəmsə, başqa bir ölkə ilə hərbi ittifaq yaratmaq mənim üçün, əlbəttə ki, mümkün deyildir. Ona görə də hesab edirəm ki, bu hərbi ittifaqlar, ümumiyyətlə, bizim Qafqazda hərbi ittifaqlar olmamalıdır. Sizin kimi bəzi jurnalistlər məndən soruşurlar ki, bəs sizin hərbi müttəfiqiniz kimdir? Bir qonşunuz İrandır. Bir [294-295] qonşunuz Rusiyadır. Bir qonşumuz Ermənistandır – onunla hərbi münaqişədəsiniz. Bir qonşunuz Gürcüstandır. Gürcüstanla bizim yaxşı dostluq əlaqələrimiz var. Mən isə deyirəm ki, biz müharibə etmək istəmirik. Ona görə də heç bir ölkə ilə hərbi ittifaq da yaratmaq istəmirik. Ona görə də mən Rusiyanın Ermənistan ilə hərbi ittifaqının əleyhinə belə cəsarətlə çıxıram. Belə olan halda mənim başqa cür düşünməyim məntiqsiz olardı.

Təşəkkür edirəm. Mən sizin hamınızı Azərbaycana dəvət edirəm. Azərbaycanda sizinlə danışmağa daha çox vaxtım olacaqdır. Mənim Londonda birinci görüşüm sizinlədir. Bu göstərir ki, mən sizlərə nə qədər hörmət edirəm. Sağ olun. [295]

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BEYNƏLXALQ İNKİŞAF ÜZRƏ DÖVLƏT KATİBİNİN MÜAVİNİ CORC FOULKS İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*London, Azərbaycan Prezidentinin iqamətgahı*

*20 iyul 1998-ci il*

**Heydər Əliyev**: Cənab Corc Foulks, mən sizi səmimi-qəlbdən salamlayıram və Birləşmiş Krallıqla Azərbaycan arasında əlaqələrin hazırkı vəziyyətindən razı qaldığımı bildirirəm.

**Corc Foulks**: Mən də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev ilə görüşümdən şərəf duyduğumu bildirirəm. Müstəqil Azərbaycan Respublikası ilə bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsinə Böyük Britaniyanın xüsusi maraq göstərdiyini vurğulamaq istəyirəm.

**Heydər Əliyev**: Birləşmiş Krallığa rəsmi səfərə gəlməyimdən çox məmnunam. Cənab Foulks, sizin rəhbərlik etdiyiniz sahə bizim üçün çox əhəmiyyətlidir. Ona görə də sizinlə görüşüm tamamilə məntiqəuyğundur.

**Cənab Foulks**: Sizə məlumat verim ki, biz əsasən beynəlxalq inkişaf, maliyyə, ətraf mühitin qorunması, qanunvericilik, sosial sahədə islahatlar aparılması məsələləri ilə yaxından məşğul oluruq.

Bütün bu sahələrdə Azərbaycan-Böyük Britaniya əlaqələrinin daha da sıxlaşdırılmasının vacib olduğunu nəzərə çarp[296-297]dırıram. Prezident Heydər Əliyevin müdrik rəhbərliyi ilə son illər Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolunda qazanılmış uğurları müsbət qiymətləndirirəm və bildirirəm ki, onlar gənc müstəqil respublikanıza əməli kömək göstərməyə hazırdırlar.

**Heydər Əliyev**: Demokratik inkişaf, bazar münasibətləri yolunu seçən, öz iqtisadiyyatının dünya iqtisadiyyatı ilə sıx bağlanmasına böyük əhəmiyyət verən Azərbaycanda 1995-ci ildə ilk demokratik konstitusiya qəbul olunmuşdur, bir sıra siyasi partiyaların təmsil edildiyi parlament formalaşmışdır, ölkədə möhkəm sabitlik yaradılmışdır. Azərbaycanda insan hüquqlarının qorunması, demokratik prinsiplərin bərqərar edilməsi, siyasi plüralizmə geniş meydan verilməsi sahəsində böyük işlər görülmüşdür.

Azərbaycanda qarşıda prezident seçkiləri olacaqdır. Ölkəmizin konstitusiyası, seçkilər haqqında qəbul olunmuş qanun seçkilərin tam demokratik, azad və ədalətli keçirilməsinə şərait yaradır.

Biz seçkilərin beynəlxalq hüquq normaları əsasında, Avropa standartlarına uyğun, bütün xalqın iştirakı ilə keçirilməsinə, yəni geniş kütlələrin demokratik prosesə tam cəlb olunmasına xüsusi əhəmiyyət veririk.

Bilirsiniz ki, Azərbaycanda demokratiya yeni bir şeydir. Böyük Britaniya demokratiya ilə yüz illərlə məşğuldur. Amma biz öz dövlət müstəqilliyimizi cəmi altı il bundan əvvəl əldə etmişik. Müstəqillik qazanandan sonra respublikamızın qarşılaşdığı vəziyyət, Ermənistan-Azərbaycan münaqişəsi sizə məlumdur. Bütün bu çətinliklərə baxmayaraq biz Azərbaycanda demokratiyanı inkişaf etdiririk və etdirəcəyik. Güman edirəm ki, qarşıdakı prezident seçkiləri bu sahədə böyük bir addım olacaqdır. Xalq tam demokratik şəraitdə kimə səs versə, o da prezident olacaqdır. [297-298]

**Corc Foulks**: Cənab prezident Heydər Əliyev, sizin Azərbaycanda həyata keçirdiyiniz tədbirlər Birləşmiş Krallıq tərəfindən dəstəklənir. Onu da söyləmək istəyirəm ki, mən respublikanıza səfərə gəlmək niyyətindəyəm.

**Heydər Əliyev**: Cənab Forc Foulks, mən də sizi böyük məmnuniyyətlə Azərbaycana rəsmi səfərə dəvət edirəm. [298]

## BÖYÜK BRİTANİYANIN «ŞELL» ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU FİLL BOTS İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*London,*
*Azərbaycan prezidentinin iqamətgahı*

*20 iyul 1998-ci il*

**F i l l B o t s**: Hörmətli cənab prezident, vaxt ayırıb məni qəbul etdiyinizə görə sizə təşəkkür edirəm. Zəmanəmizin görkəmli siyasi xadimi Heydər Əliyevlə görüşdən şərəf duyduğumu bildirirəm. Rəhbərlik etdiyim şirkət Azərbaycanla əlaqələri daha da sıxlaşdırmağa böyük maraq göstərir.

Mən sizinlə 1997-ci ildə Hyüstondakı və Bakıdakı görüşlərimizi həmişə məmnunluqla xatırlayıram. Lakin Sizi, Azərbaycan Respublikasının rəhbərini Birləşmiş Krallıqda ilk dəfə salamlamaq imkanı qazandığıma görə özümü çox xoşbəxt hesab edirəm.

Bilirəm ki, Birləşmiş Krallığa bu səfəriniz zamanı Siz xeyli görüşlər keçirəcəksiniz. Cənab prezident, icazə verin, mətbuat nümayəndələrinin burada iştirakından istifadə edərək Sizə bir hədiyyə təqdim edim. «Şell» şirkətinin keçən il 100 yaşı tamam olubdur. Bu münasibətlə «Şell» şirkətinin tarixini əks etdirən bir kitab çapdan çıxmışdır. Böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, biz tariximizi vərəqləyərkən «Şell» şirkətinin lap ilkin dövrlərdən Bakıdakı, Azərbaycandakı fəaliyyəti haqqında faktlarla rastlaşdıq. Ona görə də icazə verin, bu kitabı Sizə təqdim edim. [299-300]

Cənab prezident, icazə verin bir məlumatı da diqqətinizə çatdırım. 1892-ci ildə «Şell» şirkətinin «Yubraks» adlı ilk tankeri Bakıdan neft götürərək dünyanın müxtəlif yerlərinə aparmışdır.

**H e y d ə r Ə l i y e v**: Hörmətli cənab Fill Bots, verdiyiniz məlumatı diqqətlə dinlədim, bu informasiya üçün maraqlı kitab üçün sizə təşəkkür edirəm.

«Şell» şirkəti və ümumiyyətlə, Böyük Britaniya ilə Azərbaycan arasında əlaqələrin qədim tarixi olmasını yüksək qiymətləndirirəm. Sizin Azərbaycanla əməkdaşlığı gündən-günə genişləndirmək barədə təkliflərinizin çox vacib olduğunu məmnunluqla nəzərə çarpdırıram.

Birləşmiş Krallığın digər şirkətlərinə nisbətən «Şell» Azərbaycana bir qədər gec gəlmişdir. Lakin əmin olduğumu bildirirəm ki, bu əlaqələr getdikcə daha da möhkəmlənəcəkdir.

**F i l l B o t s**: Cənab prezident, biz müstəqil Azərbaycan Respublikasında prezident Heydər Əliyevin müdrik rəhbərliyi ilə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu və islahatların həyata keçirilməsi sahəsində böyük uğurlar əldə edilməsindən çox yaxşı xəbərdarıq. Biz Azərbaycan iqtisadiyyatının ardıcıl surətdə inkişafında gec də olsa, yaxından iştirak etməyimizdən böyük iftixar hissi duyuruq və Sizi əmin edirik ki, «Şell» şirkəti sizin ölkənizdəki fəaliyyətini gündən-günə daha da genişləndirəcəkdir.

Biz ölkənizdə gedən demokratik prosesləri yüksək qiymətləndiririk və bildirirəm ki, Azərbaycanda kadrların ixtisasının artırılması, istedadlı gənclərə qayğı məsələlərinə lazımi kömək göstərəcəyik.

**H e y d ər Ə l i y e v**: Maraqlı görüşə və faydalı təkliflərə görə Sizə öz təşəkkürümü bildirirəm. Ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsini zəruri hesab edirəm və bunun üçün geniş imkanların olduğunu vurğulayıram. [300]

## BÖYÜK BRİTANİYANIN «LAZMA» ŞİRKƏTİNİN PREZİDENTİ CO DARBİ VƏ BRAZİLİYANIN «PETROBRAZ» ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU RENATO BERTARİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*London,*
*Azərbaycan prezidentinin iqamətgahı*

*20 iyul 1998-ci il*

**H e y d ə r  Ə l i y e v**: Hörmətli cənab Co Darbi və cənab Renato Bertari! Sizi salamlayıram və rəhbərlik etdiyiniz şirkətlərin müstəqil Azərbaycan Respublikası ilə əlaqələr qurmağa, bu əlaqələri genişləndirməyə maraq göstərməyinizi razılıqla qarşılayıram.

**C o  D a r b i** : Cənab prezident! Vaxt tapıb bizi qəbul etdiyinizə görə sizə təşəkkür edirik, bu görüşdən şərəf duyduğumuzu bildiririk.

İcazə versəydiniz sizə rəhbərlik etdiyim şirkət barədə məlumat verərdim. «Lazma» nisbətən cavan şirkətdir, 27 il bundan əvvəl yaranmışdır. Əsasən kəşfiyyat və istismar sahəsində ixtisaslaşan bir şirkətdir. Biz Azərbaycanda çox böyük imkanların olmasından xəbərdarıq. Sizinlə bu görüşə gəlməyimizin məqsədi Azərbaycana sərmayə qoymağa ciddi marağımız olduğunu bir daha nümayiş etdirməkdir. «Lazma» şirkəti dünyanın 13 ölkəsində iş görür. Bizim əsas işimiz Böyük Britaniyada və İndoneziyadadır. Biz Venesuela, Əlcəzair, Liviya və Pakistanda da xeyli iş görürük. Sizin razılığınızla biz fəaliyyət göstərdiyimiz ölkələr arasında ən çox Azərbaycana investisiya qoymaq niyyətindəyik. Sizə bildirmək [300-301]istəyirəm ki, biz Xəzərin Azərbaycan sektorunda geniş fəaliyyət göstərmək istəyirik.

**R e n a t o  B e r t a r i**: Cənab prezident, bizimlə bu görüşə vaxt ayırdığınıza görə sizə təşəkkür edirik. Bizim «Petrobraz» şirkəti Azərbaycanla əlaqələrin daha da möhkəmləndirilməsinə xüsusi əhəmiyyət verir.

**H e y d ə r  Ə l i y e v**: Hörmətli cənablar, başçılıq etdiyiniz hər iki şirkətin respublikamıza böyük həcmdə sərmayə qoymaq arzusunda olduğunuzu razılıqla qarşılayaraq bildirirəm ki, biz 1994-cü ilin sentyabrında Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi barədə «Əsrin müqaviləsi»ni imzaladıqdan sonra ən nüfuzlu xarici şirkətlərin ölkəmizə marağı ildən-ilə artır. Biz bunu yüksək qiymətləndiririk və bütün şirkətlərin ölkəmizlə qarşılıqlı surətdə faydalı əlaqələr qurmasına hər cür şərait yaratmışıq.

Azərbaycanda bütün sahələrdə əməkdaşlığın möhkəmləndirilməsi üçün böyük potensial imkanlar vardır və bildirirəm ki, respublikamız öz qapılarını xarici şirkətlərin üzünə geniş açmışdır və biz hər bir şirkətin xalqımız, ölkəmiz üçün faydalı olan təkliflərinə həmişə diqqətlə yanaşırıq.

**R e n a t o  B e r t a r i**: Cənab prezident, Braziliyada Sizin rəsmi səfərinizi səbirsizliklə gözləyirlər. Mən ölkəmizin prezidentinin Sizi Braziliyaya rəsmi səfərə dəvətini bir daha xatırlatmaq istəyirəm. Əminəm ki, Sizin bu səfəriniz Azərbaycan - Braziliya əməkdaşlığında yeni bir mərhələ açacaqdır.

**H e y d ə r  Ə l i y e v**: Xoş sözlərə görə minnətdarlığımı bildirirəm. Mən bu ölkəyə rəsmi səfərə dəvət olunmağım barədə Braziliya prezidentindən məktub almışam, vaxt tapan kimi bu dəvətdən istifadə etməyə çalışacağam.

Mən «Lazma» və «Petrobraz» şirkətləri ilə Azərbaycan arasında əməkdaşlığın ardıcıl surətdə inkişaf etməsinə tərəfdar olduğumu vurğulayıram. [302]

# AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ XARİCİ İŞLƏR ÜZRƏ NAZİRİ DAQ HENDERSONUN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*London*

*20 iyul 1998-ci il*

Hörmətli cənab nazir!

Hörmətli xanımlar, cənablar və dostlar!

Mən Sizi səmimi qəlbdən salamlayıram və Birləşmiş Krallığa başlayan rəsmi səfərimdən çox məmnun olduğumu bildirmək istəyirəm.

Birləşmiş Krallıq ilə Azərbaycan arasında yaranmış dostluq əlaqələrinin və əməkdaşlığın tarixi vardır. 1991-ci ildə respublikamız dövlət müstəqilliyini əldə edən kimi Birləşmiş Krallıq Azərbaycanın müstəqilliyini tanımış ilk ölkələrdən biri olmuşdur. 1992-ci ilin mart ayında Birləşmiş Krallıq ilə Azərbaycan arasında diplomatik əlaqələr yaranmışdır. 1993-cü ildə Birləşmiş Krallığın Azərbaycanda səfirliyi açılmış və 1994-cü ilin yanvar ayında respublikamızın Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında səfirliyi açılmışdır.

Azərbaycanın prezidenti kimi, mən 1994-cü ilin fevral ayında Birləşmiş Krallığa ilk dəfə rəsmi səfərə gəlmişdim. Həmin səfər zamanı Birləşmiş Krallıq ilə Azərbaycan arasında əlaqələrin yaranması və inkişaf etdirilməsi üçün vacib əhəmiyyət kəsb edən bir çox sənədlər imzalanmışdır. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri [330-304] ilə mən, Azərbaycan prezidenti Birləşmiş Krallıq ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında birgə bəyanat imzalamışdıq. Birləşmiş Krallıq ilə Azərbaycan arasında energetika, turizm, telekommunikasiya və başqa sahələrdə əməkdaşlıq haqqında və iqtisadi məsələlərə aid bir çox gidər müqavilələr imzalanmışdır.

Birləşmiş Krallıq ilə Azərbaycan arasında o vaxtdan indiyədək hökumətlərarası 14 müqavilə, saziş, memorandum imzalanmışdır. Bunların bir hissəsi Londonda, bir hissəsi isə Birləşmiş Krallığın xarici işlər nazirinin Azərbaycana rəsmi səfəri zamanı imzalanmışdır. Beləliklə, Birləşmiş Krallıqla Azərbaycan arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün yetərli hüquqi-normativ sənədlər imzalanmış, baza yaranmışdır.

Mən hesab edirəm ki, bizim əməkdaşlığımız ötən illər bütün sahələrdə uğurlu olmuşdur. Mən dəvəti böyük məmnuniyyətlə qəbul edib bu gün Londonda, Birləşmiş Krallıqda rəsmi səfərə başlamışam.

Mən hesab edirəm ki, bu günlər keçirəcəyimiz görüşlər, imzalayacağımız sənədlər ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsini gələcəkdə daha da yüksəklərə qaldıracaqdır.

Biz əvvəlki sənədləri ölkənizin keçmiş hökuməti ilə imzalamışıq. Birləşmiş Krallığın keçən il yeni hökuməti yaranmışdır. Mən çox məmnunam ki, bizim əlaqələrimiz yeni hökumətlə də davam edir. Yeni hökumət, yeni Baş nazir, nazirlər və hökumətin bütün üzvləri ilə şəxsi əlaqələr yaratmaq da mənim üçün - Azərbaycan prezidenti üçün çox əhəmiyyətlidir.

Birləşmiş Krallığın Baş naziri ilə sabah nəzərdə tutulmuş görüşümü və danışıqlarımı çox əhəmiyyətli hesab edirəm. Şübhəsiz ki, Birləşmiş Krallığın kraliçası ilə mənim görüşüm də tarixi bir hadisə olacaqdır. Nazirlərlə, hökumət üzvləri və şirkət rəhbərləri ilə görüşlərim də Azərbaycan ilə Birləşmiş [304-305] Krallıq arasında bütün sahələrdə əlaqələrin inkişaf etməsi üçün bizə kömək edəcəkdir.

Hörmətli nazir, mən sizin fikrinizlə tamamilə razıyam ki, Birləşmiş Krallıqla Azərbaycan arasında bütün sahələrdə əlaqələr inkişaf etdirilməlidir. Ancaq siyasi sahədə əməkdaşlığımızın daha da inkişaf etdirilməsi çox əhəmiyyətlidir. Güman edirəm ki, biz bu günlər bu məsələlərə çox ciddi fikir verəcəyik, fikir mübadiləsi aparacağıq və bu sahələrdə də işlərimizi gələcəkdə yaxşı inkişaf etdirmək üçün imkanlar əldə edəcəyik.

Mən çox məmnunam ki, mənim bir neçə il bundan əvvəl tanış olduğum, yaxın əlaqələr yaratdığım cənab Terri Adamsı, cənab Riçardsı burada görürəm. Amma mən yeni dostlarla da tanışlığıma çox məmnunam. Mən, o cümlədən, sizinlə bugünkü görüşümü əhəmiyyətli hesab edirəm. Sizin Azərbaycana gəlmək arzunuzu çox yüksək qiymətləndirirəm. Mən də öz tərəfimdən sizi Azərbaycana dəvət edirəm.

Biz Birləşmiş Krallığın parlamenti ilə Azərbaycan parlamenti arasındakı əlaqələri də inkişaf etdirmək üçün bu günlər əhəmiyyətli addımlar ata biləcəyik. Məni müşayiət edənlərin arasında Azərbaycan parlamentinin üzvləri də vardır. Onların bir neçəsi burada, bu görüşdə iştirak edirlər.

Mən bugünkü görüş üçün sizə təşəkkür edirəm. Güman edirəm ki, bizim bu danışıqlarımız bu günlərdə görəcəyimiz işlər üçün yaxşı bir əsas yaradacaqdır.

Xahiş edirəm, Birləşmiş Krallığın kraliçasının şərəfinə badələrinizi qaldırasınız. Birləşmiş Krallığın hökumətinin, Baş nazirinin, nazirlərin şərəfinə, sizin şərəfinizə və burada iştirak edən dostlarımızın şərəfinə! [305]

## BÖYÜK BRİTANİYA ŞURASININ BAŞ DİREKTORU DOKTOR DEVİD DRİYURİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*London,*
*Azərbaycan prezidentinin iqamətgahı*

*20 iyul 1998-ci il*

**H e y d ə r  Ə l i y e v**: Cənab Driyuri, mən sizi ürəkdən salamlayıram, bu görüşdən və Azərbaycan ilə Britaniya Şurası arasında sıx əlaqələrin olduğundan razı qaldığımı bildirirəm. İnanıram ki, bu görüşümüz Azərbaycan–Böyük Britaniya münasibətlərinin daha da genişlənməsinə təkan verəcəkdir.

**D e v i d  D r i y u r i**: Cənab prezident, Böyük Britaniyaya rəsmi səfərinizin proqramının gərginliyinə baxmayaraq vaxt tapıb məni qəbul etdiyinizə görə sizə təşəkkür edirəm. İcazənizlə, başçılıq etdiyim şuranın fəaliyyəti haqqında sizə məlumat verim.

Bu şura Azərbaycanla 1994-cü ildən əməkdaşlıq edir. Bizim məqsədimiz gənc müstəqil Azərbaycan Respublikasının zəngin tarixi, mədəniyyəti, ənənələri barədə dünya ictimaiyyətinə geniş məlumat çatdırmaqdan və onları təbliğ etməkdən ibarətdir. Britaniya Şurasının 1994-cü ildən Azərbaycanda daimi nümayəndəliyi və qərargahı fəaliyyət göstərir. Şura Azərbaycanla əlaqələrin ardıcıl surətdə inkişaf etdirilməsinə daim xüsusi diqqət yetirir.

Britaniya Şurasının səyyar incəsənət şöbəsi dünya xalqlarının ən görkəmli mədəniyyət, incəsənət xadimlərinin Böyük [306-307] Britaniyaya səfərlərini təşkil edir, Londonun və digər şəhərlərin böyük salonlarında konsertlər, sərgilər keçirir. Onu da bildirim ki, Azərbaycanın mədəniyyət və incəsənət xadimləri də məhz bu şuranın xətti ilə dəfələrlə Böyük Britaniyanın bir sıra şəhərlərində səfərlərdə olmuşlar.

Biz Azərbaycanda təhsil sahəsində islahatın aparılmasına əməli kömək göstərmək niyyətindəyik. Bununla əlaqədar vaxtaşırı seminarlar keçiririk. Fikrimcə, azərbaycanlı gənc alimlərlə birlikdə elmi tədqiqat işlərinin aparılması da çox mühümdür və şura bu məsələlərə xüsusi əhəmiyyət verir. Bütün bu tədbirlərin həyata keçirilməsində Britaniya Şurası Azərbaycana maliyyə yardımını bundan sonra da davam etdirməyə hazırdır.

Britaniya Şurası Azərbaycanda elm, mədəniyyət sahələrinə və peşə strukturlarının inkişafına da yardım göstərir. Bakıda ingilis dili kursları açılmasının böyük əhəmiyyəti oldu. Bu kursların fəaliyyət dairəsini genişləndirmək niyyətindəyik.

Cənab prezident, Britaniya Şurasına Azərbaycanda yaradılmış şəraitə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

**H e y d ə r  Ə l i y e v**: Cənab Driyuri, respublikamızda həyata keçirdiyiniz tədbirlər və görülmüş işlər barədə məlumatınızı diqqətlə dinlədim. Söylədiyiniz xoş sözlərə görə Britaniya Şurasının rəhbərliyinə təşəkkür edirəm. Bu şuranın böyük imkanlara malik olmasından çox məmnun qaldığımı bildirirəm.

Demokratik inkişaf, bazar münasibətləri yolunu seçmiş müstəqil Azərbaycan Respublikasında elm, mədəniyyət, təhsil sahələrinin də ardıcıl surətdə inkişaf etdiyi bir zamanda Britaniya Şurasının göstərdiyi köməkliyi böyük razılıq hissi ilə qeyd edirəm.

Azərbaycan mədəniyyətinin, incəsənətinin geniş təbliğ edilməsinin çox vacib olduğunu vurğulayıram. Eyni zamanda [307-308] Azərbaycan xalqı da Britaniya xalqının qədim tarixi ənənələrinə böyük maraq göstərdiyini bildirirəm.

İngilis yazıçılarının, şairlərinin, mədəniyyət və incəsənət xadimlərinin əsərləri Azərbaycanda da çox məşhurdur. Bütün bunlar bizim xalqımız tərəfindən yüksək qiymətləndirilir. Mən Sizi, Britaniya Şurasının baş direktorunu Azərbaycana rəsmi səfərə dəvət edirəm. Cənab Driyuri, siz Azərbaycana gəlib bütün bunları öz gözlərinizlə görəcəksiniz.

**D e v i d  D r i y u r i**: Sizin dəvətinizi məmnunluqla qəbul edirəm. Mütləq Azərbaycana səfərə gələcəyimi bildirirəm. [308]

## BÖYÜK BRİTANİYANIN «MONUMENT OYL ƏND QAZ» ŞİRKƏTİNİN BAŞ DİREKTORU TİM EQQAR VƏ ŞİRKƏTİN İCRAÇI DİREKTORU TERRİ ADAMS İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*London,*
*Azərbaycan prezidentinin iqamətgahı*

*20 iyul 1998-ci il*

**T i m  E q q a r**: Cənab prezident, Böyük Britaniyaya xoş gəlmisiniz. Biz sizinlə yenidən görüşməyimizdən çox şadıq. Mən hələ Böyük Britaniyanın energetika naziri vəzifəsində işlədiyim vaxt, Bakıda «Əsrin müqaviləsi»nin imzalanmasında iştirak etdiyimi məmnunluqla xatırlayıram. Eyni zamanda, Sizin Böyük Britaniyaya 1994-cü ildəki rəsmi səfəriniz zamanı Londonda görüşməyimizi sevinclə yada salıram.

Cənab prezident, xatırlayırsınızsa, həmin görüşümüzdə Sizə söylədim ki, mənim məqsədim Böyük Britaniyanın xeyli şirkətinin Azərbaycanda fəaliyyət göstərməsidir. O vaxt Siz mənə dediniz ki, kim istəyirsə, gəlsin, xoş gəliblər. İndi həddindən çox xoşbəxtəm ki, Böyük Britaniyadan Azərbaycana sonuncu gələn neft şirkətinin rəhbəri mən özüməm.

**H e y d ə r  Ə l i y e v**: Cənab Tim Eqqar, görüşümüzdən məmnun qaldığımı bildirirəm. Siz əvvəlcə başqalarını göndərdiniz, işləri təşkil etdiniz. Siz Böyük Britaniya ilə Azərbaycan arasında qoyulan körpünün yaradıcılarından birisiniz. Bizim həmin görüşümüzdən dörd il keçir. İndi isə yeni bir [309-310] neft şirkətinin rəhbəri kimi siz özünüz Azərbaycana gəlirsiniz. Çox gözəl, mən bunların hamısını yaxşı xatırlayıram. Biz sizinlə Bakıda da çox görüşmüşük. Mən sizinlə görüşümdən həmişə məmnun olmuşam. Aramızda yaxşı münasibətlər yaranmışdır. Siz İngiltərədə Azərbaycanın ən böyük dostusunuz.

Azərbaycanın İngiltərədə daha bir dostunu – Terri Adamsı səmimi-qəlbdən salamlayıram və çox məmnunam ki, Böyük Britaniyada bizim dostlarımızın sayı artır. Cənab Adams dörd il Azərbaycanda yaşayıbdır. Mən sizə bir neçə dəfə demişəm, – Terri Adams Azərbaycanda çox populyar adamlardan biridir, onu ölkəmizdə çox sevirlər. Çünki yaxşı işlər görübdür, millətimizə, xalqımıza böyük hörmətlə xidmət göstəribdir. Mən çox məmnunam ki, mənim iki dostum – cənab Tim Eqqar və cənab Terri Adams indi birləşiblər. Biz sabah sizinlə bir saziş imzalayacağıq. Cənab Eqqar, əvvəllər siz Böyük Britaniyanın neft şirkətləri ilə ARDNŞ arasında sazişlərin imzalanmasını təşkil edirdiniz. İndi isə özünüzün rəhbərlik etdiyiniz şirkətlə saziş imzalanacaqdır.

**T i m  E q q a r**: Cənab prezident, «Monument Oyl ənd Qaz» şirkəti ilə ARDNŞ arasında iyulun 21-də bağlanmalı olan sazişin imzalanma mərasiminin yadda qalması üçün xüsusi bir iş görmək istəyirik. Əgər icazə versəniz, həmin mərasimdə bəyan edərdik ki, biz Heydər Əliyev adına təqaüd təsis edirik ki, geosiyasət, politologiya, diplomatiya və iqtisadiyyat üzrə təhsil almaq üçün London Universitetinə oxumağa tələbələr göndərilsin. Həmin təqaüd prezident Heydər Əliyevin beynəlxalq işlərin regional inkişafına və Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmlənməsinə verdiyi töhfənin etiraf edilməsi əlaməti kimi təsis olunmuşdur. Biz «Monument Oyl ənd Qaz» şirkətinin rəhbərliyi prezident Heydər Əliyevin siyasi rəhbərliyi altında Azərbaycanda əldə olunmuş görkəmli nailiyyətləri yüksək dəyərləndiririk. [310-311]

London Universitetində təhsil alacaq gənc orada bir məsələ üzərində elmi tədqiqat işi aparacaq, sonra isə həmin iş çap ediləcəkdir. Cənab prezident, adınızdan istifadə etməyimiz üçün biz Sizdən icazə istəyirik.

**H e y d ə r  Ə l i y e v**: Mən belə bir təqaüdün təsis edilməsinə razılıq verirəm. Mən Azərbaycandan daha çox gəncin Böyük Britaniyada təhsil almasına xüsusi əhəmiyyət verirəm.

«Monument Oyl ənd Qaz» şirkətinin Azərbaycanla sıx əlaqələr qurmağa böyük maraq göstərməsini yüksək qiymətləndirirəm və əmin olduğumu bildirirəm ki, iyulun 21-də Londonda imzalanacaq sənədlər ölkələrimizin qarşılıqlı surətdə faydalı əlaqələrinin daha da möhkəmləndirilməsində mühüm rol oynayacaqdır.

**T i m  E q q a r**: Rəhbərlik etdiyimiz şirkətə diqqət göstərdiyinizə görə sizə minnətdarlığımızı bildiririk.

Cənab prezident, biz çox xoşbəxtik ki, Azərbaycanda Sizin müdrik rəhbərliyiniz altında işləyəcəyik. Çalışacağıq ki, «Monument Oyl ənd Qaz» müstəqil Azərbaycanın iqtisadiyyatının inkişafına layiqli kömək göstərə bilsin.

**H e y d ə r  Ə l i y e v**: Bilirsiniz, sabah- iyulun 21-də Londonda ARDNŞ, ABŞ-ın AMOKO, Böyük Britaniyanın «Monument Oyl ənd Qaz» şirkətləri, Rusiyanın mərkəzi yanacaq şirkəti arasında saziş imzalanacaqdır. Bu sazişi beynəlmiləl saziş adlandırmaq olar. Belə birgə işlər xalqlarımızın və ölkələrimizin qarşılıqlı surətdə faydalı əlaqələrinin daha da möhkəmləndirilməsi üçün çox vacibdir.

**T i m  E q q a r**: Cənab prezident, istərdim mən rəhbərlik etdiyim Böyük Britaniya–Azərbaycan Cəmiyyətinin fəaliyyəti haqqında sizə məlumat verim. Mən bu cəmiyyətə sədrlik etməyimdən böyük iftixar duyuram. Bizim cəmiyyətin üzvü olmaq istəyənlər xeyli çoxdur. Biz istəyirik ki, Azərbaycan həqiqətlərini,

respublikanızda gedən demokratik inkişaf barədə məlumatları Birləşmiş Krallığın ictimaiyyətinə dərindən çat[311-312]dıraq, xalqınızın qədim ənənələrə malik mədəniyyətini, incəsənətini geniş təbliğ edək.

**T e r r i  A d a m s**: Cənab prezident, sizin müdrik rəhbərliyiniz altında Azərbaycanda fəaliyyət göstərməklə mən həmişə fəxr etmişəm. Mən çox xoşbəxtəm ki, yenidən Azərbaycanda işləmək imkanı qazanmışam. Mən yaxşı bilirəm ki, Siz respublikanızda böyük işlər görürsünüz, xalqınız Sizi qəlbən sevir və öz müdrik prezidentinə ürəkdən inanır.

**H e y d ə r  Ə l i y e v**: Ən əvvəl mənim ünvanıma söylədiyiniz səmimi sözlərə görə təşəkkürümü bildirirəm. Onu da vurğulayıram ki, «Monument Oyl ənd Qaz» şirkətinin Azərbaycanla əlaqələrinin böyük perspektivləri var. Mən, eyni zamanda, Böyük Britaniya şirkətlərinin Azərbaycandakı fəaliyyətlərini yüksək qiymətləndirirəm və əmin olduğumu bildirirəm ki, bu əlaqələr bundan sonra daha da inkişaf edəcək və möhkəmlənəcəkdir. [312]

## BÖYÜK BRİTANİYA– AZƏRBAYCAN CƏMİYYƏTİNİN TOPLANTISINDA* NİTQ

*London,*
*«Klaricis» mehmanxanası*

*20 iyul 1998-ci il*

Hörmətli sədr!
Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı bu əlamətdar hadisə – İngiltərə-Azərbaycan Dostluq Cəmiyyətinin yaranması münasibətilə ürəkdən təbrik edir və sizə, bu cəmiyyətə gələcək işlərinizdə uğurlar arzulayıram.

İngiltərə - Azərbaycan Cəmiyyətinin yaranması Birləşmiş Krallıq ilə Azərbaycan arasında əlaqələrin inkişafında tarixi bir hadisədir. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra, 1992-ci ilin mart ayında Birləşmiş Krallıqla Azərbaycan arasında diplomatik əlaqələr yaranmışdır. 1994-cü ilin fevral ayında mənim - Azərbaycan prezidentinin Birləşmiş Krallığa ilk səfərim olmuşdur. Bu rəsmi səfər zamanı Britaniya hökuməti ilə Azərbaycan arasında əlaqələr yaranmış və bunları inkişaf etdirmək üçün müqavilələr, sazişlər, bir çox digər sənədlər imzalanmışdır. [313-314]

Məmnuniyyət hissi ilə qeyd edirəm ki, ötən illər ərzində Birləşmiş Krallıqla Azərbaycan arasında əlaqələr bütün sahələrdə - siyasi, iqtisadi, mədəni, elmi, insani sahələrdə sürətlə inkişaf edibdir. Bunun ən bariz nümunəsi odur ki, cəmiyyətin sədri Tim Eqqarın dediyi kimi, Birləşmiş Krallıqdan Azərbaycanda 100-dən artıq şirkət fəaliyyət göstərir. Bu fakt bizim əlaqələrimizin yalnız bir hissəsini əks etdirir. Ancaq qeyd etdiyim kimi, əlaqələrimiz həyatın bütün sahələrini əhatə edir. İndi isə yəqin ki, elə bir mərhələ gəlib çatıbdır ki, təkcə hökumətlər, dövlətlər arasında əlaqələr yox, insanlar arasında cəmiyyət - İngiltərə - Azərbaycan Cəmiyyətini qurub adamları bir-birinə daha da yaxınlaşdırmaq, dostluq etmək, bu sahədə də işlər görmək lazımdır. Bu baxımdan mən İngiltərə - Azərbaycan Cəmiyyətinin yaranmasını yüksək qiymətləndirir, bunu bəyənir, alqışlayır və bu münasibətlə sizi bir daha təbrik edirəm.

Hesab edirəm, bu, böyük nailiyyətdir ki, cəmi dörd il müddətində İngiltərədə, Birləşmiş Krallıqda Azərbaycanın dostları nə qədər artıb ki, indi belə bir cəmiyyət yaranıb və onun dəvəti ilə İngiltərənin, Londonun çoxsaylı insanları bu gün bu salona toplaşıblar.

Şübhəsiz ki, bu cəmiyyətin yaranmasında Azərbaycanın Birləşmiş Krallıqdakı səfirliyinin və səfirin xidmətləri böyükdür. Ancaq bu, səfirliyin borcu və vəzifəsidir. Bu cəmiyyəti yaradan İngiltərənin, Birləşmiş Krallığın tanınmış adamlarının, şəxslərinin xidməti isə daha yüksək qiymətə layiqdir. Mən çox məmnunam ki, cəmiyyətin rəhbərliyində Birləşmiş Krallıqda məşhur olan şəxslər təmsil ediliblər. Onlar eyni zamanda Azərbaycanda da çox tanınan və hörmətli insanlardır.

Cəmiyyətin sədri cənab Tim Eqqar uzun müddət Birləşmiş Krallığın parlamentinin üzvü və energetika naziri vəzifəsində işləmişdir. Birləşmiş Krallıqda tanınmış və çox hörmətli şəxs[314-315]lərdən biridir. Cənab Tim Eqqarın imzası 1994-cü il sentyabr ayının 20-də Azərbaycanda, Bakıda imzalanmış ilk müqavilənin, «Əsrin müqaviləsi»nin altındadır. Biz birlikdə böyük bir təşəbbüs irəli sürmüş və onu həyata keçirmişik - XX əsrin sonunda Xəzər dənizinin neft-qaz ehtiyatlarını bütün bünyaya tanıtmışıq və böyük ölkələrin, iri şirkətlərin marağını oraya cəlb etmişik. Məmnunam ki, məhz cənab Tim Eqqar bu cəmiyyətin sədridir.

Mən böyük məmnuniyyət hissi ilə bildim ki, cəmiyyətin rəhbər orqanında keçmiş xarici işlər naziri cənab Rifkind də var. Cənab Rifkind Birləşmiş Krallığın xarici işlər naziri olarkən Böyük Britaniya ilə Azərbaycan arasında əlaqələrin inkişaf etməsində böyük xidmətlər göstərmişdir. Bakıda Birləşmiş Krallıqla Azərbaycan arasında imzalanmış bir çox vacib sənədlərə məhz cənab Rifkind imza atıbdır. 1996-cı ilin aprel ayında Qafqazın digər respublikaları ilə birlikdə Azərbaycan Avropa Birliyi ilə tərəfdaşlıq haqqında sənəd imzalayarkən cənab Rifkind bu hadisənin iştirakçısı olmuş və orada Avropa Birliyinin üzvü kimi Birləşmiş Krallığı təmsil etmişdir.

Cəmiyyətin rəhbərliyində cənab Terri Adamsın olması da məni çox sevindirmişdir. Cənab Terri Adams həm sizin ölkədə, həm də Azərbaycanda çox tanınmış bir şəxsdir. 1994-cü ilin sentyabr ayında biz ilk müqaviləni bağlayandan sonra, onu imzalamış 11 şirkətin daxil olduğu konsorsium Beynəlxalq Əməliyyat Şirkəti yaratdı və ötən illərdə bu şirkətə Terri Adams rəhbərlik etdi. Ötən dörd il müddətində biz cənab Terri Adamsla böyük və şərəfli yol keçmişik.

---

* Toplantıda cəmiyyətin üzvləri, ölkənin ictimai-siyasi xadimləri, iş adamları, xarici dövlətlərin səfirləri, mətbuat nümayəndələri iştirak etmişlər.

– Azərbaycan Respublikası prezidentinin şərəfinə təşkil olunmuş görüşdə Britaniya-Azərbaycan Cəmiyyətinin sədri Tim Eqqar çıxış edərək Heydər Əliyevi salamladı.

İki tarixi hadisəni xatırlayıram. 1996-cı ilin yanvarında mən Moskvaya getdim ki, Xəzər dənizindən çıxarılacaq ilkin neftin ixracı üçün şimal boru kəmərinin marşrutu haqqında Rusiya ilə Azərbaycan arasında müqavilə imzalayım. Bu müqaviləni Rusiyanın Baş naziri cənab Çernomırdin və mən imzaladıq. Cənab Terri Adams mənimlə bərabər idi, bu sə[315-316]fərdə məni müşayiət edirdi. 1997-ci il noyabr ayının 12-də Azərbaycanda, Bakıda 1994-cü ildə imzalanmış müqavilənin həyata keçirilməsi nəticəsində ilkin neftin alınmasını bayram etdik. Bu ilkin neft məhz 1996-cı ilin yanvarında mənim Moskvada Rusiya ilə imzaladığım müqavilə əsasında yaranmış şimal boru kəməri vasitəsilə indi ixrac olunur. Cənab Terri Adams bu tarixi hadisənin də fəal iştirakçısı olmuşdur. Buna görə onun İngiltərə - Azərbaycan Cəmiyyətinin rəhbərliyində olması tamamilə əsaslıdır.

Cəmiyyətin digər üzvləri də çox hörmətli insanlardır. Mən vaxtınızı alıb bu barədə danışmaq istəmirəm. Ancaq bu sözləri ona görə dedim ki, İngiltərə - Azərbaycan Cəmiyyətinin necə yüksək şəxslər tərəfindən yaradıldığını hamı bilsin.

Bu gün mənim Birləşmiş Krallığa rəsmi səfərim başlayıbdır. Səhər saat 9-dan görüşlər keçirirəm. Bu görüşlər çox məhsuldar və səmərəlidir. Sabah mən Birləşmiş Krallığın Baş naziri ilə görüşəcəyəm. Biz ölkələrimiz arasında dostluğu, əməkdaşlığı bir daha təsdiq edən Bəyannamə imzalayacağıq. Böyük Britaniyanın, Birləşmiş Krallığın şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında böyük əhəmiyyət kəsb edən bir neçə müqavilə imzalanacaqdır. Sabah mən əlahəzrət kraliça ilə görüşəcəyəm.

Görüşlərim qarşıdakı günlərdə də davam edəcək və məqsədim də Birləşmiş Krallıqla Azərbaycan arasında əlaqələri daha da inkişaf etdirməkdən ibarətdir.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra, xüsusən son beş ildə böyük bir yol keçmişdir. Biz ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi aparırıq. Biz ölkəmizdə bazar iqtisadiyyatı yaradır və inkişaf etdiririk. Biz ölkəmizi dünyaya açmışıq və bütün ölkələrlə iqtisadi inteqrasiya prosesinə qoşulmuşuq. Görülən işlər, xüsusən həyata keçirilən islahatlar son illərdə Azərbaycanda vəziyyəti müsbət istiqamətdə xeyli dəyişdirmişdir. [316-317]

Ermənistanla Azərbaycan arasında olan hərbi münaqişədə 1994-cü ilin may ayında atəşkəs yaratmışıq və dörd ildən artıqdır ki, atəş yoxdur, məsələnin sülh yolu ilə həlli üçün danışıqlar aparılır.

Keçmiş illərdə Azərbaycanda mövcud olan qanunsuz cinayətkar qruplar, qanunsuz silahlı dəstələr ləğv edilib, ictimai - siyasi sabitlik tamamilə təmin olunubdur. İndi Azərbaycanda insanlar rahat yaşayır, xarici sərmayəçilər üçün bütün imkanlar yaradılıbdır. Azərbaycanda Birləşmiş Krallığın 100-dən artıq şirkətinin işləməsi onu göstərir ki, xarici sərmayəçilər üçün bütün imkanlar var.

Ancaq Azərbaycana gələn sərmayəçilər təkcə sizin ölkədən deyildir. Artıq dünyanın bütün ölkələrindən Azərbaycana sərmayəçilər gəlmişlər. Mən çox sevinirəm ki, nəhayət, Azərbaycan Amerika Birləşmiş Ştatları ilə Birləşmiş Krallıq arasında rəqabət yarada bilmişdir. Bu, asan məsələ deyildir. Əgər biz buna nail olmuşuqsa, görün ki, Azərbaycan nə işlər görə bilər.

Beləliklə, bizim əməkdaşlığımızın çox gözəl gələcəyi var. Bu baxımdan İngiltərə - Azərbaycan cəmiyyətinin də çox böyük gələcəyi var . Mən sizin hamınızı ürəkdən salamlayır, hər birinizə cansağlığı, səadət arzulayıram. Birləşmiş Krallığın bütün vətəndaşlarına sülh və əmin-amanlıq arzulayıram. Hər birinizə həyatınızda və işinizdə yeni-yeni uğurlar arzulayıram. Sağ olun. [317]

## AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ BÖYÜK BRİTANİYA-AZƏRBAYCAN CƏMİYYƏTİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA* NİTQ

*London*

*20 iyul 1998-ci il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli dostlar!

Mən sizi səmimi qəlbdən salamlayıram və bu axşam bu saatları, dəqiqələri sizinlə bir yerdə keçirməyimi özüm üçün böyük xoşbəxtlik hesab edirəm. Bu salonda Birləşmiş Krallığın hörmətli şəxsiyyətləri - həm bu gün hökumət üzvü olanlar, o cümlədən cənab Con Battl, həm də keçmişdə, uzun illər Birləşmiş Krallığın hökumətində böyük vəzifələrdə çalışıb, indi isə başqa sahələrdə işləyən cənab Duqlas Hörd, cənab Tim Eqqar və başqaları - Britaniya - Azərbaycan Cəmiyyətinin təşkilatçıları, Birləşmiş Krallığın, böyük şirkətlərinin nümayəndələri toplaşıblar. Ona görə də bu axşamkı rəsmi qəbul, sizinlə bir yerdə olmaq mənim üçün çox əhəmiyyətlidir. [318-319]

Cənab Hörd, mən sizinlə görüşümün ilk dəqiqələrindən hiss etdim ki, siz siyasət sahəsində çox böyük təcrübəyə malik olan bir şəxsiyyətsiniz. Siz Birləşmiş Krallığın parlamentinin üzvü kimi böyük fəaliyyətinizlə bərabər, Böyük Britaniyanın xarici işlər naziri vəzifəsində də çox işlər görmüsünüz. Ona görə də sizinlə keçirdiyim görüşlər, apardığım danışıqlar mənim üçün çox vacib, əhəmiyyətli idi. Çünki biz sizinlə birlikdə Birləşmiş Krallıq hökuməti ilə Azərbaycan Respublikası arasında əlaqələrin bünövrəsini, təməlini qoyurduq, onu qururduq, yaradırdıq. Bu, mənim üçün çox vacib idi. Çünki gənc, müstəqil bir dövlət kimi Azərbaycan dünyada böyük nüfuza malik olan Birləşmiş Krallıq kimi ölkəylə, dövlətlə əlaqələr qurub-yaratmalı idi.

Mən çox məmnunam ki, həmin o illər - 1994-cü ilin əvvəllərində biz Birləşmiş Krallıq hökumətinin üzvlərində, nazirlərdə, o cümlədən bu gün bu rəsmi qəbulda iştirak edən keçmiş nazirlərdə Azərbaycanın problemlərinə böyük maraq, qayğı hiss etdik, onların ölkəmizlə əlaqələr qurmaq əzmində olduqlarını gördük.

Böyük məmnuniyyət hissi ilə xatırlayıram ki, Azərbaycanda xalq tərəfindən prezident seçiləndən sonra dekabr ayında mənim ilk səfərim Fransaya, ikinci səfərim isə 1994-cü ilin fevral ayında Londona, Birləşmiş Krallığa oldu. İndi o vaxtdan dörd il keçibdir. Ancaq mən bu gün hesab edirəm ki, o vaxt, həmin səfər zamanı Birləşmiş Krallıq hökuməti ilə Azərbaycan arasında dostluq və əməkdaşlığın yaxşı təməlini qoya bildik. Bu işdə Birləşmiş Krallıq hökumətinin böyük xidmətləri olmuşdur. Bu işdə hökumət üzvlərinin, o cümlədən hökumətin o vaxtkı üzvləri - xarici işlər naziri cənab Hördün və energetika naziri cənab Eqqarın da böyük xidmətləri olmuşdur.

Mən məmnunam ki, Birləşmiş Krallıqda indi hökumət dəyişsə də, Azərbaycana qarşı siyasət dəyişməyibdir. Görünür [319-320] ki, biz bu əməkdaşlığın təməlini həqiqətən çox möhkəm qoymuşuq. Mənim bu dediklərimi sübut edən odur ki, yeni hökumətin dəvəti ilə mən yenidən Birləşmiş Krallığa, Londona rəsmi səfərə gəlmişəm.

Mən buraya rəsmi səfərə gəlməmişdən əvvəl, yeni hökumətin dövlət naziri cənab Con Battl iki dəfə qısa müddətdə Azərbaycanda səfərdə olmuş və biz çox səmərəli görüşlər keçirmişik, danışıqlar aparmışıq.

Bilirsiniz, məni sevindirən Birləşmiş Krallıqda olan bu demokratik iqlimdir, əhval-ruhiyyədir. Bugünkü hökumət sizə qarşı 18 il müxalifətdə olmuşdur. Onlar 18 il ərzində sizi hakimiyyətdən kənarlaşdırıb hakimiyyətə gəlməyə çalışmışlar və buna da nail olmuşlar. Ancaq sizin aranızda nə qədər dostluq və səmimi əlaqələr vardır. Siz bir-birinizlə mübarizə aparmısınız, amma düşmən olmamısınız. Demokratiyanın bu cəhəti indi yeni müstəqillik əldə etmiş, demokratiya yolu ilə gedən ölkələr, o cümlədən Azərbaycan üçün çox əhəmiyyətlidir.

Məni sevindirən cəhət bir də odur ki, yeni hökumətin, parlamentin üzvü, nazir cənab Con Battl mənim sağ tərəfimdə, keçmiş hökumətin üzvləri - cənab Hörd və cənab Eqqar isə sol tərəfimdə oturmuşlar. Biz Britaniya - Azərbaycan Cəmiyyətini birlikdə yaratmışıq və həmin cəmiyyətin yaranması münasibətilə bu gün bu məclisə toplaşmışıq.

---

* Qəbulda Britaniya–Azərbaycan Cəmiyyətinin rəhbərləri, nazirlər, ölkənin ictimai-siyasi xadimləri, diplomatlar, bir sıra şirkətlərin başçıları iştirak edirdilər.

Qəbulda Böyük Britaniyanın keçmiş xarici işlər naziri Duqlas Hörd, Birləşmiş Krallığın energetika üzrə dövlət naziri Con Battl, «Britiş Petroleum» şirkətinin təmsilçisi Tik Over, Böyük Britaniyanın Azərbaycandakı səfiri Tomas Rocer çıxış etdilər. Rəsmi qəbula Britaniya–Azərbaycan Cəmiyyətinin sədri Tim Eqqar rəhbərlik edirdi.

Azərbaycanda biz həmişə hesab etmişik ki, Qərb ölkələrindən - iqtisadiyyat, demokratiya cəhətdən inkişaf etmiş ölkələrdən çox şey öyrənməliyik. Biz sizin ölkəni çox yaxşı tanıyırıq. Çünki biz gənc vaxtlarımızdan sizin ölkənizin tarixi haqqında kitablardan çox şeylər oxumuşuq. Sizin ölkənizin, xalqınızın mədəniyyəti, incəsənəti, ədəbiyyatı bizim hamımıza çox yaxşı məlumdur.

Azərbaycan teatrının böyük sənətkarı, bizim böyük artistimiz, eyni zamanda Azərbaycan Parlamentinin üzvü Şəfiqə xanım bu məclisdə iştirak edir. O, Şekspirin şeirlərini Azər[320-321]baycan dilində saatlarla oxuya bilər. Mən isə hələ 13-14 yaşımdan Şekspirin bütün əsərlərini oxumuşdum. Bu əsərləri o qədər sevmişdim ki, hələ 15-16 yaşımda, orta məktəbdə oxuyarkən biz Şekspirin «Hamlet» əsərini tamaşaya qoyurduq və mən Hamlet rolunu ifa edirdim.

Yenə də deyirəm, bunların hamısı keçmişdən bizə məlumdur. Amma sizdə olan demokratiyanı biz o vaxtlar anlaya bilməmişdik, indi sizdən bunu da öyrəndik. Xüsusən bugünkü bu mənzərə demokratiyanın ən əyani nümayişidir.

Arzu edirəm ki, bunu təkcə mən, məni müşayiət edənlər yox, bizim Azərbaycandakı həmkarlarımızın hamısı görsün və öyrənsin.

Bu gün biz Britaniya - Azərbaycan Cəmiyyətinin toplantısında iştirak etdik və mən orada geniş bir nitq söylədim. Mən orada dediklərimi təkrar etmək istəmirəm. Ancaq sadəcə onu qeyd etmək istəyirəm ki, ötən dörd il ərzində biz böyük bir yol keçmişik, Birləşmiş Krallıqla Azərbaycan arasında əlaqələr sürətlə inkişaf edibdir. Məhz bunların nəticəsində bu gün İngiltərə - Azərbaycan Cəmiyyətinin toplantısına bir neçə yüz adam yığışmışdı.

Eşitdiyimə görə, cəmiyyətin sədri cənab Tim Eqqar bəzi adamların buraya gəlmək arzusunu yerinə yetirməyibdir. Çünki onlar Amerika şirkətlərinin nümayəndələri imiş. O istəməyibdir ki, Amerika şirkətləri gəlib burada Birləşmiş Krallığın şirkətlərindən çox olsunlar. Mən isə orada dedim ki, bu dörd ildə biz çox nailiyyətlər əldə etmişik. Azərbaycanın da nailiyyəti ondan ibarətdir ki, nəhayət, Amerika Birləşmiş Ştatları ilə Birləşmiş Krallıq arasında ciddi rəqabət yarada bilmişik.

Beləliklə, bu dörd ildə biz çoxlu nailiyyətlər əldə etmişik. Bizim dostluq əlaqələrimiz daha da inkişaf edibdir. Mən hesab edirəm ki, bu görüşlər zamanı, - sabah Baş nazirlə, əlahəzrət kraliça ilə görüşəcəyəm, başqa görüşlərimiz də olacaq[321-322]dır, - Birləşmiş Krallıqla Azərbaycan arasında əlaqələri daha da irəliyə aparacağıq.

Cənab Hörd, siz bildirdiniz ki, mənim vaxtilə sizə dediklərimin 90 faizinin təsdiq olunduğunu bu gün bəyan edirsiniz. Qalan on faizini də bu ilin axırınadək təsdiq edəcəksiniz.

Mən bilmirəm, bu məclisimiz ingilissayağı, yoxsa azərbaycansayağıdır? Yox, bu, hər ikisinin qarışığıdır.

Mən təklif edirəm, bu badələrinizi Britaniya - Azərbaycan Cəmiyyətinin şərəfinə qaldırasınız.

İcazə verin, bu badələrimizi Birləşmiş Krallıq ilə Azərbaycan arasındakı əlaqələrin daha da inkişaf etməsinin şərəfinə, sizin şərəfinizə qaldıraq. Sağ olun. [322]

## BÖYÜK BRİTANİYANIN «FÖRST» JURNALININ BEYNƏLXALQ PREZİDENTİ PATRİK KORMAKIN SUALLARINA CAVAB

*London,*
*Azərbaycan prezidentinin iqamətgahı*

*21 iyul 1998-ci il*

**P a t r i k K o r m a k: Cənab prezident, səfər proqramınızın gərginliyinə baxmayaraq, vaxt tapıb məni qəbul etdiyinizə görə sizə minnətdarlığımı bildirirəm.**

**H e y d ə r Ə l i y e v**: Hörmətli cənab Patrik Kormak, mən sizinlə görüşməyimə çox şadam. İndi isə sizi maraqlandıran suallara cavab verməyə hazıram, buyurun.

**S u a l: Cənab prezident, ümidvaram ki, ölkəmizə səfəriniz uğurlu keçir?**

**C a v a b**: Bəli, dünən çox görüşlər olubdur və mən ümumiyyətlə, səfərin gedişindən çox razıyam.

**P a t r i k K o r m a k: Cənab prezident, zati-aliləri, bizim jurnalımız Azərbaycan barədə və Sizin Böyük Britaniyaya rəsmi səfərinizlə əlaqədar böyük bir hesabat dərc edəcəkdir. Ümidvarıq ki, bu hesabat Sizin ölkənizlə Qərb dövlətləri arasında münasibətlərin inkişafına öz töhfəsini verəcəkdir.**

**H e y d ə r Ə l i y e v**: Mən çox məmnunam, jurnalınızın Azərbaycana göstərdiyi diqqətə görə sizə təşəkkür edirəm.

**S u a l: İcazə versəydiniz, bir neçə sualla Sizə müraciət edərdim. Cənab prezident, Siz öz ölkənizə böyük sabitlik gətirmisi[323-324]niz. Ölkənizdə bərqərar etdiyiniz sabitliyə necə nail oldunuz? Siz bunu necə izah edərsiniz?**

**C a v a b**: Ölkəmizdə sabitliyi cəmiyyətdə apardığımız ardıcıl tədbirlərin nəticəsində əldə etmişik. Bu, bizim apardığımız siyasətin nəticəsidir. Biz Azərbaycanda demokratik, hüquqi dövlət qururuq. Bu, dövlət quruculuğu prosesində bizim həyata keçirdiyimiz tədbirlərin, qəbul olunan qanunların və cəmiyyətdə insanların bu qanunlara riayət etməsi ilə əlaqədar apardığımız tədbirlərin nəticəsidir.

Keçmiş illərdə Azərbaycanda ictimai-siyasi sabitliyin olmamasının bir neçə səbəbi var idi. Birincisi, Sovet İttifaqı dağılandan sonra keçid dövründə yaşayan ölkələrin hamısında sabitlik bu və ya digər miqyasda pozulmuşdur. Yəni, bu, keçid dövrü üçün xarakterikdir. Azərbaycanda isə buna əlavə olunan amillər var idi. Bu amillərdən biri Ermənistan - Azərbaycan münaqişəsidir, Ermənistanın Azərbaycana 1988-ci ildə etdiyi təcavüz nəticəsində yaranmış müharibə və münaqişədir.

İkincisi, müharibə, münaqişə nəticəsində və eyni zamanda Azərbaycanın daxilində ayrı-ayrı siyasi qüvvələrin, silahlı dəstələrin hakimiyyət uğrunda mübarizəyə qoşulması ilə əlaqədardır. Hakimiyyət uğrunda mübarizə hər bir demokratik ölkədə təbii bir şeydir. Sizdə də bu mübarizə gedir və biz də sizdən çox şeylər öyrənirik.

**P a t r i k K o r m a k: Əvvəlki prezidentlik uğrunda mübarizə boks əlcəklərindən keçib.**

**H e y d ə r Ə l i y e v**: Ancaq bizdə təkcə boks əlcəkləri deyil, avtomat da, tapança da, hətta top, tank da var idi. Bizdə ancaq əlcək olsaydı, dərd yarı idi.

**P a t r i k K o r m a k: Biz çox şadıq ki, Siz Azərbaycanda nəhayət, dincliyi bərqərar etdiniz.**

**H e y d ə r Ə l i y e v**: Bəli, biz 1994-cü ilin may ayında Ermənistanla Azərbaycan arasında münaqişəni dayandırdıq, [324-325] atəşkəs yaratdıq. İkincisi, daxildə olan silahlı qrupları, silahlı dəstələri, cinayətkar dəstələri zərərsizləşdirməyə başladıq. İnsanları öyrətməyə çalışdıq ki, əgər mübarizə aparırsansa, hüquqi yolla, qanuni yolla, mədəni yolla mübarizə apar.

**P a t r i k K o r m a k: Tamamilə doğru buyurursunuz. Respublikada əmin-amanlıq olmasa, neftin gətirəcəyi gəlirdən onlar da faydalana bilməyəcəklər.**

**Cənab prezident, Azərbaycanın zəngin enerji ehtiyatlarının Qərb şirkətləri ilə birgə istismar olunması barədə Sizin fikirlərinizi bilmək istərdik. Azərbaycandan çəkiləcək boru kəmərləri barədə nə deyərdiniz? Sizcə, Azərbaycan öz neftini hansı marşrut ilə ixrac edəcəkdir?**

**H e y d ə r Ə l i y e v**: Bilirsiniz, Azərbaycanın zəngin neft yataqlarından indi və gələcəkdə istifadə edilməsi üçün dünyanın böyük neft şirkətlərinin, yəni, müasir texnologiyaya, texnikaya, maliyyə imkanlarına malik olan neft şirkətlərinin Azərbaycana cəlb olunması tamamilə məqsədəuyğundur və bu günün tələblərinə uyğundur. Biz bunu etmişik və bundan sonra da edəcəyik. Bu gün də burada bir neçə saziş imzalanacaqdır.

İkinci məsələ - ixrac olunan neftin dünya bazarına çıxarılmasıdır. Bu, asan məsələ deyildir. Biz hesab edirik ki, bundan əlavə bir neçə neft kəməri marşrutu olmalıdır. Tək biri ola bilməz. Çünki gərək bizim manevr imkanımız olsun. Azərbaycanda işləyən Qərb şirkətləri, dünya şirkətləri də bizim bu fikrimizlə şərikdirlər. Buna görə də biz ilkin neftin ixracı üçün Bakıdan Rusiya ərazisi ilə Qara dənizdəki Novorossiysk limanına bir boru kəməri tikmişik. Biz artıq bu boru kəməri ilə nefti ixrac edirik. Eyni üsulla bir bo-

ru kəmərini də Gürcüstan ərazisindən Qara dənizin Supsa limanına çəkirik. Bunların hər biri ildə 5-6 milyon ton neft ixrac edən kəmərlərdir. Amma biz yaxın zamanlarda Azərbaycanda böyük neft gözləyirik. Buna görə də əsas, böyük neft kəməri lazımdır. [325-326]

1994-cü ilin sentyabr ayında ilk neft müqaviləsini imzalayanda biz həmin müqavilədə bunu nəzərə almışıq. Biz bu neft kəmərini Bakıdan, Azərbaycandan, Gürcüstandan Türkiyə ərazisi ilə Aralıq dənizinə, Türkiyənin Ceyhan limanına çəkmək istəyirik. Ancaq bizim neftimizdən başqa, Xəzər dənizinin Qazaxıstan sektorunda da çox zəngin neft yataqları vardır. Qazaxıstanın öz ərazisində, Türkmənistanda da neft vardır, onların da bir qisminin ixrac edilməsi, şübhəsiz ki, Qərb istiqamətində olmalıdır. Məsələn, Qazaxıstan Bakı–Ceyhan neft boru kəmərindən istifadə etmək istəyir.

**S u a l: Siz bundan məmnunsunuzmu?**

**C a v a b:** Bəli, biz Qazaxıstanla müqavilə imzalamışıq. Qazaxıstanın Aktau limanından, Xəzər dənizinin dibindən Bakıya qədər neft kəməri, boru çəkmək planlaşdırılır. Qazaxıstan nefti bu neft kəməri ilə Bakıya gələcək, buradan Azərbaycan nefti ilə birlikdə, Bakı - Ceyhan neft kəməri ilə Aralıq dənizinə gedəcəkdir. Ola bilər, bu neft bizim başqa neft boruları ilə də nəql edilsin.

**P a t r i k K o r m a k: Biz hesab edirik ki, çoxsaylı boru kəmərlərinin olması bütün regionda sabitliyin bərqərar edilməsinə və region dövlətləri, qonşu ölkələr arasında əməkdaşlığın inkişafına da öz töhfəsini verəcəkdir.**

**H e y d ə r Ə l i y e v:** Doğrudur.

**P a t r i k K o r m a k: Biz, yəni, Böyük Britaniya şirkətləri Sizin regionda öz texnologiyamızdan, bizdə olan texniki vasitələrdən, imkanlarımızdan Sizinlə birgə istifadə edib bu prosesləri qurmaqda, yaratmaqda Sizə yardımçı olmaq fikrindəyik.**

**H e y d ə r Ə l i y e v:** Biz bu barədə eyni fikirdəyik. Ona görə də dörd ildir ki, çox müvəffəqiyyətlə əməkdaşlıq edirik.

**P a t r i k K o r m a k: Biz öz jurnalımızda da diqqəti buna cəlb edəcəyik.**

**H e y d ə r Ə l i y e v:** Bəli, mən hesab edirəm, bu lazımdır. Mən burada böyük görüşlər keçirirəm. [326-327]

Böyük Britaniyanın 100-dən artıq şirkəti indi Azərbaycanda işləyir. Neft yataqlarının işlənilməsi üçün son illərdə - son iki il müddətində «Bi-Pi» şirkəti 260 milyon dollar, «Remko» şirkəti isə 29 milyon dollar sərmayə qoyubdur. Böyük Britaniyanın, Birləşmiş Krallığın şirkətləri konsorsiumun proqramını həyata keçirmək üçün 350 milyon dollarlıq sifariş alıblar, iş görürlər.

**P a t r i k K o r m a k: Bu, çox yaxşı xəbərdir. Bunları eşitməkdən çox məmnunam.**

**Cənab prezident, bir məsələyə qısaca olsa da, toxunmaq istəyirəm. Bu şirkətlərin Sizin ölkənizə cəlb olunması nəinki lazımdır, - mən xüsusilə, Böyük Britaniya şirkətlərini nəzərdə tuturam, - həm də hesab edirik ki, onların investisiya qoyması üçün şəraitin daha da yaxşılaşdırılmasına - məsələn, lisenziyaların alınmasında və yaxud razılıqların verilməsində - ehtiyac vardır. Bu investorlar ruhlandırılmalıdır ki, daha çox pul qoysunlar.**

**H e y d ə r Ə l i y e v:** Doğrudur, biz bu sahədə çox iş görmüşük. Ancaq nöqsanlar da vardır. Onlar bizim üçün yeni şeylərdir. Bunların hamısını bir ilə, iki ilə istənilən səviyyəyə qaldırmaq mümkün deyil. Ancaq biz bu yolla gedirik, biz bunu edirik. Bu sahədə günbəgün şərait yaradılır. Yəni, bizdə lazım olan qanunlar, qaydalar var, müəyyən olunubdur. Sadəcə, onların icra olunmasında qüsurlar vardır.

**P a t r i k K o r m a k: Daim belə olubdur. Yenicə demokratiya yolunu seçəndə mütləq çətinliklərlə qarşılaşırsan. Biz öz jurnalımızda ən azı bir məqalə dərc edib yazacağıq ki, xarici şirkətlər üçün necə şərait yaradılıbdır və onların daha da intensiv işləməsi üçün daha hansı işlər görülə bilər.**

**Zati-aliləri, Sizə uğurlu səfər arzulayıram. Ümidvaram ki, bizim ölkəmizdən xoş təəssüratla ayrılacaqsınız. Əminəm ki, Sizin bu səfəriniz azad, çiçəklənən Azərbaycanda xalqın rifah halının yüksəlməsində, əmin-amanlıq şəraitində yaşayan və in**[327-328]**kişaf edən ölkənizdəki uğurlu quruculuq işində Sizə yardımçı olacaqdır.**

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun. Mən elə bu ümidlərlə, bu arzularla rəsmi səfərə gəlmişəm və dünəndən səfərin gedişi göstərir ki, həqiqətən, ümidlərim özünü doğruldacaq və bizim ölkələrimiz arasındakı əlaqələr daha da inkişaf edəcəkdir.

**P a t r i k K o r m a k: Mən buna tamamilə əminəm. Amma yadınızda saxlayın ki, nə siyasətçilər, nə də jurnalistlər bankirləri gözlətmirlər. Bilirəm ki, Sizin məndən sonra bankirlə görüşünüz var. Ümidvaram ki, onunla da danışıqlarınız uğurlu olacaqdır.**

**H e y d ə r Ə l i y e v:** Mən sizi Azərbaycana dəvət edirəm. Gəlib Azərbaycanı öz gözlərinizlə görsəniz, sizdə daha da geniş təəssürat yaranacaqdır. Azərbaycana mənim qonağım kimi gəlin. Orada biz geniş danışıqlar apara bilərik və siz Azərbaycanda təkcə mənimlə yox, çox adamlarla görüşə bilərsiniz.

**P a t r i k K o r m a k: Dəvətinizi yüksək qiymətləndirirəm. Ümidvaram ki, bundan istifadə edəcəyəm. Bu payız Sizə seçkilərdə uğurlar arzulayıram.**

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun. [328]

## AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKI İLƏ AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ BANKI ARASINDA BEYNƏLXALQ BANK-KREDİT XƏTTİ AÇILMASI HAQQINDA SAZİŞİN İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*London,*
*Azərbaycan prezidentinin iqamətgahı*

*21 iyul 1998-ci il*

Hörmətli cənab prezident!
Xanımlar və cənablar!

AvropaYenidənqurma və İnkişaf Bankı ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın artıq müəyyən tarixi vardır. Mən 1994-cü ilin fevral ayında Birləşmiş Krallıqda ilk rəsmi səfərdə olduğum zaman Avropa Yenidənqurma və İnkişaf Bankının rəhbərləri ilə görüşlər keçirmişəm. Bundan sonra bizim görüşlərimiz Bakıda davam edibdir. Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında ötən illər çox uğurlu əməkdaşlıq həyata keçirilibdir.

Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda bir neçə tikintilərin, xüsusən Yenikənd Su Elektrik Stansiyasının və başqa tikintilərin həyata keçirilməsi üçün kreditlər ayırıbdır. Biz indi bu kreditlərdən istifadə olunmasını birgə təmin edirik.

Mən bu gün fürsətdən istifadə edərək bizim bu əməkdaşlığımızdan razı olduğumu bildirmək istəyirəm. Avropa Yenidənqurma və İnkişaf Bankı ilə Azərbaycan arasında əmək[329-330]daşlığın gələcəkdə daha da genişlənməsinin tərəfdarı olduğumu bildirmək istəyirəm.

Bu gün imzalanmış kredit sazişi bu baxımdan çox böyük əhəmiyyət kəsb edir. Çünki Avropa Yenidənqurma və İnkişaf Bankı bu sazişlə Azərbaycanda özəl sektorun inkişaf etməsinə öz münasibətini və yardımını göstərir. Bizim məqsədimiz isə Azərbaycanda bazar iqtisadiyyatını bərqərar etmək, özəlləşdirmə prosesini aparıb başa çatdırmaq və respublikamızın iqtisadiyyatını sərbəst sahibkarlıq və bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirmək, ölkəmizin vətəndaşlarının rifah halını yaxşılaşdırmaqdan ibarətdir.

Ona görə də hesab edirəm ki, bugünkü saziş, Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən Azərbaycan Beynəlxalq Bankına kredit xəttinin açılması çox böyük gələcəkdən xəbər verir.

Cənab prezident, mən Sizin bu sazişi imzalamağınızı, eyni zamanda gələcəkdə bu işlərin daha da genişlənəcəyi haqqında verdiyiniz bəyanatı da nəzərə alıram və qiymətləndirirəm.

Mən qeyd etdim ki, Azərbaycanda özəlləşdirmə proqramı ardıcıl surətdə həyata keçirilir. Bank sisteminin özəlləşdirilməsi bizim gündəliyimizdə duran əsas məsələlərdən biridir. Biz bu prosesə, birinci növbədə Azərbaycan Beynəlxalq Bankının özəlləşdirilməsinə başlayırıq.

Mən Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanda bank sisteminin özəlləşdirilməsinə marağını bəyənirəm və Sizin bu işlərdə iştirak etməyinizə, şübhəsiz ki, gələcəkdə dəstək verəcəyəm.

Beləliklə, bizim ötən illərdəki əməkdaşlığımız müsbət qiymətləndirilməlidir. Bu gün imzalanan saziş bu əməkdaşlığın yeni bir nümunəsidir və gələcək üçün də çox dəyərli perspektivlər açılır.

Mən Avropa Yenidənqurma və İnkişaf Bankını Azərbaycanla gələcəkdə daha sıx əməkdaşlığa dəvət edirəm. Sağ olun. [330-331]

* * *

*Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra rəsmi səfərdə onu müşayiət edən jurnalistlərlə söhbəti*

Bu görüşlər həm sayına görə, həm də məzmununa görə çox yaxşıdır. Görürsünüz ki, bizim görüşlərimiz nə qədər səmimilik şəraitində keçir. Birləşmiş Krallıqda Azərbaycana çox böyük maraq vardır. Britaniya - Azərbaycan Cəmiyyətinin dünənki toplantısında iştirak etdiniz və onun nə olduğunu gördünüz. Mən dörd il bundan əvvəl Böyük Britaniyaya gələrkən bu cəmiyyətlə əlaqədar burada heç bir şey yox idi. Amma görürsünüz, bu dörd il müddətində nə qədər böyük bir cəmiyyət yaranıbdır. Bunlar hamısı Azərbaycanın bu dörd ildə apardığı xarici siyasətin nəticəsidir.

Birləşmiş Krallıq adi bir ölkə deyildir. Onun özünün xüsusiyyətləri, ənənələri vardır. Onlar özlərinin bəzi ənənələrindən narazıdırlar, amma bunlardan imtina edə bilmirlər. Bunların hamısına baxmayaraq, bizə burada çox böyük qayğı və diqqət, qonaqpərvərlik göstərilir. Qayğı, diqqət o qədər də böyük məsələ deyildir. Əsas məsələ ondan ibarətdir ki, Böyük Britaniyada Azərbaycana böyük maraq var. Birləşmiş Krallıq Azərbaycanla

əməkdaşlıq etmək istəyir. Dünənki görüşdə çoxlu rəqəmlər gətirildi. Bunlar hamısı əyani sübutdur ki, bizim gördüyümüz işlər Azərbaycanın həyatı, iqtisadiyyatı, onun beynəlxalq aləmdə hörmətinin qalxması, imici üçün nə qədər əhəmiyyətlidir. Bunlar hamısı göz qabağındadır, siz də onun şahidisiniz.

**M ü x b i r**: Rəsul Quliyevin Türkiyədən qovulmağı münasibətilə Sizi təbrik edirik.

**H e y d ə r Ə l i y e v**: Bilirsiniz, məni təbrik etmək lazım deyildir. O, elə bir ləyaqətli adam deyil ki, mən onunla maraqlanım. Elə adamlar həmişə öz gördükləri əxlaqsız işlərin qurbanı olurlar. Mən bunu həyatımda çox görmüşəm. Mən 1987-ci ildən belə hadisələrə rast gəlirəm. Kim ki, yolunu azır, gec-tez Allah onun cəzasını verir. [331]

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ KRALİÇASI II YELİZAVETA İLƏ GÖRÜŞDƏKİ* SÖHBƏTDƏN

*London, Bukingem sarayı*

*21 iyul 1998-ci il*

**II Yelizaveta**: Cənab prezident Heydər Əliyev, sizi səmimi-qəlbdən, ürəkdən salamlayır, Böyük Britaniyaya rəsmi səfərinizdən məmnunluğumu bildirirəm.

Zati-aliləri, İkinci dünya müharibəsində qələbənin 50 illiyi münasibətilə 1995-ci ilin mayında Londonda keçirilmiş şənliklərdə sizinlə görüşüm mənim yaxşı xatirimdədir. Mən, həmçinin, qeyd etməliyəm ki, Birləşmiş Krallıq Azərbaycanla əlaqələrin inkişaf etdirilməsinə böyük maraq göstərir.

**Heydər Əliyev**: Hörmətli əlahəzrət kraliça! Sizinlə görüşümüzdən mən də böyük məmnunluq duyuram. Dünyanın ən nüfuzlu dövlətlərindən biri olan Böyük Britaniya ilə bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrin daha da möhkəmləndirilməsi müstəqil Azərbaycan Respublikası üçün çox əhəmiyyətlidir.

Sizi, hörmətli kraliça, Azərbaycanda çox yaxşı tanıyır və sevirlər. Xalqlarımız arasındakı əlaqələrin tarixi də qədimdir. Hələ orta əsrlərdə İngiltərə ilə Azərbaycan arasında iqtisadi əlaqələr, xüsusilə ticarət əlaqələri var idi. [332-333]

**II Yelizaveta** : Sizin ölkəniz haqqında mənim geniş məlumatım var. Sizin rəhbərliyiniz ilə son illər Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işlər İngiltərədə maraqla izlənilir.

Böyük Britaniya şirkətlərinin Azərbaycanda geniş fəaliyyət göstərməsi üçün yaradılan şəraitə görə sizə minnətdarlığımı bildirirəm. Ölkələrimizin bütün sahələrdə, xüsusən elm, mədəniyyət, təhsil sahəsindəki əlaqələrinin durmadan inkişaf etdirilməsinin böyük əhəmiyyət daşıdığını vurğulayıram.

**Heydər Əliyev**: Bu sahədə hər iki tərəfdən atılan addımlar xüsusi əhəmiyyətə malikdir. Bilirsiniz ki, Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənilməsi üçün imzalanmış tarixi müqavilələrin həyata keçirilməsində Böyük Britaniyanın neft şirkətləri yaxından iştirak edir.

Baş nazir Toni Bleyrlə bugünkü görüşümdən sonra Azərbaycan və Böyük Britaniya şirkətləri arasında bir sıra yeni müqavilələr imzalanacaqdır. Ölkələrimiz arasında iqtisadi sahədə əlaqələr hazırda yüksək səviyyədədir. Hüquqi, demokratik dövlət quruculuğunda və iqtisadi islahatların müvəffəqiyyətlə həyata keçirilməsində böyük uğurlar qazanmış Azərbaycan həm də bir sıra problemlərlə qarşılaşmışdır. Bu problemlərdən biri Ermənistan silahlı qüvvələrinin ölkəmizə 1988-ci ildən bəri davam edən hərbi təcavüzüdür. Təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu işğal olunmuşdur. Bu ərazilərdən qaçqın düşmüş 1 milyondan çox vətəndaşımız hələ də çadırlarda ağır vəziyyətdə yaşayırlar. İşğal edilmiş Azərbaycan ərazilərində yüzlərlə şəhər və kənd dağıdılmış, yandırılmış, evlər, məktəblər, xəstəxanalar talan olunmuş, qədim mədəniyyət abidələri məhv edilmişdir. Hazırda atəşkəsə əməl edilir və qan tökülmür. Lakin bu, sülh demək deyildir.

Bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in bu məqsədlə yaradılmış Minsk qrupu çərçivəsində [333-334] aparılan danışıqlardan, üç böyük dövlətin – ABŞ-ın, Rusiyanın və Fransanın Minsk qrupuna həmsədrlik etməsindən bəhs edərkən onu vurğulamaq olar ki, münaqişənin həlli üçün həmsədrlərin irəli sürdükləri təkliflər Azərbaycan tərəfindən maraqla qarşılanmış və diqqətlə öyrənilmişdir. ATƏT-in üzvü olan dövlət və hökumət başçılarının 1996-cı ilin dekabrında Lissabonda keçirilmiş zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin siyasi vasitələrlə həlli barədə qəbul olunmuş prinsipləri 53 dövlət, o cümlədən Böyük Britaniya təsdiq etmişdir. Biz bu münaqişənin həmin prinsiplər əsasında tezliklə həll olunmasına tərəfdarıq.

Regionda sülhün, əmin-amanlığın bərqərar edilməsi üçün bu münaqişənin tezliklə aradan qaldırılmasının vacib olduğunu, dünya ictimaiyyətinin, nüfuzlu dövlətlərin bu məsələyə xüsusi diqqət yetirilməsinə ehtiyac duyulduğunu vurğulayıram.

Azərbaycan demokratik inkişaf, bazar münasibətləri yolunu seçmiş, Dünya Birliyi ilə sıx əlaqələr qurmuş, öz qapılarını xarici iş adamlarının üzünə açmış, iqtisadiyyatının dünya iqtisadiyyatı ilə sıx bağlanmasına, Avropa strukturlarında bərabər hüquqlu üzv kimi iştirak etməyə böyük əhəmiyyət verir. Onu da xatırlatmaq istəyirəm ki, hazırda respublikamızda Böyük Britaniyanın 100-dən çox şirkəti fəaliyyət göstərir.

Birləşmiş Krallıq ilə Azərbaycan arasında hələ bu əsrin əvvəllərində sıx əlaqələr olmuşdur. Müstəqil respublikamız Böyük Britaniya kimi nüfuzlu bir dövlətlə müttəfiq olmaqdan, onun simasında özünə yaxın dost tapmaqdan çox məmnundur. Azərbaycan ilə Böyük Britaniya arasında beynəlxalq təşkilatlar çərçivə-

* Görüşdə Heydər Əliyevin qızı Sevil Əliyeva iştirak edirdi.

sində də yaxşı əlaqələr qurulmuşdur. Biz əminik ki, ölkəmizin haqq işinin müdafiə olunmasında İngiltərə səylərini daha da artıracaqdır.

Bildirirəm ki, dünya ölkələri Azərbaycanla qarşılıqlı surətdə faydalı əlaqələr qurmağa böyük maraq göstərirlər. Regi[334-335]onda strateji əhəmiyyətə malik olan respublikamızda Avropa-Qafqaz-Asiya dəhlizinin normal işləməsi sahəsində xeyli müsbət tədbirlər görülmüşdür. TRASEKA proqramı uğurla həyata keçirilir. Transqafqaz nəqliyyat dəhlizi qısa müddət ərzində Azərbaycanı, bütünlükdə Qafqazı, Avropanı birləşdirmişdir.

Dünya xalqlarının iqtisadi, mədəni əlaqələrinin qurulmasında vaxtilə böyük əhəmiyyət daşımış qədim «İpək yolu»nun bərpası üçün Avropa Birliyinin himayəsi ilə TRASEKA proqramı çərçivəsində bu il sentyabrın 7-8-də Bakıda beynəlxalq konfrans keçiriləcəkdir. Biz əminik ki, bu beynəlxalq tədbir iştirakçı dövlətlərin hamısı üçün xüsusi əhəmiyyət daşıyacaqdır.

Azərbaycanda iqtisadi islahatlar, özəlləşdirmə ardıcıl surətdə müvəffəqiyyətlə həyata keçirilmiş, keçmiş sovet məkanında yerləşən ölkələr arasında ilk dəfə Azərbaycanda torpaq şəxsi mülkiyyətə verilmiş, ölkəmizdə siyasi plüralizm, söz azadlığı bərqərar olunmuşdur. Müstəqil respublikamız Qərbin inkişaf etmiş dövlətlərinin bütün sahələrdə təcrübəsinin öyrənilməsinə və tətbiqinə daim böyük əhəmiyyət verir.

İnanıram ki, Azərbaycan Respublikasının Prezidenti kimi mənim bu ölkəyə rəsmi səfərim Azərbaycanla Böyük Britaniya arasında elm, mədəniyyət, təhsil sahəsində əlaqələrin durmadan inkişaf etdirilməsində yeni mərhələ açacaqdır. Respublikamızda fəaliyyət göstərən ingiltərəli iş adamlarının xalqlarımızın mədəni, insani münasibətlərinin daha da möhkəmləndirilməsinə lazımi səylər göstərməsindən razılığımı bildirirəm. Əlahəzrət kraliçanı 1995-ci ildəki görüşündə Azərbaycana rəsmi səfərə dəvət etdiyini xatırladan respublikamızın rəhbəri dedi ki, xalqımız onu hörmətli qonaq kimi qəbul etməkdən çox məmnun olardı.

Əlahəzrət kraliça II Yelizaveta bu dəvətə görə minnətdarlığını bildirdi, Azərbaycana həqiqətən böyük maraq göstərdiyini vurğuladı. [335-336]

Əminəm ki, əlahəzrət kraliçanın ölkəmizə səfəri Azərbaycan xalqı üçün əlamətdar hadisəyə çevrilər. Xalqımız sizi hörmətli qonaq kimi qəbul etməkdən məmnun olar.

**II Yelizaveta**: Hörmətli cənab prezident, mən bu dəvətə görə minnətdarlığımı bildirir, Azərbaycana həqiqətən böyük maraq göstərdiyimi vurğulayıram. [336]

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ TONİ BLEYR İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*London*

*21 iyul 1998-ci il*

**T o n i B l e y r**: Hörmətli cənab prezident Əliyev, Sizi səmimiyyətlə salamlayıram və dəvətimi qəbul edərək Böyük Britaniyaya rəsmi səfərə gəldiyinizə görə Sizə minnətdarlığımı bildirirəm.

Mən sizinlə bundan əvvəlki görüşlərimi həmişə məmnunluqla xatırlayıram. Heydər Əliyev kimi görkəmli dövlət xadimi ilə görüşüb danışıqlar aparmaqdan şərəf duyduğumu bildirirəm.

**H e y d ə r Ə l i y e v**: Möhtərəm Baş nazir, ilk öncə bu dəvətə, səmimi sözlərə və qonaqpərvərliyə görə Sizə təşəkkür edir və sizinlə görüşməkdən məndə məmnun qaldığımı bildirirəm.

**T o n i B l e y r**: Qeyd edim ki, Azərbaycanla Böyük Britaniya arasında əməkdaşlıq yaxşı səviyyədədir. Biz iqtisadi və siyasi əlaqələrin durmadan inkişaf etdirilməsinə böyük əhəmiyyət veririk.

Böyük Britaniya Qafqaz, Mərkəzi Asiya regionuna xüsusi maraq göstərir və nəzərə çarpdırım ki, Azərbaycan bu regionda açar rolu oynayır. Onu da qeyd edim ki, Birləşmiş Krallıq Azərbaycanla siyasi-strateji tərəfdaşlıq münasibətlərini genişləndirmək arzusundadır. [337-338]

Əmin olduğumu bildirmək istəyirəm ki, prezident Heydər Əliyevlə birlikdə imzalayacağım dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannamənin ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əlaqələrin daha da genişləndirilməsi üçün böyük perspektivlər açacaqdır. Qeyd edim ki, Leyboristlər partiyası seçkilərdə qalib gəldikdən sonra Böyük Britaniyanın Azərbaycana dair siyasəti dəyişilməyib, yeni hökumət Azərbaycan Respublikası ilə, prezident Heydər Əliyevlə əlaqələrin daha da sıxlaşdırılmasına xüsusi əhəmiyyət verir. Xəzər regionunda Azərbaycan çox böyük strateji əhəmiyyətə malikdir. Biz Azərbaycanı və prezident Heydər Əliyevi özümüzün strateji müttəfiqimiz hesab edirik. Britaniyanın yeni hökuməti Azərbaycanla iqtisadi, siyasi və təhlükəsizlik sahəsində əlaqələrin ardıcıl surətdə inkişaf etməsinə böyük maraq göstərir.

Cənab prezident, əminəm ki, müstəqil Azərbaycan Respublikasının başçısı kimi Böyük Britaniyaya rəsmi səfəriniz ölkələrimiz arasındakı əməkdaşlığın daha da genişləndirilməsində yeni mərhələ açacaqdır. Sizin müdrik rəhbərliyiniz altında son beş ildə Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işlər Britaniya hökuməti tərəfindən diqqətlə izlənilir və alqışlanır.

Azərbaycanda gedən demokratik dəyişikliklərin respublikanızın müstəqilliyinin, suverenliyinin qorunub saxlanılmasında mühüm rol oynadığını vurğulayır və bazar münasibətləri yolunu seçmiş ölkənizdə iqtisadi sahədə son illər əldə olunmuş nailiyyətləri bir daha yüksək qiymətləndirirəm.

Onu da nəzərə çarpdırmaq istəyirəm ki, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi sahəsində imzalanmış tarixi müqavilələrin gənc müstəqil dövlətinizin iqtisadiyyatının dünya iqtisadiyyatı ilə sıx bağlanmasında mühüm rol oynayacaqdır. Bütün bunların prezident Heydər Əliyevin öz xalqı qarşısında misilsiz xidmətlərinin nəticəsində [338-339] baş verdiyini məmnunluqla qeyd edirəm. Britaniya şirkətlərinə Azərbaycanda geniş fəaliyyət göstərmək üçün yaradılmış gözəl şəraitə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Ölkələrimizin iqtisadi əməkdaşlığı Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının dövlətlərarası münasibətlərinin daha da yaxşılaşdırılması üçün möhkəm zəmin yaradır. Xəzərin Azərbaycan sektorunda Britaniya şirkətlərinin yaxından iştirak etməsinin həm Birləşmiş Krallıq, həm də Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyır.

Azərbaycanın neft yataqlarının birgə işlənilməsi üçün Böyük Britaniya şirkətləri ilə ARDNŞ arasında həmin gün imzalanacaq yeni müqavilələrin ölkələrimizin əməkdaşlığının böyük perspektivlərindən xəbər verdiyini vurğulamaq istəyirəm. Onu da qeyd edim ki, digər sahələrdə də belə mühüm əhəmiyyətli müqavilələr bağlanması çox zəruridir.

Azərbaycanın Avropa strukturlarında geniş təmsil olunmasına Böyük Britaniyanın yaxından kömək göstərəcəyini bildirirəm. Biz Avropa Şurasında qonaq statusu alan respublikanızın bu şuraya tam hüquqlu üzv kimi qəbul olunması üçün lazımi səylər göstərəcəyik və Azərbaycan bu sahədə Böyük Britaniyanın tam dəstəyinə arxalana bilər.

Mən müstəqil respublikanızın Avropaya inteqrasiya üçün göstərdiyi marağı yüksək qiymətləndirir, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində əməkdaşlığın genişləndirilməsinin vacib olduğunu vurğulayıram. Biz bu sahədə də Azərbaycana yardım göstərməyə hazırıq.

Xəzərin Azərbaycan sektorundakı yataqlardan hasil edilən neftin dünya bazarına bir neçə marşrut üzrə çıxarılmasına ölkənizin böyük üstünlük verməsini razılıq hissi ilə bildirirəm. Neftin çoxşaxəli marşrutlarla ixracı həm kəmərlərin etibarlılığı, təhlükəsizliyi baxımından, həm də iqtisadi cəhətdən çox faydalıdır. [339-340]

Ermənistan–Azərbaycan münaqişəsinin ATƏT-in Minsk qrupu çərçivəsində sülh yolu ilə həll edilməsinə Böyük Britaniyanın da tərəfdar olduğunu bildirirəm. Bizim ölkəmiz Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bu sahədə beynəlxalq hüquq normaları, Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in dəyişilməz prinsipləri vardır və onlara əməl olunmalıdır.

ATƏT-in 1996-cı ilin dekabrında Lissabonda keçirilmiş zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün qəbul edilmiş prinsiplərə Böyük Britaniyanın da səs verdiyini bir daha xatırladıram və əmin olduğumu bildirirəm ki, bu münaqişə tezliklə öz həllini tapacaqdır.

Azərbaycanda ölüm hökmünün ləğv olunmasını insan hüquqlarının qorunması sahəsində çox böyük addım kimi qiymətləndirir və prezident Heydər Əliyevin bununla əlaqədar imzaladığı fərmanı alqışlayıram. Avropa ölkələri Qərbin dəyərlərinə Azərbaycanın sadiqliyini çox yüksək qiymətləndirirlər.

Respublikanızın Qafqaz və Mərkəzi Asiya regionunda xüsusi əhəmiyyət daşıyan bir dövlət olduğunu nəzərə alan Böyük Britaniya hökuməti Azərbaycandakı səfirliyinin fəaliyyətini genişləndirmək qərarına gəlmişdir. Cənab prezident, sizdən xahiş edirəm ki, buna lazımi şərait yaradasınız.

Mən Azərbaycanda hazırkı ictimai-siyasi vəziyyət, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqların gedişi barədə məlumat almaq istərdim. Avropa Birliyinin TRASEKA proqramı çərçivəsində qədim İpək yolunun bərpası sahəsində Azərbaycanda görülən işləri yüksək qiymətləndirirəm və Avropa-Qafqaz-Asiya magistralının böyük perspektivlərə malik olduğunu vurğulayıram.

**H e y d ə r  Ə l i y e v**: Hörmətli cənab Baş nazir! Ölkəmiz haqqında söylədiyiniz xoş sözlərə görə sizə səmimi minnətdar[340-341]lığımı bildirirəm. Avropanın bu çox nüfuzlu dövləti ilə münasibətlərin gündən-günə yaxşılaşdırılmasına, əməkdaşlığın durmadan inkişaf etdirilməsinə Azərbaycan böyük əhəmiyyət verir. Respublikamız dövlət müstəqilliyini əldə etdikdən sonra Böyük Britaniya ilə yaranmış dövlətlərarası, hökumətlərarası əlaqələrin hazırkı səviyyəsindən razı olduğumu bildirirəm.

1994-cü ilin fevralında Londona ilk rəsmi səfərimi, o zaman keçirdiyim görüşləri, apardığım danışıqları məmnunluqla xatırlayıram. O vaxt imzalanmış sənədlərin Azərbaycan-Böyük Britaniya əməkdaşlığının möhkəmləndirilməsində mühüm rol oynadığını vurğulayıram.

Keçən il Böyük Britaniyada parlament seçkilərində qələbə çalaraq hakimiyyətə gəlmiş Leyboristlər partiyasının qısa vaxtda ölkədə bir sıra müsbət irəliləyişlərə nail olduğunu yüksək qiymətləndirirəm. Cənab Toni Bleyr ilə əvvəllər keçirdiyim görüşləri, apardığım danışıqları razılıqla xatırlayıram.

Cənab Bleyr, sizin dəvətinizlə Londona rəsmi səfərə gəlməyimdən məmnun qaldığımı bildirir və əminəm ki, burada keçirdiyim görüşlər, apardığım danışıqlar, imzalanacaq sənədlər Azərbaycan-Böyük Britaniya əlaqələrinin ardıcıl surətdə inkişaf etməsində yeni mərhələ açacaqdır.

Bu gün mən əlahəzrət kraliça ilə görüşü tarixi bir hadisə hesab edirəm. Biz bu görüşdə ölkələrimizin, xalqlarımızın qarşılıqlı surətdə faydalı münasibətlərinin, xüsusən elm, təhsil, mədəniyyət sahəsindəki əməkdaşlığın daha da sıxlaşdırılması üçün həlli vacib olan bir sıra məsələlərdən ətraflı söhbət açdıq.

Böyük Britaniyanın, xüsusən Baş nazir Toni Bleyrin Azərbaycanla bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinə çox böyük əhəmiyyət verməsini yüksək qiymətləndirirəm. Biz dünya siyasətinə təsir etmək gücünə malik bir dövlətin ölkəmizə böyük maraq göstərməsindən çox məmnunuq və bu əla[341-342]qələrin daim inkişaf etməsi üçün öz tərəfimizdən lazım olan bütün tədbirləri görəcəyik.

Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin ştatının artırılması barədə Baş nazir Toni Bleyrin fikrini razılıqla qarşılayıram və dövlətimizin səfirliyin gələcək fəaliyyəti üçün hər cür şərait yaradacağını bildirirəm.

Demokratik inkişaf və bazar münasibətləri yolunu seçmiş Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu və islahatların həyata keçirilməsi sahəsində son illər qazanılmış uğurların Böyük Britaniya hökuməti tərəfindən müsbət qiymətləndirilməsindən çox məmnun olduğumu bildirirəm. Nəzərə çatdırıram ki, 1995-ci ildə respublikamızda ilk demokratik konstitusiya qəbul olundu. Bütün siyasi partiyaların təmsil edildiyi parlament formalaşdırıldı.

Respublikamızda aparılan iqtisadi islahatlar sahəsində də ciddi addımlar atılmışdır və qeyd edim ki, ölkəmiz öz iqtisadiyyatının dünya iqtisadiyyatı ilə sıx bağlanmasına böyük əhəmiyyət verir. Onu da vurğulayıram ki, respublikamızdakı zəngin yataqların birgə işlənilməsi sahəsində bir sıra tədbirlər həyata keçirilmişdir. Biz Xəzərin Azərbaycan sektorundakı yataqların birgə istismarı ilə əlaqədar xarici ölkələrin ən nüfuzlu neft şirkətlərinin iştirakı ilə 1994-cü ildə ilk müqavilə imzaladıq və o, «Əsrin müqaviləsi» adını qazandı. Böyük Britaniyanın «Bi-Pİ» şirkəti də bu müqavilədə özünəməxsus pay aldı. Bundan sonra Azərbaycana xarici ölkələrin marağı get-gedə daha da artdı və bir-birinin ardınca yeni tarixi müqavilələr imzalandı.

Xatırladım ki, dünyanın əksər ölkələrindən xeyli şirkət Azərbaycanda geniş fəaliyyət göstərir. Məmnunluqla qeyd etmək istəyirəm ki, təkcə Böyük Britaniyadan 100-dən çox şirkət respublikamızın iqtisadiyyatının inkişafında yaxından iştirak edir.

Neftin dünya bazarına müxtəlif marşrutlar üzrə çıxarılmasına Azərbaycan böyük üstünlük verir. Hazırda Xəzərin [342-343] Azərbaycan sektorundakı ehtiyatların birgə istismarı üçün imzalanmış müqavilələrin həyata keçirilməsi sahəsində böyük işlər görülür. Eyni zamanda, hasil olunacaq neftin dünya bazarına çıxaracaq boru kəmərlərinin marşrutları qəti müəyyən olunmalı, tikintisi həyata keçirilməlidir. Bu münasi-

bətlə əsas neft boru kəmərinin Bakı-Ceyhan marşrutu ilə Gürcüstan və Türkiyə ərazilərindən Aralıq dənizinə çıxarılmasını zəruri hesab edirik.

Sizinlə bu görüşdən sonra Böyük Britaniya şirkətləri ilə bir neçə yeni müqavilə imzalanacağına inanıram. Xəzərin Azərbaycan sektorundakı «Araz», «Alov», «Şərq», «İnam», quruda yerləşən «Muradxanlı», «Cəfərli» və «Zərdab» yataqları zəngin ehtiyatlara malikdir. Əmin olduğumu bildirirəm ki, bu müqavilələrin Azərbaycan-Böyük Britaniya əməkdaşlığının daha da genişləndirilməsinə yeni güclü təkan verəcəkdir.

İnanıram ki, Azərbaycan Respublikasının prezidenti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin imzalayacaqları dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannamənin ölkələrimizin bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrinin daha da sıxlaşdırılmasında böyük perspektivlər açacaqdır. Paytaxtımızda otel və biznes mərkəzinin tikilməsi haqqında Bakı Şəhər İcra Hakimiyyəti ilə İngiltərənin «Morrison» şirkəti arasında imzalanacaq sənədin layihəsini də yüksək qiymətləndirirəm.

Dünya siyasətində əhəmiyyətli yer tutan və Avropanın ən nüfuzlu dövlətlərindən biri olan Böyük Britaniyanın Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə göstərdiyi diqqətdən razılığımı bildirirəm.

Bu münaqişənin tarixi, başvermə səbəbləri və onun aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqların hazırkı vəziyyəti barədə bir neçə kəlmə demək istəyirəm. Bilirsiniz, hələ 1988-ci ildə Ermənistan Azərbaycan ərazisinin bir hissəsini- Dağlıq Qarabağı qoparıb Er[343-344]mənistana birləşdirmək məqsədilə ölkəmizə qarşı hərbi təcavüz etmişdir. Lakin sovet hökuməti, sovet rəhbərliyi bu münaqişənin qarşısını almaq üçün lazımi tədbirlər görmədilər. Bu da sonralar Ermənistan-Azərbaycan müharibəsinə gətirib çıxartdı. Nəticədə Azərbaycan ərazisinin 20 faizi erməni silahlı birləşmələri tərəfindən işğal olundu, 1 milyondan çox Azərbaycan sakini öz yurd-yuvalarından zorla didərgin salınıb ağır vəziyyətdə çadırlarda yaşayırlar.

1994-cü ilin mayında hərbi əməliyyatları dayandırmaq, atəşkəs haqqında Ermənistanla saziş bağladıq. Dörd ildir ki, atəşkəs rejiminə əməl edilir. Ancaq bu, sülh demək deyildir. Bütün bu dövrdə biz münaqişəni dincliklə aradan qaldırmaqdan ötrü bir sıra əməli addımlar atmışıq. Lakin Ermənistan qeyri- əməli mövqe tutur. Sonuncu dəfə 1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə toplantısında bu münaqişənin dincliklə nizama salınması prinsipləri müəyyənləşdirildi və üç təklif irəli sürüldü: birincisi – Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması; ikincisi – Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək özünüidarə statusu verilməsi; üçüncüsü – Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi. Biz bu prinsiplərlə razılaşdıq, hərçənd onlar bizim üçün o qədər də məqbul deyildi. Biz buna məsələni sülh yolu ilə nizama salmaq naminə getdik. Lakin Lissabonda keçirilmiş zirvə görüşündə Ermənistan qeyri-konstruktiv mövqe tutdu, bununla razılaşmadı. Nəticədə ATƏT-in üzvü olan 54 dövlətdən 53-ü bu prinsiplərin lehinə, Ermənistan isə əleyhinə səs verdi.

O vaxtdan bəri bu üç prinsip məsələnin nizama salınması üçün əsas olaraq qalır. Onların həyata keçirilməsi üçün Minsk qrupunun həmsədrlərinin – ABŞ-ın, Fransanın, Rusiyanın irəli sürdükləri son təklifləri biz qəbul etmişik. Lakin Ermənistan tərəfi münaqişənin tezliklə aradan qaldırılması üçün nə beynəlxalq təşkilatların qərarlarına, qətnamələrinə, nə bey[344-345]nəlxalq hüquq normalarına, hamı üçün qəbul olunmuş prinsiplərə, nə də dünyanın ən nüfuzlu dövlətlərinin təkliflərinə heç bir məhəl qoymur. Beynəlxalq təşkilatlarda və toplantılarda Böyük Britaniyanın Azərbaycanın haqq işini dəstəkləməsinə görə, cənab Baş Nazir, sizə öz razılığımı bildirirəm.

Bizim fikrimizcə, indi məsələnin dincliklə həlli iki mərhələdə həyata keçirilə bilər. Bunu Minsk qrupu da təklif edir. Əyanilik üçün sizə Azərbaycanın xəritəsini göstərmək istəyirəm. Baxın, xəritədə erməni hərbi birləşmələrinin işğal etdikləri ərazilər göstərilmişdir. Bura Ermənistan, bura isə Naxçıvan ərazisidir. Dağlıq Qarabağ qırmızı rənglə qeyd olunmuşdur. O, Azərbaycanın vilayətidir. Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı işğal olunmuş rayonları yaşıl və sarı rənglə boyanmışdır. Biz belə hesab edirik ki, bunu Minsk qrupu da təklif edir, birinci mərhələdə erməni silahlı birləşmələrinin yaşıl rəngə boyanmış ərazidən çıxarılmasına, qaçqınların buraya qayıtmasına və bu məsələnin həlli üçün ATƏT-in sülhyaratma qüvvələrinin oraya gətirilməsinə nail olmaq, ikinci mərhələdə isə erməni silahlı qüvvələrini Laçın və Şuşa rayonlarından çıxarmaq, eyni zamanda, Dağlıq Qarabağın statusunu Lissabon zirvə toplantısında nəzərdə tutulduğu kimi müəyyənləşdirmək lazımdır.

Biz sülh istəyirik, münaqişə sülh yolu ilə həll olunmalıdır. Ancaq biz ərazimizin hər hansı bir kiçik hissəsinin də başqa ölkəyə verilməsinə heç vaxt razı ola bilmərik. Bu bizim qəti, prinsipial mövqeyimizdir. Biz bu mövqeyimizdən heç vaxt geriyə çəkilmərik.

Azərbaycanın Avropa strukturlarında bərabər hüquqlu üzv kimi iştirak etməyə böyük əhəmiyyət verdiyini bəyan edirəm. Birləşmiş Krallıq hökumətinin bu barədə respublikamıza əməli kömək göstərmək istəyini minnətdarlıqla qəbul edirəm. Vurğulayıram ki, gənc müstəqil dövlətimizdə insan hüquqlarının qorunması, demokratik prinsiplərin bərqərar [345-346] olunması, siyasi plüralizmə geniş meydan verilməsi sahəsində xeyli işlər görülmüşdür.

Azərbaycanda qarşıda prezident seçkiləri olacaqdır. Ölkəmizin Konstitusiyası, seçkilər haqqında qəbul olunmuş qanun seçkilərin tam demokratik, azad və ədalətli keçirilməsinə şərait yaradır.

Dünya Birliyində özünəməxsus yer tutan Azərbaycan Avropa-Qafqaz-Asiya magistralının səmərəli işinə xüsusi əhəmiyyət verir. Gördüyünüz bu xəritədə qədim «İpək Yolu»nun perspektivləri qeyd olunmuşdur.

Cənab Baş nazir! Nəzərə çatdırıram ki, Avropa Birliyinin yardımı ilə TRASEKA proqramı çərçivəsində bu il sentyabrın 7-8-də respublikamızda beynəlxalq konfrans keçiriləcəkdir. Mən sizi bu beynəlxalq tədbirdə iştirak etməyə dəvət edirəm.

**T o n i B l e y r**: Bu dəvəti məmnunluqla qəbul edirəm, Böyük Britaniya hökuməti qədim İpək Yolunun bərpasına mühüm əhəmiyyət verir və bizim hökumətin nümayəndə heyəti həmin tədbirdə mütləq iştirak edəcəkdir.

Böyük Britaniyanın 100-dən çox şirkəti Azərbaycanda fəaliyyət göstərir. Hesab edirəm ki, bunlar əməkdaşlığımız üçün yaxşı əsasdır. Buna görə də biz bu konfransa çox böyük əhəmiyyət veririk və bütün iştirakçı ölkələr üçün onun faydalı olacağına əminik.

**H e y d ə r Ə l i y e v**: Hörmətli cənab Baş nazir! Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına rəsmi səfərə dəvətə görə bir daha sizə təşəkkürümü və minnətdarlığımı bildirirəm. Əmin olduğumu bildirirəm ki, keçirilən görüşlər, aparılan danışıqlar, imzalanacaq sənədlər ölkələrimizin bütün sahələrdə əlaqələrinin inkişafında mühüm rol oynayacaqdır.

Səmimi söhbət üçün sizə təşəkkürümü bildirirəm. Bir daha sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm.

**T o n i B l e y r**: Hörmətli prezident, mən bu dəvəti minnətdarlıqla qəbul edirəm. [346]

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN VƏ BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞI BAŞ NAZİRİNİN DOSTLUQ MÜNASİBƏTLƏRİ VƏ TƏRƏFDAŞLIQ HAQQINDA BİRGƏ BƏYANNAMƏSİNİN İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*London,*
*Baş nazirin iqamətgahı*

*21 iyul 1998-ci il*

Hörmətli Baş nazir!

Sizə birinci növbədə, məni Böyük Britaniyaya rəsmi səfərə dəvət etdiyinizə görə, minnətdarlığımı bildirirəm. Ölkənizdə apardığım və bu gün sizinlə apardığımız çoxsahəli, ətraflı və dərin məzmunlu danışıqlar ölkələrimiz arasındakı əlaqələrin inkişaf etməsi üçün çox yaxşı əsas yaratdı.

Biz Birləşmiş Krallıqla Azərbaycan arasında bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsi istiqamətində son dörd ildə yaxşı nailiyyətlər əldə etmişik. Bütün bunlar ölkələrimizin əməkdaşlığı üçün böyük perspektivlər açır.

Cənab Baş nazir, biz sizinlə birlikdə gələcəyin əsasını qoyuruq. Bizim indicə imzaladığımız siyasi bəyannamə çox böyük əhəmiyyət daşıyır və mən bunu yüksək qiymətləndirirəm. Dünyanın ən böyük dövlətlərindən biri olan Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə Azərbaycan arasında belə əlaqələrin yaranması və belə bir siyasi bəyannamənin [347-348] imzalanması Azərbaycan üçün çox böyük siyasi əhəmiyyət kəsb edir.

Bu gün Sizin və mənim iştirakımızla imzalanmış iqtisadi sazişlər, sənədlər Azərbaycan ilə Birləşmiş Krallığın əlaqələrinin gələcək inkişafı üçün çox yaxşı əsas yaradır. Eyni zamanda, bunlar hamısı yeni müstəqillik əldə etmiş, demokratiya, tərəqqi, bazar iqtisadiyyatı yolu ilə gedən Azərbaycan üçün çox əhəmiyyətlidir.

Sizin ölkənizin, xalqınızın böyük tarixi nailiyyətləri vardır. XX əsrin ikinci yarısında, İkinci dünya müharibəsi başa çatdıqdan sonra sizin ölkəniz bütün sahələrdə böyük tərəqqi əldə etmişdir. Biz sizin bütün sahələrdəki təcrübənizdən istifadə edirik. Biz Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi apararaq, bazar iqtisadiyyatını yaradıb inkişaf etdirərək sizin təcrübənizdən istifadə etməyə çalışırıq.

Xəzərin Azərbaycan sektorundakı zəngin yataqların və ümumiyyətlə Azərbaycanın ərazisində olan neft yataqlarının Birləşmiş Krallığın böyük neft şirkətləri ilə birgə işlənilməsi bizim üçün çox əhəmiyyətlidir. Birləşmiş Krallığın yüksək texnikaya, texnologiyaya, zəngin təcrübəyə malik şirkətləri və Azərbaycanın təbii sərvətləri, bizim yüksək səviyyəli kadrlarımız bu işləri gələcəkdə birlikdə görəcəklər.

Mən bəyan edirəm ki, bu gün imzaladığımız siyasi bəyannamədə - Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya arasında dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannamədə əks olunmuş bütün müddəaların hamısının həyata keçirilməsinə çalışacaq, Birləşmiş Krallıq - Azərbaycan dostluğunu, əməkdaşlığını daim irəliyə doğru aparacağıq.

Mən Sizi təbrik edirəm, Azərbaycan haqqında və mənim haqqımda söylədiyiniz xoş sözlərə görə Sizə minnətdarlığımı bildirirəm. Sağ olun! [348-349]

*Görüş başa çatdıqdan və sənədlərin imzalanması mərasimindən sonra*
*jurnalistlərin suallarına cavab*

**Sual**: **Bu gün Azərbaycanın imzaladığı müqavilələri necə qiymətləndirirsiniz**? **İkinci sual - Rusiya Xəzərdə Azərbaycan üçün tərəfdaşdır**, **yoxsa rəqib**?

**C a v a b**: Birincisi, mən bu gün imzalanmış müqavilələri çox müsbət qiymətləndirirəm, əks halda onların imzalanmasına razılıq verməzdim. Yeri gəlmişkən nəzərinizə çatdırım ki, bu gün bir sazişi imzalayanlar arasında Rusiya, Moskva şirkəti də var. Moskva neft şirkəti adından müqaviləni Rusiyanın keçmiş energetika naziri Yuri Şafrannik imzaladı. O buradadır. Bu faktın özü sizin sonrakı sualınıza cavab verir. Rusiya Xəzər dənizində Azərbaycan üçün, əlbəttə ki, tərəfdaşdır. Rusiya bir sıra müqavilələrdə iştirak edir. İndi isə, gördüyünüz kimi, biz hətta burada, Londonda Birləşmiş Krallığın şirkəti, Amerika Birləşmiş Ştatlarının «AMOKO» şirkəti və Rusiya şirkəti ilə də müqavilə imzalayırıq. Yəni biz Xəzərdə hamı ilə və təbii ki, Rusiya ilə də əməkdaşlıq etmək istəyirik.

**S u a l**: **Britaniya–Azərbaycan tərəfdaşlığının indiki səviyyəsini necə qiymətləndirirsiniz**? **Hesab etmək olarmı ki, bu gün imzalanmış çox mühüm sənədlərdən sonra bu tərəfdaşlıq artıq strateji xarakter alır**?

**Cavab**: Bu tərəfdaşlıq artıq yüksək səviyyədədir. Bizim – Baş nazir cənab Bleyrin və mənim imzaladığımız siyasi bəyannamə Birləşmiş Krallıq ilə Azərbaycan arasında əməkdaşlıq və dostluğa dair məsələlərin bütün kompleksini nəzərdə tutur. Bu, siyasi bəyannamənin məzmununun özü onun əhəmiyyətindən xəbər verir. Həmin bəyannamə mətbuatda dərc ediləcək, siz onunla tanış olacaq və özünüz nəticə çıxaracaqsınız.

**Sual**: **Bəyannamədə Dağlıq Qarabağ haqqında da söhbət gedirmi**? [349-350]

**C a v a b**: Şübhəsiz. Özü də təkcə Dağlıq Qarabağ haqqında yox. Dağlıq Qarabağ ətrafında Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması haqqında məsələ Birləşmiş Krallığın Baş naziri ilə söhbətimizdə çox böyük yer tutmuşdur. Əlbəttə, Birləşmiş Krallıq BMT-nin, ATƏT-in prinsiplərinin dəyişməzliyinə və beynəlxalq hüquqa tərəfdar çıxmışdır. 1996-cı ilin dekabrında Lissabon zirvə görüşündə Birləşmiş Krallıq münaqişənin sülh yolu ilə həllinin üç prinsipinə səs vermişdir. Bu gün Baş nazir Birləşmiş Krallığın bu mövqeyini bir daha bütünlüklə təsdiqlədi və təbii ki, regionumuzda tam sülhə, Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə nail olmaq üçün onlar tərəfindən göstəriləcək səyləri bildirdi.

**S u a l**: **Cənab prezident**, **Azərbaycan Avropa Şurasına üzv olmaqda İngiltərənin köməyinə bel bağlaya bilərmi**?

**C a v a b**: Bəli, biz hamısına bel bağlayırıq. Avropa Şurasına çox dövlətlər mənsubdur, onların hər birinin dəstəyi bizə lazımdır. O cümlədən Birləşmiş Krallığın da dəstəyi lazımdır və güman edirəm, bu dəstəyi də alacağıq.

**Sual**: **Cənab prezident**, **kraliça ilə görüşünüz barədə nə deyə bilərsiniz**?

**C a v a b**: Kraliça ilə görüşüm mənə çox yaxşı təsir bağışladı. Biz həm ölkələrimiz arasında əlaqələr barəsində, İngiltərə mədəniyyəti haqqında, Azərbaycan mədəniyyəti haqqında, eyni zamanda, Azərbaycandakı mövcud ictimai-siyasi vəziyyət, Ermənistan - Azərbaycan münaqişəsi barəsində və Birləşmiş Krallıq ilə Azərbaycan arasında olan münasibətlər, iqtisadi əlaqələr haqqında çox ətraflı söhbət etdik. Mən bu söhbətdən çox məmnunam.

**S u a l**: **Cənab prezident**, **İpək yolunun bərpası məsələsindən danışıldımı**?

**C a v a b**: Bəli, mən cənab Toni Bleyrə İpək yolunun bərpası və sentyabr ayının 7-8-də Bakıda keçiriləcək zirvə görüşü [350-351] haqqında çox ətraflı məlumat verdim. Bilirsiniz ki, o da həmin zirvə görüşünə dəvət olunubdur. Baş nazir cənab Toni Bleyr bu məsələyə çox böyük maraq göstərdi, çox suallar verdi, bir çox şeyləri özü üçün müəyyənləşdirmək istədi. Hesab edirəm ki, onlar bu zirvə görüşündə yüksək səviyyədə iştirak edəcəklər.

**S u a l**: **Siz onu Azərbaycana dəvət etmisinizmi**?

**C a v a b**: Bəli, bəli, şübhəsiz. Mən Baş nazir Toni Bleyri şəxsi olaraq Azərbaycana rəsmi səfərə dəvət etmişəm. O, mənim bu dəvətimi qəbul edibdir. Sentyabrın 7-8-də Bakıda keçiriləcək zirvə görüşündə iştirak etmək üçün əvvəl də ona dəvət məktubu göndərmişdim, həmin dəvəti bu gün də təkrar etdim. O, bunu da məmnuniyyətlə qəbul etdi. Sağ olun. [351]

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN VƏ BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞI BAŞ NAZİRİNİN DOSTLUQ MÜNASİBƏTLƏRİ VƏ TƏRƏFDAŞLIQ HAQQINDA BİRGƏ BƏYANNAMƏSİ**

*Dauninq Strit 10, çərşənbə günü*

*21 iyul 1998-ci il*

1. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev və Birləşmiş Krallığın Baş naziri Toni Bleyr, Azərbaycan Respublikası prezidentinin Britaniya hökumətinin qonağı kimi Birləşmiş Krallığa rəsmi səfəri zamanı 1998-ci il iyulun 21-də çərşənbə günü Dauninq Stritdə görüşdülər.

2. Prezident və Baş nazir 1994-cü il fevralın 23-də imzalanmış dostluq və əməkdaşlıq haqqında birgə bəyannamənin hazırda mövcud olan çox yaxşı ikitərəfli münasibətlər üçün əsas olduğunu bir daha təsdiq etdilər. Bu bəyannamə əməkdaşlığın mövcud sahələrinin dərinləşdirilməsi və yeni sahələrdə fəaliyyət üçün zəmin formalaşdırılmasını davam etdirəcəkdir.

3. Baş nazir Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü Britaniyanın dəstəklədiyini təkrar etdi. O, üzv dövlətlər arasında münasibətləri nizama salan ATƏT-in prinsiplərinin vacibliyini vurğuladı. Prezident və Baş nazir Dağlıq Qarabağ ətrafında münaqişənin sülh yolu ilə və qəti şəkildə həll edilməsinin ən mühüm prioritet olması ilə razılaş[352-353]dılar. Onlar, habelə, 1994-cü ildə əldə olunmuş atəşkəsin qorunub saxlanılmasının vacibliyi barədə də razılaşdılar və ATƏT-in Minsk qrupunun və onun həmsədrlərinin - Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və Fransanın səylərini dəstəklədiklərini bildirdilər. Baş nazir ATƏT-in Budapeşt zirvə görüşü bəyannaməsinin və ATƏT-in Lissabon zirvə görüşünün icraçı sədrinin bəyanatında əks olunmuş üç prinsipin bu münaqişənin həlli üçün əsas olması barədə Birləşmiş Krallığın mövqeyini bir daha təsdiq etdi.

4. Britaniyanın Baş naziri Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsində, ölkədə iqtisadi sabitliyin və əhəmiyyətli iqtisadi artımın əldə olunmasında və islahatların həyata keçirilməsində Azərbaycan prezidentinin nailiyyətlərini yüksək qiymətləndirdi. O, prezidentin siyasi, iqtisadi və demokratik islahatları dərinləşdirmək əzmini və bu mənada oktyabrda azad və ədalətli seçkilərin keçirilməsini bəyəndiyini bildirdi. Azərbaycan və Birləşmiş Krallıq demokratik təsisatların daha da inkişaf etdirilməsi sahəsində və beynəlxalq inkişaf departamentinin Noy-Hay Fondu tərəfindən texniki yardım proqramları vasitəsilə kömək göstərilməsi də daxil olmaqla, Azərbaycanda səmərəli bazar iqtisadiyyatının yaradılmasında əməkdaşlığı davam etdirəcəklər.

5. Prezident və Baş nazir XXI əsrdə Xəzər regionunun dünya enerji ehtiyatları üçün mühüm əhəmiyyətini və onların işlənilməsində Azərbaycanın Britaniya enerji şirkətləri ilə əməkdaşlığının aparıcı rolunu qeyd etdilər. Onlar bu sahədə əməkdaşlığı bundan sonra da təşviq etməyi öhdələrinə götürdülər. Onlar regionun enerji ehtiyatlarının dünya bazarlarına nəqli üçün çoxsaylı ixrac marşrutlarının zəruri olması ilə razılaşdılar.

6. Danışıqlar başa çatdıqdan sonra hər iki lider neft və qaz hasilatının pay bölgüsü haqqında üç mühüm sazişin imzalanmasında iştirak etdilər. Bu sazişlərdə «Britiş Petroleum», [353-354] «Monument Oyl ənd Qaz» və «Remko» Azərbaycan Dövlət Neft Şirkətinin - ARDNŞ-in əsas tərəfdaşlarıdır. Hər iki lider qeyd etdi ki, Bakı şəhəri və «Morrison Konstrakşn Qrup» Bakı şəhəri üçün planlaşdırılan mühüm mehmanxana-ofis kompleksinin tikintisini həyata keçirmək niyyətindədirlər. Bütün bu sazişlər Britaniya şirkətlərinin Azərbaycan şirkətləri və müəssisələri ilə uzunmüddətli tərəfdaşlığın möhkəmlənməsinə olan etimadının getdikcə artmasını nümayiş etdirir.

7. Prezident və Baş nazir Xəzər dənizinin hüquqi statusunun həll olunmasına mühüm əhəmiyyət verirlər və bununla əlaqədar sahilyanı dövlətlər arasındakı danışıqlarda olan irəliləyişi qeyd etdilər. Baş nazir bu məsələnin tezliklə həll olunması üçün Azərbaycanın göstərdiyi səyləri bəyəndi. Onlar bütün sahilyanı dövlətlərin qarşılıqlı faydası üçün Xəzərin enerji ehtiyatlarının inkişafına kömək edəcək irəliləyişdən məmnun qaldılar.

8. Onlar Britaniya şirkətlərinin Azərbaycanda energetika ilə bağlı olmayan investisiyalar üçün imkanlarını qeyd etdilər. Onlar ədalətli və transparent hüquqi və fiskal rejimlər vasitəsilə Azərbaycanda investisiyalar üçün əlverişli şəraitin inkişaf etdirilməsi və möhkəmləndirilməsinin və belə investisiyaların təşviqinin vacibliyini qeyd etdilər. Onlar Britaniya şirkətlərinin Azərbaycanda uğurlu biznes üçün səylərində ixrac-kredit zəmanətləri departamentinin (İKZD) ixrac kreditləri üçün dəstəyi olmasının mühüm amil olaraq qalması fikri ilə razılaşdılar. Onlar Azərbaycan-Britaniya Ticarət-Sənaye Şurasının ticarətin və investisiyaların təşviqi sahəsindəki səylərini və Azərbaycan-İngiltərə cəmiyyətinin mədəni əlaqələrə yardımını bəyəndilər. Onlar ticarətin ümumi həcminin 1997-ci ildə 85 faiz artdığını məmnunluqla qeyd etdilər.

9. Onlar prezident Əliyevin səfər zamanı iştirak etdiyi, Azərbaycan -Birləşmiş Krallıq parlament qrupunun inauqurasiya görüşünü alqışladılar. [354-355]

10. Hər iki lider Britaniya Şurasının Azərbaycanda ingilis dilinin tədrisi, təhsil, elm, texnika və mədəniyyət sahələrini və peşə strukturlarının inkişafını əhatə edən genişləndirilmiş fəaliyyətini xüsusilə bəyəndilər.

11. Prezident və Baş nazir ikitərəfli əməkdaşlığın tam əhatəli çərçivəsinin möhkəmləndirilməsinin vacibliyini qeyd etdilər. Onlar ikitərəfli və çoxtərəfli məsələlərin geniş dairəsi üzrə artmaqda olan məsləhətləşmələrin və mübadilələrin potensialını da qeyd etdilər. Onlar təhsil, nəqliyyat, səhiyyə və turizm sahələri də daxil olmaqla, əlavə ikitərəfli sazişlərə dair təklifləri bəyəndilər. Onlar müvafiq sazişlərin tezliklə bağlanacağına ümid edirlər. Onlar təhlükəsizlik məsələlərinin geniş dairəsi üzrə ikitərəfli dialoq mexanizminin yaradılmasını qərara aldılar.

12. Onlar Azərbaycanın NATO ilə münasibətlərinin inkişafını, xüsusilə Sülh Naminə Tərəfdaşlıq /SNT/ və Avropa-Atlantika Tərəfdaşlıq Şurası /AATŞ/ vasitəsilə inkişafını dəstəklədilər. Onlar, həmçinin, Avropada Adi Silahlı Qüvvələr haqqında /AASQ/ müqavilənin adaptasiyasının, silahlar və silahların yayılması üzərində nəzarətə və Xəzər bölgəsində regional təhlükəsizliyə dair digər məsələlərin xüsusi əhəmiyyətini qeyd etdilər.

13. Onlar Avropa Birliyi /AB/ ilə Azərbaycan arasında münasibətlərin dərinləşməsini bəyəndilər və 1996-cı il oktyabrın 8-də Azərbaycan və 1998-ci il aprelin 22-də Birləşmiş Krallıq tərəfindən ratifikasiya edilmiş Avropa Birliyi ilə Azərbaycan arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişin tezliklə qüvvəyə minəcəyinə ümid etdiklərini bildirdilər. Saziş ticarət və investisiyalara kömək etməli, demokratiyanı və iqtisadi islahatları dəstəkləməli və Avropa Birliyi ilə Azərbaycan arasında müntəzəm siyasi dialoq və hərtərəfli tərəfdaşlıq yaratmalıdır. Onlar bütün Xəzər regionunda kommunikasiyaları və ticarət əlaqələrini təkmilləşdirən TRASEKA [355-356] layihəsini bəyəndilər və Avropa-Asiya nəqliyyat dəhlizinin yaradılması və fəaliyyətində beynəlxalq əməkdaşlığın əhəmiyyətini qeyd etdilər və bu dəhlizin inkişafını təmin etməyə yönəldilən bütün səyləri dəstəklədilər. Bununla əlaqədar, onlar 1998-ci ilin sentyabrında Bakıda tarixi «İpək yolu»nun bərpasına dair konfrans keçirilməsinin əhəmiyyətini qeyd etdilər.

14. Baş nazir Azərbaycanın Avropa Şurasının və Ümumdünya Ticarət Təşkilatının tam hüquqlu üzvü olmaq arzusunu dəstəklədi və ümid edir ki, bu, tezliklə baş verəcəkdir.

15. Prezident və Baş nazir mütəşəkkil cinayətkarlığa, beynəlxalq terrorizmə, narkotiklərin dövriyyəsinə, qanunsuz silah alverinə, incəsənət əsərlərinin qanunsuz aparılmasına, pulların yuyulmasına və saxta pul buraxılmasına qarşı mübarizədə beynəlxalq ikitərəfli və çoxtərəfli əməkdaşlığı inkişaf etdirməyin əhəmiyyətini qeyd etdilər.

16. Prezident və Baş nazir yüksək səviyyədə dialoqun vacibliyi və nazirliklər arasında sıx əlaqələr saxlanılması barədə razılaşdılar.

| | |
|---|---|
| **Azərbaycan Respublikası hökuməti adından** | **Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı hökuməti adından** |
| **Zati-aliləri Prezident Heydər Əliyev** | **Baş nazir möhtərəm Toni Bleyr** |

[356]

# AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ ÇARLZ FRANK İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*London,*
*Azərbaycan prezidentinin iqamətgahı*

*21 iyul 1998-ci il*

**Ç a r l z F r a n k**: Hörmətli cənab prezident! Azərbaycan Respublikasının Beynəlxalq Bankı ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında kredit sazişinin imzalanması mərasimində iştirak etdiyinizə görə Sizə minnətdarlığımı bildirir, görkəmli dövlət xadimi Heydər Əliyevlə görüşdən şərəf duyduğumu vurğulayıram. Rəhbərlik etdiyim bankın Azərbaycan respublikası ilə əlaqələrin sıxlaşdırılmasına xüsusi maraq göstərdiyini nəzərinizə çarpdırıram.

**H e y d ə r Ə l i y e v**: Cənab Çarlz Frank! Xoş və səmimi sözlərə görə Sizə təşəkkür edirəm. Mən Avropa Yenidərqurma və İnkişaf Bankının fəaliyyətini yüksək qiymətləndirirəm və vurğulayıram ki, bu bankla ölkəmizin əməkdaşlığının böyük perspektivləri vardır. Onu da bildirirəm ki, həmin gün imzalanmış kredit sazişinin qarşılıqlı surətdə faydalı münasibətlərimizin daha da möhkəmlənməsinə güclü təkan verəcəkdir.

Demokratik inkişaf, bazar münasibətləri yolunu seçmiş, hüquqi, demokratik, dünyəvi dövlət quran Azərbaycanda iqtisadi islahatlar, özəlləşdirmə müvəffəqiyyətlə həyata keçirilir. Biz ölkəmizin iqtisadiyyatının dünya iqtisadiyyatı ilə sıx bağlanmasına daim xüsusi diqqət yetiririk. [357-358]

Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi üçün dünyanın bir çox ölkələrinin ən nüfuzlu şirkətləri ilə ARDNŞ arasında tarixi müqavilələr bağlanmışdır. 1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi»nin həyata keçirilməsi nəticəsində ilkin neft hasil edilmiş və hazırda Bakı - Novorossiysk boru kəməri ilə dünya bazarına ixrac olunur.

Azərbaycan zəngin neft yataqları ehtiyatlarına malikdir. Bu yataqlardan hasil edilən neftin çoxşaxəli marşrutlarla dünya bazarına çıxarılmasına respublikamız xüsusi əhəmiyyət verir. Hazırda boru kəmərlərinin istiqamətləri, tikintisi və istifadə imkanları ətrafında mühüm işlər görülür, Bakı-Supsa kəmərində inşaat işləri görülür.

Neftin nəqli məsələsindən danışarkən onu deyə bilərəm ki, biz neftin əsas boru kəməri olan Bakı-Ceyhan marşrutu ilə Gürcüstan və Türkiyə ərazisindən Aralıq dənizinə çıxarılmasını zəruri hesab edirik.

Biz Qazaxıstan neftinin də Bakı -Ceyhan boru kəməri vasitəsilə ixrac edilməsinin perspektivləri barədə Qazaxıstanla müqavilə bağlamışıq. Bu ölkənin Aktau limanından Xəzər dənizinin dibi ilə Bakıyadək boru kəməri çəkilməsi planlaşdırılır. Qazaxıstan nefti həmin boru ilə Bakıya gələcək, buradan isə Bakı–Ceyhan kəməri ilə Aralıq dənizinə çıxarılacaqdır.

**Ç a r l z F r a n k**: Cənab prezident! Biz Sizin müdrik rəhbərliyiniz sayəsində son illər Azərbaycanda bütün sahələrdə, xüsusən iqtisadiyyatda qazanılmış böyük uğurları yüksək qiymətləndiririk. Azərbaycandakı bu müsbət irəliləyişləri aydın hiss edirik, ona görə də Sizin ölkənizlə daha sıx əlaqələr qurmağa ciddi diqqət yetiririk.

**H e y d ə r Ə l i y e v**: Altı il bundan əvvəl müstəqillik qazanmış Azərbaycanda demokratik proseslərin uğurla davam etdiyini bildirirəm. Hazırda ölkəmizdə insan hüquqlarının qorunması, demokratik prinsiplərin bərqərar olunması, siyasi plüralizmə geniş meydan verilməsi sahəsində xeyli iş görülmüşdür. [358-359]

Azərbaycanda qarşıda prezident seçkiləri durur. Ölkəmizin Konstitusiyası, seçkilər haqqında qəbul olunmuş qanun seçkilərin tam demokratik, azad və ədalətli keçirilməsinə şərait yaradır. Biz seçkilərin beynəlxalq hüquq normaları əsasında, Avropa standartlarına uyğun, bütün xalqın iştirakı ilə keçirilməsinə, yəni, geniş kütlələrin demokratik prosesə tam cəlb olunmasına xüsusi əhəmiyyət veririk.

Demokratik inkişaf yolunda respublikamızın qarşılaşdığı çətinliklərin aradan qaldırılması sahəsində bir çox işlər görülmüşdür. Ölkəmizdə rüşvətxorluğa, korrupsiyaya, digər mənfi hallara qarşı bundan sonra da ciddi mübarizə aparılacaqdır.

**Ç a r l z F r a n k**: Müstəqil Azərbaycan Respublikasında son illər iqtisadi və siyasi sahədə irəliləyişlərin paralel surətdə getməsindən çox məmnun qaldığımı bildirirəm.

Cənab prezident, biz yaxşı bilirik ki, Sizin uzaqgörən siyasətiniz nəticəsində ölkəniz tezliklə dünyanın ən inkişaf etmiş dövlətlərindən birinə çevriləcəkdir. Elə ona görə də Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanla əlaqələrin ardıcıl surətdə inkişaf etdirilməsini çox vacib sayır və bu istiqamətdə işini bundan sonra daha sürətlə aparacaqdır.

**H e y d ə r Ə l i y e v**: Səmimi görüş və xoş sözlərə görə bir daha minnətdarlığımı bildirirəm. Cənab Çarlz Frank, mən Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm.

**Ç a r l z F r a n k**: Mən bu dəvəti məmnunluqla qəbul edirəm və Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əlaqələrə xüsusi əhəmiyyət verdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. [359]

## BİRLƏŞMİŞ KRALLIĞIN MÜDAFİƏ İŞLƏRİ ÜZRƏ DÖVLƏT KATİBİ CORC ROBERTSON İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*London,*
*Azərbaycan prezidentinin iqamətgahı*

*21 iyul 1998-ci il*

**C o r c R o b e r t s o n**: Cənab prezident, mən Sizinlə yenidən görüşməyimə çox şadam və görkəmli dövlət xadimi Heydər Əliyevlə görüşdən şərəf duyduğumu bildirirəm. Mən Böyük Britaniyaya rəsmi səfərinizə, bu səfər zamanı əldə etdiyiniz uğurlara görə Sizi təbrik edirəm. Mən Sizinlə hələ 1985-ci ildə Moskvada görüşdüyümü həmişə məmnunluqla xatırlayıram. Onu da bildirmək istəyirəm ki, Sov. İKP-nin XXVII qurultayında müşahidəçi kimi iştirak etmiş və İkinci dünya müharibəsinin başa çatmasının 40 illiyi münasibətilə Moskvada keçirilən mərasimdə olmuşam. Sonra NATO-nun və Avropa–Atlantika Əməkdaşlıq Şurasının 1997-ci il iyulun 8-9-da Madriddə keçirilən zirvə toplantısında da Sizinlə görüşmüşəm.

Dünya ölkələri və xalqları üçün qeyri-sabitliyin ümumi düşmən olduğunu nəzərinizə çarpdıraraq, böyük məmnunluqla qeyd etməyi lazım bilirəm ki, Sizin apardığınız siyasət nəticəsində Azərbaycanda möhkəm sabitlik yaranmışdır.

**H e y d ə r Ə l i y e v**: Bilirsiniz, mən də bu görüşdən çox razıyam və Sizinlə olan əvvəlki görüşlərimi məmnunluqla xatırlayıram. Mən Birləşmiş Krallığın müdafiə işləri üzrə dövlət katibinin fikirləri ilə həmrəy olduğumu bildirərək deyirəm ki, [360-361] bəli, biz ümumi düşmən olan qeyri-sabitliyə, münaqişələrə və separatçılığa qarşı birgə mübarizə aparmalıyıq.

Bununla bərabər, Azərbaycanda problemlər var. Bilirsiniz, 1988-ci ildən davam edən münaqişə – Ermənistanın Azərbaycana təcavüzü müstəqil respublikamız üçün ən ağrılı problemdir.Bu təcavüz nəticəsində ölkəmizin ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş, bir milyondan çox vətəndaşımız yerindən-yurdundan zorla qovularaq hələ də çadırlarda ağır vəziyyətdə yaşayırlar. Münaqişənin sülh yolu ilə həll olunması üçün ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar aparılır, 1994-cü ilin mayında müharibədə atəşkəs rejimi yaradılmış və atəşkəs davam etdirilir. Biz istəyirik ki, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan torpaqları azad olunsun, ölkəmizin sərhədlərinin toxunulmazlığı bərpa edilsin, doğma evindən-eşiyindən didərgin salınmış azərbaycanlılar öz yerlərinə qayıtsınlar.

ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1996-cı ilin dekabrında Lissabonda keçirilmiş zirvə görüşündə Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün üç bənddən ibarət prinsiplər qəbul olunmuşdur. Bu prinsiplərdən birincisi, Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyünun tanınması, ikincisi Azərbaycanla saziş əsasında Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək özünüidarə statusu verilməsi, üçüncüsü Dağlıq Qarabağın bütün əhalisi üçün təhlükəsizliyin təmin edilməsidir. Təəssüf ki, ATƏT-in bütün üzvlərinin dəstəklədiyi bu sənəd- ona 53 dövlət səs vermişdi – Ermənistan tərəfindən rədd edildi. Həmin prinsiplərin qəbul olunmasında Birləşmiş Krallıq hökumətinin də səs verməsini mən minnətdarlıqla qeyd etmək istəyirəm.

Minsk qrupunun həmsədrləri ABŞ-ın, Fransanın, Rusiyanın münaqişənin həlli barədə son təklifləri Azərbaycan tərə[361-362]findən qəbul olunduğunu nəzərinizə çarpdırıram. Ancaq Ermənistan tərəfi münaqişənin sülh yolu ilə həlli barədə nə beynəlxalq təşkilatların qərarlarına, qətnamələrinə, nə beynəlxalq hüquq normalarına, nə də dünyanın ən nüfuzlu dövlətlərinin təkliflərinə heç bir məhəl qoymur.

O ki qaldı Azərbaycanın tərkibində Dağlıq Qarabağa ən yüksək idarəetmə statusu verilməsinə biz dəfələrlə demişik ki, bu statusu dünyada mövcud olan nümunələr əsasında, belə muxtar qurumlar üçün dünyada mövcud olan statuslar əsasında respublikamız tərəfdardır. Biz ərazilərimizin kiçik bir hissəsini belə başqa ölkəyə verməyə heç vaxt razı ola bilmərik.

**C o r c R o b e r t s o n**: Böyük Britaniya hökuməti Azərbaycanın haqq işini müdafiə etdiyini və prezident Heydər Əliyevlə Baş nazir Toni Bleyrin imzaladığı birgə bəyannamədə Birləşmiş Krallığın bu barədə mövqeyi öz əksini tapmışdır. Biz bu münaqişənin ATƏT-in Lissabon zirvə görüşündə qəbul olunmuş prinsiplər əsasında aradan qaldırılmasına tam tərəfdarıq.

Biz NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində Azərbaycanla əməkdaşlığı davam etdirmək fikrindəyik.

**H e y d ə r Ə l i y e v**: Bu səmimi görüş üçün Sizə təşəkkürümü bildirir və Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm.

**C o r c R o b e r t s o n**: Hörmətli prezident, mən bu dəvəti minnətdarlıqla qəbul edirəm. [362]

## BÖYÜK BRİTANİYANIN «BRİTİŞ PETROLEUM» ŞİRKƏTİNİN PREZİDENTİ CON BRAUN İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*London,*
*Azərbaycan prezidentinin iqamətgahı*

*21 iyul 1998-ci il*

**C o n B r a u n**: Cənab prezident, Sizinlə hər bir görüşümə çox şadam və bundan şərəf duyduğumu bildirirəm. Əminəm ki, Sizin Birləşmiş Krallığa bu tarixi səfəriniz Azərbaycan – Böyük Britaniya əməkdaşlığının inkişafında yeni mərhələ açacaqdır.

Mən Xəzərin Azərbaycan sektorundakı «Araz», «Alov» və «Şərq» perspektivli strukturlarının kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında «Bi-Pi/Statoyl» alyansı ilə ARDNŞ arasında sazişin imzalanması mərasimində iştirak etdiyimə görə Sizə öz təşəkkürümü bildirirəm. Rəhbərlik etdiyim şirkət Azərbaycanla bütün sahələrdə əlaqələrinin sıxlaşdırılmasına bundan sonra da xüsusi diqqət yetirəcəkdir.

Bilirsiniz ki, «Bi-Pi» son vaxtlar Azərbaycanda xeyli iş görmüşdür. Cənab prezident, Sizdən xahiş edirik ki, bizim Bakıdakı yeni qurğumuza məhz Siz ad verəsiniz.

**H e y d ə r Ə l i y e v**: Mən Sizinlə görüşməyimə şad olduğumu bildirir və Sizin verdiyiniz məlumatdan, söylədiyiniz xoş sözlərdən, respublikamızla bütün sahələrdə əlaqələrinizi daha da genişləndirmək istəyinizdən məmnun qaldığımı vurğulayır və ürəkdən təşəkkür edirəm. Biz Sizin şirkətlə əlaqələrin daha da möhkəmləndirilməsinə tərəfdarıq. [363-364]

Xəzərin Azərbaycan sektorundakı yataqların birgə istismarı ilə əlaqədar xarici ölkələrin ən nüfuzlu neft şirkətlərinin iştirakı ilə 1994-cü ilin sentyabrında tarixi əhəmiyyətli müqavilə imzaladıq. Bu müqaviləyə «Əsrin müqaviləsi» adı verilibdir. Sizin rəhbərlik etdiyiniz şirkət Azərbaycana gələn ilk xarici şirkətlərdəndir. «Əsrin müqaviləsi»ndə «Bi-Pi»nin özünəməxsus payı vardır. Hazırda isə Böyük Britaniyanın Azərbaycanda 100-dən çox şirkəti geniş fəaliyyət göstərir. Birləşmiş Krallıq şirkətlərinin respublikamızın iqtisadiyyatının inkişafında yaxından iştirak etməsindən çox məmnun qaldığımı vurğulayıram. Bilirsiniz ki, artıq bir neft kəməri - Bakı-Novorossiysk kəməri mövcuddur və 1994-cü ilin sentyabrında imzalanmış müqaviləyə uyğun olaraq konsorsium tərəfindən çıxarılan neft bu boru kəməri ilə ixrac edilir. Bakı-Supsa marşrutu ilə ikinci neft kəməri çəkilir. Supsa Gürcüstanda Qara dəniz limanıdır. Bu iki boru kəməri ilkin neftin ixracı üçün nəzərdə tutulmuşdur. Lakin böyük neft üçün 1994-cü ilin layihəsində əsas neft kəməri çəkilməsi nəzərdə tutulmuşdu. Bu müddətdə neftin ixrac marşrutlarının çox variantları tədqiq edilmişdir. Biz neftin Xəzər hövzəsindən dünya bazarlarına çıxarılacaq əsas boru kəmərini – Bakı - Ceyhan marşrutu ilə Gürcüstan və Türkiyə ərazilərindən Aralıq dənizinə çıxarılmasını zəruri hesab edirik.

**C o n B r a u n**: Cənab prezident, «Bi-Pi»nin Azərbaycandakı fəaliyyətinə göstərdiyiniz daimi diqqət və qayğıya görə Sizə minnətdarlığımı bildirirəm. Sizin müdrik rəhbərliyiniz ilə son illər Azərbaycanda bütün sahələrdə müsbət dəyişikliklər əldə olunmuş, ölkədə möhkəm ictimai-siyasi sabitlik yaranmışdır. Bütün bunları mən çox böyük məmnunluqla qeyd etməyi özümə borc bilirəm.

**H e y d ə r Ə l i y e v**: Xoş sözlərə görə bir daha təşəkkür edirəm. Ümidvaram ki, ölkələrimiz arasında yaranmış yaxşı münasibətlər əməkdaşlığımızın genişlənməsinə səbəb olacaqdır. [364]

# BÖYÜK BRİTANİYANIN TİCARƏT VƏ SƏNAYE ÜZRƏ DÖVLƏT KATİBİ XANIM MARQARETT BEKETT İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*London,*
*«Lankestr Haus» sarayı*

*21 iyul 1998 - ci il*

**M a r q a r e t t  B e k e t t**: Hörmətli cənab prezident! Azərbaycan dövlətinin başçısını səmimiyyətlə salamlayıram və dünya miqyasında tanınmış siyasi xadim Heydər Əliyevlə görüşü özüm üçün böyük şərəf hesab edirəm.

Azərbaycan prezidentinin Böyük Britaniyaya rəsmi səfərini yüksək qiymətləndirirəm. Ölkələrimiz arasında əlaqələrin daha da sıxlaşdırılmasında bu səfərin böyük əhəmiyyət daşıyacağını bildirir və bu əməkdaşlığın strateji tərəfdaşlıq səviyyəsinə qalxmasından çox məmnun qaldığımı vurğulayıram.

Hesab edirəm ki, ölkələrimizin iqtisadi münasibətlərinin hazırkı vəziyyəti yaxşıdır. İqtisadi əməkdaşlığımızı daha da genişləndirmək üçün böyük imkanlar var. Dənizdə neft hasilatı sahəsində Azərbaycanın böyük təcrübəsini xüsusi vurğulayıram. Böyük Britaniyanın Şimal dənizindən neft çıxarmasından çox-çox əvvəl Azərbaycanda Xəzər dənizindən neft hasil edildiyindən xəbərdar olduğumu bildirmək istəyirəm.

Mən olduqca məmnunam ki, Azərbaycanın neft yataqlarının bərpa və istismarı işində Böyük Britaniya şirkətləri iştirak [365-366] edir və bu şirkətlərin işi üçün hər cür lazımi şərait yaradıldığına görə Sizə minnətdarlığımı bildirirəm. Cənab prezident, mən Birləşmiş Krallığın 100-dən artıq şirkətinin Bakıda nümayəndəliyinin açılmasını məhz Sizin bu işə göstərdiyiniz qayğı və diqqətin nəticəsi kimi qiymətləndirirəm.

Böyük Britaniya şirkətləri Azərbaycanda təkcə neft sahəsində deyil, su təchizatı, kommunikasiya, infrastruktur sahələrində də geniş fəaliyyət göstərdiyini qeyd edir və onların çoxşaxəli işinin çox böyük əhəmiyyət daşıdığını nəzərə çarpdırmaq istəyirəm. Ümidvar olduğumu bildirirəm ki, prezident Heydər Əliyevin Birləşmiş Krallığa rəsmi səfəri zamanı imzalanacaq sazişlər İngiltərənin «Britiş Petroleum», «Monument oyl ənd qaz», «Remko» şirkətlərinin Azərbaycanla əlaqələrinin daha da genişləndirilməsində əsaslı rol oynayacaqdır.

Birləşmiş Krallığın Baş nazirinin iqamətgahında imzalanacaq sazişlər əlaqələrimizin durmadan inkişaf etdirilməsində hər iki ölkə üçün çox faydalı olacaqdır. Bu sazişlər Azərbaycana çoxmilyardlı investisiyalar cəlb edəcəkdir. Fikrimcə, bu, xalqlarımızın tərəqqisi üçün geniş meydan açacaqdır.

Onu da vurğulayıram ki, Böyük Britaniya şirkətlərinin Azərbaycana marağını daha da artırmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm və əmin olduğumu bildirirəm ki, ölkələrimizin qarşılıqlı surətdə faydalı əməkdaşlığı bundan sonra da gündən-günə inkişaf edəcəkdir.

**H e y d ə r  Ə l i y e v**: Hörmətli xanım Marqarett Bekett! Mən Sizinlə – Böyük Britaniyanın ticarət və sənaye üzrə dövlət katibi, Ticarət Şurasının prezidenti ilə görüşdən çox məmnun qaldığımı bildirir və səmimi sözlərə görə Sizə təşəkkürümü bildirirəm. Azərbaycan ilə Birləşmiş Krallıq arasında əməkdaşlığın ardıcıl surətdə inkişaf etdirilməsinin vacibliyi barədə söylədiyiniz fikirlərlə həmrəy olduğumu vurğulayıram. [366-367]

Məmnunluqla bildirirəm ki, 1994-cü ilin fevralında Birləşmiş Krallığa səfərim zamanı imzalanmış sənədlərdən sonra ölkələrimizin bütün sahələrdə – siyasi, iqtisadi, elmi, mədəni və digər sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələri intensiv inkişaf edir. Bu əməkdaşlığın böyük perspektivləri olduğunu nəzərə çarpdırıram.

Bildirirəm ki, müstəqil respublikamızda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu, islahatların müvəffəqiyyətlə həyata keçirilməsi sahəsində böyük işlər görülmüş, Azərbaycanla əməkdaşlıq edən şirkətlərə daha geniş və əlverişli imkan yaradılması üçün qanunlar qəbul olunmuşdur. Biz ölkəmizin qapılarını xarici şirkətlərin üzünə geniş açmışıq və onlarla əlaqələrin ardıcıl surətdə inkişaf etməsinə daim xüsusi diqqət yetiririk.

Birləşmiş Krallığın 100-dən çox şirkətinin Azərbaycanda nümayəndəliyinin fəaliyyət göstərməsini böyük nailiyyət hesab edirəm. Onu da qeyd edim ki, təkcə «Britiş Petroleum» tərəfindən Azərbaycana 260 milyon dollar sərmayə qoyulmuşdur. Bunu respublikamızın iqtisadiyyatının inkişafına mühüm kömək kimi qiymətləndirirəm.

Böyük Britaniya - Azərbaycan Ticarət Palatasının fəaliyyətindən, Britaniya - Azərbaycan Cəmiyyətinin təsis olunmasından çox məmnun qaldığımı bildirirəm. Bir daha nəzərinizə çatdırım ki, nəinki dövlətlərarası münasibətlərdə, həmçinin insanlar arasında əlaqələrin möhkəmləndirilməsində bu qurumlar mühüm rol oynayacaqdır.

Əmin olduğumu bildirirəm ki, Birləşmiş Krallığa rəsmi səfərim zamanı imzalanacaq sənədlərin Azərbaycan - Böyük Britaniya əlaqələrinin inkişafında yeni mərhələ açacaq, bizim ölkəmiz Böyük Britaniya ilə

bütün sahələrdə əməkdaşlığın gündən-günə genişləndirilməsinə xüsusi əhəmiyyət verir və biz İngiltərə şirkətlərini respublikamızda yeni-yeni müştərək işlər görməyə dəvət edirik. [367-368]

Hörmətli xanım Marqarett Bekett, bir daha Sizinlə görüşümdən çox məmnun qaldığımı vurğulayır və Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm.

**Marqarett Bekett**: Hörmətli prezident, mən bu dəvəti minnətdarlıqla qəbul edirəm və imkan tapan kimi Azərbaycana səfərə gələcəyimi bildirirəm. [368]

## BÖYÜK BRİTANİYANIN ENERJİ ÜZRƏ DÖVLƏT NAZİRİ CON BATTL İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*London,*
*Azərbaycan prezidentinin iqamətgahı*

*21 iyul 1998-ci il*

**H e y d ə r Ə l i y e v**: Cənab Battl, mən Sizi ürəkdən salamlayıram və Birləşmiş Krallığa səfərimin uğurla, yüksək səviyyədə davam etməsindən çox məmnun qaldığımı bildirirəm.

Əlahəzrət kraliça ilə, Baş nazirlə keçirdiyim görüşləri, apardığım danışıqları bu ölkəyə rəsmi səfərimin ən mühüm hadisələri hesab etdiyimi vurğulayıram. Bildirirəm ki, cənab Toni Bleyr ilə birlikdə imzaladığımız sənədin - Azərbaycan Respublikası prezidentinin və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Baş nazirinin dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannaməsi ölkələrimiz arasında əlaqələrin gələcək inkişafında mühüm rol oynayacaqdır.

Azərbaycanın neft yataqlarının birgə işlənilməsi barədə Böyük Britaniya şirkətləri ilə ARDNŞ arasında imzalanmış yeni müqavilələrin ölkələrimizin əməkdaşlığı üçün yeni böyük perspektivlər açdığını nəzərə çarpdırıram. Digər sahələrdə də əlaqələrin sıxlaşdırılmasının vacibliyini qeyd etmək istərdim. «Morrison» şirkəti və Bakı Şəhər İcra Hakimiyyəti rəhbərlərinin imzaladığı sənədi də yüksək qiymətləndirirəm.

Nəzərə çatdırım ki, «İnam» perspektivli strukturunun kəşfiyyatı, işlənilməsi və hasilatının pay bölgüsü haqqında ARDNŞ ilə [369-370] ABŞ-ın «AMOKO», Böyük Britaniyanın «Monument Oyl ənd Qaz», Rusiyanın mərkəzi yanacaq şirkətləri arasında beynəlxalq saziş bağlanmışdır. Əmin olduğumu bildirirəm ki, bir neçə ölkə şirkətlərinin birgə çalışması həmin ölkələrin xalqları arasında münasibətlərin daha da yaxşılaşdırılmasında mühüm əhəmiyyət daşıyır.

Təkcə neftlə bağlı deyil, siyasət, iqtisadiyyat, elm, mədəniyyət sahələrində də qarşılıqlı surətdə faydalı əlaqələrin gündən-günə inkişaf etməsindən məmnun qaldığımı vurğulayıram. Hər iki ölkədəki potensial imkanlardan səmərəli surətdə istifadə olunmasının, dünyanın nüfuzlu dövlətlərindən biri olan Birləşmiş Krallıqdakı təcrübənin dərindən öyrənilməsinin də zəruriliyini nəzərə çarpdırmaq istəyirəm.

**C o n B a t t l**: Hörmətli cənab prezident! Mən zəmanəmizin görkəmli siyasi liderlərindən olan Heydər Əliyevlə görüşdən şərəf duyduğumu bildirirəm. Baş nazirin dəvətini qəbul edib Böyük Britaniyaya rəsmi səfərə gəldiyinizə görə Sizə minnətdarlığımı bildirirəm. Əminəm ki, bu səfər Azərbaycan ilə Birləşmiş Krallıq arasında əməkdaşlığın durmadan inkişaf etməsində yeni mühüm mərhələ açacaqdır.

Müstəqil Azərbaycan Respublikasında prezident Heydər Əliyevin müdrik rəhbərliyi ilə həyata keçirilən tədbirlərin Birləşmiş Krallıqda çox müsbət qarşılandığını vurğulamaq mənə çox xoşdur. Qeyd edim ki, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi barədə imzalanmış tarixi müqavilələr Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatı ilə sıx inteqrasiya edilməsi üçün möhkəm təməl yaratmışdır.

Cənab prezident, imzalanmış neft müqavilələrində Birləşmiş Krallığın şirkətlərinə geniş yer ayrılmasına görə Sizə dərin təşəkkürümü bildirirəm. Ölkəmizin 100-dən çox şirkətinin Azərbaycanda geniş fəaliyyət göstərməsindən məmnun olduğumu bildirirəm. [370-371]

Azərbaycanda neft hasilatının tarixi barədə mənim müəyyən məlumatım var. Biz istəyirik ki, Şimal dənizindəki yataqların istismarı sahəsində Böyük Britaniyanın qazandığı təcrübədən Azərbaycanda da geniş istifadə edək.

Birləşmiş Krallıq regionda açar rolunu oynayan Azərbaycan Respublikasını özünün layiqli tərəfdaşı hesab edir. Məmnunluqla qeyd edim ki, Avropa - Qafqaz -Asiya magistralının normal fəaliyyətinin təmin olunması üçün Azərbaycanda böyük işlər görüldüyündən yaxşı xəbərdarıq və ölkənizlə sıx əlaqələr qurmağa biz də böyük maraq göstəririk.

**H e y d ə r Ə l i y e v**: Böyük Britaniyanın bir çox şirkətlərinin dünyada məşhur olduğunu, onların Azərbaycandakı fəaliyyətini yüksək qiymətləndirirəm. «Şell», «Lazma» şirkətlərinin rəhbərləri ilə Londonda keçirdiyim görüşləri faydalı hesab edirəm.

Respublikamız neftin dünya bazarına müxtəlif marşrutlar üzrə çıxarılmasına böyük əhəmiyyət verir. Bu kəmərlərin tikintisindən və istifadə imkanlarından bəhs edərək, bildirirəm ki, əsas boru kəməri Bakı-Ceyhan istiqamətində çəkiləcəkdir.

Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin mühüm perspektivləri olduğunu vurğulayaraq qeyd edirəm ki, bu dəhlizin səmərəli işləməsinə Azərbaycan çox böyük əhəmiyyət verir. Qədim İpək yolunun bərpası üçün Avropa Birliyinin TRASEKO proqramı çərçivəsində bu il sentyabrın 7-8-də Bakıda beynəlxalq konfransın keçiriləcəyi nəzərdə tutulmuşdur.

**C o n B a t t l**: Bu konfransa Birləşmiş Krallıq da böyük maraq göstərir. Cənab prezident, Qədim İpək Yolunun bərpası sahəsində Sizin heyranedici uzaqgörənliyiniz xüsusi əhəmiyyət daşıyır. Biz Azərbaycanda

Sizin rəhbərliyinizlə həyata keçirilən iqtisadi və demokratik irəliləyişləri diqqətlə izləyirik və əminik ki, respublikanız yaxın illərdə dünyanın ən inkişaf etmiş ölkələrindən biri olacaqdır. Siz ölkənizin tarixini, iqtisadiyyatını, mədəniyyətini dərindən bilirsiniz və gənc müstə[371-372]qil dövlətinizi də bütün bunlara əsaslanaraq yeni mərhələyə qaldırmaq istəyirsiniz.

Nazir kimi xarici ölkələr arasında ilk dəfə Azərbaycana səfərə gəldiyimi, dövlətin başçısı Heydər Əliyevlə görüşlərimi, danışıqlarımı həmişə məmnunluqla xatırlayıram. Böyük potensiala malik respublikanızla Birləşmiş Krallığın bütün sahələrdəki sıx əlaqələrinin parlaq gələcəyi olduğunu razılıq hissi ilə qeyd edirəm.

**H e y d ə r  Ə l i y e v**: Xoş və səmimi sözlərə görə Sizə minnətdarlığımı bildirirəm. Cənab Battl, mən Sizi Azərbaycana yenidən səfərə dəvət edirəm.

**C o n  B a t t l**: Mən bu dəvəti məmnunluqla qəbul edirəm. Cənab prezident, hesab edirəm, Azərbaycana hər bir səfərim və Sizinlə görüşüm ölkələrimizin əlaqələrinin möhkəmlənməsinə yeni güclü təkan verəcəkdir. [372]

## Bİ-Bİ-Sİ TELEVİZİYA MÜXBİRİ İLƏ MÜSAHİBƏ*

*21 iyul 1998-ci il*

**S u a l: Cənab prezident, bu gün imzalanmış sazişlərin, sənədlərin əhəmiyyəti nədən ibarətdir?**

**C a v a b**: Bu gün imzalanmış sənədlərin əhəmiyyəti böyükdür. Birincisi, Birləşmiş Krallığın Baş naziri cənab Toni Bleyr ilə Azərbaycan prezidenti Heydər Əliyev iki ölkə arasında dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannamə imzalamışlar. Bu siyasi bəyannamə bizim əməkdaşlığımızın, demək olar ki, bütün sahələrini - siyasi, iqtisadi, elmi, mədəni sahələri əhatə edir. Ona görə də bu, çox böyük əhəmiyyət daşıyır. Mən bunu yüksək qiymətləndirirəm.

Bununla yanaşı, Azərbaycan Dövlət Neft Şirkəti ilə «Bi-Pi/Statoyl», «Remko», «Monument Oyl ənd Qaz» şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorundakı zəngin neft yataqlarının müştərək işlənilməsi haqqında sazişlər imzalanıbdır.

**S u a l: Cənab prezident, Siz Böyük Britaniyanın Azərbaycan ilə əlaqələrinə necə qiymət verirsiniz? Böyük Britaniyanın Azərbaycan üçün əhəmiyyətini və gələcək münasibətlərinizi necə görürsünüz?**

**C a v a b**: Bilirsiniz, ötən dörd il müddətində Böyük Britaniya ilə Azərbaycan arasında əlaqələr yaxşı inkişaf edibdir. Mən əlaqələrin bugünkü səviyyəsindən razıyam. Ancaq mənim buraya rəsmi səfərim, apardığım danışıqlar və imzalanan sənədlər gələcəkdə bu əlaqələrin daha da genişlənməsi və inkişaf etməsi üçün yaxşı əsas yaradır. [373-374]

Böyük Britaniya ilə əlaqələri inkişaf etdirmək bizim üçün çox faydalıdır. Biz buna xüsusi əhəmiyyət veririk. Güman edirəm, Böyük Britaniya da Azərbaycanla əlaqələrini faydalı hesab edir.

**S u a l: Cənab prezident, Siz neft istehsal edən bir region kimi, XXI əsrdə Xəzər dənizi hövzəsinin necə böyük əhəmiyyət daşıyacağını söyləyə bilərsinizmi?**

**C a v a b**: Mən bunu aydın görürəm. XXI əsrdə Xəzər dənizi hövzəsi dünyanın neft hasil edən ən böyük regionlarından biri olacaqdır. Bunun əsasını qoyan və onu bütün dünya üçün açan da Azərbaycandır. 1994-cü ildə imzaladığımız ilk müqavilə ilə biz bu böyük eranı başlamışıq. İndiyədək Azərbaycan Dövlət Neft Şirkəti Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi üçün dünyanın böyük neft şirkətləri ilə 15 müqavilə imzalayıbdır. Bunların böyük gələcəyi vardır.

**S u a l: Sonuncu sualımı vermək istəyirəm. Cənab prezident, Azərbaycanın neftdən əldə edəcəyi böyük sərvətlərlə, gəlirlərlə siz nəyə nail olmaq istəyərdiniz? Əgər bir şeyə nail olmaq istəsəydiniz, həmin şey nə olardı?**

**C a v a b**: Yox, biz bir yox, çox şeyə nail olmaq istəyirik. Şübhəsiz ki, mən birinci növbədə, Azərbaycan iqtisadiyyatının bütün sahələrinin inkişaf etdirilməsinə nail olmaq istərdim. Mən bunları Azərbaycanın iqtisadi cəhətdən güclü, qüdrətli bir dövlət olması üçün edirəm. Bu vasitələrlə mən bunları Azərbaycanın hər bir vətəndaşının rifah halının yaxşılaşdırılması üçün edirəm. Mən inanıram ki, biz bunlara nail olacağıq.

**M ü x b i r: Cənab prezident, bizə vaxt ayırdığınıza görə Sizə çox böyük təşəkkürümüzü bildiririk.**

**H e y d ə r Ə l i y e v**: Sağ olun.

*Müsahibəni Bi-Bi-Si televiziya kanalının*
*müxbiri Piter Morqan aparmışdır.*
[374]

* Müsahibə Böyük Britaniya, eləcə də dünyanın əksər ölkələrinə yayımlanmışdır.

## AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ LONDONUN LORD-MERİ RİÇARD NİKOLS TƏRƏFİNDƏN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA* NİTQ

*London, Gildholl sarayı*

*21 iyul 1998-ci il*

Hörmətli cənab lord-mer!
Hörmətli xanımlar və cənablar!

Mən sizi səmimi-qəlbdən salamlayır və hamınıza cansağlığı, səadət arzulayıram.

Hörmətli cənab lord-mer, bugünkü ziyafət üçün mən sizə təşəkkür edirəm. Sizin nitqinizi çox məmnuniyyətlə dinlədim və Azərbaycan haqqında, Azərbaycan - Birləşmiş Krallıq əlaqələri haqqında, ölkələrimizin gələcəkdə əməkdaşlıq etməsi barədə söylədiyiniz dəyərli fikirlər məni çox məmnun etdi.

Mən bu gün bu salonda, bu axşam sizinlə bir yerdə olmağımdan özümü çox xoşbəxt hiss edirəm. Mən və mənimlə birlikdə Gildholl sarayında iştirak edən Azərbaycan nümayəndə heyəti yaxşı dərk edirik ki, biz Birləşmiş Krallığın, Londonun ən mərkəzində olan tarixi bir binadayıq.

Vaxtilə biz sizin ölkəniz, xalqınız haqqında, xalqınızın qəhrəmanlıq tarixi, mədəniyyətiniz, ədəbiyyatınız, elminiz haqqında kitablardan çox şey öyrənmişik, çox oxumuşuq. Kitablardan, sonra isə filmlərdən sizin ölkəniz, xalqınız haqqında [375-376] aldığımız məlumatlar bizi daim heyran edib və Azərbaycan xalqında sizə, ölkənizə böyük hüsn-rəğbət oyadıbdır.

Mən ikinci dəfədir ki, bu sarayda, əzəmətli salonda dövlət mərasimində iştirak edirəm. 1995-ci ilin may ayında dünyanın dövlət başçıları, xüsusən Avropanın dövlət və hökumət başçıları, nümayəndə heyətləri bu salona Birləşmiş Krallığın kraliçasının dəvəti ilə toplaşmışdılar və biz İkinci dünya müharibəsində çalınmış qələbənin 50 illiyini birlikdə bayram edirdik.

İkinci dünya müharibəsində Avropa xalqları böyük qurbanlar vermişlər. O cümlədən Azərbaycan xalqı da çox böyük qurbanlar vermişdir. 1945-ci ildə çalınmış qələbədə hər bir xalqın, o cümlədən Azərbaycan xalqının da xidməti, payı olmuşdur. Ona görə də müstəqil Azərbaycan Respublikasının prezidenti kimi mən həmin mərasimdə tam hüquqlu qonaq kimi iştirak edirdim.

1995-ci ildə Birləşmiş Krallığın kraliçasının və Avropa ölkələrinin dövlət başçılarının iştirakı ilə bu salonda keçirilmiş mərasim, təntənə bu gün də xatirimdədir.

Ancaq mən bu gün daha da həyəcanlıyam. Çünki bugünkü ziyafət yalnız müstəqil Azərbaycan Respublikasına, onun dövlət nümayəndə heyətinə və prezidentinə həsr olunmuşdur. Biz bunu dərk edir və yüksək qiymətləndiririk.

Həqiqətən, burada hər şey Böyük Britaniyanın qəhrəmanlıq tarixindən xəbər verir. Orta əsrlərdə bu sarayı tikib yaradanlar nə qədər mahir, fədakar memarlar, inşaatçılar və sadəcə vətəndaşlar olmuşdur. Onlar Böyük Britaniyanın, Birləşmiş Krallığın bugünkü nəsilləri üçün böyük irs qoyub getmişlər. Siz bu tarixi nailiyyətlərinizlə haqlı olaraq fəxr edirsiniz. Biz isə, sizin ölkəyə çox hörmət və məhəbbət bəsləyənlər kimi, sizinlə birlikdə sevinirik.

İki gündür ki, mən sizin ölkədə rəsmi səfərdəyəm. Ölkənizin Baş naziri cənab Toni Bleyrin dəvəti ilə həyata keçirilən bu rəsmi səfər Birləşmiş Krallıq ilə Azərbaycan arasında əla[376-377]qələrin inkişaf etməsi üçün çox böyük əhəmiyyətə malikdir. Ötən iki gün ərzində biz çoxsaylı görüşlər keçirmiş, danışıqlar aparmışıq və bu gün ölkələrimiz üçün, gələcək əməkdaşlıq üçün çox böyük əhəmiyyətə malik olan sənədlər - müqavilələr, sazişlər imzalamışıq.

Dörd il bundan öncə, 1994-cü ilin fevral ayında Azərbaycanın prezidenti kimi mən ilk dəfə sizin ölkənizə rəsmi səfərə gəlmişdim. O vaxt ölkələrimiz və hökumətlərimiz arasında ilk müqavilələr, sənədlər imzalanmışdır. Ondan sonrakı illərdə də bir neçə sənəd imzalanmış və beləliklə, ölkələrimizin, hökumətlərimizin əməkdaşlığının əldə edilməsi, dostluq əlaqələrinin qurulması üçün yetərli qədər hüquqi-normativ baza yaranmışdır.

Biz çox şadıq ki, ötən illər ərzində ölkələrimiz arasında əlaqələr ardıcıl surətdə inkişaf edib, genişlənib və indi yüksək səviyyədədir. Dünən biz «Klaricis» otelində Britaniya–Azərbaycan Cəmiyyəti üzvlərinin toplantısında idik. Oraya bir neçə yüz adam toplaşmışdı. Mənim bildiyimə görə, orada iştirak etmək arzusunda olan adamlar çox olmuşdur, ancaq cəmiyyətin rəhbərliyinin bunun üçün sadəcə, imkanı olmamışdır.

Amma 1994-cü ildə bu, heç də yox idi və sizin ölkədə Azərbaycanı çox az tanıyırdılar. Bu qısa tarixi zamanda burada bizim böyük bir cəmiyyətimiz yaranıbdır və cəmiyyətin rəhbərliyində sizin ölkənin çox tanınmış, uzun illər dövlət işində işləmiş və böyük hörmətə malik olan şəxsiyyətləri var.

* Qəbulda Birləşmiş Krallığın yüksək vəzifəli rəsmi şəxsləri, işgüzar dairələrin nümayəndələri,ölkənin tanınmış şirkətlərinin, firmalarının rəhbərləri, xarici diplomatlar, Azərbaycan nümayəndə heyətinin üzvləri iştirak edirdilər.

Ölkələrimizin müştərək Ticarət Palatası yaranıb və artıq əməli fəaliyyət göstərir, yaxşı nəticələr əldə edir. Azərbaycanda Birləşmiş Krallığın 100-dən artıq şirkəti fəaliyyət göstərir. Sizin ölkənin təkcə «Bi-Pi» şirkəti müqavilələrin həyata keçirilməsi üçün Azərbaycana 260 milyon dollar həcmində sərmayə qoymuşdur. 1994-cü ildə imzalanmış ilk müqavilənin həyata keçirilməsi ilə məşğul olan Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin sifarişləri ilə işləyən, Birləşmiş Krallığa [377-378] mənsub olan şirkətlər 350 milyon dollar həcmində sifarişlər almışlar və iş görürlər.

Mən iqtisadi əlaqələrimizin bugünkü səviyyəsini nümayiş etdirən bir çox başqa rəqəmlər də gətirə bilərəm. Ancaq hesab edirəm ki, dediklərim bizim əlaqələrimiz haqqında hər bir kəsdə geniş təəssürat yaradır.

Dünən, bu gün bizim görüşlərimizin və imzaladığımız sənədlərin əsasında ölkələrimiz arasında əlaqələrin gələcək inkişafı üçün yeni böyük addımlar atmışıq. Burada bizim görüşlərimiz dostluq, mehribanlıq şəraitində keçir və hamımıza çox yüksək qonaqpərvərlik göstərilir.

Bu gün mən Birləşmiş Krallığın kraliçası ilə görüşüb çox maraqlı söhbət etmişəm. Bunu özüm üçün və Azərbaycan xalqı üçün tarixi hadisə hesab edirəm.

Ölkənizin Baş naziri cənab Toni Bleyr ilə görüşüm, danışıqlarım çox işgüzar, mehriban şəraitdə keçmiş və çox məzmunlu olmuşdur. Biz ölkələrimiz arasındakı əlaqələri təhlil etdik və gələcək işlərimiz haqqında birgə qərarlar qəbul etdik. Baş nazir Azərbaycana, Qafqaz regionuna, Avropa–Qafqaz–Asiya nəqliyyat xəttinə çox böyük maraq göstərmişdir. Bizim bu danışıqlarımızın nəticəsində Baş nazirlə mənim aramda səmimi münasibətlər yaranmışdır və mən bunu yüksək qiymətləndirir, hesab edirəm ki, bu, ölkələrimizin gələcək inkişafı üçün çox əhəmiyyətlidir.

Baş nazir Toni Bleyr və mən hökumətlərimiz arasında dostluq və əməkdaşlığın inkişafına həsr olunmuş siyasi bəyannamə imzaladıq. Bu bəyannamədə əməkdaşlığımızın bütün sahələri əhatə olunmuşdur. Bəyannamədə siyasi, iqtisadi, elmi, mədəni, humanitar sahələrdə əməkdaşlıq haqqında lazımi müddəalar öz əksini tapmışdır. Danışıqlar zamanı biz həm iqtisadi əməkdaşlığımıza çox böyük diqqət yetirmiş, həm də siyasi sahədə əməkdaşlığımızın genişlənməsi və inkişaf etdirilməsi haqqında eyni fikirdə olduğumuzu bildirmişik. [378-379]

Bunlarla yanaşı, Baş nazirin iqamətgahında sizin ölkə ilə Azərbaycan arasında dörd böyük müqavilə, sənəd imzalanmışdır. «Bi-Pi» şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında imzalanmış müqavilənin çox böyük gələcəyi var. Xəzər dənizinin Azərbaycan sektorunda olan üç böyük yataqda «Bi-Pi»nin Azərbaycan Dövlət Neft Şirkəti ilə müştərək iş görməsi haqqında imzalanmış müqavilə, yenə də deyirəm, böyük gələcəyə malikdir. «Britiş Petroleum» ilə Azərbaycan arasında indiyə qədər imzalanmış müqavilələr, hesab edirəm ki, XXI əsrin axırınadək bizim iqtisadi əməkdaşlığımızı təmin edəcəkdir.

Mən çox şadam ki, böyük «Bi-Pi» şirkəti ilə yanaşı, yeni yaranmış «Monument» şirkəti də Azərbaycanda özünəməxsus yer almışdır və onunla Azərbaycan Dövlət Neft Şirkəti arasında çox əhəmiyyətli müqavilə imzalanmışdır. «Remko» şirkəti artıq Azərbaycanda iş görməkdədir, ancaq onlar bu işi dənizdə görməklə yanaşı, Azərbaycanın qurudakı qədim və çox perspektivli yatağı olan «Muradxanlı» yatağının müştərək işlənilməsi üçün müraciət etmiş və bu gün Dövlət Neft Şirkəti ilə bu barədə müqavilə imzalamışlar.

Bilirsiniz ki, Azərbaycanda özəlləşdirmə proqramı ardıcıl surətdə həyata keçirilir. Özəl sektorun yaranması prosesi indi çox sürətlə inkişaf edir. Bu baxımdan sizin ölkənin «Morrison» şirkəti ilə Bakı şəhərinin bələdiyyəsi arasında Azərbaycanda - Bakıda böyük otelin və biznes mərkəzinin tikilməsi haqqında sazişin imzalanması da buna əyani sübutdur.

Neft haqqında danışarkən xatırlatmaq istəyirəm ki, Azərbaycan çox qədim neft ölkəsidir və əsrin əvvəlində dünyada neftin 90 faizi Azərbaycanda hasil edilirdi. Mən dünən «Şell» şirkətinin nümayəndəsi ilə görüşərkən o, bu şirkətin 100 illik tarixi haqqında mənə məlumat verdi və çox dəyərli bir kitab bağışladı. Həmin kitabda mənə bir xəritə göstərdi ki, hələ [379-380] 1892-ci ildə «Şell» şirkəti ilk dəfə Bakıdan nefti Qara dənizlə, tanker vasitəsilə Avropaya gətirmişdir.

Azərbaycan Sovetlər İttifaqının tərkibində olarkən, 1941-1945-ci illər müharibəsində faşizm üzərində qələbə çalınması sahəsində öz xidmətlərini göstəribdir. O illər Sovetlər İttifaqında hasil edilən neftin 70 faizi Azərbaycanda çıxarılırdı. Dünyada suyun dərinliyində - dənizdə neftin çıxarılmasına da 1949-cu ildə ilk dəfə Azərbaycanda başlanmışdır.

Ancaq indi bizim müasir texnika və texnologiyaya, sərmayə qoyuluşuna ehtiyacımız var. Sizin ölkə ilə və başqa ölkələrlə əməkdaşlıq etmək üçün Azərbaycana məxsus olan neft və qaz yataqlarının müştərək işlənilməsi barədə qərarlar qəbul edirik. Hesab edirəm ki, bu qərarlar hər iki tərəf üçün faydalıdır.

Biz bu günlərdə bütün bu məsələləri müzakirə etmişik, qarşıdakı günlərdə də müzakirə edəcəyik və ölkələrimiz arasında əlaqələrin gələcəkdə daha sürətlə inkişaf etməsi üçün lazımi tədbirlər görəcəyik.

Sizin ölkənizin çox qədim və dəyərli ənənələri var. Doğrudur, bəzən siz bu ənənələrinizdən narazısınız, onları dəyişdirmək istəyirsiniz. O, sizin öz işinizdir. Ancaq biz sizin bütün ənənələrinizə çox hörmətlə yanaşırıq və onlardan bizim üçün faydalısını götürüb Azərbaycanda da tətbiq etmək istəyirik.

Biz Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi aparırıq. Azərbaycanda bazar iqtisadiyyatı yaradıb inkişaf etdiririk, özəlləşdirmə proqramı həyata keçiririk. Biz bu sahədə bir çox işlər görmüşük, yaxşı nəticələr əldə etmişik. Ölkəmizdə iqtisadiyyat artıq inkişaf edir. Ancaq hələ çox işlər

də görməliyik. Ona görə sizin təcrübənizdən - həm siyasi-ictimai, həm də iqtisadi sahədəki təcrübənizdən istifadə etməyə çalışırıq. Ona görə də bu danışıqlar, görüşlər bizim üçün xüsusi əhəmiyyət kəsb edir. [380-381]

Bizim ölkələrimiz məsafəcə bir-birindən uzaqdır. Amma son illər hər iki tərəfdən görülən işlər bizi bir-birimizə çox yaxınlaşdırıbdır. Biz bunu müsbət qiymətləndirir, sizinlə daha da yaxın əlaqələr qurmaq istəyirik və bu sahədə səylərimizi bundan sonra da əsirgəməyəcəyik.

Sizin ölkənizin qarşısında da bir çox problemlər durur. Keçən il yaranmış yeni hökumətiniz bu sahədə çox işlər görübdür. Biz ölkənizlə maraqlanaraq bunlarla tanış oluruq və nailiyyətlərinizə görə sizi təbrik edirəm. Şübhə etmirəm ki, gələcəkdə də bütün problemləri həll edə biləcəksiniz.

Birləşmiş Krallıq dünyanın böyük ölkələrindən biridir, iqtisadi cəhətdən ən inkişaf etmiş ölkələr sırasındadır. Sizin böyük tarixiniz, böyük nailiyyətləriniz var. Arzu edirəm ki, ölkəniz daha da inkişaf etsin.

Sizin hər birinizə həyatınızda yeni-yeni uğurlar arzulayıram. Ölkənizə, xalqınıza sülh və əmin-amanlıq arzu edirəm. Birləşmiş Krallıq ilə Azərbaycan arasında əlaqələrin daha da sürətlə inkişaf etməsini arzulayıram.

Xahiş edirəm, qədəhləri Birləşmiş Krallığın və bu ölkənin xalqının şərəfinə qaldıraq. Birləşmiş Krallığın kraliçasının və hökumətinin şərəfinə! Birləşmiş Krallıq ilə Azərbaycan arasında əlaqələrin gələcək inkişafı şərəfinə! London şəhərinin lord-meri və onun xanımının şərəfinə! Hörmətli dostlar, sizin şərəfinizə! Sağ olun. Sizə bir daha cansağlığı və səadət arzulayıram. [381]

## BÖYÜK BRİTANİYANIN «AY-Bİ-Sİ» ŞİRKƏTİNİN TƏŞKİL ETDİYİ «AZƏRBAYCANDA BİZNES» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA* ÇIXIŞ

*London,*
*«Royal Qarden» mehmanxanası*

*22 iyul 1998-ci il*

Hörmətli cənab sədr!
Hörmətli cənab nazir!
Hörmətli xanımlar və cənablar!

Mən Sizi bu gün Londonda, bu möhtəşəm salonda səmimi- qəlbdən salamlayır və bu konfransın işinə uğurlar arzulayıram.

Mən Birləşmiş Krallıqda, Londonda Birləşmiş Krallığın Baş naziri cənab Toni Bleyrin dəvəti ilə rəsmi səfərdəyəm. Bu gün rəsmi səfərimin üçüncü günü başlanıbdır. Ancaq arxada qalmış iki gün müddətində Birləşmiş Krallıq ilə Azərbaycan arasındakı əlaqələrin gələcək inkişafı üçün dəyərli işlər görmək mümkün olmuşdur və mən bundan çox məmnunam.

Xüsusən dünən əlahəzrət kraliça ilə olan görüşüm mənim üçün böyük əhəmiyyətə malikdir. Dünən Baş nazir cənab Toni Bleyr ilə görüşüm, apardığımız danışıqlar, söhbətlərimiz və [382-383] nəhayət, imzaladığımız birgə sənədlər Birləşmiş Krallıq ilə Azərbaycan arasında əlaqələrin gələcək inkişafı, bu əlaqələrdə yeni mərhələnin açılması üçün çox dəyərli əsaslar yaratmışdır. Ona görə də mən səfərimdən və görülən işlərdən razı olduğumu bildirmək istəyirəm. Birləşmiş Krallığın hökumətinə və mənim bu səfərimin həyata keçirilməsində xidmətləri olan nazirlərə, bütün təşkilatlara bizə göstərilən diqqət və qayğıya görə, mehriban, işgüzar şəraitə görə təşəkkür edirəm.

Bugünkü beynəlxalq konfrans mənim üçün çox əhəmiyyətlidir. Çünki burada təkcə Böyük Britaniyanın, Birləşmiş Krallığın deyil, dünyanın başqa ölkələrinin də iş adamları, Azərbaycanla iş görmək istəyənlər toplaşmışlar. Ona görə də bu konfransı təşkil edən şirkətə təşəkkürümü bildirirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, konfrans qarşısında duran vəzifəni həyata keçirəcək və məqsədinə nail olacaqdır.

Hörmətli cənab nazir, Siz öz nitqinizlə bu konfransı açdınız. Birləşmiş Krallığın nazirinin konfransda iştirak etməsi və nitq söyləməsi, şəbhəsiz ki, bu konfransın əhəmiyyətini daha da artırır. Hörmətli cənab nazir, Birləşmiş Krallıq ilə Azərbaycan arasında əlaqələrə, Azərbaycan Respublikasının vəziyyəti və nailiyyətləri haqqında söylədiyiniz dəyərli fikirlərə görə və ümumiyyətlə, Birləşmiş Krallıq ilə Azərbaycan arasında əlaqələrin inkişafına göstərdiyiniz xidmətə görə Sizə təşəkkür edirəm.

Cənab nazir, mən Sizin burada bəyan etdiyiniz fikirlərlə tamamilə razıyam və təsdiq edirəm ki, son dörd il ərzində Birləşmiş Krallıq ilə Azərbaycan arasında bütün sahələrdə, xüsusən iqtisadi əməkdaşlıq sahəsində xeyli işlər görülmüşdür. Məhz görülən bu işlər, əldə edilmiş nailiyyətlər nəticəsində biz artıq gələcək proqramlar, perspektivlər haqqında düşünür və müştərək işlər görürük.

Hörmətli xanımlar və cənablar! Azərbaycan Qafqazda yerləşən bir ölkədir. Uzun əsrlər müstəqillikdən, azadlıqdan [383-384] məhrum olmuş xalqımız, ölkəmiz, nəhayət, 1991-ci ilin sonunda Sovetlər İttifaqının dağılması ilə əlaqədar və bunun nəticəsində öz dövlət müstəqilliyini, milli azadlığını əldə etmişdir. Altı ildir ki, biz müstəqillik şəraitində yaşayırıq. Ancaq bu illər bizim üçün asan illər olmayıbdır. Keçmişdə Sovetlər İttifaqına mənsub olmuş və ittifaq dağılandan sonra dövlət müstəqilliyi əldə etmiş respublikaların, ölkələrin hamısı indi keçid dövrünü yaşayır.

Bu gün Sizə bəyan edə bilərəm ki, bu ölkələrin hamısı keçmiş kommunist ideologiyasından, sosialist siyasi-iqtisadi, dövlət quruluşundan tamamilə imtina etmişlər. Hər ölkə özünəməxsus yolla gedir. Amma mənim müşahidələrim göstərir ki, həmin ölkələr bir-birindən bu və ya digər dərəcədə fərqli olaraq çalışırlar ki, bazar iqtisadiyyatı yolu ilə getsinlər. Ona görə də keçid dövrü bu ölkələrin hamısı üçün mürəkkəb dövrdür.

Azərbaycan üçün isə bu dövr daha çətin və daha ağırdır. Bunun səbəbləri var. Səbəblərdən biri ondan ibarətdir ki, Azərbaycan 1991-ci ilin sonunda dövlət müstəqilliyini əldə edən zaman qonşu Ermənistanla müharibə vəziyyətində idi. Hələ 1988-ci ildə, qonşu Ermənistan Azərbaycanın tərkibində olan kiçik Dağlıq Qarabağ Vilayətini, - oranın əhalisinin çox hissəsi erməni millətindən olduğuna görə, - Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdi göstərmişdi. Bunun nəticəsində də Azərbaycan ilə Ermənistan ara-

* Konfransa dünyanın bir sıra ölkəsindən 300-dən çox nümayəndə toplaşmışdı. Konfransı giriş sözü ilə Birləşmiş Krallığın «Monument Oyl and Qaz» şirkətinin baş direktoru Tim Eqqar açmış, Böyük Britaniyanın xarici işlər üzrə dövlət naziri Daq Henderson çıxış etmişdir.

sında münaqişə başlamış və sonra müharibəyə çevrilmişdi. Artıq 1991-ci ildə Ermənistanla Azərbaycan arasında müharibə, döyüşlər gedirdi.

Bu, Azərbaycanı başqa ölkələrdən fərqləndirən cəhətdir. Ancaq bunun bizim üçün, Azərbaycan üçün çox ağır nəticələri olmuşdur. Müharibə nəticəsində Ermənistan silahlı qüvvələri müxtəlif səbəblərdən, - şübhəsiz ki, bu ölkəyə bir neçə böyük dövlət tərəfindən xüsusi yardım göstərildiyinə görə, - [384-385] Azərbaycan Respublikasının ərazisinin 20 faizini işğal etməyə nail olmuşdur. Dağlıq Qarabağ və onun ətrafında olan ərazilər Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və orada yaşayan bir milyondan artıq azərbaycanlı öz yerlərindən-yurdlarından zorla çıxarılmışdır. Altı ildir ki, onların əksəriyyəti ağır vəziyyətdə çadırlarda yaşayır.

Bu, Azərbaycanın keçid dövrünü çətinləşdirən, ağırlaşdıran bir amildir. İkinci amil – Azərbaycan dövlət müstəqilliyi əldə edən zaman dediyim həmin bu müharibənin getməsi ilə əlaqədar və Azərbaycanın daxilində qeyri-qanuni cürbəcür silahlı dəstələrin, cinayətkar qrupların hakimiyyət mübarizəsinə qoşulması ilə əlaqədar ölkədə ictimai-siyasi vəziyyət qeyri-sabit, çox çətin idi.

Bu iki amil Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra onun müstəqil dövlət kimi siyasi, iqtisadi və başqa tədbirlər həyata keçirməsinə mane olmuş və bəzi hallarda bunu çox ləngitmişdir. Ancaq bu gün məmnuniyyət hissi ilə deyə bilərəm ki, bu iki amilin mənfi təsirini azaltmışıq, yaxud da tamamilə ləğv etmişik. Ermənistan ilə Azərbaycan arasında gedən müharibəni 1994-cü ilin may ayında dayandıra bilmişik. Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş imzalanıb və dörd ildən artıqdır ki, atəş yoxdur, döyüşlər getmir, qan tökülmür, müharibə yoxdur.

Ancaq sülh də yoxdur. Biz Dağlıq Qarabağ, Ermənistan - Azərbaycan münaqişəsini sülh yolu ilə, ATƏT-in Minsk qrupu vasitəsilə həll etməyə çalışırıq, danışıqlar aparırıq. Bu danışıqlar müəyyən nəticələr verir, ancaq əsas nəticə hələ əldə edilməyibdir. Ümid edirəm ki, biz buna da nail olacağıq.

Azərbaycanın daxili ictimai-siyasi vəziyyətini normal hala salmağa nail ola bilmişik. Keçmişdə Azərbaycanda mövcud olan qanunsuz silahlı dəstələr, cinayətkar qruplar, ayrı-ayrı siyasi qüvvələr tərəfindən istifadə edilən bu cinayətkarlar zərərsizləşdirilmişdir. Görülmüş tədbirlər nəticəsində artıq [385-386] 1995-ci ildən Azərbaycanda ictimai-siyasi vəziyyət tam sabitləşdirilmişdir.

1995-ci ilin noyabr ayında müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olunmuş və 1995-ci ilin noyabrında demokratik seçkilər əsasında ilk parlament seçilmişdir. Beləliklə, biz müstəqillik əldə edəndən sonra ilk illərdə itirdiyimiz vaxtı son illərdə sürətlə inkişafımız vasitəsilə müəyyən qədər aradan götürmək istəyirik və buna da nail olmuşuq.

Bunlar hamısı Azərbaycanın dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratması üçün imkanlar açıbdır. Xüsusən, indi Azərbaycanla dünyanın bir çox ölkələri arasında çox geniş iqtisadi əlaqələr yaranmışdır. Zəngin təbii sərvətlərinə, iqtisadi potensialına, coğrafi-siyasi vəziyyətinə görə Azərbaycana dünyanın bir çox ölkələri böyük maraq göstərir. Biz bu marağı alqışlayırıq və hətta həmin marağın artması üçün lazımi işlər görürük. Çünki Azərbaycanın gələcəyini yalnız və yalnız bütün sahələrdə, xüsusən iqtisadi sahədə ölkəmizin dünya ilə inteqrasiyasında görürük.

Biz Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi aparırıq. Dövlət quruculuğunda tutduğumuz yol demokratiya yoludur. Biz bu yolla gedirik və hesab edirəm, böyük nailiyyətlər əldə etmişik. Azərbaycanın iqtisadiyyatını sərbəst iqtisadiyyat, bazar sahibkarlığının inkişaf etdirilməsi, dünya iqtisadiyyatı ilə inteqrasiya olunmaq və bütün bunların nəticəsində bazar iqtisadiyyatını inkişaf etdirmək yolu ilə aparırıq.

Bu sahədə də nailiyyətlərimiz az deyildir. Siyasi, dövlət quruluşumuz, iqtisadi sahədə apardığımız siyasət, tutduğumuz yol bir-biri ilə bağlıdır - bütün sahələrin demokratikləşdirilməsi, siyasətdə, ictimai həyatda, iqtisadiyyatda demokratik islahatların həyata keçirilməsi. Azərbaycanda bu demokratik islahatlar artıq öz nəticələrini vermişdir. Bütün bunla[386-387]rın nəticəsində də, qeyd etdiyim kimi, iqtisadi cəhətdən inkişaf etmiş ölkələr tərəfindən indi Azərbaycana maraq günü-gündən artır. Ancaq bu, təkcə maraq deyil. Azərbaycanla xeyli işlər görülməyə başlanıb və bu işlərin də gözəl nəticələrinin şahidiyik.

Burada həm konfransın sədri, həm də hörmətli nazir Birləşmiş Krallıq ilə Azərbaycan arasında mövcud olan, hesab edirəm ki, çox yaxşı səviyyədə olan iqtisadi əlaqələr haqqında, Birləşmiş Krallığın 100-dən artıq şirkətinin Azərbaycanda fəaliyyət göstərməsi barədə danışdılar. Bu həqiqətdir. «Bi-Pi» şirkəti, başqa şirkətlər Azərbaycana xeyli miqdarda sərmayə qoymuşlar. Birləşmiş Krallığın şirkətləri Azərbaycanın ilk neft müqaviləsi - «Əsrin müqaviləsi»nin həyata keçirilməsi ilə əlaqədar yaranmış Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin sifarişlərinin böyük bir hissəsini götürüblər. Bu ölkənin şirkətləri Azərbaycanda məhz birinci müqavilənin həyata keçirilməsi ilə bağlı 350 milyon dollar dəyərində sifarişlər alıblar və ölkəmizdə uğurla işləyirlər.

Bunlar hamısı Azərbaycanda yaranmış vəziyyəti çox gözəl nümayiş etdirir. Biz bundan sonra da bu işləri bütün sahələrdə gücləndirmək istəyirik. Burada bizim nazirlər Azərbaycanın iqtisadi vəziyyəti, respublikamıza sərmayə gətirmək üçün yaranmış şərait və siyasi-iqtisadi islahatların aparılması nəticəsində əldə olunan nailiyyətlər haqqında danışacaq və rəqəmlər göstərəcəklər. Ancaq mən isə bu imkandan istifadə edib bir neçə ümumi söz demək istəyirəm.

Biz Azərbaycana xarici investisiyaların gəlməsinin tərəfdarıyıq və qeyd etdim ki, ölkəmizdə sahibkarlığın, bazar iqtisadiyyatının inkişaf etdirilməsi iqtisadi sahədə strateji yolumuzdur. Bunu təmin etmək üçün birinci növbədə lazımi qanunlar qəbul etmişik. Sahibkarlıq fəaliyyətini təmin etmək, maliyyə, vergi sistemini tənzimləmək, aqrar sahədə islahatlar aparmaq, xarici ticarəti liberallaşdırmaq üçün, ümumiyyətlə, [387-388] iqtisadiyyatda liberallaşdırma prosesi aparmaq üçün 200-dən artıq qanun qəbul etmişik. Bu qanunlar bir çox sahələri əhatə edir, o cümlədən xarici sərmayələrin qorunması həmin sənədlərdə xüsusi yer tutur.

Məhz həmin qanunlar və onların həyata keçirilməsi Azərbaycanda bu iqtisadi şəraiti yaratmışdır. Biz Azərbaycanda iqtisadi islahatları bütün sahələrdə aparırıq. Özəlləşdirmə gedir, hesab edirəm, bu sahədə nailiyyətlərimiz diqqətəlayiqdir. Aqrar sahədə də islahatlar aparırıq. Deyə bilərəm ki, bu islahatlar Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələr içərisində ən cəsarətli islahatlardır. Biz torpağın xüsusi mülkiyyətə verilməsi, torpaq sahibinin onu satması, ya başqa adama verməsi haqqında qanun qəbul etmişik və bunu həyata keçiririk. Qısa müddətdə, son iki il ərzində aqrar sahədə apardığımız islahatlar öz nəticəsini vermişdir. İndi aqrar sahədə maldarlıq, demək olar, bütünlüklə özəlləşdirilib, torpağın əksər hissəsi sahiblərinə - kəndlilərə verilib və onlar bundan səmərəli istifadə edirlər. Məhz bunların nəticəsidir ki, əgər son yeddi-səkkiz ildə Azərbaycanda kənd təsərrüfatı istehsalı ilbəil 10-15 faiz aşağı düşürdüsə, bu ilin altı ayında 4 faiz artmışdır.

Sənaye sahəsində və iqtisadiyyatın başqa sahələrində də apardığımız islahatlar öz nəticəsini vermişdir. Bütün bunların sayəsində, Azərbaycan iqtisadiyyatında yeddi-səkkiz il davam edən tənəzzülün qarşısı alınmış və 1996-cı ildən başlayaraq artım müşahidə edirik. 1996-cı ildə ilk dəfə ümumi daxili məhsul istehsalı 1,3 faiz artmışdır. 1997-ci ildə bu, 5,8 faiz artmışdır, 1998-ci ilin altı ayında isə artım 9 faiz olmuşdur. Təsəvvür edin, əgər 1990-cı ildən 1996-cı ilədək ümumi daxili məhsul istehsalı 20-25 faiz aşağı düşürdüsə, biz bu tənəzzülün qarşısını ala bildik və son illərdə – 1996-cı, 1997-ci və 1998-ci illərdə gözəçarpacaq artıma nail ola bilmişik.

Azərbaycan böyük sənaye ölkəsidir, bizdə çoxsahəli sənaye var. Bunun bir çox hissəsi də keçmişdə Sovetlər İttifaqının [388-389] ümumi sənaye sisteminin bir parçası idi. Təəssüflər olsun ki, o dövrdə Sovetlər İttifaqında bizim sənaye müəssisələri elə yaradılmışdı ki, İttifaqın başqa regionlarındakı müəssisələrlə çox sıx bağlı idi. Bu iqtisadi əlaqələr qırıldıqdan və bizim istehsal etdiyimiz məhsullara Rusiya bazarlarında tələbat azalandan, yaxud tamamilə tükənəndən sonra sənaye müəssisələrimizin çoxunun işi çətinləşmişdir.

Buna görə də keçid dövrünün başqa xüsusiyyətlərinə görə, son illərdə sənaye sahəsində də böyük tənəzzül var idi, sənaye istehsalı hər il 20-25 faiz aşağı düşürdü. Ancaq 1996-cı ildə bu tənəzzülü dayandırdıq, 1997-ci ildə sənaye istehsalı az da olsa, 0,3 faiz artdı. Amma 1998-ci ilin altı ayında istehsal 0,7 faiz artmışdır. Bu, böyük artım deyil, amma ötən illərdəki 20-25 faiz azalma ilə müqayisə edəndə, şübhəsiz ki, müsbət nəticədir. Bunlar hamısı apardığımız islahatlar nəticəsində mümkün olmuşdur.

Bizim maliyyə sistemində də çox ciddi dəyişikliklər əmələ gəlmişdir. Məsələn, 1994-cü ildə Azərbaycanda inflyasiya 1600 faiz təşkil edirdi. 1995-ci ildə təxminən 600 faiz idi. 1996-cı ildə biz inflyasiyanın qarşısını, deyə bilərəm ki, tamamilə ala bildik – inflyasiya təxminən 3-4 faiz oldu. 1997-ci ildə inflyasiya 0,4 faiz olub, bu ilin altı ayında isə 0,6 faizdir. Mən hesab edirəm ki, belə göstəricilərlə biz fəxr edə bilərik.

Bunun nəticəsində Azərbaycanın milli valyutasının – manatın dəyəri sabitləşmiş, möhkəmlənmişdir və ilbəil daha da möhkəmlənir. Valyutanın dönərliyini də təmin etmişik, bizdə bunlar hamısı sərbəstdir. Azərbaycanda maliyyə, valyuta sistemində tam sərbəst iqtisadiyyat prinsiplərini tətbiq etmişik və bu, öz nəticəsini verir.

Mən artıq dedim, Azərbaycana xarici sərmayənin gətirilməsi üçün bir çox qanunlar qəbul etmişik. Burada hörmətli nazirin çıxışından hiss etdim ki, hansısa əlavə tədbirlərin görülməsini də gözləyirsiniz. Mən bilmirəm, nə barədə söhbət [389-390] gedir, hesab edirəm ki, hazırda bütün imkanlar yaranıbdır. Ancaq eyni zamanda bəyan edirəm ki, biz inkişafdayıq, hər bir şeyi təkmilləşdiririk və ilbəil təkmilləşdiririk. Əgər bizim iqtisadiyyatımızın bu gün və gələcəkdə də göstərdiyim istiqamətdə irəli getməsi üçün hansısa dəyərli təkliflər ola biləcəksə, onlara da baxmağa, lazımi tədbirlər görməyə hazırıq.

Amma onu bilməlisiniz ki, xarici şirkətlərin Azərbaycana gəlməsi və işləməsi üçün bütün imkanlar yaranıbdır. İndi Azərbaycanda, gərək ki, 1500 xarici şirkət işləyir. Bu, az deyil, ancaq bunların sayı get-gedə artır və artacaqdır. Xarici investorların Azərbaycanda iş görüb öz gəlirlərini repatriasiya etmək imkanı da bizim qanunlarla tənzimlənibdir. Yəni burada iş görmək və gəlirini öz ölkəsinə aparmaq imkanı da verilibdir. Əgər bunun üçün başqa imkanlar yaratmaq lazımdırsa, biz bunları da yaratmağa hazırıq.

Ölkəmizə gələn sərmayənin əksəriyyəti Azərbaycanın 1994-cü ilin sentyabrından indiyə qədər imzaladığı neft müqavilələri vasitəsilə təmin olunur. Bilirsiniz ki, 1994-cü ilin sentyabr ayında Azərbaycan dünyanın bir çox iri neft şirkətləri, o cümlədən Birləşmiş Krallığın «Bİ-Pİ» şirkəti ilə böyük müqavilə imzaladı. Buna «Əsrin müqaviləsi» dedilər. Azərbaycanın «Azəri», «Çıraq» və «Günəşli» yataqlarında müştərək iş görmək üçün 11 şirkət birləşib konsorsium təşkil etdi.

Artıq bu müqavilə həyata keçirilir. Bilirsiniz ki, keçən ilin noyabr ayında biz ilkin nefti aldıq və xarici bazara ixrac edirik. Bunun üçün biz bu müddətdə Bakı-Novorossiysk neft kəmərini tikib istifadəyə verə bildik və onunla nefti ixrac edirik. İkinci neft kəməri – Bakıdan Gürcüstanın Qara dənizdəki Supsa limanına boru kəməri çəkilir. Gələn il bu neft kəməri də istifadəyə veriləcəkdir.

Biz müqaviləni imzalayarkən əsas götürdüyümüz proqnozlara görə, müqavilə sahəsindən ümumən 510 milyon ton neft gözlənilirdi və müqavilənin həyata keçirilməsi üçün 8 milyard [390-391] dollar həcmində sərmayə qoyulması nəzərdə tutulmuşdu. Bu gün məmnuniyyətlə bəyan edirəm ki, görülən işlər bu proqnozları müsbət mənada dəyişdiribdir. İndi məlum olur ki, 510 milyon ton yox, 630 milyon ton neft gözlənilir. Bu da təsadüfi deyil, çünki indiyədək «Çıraq» neft yatağında 5 quyu qazılıb və hər quyudan sutkada 500 ton neft gözləyirdik. Amma indi hər quyudan sutkada 2 min ton – dörd dəfə artıq neft alınır. Həmin yataqda 24 quyu qazılacaq. O biri yataqlarda da quyular qazılacaqdır. Beləliklə, görürsünüz ki, 630 milyon ton da hələ son rəqəm deyildir, dəyişəcəkdir.

Bu sahədə bizim apardığımız siyasət və qəbul etdiyimiz qərar özünü doğruldur. Biz 1994-cü ilin sentyabrından indiyədək Xəzərin Azərbaycan sektorundakı zəngin yataqların müştərək işlənilməsi üçün müqavilələr imzalamışıq. Bu müqavilələrin sayı dünənə qədər 12 idi. İlk müqavilə 1994-cü ilin sentyabrında imzalanıbdır. Dünən isə burada, Londonda Baş nazirin iqamətgahında 3 yeni müqavilə imzalandı.

Birincisi, Azərbaycanın zəngin neft yataqları olan «Araz», «Alov» və «Şərq» perspektivli strukturlarının müştərək işlənilməsi üzrə Böyük Britaniyanın «Bi-Pi», Norveçin «Statoyl» şirkətləri ilə ARDNŞ arasında müqavilə imzalandı.

İkincisi – «İnam» neft yatağıdır. Bu yatağın müştərək işlənilməsi üçün Böyük Britaniyanın «Monument Oyl ənd Qaz» şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında müqavilə imzalandı. Eyni zamanda, Amerika Birləşmiş Ştatlarının «AMOKO», Rusiyanın mərkəzi yanacaq neft şirkətləri də bu müqavilənin iştirakçılarıdır.

Üçüncü müqavilə isə Böyük Britaniyanın «Remko» şirkəti ilə ARDNŞ arasında Azərbaycanın quruda yerləşən «Muradxanlı» və «Cəfərli» neft yataqlarının və «Zərdab» perspektivli strukturunun müştərək işlənilməsi üçün imzalanmış müqavilədir. [391-392]

Beləliklə, indi müqavilələrin sayı 15-ə çatıbdır. Amma bizim hələ bundan sonra da neft yataqlarımız və Azərbaycana maraq göstərən şirkətlər vardır. Güman edirəm ki, bu proses davam edəcəkdir.

Bu rəqəmlər gündə dəyişir, amma mən deyə bilərəm ki,14 ölkədən təxminən 26,27,28 şirkət Azərbaycanın böyük neft yataqlarında müştərək işlər görür. Hesab edirəm ki, bunlar XXI əsrin əvvəlindən axırına qədər Azərbaycanın bu ölkələrlə və neft şirkətləri ilə əməkdaşlığını təmin edəcək və gələcək üçün də əsas qoyacaqdır.

Bir sözlə, bu sahədə bizim gördüyümüz işlər müsbət nəticələr veribdir. Mən hesab edirəm ki, bunlar özü-özlüyündə Azərbaycanda iş görmək üçün yaradılmış şəraiti göstərir. İndi bu şirkətlərin hər biri Azərbaycanda öz ofisini açıbdır. Azərbaycanda xarici şirkətlərin ofislərinin sayı artıq xeyli çoxdur. Mənim burada görüşdüyüm yeni-yeni şirkətlər deyirlər ki, bu gün - sabah, bir-iki aydan sonra Bakıda öz ofislərini açacaqlar. Mən bu təklifləri məmnuniyyətlə qəbul edirəm, bəyənirəm, alqışlayıram. Hər bir şirkətin Azərbaycana gəlməsi üçün bütün imkanlar yaradılıbdır və yaradılacaqdır.

Bu nəyi göstərir? Bu onu göstərir ki, bizim ölkəmizin qapıları xarici şirkətlərin üzünə, ümumiyyətlə, xarici investisiyalar, ticarət üçün açıqdır.

Məsələn, biz xarici ticarəti tamamilə liberallaşdırmışıq. Liberallaşdırma nəticəsində bizim xarici ticarət dövriyyəmiz xeyli artıbdır. Bizim xarici ticarət dövriyyəmiz keçən il 1 milyard 600 milyon dollar təşkil edibdir. Amma bir neçə il bundan öncə belə bir rəqəm haqqında danışmaq mümkün deyildi.

Bizdə gömrük rüsumları çox azdır, 15 faizdən artıq ola bilməz. Şübhəsiz ki, bu da dünya ölkələri şirkətlərinin Azərbaycanla əlaqələr qurması, mal dövriyyəsi, ticarət üçün yaxşı imkanlar yaradır. [392-393]

Azərbaycana xarici investisiyanın gəlməsi barəsində mən bu gün iftixar hissi ilə qeyd edə bilərəm ki, adambaşına gələn xarici investisiyanın miqdarına görə biz Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələr içərisində birinci yerdəyik.

Azərbaycana adambaşına 160 dollar xarici investisiya gəlir. Bu, MDB-nin üzvü olan bütün başqa ölkələrlə müqayisədə ən yüksək göstəricidir.

Bizdə özəl sektor inkişaf edibdir. Biz buna imkanlar yaratmışıq. Mən sizə dedim ki, biz aqrar sektorda bu sahədə proqram həyata keçirmişik və nəticələr əldə edirik. Özəlləşdirmə gedir, 18 min kiçik müəssisə özəlləşdirilibdir. Biz indi orta və böyük müəssisələrin özəlləşdirilməsinə başlamışıq. Təxminən 1200 orta və böyük müəssisə səhmdar cəmiyyətlərinə çevrilibdir. Onlardan təxminən 700 müəssisənin səhmləri tamamilə paylanıbdır. Bu rəqəmlər özü-özlüyündə çox şeyi göstərir.

Əgər nəzərə alsanız ki, Azərbaycanda özəlləşdirmə həqiqi mənada 1996-1997-ci illərdə aparılıbdır, bu iki il müddətindəki işlərin nə qədər yaxşı nəticəsi olduğunu görərsiniz. Özəl sektorun inkişafı nəticəsində, məsələn, keçən il əldə olunan ümumi daxili məhsulun 50 faizi özəl sektorun hesabına alınıbdır. Aqrar sahədə isə ümumi daxili məhsul istehsalının 85 faizi özəl sektorun hesabına əldə edilibdir. Bu onu göstərir ki, Azərbaycanda özəl sektor artıq özünəməxsus yer tutubdur; qısa müddətdə möhkəmlənibdir. Əgər bizim qanunlarımız, qaydalarımız buna imkan verməsəydi, özəl sektor qısa müddətdə bu cür inkişaf edə bilməzdi. Şübhəsiz ki, bu, bizim işlərin başlanğıcıdır. Amma bu başlanğıc gələcək üçün böyük yollar açır və böyük ümidlər verir.

Biz Beynəlxalq Valyuta Fondu ilə, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı ilə və başqa mötəbər banklarla da sıx əməkdaşlıq edirik, kreditlər alırıq. Mən sizə deyə bilərəm ki, bizim xarici borcu-

muz çox minimal həcmdədir. [393-394] Bizim təxminən 500 milyon dollar xarici borcumuz var. Xarici borcumuz ümumi daxili məhsulun istehsalında 10 faiz təşkil edir. MDB-nin üzvü olan başqa ölkələrdə isə bu, 25, hətta 30 faiz təşkil edir. Bizim xarici borcumuz Dünya Bankından, Beynəlxalq Valyuta Fondundan və başqa maliyyə qurumlarından aldığımız uzunmüddətli və çox güzəştli kreditlərin hesabınadır. Bizim başqa xarici borcumuz yoxdur.

Mən sizə deyə bilərəm ki, biz respublikamızın daxili işlərində müəyyən qədər çətinliklərlə rastlaşsaq da, Azərbaycanda xarici borcun artmasına imkan vermirik və çalışırıq ki, məsələləri öz daxili imkanlarımız vasitəsilə, eyni zamanda xarici şirkətlərin Azərbaycanda fəaliyyətindən alınan gəlirlər vasitəsilə həll edək.

Biz Beynəlxalq Valyuta Fondu, Dünya Bankı ilə sıx əməkdaşlıq edirik. Bizim göstəricilərimizə, apardığımız islahatlara onlar nəzarət edirlər. Məmnuniyyət hissi ilə deyə bilərəm ki, onlar bizim işlərimizə – həm apardığımız islahatlara, həm də əldə etdiyimiz nailiyyətlərə yüksək qiymət verirlər. Hətta onların nümayəndə heyətləri Azərbaycana gələn zaman və bizim nümayəndə heyətimiz Vaşinqtonda Beynəlxalq Valyuta Fondunda, Dünya Bankında olduğu zaman iqtisadiyyat, maliyyə sahəsində göstəricilərimizi MDB-nin üzvü olan başqa ölkələrə nisbətən nümunə kimi göstərirlər.

Şübhəsiz ki, bunlarla heç də arxayınlaşa bilmərik. Mən sizə bu cür müsbət məlumatlar verərək hesab etmirəm ki, biz iqtisadiyyat sahəsində çox şeylərə nail olmuşuq. Yox, biz sadəcə, tutduğumuz yolun başlanğıc mərhələsindəyik. Bilməlisiniz ki, biz hansı yolla getdiyimizi bilirik.

Bizim yolumuz islahatlar yoludur. Yolumuz bazar iqtisadiyyatının inkişaf etdirilməsi yoludur. Yolumuz sahibkarlığın inkişaf etdirilməsi yoludur. Yolumuz, ümumiyyətlə, sərbəst iqtisadiyyatın Azərbaycanda bərqərar olunması, özəlləşdirmə prosesinin sona çatdırılması yoludur. Biz bu yolla gedirik. [394-395] Bu, asan yol deyildir. Bir çox ölkələr, o cümlədən iqtisadi cəhətdən inkişaf etmiş ölkələr bu yolu on illərlə, bəzən də yüz illərlə keçiblər. Biz heç də fantazyor deyilik və hesab etmirik ki, qısa bir zamanda bu yolu keçmək olar. Biz hər şeyə real baxırıq, real münasibət göstəririk. Ancaq əsas məsələ odur ki, biz tutduğumuz yola inanırıq və inanırıq ki, bu, öz nəticəsini verəcəkdir. Azərbaycanın daxili iqtisadi imkanları – həm təbii sərvətləri, həm iqtisadi potensialı, həm də intellektual potensialı dünyanın böyük şirkətləri ilə müştərək şəkildə, ölkəmizə gələn sərmayələrdən səmərəli istifadə olunması nəticəsində Azərbaycan iqtisadiyyatının yüksək səviyyəyə qaldırılmasını təmin edəcəkdir. Biz bunların nəticəsində Azərbaycan xalqının, vətəndaşlarının rifah halını yaxşılaşdıra biləcəyik.

Beləliklə, mən bu məlumatları çatdıraraq, sizə müraciət edirəm ki, Azərbaycanla öz işlərinizi gecikdirmədən qurun. Azərbaycanda ictimai-siyasi sabitlik hər bir xarici sərmayəçi üçün birinci şərtdir. Bu, təmin olunubdur. Mən sizə zəmanət verirəm ki, gələcək illərdə də təmin ediləcəkdir.

Mən sizə dedim, xarici sərmayənin Azərbaycana gəlməsi üçün 200-dən artıq qanun qəbul olunubdur. Lazım olan qanunlar bundan sonra da qəbul ediləcəkdir. Biz iqtisadiyyatımızda liberallaşdırma prosesini bundan sonra da aparacağıq. Ölkəmizin qapıları açıqdır. Kim gəlib Azərbaycanda sağlam iş görmək istəyirsə, bizim ölkəmizdə onun üçün bütün imkanlar vardır.

Hörmətli xanımlar və cənablar!

Mən sizinlə bugünkü görüşümü çox əhəmiyyətli hesab edirəm. Bu fürsətdən istifadə edib, Azərbaycanın vəziyyəti haqqında sizə müəyyən məlumatlar verdim və öz fikirlərimi, arzularımı sizə çatdırdım.

Sizin hər birinizə öz işlərinizdə uğurlar arzulayıram. Sizin hər birinizə Azərbaycan ilə əlaqələrin yaranmasında və inkişaf etməsində uğurlar arzulayıram. Diqqətinizə görə sağ olun. [395-396]

**T i m E q q a r**: Cənab prezident, icazə verin, aydın, məzmunlu çıxışınız üçün bütün iştirakçılar adından Sizə minnətdarlığımı bildirim. Xarici işlər üzrə dövlət naziri cənab Henderson, təəssüf ki, bizi tərk etməlidir. O parlamentin iclasında iştirak etməlidir. Cənab prezident, cənab Henderson Sizinlə Edinburqda bir daha görüşəcəkdir.

Hörmətli konfrans iştirakçıları, cənab prezident Heydər Əliyev böyük lütfkarlıq və təvazökarlıq göstərərək sizin suallarınıza cavab verməyə razı olmuşdur. Mən xahiş edirəm ki, sual vermək istəyənlər əllərini qaldırsınlar və sual verərkən təmsil etdikləri ölkənin və şirkətin adını çəksinlər.

**S u a l: Sabahınız xeyir, mənim adım Dani Dizemdir. Mən İsrailin «Makala» şirkətinin vitse-prezidentiyəm. Bizim şirkətimiz MDB ölkələrində və xüsusilə Azərbaycanda çox fəal iş görən bir şirkətdir. Biz Azərbaycanın «Azal» Konserni ilə Bakı hava limanının təhlükəsizlik sisteminin təmin olunması layihəsi üzərində işləyirik. Lakin istərdik ki, fəaliyyətimizi digər sahələrdə də genişləndirək. Daha doğrusu, neft sahəsində də iş görmək arzusundayıq. Lakin hələ ki, nə ARDNŞ-lə, nə də Azərbaycandakı hər hansı digər bir şirkətlə iş görmək üçün əlaqə yarada bilməmişik. Bu, bizim əsas problemimizdir.**

**Sualım belədir: ARDNŞ-lə, yaxud, - Azərbaycanın digər neft şirkəti varsa, - onunla necə əlaqə yarada bilərik?**

**C a v a b**: Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev buradadır. Onunla sizin aranız təxminən 5 metr olar, sizi nə maraqlandırırsa, ondan soruşun.

**S u a l: Mən Röyter Agentliyindənəm. Məlumdur ki, ilkin hesablamalara görə Bakı – Supsa boru xəttinin gələn il tikilib başa çatdırılması üçün 315 milyon dollar vəsait tələb olunurdu, lakin işin gedişində məlum olmuşdur ki, ümumi vəsait bundan qat-qat çox olacaqdır. Bu qiymət fərqi necə ödəniləcəkdir?**

**C a v a b**: Şübhəsiz ki, bu sual mənə aid deyildir. Ancaq mən bu məsələni bildiyimə görə cavab verə bilərəm. Müqavi[396-397]lənin həyata keçirilməsini konsorsium – Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti maliyyələşdirir. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti Bakı- Supsa neft borusunun tikilməsi üçün əvvəlcə 315 milyon dollar ayırmışdı, indi isə aparılan tədqiqatlar nəticəsində onlar belə bəyan edirlər ki, həmin 315 milyon dollar vəsait çatmır, bu rəqəm təxminən 590 milyon olmalıdır. Bu onların öz işləridir. Əgər onlar özləri səhv buraxıblarsa, əvvəlcədən düzgün proqnoz verə bilməyiblərsə, bunu düzgün təyin edə bilməyiblərsə, bu maliyyəni haradan verəcəklərini özləri də müəyyən etməlidirlər. Bu vəsaiti onlar özləri verməlidirlər. Burada bir problem yoxdur.

**S u a l**: **Mən «Prizma invest» şirkətindənəm. Azərbaycan prezidenti xarici investisiyalar haqqında və xarici investisiyaların Azərbaycana cəlb olunması üçün yaradılmış şərait barədə geniş məlumat verdi. Mənim sualım belədir: Azərbaycana gəlmək istəyən hər hansı sərmayəçi hansı instansiyaya müraciət etməlidir?**

**C a v a b**: Bizim hökumətimizdə bu sahə ilə məşğul olan adamlar məlumdurlar. Hər bir nazirliyin öz sahəsi vardır. Hansısa bir investor hansı sahədə iş görmək istəyirsə, həmin nazirliklə əlaqəyə girməlidir. Bizim Nazirlər Kabinetində də bu işlə ətraflı məşğul olurlar. Onlarla əlaqə yaratmaq lazımdır. Mən indi konkret deyə bilmərəm ki, hansı investor hansı nazirliyə müraciət etsin. Bizim nazirlərin çoxu bu konfransda iştirak edir. Siz onlarla görüşüb əlaqə qura bilərsiniz. Amma siz Bakıya gələndən sonra lazım olan hər bir ünvanı tapa bilərsiniz. Məlumdur ki, investorların çoxu birbaşa Azərbaycan prezidentinə müraciət edirlər. Mən isə həmişə çalışıram ki, vaxt tapıb investorları qəbul edim. Çünki mən bu işə maraqlıyam. Bu, problem deyildir.

**S u a l**: **Mənim adım Gültəkin Ərdir. Mən «NK Konstrakşn» şirkətindənəm. Cənab prezident, deyilənlərə görə, Siz Yaponiyada olarkən Yaponiya bankları elektrik stansiyaları[397-398]nın tikilməsi üçün Sizə çox böyük güzəştli kreditlər verməyi vəd etmişlər. Həmin kreditlərin bir hissəsindən qaz daşıyan boru kəmərlərinin inşası üçün istifadə olunacaqdırmı?**

**C a v a b**: Birincisi, mənim Yaponiyaya səfərim haqqında məlumatlar yəqin bir qədər şişirdilibdir. Mənim Yaponiyada həqiqətən çox yaxşı görüşlərim olubdur. Yaponiya hökuməti Azərbaycana güzəştli kreditlər veribdir. Bu kreditlərin konkret ünvanı vardır. Azərbaycanda «Şimal» Elektrik Stansiyasının tikilməsi üçün bizə 160 milyon dollar dəyərində uzunmüddətli kredit verilibdir. Yaxud kimya kompleksində etilen istehsalı üçün «Niçimen» şirkəti vasitəsilə Azərbaycana təxminən 80 milyon dollar dəyərində kredit verilibdir. Bizim Yaponiya ilə gələcək əməkdaşlığımızın başqa sahələri də vardır.

Siz qaz kəmərlərinin tikilməsi haqqında danışdınız. Daxili qaz sisteminin müasirləşdirilməsi ilə əlaqədar biz müəyyən işlər görürük. Ancaq indi Azərbaycanın qaz ixrac etməyə hələ imkanı yoxdur. Biz «Bi-Pi» ilə bərabər, «Şahdəniz» neft yatağının işlənilməsinə başlamışıq. Gələcəkdə orada böyük qaz hasil edilməsi gözlənilir. Ancaq bu, hələ 5-6 ildən sonra olacaqdır.Şübhəsiz ki, biz çox miqdarda qaz hasil edəndə onun ixracı haqqında da düşünəcəyik. Sağ olun.

**S u a l**: **Sonuncu qısa bir sual. Dünən Baş nazirlə imzaladığınız siyasi bəyannaməni şərh etməyinizi xahiş edirəm.**

**C a v a b**: Siyasi bəyannamə ölkələrimiz arasında dostluq münasibətləri və tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsinin proqramıdır. Baş nazir cənab Toni Bleyr və mən eyni fikirləri ifadə etdik ki, Birləşmiş Krallıqla Azərbaycan arasında siyasi, iqtisadi, elmi, mədəni və bütün başqa sahələrdə əlaqələr ahəngdar inkişaf etməlidir. Bunlar hamısı siyasi bəyannamədə öz əksini tapıbdır. Siyasi bəyannamədə göstərilibdir ki, Birləşmiş Krallığın hökuməti Azərbaycanın ərazi bütövlüyünü tanıyır və onun qorunmasının tərəfdarıdır; Ermənistan–[398-399]Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, ATƏT-in Lissabon zirvə görüşündə qəbul olunmuş prinsiplər əsasında həll edilməsinin tərəfdarıdır. Baş nazir Azərbaycanda dövlətçiliyin möhkəmlənməsini və sabitliyin, iqtisadi artımın əldə olunmasını yüksək qiymətləndirmişdir. Bunlar hamısı Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün çox əhəmiyyətlidir. Ona görə də biz bu siyasi bəyannaməyə çox yüksək qiymət veririk.

**T i m E q q a r**: Cənab prezident, suallara verdiyiniz cavablara görə çox sağ olun. Bu cür konfranslarda dövlət başçısının suallara cavab verməsi çox vacibdir. Ümumiyyətlə, dövlət başçısının suallara bu cür ətraflı, dolğun cavab verməsi qeyri-adi bir haldır. Cənab prezident, buna görə biz Sizə minnətdarıq. İndi mən görürəm ki, səfir Məmmədquliyev prezidentin növbəti görüşünə görə çox narahatdır. İstəyirəm hörmətli səfirin adından Sizə bir daha xatırladım ki, növbəti görüşün vaxtı başlayır.

Mən əminəm ki, konfransımızın sonrakı iclaslarında çıxış edənlər Azərbaycan haqqında, Azərbaycana investisiya axını barədə dolğun məlumat verəcəklər. Ümid edirəm ki, konfrans iştirakçıları investorların Azərbaycanda qarşılaşacağı şərait haqqında məlumat əldə edə biləcəklər.

Cənab prezident, bütün konfrans iştirakçıları adından Sizə bir daha minnətdarlığımı bildirirəm. Mən elə bilirəm ki, Sizin bugünkü nitqiniz konfransımıza xüsusi əhəmiyyət vermişdir. Cənab prezident, çox sağ olun. [399]

## BÖYÜK BRİTANİYADA YAŞAYAN AZƏRBAYCANLILARLA GÖRÜŞDƏ NİTQ

*London,*
*Azərbaycan Respublikasının səfirliyi*

*22 iyul 1998-ci il*

Əziz soydaşlar, dostlar!
Xanımlar və cənablar!

Mən üçüncü gündür ki, Londondayam. Biz burada çoxsaylı görüşlər keçirmişik. Bu gün artıq deyə bilərəm ki, Birləşmiş Krallığa mənim rəsmi səfərim uğurlu keçir. Əlahəzrət kraliça ilə, Baş nazirlə dünən keçirdiyimiz görüşlərimiz, danışıqlarımız, söhbətlərimiz və imzaladığımız sənədlər Böyük Britaniya ilə Azərbaycan arasındakı əlaqələrin bundan sonra da inkişaf etməsi üçün yaxşı əsas yaradıbdır. Həm Böyük Britaniya tərəfi, həm də biz eyni fikirdəyik ki, bu əlaqələrin inkişafı üçün yeni mərhələ açılıbdır. Azərbaycan üçün, gənc, müstəqil dövlətimiz üçün bu, çox əhəmiyyətlidir.

Bilirsiniz ki, biz öz müstəqilliyimizi dünyada təsdiq etmək, onu toxunulmaz etmək, əbədiləşdirmək, enməz etmək üçün Dünya Birliyində Azərbaycanın bu gün nə olduğunu və gələcəkdə nə cür ölkə olacağını sübut etməliyik. Çünki keçmişdə iki əsr çar Rusiyasının, sonra isə Sovetlər İttifaqının tərkibində olan Azərbaycan öz nefti, mədəniyyəti, musiqisi, alimləri ilə nə qədər məşhur olmuşdursa, ancaq bir ölkə, dövlət kimi tanınmamışdır. [400-401]

1918-ci ildə Azərbaycanda ilk dəfə Xalq Cümhuriyyəti, demokratik respublika yaranan zaman dünya tamamilə başqa bir dünya idi. O hökumətin də Azərbaycanı tanıtmaq cəhdləri çox simvolik xarakter daşıyıbdır. O vaxt bəzi ölkələr Azərbaycanın müstəqilliyini tanıdı, ancaq bundan o tərəfə getmək mümkün olmadı. Bu da təbiidir. Çünki o illər çox ağır və çətin illər idi.

Ona görə də, yenə də deyirəm, Azərbaycan bizim üçün, azərbaycanlılar üçün nə qədər dəyərli bir ilkə olsa da, bizim nə qədər qədim mədəniyyətimiz, musiqimiz, şairlərimiz, yazıçılarımız, rəssamlarımız və tarixi–memarlıq abidələrimiz olsa da biz özümüzü dünyada tanıda bilməmişdik. O çərçivədə bunu tanıtmaq da mümkün deyildi. Digər tərəfdən də, dünyanın başqa ölkələrində, xüsusən Avropada, Amerikada, yəni dünya siyasətini tənzimləyən ölkələrdə Azərbaycanın lazımi qədər soydaşları, müəyyən mənsəb tutmuş, siyasi, iqtisadi imkana malik nümayəndələri olmamışdır. Ona görə də Azərbaycan Dövlət müstəqilliyini əldə edəndən sonra bizim bütün başqa vəzifələrimizlə yanaşı, Azərbaycanı hər gün, hər ay təbliğ etmək, tanıtmaq və xarici ölkələrdə, xüsusən dünyanın böyük və inkişaf etmiş, dünya siyasətinə, iqtisadiyyatına təsir edən dövlətlərində Azərbaycanı olduğu kimi göstərmək və respublikamızın əleyhinə olan təbliğatın qarşısını almaq, yenə də deyirəm, başqa işlərimizlə yanaşı, bizim əsas vəzifəmizdir.

Məhz bu vəzifənin yerinə yetirilməsi üçün mən ötən beş ildə bir çox ölkələrə səfərlər etmişəm, danışıqlar aparmışam, Azərbaycanla bir sıra ölkələr arasında çox vacib və xüsusi əhəmiyyətə malik olan sənədlər – müqavilələr, sazişlər imzalanmışdır. Beləliklə, Azərbaycan artıq tanınır, ölkəmizə maraq günü-gündən artır və bir çox ölkələr üçün Azərbaycanın xüsusi əhəmiyyəti dərk edilir.

Mənim bu günlər gördüyüm işlər məhz bu məqsədi daşıyır. Şübhəsiz ki, mən buraya təbliğat, Azərbaycanı tanıtmaq üçün [401-402] yox, ölkəmizin Böyük Britaniya ilə bütün sahələrdə əməkdaşlığını inkişaf etdirmək məqsədi ilə gəlmişəm və üçüncü gündür ki, bu işləri görürəm. Bir daha qeyd edirəm, bu işlər uğurludur. Mən bütün görüşlərimdən, danışıqlarımdan və əldə edilmiş razılıqlardan, imzalanmış sənədlərdən məmnunam.

Siz burada, Böyük Britaniyada yaşayan azərbaycanlıların nümayəndələrisiniz. Azərbaycanlılar dünyanın çox ölkələrində yaşayırlar. Mən 1993-cü ildən Azərbaycan Respublikasının prezidentiyəm və daim qeyd edirəm ki, müxtəlif ölkələrdə azərbaycanlıların problemlərindən biri də ondan ibarətdir ki, soydaşlarımız bir-biri ilə yaxın əlaqə qurub, ümumi Azərbaycan üçün təəssübkeşlik naminə yaxşı birləşə bilmirlər.

Azərbaycanın dünya miqyasında ən böyük problemi odur ki, bir tərəfdən, ölkəmiz üçün daim bəla gətirən qonşumuz vardır, - bu Ermənistandır. Azərbaycan torpaqlarına keçmişdə də, indi də göz dikən Ermənistan, bu torpaqları ələ keçirmək istəyən Ermənistan vardır. 10 ildir ki, Ermənistanla Azərbaycan arasında hərbi münaqişə mövcuddur. İkinci tərəfdən, həmin Ermənistanın dünyanın, demək olar ki, əksər ölkələrində, xüsusən böyük, inkişaf etmiş ölkələrdə çox güclü diasporu vardır.

Biz Azərbaycanı təbliğ etmək, tanıtmaq üçün respublikamızda cürbəcür tədbirlər həyata keçiririk. Amma Ermənistanın buna ehtiyacı yoxdur. Ermənistan üçün bunu Amerikada, İngiltərədə, Fransada, başqa ölkələrdə yaşayan ermənilər, erməni diasporu edir. Ermənilər bu ölkələrdə sayca çoxdurlar. Onlar bu ölkələrdə yaşadıqları müddətdə özlərinə güclü imkanlar yaradıblar, mövqelər tutublar, böyük sərvətə malikdirlər. Bütün bu imkanlardan istifadə edərək onlar bizim qonşu olan və ölkəmizə daim təcavüz et-

mək əhval-ruhiyyəsi ilə yaşayan, torpaqlarımızı işğal edən kiçik bir Ermənistan Respublikasını bu dövlətlər, ölkələr qarşısında daha da yüksəklərə qaldırırlar. [402-403]

Təsəvvür edin, 1988-ci ildən Ermənistan Azərbaycana qarşı təcavüz edibdir. Ancaq bu ölkələrin əksəriyyətində son illərə qədər azərbaycanlıları günahlandırırdılar ki, guya Dağlıq Qarabağda ermənilərə yaşamağa imkan vermir, onları əzirlər, əziyyət verirlər, öldürürlər və s.

Həqiqətdə isə belə deyil. Həqiqət ondan ibarətdir ki, Azərbaycanda ermənilər həmişə firavan yaşamışlar. Dağlıq Qarabağ Vilayətində ermənilərin vəziyyəti Azərbaycanın başqa bölgələrində olan vətəndaşların vəziyyətindən həmişə yaxşı olmuşdur. Bu münaqişəni də ermənilər, Ermənistan başlamışdır. 1988-ci ildə Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdi göstərərək münaqişəni başlamışdılar. Amma təbliğat, yəni ermənilərin təbliğatı başqa istiqamətdə getmişdir. Həmin təbliğat bu ölkələrdə əksər insanların beynini doldurmuşdu ki, ermənilər yazıq, məzlum millətdir, guya vaxtilə türklər erməniləri qırıblar, soyqırımı olubdur, guya indi onları azərbaycanlılar qırır, ermənilərə yardım etmək lazımdır.

Bax, buna görə də indi müstəqil dövlət kimi bilavasitə Azərbaycanın bütün ölkələrdə apardığı siyasətlə yanaşı, gərək soydaşlarımız bir-biri ilə həmrəy olsunlar. Birlikdə olsunlar, Azərbaycan naminə, millətimizin, müstəqil ölkəmizin naminə birləşmək lazımdır. Burada Azərbaycan cəmiyyətləri var, səfir bildirdi ki, bir neçə cəmiyyət var. Hər bir cəmiyyət sərbəst yaradılıb, heç kəs onu yuxarıdan göstərişlə yaratmayıbdır. Bunlar hamısı təbiidir, mən bu barədə sizə heç bir şey deyə bilmərəm. Sadəcə, onu arzu edirəm ki, azərbaycanlılar həm Azərbaycanın daxilində, həm də onun xaricində, dışında, başqa ölkələrdə birlik əldə etsinlər. Əgər biz buna nail ola bilsək və azərbaycanlılar yaşadıqları ölkələrdə özləri üçün lazımi mövqe tuta bilsələr, xaricdə yaşayan azərbaycanlılar sayca, bəlkə də, heç ermənilərdən az deyildir. Amma kəmiyyət və keyfiyyət anlayışları var. Yaxşı olar ki, keyfiyyət üstün olsun, [403-404] kəmiyyət o qədər də böyük əhəmiyyət kəsb etmir. Yəni, ola bilər, say az, amma güc çox olsun. Sayca çox olub, az güclü olmaqdansa, az saylı, amma çox güclü olmaq lazımdır.

Son illər mən bu tərəqqini hiss edirəm. Məsələn, mən gəldiyim birinci gün biz Britaniya-Azərbaycan Cəmiyyətinin toplantısında olduq. Bəziləriniz, yəqin orada idi. Mən dörd il bundan öncə, 1994-cü ilin fevral ayında buraya gəlmişdim, onda bunlar yox idi. Artıq indi İngiltərədə, Böyük Britaniyada Azərbaycan tanınır, Azərbaycanı bir ölkə, Azərbaycan xalqını bir millət kimi qəbul ediblər və Azərbaycanla əlaqə qurmaq istəyirlər.

Mən indi buraya gəldim, səhər saat 9-dan böyük bir iqtisadi konfrans keçir, 300-ə qədər adam toplaşıbdır. Oraya toplaşanlar da sadə insanlar deyil, iş adamlarıdır. Konfransı təşkil edən şirkət bu işə altı ay bundan qabaq başlayıbdır. Konfransa gələn hər bir adam onda iştirak etmək üçün para qoyur, pul verir, verməsə, iştirak edə bilməz, Demək, təkcə Böyük Britaniyadan yox, bir çox başqa ölkələrdən də insanlar vaxt sərf edib buraya gəliblərsə və öz vəsaitlərini xərcləyib bu konfransda iştirak edirlərsə, görün Azərbaycana maraq nə qədər artıbdır. İndi yalnız bu ölkədən Azərbaycanda 100-dən artıq şirkət işləyir və bunların sayı da günü-gündən artır. Üçüncü gündür mən burada kiminlə görüşürəmsə, biri deyir ki, orada ofisimiz var, o biri deyir açacağıq, biri deyir ki, on gündən sonra, bir aydan sonra açacağıq və s. Hamı da xahiş edir ki, onların ofislərini görüm, açılışında iştirak edim.Onlar hələ Azərbaycanda böyük bir iş görməyiblər, amma görmək istəyirlər və Azərbaycanda bu imkanların olmasını özləri üçün müəyyən, aydın ediblər. Ona görə də gəlib iş görmək istəyirlər. Demək, bu dörd il müddətində bizim gördüyümüz işlər gözəl nəticələrini veribdir.

Ancaq bu da hələ işimizin başlanğıcıdır. Azərbaycanın iqtisadi imkanları böyükdür. Ona görə də Azərbaycan çox ölkə[404-405]lərin iş adamlarını, böyük-böyük şirkətləri cəlb edir. Bu gün mən konfransda çıxış edərkən bunu dedim. Dedim ki, bizim ölkəyə gələn şirkətlərin hamısı fayda, gəlir götürmək üçün gəlir. Heç kəs azərbaycanlıların qaşına-gözünə aşiq olub Azərbaycana gəlmir. Hərə öz xeyri üçün gəlir, fayda götürmək üçün gəlir. Bu təbiidir, buna pis, mənfi münasibət göstərmək olmaz, biz özümüz buna maraqlıyıq. Çünki onlar bir fayda götürəcəklərsə, biz bir neçə fayda götürəcəyik. Qarşılıqlı əlaqələr, əməkdaşlıq belə ola bilər.

Bu, nə üçün lazımdır? Çünki indi bu işləri görmək üçün vəsaitimiz yoxdur, bizə xarici sərmayə lazımdır. Xarici sərmayəni də onlar gətirirlər. Bu işləri görmək üçün bizə müasir texnologiya, texnika lazımdır, dünyanın inkişaf etmiş ölkələrində hər bir sahədə əldə olunmuş təcrübə lazımdır. Bizdə bu yoxdur. Məsələn, dünən axşam Lord-merin bizim üçün təşkil etdiyi ziyafətdə dedim ki, Azərbaycan dünyada ilk dəfə neft hasil edən ölkədir. 1848-ci ildə Azərbaycanda neft fontanı vurubdur. Azərbaycan dünyada suyun dərinliklərindən, dənizdən neft hasil edən ilk ölkədir. Biz bunu 1949-cu ildə etmişik. O vaxt Böyük Britaniya heç təsəvvür edə bilməzdi ki, Şimal dənizində neft var və oradan neft çıxaracaqdır. Amma biz Xəzər dənizində nefti hələ 40-cı illərdə kəşf etmişdik, 1949-cu ildə «Neft Daşları»nda hasilata başlamışdıq. «Bi-Pİ» və başqa böyük şirkətlər isə Şimal dənizində neft yataqlarını 1975-ci ildə açıblar və onlardan istifadə etməyə başlayıblar.

Bəli, biz qədimik. Amma onlar qısa bir müddətdə böyük texnikadan, texnologiyadan, böyük sərmayədən istifadə edərək sürətlə inkişaf ediblər. Biz isə keçmişdə Sovetlər İttifaqının tərkibində olarkən imkanımız məhdud idi, indi ondan daha da çətin vəziyyətdəyik. Biz inkişaf edə bilməmişik. Zəngin yataqlarımız var, amma xatirimdədir, 70-ci illərdə mən Azərbaycanda işləyirdim, suyun dərinliyi 80-90 metr olanda biz

orada işləyə bilmirdik. O vaxt mənim təşəbbüsümlə böyük [405-406] zavod tikdik ki, suyun dərinliyində iş görmək üçün platformalar hazırlayaq. Mən Sovetlər İttifaqının vəsaiti hesabına 400 milyon dollar əldə etdim, Amerikadan avadanlıq alıb gətirdik, indi bunlar bizə xidmət edir.

Ancaq indi biz bunları öz gücümüzlə edə bilmərik. Məsələn, indi «Çıraq» yatağından neft alırıq. İlkin nefti keçən ilin noyabrında aldıq. Biz «Çıraq» yatağında quyu qazmışdıq, platforma qurmuşduq, amma onu işlədə bilmədik. Müqavilə bağlanandan sonra o platformanı modern, müasir vəziyyətə gətirmək üçün; «Dədə Qorqud» qazma qurğusu var, - keçmişdə o, Azərbaycanın qurğusu idi, yəni Sovetlər İttifaqı vaxtı almışdıq, ancaq bugünkü tələblərə cavab vermirdi, -onu modernləşdirmək üçün 37 milyon dollap vəsait qoymaq lazım idi. Bu vəsaiti konsorsium qoydu. Ancaq təkcə vəsait deyil, texnika, mütəxəssislər gətirmək lazım idi, onu etdilər. İndi o qazma qurğusu, - adını da «Dədə Qorqud» qoyduq, əvvəl «Şelf -2» adlanırdı. Amma biz ona «Dədə Qorqud» adı verdik, çünki bu, bizim babamızdır, o adı mən qoydum, - işləyir.

Mən bu barədə çox danışa bilərəm. Yəni bununla onu demək istəyirəm ki, xarici şirkətlərin Azərbaycana gəlməsi onlar üçün də, bizim üçün də faydalıdır. Onlar Azərbaycana nə qədər çox gəlirlərsə, Azərbaycanı o qədər də tanıyırlar və Azərbaycan o qədər də məşhurlaşır. Məsələn, dörd il müddətində bu ölkədə Azərbaycanın tanınması, ona olan münasibət yerlə göy arasındakı qədər dəyişibdir. Bu, bizim nailiyyətimizdir, ancaq işimizin hələ başlanğıcıdır. Biz gərək irəliyə gedək. Ona görə də xarici ölkələrdə, o cümlədən burada, bu ölkədə yaşayan azərbaycanlıların da birlikdə, həmrəy olması, Azərbaycanın səfirliyi ətrafında sıx toplaşması və Azərbaycanın dərdləri ilə yaşaması çox vacibdir. Mənim sizə arzum, sizdən təmənnam bundan ibarətdir.

Siz burada Qarabağ məsələsini dediniz. Bəli, bu, bizim faciəmizdir. Mən sizə dedim, bu münaqişə 1988-ci ildə başla[406-407]nıbdır. O vaxt bunun qarşısı alına bilərdi və bizim torpaqlarımız əldən getməzdi. Ancaq təəssüf olsun ki, o vaxt Azərbaycanın başçıları bunu edə bilmədilər. Sovet İttifaqının başçıları da Azərbaycana qarşı xəyanət etdilər. İndi torpaqlarımızın 20 faizi işğal olunubdur, bir milyon soydaşımız işğal edilmiş torpaqlardan zorla çıxarılıb, əksəriyyəti çadırlarda yaşayır.

Ancaq indi tərəqqi nədən ibarətdir? 1994-cü ilin may ayında biz atəşi dayandırdıq. Ondan əvvəlki illəri xatırlayın – gündə döyüşlər gedir, qan tökülürdü və nəticəsi də yox idi. Torpaqlar da əldən gedir, insanlar da həlak olurdu, ümumiyyətlə, Azərbaycanın vəziyyəti də çox dözülməz idi. Biz atəşi dayandırdıq, dörd ildən artıqdır ki, atəş yoxdur, atəşkəs rejimində yaşayır, sülh danışıqları aparırıq və məsələni sülh yolu ilə həll etmək istəyirik. Əminəm ki, bunu sülh yolu ilə də həll edəcəyik.

Bilin, Azərbaycanın torpaqlarının bir metrini, bir qarışını da heç vaxt əlimizdən verməyəcəyik. Mən dünən Baş nazir Toni Bleyr ilə bu barədə çox geniş danışdım və ona dedim: Ermənilər istəyirlər ki, Dağlıq Qarabağa dövlət müstəqilliyi verilsin, Dağlıq Qarabağ Ermənistana bağlansın. Bu mümkündürmü? Dedim ki, biz buna razı ola bilmərik. Amma siz necə, buna razı ola bilərsinizmi? Dünya ictimaiyyəti, Dünya Birliyi buna razı ola bilərmi? Yox, heç bir ölkə buna razı ola bilməz!

Bu, təkcə bizim prinsipimiz deyil, beynəlxalq hüquq normalarıdır, Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in prinsipidir. Heç bir ölkənin ərazi bütövlüyünün pozulmasına yol vermək olmaz. Hər hansı ölkənin sərhədlərinin güc yolu, silah yolu ilə dəyişdirilməsi yolverilməzdir. Ona görə də buna nə biz razı ola bilmərik, nə də beynəlxalq təşkilatlar, başqa ölkələr razı olmaz.

Ona görə Ermənistan bunu anlamalıdır və get-gedə anlayır ki, onların bu siyasəti perspektivsiz siyasətdir. Biz heç vaxt [407-408] buna yol verə bilmərik. Nə Dağlıq Qarabağı əlimizdən verməyəcəyik, nə də Azərbaycanın torpaqlarının bir qarışını. Ancaq məsələni sülh yolu ilə həll edirik.

İndi Azərbaycanın daxilində sabitlik mövcuddur. Əgər siz Azərbaycana 1990-cı, 1991-ci, 1992-ci illərdə, hətta 1993-cü ildə gəlmisinizsə, görmüsünüz ki, Azərbaycan nə vəziyyətdə idi. İndi isə Azərbaycana gələnlər baxırlar, sonra bəziləri mənimlə görüşərkən deyirlər: Siz bu sabitliyi necə yaratmısınız? Azərbaycanı xüsusən MDB-nin, yəni Müstəqil Dövlətlər Birliyinin başqa ölkələri ilə, məsələn, Rusiya ilə, yaxud digər ölkələrlə müqayisə edirlər: Orada filankəsi, burada filankəsi öldürdülər, - bunlar bizdə yoxdur.

Məsələn, 1993-cü ildə mən Bakıya gələrkən Azərbaycan fövqəladə vəziyyət şəraitində idi. Hər küçənin o başında, bu başında avtomatçılar dururdu – bir tərəfdən dövlətə mənsub olan avtomatçılar, o biri tərəfdən də qeyri-qanuni silahlı dəstələr. Nə qədər silahlı dəstələr vardı, insanlara nə qədər zorakılıq edirdilər, insanları nə qədər öldürürdülər, oğurlayırdılar, insanların başına nə işlər gətirirdilər! Biz cinayətkarları aradan çıxartdıq, onların qarşısını aldıq, yüz, iki yüz, üç yüz cinayətkarı cəmiyyətdən təcrid etdik, amma yeddi milyon yarım əhaliyə rahatlıq yaratdıq.

İndi bəziləri, bizə müxalif olan qüvvələr deyirlər ki, Azərbaycanda siyasi məhbuslar var. Amma bir nəfər də siyasi məhbus yoxdur. Azərbaycanda məhbus var, hər ölkədə var. Burada yoxdurmu? Amerikada məhbus yoxdurmu? Var! Nə üçün? Cinayət etdiyinə görə! Cinayətkar cəzasını almalıdır. Cəzasızlıq şəraitində keçmişdə Azərbaycanda olan özbaşınalıq yaranır. Dövlət öz dövlətini və hər bir vətəndaşının hüququnu qorumalıdır. Vətəndaşın hüququnun qorunması ondan ibarətdir ki, vətəndaş rahat yatsın, rahat dursun, rahat gəzsin, rahat istirahət eləsin, rahat işləsin. Biz bunu təmin etmişik. [408-409]

İndi Azərbaycanın siması tamamilə dəyişibdir. Məsələn, burada nazir var – Con Battl, o, bir il bundan öncə gəlmişdi. İkinci dəfə iyun ayında beynəlxalq sərgi zamanı gəldi, dedi ki, bir il müddətində burada nə

qədər dəyişiklik gördüm. Bunlar hamısı göydən düşməyib, bizə Allah verməyibdir, görülən işlərin nəticəsidir.

Ona görə də bizim ikinci nailiyyətimiz, - birincisi odur ki, atəşkəs rejimi yaratmışıq, müharibə getmir, - Azərbaycanın daxilində ictimai-siyasi sabitlik yaratmağımızdır. Bu sabitliyi də qoruyuruq və qoruyacağıq. Baxmayaraq ki, ayrı-ayrı cinayətkar dəstələr, keçmişdə silahdan istifadə edib öz hakimiyyətlərini yaratmaq, öz niyyətlərinə nail olmaq üçün cəhd göstərən insanlar hələ bu gün də belə fikirlərlə yaşayırlar. Ancaq bu, mümkün deyildir. Azərbaycanda qanun hamı üçün qanundur. Qanunun aliliyi bizim üçün əsas prinsipdir. Kim qanundan kənara çıxırsa, şübhəsiz ki, ona Azərbaycanda yer yoxdur.

Biz Azərbaycanda bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat yaratmışıq, indi burada bu barədə konfrans gedir. Azərbaycanda demokratik proseslər gedir, demokratik dövlət qurulur və inkişaf edir, demokratiya yaranır. Siz bu ölkələrdə yaşayan adamlarsınız, bunlar demokratiyanın inkişaf etdiyi ölkələrdir. Ancaq bunlar neçə ilə gəlib bu səviyyəyə çatıblar? Buna gəlib çatmaq üçün əsrlərlə vaxt sərf ediblər.

Azərbaycanda bir-iki ildə, beş ildə bu səviyyədə demokratiya yaratmaq mümkün deyildir. Bunun üçün biz qanunlar qəbul etmişik, Konstitusiyamız var. Amma insanların məfkurəsində dəyişiklik əmələ gətirmək, psixoloji dəyişikliklər yaratmaq – bunun üçün çox iş görmək lazımdır və zaman gərəkdir. Bunu da edirik və edəcəyik. Azərbaycanda bəzi adamlar var ki, yerindən durub özlərini ən böyük demokrat hesab edirlər. Nəyə görə? Bunu bilmək mümkün deyildir. Nəyə görə – ya anası bunu demokrat doğubdur, ya elə doğulanda ana[409-410]sının bətnindən demokrat çıxıbdır, – başa düşə bilmirəm. Ancaq belə iddialarla yaşayırlar. Yaşasınlar, qeyri-normal adam dünyada çoxdur, bunlar da təxminən o qəbildən olan adamlardır.

Amma həqiqət, reallıq ondan ibarətdir ki, indi Azərbaycanda demokratik cəmiyyət formalaşıb, demokratik prinsiplər yaranır, inkişaf etdirilir və bu prinsiplər əsasında da oktyabr ayının 11-də Azərbaycanda növbəti prezident seçkiləri keçiriləcəkdir. Beş il bundan öncə prezident seçkiləri keçirilib, mən prezident seçilmişəm. Beş ildir Azərbaycana sədaqətlə xidmət etmişəm və Azərbaycan bugünkü səviyyəyə gəlib çatıbdır. İndi də alnıaçıq, üzüağ bu seçkilərə gedirik. Bəlkə də Azərbaycanda çoxları deyir ki, seçkilər nəyə lazımdır, Heydər Əliyev hamı üçün məlumdur, tanışdır və s. Siz bilirsiniz ki, başqa respublikalarda – Orta Asiya respublikalarında prezidentlər seçilmir, sadəcə, referendum keçirib onun səlahiyyət vaxtını beş il, on il də uzadırlar. Bu, təkcə orada deyil, başqa ölkələrdə də var.

Yox, biz Konstitusiyaya, qanuna riayət edirik. Qanunla prezidentin səlahiyyəti beş ildir. Beş il başa çatanda yeni prezident seçkiləri keçirilməli və prezident seçilməlidir. Oktyabr ayının 11-də xalq kimi prezident seçəcəksə, o da gələn beş ildə prezidentlik səlahiyyətini həyata keçirəcəkdir. Ümidvaram ki, bu seçkilərin tam demokratik, azad, sərbəst, ədalətli keçirilməsinə nail olacağıq. Bunun üçün lazımi işlər görülüb və bundan sonra da görüləcəkdir və siz də Azərbaycanla həmrəyliyinizi həmişə göstərəcəksiniz.

Bilirsiniz, dörd il bundan öncə biz belə şəraitdə görüşə bilməzdik. İndi burada bizim səfirliyimiz var. Bu, Azərbaycanın mülküdür. Azərbaycan ilk dəfədir ki, İngiltərə kimi bir ölkədə mülk sahibidir. Bu, Azərbaycanın mülküdür, səfirliyidir. Biz böyük işlərin əsasını qoymuşuq. İnkişaf edəcəyik, vaxt gələcək, burada bizim səfirliyimiz genişlənəcək, bəlkə bundan [410-411] da böyük mülk alacağıq. Bu da mümkün olacaqdır. Amma bu, hələ ki, bu günün tələblərinə cavab verir. Səfirliyimiz yaxşı işləyir və siz də onun ətrafında yaxşı toplaşır, bir yerdə olursunuz. Çalışacaqsınız ki, mənim arzularımı da yerinə yetirəsiniz, bir-birinizlə daha da mehriban, dost, həmrəy olasınız. Yenə də deyirəm – Azərbaycan naminə!

Bizim üçün tarixi bir amil var – Azərbaycançılıq. Bilirsiniz, ermənilər çalışırlar sübut eləsinlər ki, guya, ümumiyyətlə, Azərbaycan milləti yoxdur, köçərilər olubdur, filan olubdur. Amma azərbaycanlı kimi bizim millətimizin böyük tarixi var. Böyük, qədim tarixi var! Bizim dilimiz Azərbaycan dilidir. Bilirsiniz, 1992-ci ildə Azərbaycanda böyük səhvə yol vermişdilər ki, bizim dilimiz türk dilidir. Bəli, biz türkdilli millətlərə daxilik, əcdadlarımız birdir. Ancaq türkdilli xalqlar sonra şaxələnib, hərəsi bir millətə çevrilibdir. Özbək də türkdillidir, qırğız da, qazax da, tatar da, türkmən də, başqırd da, uyğur da türkdillidir. Amma hərəsi bir millətdir, hərənin də öz dili var. Məsələn, mən özbək dilinin, ola bilər, on faizini başa düşə bilərəm, ondan artıq başa düşə bilmərəm. Amma bizim dillərimizin kökü birdir, biz bir kökdənik. Millət kimi də, dil baxımından da bir kökdənik. Amma biz bu kökün bir budağıyıq, budaq, şaxə kimi inkişaf etmişik. Özümüzün adımız var – Azərbaycan, özümüzün dilimiz var – Azərbaycan dili. Çox da gözəl, zəngin, çox ləzzətli dilimiz var.

Siz bilirsiniz ki, mənim təhsilim, ümumiyyətlə, rus dilində gedibdir. Gənc vaxtımdan bütün həyatım boyu rus dilində oxumuşam, rus dilində işləmişəm. Moskvada böyük vəzifələrdə işləmişəm. Mənim üçün rus dili ana dili kimi bir dildir. Amma mən o dildən nə qədər istifadə etmiş olsam da, Azərbaycan dilini unuda bilmərəm. Azərbaycan dili mənim üçün hər şeydən əzizdir. Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən [411-412] birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində ədəbiyyat da olmaz. Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunlar hamısı bir-biri ilə bağlıdır.

Ona görə bu beş ildə Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, Azərbaycançılıq məsələsidir. Azərbaycançılıq

bizim üçün böyük Azərbaycan nöqteyi-nəzərindən çox vacibdir. Biz özümüzü bir ölkənin quyruğuna bağlaya bilmərik. Biz heç kəsin quyruğuna bağlanan bir xalq deyilik. Biz böyük xalqıq, müstəqil xalqıq, öz adımız, öz dilimiz, ədəbiyyatımız, mədəniyyətimiz, musiqimiz və öz ölkəmiz var. Ona görə də bu anlayışları yaşatmaq və inkişaf etdirmək, Azərbaycan dilini hər yerdə daha da yüksəklərə qaldırmaq hamımızın vəzifəsidir, sizin də vəzifənizdir.

Burada Azərbaycan dilindən tərcümə etmək çox çətindir, tərcüməçilərin əksəriyyəti rus dilindən tərcümə edirlər və bəzən mənə təklif edirlər ki, rus dilində danışım. Mənim üçün rus dilində danışmaq Azərbaycan dilində danışmaq kimidir, bəlkə,ondan da asandır. Çünki mən on illərlə rus dilində danışmışam, nitqlər söyləmişəm, danışıqlar aparmışam. Ancaq artıq bizim yaxşı tərcüməçilərimiz var. Mən hər yerdə ancaq Azərbaycan dilində danışıram. Hətta bu ölkənin tərcüməçisi mənə rus dilində tərcümə edir, ancaq mənim tərcüməçim mənim danışıqlarımı Azərbaycan dilindən tərcümə edir. İki tərcüməçi var. Çünki onlar öz tərcüməçisi ilə gəlir, mən öz tərcüməçimlə. Onların tərcüməçisi rus dilinə tərcümə edir, - aydındır, mən rus dilini başa düşürəm, - amma mənim tərcüməçim isə onların dediyini Azərbaycan dilinə tərcümə edir, mənim də Azərbaycan dilində dediyimi onlar üçün ingilis dilinə tərcümə edir.

Bu, prinsipial məsələdir, kiçik məsələ deyildir. Mən hər dəqiqə Azərbaycanın müstəqilliyini və milliliyini təsdiq edirəm, bu[412-413]nu nümayiş etdirirəm, hər sahədə göstərirəm. Qoy onlar elə bilməsinlər ki, biz keçmişdəki kimi yenə də Rusiyanın müstəmləkəsiyik, rus dilində danışırıq. Yox! Bizim öz dilimiz var və öz dilimizdə danışırıq, dilimiz də çox gözəl, zəngin dildir.

Mən Sizin hamınıza cansağlığı arzu edirəm, gələcək işlərinizdə uğurlar arzulayıram. Vətənlə həmişə sıx əlaqə saxlayın, gəlin-gedin və bilin ki, Azərbaycanın müstəqilliyi etibarlı əllərdədir. Biz Azərbaycan bayrağını dünyanın hər yerində qaldırmışıq və bundan sonra da qaldıracağıq. Azərbaycanın müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir. Mən bunun üçün çalışmışam, çalışıram və bundan sonra da çalışacağam. Sağ olun. [413]

## BRİTANİYA-AZƏRBAYCAN PARLAMENT QRUPUNUN ƏSASININ QOYULMASI MÜNASİBƏTİLƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ

*London*

*22 iyul 1998-ci il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli dostlar!

Bugünkü görüş münasibətilə mən sizə təşəkkürümü bildirirəm.

Birləşmiş Krallığın parlamenti böyük tarixə, ənənələrə malikdir. Doğrudur, parlamentinizin ənənələrinin bəzilərini siz artıq istəmirsiniz və onlardan xoşunuz gəlmir. Mən bu gün bunu bir daha hiss etdim. Amma eyni zamanda, siz onlardan ayrıla da bilmirsiniz, istifadə edirsiniz.

Mən təşəkkür edirəm ki, siz parlamentin xoşunuza gəlməyən hissələrini bizim həyatımıza tətbiq etməkdən imtina edirsiniz. Heç olmasa, buna görə sağ olun. Çünki bəziləri belə hesab edirlər ki, onların ənənələri universal xarakter daşıyır və hər bir ölkədə bunlar sözsüz qəbul olunmalıdır. Bu, bizim keçmişdə, uzun illər istifadə etdiyimiz kommunist ideologiyasına bəzən bənzəyir. Kommunist ideologiyası tələb edirdi ki, hər yerdə kommunist ideologiyası tətbiq olunmalıdır. Ancaq onlar buna nail olmadılar. İndi dövlətlər, xalqlar bu kommunist ideologiyasından xilas olandan sonra demokratiya yolu ilə getdikləri zaman, bəzi dövlətlər öz ölkələrində yüz illərlə yaranmış demokratiyanı bu gənc, yeni müstəqil ölkələrə də [414-415] eyni ilə tətbiq etmək istəyirlər. Mən bu gün hiss etdim ki, siz belə fikirdə deyilsiniz. Ona görə də sizə təşəkkür edirəm.

Amma biz eyni zamanda, yaxşı dərk edirik ki, sizin ölkənizin dövlət sistemində və xüsusən parlamentin fəaliyyətində çox dəyərli ənənələr vardır. Bunlar birinci növbədə demokratiyaya aiddir.

Biz Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi aparırıq. Biz demokratiyanı yaradırıq və onu inkişaf etdirmək yolu ilə gedirik. Ancaq demokratiya bizim üçün yeni bir anlayışdır. Biz artıq bunu anlamışıq. Amma vətəndaşlarımızın hamısının bunu anlaması və qəbul etməsi, qavraması, şübhəsiz ki, müəyyən vaxt tələb edir.

Demokratiyanı Azərbaycanda tam yaymaq, bərqərar, əbədi, dönməz etmək üçün bizim sizin köməyinizə ehtiyacımız vardır. Biz sizin təcrübənizdən maksimum istifadə etməyə çalışırıq. Siz isə görsəniz ki, təcrübənizin haradasa mənfi cəhətini götürmək istəyirik, bunun qarşısını alın, bizə deyin ki, bu, lazım deyildir. Hər halda Böyük Britaniyada demokratiyanın daşıyıcısı parlamentdir. Ona görə də bu gün mən parlamentin üzvləri, Britaniya-Azərbaycan parlament dostluq qrupunun və parlamentin başqa üzvləri ilə görüşümdən çox məmnunam.

Mən bu fürsətdən istifadə edib, sizi birinci növbədə Azərbaycana, oktyabrın 11-də respublikamızda keçiriləcək seçkilərdə müşahidəçi kimi iştirak etməyə dəvət edirəm. Amma şübhəsiz ki, bizim əməkdaşlığımız təkcə bununla bitməyəcəkdir.

Biz Böyük Britaniya ilə ümumiyyətlə, uzunmüddətli əməkdaşlıq haqqında çox dəyərli qərarlar qəbul etmişik. Əlahəzrət kraliça ilə mənim söhbətim zamanı da biz bu məsələni müzakirə etdik. Xüsusən Baş nazir cənab Toni Bleyr ilə mənim görüşüm, danışıqlarım zamanı bu məsələ çox geniş müzakirə olundu.Biz ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi haqqında tam həmfikir olduq. Böyük Britaniyanın Baş Naziri [415-416] cənab Toni Bleyr və Azərbaycan prezidenti kimi mən bunun nəticəsi olaraq Birləşmiş Krallıq ilə Azərbaycan arasında dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannamə imzalamışıq.

Ötən dörd il ərzində ölkələrimiz arasında əlaqələr genişlənib və inkişaf edibdir. Mənim Birləşmiş Krallığa rəsmi səfərim zamanı keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və Baş nazirlə imzaladığım siyasi bəyannamə bizim əlaqələrimizin gələcəyi üçün yeni mərhələ açır. Biz razılaşdıq ki, əlaqələrimizi bütün sahələrdə – siyasi, iqtisadi, elmi, mədəni, humanitar və başqa bütün sahələrdə inkişaf etdirməliyik. Güman edirəm ki, parlamentdə siz də bu əlaqələrin inkişaf etməsinə öz xidmətlərinizi göstərəcəksiniz.

Mən sizə cansağlığı, bütün işlərinizdə uğurlar arzulayıram. Birləşmiş Krallığın parlamentinə daha da uğurlu fəaliyyət arzulayıram. Böyük Britaniya ilə Azərbaycan arasında olan dostluq əlaqələrinin inkişaf etdirilməsinə hər birinizin səy göstərməsini arzulayıram. Sağ olun, təşəkkür edirəm.

Britaniya parlamentinə bizim böyük hədiyyəmiz yoxdur. Amma bu Azərbaycanın milli mədəniyyətinin nümunəsidir. Azərbaycan mədəniyyətinin, incəsənətinin bir hissəsi də xalçaçılıqdır. Azərbaycan xalçaları çox məşhurdur. Onları insanlar, xüsusən qadınlar və gənc qızlar öz əlləri ilə toxuyurlar. Güman edirəm ki, bu xalça Azərbaycan ilə Birləşmiş Krallığın dostluğunun möhkəmləndirilməsinə xidmət edəcəkdir. [416]

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR ÜZRƏ KRAL İNSTİTUTUNDAKI GÖRÜŞDƏ* NİTQ

*London*

*22 iyul 1998-ci il*

Hörmətli sədr!
Hörmətli xanımlar və cənablar!

Mən sizi Böyük Britaniyanın mötəbər auditoriyasında, Beynəlxalq Münasibətlər üzrə Kral İnstitutunda salamlayıram və sizinlə görüşdən çox şad olduğumu bildirmək istəyirəm. Mən bu salonda ikinci dəfədir ki, çıxış edirəm. Azərbaycan prezidenti kimi 1994-cü ilin fevral ayında Böyük Britaniyaya ilk rəsmi səfərim zamanı mən buraya dəvət olunmuşdum. O vaxt mən burada toplaşanlar qarşısında çıxış edib onların suallarına cavab vermişdim. O vaxtdan dörd il keçibdir. Mən Birləşmiş Krallığın Baş naziri cənab Toni Bleyrin dəvəti ilə sizin ölkənizdə yenidən rəsmi səfərdəyəm. Bu gün səfərin üçüncü günü tamam olur və siz məni buraya dəvət etmisiniz. Mən bu dəvətə görə təşəkkür edirəm. [417-418]

Böyük Britaniyanın Beynəlxalq Münasibətlər üzrə Kral İnstitutunun bu salonuna toplaşmış siyasət sahəsində mütəxəssislərin, alimlərin, jurnalistlərin qarşısında çıxış etməyi özüm üçün şərəf hesab edirəm.

Düşünürəm ki, sizi çox şey maraqlandırır. Ancaq bizim hörmətli sədrimiz deyibdir ki, mən yarım saat danışmalıyam və suallara da vaxt qalmalıdır. Şübhəsiz, bu, mənim üçün çox çətindir. Çünki istədiyim sözləri sizə çatdırmaq və sizin arzunuzu yerinə yetirmək üçün yarım saat çox azdır. Mən sizin qarşınızda bundan bir neçə dəfə çox danışa bilərdim. Ancaq bugünkü reqlamentə tabeyəm və çalışacağam ki, onu yerinə yetirim.

Azərbaycan 1991-ci ilin sonunda, Sovetlər İttifaqı dağılan zaman öz dövlət müstəqilliyini əldə edib və altı ildir ki, müstəqil dövlət, ölkə kimi yaşayır. Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsi dövrü – 1991-ci ilin sonu, 1992-ci ilin əvvəllərini Azərbaycanın həyatı üçün çox mürəkkəb, ağır, çətin bir dövr olmuşdur. Ümumiyyətlə, Sovet İttifaqı dağılandan sonra bu ittifaqa mənsub olmuş 15 müttəfiq respublikanın müstəqillik əldə etməsi və müstəqil dövlət kimi yaşamaq prosesi həmin müttəfiq respublikalar üçün asan yox, çətin olubdur. Bu ölkələr, bu dövlətlər bu çətinlikləri indi də çəkirlər. Ancaq Azərbaycan üçün bu, daha da çətin, ağır olubdur.

Bilirsiniz ki, 1988-ci ildən Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ Vilayətinin Ermənistana bağlanması cəhdi ilə əlaqədar olaraq hərbi münaqişə başlanıbdır. Həmin münaqişə sonra müharibəyə çevrilibdir. 1991-ci ildə artıq Ermənistanla Azərbaycan bir-biri ilə müharibə aparırdı.

Beləliklə, yeni bir həyata qədəm qoyan, müstəqilliyini təsdiq etmək istəyən Azərbaycan müharibə şəraitində idi. Onda Azərbaycan torpaqlarının bir qismi artıq işğal edilmişdi. Azərbaycanlıların bir qismi öz doğma yerlərindən-yurdlarından zorla çıxarılmışdı, qaçqın və köçkün vəziyyətində yaşayırdı. İkinci tərəfdən, 1990-cı ildən, hətta 1989-cu ildən başlayaraq Azərbaycanda daxili vəziyyət çox gərgin olmuşdu. Sovet hakimiyyətinin, yəni Moskvanın, sovet hökumətinin [418-419] Ermənistan–Azərbaycan münaqişəsində respublikamıza qarşı qeyri-obyektiv, ədalətsiz münasibəti Azərbaycan xalqının hiddətinə səbəb olmuşdu. Bununla əlaqədar, Azərbaycanda hakimiyyətə qarşı – həm Azərbaycandakı kommunist hakimiyyətinə, həm də Moskvadakı Sovetlər İttifaqı hakimiyyətinə qarşı etiraz mitinqləri və çıxışları olmuşdu. Bunlar vəziyyəti daha da gərginləşdirmişdi.

Bilirsiniz ki, 1990-cı ilin yanvar ayında o vaxtkı sovet hökumətinin, Kommunist Partiyasının rəhbərliyi və şəxsən Qorbaçov başda olmaqla Siyasi Büro Azərbaycana qarşı çox ədalətsiz qərar qəbul etmişdilər. Onlar Sovet İttifaqının böyük hərbi hissələrini respublikamıza, Bakıya yeridib Azərbaycanda öz etiraz sözlərini deyən dinc əhaliyə qarşı təcavüz etmişdilər. İnsanlar qırılmış, Bakının küçələrinə qan tökülmüşdü. Bu, ümumiyyətlə Azərbaycanda daxili vəziyyəti gərginləşdirmişdi, həm Moskvada, həm də Bakıda olan kommunist rejiminə qarşı nifrət oyatmışdı. Ancaq hakimiyyət isə öz hakimiyyətini saxlamağa çalışmış və beləliklə, daxildə mübarizə başlamışdı.

1992-ci ildə Azərbaycanda mövcud olan kommunist hakimiyyəti – doğrudur, Sovet İttifaqı dağılandan sonra Kommunist Partiyası ləğv olunmuşdu, lakin hakimiyyət həmin şəxslərdə qalmışdı, - onlar hakimiyyətdən getməyə məcbur oldular, yeni hakimiyyət gəldi. 1993-cü ildə də Azərbaycanda bir hakimiyyət dəyişikliyi baş verdi.

Beləliklə, Azərbaycanın dövlət müstəqilliyinin ilk illəri çox gərgin, ağır olmuşdur. Buna görə də Azərbaycan çox çətin proseslərdən keçmişdir.

---

* Görüşdə Böyük Britaniyanın tanınmış siyasi xadimləri, yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, diplomatlar və jurnalistlər iştirak edirdi.

1993-cü ilin əvvəlində Azərbaycanda yenidən vəziyyət gərginləşdi, 1992-ci ildə hakimiyyətə gəlmiş qüvvələrə qarşı etirazlar başlandı və hərbi toqquşmalar oldu, vətəndaş müharibəsi başlandı. 1993-cü ilin iyun ayında hakimiyyətdə olan şəxslər istefa verdilər, hakimiyyətdən çəkildilər. Beləliklə, Azərbaycanda hakimiyyət böhranı yarandı. [419-420]

Görüşümüzün sədrinin burada dediyi kimi, 1993-cü ilin iyun ayında mən Bakıya dəvət olunmuşam və Azərbaycan parlamentinin, Ali Sovetinin sədri seçilmişəm. O vaxtkı prezident öz vəzifəsini buraxıb Bakını tərk etdiyinə görə və Azərbaycanın ucqar dağ kəndlərindən birində gizləndiyinə görə respublikamızda hakimiyyət boşluğu əmələ gəlmişdi. Referendum keçirilmiş və bu referendum nəticəsində həmin prezidentə etimadsızlıq göstərilmişdi. 1993-cü ilin oktyabr ayında prezident seçkiləri keçirilmiş və mən, Heydər Əliyev prezident seçilmişəm. Bu prezident səlahiyyətlərim sona çatır və oktyabrın 11-də Azərbaycanda prezident seçkiləri təyin olunubdur.

Beləliklə, yenə də deyirəm, o illərdə Azərbaycan belə bir mürəkkəb daxili ictimai-siyasi vəziyyət şəraitində yaşamışdır. Biz nə etmişik? Birinci növbədə, Ermənistan-Azərbaycan münaqişəsinə son qoymağa çalışmışıq. Bu münaqişə nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal edibdir və işğal olunmuş ərazilərdən bir milyondan artıq azərbaycanlı öz yerindən-yurdundan zorla qovulub çıxarılıbdır. İndi onların böyük əksəriyyəti Azərbaycanın müxtəlif yerlərində çadırlarda ağır vəziyyətdə yaşayırlar.

1993-cü ildə də, 1994-cü ilin əvvəlində də müharibə gedirdi. Şübhəsiz ki, müharibə həm Ermənistana, həm Azərbaycana şəhidlər, tələfat gətirirdi. Mən bu müharibənin perspektivsiz olduğunu hiss etdim. Təkcə mən yox, bu münaqişəni müşahidə edənlər də onun perspektivsiz olduğunu hiss edirdilər. Ona görə də 1994-cü ilin may ayında Ermənistan ilə Azərbaycan arasında atəşin dayandırılması barədə saziş imzalanmış, atəşkəs rejimi yaranmışdır. 1994-cü ilin may ayından indiyə qədər müharibə yoxdur, döyüşlər getmir, qan tökülmür, münaqişənin sülh yolu ilə həll olunması üçün danışıqlar aparılır. Ancaq hələ sülh də əldə olunmayıbdır və bu müharibənin nəticələri də aradan götürülməyibdir. Mən qeyd etdim, ərazimizin 20 [420-421] faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır, bir milyon azərbaycanlının əksəriyyəti çadırlarda qaçqın kimi yaşayırlar.

Hesab edirəm ki, Azərbaycanda ictimai-siyasi vəziyyəti normallaşdırmaq üçün münaqişəyə sülh yolu ilə son qoyulması xətti çox dəyərli addımdır. Ümumiyyətlə bölgədə, Qafqaz bölgəsində sülh əldə etmək üçün bu, dəyərli bir addımdır və biz bunu başa çatdırmalıyıq.

Azərbaycanın digər bir problemi, yəni onun həyatını gərginləşdirən məsələ bir də ondan ibarət olubdur ki, - artıq mən sizə bildirdim, - 1989-cu ildən Azərbaycanda daxili ictimai-siyasi sabitlik pozulmuşdu. 1993-cü ildə bu sabitlik o qədər pozulmuşdu ki, vətəndaş müharibəsi başlanmışdı. Hətta bəzi qüvvələr Azərbaycanı parçalamağa cəhd göstərirdilər. Biz vətəndaş müharibəsinin qarşısını aldıq, Azərbaycanın daxili ictimai-siyasi vəziyyətini tədricən normallaşdırmağa, sabitləşdirməyə çalışdıq və buna da nail olduq. Ancaq bu, o qədər də asan olmadı. Çünki siz mətbuatdan yəqin bilirsiniz ki, 1994-cü il oktyabr ayının 3-4-də Azərbaycanda hakimiyyəti silahla, güclə devirmək cəhdi oldu. Amma biz bunun qarşısını aldıq. O vaxt Baş nazir vəzifəsində işləyən şəxs Azərbaycan prezidentini silahla, güclə devirib hakimiyyəti ələ keçirmək istədi. Biz bunun qarşısını demək olar ki, silahsız aldıq.

Yəni silah, güc həmin adamlarda idi. Ancaq yəqin mətbuatdan bilirsiniz, - o vaxt mən televiziya vasitəsilə xalqa müraciət etdim. Gecəyarısı Bakının əhalisi 1-2 saat müddətində Prezident sarayının ətrafına toplaşdı, prezidenti, hakimiyyəti müdafiə etdi. Sabahısı günü Azadlıq meydanına bir milyondan artıq insan toplaşdı, beləliklə, biz çevriliş cəhdinin qarşısını aldıq.

Ancaq Azərbaycanda 1989-cu ildən hakimiyyəti silah gücünə ələ keçirmək xəstəliyi elə yaranmışdı ki, insanlar o xəstəlikdən ayrıla bilmirdilər. Azərbaycanda bir tərəfdən də qeyri-[421-422]qanuni, qeyri-leqal silahlı dəstələr çox idi. Bir yerdə ki, qanunsuz silah var, insanlar bu silahdan istifadə edə bilirlər, şübhəsiz ki, onlar cinayətlər də edirlər. Belə cinayətkar qruplar həm kriminal cinayətlər edirdilər, həm də iştahları sonralar o qədər artmışdı ki, onlar artıq hakimiyyəti ələ keçirmək istəyirdilər.

Belə bir cinayətkar dəstə Azərbaycanın Daxili İşlər Nazirliyinin OMON dəstəsində – xüsusi təyinatlı milis dəstəsində cəmləşmişdi. 1995-ci ilin mart ayında onlar hakimiyyəti silah gücünə ələ keçirmək istədilər. Bunun da qarşısı alındı. Şübhəsiz ki,bu hadisələr zamanı bəzi adamlar həbs olundu, bəziləri qaçdılar, ayrı-ayrı ölkələrdə gizləndilər. Onların bəziləri indiyədək gizlənirlər.

Bu iki hadisə Azərbaycanı çox incitdi. Amma eyni zamanda, Azərbaycanda bu qanunsuz silahlı dəstələrin və ümumiyyətlə, silah yolu ilə hakimiyyəti əldə etmək cəhdlərinin qarşısını almaq üçün çox güclü bir amil oldu. Ondan sonra respublikanın daxilində bizim apardığımız tədbirlər nəticəsində Azərbaycanda daxili ictimai-siyasi vəziyyət ardıcıl olaraq normallaşdırılıbdır. İndi deyə bilərəm ki, Azərbaycanın ictimai-siyasi vəziyyəti sabitdir. Müharibə yoxdur, atəşkəs rejimində yaşayırıq, daxildə də vəziyyət sabitləşibdir.

1995-ci ilin noyabr ayında müstəqil Azərbaycan özünün ilk Konstitusiyasını qəbul etdi. 1995-ci ilin noyabr ayında Azərbaycan parlamentinə demokratik prinsiplər əsasında ilk seçkilər keçirildi. Parlament də, konstitusiya da işləyir. Ötən dövrdə Azərbaycanın bir çox qanunları qəbul olunubdur.

Beləliklə, ötən bu altı il demək olar ki, iki hissəyə bölünə bilər. Onun birinci hissəsi Azərbaycanın daxilində vəziyyətin gərgin olması və Ermənistanla müharibə, ikinci hissəsi isə Azərbaycanda daxili vəziyyətin tədricən sabitləşməsi və atəşkəs rejiminin yaranması, ölkəmizin atəşkəs rejimində yaşamasıdır. [422-423]

Biz elan etmişik və bu konstitusiyada öz əksini tapıbdır ki, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulur və bu dövlət quruculuğu prosesi ardıcıl surətdə həyata keçirilir. Bu, bizim siyasətimizin ana xəttidir, strategiyasıdır.

Biz bazar iqtisadiyyatı, sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyatın yaranması yolu ilə Azərbaycan iqtisadiyyatında dəyişikliklər aparırıq. Bunun üçün Azərbaycanda həm siyasi, həm iqtisadi islahatlar həyata keçirilir və bu islahatlar öz müsbət nəticələrini verir.

Mən iqtisadi sahədən çox şey deyə bilərəm. Ancaq güman edirəm ki, sizi daha çox siyasi məsələlər maraqlandıracaqdır. Ona görə də mən sadəcə, onu deyə bilərəm ki, Azərbaycan iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə gedir, bizim həyata keçirdiyimiz iqtisadi islahatlar bütün sahələrdə öz müsbət nəticələrini verir. Azərbaycanın iqtisadiyyatında əvvəllər – 1989-1990-cı illərdən mövcud olan iqtisadi göstəricilərin ardıcıl olaraq hər il 20-25 faiz aşağı düşməsi 1996-cı ildə dayandırılıbdır. 1996-cı ildən başlayaraq, 1997-ci ildə və 1998-ci ilin birinci yarısında iqtisadiyyatda artım mövcuddur.

Mən bir neçə rəqəmi misal gətirmək istəyirəm. Məsələn, 1996-cı ildə Azərbaycanda ümumi daxili məhsul istehsalının artımı 1,3 faiz, 1997-ci ildə 5,8 faiz olubdur və 1998-ci ilin birinci yarısında ümumi daxili məhsul istehsalının artımı 9 faizdir. Maliyyə sistemində çox normal vəziyyət yaranıbdır. 1994-cü ildə Azərbaycanda inflyasiya 1400 faiz idi, bu rəqəm 1995-ci ildə 6 faizə, 1996-cı ildə 4 faizə endirildi. İnflyasiya 1997-ci ildə 0,4 faiz olub, bu ilin 6 ayında isə 0,6 faizdir. Demək, inflyasiya tamam normal vəziyyətdədir. Bizim milli valyutamız normal fəaliyyət göstərir və hətta dollara nisbətən daha da möhkəmlənir.

İqtisadiyyatda bizim başqa yüksək göstəricilərimiz də vardır. Siz onları bilirsiniz. Biz böyük müqavilələr imzalamışıq. Azərbaycanın neft yataqlarından müştərək istifadə olunması [423-424] üçün Londonda üç böyük müqavilə imzalandı. Bu müqavilələr Böyük Britaniyanın Baş nazirinin iqamətgahında onun və mənim iştirakımla imzalanmışdır. Beləliklə, neft-qaz sahəsində indiyədək dünyanın böyük şirkətləri ilə 15 müqavilə imzalamışıq. 14 ölkəni təmsil edən 26, bəlkə də 28-29 şirkət bu müqavilələrin iştirakçısıdırlar.

Azərbaycana investisiya gəlir və o, ildən-ilə artır. Məsələn, bu ilin 6 ayında keçən ilin 6 ayına nisbətən Azərbaycana investisiyanın gəlməsi 70 faiz artıbdır.

Ancaq mən artıq siyasi məsələlərə qayıtmaq istəyirəm.

Bizim qarşımızda duran əsas məsələ Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmasıdır. Dediyim kimi, biz bunu sülh yolu ilə həll etmək istəyirik və öz cəhdlərimizi göstəririk. Bu məsələ ilə ATƏT-in Minsk qrupu məşğul olur. İndi Minsk qrupunun üç həmsədri vardır. Onlar Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır.

1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşündə bu məsələni sülh yolu ilə həll etmək üçün prinsiplər qəbul olunubdur. Bunlar üç prinsipdir. Birincisi, Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünün tanınmasıdır. Bu vacibdir, çünki Ermənistan Azərbaycanın ərazi bütövlüyünü indiyə qədər tanımaq istəmir. İkincisi, Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu verilməsidir. Üçüncü, Dağlıq Qarabağın əhalisinin – həm erməni millətinə, həm də Azərbaycan millətinə mənsub olan əhalisinin hamısının təhlükəsizliyinin təmin edilməsidir.

Biz 1996-cı ilin dekabrında Lissabon zirvə görüşündə bu prinsipləri qəbul etdik. Lissabon zirvə görüşündə iştirak edən 54 dövlət, hökumət başçılarından 53-ü bu prinsiplərə səs verdi. Ermənistan bununla razı olmadı.

Minsk qrupunun həmsədrləri bunların əsasında 1997-ci ildə təklif hazırlayıb verdilər. Bu təklif də məsələnin iki mərhələdə həll olunmasını nəzərdə tutur. [424-425]

Mən xəritə vasitəsi ilə vəziyyəti ətraflı şərh etmək istəyirəm. Xəritədə gördüyünüz bu yerlər Azərbaycanın işğal olunmuş torpaqlarıdır. Gördüyünüz bu qırmızı rənglənmiş yer Dağlıq Qarabağın ərazisidir, yaşıl və sarı rənglərlə rənglənmiş yerlər Dağlıq Qarabağın ətrafında sırf azərbaycanlılar yaşamış, indi isə Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazidir.

Bu Ermənistandır, bu Naxçıvan Muxtar Respublikasıdır. Bu, Azərbaycanla İranın sərhədidir. İşğal nəticəsində Azərbaycanla İranın sərhədinin 130 kilometrdən artıq hissəsi Ermənistan silahlı qüvvələrinin nəzarəti altındadır.

ATƏT-in Minsk qrupu həmsədrlərinin verdikləri təklif nədən ibarətdir? Onlar məsələnin iki mərhələdə həll olunmasını təklif edirlər. Birinci mərhələdə yaşıl rənglə rənglənmiş ərazilərin – yəni Azərbaycanın 6 inzibati rayonu burada yerləşir – işğalçı qüvvələrdən azad olunması və qaçqınların, köçkünlərin öz yerlərinə, yurdlarına qayıtması nəzərdə tutulur. İkinci mərhələdə isə Azərbaycanın sarı rənglə rənglənmiş iki rayonunun – Laçın və Şuşa rayonlarının işğalçı dəstələrdən azad edilməsi və qaçqınların oraya qaytarılması, bununla eyni vaxtda Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağın statusunun müəyyən olunması nəzərdə tutulur.

Bu təkliflər keçən ilin sentyabr ayında ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən Azərbaycana və Ermənistana təqdim olundu. Bu təkliflərdə bizi hər şey qane etmir. Ancaq konstruktiv mövqe tutaraq və məsələyə son qoymaq üçün biz öz etirazlarımızı geriyə götürdük və bunu qəbul etdik.

Ermənistan əvvəl bunu qəbul etmək istəmədi. Sonra isə Ermənistanın keçmiş prezidenti bu prinsiplərlə razı oldu. Keçən ilin oktyabr ayında Strasburqda Ermənistanın keçmiş prezidenti Ter-Petrosyan və mən məsələnin bu prinsiplər əsasında həll olunması haqqında bəyanat verdik. Ancaq sonra Ermənistanda vəziyyət dəyişdi, fikirlər parçalandı və bu ilin fevral ayında prezident Ter-Petrosyan istefa verdi. Ermənı[425-426]standa yeni seçkilər keçirildi və artıq sizə məlumdur ki, Robert Koçaryan prezident seçilibdir. Bu sülh danışığı prosesi ona görə də ləngiyibdir.

Düzdür, Minsk qrupunun həmsədrləri may ayında bizim regionda oldular. Onlar Ermənistanda da, Dağlıq Qarabağda da, Azərbaycanda da oldular. Biz Lissabon prinsiplərinə razılığımızı yenə də təsdiq etdik. Amma Ermənistan tərəfindən hələ razılıq əldə olunmayıbdır. Vəziyyət bu yerdədir.

1996-cı ildə Lissabon sammitində Ermənistan bu prinsiplərlə nə üçün razı olmadı? Çünki Ermənistan orada bəyan etdi ki, «Dağlıq Qarabağa dövlət müstəqilliyi vermək lazımdır». Biz bununla heç vaxt razı ola bilmərik. Çünki hər bir ölkənin ərazi bütövlüyünün qorunması beynəlxalq hüquq normalarında öz əksini tapıbdır. Bunlar Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in, başqa beynəlxalq təşkilatların əsas prinsipləridir. Biz Azərbaycanın ərazi bütövlüyünün pozulmasına heç vaxt razı ola bilmərik. Dağlıq Qarabağın Ermənistana bağlanması da mümkün deyildir. Bunlar hamısı perspektivsiz şeylərdir. Mümkün olan odur ki, biz reallığı qəbul etməliyik. Təəssüflər olsun ki, Ermənistan bu torpaqları işğal etdiyinə görə özünü müəyyən qədər qalib hesab edir və qalib hesab etdiyinə görə öz istədiyini diktə etmək istəyir.

Bu məsələ dünyanın böyük dövlətlərinin başçıları ilə dəfələrlə müzakirə olunubdur. Biz bunu həm MDB-də, həm ATƏT-də müzakirə etmişik. Mən demişəm və bir daha deyirəm, - biz məsələnin sülh yolu ilə həll olunmasını istəyirik. Biz Ermənistanla Azərbaycan arasında uzunmüddətli, etibarlı sülh yaranmasını istəyirik. Ancaq biz Azərbaycan torpağını əlimizdən verə bilmərik. Biz Dağlıq Qarabağa müstəqillik verməyə razı ola bilmərik. Beynəlxalq hüquq normaları da, beynəlxalq təşkilatlar da, şübhəsiz ki, bununla heç vaxt razı ola bilməzlər. Bu reallığı anlamaq lazımdır və bu reallıq anlanılarsa, onda məsələ sülh yolu ilə həll oluna bilər. [426-427]

Bu bizim əsas ağır problemimizdir. Münaqişə 10 ildir ki, davam edir. Bu münaqişə keçmiş Sovetlər İttifaqında ilk münaqişədir. Təəssüf ki, onun qarşısı vaxtında alınmadı. İndi Qafqazda Abxaziya-Gürcüstan, Şimali Qafqazda Çeçenistan münaqişələri və başqa münaqişələr vardır. Biz bütün bu münaqişələrin sülh yolu ilə həll olunmasının tərəfdarıyıq. Ancaq o şərtlə ki, bütün ölkələrin ərazi bütövlüyü qorunub saxlanılmalıdır. Separatçılığa yol verilməməlidir. Separatçılığa heç vaxt bəraət qazandırmaq olmaz. Biz bu prinsipləri rəhbər tuturuq.

Dediyim kimi, Azərbaycan demokratik dövlətdir və biz demokratiya yolu ilə gedirik, bundan sonra da bu yolla gedəcəyik. Bu gün mən bəyan edirəm ki, oktyabrın 11-də Azərbaycanda prezident seçkiləri də tam demokratik prinsiplər əsasında həyata keçiriləcəkdir. Mən jurnalistləri və başqalarını Azərbaycana dəvət edirəm ki, gəlib həm seçkinin hazırlıq prosesini, həm də seçkilərin özünü müşahidə edə bilərlər. Biz bundan çox məmnun ola bilərik.

Şübhəsiz ki, demokratiya bizim kimi ölkələr üçün yeni bir şeydir. Bəzən hesab edirlər ki, Azərbaycanda, yaxud keçmiş Sovetlər İttifaqına mənsub olmuş başqa ölkələrdə demokratiya bu gün istənilən səviyyədə olmalıdır. Məsələn, Böyük Britaniyada, Fransada, yaxud Amerikada və Avropa ölkələrindəki kimi olmalıdır. Amma yəqin hamı anlamalıdır ki, bu ölkələr demokratiya yolu ilə on il yox, yüz illərlə gəlibdir. Burada demokratiyanın hələ bu gün də çatışmazlığı vardır. Bizim ölkədə də, başqa ölkələrdə də, inkişaf etmiş ölkələrdə də vardır. Amma əsas o deyil ki, bu gün Azərbaycanda, yaxud başqa ölkələrdə demokratiya hansı səviyyədədir. Biz müstəqil dövlətik və demokratiya yolu ilə gedən gənc dövlətik. Əsas odur ki, biz bu yolu tutmuşuq, bu yolla gedirik və bu yolla axıradək gedəcəyik. [427-428]

Bizim əsas prinsiplərimizdən biri Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılmasıdır. Bu da asan məsələ deyildir. Çünki keçmiş Sovetlər İttifaqına mənsub olan ölkələr uzun illər əvvəlcə çar Rusiyasının, sonra isə Sovetlər İttifaqının hakimiyyəti altında olmuşdur. İndi Rusiyada demokratik proseslər gedir. Biz Rusiyada demokratik proseslərin daha da dərinləşməsini və inkişaf etməsini istəyirik. Çünki Rusiya bizim şimal qonşumuzdur. Rusiya ilə bizim iki yüz illik əlaqələrimiz var. Rusiya nə qədər demokratik olsa, o qədər də təhlükəsiz olacaq, bizim üçün o qədər də yararlı tərəfdaş olacaqdır. Ancaq Rusiyada imperiya əhval-ruhiyyəsi inkişaf etsə, o, keçmişdə çar imperiyasına mənsub olan ölkələri yenə də ələ keçirmək istəsə, yaxud Rusiya MDB-də özünün hakimliyini təsdiq etmək istəsə, şübhəsiz ki, bu, münaqişə doğuracaq, hər bir ölkənin müstəqilliyinə zərər gətirəcəkdir.

Ona görə də müstəqilliyimizi qorumaq üçün istəyirik ki, qonşu dövlətlər də demokratik yolla getsinlər və biz də bu yolla gedirik. Mən bəyan edirəm ki, Azərbaycanın müstəqilliyi dönməzdir, əbədidir. Biz bundan sonra heç vaxt müstəqilliyimizi əldən verməyəcəyik.

Müstəqilliyimizi təsdiq edən amillərdən biri də odur ki, Azərbaycanda xarici ölkələrin ordusu, hərbi dəstələri yoxdur. Bilirsiniz ki, Qafqazda üç müstəqil dövlət var – Gürcüstan, Ermənistan, Azərbaycan. Ermənistanın ərazisində Rusiyanın böyük hərbi hissələri – 30 minə qədər qoşunu var. Rusiya Ermənistanda olan hərbi hissələrini özünün hərbi bazası elan edibdir. Bir neçə gün bundan öncə Rusiyanın müdafiə naziri marşal Sergeyev Ermənistana gəlib və hərbi əməkdaşlığı gücləndirmək üçün yeni tədbirlər görüb, yenidən silah-sursat veribdir. Hətta S-300 raketləri də vermək istəyir.

Biz buna etiraz edirik. Azərbaycan hökuməti dəfələrlə Rusiyaya öz etirazını bildiribdir. Biz anlaya bilmirik, nə üçün Rusiya Ermənistanda öz hərbi bazalarını saxlamalıdır? Nə [428-429] üçün Gürcüstanda Rusiyanın hərbi hissələri olmalıdır? Biz buna etiraz edirik. Rusiyanın böyük ərazisi var və hərbi hissələrini öz ərazisində saxlamalıdır. Bunlar hamısı ona görə təhlükəlidir ki, Rusiya hərbi hissələrinin orada olması Azərbaycanla münaqişədə olan Ermənistana gizli yolla silahlar verilməsinə gətirib çıxarır.

Keçən ilin mart ayında Rusiya Müdafiə Nazirliyinin məsul şəxsləri bəyan etdilər və sonra da Rusiyanın Dövlət Dumasında müzakirə olundu ki, ötən üç il ərzində Rusiyanın Müdafiə Nazirliyi Ermənistana gizli, qanunsuz yolla 1 milyard dollar dəyərində silah-sursat vermişdir. Biz buna etiraz etdik, mən Rusiyanın prezidenti Boris Yeltsinə müraciət etdim, məktublar yazdım. Biz məsələni çox kəskin qoyduq – bir halda ki, Ermənistanla Azərbaycan hərbi münaqişədədir, tərəflərdən hansınısa silahlandırmaq olmaz. İkincisi, dörd ildir ki, biz atəşkəs rejimində yaşayırıq, Rusiya nə üçün Ermənistana bu qədər silah-sursat verir? Biz bu məsələni hələ axıra çatdıra bilməmişik. Rusiya hökuməti söz verib ki, məsələləri araşdıracaqdır. Biz müştərək komissiya yaratmışıq, ancaq bu məsələni ləngidirlər.

Üstəlik, Rusiya indi Ermənistanda öz hərbi bazalarını gücləndirir. Bu, ümumiyyətlə regionda təhlükəsizliyi təmin etmir. Baxmayaraq, Rusiyanın müdafiə naziri deyir ki, «biz burada ona görə qoşun saxlayırıq ki, öz ölkəmizin təhlükəsizliyini təmin etmək istəyirik». Mən bunu anlaya bilmirəm, - bu, məntiqə uyğun deyildir.

Biz istəyirik ki, regionda sülhü təmin edək, Ermənistanla Azərbaycan arasında sülh yaransın, Rusiya ilə Azərbaycan arasında dostluq, mehribanlıq əlaqələri olsun, başqa qonşu ölkələrlə – İranla, Gürcüstanla yaxşı əlaqələr olsun. Gürcüstan ilə Azərbaycan arasında çox yaxşı dostluq əlaqələri var. Bütün başqa qonşu ölkələrlə də dostluq, mehribanlıq şəraitində yaşamaq istəyirik. [429-430]

Azərbaycanın coğrafi-siyasi vəziyyəti sizə məlumdur. İndi o, dünyanın çox böyük maraq mərkəzinə çevrilibdir. Birincisi, ona görə ki, 1994-cü ildə ölkəmiz Xəzər dənizinin Azərbaycan sektorunda olan neft yataqlarından istifadə edilməsi üçün ilk müqaviləni – «Əsrin müqaviləsi»ni imzalamaqla Xəzərdəki neft ehtiyatlarını Dünya Birliyinə açdı. Ötən dörd il müddətində Xəzəryanı dövlətlər öz sektorlarında çox işlər görüblər.

Mən sizə dedim ki, biz burada 15-ci müqaviləni imzaladıq. Qazaxıstan sektorunda da zəngin neft yataqları var, Qazaxıstan bundan istifadə etmək istəyir. Türkmənistan sektorunda, Rusiya sektorunda da zəngin yataqlar var. Xəzərin statusu məsələsi meydana çıxıbdır. Bilirsiniz ki, biz əzəldən Xəzərin sektorlara bölünməsi prinsipini əsas götürmüşük. Mən məmnunam ki, bir-iki həftə bundan öncə Rusiya və Qazaxıstan prezidentləri Rusiya ilə Qazaxıstan arasında Xəzərin orta xətt üzrə sektorlara bölünməsi haqqında saziş imzalamışlar.

Azərbaycanın coğrafi-siyasi vəziyyəti eyni zamanda Qədim İpək yolunun bərpa edilməsi sahəsində də çox əlverişli imkanlar yaradır. Bilirsiniz ki, iki ildir biz dörd ölkə – Gürcüstan, Azərbaycan, Tükmənistan və Özbəkistan Transxəzər magistralı yaratmışıq ki, Mərkəzi Asiyadan Avropaya və Avropadan Mərkəzi Asiyaya yüklər məhz bu yolla getsin. Bu nəqliyyat dəhlizi artıq işləyir. Ancaq son vaxtlar Avropa Birliyi, xüsusən onun iqtisadi komissiyası TRASEKA proqramı əsasında qədim «İpək Yolu»nun bərpa edilməsi məsələsi ilə məşğul olur. Biz də bu məsələyə qoşulmuşuq və Qədim İpək Yolu üzərində yerləşən ölkələrin, demək olar ki, hamısı – Yaponiyadan başlayaraq Mərkəzi Asiya, Qafqaz, Avropa ölkələri – qoşulubdur.

Avropa Birliyinin himayəsi altında sentyabr ayının 7-8-də Azərbaycanda İpək Yolu üzərində yerləşən 34 ölkənin zirvə görüşü keçiriləcəkdir. İpək Yolunun xəritəsi də sizə məlumdur. Yaponiyadan başlayıb Xəzər dənizində Türkmənistanın Türmənbaşı limanına, - oradan Azərbaycanın Bakı limanına [430-431] qədər gəmi-bərə keçidi var, - gələn qatarlar bərə vasitəsilə Azərbaycana keçir. Sonra biz bunları dəmir yolu ilə Gürcüstanın Qara dəniz sahilinə keçiririk. Oradan isə «İpək Yolu» sizin ölkəyə qədər gəlib çatır. Qara dənizdəki limandan bir neçə istiqamətə getmək mümkündür: Dunay çayı vasitəsilə Rumıniyadan gedə bilər, Bolqarıstan, Ukrayna vasitəsilə də gedə bilər. Bu xəttin üstündə yerləşən ölkələr belə bir zirvə görüşünün, konfransın keçirilməsinə razılıq veriblər və sentyabr ayının 7-8-də biz onu keçirəcəyik.

Son iki ilin təcrübəsi göstərir ki, bu, iqtisadi cəhətdən çox səmərəlidir. Məsələn, əgər 1996-cı ildə, biz – dörd ölkə müqaviləni imzalayandan sonra Asiyadan Avropaya və Avropadan Asiyaya gedən yüklərin miqdarı 1 milyon ton idisə, keçən il 4 milyon ton olubdur. Bu il isə ondan bir neçə dəfə artıq olacaqdır. Hesab edirəm ki, bu, həm bu ölkələrin əməkdaşlığını təmin edəcək, həm də Qafqaz regionunda sülhün, əmin-amanlığın təmin olunmasına kömək göstərəcəkdir.

Qeyd etdim, ümumiyyətlə Xəzər dənizi böyük maraq dairəsinə çevrilibdir. Cürbəcür fikirlər deyilir, məqalələr yazılır. Hərə öz fikrini bildirir. Ancaq mən bəyan edirəm ki, Xəzər dənizində zəngin neft yataqları var. Azərbaycan sektorunda bu yataqlar çox zəngindir. Amma təkcə Azərbaycan sektorunda yox, Xəzəryanı başqa ölkələrin sektorlarında da var.

Biz 15 böyük yatağın istifadə olunması üçün müqavilələr imzalamışıq. Ancaq hələ bir çox yataqlar var ki, biz onların üzərində də işləyirik və müştərək işlər görəcəyik. Bilirsiniz ki, biz ilkin nefti almışıq və keçən ilin noyabrından Bakı-Novorossiysk boru kəməri ilə Qara dənizə çıxarıb dünya bazarına ixrac edirik.

Xəzər dənizindən hasil olunan neftin, ümumiyyətlə, Xəzərin şərq tərəfindən olan Qazaxıstan və Türkmənistandan ixrac ediləcək neftin Avropa istiqamətinə çıxarılması da aktual məsələlərdən biridir. Biz

Azərbaycan neftinin ixrac olunması [430-431] üçün bir neçə boru kəməri çəkilməsini nəzərdə tutmuşuq. Dediyim kimi, biri Bakı-Novorossiys kəməridir, onunla ildə 5 milyon ton neft nəql etmək olar. İkinci neft kəmərini Bakıdan Gürcüstanın Qara dənizdəki Supsa limanına çəkirik və o, gələn ilin birinci yarısında hazır olacaqdır. Bu kəmər ildə 5-7 milyon ton neft ixrac etməyə imkan verəcəkdir.

Ancaq böyük neft kəmərinin tikilməsi də çox vacibdir və bu barədə danışıqlar gedir. Xəzər dənizinin neft ehtiyatlarının, habelə təkcə Xəzərdə deyil, Qazaxıstanda, Türkmənistanda neft yataqlarının zəngin olması onu göstərir ki, bir neçə kəmər tikilməlidir. Deməк, buradan Novorossiyskə gedən xətt var, Supsaya gedən xətt barədə dedim. Nəhayət, biz hesab edirik ki, böyük neft kəməri buradan Türkiyə ərazisi ilə Ceyhan limanına getməlidir (xəritədə göstərir). Bu məsələ indi müzakirə olunur. Biz Azərbaycanın böyük neftinin məhz bu yolla ixrac olunmasının tərəfdarıyıq.

Amma bu da son hədd deyildir. Çünki bir çox başqa boru xətləri də tikilə bilər. Məsələn, Qazaxıstanla Azərbaycan arasında saziş imzalanıb ki, Qazaxıstanın Aktau limanından Xəzər dənizinin dibi ilə neft kəməri tikilsin. Yaxud, Türkmənistanda böyük qaz yataqları var. Türkmənistan öz qazını dünya bazarlarına ixrac etmək istəyir. Bir çox Qərb ölkələri, o cümlədən Türkiyə də Türkmənistanla danışıqlar apararaq, Xəzər dənizinin dibi ilə boru xətti çəkilib Türkmənistan qazının Gürcüstan ərazisinə və oradan Türkiyəyə keçirilməsi layihəsini irəli sürüblər. Biz bunu da, başqalarını da dəstəkləyirik.

«Şevron» şirkətinin Qazaxıstanda hasil etdiyi nefti biz boru ilə deyil, tankerlərlə Bakıya daşıyırıq, - keçən il 1 milyon tondan artıq daşınıb, bu il 2 milyon tondan çox daşınacaqdır, - buradan isə həmin neft dəmir yolu vasitəsilə Batumi limanına aparılır.

Beləliklə, bizim regionumuz, Xəzər dənizi iqtisadi cəhətdən çox böyük aktuallıq kəsb edib, böyük maraq dairəsinə çevri[432-433]libdir. Ona görə də bizim regionumuzda – Qafqazda, ümumiyyətlə, dünyanın hər yerində sülh olmalıdır. Biz sülhün tərəfdarıyıq, həm öz ölkəmiz, həm də qonşularımız üçün sülh əldə etmək istəyirik.

Mən yenə danışa bilərdim, amma görürəm ki, vaxt çatıb və sizin suallarınıza cavab verməyə hazıram. Sağ olun.

**S u a l**: **Qazaxıstan və Türkmənistandan Xəzər vasitəsilə sualtı boru kəmərləri haqqında sual vermək istəyirəm. Azərbaycan və Türkmənistan arasında sərhəd suları müəyyən olunana qədər bu, mümkündürmü? Ümumiyyətlə, belə bir problem özünü nə dərəcədə göstərir?**

**C a v a b**: Türkmənistanla Azərbaycan arasında bir az mübahisəni də biz yaratmamışıq. Biz 1994-cü ilin sentyabr ayından, ilk müqavilə imzalanandan sonra Xəzər dənizində işləməyə başlamışıq. Türkmənistan isə 1996-cı ilin axırında bizim sektorda olan yataqlara müəyyən bir iddia ilə çıxış edibdir. Birincisi, bu, əslində, əsassızdır. İkincisi də, biz Türkmənistana bildirmişik ki, əgər onlarda belə bir iddia vardısa, 1994-cü ildə biz müqavilə imzalayan kimi bunu deməli idilər.

Ancaq buna baxmayaraq, hesab edirəm ki, Türkmənistanla Azərbaycan arasında mübahisə həll olunacaqdır. Mən istəməzdim ki, kimsə bundan sui-istifadə etsin.

Qazaxıstandan və Türkmənistandan Bakıya neft və qaz boru xətlərinin çəkilməsi bizim arzumuz deyil, bu ölkələrin özlərinin fikridir. Biz buna, sadəcə, razılıq vermişik. Çünki bizim öz sektorumuzda yetərincə, hələ XXI əsrin axırına qədər neft çıxarmaq imkanlarımız var. Mən sizə bildirdim ki, artıq biz iki boru kəmərini yaratdıq, üçüncüsünü də Bakı-Ceyhan xətti üzrə yaratmaq istəyirik. Əgər Qazaxıstan və Türkmənistan özlərinin neftini, qazını qərb istiqamətində ixrac etmək istəyirlərsə, bunun Azərbaycandan, Qafqazdan keçməsi ən əlverişli və iqtisadi cəhətdən ən ucuz yoldur. Bu, bizim təşəbbüsümüz deyildir. Təşəkkür edirəm. [433-434]

**S u a l**: **Hörmətli cənab prezident, siz son dövrdə Azərbaycanda hakimiyyətdə olduğunuz müddətdə insan hüquqlarının qorunması sahəsində bir sıra mühüm addımlar atmısınız. Azərbaycanda ölüm hökmünün ləğv edilməsi barədə qərar vermisiniz, eyni zamanda, bu ilin fevralında insan hüquqlarının qorunması haqqında xüsusi sərəncamınız olmuşdur. Siz həmin sərəncamda insan hüquqları ilə məşğul olan təşkilatlarla Azərbaycanın sıx əməkdaşlığının vacibliyini vurğulamısınız. Çox məmnunuq ki, həmin sərəncamda təşkilatımızın adı çəkilmiş və onunla əməkdaşlığın vacibliyi göstərilmişdir.**

**Təəssüf ki, biz Azərbaycanda insan haqları sahəsində hələ də bir sıra çatışmazlıqların olduğunu görürük. Bu barədə Azərbaycanın hakimiyyət dairələrinə dəfələrlə yazılı surətdə məlumat vermişik. Bilmək istərdik ki, siz hakimiyyət dairələrinə lazımi tapşırıqlar verəcəksinizmi ki, bu məsələləri müzakirə etmək üçün bizimlə konstruktiv danışığa başlasınlar və əməkdaşlıq üçün fikir mübadiləsi aparılsın?**

**C a v a b**: Sağ olun, təşəkkür edirəm. Sual çox uzundur, mən isə gərək iki dəfə uzun cavab verəm. Birincisi, həqiqətən mənim təşəbbüsümlə Azərbaycanda ölüm hökmü ləğv olunubdur. Azərbaycan Şərq aləmində, müsəlman dünyasında ilk ölkədir ki, ölüm hökmünü ləğv edib. Bilirsiniz ki, MDB ölkələrinin bir çoxunda da ölüm hökmü hələ ləğv olunmayıbdır.

Mən son iki-üç il içərisində bir neçə amnistiya aktları verilməsinin təşəbbüskarı olmuşam və prezident kimi yüzlərlə, minlərlə adamı bağışlamışam, cəza yerlərindən azad etmişəm. Sizə təşəkkür edirəm ki, bizim bu işlərimizi izləyir, qiymətləndirirsiniz və burada bu məsələni qaldırdınız.

BMT-nin insan haqları barədə qəbul etdiyi qərarın bu il 50 illiyi tamam olur. Bu münasibətlə biz Azərbaycanda çoxsaylı tədbirlər keçiririk və 50 illiyi Azərbaycanda insan haqlarının daha da qorunması isti-

qamətində qeyd etmək istəyirik. Şübhəsiz ki, çatışmazlıqlar da var, mən bunu heç vaxt inkar [434-435] etməmişəm. Xahiş edirəm, ona da diqqət yetirəsiniz ki, biz gənc ölkəyik, atdığımız bu addımlar çox cəsarətli addımlardır, on illərlə, yüz illərlə yaranmış ənənələrə, psixologiyaya tamamilə zidd addımlardır. Şübhəsiz ki, bunların həyata keçirilməsində qüsurlar, nöqsanlar da var. Ancaq əsas odur ki, bizim bu barədə siyasətimiz düzgün qurulubdur. Siz mənim sərəncamımı xatırlatdınız. Mən çox məmnunam ki, siz onunla tanışsınız. O, sadəcə sərəncam deyil, bu məsələlərdə Azərbaycanın irəli getməsi üçün böyük bir proqramdır. Şübhəsiz ki, mən onun həyata keçirilməsinə çalışacağam və bundan sonra sizinlə də daha sıx əməkdaşlıq edəcəyik. Sağ olun.

**S u a l**: **Cənab prezident**, **mənim sualım neftin qiyməti ilə əlaqədarlır**. **Bildiyiniz kimi**, **son dövrdə dünya bazarında neftin qiyməti aşağı düşüb və neft çıxaran ölkələrin bir çoxu hasilatı azaldıbdır**. **Bilmək istərdik ki**, **dünya bazarında neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar olaraq Azərbaycanın bu sahədəki siyasəti necədir**?

**C a v a b**: Şübhəsiz ki, by, neft hasil edən bütün ölkələrə, o cümlədən bizə də zərər gətiribdir, bu ilin büdcəsinin yerinə yetirilməsində bizə çox problemlər yaradıbdır. Biz bu il üçün çox normal büdcə təsdiq etmişdik, büdcə kəsiri cəmi 2-3 faiz idi. Amma neftin qiymətinin birdən-birə 100 faiz aşağı düşməsi, əlbəttə ki, bizi çox incidibdir. Ancaq biz neft hasil edirik, edəcəyik, satırıq və satacağıq. Hansı qiymətə sata bilsək,o qiymətə də satacağıq. Bu vəziyyəti dəyişdirməyə imkanımız yoxdur. Sadəcə, arzu edərdik ki, neftin qiyməti yenidən qalxsın və güman edirəm ki, qalxacaqdır. Sağ olun.

Mən sizə bir daha öz hörmət-ehtiramımı bildirirəm. Sizinlə görüşümü Böyük Britaniyaya səfərimin ən mühüm bir hissəsi hesab edirəm. Sizə cansağlığı, ölkənizə sülh, əmin-amanlıq arzulayıram. Bütün işlərinizdə uğurlar arzu edirəm. Sağ olun. [435-436]

*Görüşdən sonra jurnalistlərin bir neçə sualına cavab:*

**S u a l**: **Siz Rusiyanı Ermənistana hərbi yardım etməkdə təqsirləndirirsiniz**. **Bəs Rusiya ilə bağlı yaxşı nə isə varmı**?

**C a v a b**: Əlbəttə ki, var. Dünən Baş nazirin iqamətgahında müqaviləni imzalayan tərəflərdən biri Yuri Şafrannikin rəhbərlik etdiyi Rusiya şirkəti idi. Mən Şafranniki buraya dəvət etdim, Baş nazirin iqamətgahına gətirdim və o, Böyük Britaniya, Amerika Birləşmiş Ştatları şirkətlərinin rəhbərləri ilə birlikdə müqaviləni imzaladı. Mən dedim ki, cənab Toni Bleyr, mən burada internasional təşkil etmişəm.

**S u a l**: **Lütfən**, **GUAM təşkilatının perspektivləri barədə bir-iki kəlmə deyin**. **Nədənsə**, **o yaranandan sonra onun haqqında çox az söhbət getmişdir**.

**C a v a b**: Kimlərsə onun inkişafına mane olurlar. Hesab edirəm ki, bu təşkilat özünə yol açacaqdır.

**S u a l**: **Hansı istiqamətdə yol açmalıdır**, **siz onun gələcəyini necə görürsünüz**?

**Cavab**: Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova arasında əməkdaşlıq istiqamətində.

**S u a l**: **Zəhmət olmasa**, **Supsa-Odessa**, **Odessa-Brodı və digər marşrutların perspektivi və bunlardan istifadə edilməsi barədə danışın**.

**C a v a b**: Bunlar realdır. Çünki indi Ukrayna Supsadan Odessaya İliçovsk limanına bərə keçidi yaradır. Bərə ilə hələlik yük avtomobilləri daşınacaq, ancaq tezliklə elə edəcəklər ki, dəmir yolu vaqonları da daşımaq mümkün olacaqdır. Bu, real olacaqdır.

**S u a l**: **Tezmi olacaqdır**?

**C a v a b**: Bu, Ukraynadan asılı olacaqdır, onlar buna çox maraq göstərirlər və mən də bunu dəstəkləyirəm. [436]

# «BRİTİŞ PETROLEUM» ŞİRKƏTİNİN TƏŞKİL ETDİYİ AZƏRBAYCAN İNCƏSƏNƏT USTALARININ İŞTİRAKI İLƏ KONSERTDƏ* ÇIXIŞ

*London,*
*«Viktoriya və Albert» muzeyi*

*22 iyul 1998-ci il*

Hörmətli cənab prezident!
Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı səmimi qəlbdən salamlayıram. Londonun bu böyük tarixi, memarlıq, mədəniyyət abidəsi olan sarayda sizinlə bugünkü görüşümü çox yüksək qiymətləndirirəm.

Mənim Böyük Britaniyaya rəsmi səfərimin üçüncü günü başa çatır. Biz səfər günlərində həqiqətən çox gərgin cədvəllə işləyirik. Mən rəsmi səfərimdən çox razıyam. Hesab edirəm ki, biz ötən bu üç gün ərzində Birləşmiş Krallıqla Azərbaycan arasında əlaqələri inkişaf etdirmək üçün ciddi addımlar atmışıq. Bu günlərdə Londonda keçirdiyim görüşlərin, apardığım danışıqların hamısı siyasi və iqtisadi xarakter daşıyır. Nəhayət, bu gün biz mədəniyyətlə, incəsənətlə görüşürük.

Birləşmiş Krallıqda Azərbaycana çox böyük maraq vardır. Böyük Britaniyanın hökuməti və iş adamları Azərbaycan iqti[437-438]sadiyyatının bütün sahələrinə çox böyük diqqət göstərirlər. Şübhəsiz ki, neft hasilatı ilə bağlı olan məsələlər bizim danışıqlarımızın həmişə diqqət mərkəzində durubdur.

Azərbaycan qədim neft ölkəsidir. Bunun çoxəsrlik tarixi və gözəl ənənələri vardır. Böyük Britaniya neft hasilatı ilə məşğul olan gənc bir ölkədir, ancaq bu sahədə böyük nailiyyətlər əldə edibdir. Xüsusən, Böyük Britaniyanın güclü şirkəti olan «Britiş Petroleum» bu sahədə böyük uğurlar qazanıbdır.

«Britiş Petroleum» ilə Norveçin «Statoyl» şirkəti elə qardaş olublar ki, onları bir-birindən ayrı görmək mümkün deyildir. Ona görə də «Britiş Petroleum» deyəndə «Statoyl», «Statoyl» deyəndə «Britiş Petroleum» başa düşmək lazımdır. Ancaq bu gün məni sevindirən cəhət ondan ibarətdir ki, heç demə, onlar təkcə iqtisadiyyatla, sənaye ilə maraqlanmırlar, həm də Azərbaycanın mədəniyyətinə, incəsənətinə, musiqisinə maraq, məhəbbət göstərirlər. Məhz bunun nəticəsidir ki, bu gün biz buraya siyasi, iqtisadi məsələləri müzakirə etməyə yox, yalnız incəsənəti hiss etmək, musiqini, mahnıları dinləmək üçün toplaşmışıq. Bunun təşkilatçıları da «Britiş Petroleum» və «Statoyl»dur.

Hörmətli dostlar, bu imkandan istifadə edib, Azərbaycanda mədəniyyətə, incəsənətə, musiqiyə göstərdiyiniz qayğıya və bəzi hallarda sponsorluq vəzifəsini üzərinizə götürdüyünüzə görə sizə təşəkkür edirəm.

Bu salona toplaşanların bəlkə də əksəriyyəti üçün sadəcə musiqi, mahnı, incəsənət maraqlıdır. Mənim üçün isə bu, əlamətdar bir hadisədir və mən bununla fəxr edirəm.

Mən fəxr edirəm ki, Azərbaycan incəsənəti, musiqisi, mahnıları dünyanın ən böyük şəhərlərindən biri olan Londonda, bu möhtəşəm sarayda səslənəcəkdir. Mən fəxr edirəm ki, Azərbaycan xalqının öz tarixi ənənələrinə söykənən, eyni zamanda müasir, professional səviyyədə olan mədəniyyəti, incəsənəti, musiqisi vardır. Mən fəxr edirəm ki, Azərbaycanın bu [438-439] mənəvi dəyərlərini təkcə biz yox, bizim dostlarımız, o cümlədən Böyük Britaniyada olan dostlarımız da qiymətləndirirlər və buna böyük maraq göstərirlər.

Bu salona Londonun bu qədər sakinlərinin, dinləyicilərin toplaşması buna gözəl bir sübutdur. Doğrudur, mənim bundan sonra da görüşlərim olacaqdır, amma günün axırında belə bir görüşdən çox məmnunam.

Mən əminəm ki, Azərbaycanın incəsənət xadimləri, musiqiçiləri, müğənniləri bu gün Azərbaycan mədəniyyətini burada yüksək səviyyədə təmsil edəcəklər.

Mən sizi bir daha salamlayıram və sizinlə görüşümdən çox şad olduğumu bildirmək istəyirəm. Sağ olun. [439]

* Konsertdə Böyük Britaniya hökumətinin nümayəndələri, siyasi xadimlər, iş adamları, diplomatlar, jurnalistlər iştirak edirdilər.

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ XARİCİ İŞLƏR VƏ BİRLİK İŞLƏRİ ÜZRƏ DÖVLƏT KATİBİ ROBİN KUK İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*London*

*22 iyul 1998-ci il*

**R o b i n  K u k**: Hörmətli cənab prezident Əliyev! Sizi səmimi-qəlbdən salamlayıram və dünya miqyaslı görkəmli siyasi xadim və dövlət xadimi Heydər Əliyev ilə görüşdən çox məmnun olduğumu bildirirəm. Bizə məlumdur ki, Azərbaycan dövləti başçısının Birləşmiş Krallığa rəsmi səfəri son dərəcə uğurla keçir və bütün ölkə miqyasında böyük diqqət mərkəzindədir. Onu da qeyd etmək istəyirəm ki, Böyük Britaniya Qafqaz və Mərkəzi Asiya ölkələrinə xüsusi maraq göstərir və dünyanın bu regionunda Azərbaycanın açar rolunu oynadığını yaxşı bilir. Birləşmiş Krallığın Azərbaycan ilə əlaqələrinin gündən-günə genişlənməsindən, ölkələrimiz arasındakı əməkdaşlığın strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsindən razı qaldığımızı nəzərinizə çarpdırıram.

Biz Azərbaycanın Avropa strukturları ilə əlaqələrinin daim artmasından şadıq və bildirirəm ki, Böyük Britaniya Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv kimi qəbul olunması üçün lazımi səylər göstərəcək və ölkəniz bu məsələdə də Birləşmiş Krallıq tərəfindən dəstəklənəcəkdir.

Müstəqillik yolunu tutmuş Azərbaycanda demokratik islahatların həyata keçirilməsində əldə edilmiş nailiyyətlərdən [440-441] xəbərdarıq, respublikanızda gedən demokratikləşdirmə proseslərini Böyük Britaniya diqqətlə müşahidə edir. Bu ilin payızında Azərbaycanda keçiriləcək prezident seçkilərinin demokratiyanın inkişafı yolunda mühüm addım olacağına əminəm və cənab Heydər Əliyev, Sizin yenidən prezident seçiləcəyinizə əmin olduğumu bildirirəm, Sizə uğurlar arzulayıram.

NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuş respublikanızın bu proqram çərçivəsində əməkdaşlığının genişlənməsinin vacibliyini qeyd etmək istəyirəm. Bu sahədə də Böyük Britaniya Azərbaycana hər cür yardım göstərəcəkdir, beynəlxalq təşkilatlarda və Avropa strukturlarında Azərbaycan ilə Böyük Britaniyanın yekdil mövqedən çıxış etməsi lüzumunu nəzərə çarpdırdı. Ölkələrimiz arasındakı çoxtərəfli əməkdaşlığın əhəmiyyətini xüsusi qeyd edən dövlət katibi siyasi, iqtisadi, mədəni sahələrdə əlaqələrin əhatə dairəsini genişləndirmək məqsədi ilə Birləşmiş Krallığın Azərbaycandakı səfirliyinin fəaliyyətinin artırılması üçün lazımi şərait yaradılmasını Azərbaycan prezidentindən xahiş etdi.

**H e y d ə r  Ə l i y e v**: Əvvəlcə onu deməliyəm ki, Böyük Britaniyaya rəsmi səfərimin gedişindən çox raziyam. Səfərim uğurla keçir, əlahəzrət kraliça II Yelizaveta və Baş nazir Toni Bleyr ilə görüşlərimdən, apardığım danışıqlardan, imzalanmış sənədlərdən, Birləşmiş Krallıqda Azərbaycana göstərilən çox böyük marağın şahidi olduğumdan məmnun qaldığımı vurğulayır və dəvətə görə minnətdarlığımı bildirirəm. Qeyd etmək istəyirəm ki, Azərbaycan respublikası prezidentinin və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Baş nazirinin dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannaməsi ölkələrimiz arasında əlaqələrin gələcək inkişafında mühüm rol oynayacaqdır.

Əmin olduğumu bildirirəm ki, bu səfərim ölkələrimiz arasındakı münasibətlərdə yeni mərhələ açacaqdır. Mən Böyük [441-442] Britaniya - Azərbaycan əlaqələrinin getdikcə möhkəmləndiyini və strateji tərəfdaşlıq xarakteri kəsb etdiyini çox yüksək qiymətləndirirəm.

Müstəqillik yolunu seçmiş Azərbaycan Respublikasının qarşılaşdığı bir sıra çətinliklərdən söz açarkər, ilk növbədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi problemini qeyd etmək istəyirəm. Ermənistanın Azərbaycana qarşı 1988-ci ildən başlanmış hərbi təcavüzü nəticəsində respublikamızın ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, bir milyondan çox azərbaycanlı yerindən-yurdundan zorla çıxarılaraq qaçqın və köçkün vəziyyətinə düşmüşdür və hazırda onların əksəriyyəti çadırlarda ağır şəraitdə yaşayır.

Münaqişənin tezliklə aradan qaldırılması üçün Minsk qrupu çərçivəsində aparılan danışıqların, ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1996-cı ilin dekabrında Lissabon zirvə görüşündə Ermənistan- Azərbaycan münaqişəsinin həlli barədə qəbul olunmuş prinsiplərin əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Bu münaqişənin sülh yolu ilə aradan qaldırılmasına dair prinsiplərin qəbul olunmasında Böyük Britaniya hökumətinin də səs verməsini razılıq hissi ilə xatırlatmaq istəyirəm.

Ermənistan-Azərbaycan münaqişəsinin tezliklə nizama salınması üçün ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ-ın, Fransanın, Rusiyanın son təklifləri maraqlıdır və Azərbaycan həmin təkliflərlə pazılaşmışdır, Ermənistan isə bunlara hələ də münasibət göstərmir, ümumiyyətlə, münaqişənin tezliklə aradan qaldırılması üçün beynəlxalq təşkilatların qəbul etdiyi qərarlara, qətnamələrə, beynəlxalq hüquq normalarına Ermənistan heç bir məhəl qoymur. Mən bir daha bəyan edirəm ki, Azərbaycan münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün öz səylərini davam etdirəcək və ərazimizin ən kiçik hissəsini belə heç bir ölkəyə verməyəcəkdir. [442-443]

Ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar sahəsində ciddi addımlar atılmışdır və qeyd edim ki, bu islahatlar, xüsusilə özəlləşdirmə, torpaq islahatı, xarici ticarətin sərbəstləşdirilməsi uğurla həyata keçirilir. İslahatlar öz müsbət nəticələrini verir, iqtisadiyyatda vəziyyət sabitləşir, ümumi daxili məhsul istehsalında müəyyən artım var. İnflyasiya son dərəcə azalıb, milli valyutamızın məzənnəsi möhkəmlənir.

Azərbaycan bazar iqtisadiyyatı yolunu seçmişdir və Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının rəyinə görə iqtisadi islahatların aparılmasında keçmiş sovet respublikaları arasında birinci yeri tutur. Bu işdə Xəzərin Azərbaycan sektorundakı zəngin neft yataqlarının xarici neft şirkətləri ilə birlikdə işlənilməsi sahəsində bağlanmış neft müqavilələrinin əhəmiyyətini qeyd etmək istərdim. Hasil olunacaq neftin ixracı məsələləri üzərində dayanaraq demək istəyirəm ki, həmin neftin dünya bazarına çıxarılması üçün bir neçə neft kəmərinin olması zəruridir. Hazırda neft boru kəmərlərinin istiqamətləri, tikintisi və istifadə imkanları ətrafında işlər davam etdirilir. İlkin neftin ixracı üçün Bakıdan Rusiya ərazisi ilə Qara dənizdəki Novorossiysk limanınadək çəkilmiş kəmərdən artıq istifadə olunur, hazırda Gürcüstan ərazisindən Qara dənizə, Supsa limanına yeni bir boru kəməri tikilir.

Mən əsas neft boru kəmərinin Bakıdan, Azərbaycandan Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Aralıq dənizinə nəql olunmasını zəruri hesab edirəm və Qazaxıstanın Aktau limanından Bakıya daşınan neftin də Bakı-Ceyhan xətti ilə dünya bazarına çıxarılacağını nəzərə çarpdırıram.

Bizim bölgəmizdə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi yaradılmışdır. Bu dəhlizin mühüm perspektivləri vardır. Dəhlizin səmərəli işləməsinə Azərbaycan böyük əhəmiyyət verir. Nəzərinizə çatdırım ki, Qədim İpək Yolunun bərpası üçün Avropa Birliyinin TRASEKA proqramı çərçivəsində bu il sentyabrın 7-8-də Bakıda beynəlxalq konfrans keçiriləcəkdir. [443-444] Ümidvaram ki, Böyük Britaniya həmin konfransda yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunacaqdır.

Azərbaycan Avropa strukturlarında, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramında yaxından iştirak edir və Böyük Britaniya ilə əməkdaşlığı genişləndirməyə hazırdır. Bizim ölkəmiz Avropa Şurasının tam hüquqlu üzvü olmasına böyük əhəmiyyət verir və bu işdə Birləşmiş Krallığın Azərbaycanı dəstəkləyəcəyinə ümid bəsləyir.

Sizə məlumat verərək bildirirəm ki, cəmiyyətin humanistləşməsində mühüm addımlar atılmışdır. Respublikamızda demokratik prinsiplər bərqərar olunmuş, siyasi plüralizm təmin edilmiş, insan hüquqları və azadlıqları qorunmuş, ölüm cəzası ləğv edilmişdir. Bir sözlə, biz demokratik, hüquqi dünyəvi dövlət qururuq. Ölkənin ilk demokratik konstitusiyası qəbul edilmiş, çoxpartiyalılıq əsasında keçirilən seçkilər nəticəsində demokratik parlament seçilmişdir.

Qeyd edim ki, hazırda respublikamızda qarşıda prezident seçkilərinə hazırlıq işləri aparılır. Seçkilərin azad, tam demokratik əsasda keçirilməsi üçün tədbirlər görülür. Seçkilərin beynəlxalq hüquq normaları əsasında, dünya standartlarına uyğun surətdə, bütün xalqın fəal iştirakı ilə keçirilməsi, beləliklə də geniş kütlələrin demokratik proseslərə cəlb olunması üçün hər cür imkanlar yaradılır.

Bildirmək istəyirəm ki, ikitərəfli münasibətlərin tarixində və inkişafında mənim bu səfərim önəmli rol oynayacaqdır. Bu münasibətlərin və əməkdaşlığın müvəffəqiyyətlə həyata keçirilməsi üçün ölkələrimizin səfirliklərinin fəaliyyətini qarşılıqlı surətdə genişləndirməyi zəruri hesab edirəm və bu məqsədlə bütün imkanlar yaradılmalıdır.

**R o b i n  K u k**: Cənab prezident, Sizinlə görüşümdən çox məmnun qaldığımı bildirirəm. Azərbaycan Respublikasının rəhbərinin müdrikliyinə, zəngin dünyagörüşünə, dərin biliyinə və uzaqgörənliyinə heyran olduğumu söyləmək istəyirəm. Və [444-445] bir də qeyd edim ki, Böyük Britaniya Azərbaycanı özünə çox yaxın tərəfdaş və dost ölkə hesab edir.

Vurğulayıram ki, Avropa strukturlarında Böyük Britaniya ilə Azərbaycanın əməkdaşlığının daha da möhkəmlənməsi vacibdir və bunun üçün geniş imkanlar vardır.

ATƏT-in Minsk qrupunun səylərinin Birləşmiş Krallıq tərəfindən bundan sonra da dəstəklənəcəyini bildirirəm və əmin edirəm ki, Ermənistan-Azərbaycan münaqişəsinin tezliklə sülh yolu ilə aradan qaldırılması üçün ölkəmiz hər cür səy göstərəcəkdir. [445]

## LONDONDA GÖRÜŞLƏR BAŞA ÇATDIQDAN SONRA ŞOTLANDİYANIN PAYTAXTI EDİNBURQ ŞƏHƏRİNİN LORD-PROVOSTU ERİK MİLİQAN İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Edinburq,*
*«Siti Çembers» iqamətgahı*

*23 iyul 1998-ci il*

Hörmətli cənab Mer!
Hörmətli xanımlar və cənablar!

Mən sizi səmimi qəlbdən salamlayıram. Sizə, Şotlandiyanın bütün vətəndaşlarına Azərbaycandan hərarətli salamlar gətirmişəm.

Çox şadam ki, mənim Böyük Britaniyaya rəsmi səfərimin proqramına Şotlandiyanı, Edinburqu ziyarət də daxil edilmişdir. Böyük Britaniyaya gəlib Edinburqu, Şotlandiyanı ziyarət etməsən, hesab et ki, çox şey görməmisən.

Şotlandların tarixi bizə məlumdur. Bu, çox əzəmətli qəhrəmanlıq tarixidir. Şotlandlar özlərinin milli mənliyini, ənənələrini, mədəniyyətini qorumaq üçün əsrlər boyu mübarizə aparmışlar və həmişə öz istədiklərinə nail olmuşlar. Şotlandlar həqiqətən çox istiqanlı, mehriban insanlardır. Biz bunu kitablardan oxumuşuq. Amma bu gün biz buraya, sizin torpağınıza ayaq basarkən artıq bunu özümüz də hiss edirik.

Cənab mer, sizin həyəcanlı və çox mehriban xarakterli sözləriniz mənim dediyim bu fikirləri təsdiq edir. Birləşmiş Krallığa mənim rəsmi səfərim dörd gündür ki, davam edir. Məm[446-447]nuniyyətlə bəyan edirəm ki, ötən günlər ərzində biz çox dəyərli işlər görmüşük. Əlahəzrət kraliça ilə mənim görüşüm xüsusi əhəmiyyət kəsb edir. Böyük Britaniyanın keçən il yaranmış yeni hökumətinin üzvləri, xüsusən Baş nazir cənab Toni Bleyr ilə mənim görüşlərim, danışıqlarım, apardığımız söhbətlər və bunların nəticəsində imzaladığımız Böyük Britaniya ilə Azərbaycan arasında dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannamə ölkələrimizin əlaqələrinin gələcək inkişafı üçün böyük bir tarixi sənəddir.

Mən səfərimin gedişindən, keçirdiyim görüşlərdən, apardığım danışıqlardan və əldə olunmuş nəticələrdən çox razıyam. Hesab edirəm ki, həm Böyük Britaniya hökuməti, həm də biz Birləşmiş Krallıqla Azərbaycan arasında əlaqələrin gələcəkdə daha sürətlə inkişaf etməsi üçün çox yaxşı əsas yarada bilmişik. Görüşlərimiz, danışıqlarımız mehribanlıq və qarşılıqlı anlaşma şəraitində keçibdir.

Biz Böyük Britaniya ilə Azərbaycanı bu günlər bir-birinə daha da yaxınlaşdıra bildik. Ölkələrimizin, hökumətlərimizin bundan sonra bütün sahələrdə - siyasi, iqtisadi, elmi, mədəni, humanitar və digər sahələrdə əməkdaşlıq etməsi üçün birgə razılığa gəlmişik. Biz burada hər yerdə qonaqpərvərlik hiss edirik. Mən bunların hamısına görə təşəkkür edirəm.

Bizim əməkdaşlığımızın bir çox sahələri vardır. İqtisadi əlaqələrimizin əsasını neft sənayesi sahəsində artıq mövcud olan əməkdaşlıq təşkil edir. Neft sahəsində əməkdaşlığımızı inkişaf etdirmək üçün Baş nazirin iqamətgahında iki gün bundan əvvəl Böyük Britaniyanın «Bi-Pi», «Remko», «Monument Oyl ənd Qaz» şirkətləri ilə böyük əhəmiyyətə malik olan müqavilələr imzalamışıq.

Məlumdur ki, Böyük Britaniyanın nefti və neft sənayesi əsasən Şimalda–Şotlandiyanın ərazisində və Şimal dənizinin Şotlandiya sahillərində yerləşir. Bizimlə əməkdaşlıq edən və yeni bir müqavilə imzalayan "Remko" şirkəti də, səhv etmi[447-448]rəmsə, Şotlandiyaya məxsusdur. Beləliklə, biz Böyük Britaniya ilə əməkdaşlığımız haqqında danışarkən, şübhəsiz ki, burada Şotlandiyanın xüsusi yer tutduğunu dərk edirik.

Edinburq şəhəri tarixi abidələr şəhəridir. O, böyük mədəniyyət və elm şəhəridir. Edinburq şəhəri hazırda təkcə Böyük Britaniyanın yox, dünyanın müasir texnika və texnologiya istehsal edən şəhərlərindən biridir. Məlumdur ki, burada mikroelektronika, kompüter cihazları və digər cihazlar istehsal edən böyük sənaye müəssisələri vardır.

Beləliklə, bu şəhərdə qədim tarix, tarixi ənənələr və Şotlandiya, Böyük Britaniya mədəniyyəti müasir texnika və texnologiya ilə birləşibdir. Şübhəsiz ki, siz bununla fəxr edirsiniz. Biz isə sizin bu nailiyyətlərinizə dostlarınız kimi sevinirik.

Cənab mer, siz Edinburqla Azərbaycan arasında, xüsusən Azərbaycanın paytaxtı Bakı arasında indiyədək mövcud olan əlaqələrdən danışdınız. Biz bu əlaqələrə çox böyük əhəmiyyət veririk. Amma güman edirəm ki, Azərbaycan prezidentinin Edinburqa, Şotlandiyaya ziyarətindən sonra bu əlaqələr daha da genişlənəcək və inkişaf edəcəkdir.

Mən sizə bütün işlərinizdə uğurlar arzulayıram. Edinburqun və bütün Şotlandiyanın vətəndaşlarına sülh, əmin-amanlıq, səadət arzulayıram. Əminəm ki, siz bundan sonra daha da böyük nailiyyətlər əldə edəcəksiniz.

Mən sizi təbrik edirəm. Bugünkü görüşə görə sizə təşəkkür edirəm. Sağ olun. [448]

## AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ EDİNBURQ ŞƏHƏRİNİN LORD-PROVOSTU ERİK MİLİQANIN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA ÇIXIŞ

*23 iyul 1998-ci il*

Hörmətli cənab Mer!

Biz həqiqətən bu gün Şotlandiyada, Edinburqda çox xoşbəxt dəqiqələri yaşayırıq. Düşünürəm ki, biz ölkəmizə, Vətənimizə qayıdandan sonra bu dəqiqələrin bizim üçün nə qədər qiymətli olduğunu daha da dərk edəcəyik. Ancaq bizim indiki ilk təəssüratlarımız bundan ibarətdir ki, şotlandiyalılar həqiqətən qəhrəman, qoçaq, mərd insanlar olduğu kimi, eyni zamanda çox istiqanlı və qonaqpərvərdirlər.

Siz Şimalda yaşayırsınız. Burada sərt iqlim vardır və hava daim sərin olur. Amma hiss edirik ki, sizin qəlbiniz çox hərarətlidir. Mən ümumiyyətlə milli ənənələrə çox hörmət edən bir insanam. Çünki, birincisi, öz xalqımın - Azərbaycan xalqının milli, mənəvi dəyərlərini, ənənələrini çox sevirəm və onları həmişə təbliğ etməyə çalışıram. Mən eyni zamanda, başqa xalqların da ənənələrinə çox hörmət edirəm və hətta onların yaxşılarını təkrar etməyə çalışıram.

Mən sizin ənənələrinizə hörmət edərək sağlıq deyirəm: Azərbaycan ilə Böyük Britaniyanın, ölkələrimizin, xalqlarımızın arasında olan dostluğun gələcəyi şərəfinə, Şotlandiyanın, Şotlandiya ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf etməsinin, Edinburqun, sizin gələcək nailiyyətlərinizin şərəfinə. Sağ olun. [449-450]

**E r i k  M i l i q a n**: Hörmətli prezident, bizim şəhərin rəsmi rəmzini və bu gümüş qolbəndləri qəbul etməyinizi xahiş edirəm. Əmin ola bilərsiniz ki, Azərbaycanda heç kimin belə qolbəndləri yoxdur. Onları yalnız mən, Edinburqun lord-provostu hədiyyə edə bilərəm. Sağlıqla işlədin.

**H e y d ə r  Ə l i y e v**: Mən də bu qolbəndləri sizə hədiyyə verirəm. Amma mənim başqa hədiyyəm də vardır. Bu, Azərbaycan xalçasıdır. Bu gün biz kraliçanın Edinburqdakı sarayını gəzərkən oradakı xalçalara diqqət yetirdim. Onlar çox gözəl xalçalardır. Şübhəsiz ki, həmin xalçalar Şərqdə toxunub. Şərqdə isə xalçaçılığın ən mötəbər mərkəzləri İran və Azərbaycandır. Kral sarayındakı xalçalardan birinin üzərindəki ornamentlərdən belə fikrə gəldim ki, bu, azərbaycanlılar tərəfindən toxunmuş xalçadır. Doğrudur, mən sizə həmin xalça kimi böyük xalça bağışlaya bilmərəm. Onu sadəcə, buraya gətirmək mümkün olmaz. Amma mən bu gözəl və kiçik xalçanı sizə bağışlayıram. [450]

## BÖYÜK BRİTANİYA KRALİÇASININ SUPERİNTENDANTI POLKOVNİK DEYVİD ANDERSON İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Edinburq,*
*Kraliça iqamətgahı*

*23 iyul 1998-ci il*

Hörmətli cənab Anderson!

XII əsrin əvvəllərində ingilis kralı I Deyvid tərəfindən əsası qoyulan, bu gün də əlahəzrət kraliçanın iqamətgahlarından biri olan bu möhtəşəm sarayın tarixi haqqında verdiyiniz ətraflı məlumat üçün Sizə təşəkkür edirəm. Bu məlumat məni 1128-ci ildən başlayaraq bu gözəl sarayda yaşayan və fəaliyyət göstərən kral sülalələrinin tarixi ilə yanaşı, qədim ölkənizin tarixilə də tanış etdi. Maraqlıdır ki, birinci mərtəbəsi artıq muzey kimi fəaliyyət göstərən Edinburq sarayında bu gün də əlahəzrət kraliça ənənəvi olaraq təntənəli qəbullar, ziyafətlər təşkil edir. Onun ulu babası kral V Georqa məxsus taxt-tac salonunda bu gün də çoxsaylı qonaqların dəvət olunduğu mərasimlər olur.

Sarayda nümayiş etdirilən qədim və nadir rəsmlər burada yaşamış taxt-tac sahibləri ilə tanış olmaq imkanı verir. Sizin onlar haqqında verdiyiniz dərin məzmunlu məlumat isə məni o dövrə səyahət etdirdi. Kral sarayında göz oxşayan, bir-birindən gözəl Şərq xalçaları içərisində qədim Azərbaycan, Təbriz xalçasını tanımağım Sizi təəccübləndirdi. Burada [451-452] təəccüblü heç bir şey yoxdur. Siz də öz tarixinizi, mədəniyyətinizi sevdiyiniz və qoruduğunuz kimi, biz azərbaycanlılar da tariximizi, mədəniyyətimizi öyrənir, mədəni-mənəvi irsimizi bu gün də yaşadırıq.

Hörmətli cənab Anderson! Onu deyim ki, kral sarayı yaxınlığındakı vulkanlar yatağı da öz qeyri-adi, sərt gözəlliyi ilə məni cəlb etdi. Sonda isə demək istərdim ki, Sizin sayənizdə əldə etdiyim qiymətli məlumat və gördüklərimin təəssüratı bu günümü gözəl və qədim tarixli ölkənizə səfərimin ən yadda qalan günlərindən biri edir. Sizə bir daha təşəkkürümü bildirir, Sizinlə xatirə şəkli çəkdirməyimdən məmnunluq duyuram. Çox sağ olun! [452]

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ŞƏRƏFİNƏ BİRLƏŞMİŞ KRALLIĞIN XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT NAZİRİ DAQ HENDERSONUN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA* NİTQ

*Edinburq, Qədim kral qəsri*

*23 iyul 1998-ci il*

Hörmətli cənab nazir!
Hörmətli lord-merlər!
Hörmətli xanımlar və cənablar!

Birləşmiş Krallığa mənim rəsmi səfərim sona çatır. Mən dördüncü gündür ki, Sizin ölkənizdə rəsmi səfərdəyəm. Səfərimin sonuncu günü Şotlandiyaya, Edinburqa həsr olunubdur.

Mən sizin ölkənizdə keçirdiyim günlərə nəzər salaraq, onlara bir qədər yekun vuraraq deyə bilərəm ki, bu səfər çox uğurlu olubdur və mən burada keçirdiyim görüşlərdən, apardığım danışıqlardan çox razıyam. Məndən tez-tez soruşurlar ki, gününüz necə keçir, səfər proqramınız gərgindirmi? Mən isə cavab verirəm ki, iş çoxdur, görüşlər həddindən artıq çoxdur, ancaq heç də gərgin deyil və bu məni yormur. Çünki ke[453-454]çirdiyim hər bir görüşdə, apardığım hər bir danışıqda, iştirak etdiyim hər bir toplantıda biz Birləşmiş Krallıqla Azərbaycan arasındakı əlaqələrin gələcək perspektivləri haqqında məsələlər müzakirə etmişik və çox yaxşı nəticələrə gəlmişik.

Kraliça ilə görüşmək mənim üçün tarixi bir hadisə olmuşdur. Mən bu görüşdən və apardığımız söhbətlərdən həddindən ziyadə razıyam. Çox şadam ki, indi biz sizin ölkənin krallarına məxsus olmuş qədim, əzəmətli kral sarayında, qəsrdə toplaşmışıq.

Güman edirəm ki, əlahəzrət kraliça ilə görüşümlə indi bu tarixi–memarlıq abidəsində keçirdiyimiz görüş arasında çox üzvü əlaqə vardır. Birləşmiş Krallıqda keçirdiyimiz çoxsaylı görüşlərdə biz ölkələrimiz arasındakı əlaqələrin inkişaf etməsi üçün müzakirələr aparmışıq və deyə bilərəm ki, hər dəfə birgə fikirdə olmuşuq.

Baş nazir cənab Toni Bleyr ilə mənim görüşüm, apardığımız danışıqlar xüsusi əhəmiyyətə malikdir. Biz ölkələrimizin əlaqələrinin genişləndirilməsinə və ümumiyyətlə beynəlxalq məsələlərə, regionumuza dair bir çox siyasi, iqtisadi məsələləri müzakirə etdik.

Baş nazir və Azərbaycan prezidenti Birləşmiş Krallıq ilə Azərbaycan arasında dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannamə imzalamışlar. Bu siyasi bəyannamədə ölkələrimiz arasında əlaqələrin demək olar ki, bütün sahələri əhatə edilmişdir. Biz danışıqlarımızda iqtisadi və digər məsələlərlə birlikdə, ölkələrimiz arasında siyasi məsələlər barəsində də əlaqələrin inkişaf etdirilməsi haqqında eyni fikrə gəlmişik.

Cənab nazir, beləliklə mən sizin bu gün burada bəyan etdiyiniz fikirlə tamamilə razıyam ki, Birləşmiş Krallıqla Azərbaycan arasında strateji tərəfdaşlıq əlaqələri yaranıbdır. Mən sizi əmin edirəm ki, biz belə əlaqələrin yaranmasında maraqlıyıq. Əmin ola bilərsiniz ki, biz çox etibarlı tərəfdaş olacağıq. [454-455]

Birləşmiş Krallıq ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələr son illər çox inkişaf etmişdir. Cənab nazir, sizin bu gün bu barədə bəyan etdiyiniz fikirlərlə mən tamamilə razıyam. Bu günlərdə bizim apardığımız danışıqların və imzalanmış müqavilələrin nəticəsində bu əlaqələrin daha da sürətlə inkişaf etdirilməsi sahəsində böyük start götürmüşük.

Çox məmnunam ki, mən bu dörd gün ərzində dövlət, hökumət nümayəndələri ilə yanaşı, sizin ölkənin ictimaiyyətinin nümayəndələri ilə də çoxlu, geniş görüşlər keçirdim. Britaniya-Azərbaycan Cəmiyyətinin yaranması ölkələrimiz arasındakı əlaqələrdə tarixi hadisədir. Mən bu cəmiyyətin toplantısında böyük sevinc hissi ilə iştirak etdim. Bildirmək istəyirəm ki, həmin toplantıda bir neçə yüz adamın iştirak etməsi Britaniya-Azərbaycan Cəmiyyətinin artıq yüksək səviyyədə olduğunu sübut edir.

Mən Beynəlxalq Münasibətlər üzrə Kral İnstitutunun böyük auditoriyasında tədqiqatçılar, elm adamları, mətbuat, dövlət, hökumət nümayəndələri, ayrı-ayrı ölkələrin səfirləri qarşısında geniş çıxış etdim. Kral İnstitutunun salonuna 300-ə qədər adam toplaşmışdı. Bu, Azərbaycana, Böyük Britaniya ilə Azərbaycan arasında olan əlaqələrə göstərilən böyük marağın sübutu idi.

Xüsusi şirkət tərəfindən Londonda «Azərbaycanda biznes» mövzusunda, respublikamızın iqtisadi imkanları və ölkəmizə sərmayə qoyuluşu problemləri ilə əlaqədar böyük bir konfrans keçirilmişdir. Sizin öl-

---

* Rəsmi qəbulda Birləşmiş Krallıq hökumətinin yüksək vəzifəli şəxsləri, Edinburq və Aberdin şəhərlərinin rəhbərləri, siyasi xadimlər, diplomatlar, Şotlandiyanın işgüzar dairələrinin nümayəndələri iştirak edirdilər.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının xarici işlər üzrə dövlət naziri Daq Henderson rəsmi qəbulda nitq söylədi.

kənizin işgüzar dairələrinin nümayəndələri ilə bərabər, bir çox başqa ölkələrdən bu konfransda iştirak etmək üçün xüsusi nümayəndə heyətləri var idi. Mən orada Azərbaycana sərmayə qoyuluşunun imkanları və gələcəyi haqqında geniş nitq söylədim. Birləşmiş Krallığa səfərimdə məni müşayiət edən, müxtəlif sahələri təmsil edən nazirlər Azərbaycanda iqtisadi vəziyyət və ölkəmizlə iqtisadi əlaqələrin qurulması problemləri barədə çox geniş məlumatlar verdilər. [455-456]

Nəhayət, bu gün mən Şotlandiyadayam, Edinburqdayam. Edinburqun lord-provostu bizə çox qonaqpərvərlik göstərdi və cənab Miliqan ilə bizim çox gözəl görüşümüz, danışıqlarımız oldu.

Mən buraya gələn kimi dedim, buradan yola düşərkən də demək istəyirəm ki, əgər Birləşmiş Krallığa gəlmisənsə, Şotlandiyanı ziyarət etməmisənsə, hesab et ki, heç bir şey görməmisən. Şotlandiyaya gəlmək mənim arzum idi. Mən çox təşəkkür edirəm ki, siz bu arzumu yerinə yetirdiniz.

Şotlandiya qeyri-adi bir diyardır. Mənim dostum, hörmətli nazir cənab Henderson Şotlandiyanın tarixi haqqında bəzi məlumatlardan danışdı. Mən də onlara əlavələr edə bilərəm, ancaq siz bunları yaxşı bildiyinizə görə buna ehtiyac duymuram. Sadəcə, demək istəyirəm ki, bura çox gözəl diyardır. Burada çox mərd, cəsarətli, zəkalı və qəhrəman insanlar yaşayırlar. Şotlandlar həmişə öz məğrurluqları ilə fərqlənmişlər. Birləşmiş Krallığı dünyada tanıdan və ona hörmət gətirən amillərdən bir çoxu məhz Şotlandiyaya məxsusdur. Ölkənizin nefti də, ən gözəl mənzərələri də, meşələri də buradadır. Sizin ölkənin ən qədim qəsri də buradadır və biz sizinlə bu qəsrin salonundayıq. Amma Şotlandiyanı məşhur edən bir amil də vardır, o da Şotland viskisidir. Şotland viskisi indi dünyada böyük şöhrət qazanıbdır. Azərbaycanda belə içkilər çoxdur. Azərbaycan eyni zamanda üzümçülük, şərabçılıq diyarıdır.

Əziz dostlar, beləliklə, artıq sabah mən öz ölkəmə böyük razılıq hissi ilə dönürəm. Biz sizinlə birlikdə çox dəyərli işlər gördük. Biz bu günlər Birləşmiş Krallıqla Azərbaycanı bir-birinə daha da yaxınlaşdırdıq, gələcəyin proqramını müəyyən etdik. İnanıram ki, biz bu proqramı yerinə yetirəcəyik. Ona görə də mən bu rəsmi səfərimi çox uğurlu hesab edirəm.

Hörmətli dostlar, bu uğurun əsas səbəbi Azərbaycana göstərdiyiniz diqqət, qayğı və dostluq münasibətidir. Məhz bunun və bir-birimizə olan inamın nəticəsində biz gələcək [456-457] əməkdaşlığımız haqqında eyni fikrə gəldik, siyasi sahədə də əməkdaşlığın zəruri olduğunu qeyd etdik.

Mən bildirmək istəyirəm ki, burada olduğumuz bütün günlər, saatlar, dəqiqələr ərzində sizin ölkənizdə dostluq, mehribanlıq və yüksək qonaqpərvərlik hiss etdik. Mən bütün bunlara görə sizə səmimi qəlbdən təşəkkür edirəm.

Bəzən elə fikirlər yayılır ki, guya şimalda yaşayan insanlar adətən soyuq, cənubda yaşayan insanlar isə isti xarakterli olurlar. Mən düşünürəm ki, belə fikirlər düzgün deyildir. Çünki bizim burada olduğumuz günlərin hamısı ərzində, o cümlədən bu gün də hətta yağışa, havanın sərin olmasına baxmayaraq, biz hər dəqiqə, hər saat çox hərarətli münasibət hiss edirik. Bunlar hamısı bizim ölkələrimizin, xalqlarımızın münasibətlərinin və şəxsi münasibətlərimizin nə qədər səmimi olduğunu sübut edir.

Mən bütün bunlara görə sizə və Birləşmiş Krallığın bütün dövlət və hökumət orqanlarının rəhbərlərinə təşəkkür edirəm. Bugünkü çox gözəl gün və bu qədim qəsrdə təşkil olunmuş rəsmi qəbul üçün mən həm hörmətli nazirə, həm də şotlandların hamısına təşəkkürümü bildirirəm.

Mən sizin hamınızı Azərbaycana dəvət edirəm. Siz bizim əziz və hörmətli qonağımız ola bilərsiniz. Bizdə hava da, iqlim də istidir, amma qəlbimiz ondan da istidir. Ona görə də sizin bizə göstərdiyiniz qonaqpərvərliyi və hərarətli münasibəti Azərbaycanda da hiss edəcəksiniz.

Sizə, ölkənizə, xalqınıza, Birləşmiş Krallığın bütün vətəndaşlarına sülh, əmin-amanlıq, səadət arzulayıram. Sağ olun.

Təklif edirəm ki, əlahəzrət kraliçanın şərəfinə badə qaldıraq. [457]

# ŞOTLANDİYADA YAŞAYAN SOYDAŞLARIMIZLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*23 iyul 1998-ci il*

**Hörmətli prezidentimiz, biz Sizi böyük səmimiyyətlə salamlayır və Sizinlə görüşdən çox böyük şərəf duyduğumuzu bildiririk.**

**H e y d ə r Ə l i y e v**: Hörmətli soydaşlarımız, mən də sizi səmimi qəlbdən salamlayıram. Sizə uğurlar arzulayıram, sizin qayğılarınız, əlbəttə ki, çoxdur. Mən vətəndən uzaqda yaşayan sizlərin qayğısı, güzəranı ilə tanış olmaq istərdim.

**Əziz prezidentimiz, biz gənc, müstəqil Azərbaycan Respublikasına Sizin kimi dünyada tanınan görkəmli dövlət xadiminin başçılıq etməsindən böyük iftixar hissi duyduğumuzu demək istəyirik. Biz Sizin müdrik rəhbərliyinizlə doğma vətənimizdə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu, islahatların müvəffəqiyyətlə həyata keçirilməsi sahəsində görülən işləri diqqətlə izləyirik. Çox sağ olun ki, Siz müstəqil Azərbaycanı qısa vaxtda bütün dünyada tanıtdınız. Biz çox sevinirik ki, doğma respublikamız indi dünya birliyində özünə layiq yer tutub və ən nüfuzlu ölkələr, şirkətlər Azərbaycanla qarşılıqlı surətdə faydalı əlaqələr qurmağa böyük maraq göstərirlər.**

**H e y d ə r Ə l i y e v**: Əziz həmvətənlərimiz, qardaşlar və bacılar!

Mən sizin hamınıza səmimi sözlərə görə minnətdarlığımı bildirirəm. Sizə Azərbaycanla sıx əlaqə saxlamağı, xarici ölkələrdə doğma vətənimizin layiqli təmsilçisi olmağı tövsiyə edi[458-459]rəm. Biz xaricdə yaşayan soydaşlarımızla daha sıx əlaqələr yaratmaq məqsədilə qarşımıza məqsədyönlü vəzifələr qoymuşuq. Bir sözlə, xarici ölkələrdə Azərbaycan diasporunun formalaşması, onun fəaliyyətinin gündən-günə daha da güclənməsi və əlaqələrin dərinləşməsi üçün bütün tədbirləri görməyə səy edirik.

Son illər Azərbaycanın əldə etdiyi nailiyyətləri təbliğ etmək lazımdır. Azərbaycanın haqq işini dünya ictimaiyyətinə çatdırmaq üçün səylərin birləşdirilməsinin vacib olduğunu xüsusi vurğulamaq istəyirəm.

Əzizlərim, vətənimizi, doğma dilimizi, xalqımızın layiqli adət-ənənələrini heç vaxt unutmayın, respublikamızla daim sıx əlaqə yaradın. [459]

## ŞOTLANDİYANIN BİZNES DAİRƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*Edinburq,*
*«Balmoral» mehmanxanası*

*23 iyul 1998-ci il*

Hörmətli cənab sədr!
Hörmətli xanımlar və cənablar!

Mən Sizi və Sizin simanızda Şotlandiyanın sakinlərini, şotlandları səmimi-qəlbdən salamlayıram. Sizin diyarınıza və çox qədim, gözəl Edinburq şəhərinizə öz hörmət və ehtiramımı bildirirəm.

Bu gün mənim Birləşmiş Krallığa rəsmi səfərimin dördüncü günü başa çatır. Mən Londonda işimi başa çatdırandan sonra əvvəlcədən nəzərdə tutulmuş proqram əsasında bu gün buraya gəlmişəm. Mən bu günü məhz Şotlandiyaya, Edinburqa həsr edirəm. Güman edirəm, siz Azərbaycan haqqında yetərli qədər məlumata maliksiniz. Ancaq buna baxmayaraq, bir neçə kəlmə demək istəyirəm.

Azərbaycan Qafqazda, Xəzər dənizinin sahilində yerləşən bir ölkədir. O, çox əlverişli coğrafi-siyasi vəziyyətə malikdir. Azərbaycanın zəngin təbii sərvətləri – yeraltı və yerüstü sərvətləri vardır. Respublikamız altı il bundan əvvəl, Sovet İttifaqı dağılandan sonra öz dövlət müstəqilliyini əldə edibdir. Azərbaycan ötən bu altı il ərzində dövlət müstəqilliyi, azadlıq yolu ilə gedir. [460-461]

Azərbaycanın çoxsahəli iqtisadiyyatı, sənayesi, aqrar sektoru vardır. Ölkəmizin inkişaf etmiş infrastrukturu vardır. Azərbaycan böyük intellektual potensiala malikdir. Bizim xalqımız qədim tarixə malikdir. Xalqımız əsrlər boyu öz müstəqilliyi və milli azadlığı uğrunda vuruşmuş, çalışmış və mübarizə etmişdir. Azərbaycan zəngin mədəniyyətə malikdir.

Bilirsiniz ki, keçmiş Sovetlər İttifaqına mənsub olmuş Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra yeni bir həyat yolu keçir. Bu, demək olar ki, bütün sahələrdə keçid yoludur. Müstəqil ölkə kimi Azərbaycan özünün müstəqil dövlətini qurur, cəmiyyətini formalaşdırır.

Bilirsiniz ki, Azərbaycan hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi yolu ilə gedir, öz dövlət müstəqilliyini qoruyub saxlamağa çalışır, iqtisadiyyatını bazar münasibətləri, sərbəst iqtisadiyyat sistemi əsasında qurur, bütün bu məqsədlərə nail olmaq üçün həm siyasi, həm ictimai, həm də iqtisadi islahatlar həyata keçirir. Bu islahatlar həyatda demək olar ki, bütün sahələrini əhatə edir. Şübhəsiz ki, bunlar bir çox çətinliklər də yaradır. Mən eyni zamanda, iftixar hissi ilə deyə bilərəm ki, bütün bunlar yaxşı nəticələr verir.

Azərbaycan Sovetlər İttifaqının tərkibində olarkən dünya üçün qapalı idi. İndi Azərbaycan öz qapılarını dünyaya açıbdır. Biz «Açıq qapı» siyasəti aparırıq, həyatımızın bütün sahələrini dünya standartları səviyyəsinə qaldırmaq istəyirik və iqtisadiyyatımızı dünya iqtisadiyyatı ilə sıx bağlamağa çalışırıq. Bu sahədə də ilkin nailiyyətlərimiz bizi ürəkdən sevindirir.

Azərbaycan qədim neft ölkəsidir. Bu baxımdan Azərbaycan ilə Şotlandiya arasında çox bənzərlik, oxşarlıq vardır. Siz Şimal dənizinin sahilindəsiniz, Azərbaycan isə Xəzər dənizinin sahilindədir. Siz şimal, Azərbaycan isə cənub ölkəsidir. İqlimlərimizdə fərq var, amma hesab edirəm ki, insanlarımızda fərq azdır. [461-462]

Şotlandlar çox işgüzar, mərd, öz mənliklərini və milli ənənələrini qoruyan, onun uğrunda mübarizə aparan insanlardır. Şotlandlar zəkalıdırlar, bəşər mədəniyyətinə, elminə çox dəyərli töhfələr vermişlər. Onlardan bəzilərinin adlarını cənab Forrenst burada çəkdi. Siz tamamilə haqlı olaraq onlarla fəxr edirsiniz. Ancaq şotlandları təkcə bunlarla xarakterizə etmək olmaz.

Şotlandiyanın çox qədim, gözəl mədəniyyəti vardır. Edinburq demək olar ki, qədim memarlıq abidələri şəhəridir. Şotlandiyanın ərazisi gözəl bir mənzərəyə bənzəyir. Mən Şotlandiyanı çox sevirəm. Bunu kitablardan aldığım təəssüratlardan deyirəm. Mən ilk dəfə 38 il bundan öncə sizin ölkədə, Edinburqda olmuşam və yenidən buraya gəlməyimdən çox məmnunam. Mən 38 il bundan əvvəl, 1960-cı ildə burada olarkən xatirimdə çox şeylər qalıbdır. Onlardan biri də Temza çayı üzərində XIX əsrin əvvəllərində tikilmiş çox əzəmətli bir körpüdür. Mən bu gün də həmin körpünü gedib gördüm.

Ümumiyyətlə, körpü bəşər tarixində çox böyük rol oynayır. İnsanlar, xalqlar, ölkələr arasında körpü həmişə xeyirxah niyyətlərə xidmət edibdir. Birləşmiş Krallığa mənim bu rəsmi səfərim də sizin ölkənizlə Azərbaycan arasındakı körpünü daha da möhkəmləndirmək, inkişaf etdirmək məqsədi daşıyır.

Mən ötən günlərdə Londonda çoxsaylı görüşlər keçirmişəm, danışıqlar aparmışam. Əlahəzrət kraliça ilə görüşmüşəm. Baş nazir cənab Toni Bleyrlə görüşüm, danışıqlarım, sözbətlərim çox əhəmiyyətli, məzmunlu və maraqlı olmuşdur. Biz ölkələrimiz və xalqlarımız arasında dostluq münasibətləri və tərəfdaşlıq haqqında siyasi Bəyannamə imzaladıq. İyulun 21-də Baş nazirin iqamətgahında Böyük Britaniya ilə Azərbaycanın əməkdaşlığını inkişaf etdirmək üçün Birləşmiş Krallığın, o cümlədən Şotlandiyanın şirkətləri ilə

ARDNŞ arasında üç müqavilə imzalandı. Şotlandiyanın «Morrison» şirkəti [462-463] ilə Bakı Şəhər İcra Hakimiyyəti arasında bir niyyət Bəyannaməsi imzalandı.

Hesab edirəm ki, bütün bu danışıqlar və imzalanmış sənədlər Birləşmiş Krallıqla Azərbaycan arasındakı əlaqələrin gələcək inkişafı üçün yeni mərhələ olmuşdur və gözəl perspektivlər açmışdır. Baş nazir cənab Toni Bleyr və mən eyni fikirdə olduq ki, ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni, elmi, humanitar və bütün başqa sahələrdə əməkdaşlığımızı gücləndirməliyik və genişləndirməliyik.

Hörmətli xanımlar və cənablar!

Siz Şotlandiyanın işgüzar dairələrinin nümayəndələrisiniz, şübhəsiz ki, iqtisadi əlaqələr sizi daha çox maraqlandırır. Mən hesab edirəm ki, ölkələrimiz arasında belə əlaqələr yaranıb və indi də yaxşı səviyyədədir. Böyük Britaniyanın Azərbaycanda yüzdən artıq şirkəti fəaliyyət göstərir. Böyük Britaniya şirkətlərinin sərmayələri Azərbaycana gəlir. Bizim 1994-cü ildə imzaladığımız ilk böyük müqavilənin – «Əsrin müqaviləsi»nin həyata keçirilməsi üçün yalnız «Britiş Petroleum» şirkəti ötən illərdə Azərbaycana 260 milyon dollar sərmayə qoyubdur. Həmin müqavilənin digər iştirakçısı – Şotlandiyanın «Remko» şirkəti Azərbaycana 29 milyon dollar sərmayə qoyubdur. Birləşmiş Krallığa mənsub şirkətlər ilk müqavilənin həyata keçirilməsi üçün yaradılmış Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətindən 350 milyon dollar dəyərində sifarişlər alıblar. Bunlar bizim iqtisadi əlaqələrimizin göstəriciləridir. Ancaq bunlar bizim müştərək işimizin hələ ilk addımlarıdır. Əməkdaşlığı inkişaf etdirmək üçün daha böyük imkanlar vardır, onlardan səmərəli istifadə etmək lazımdır.

Mən sizi, Şotlandiyanın iş adamlarını, şirkətlərini müştərək iş görmək üçün Azərbaycana dəvət edirəm. Bunun üçün Azərbaycanda tam əlverişli şərait yaranıbdır. Birincisi, indi Azərbaycanda ictimai-siyasi sabitlik mövcuddur və bu sabitlik daimidir. İkincisi, xarici şirkətlərin Azərbaycana gəlib iş [463-464] görməsi üçün biz çox mühüm qanunlar qəbul etmişik və bunlar bir çox qanunlarla tənzimlənir. Bizim, o cümlədən investisiyaların qorunması haqqında da çox ciddi qanunumuz vardır. Azərbaycanda fəaliyyət göstərən şirkətlər gəlirlərini öz ölkələrinə köçürmək imkanı qazanıblar. Bu, bizim qanunla tənzim olunur. Azərbaycanda sağlam ictimai-siyasi və mədəni mühit yaranıbdır.

Edinburq gözəl şəhərdir. Ancaq qürur hissi ilə deyirəm ki, Bakı da çox gözəl şəhərdir. Bakıda rahat yaşamaq, yaxşı işləmək olar.

Bizim həyata keçirdiyimiz islahatlar Azərbaycan iqtisadiyyatını çox canlandırıbdır. Biz keçid dövrünün çətinliklərinin öhdəsindən gəlirik. Hesab edirəm ki, bu il və qarşıdan gələn ildə ölkəmizin iqtisadiyyatında inkişaf daha da sürətlənəcəkdir. Apardığımız islahatlarla, insanlara sərbəstlik verməyimizlə bərabər, eyni zamanda, xarici sərmayələrin Azərbaycana gəlməsi respublikamızın iqtisadiyyatının inkişaf etdirilməsinin mühüm cəhətlərindən biridir. Azərbaycana xarici sərmayə təkcə neft sahəsinə yox, bir çox başqa sahələrə də qoyulur. Bu ilin ötən altı ayında Azərbaycana xarici sərmayə qoyuluşu keçən ilin müvafiq dövrünə nisbətən 70 faiz artmışdır. Güman edirəm ki, ilin ikinci yarısında bu artım daha da yüksək olacaqdır.

Respublikamızda gömrük rüsumları çox aşağıdır, 15 faizdən yuxarı deyildir. Ölkəmizdə vergi, maliyyə sistemi də tənzimlənibdir. Bizdə bir çox özəl banklar fəaliyyət göstərir. Özəlləşdirmə proqramı sürətlə həyata keçirilir. Biz kiçik müəssisələri özəlləşdirmişik. Orta və böyük müəssisələrin özəlləşdirilməsinə başlamışıq və artıq bu sahədə çox iş görmüşük. Bankların, birinci növbədə, Beynəlxalq Bankın özəlləşdirilməsi nəzərdə tutulur.

Azərbaycanda maliyyə vəziyyəti normaldır. Doğrudur, vəziyyət üç-dörd il bundan əvvəl tamam başqa cür idi. 1994-cü ildə Azərbaycanda çox yüksək inflyasiya var idi. 1994-cü [464-465] ildə inflyasiyanın həddi 1600 faiz idi, 1995-ci ildə 80 faiz, 1996-cı ildə 6 faiz, 1997-ci ildə 0,4 faiz olubdur. Bu ilin altı ayında isə eyni səviyyədədir. Siz bu sahəni yaxşı bilən adamlarsınız, razılaşarsınız ki, bu, yaxşı nəticədir. Azərbaycanın milli valyutası – manat dönərlidir və manatın dəyəri son illər ilbəil artır, daha da möhkəmlənir.

Beləliklə, Azərbaycanda həm investisiya qoymaq üçün imkanlar vardır, həm də çox əlverişli iqtisadi, maliyyə strukturları yaranıbdır. Şübhəsiz, dediyim bu sözlər sizdə elə bir təəssürat yaratmasın ki, bizdə hər şey idealdır. Bizim nöqsanlarımız nailiyyətlərimizdən qat-qat çoxdur. Bu təbiidir: Biz keçid dövrü yaşayırıq. İnsanlar hər şeydə yeniliklə rastlaşırlar və həm ictimai-siyasi, həm də iqtisadi sahədə keçmişdən çox çətinliklə ayrılırlar.

Azərbaycan üçün demokratiya yeni bir şeydir. Biz bunları təmin etmək üçün ölkəmizdə demokratik Konstitusiya və qanunlar qəbul etmişik. Ancaq insanlar buna alışmalıdır və onların hamısının da eyni fikri olmalıdır. Biz bunu təmin edirik. Biz bazar iqtisadiyyatı sistemi yaradırıq. Qanunlarımız, proqramımız var, islahatlar, özəlləşdirmə aparırıq. Ancaq burada nöqsanlarımız da meydana çıxır. İnsanların bir qismi hələ buna alışa bilmir. Dövlət orqanlarında olan məmurlar da bəzən bunu bacarmırlar, yaxud da öz vəzifələrindən sui-istifadə edirlər. Belə və buna bənzər digər nöqsanlar az deyildir. Ancaq bunlar keçicidir. Daimi isə odur ki, Azərbaycan demokratiya, sərbəst iqtisadiyyat yolu ilə gedir, ölkəmizdə sahibkarlıq fəaliyyətinin yaranması və inkişaf etməsi üçün bütün imkanlar vardır və Azərbaycan öz iqtisadiyyatını dünya iqtisadiyyatı ilə sıx bağlamaq istəyir.

Azərbaycanın təbii sərvətlərindən, iqtisadi potensialından müştərək istifadə etmək, həm xaricdən gələn sərmayəçiləri[465-466]miz, həm də bizim özümüz üçün çox faydalı olacaqdır. Ona görə də mən sizi Azərbaycana dəvət edirəm.

Sizin neft sənayesi sahəsində nailiyyətləriniz çoxdur. Siz 1975-ci ildən Şimal dənizində geniş neft hasilatına başlayaraq qısa bir müddətdə çox irəliyə getmisiniz. İqtisadiyyatın başqa sahələrində də sizin nailiyyətləriniz çoxdur. Siz təkcə öz ərazinizdə işləmirsiniz. Siz dünyanın bir çox ölkələrində işləyirsiniz. Mən sizi Azərbaycanda da işləməyə dəvət edirəm.

Güman edirəm, dediyim bu sözlər bizim danışığımızın başlanğıcı üçün bəsdir. Mən sizin suallarınıza cavab verə bilərəm. Buyurun.

**K e n F o r r e n s t**: Xahiş edirəm sual verəndə özünüzü təqdim edin və təmsil etdiyiniz təşkilatın adını çəkin.

**S u a l**: **Mən «Faynənşl Tayms Enerji» qəzetini təmsil edirəm. Cənab prezident, dövlət məmurlarının problemləri, korrupsiyaya qurşanması haqqında çox şeylər söylənilibdir. Eləcə də Gürcüstanla Azərbaycan arasındakı Qırmızı körpüdə belə bir problemin mövcudluğu haqqında şərh verməyinizi xahiş edirəm.**

**C a v a b**: Birincisi, xatırlayıram ki, siz bu sualı mənə Londonda da vermişdiniz. Mən Sizə təşəkkür edirəm ki, mənim arxamca Edinburqa da gəlmisiniz.

**M ü x b i r** : Doğrudur. Cənab prezident, mən Londonda Sizi ziyarət edirdim, özüm isə şotlandam.

**H e y d ə r Ə l i y e v**: Çox gözəl. Bilirsiniz, korrupsiya, ümumiyyətlə, dünyada hər bir ölkə üçün böyük bir bəladır. Heç bir ölkə deyə bilməz ki, orada korrupsiya yoxdur. Güman edirəm, siz də deyə bilməzsiniz. Ancaq şübhəsiz ki, ayrı-ayrı ölkələrdə bunun həcmi, miqyası bir-birindən fərqlənir.

Siz bilirsiniz ki, keçmişdə uzun illər mən Sovetlər İttifaqı çərçivəsində həm Azərbaycanın birinci rəhbəri, həm də Siyasi Büronun üzvü kimi Sovetlər Birliyinin rəhbərlərindən biri olmuşam. O illər Sovet İttifaqında da korrupsiya ilə mübarizə [466-467] aparılırdı.Belə bir nəzəriyyə var idi ki, korrupsiya Sovetlər İttifaqına kapitalizm sistemindən gəlibdir. Belə ideologiya var idi ki, korrupsiya kapitalizmin qalıqlarıdır və kapitalist ölkələrindən sosialist ölkələrinə keçən bir şeydir. Mən o vaxt da korrupsiyaya qarşı mübarizə aparanlardan biri idim. Doğrudur, mən bu nəzəriyyənin müəllifi deyildim. Hesab edirdim ki, haradan gəlibsə-gəlsin, korrupsiyanı aradan götürmək lazımdır.

Rusiyanın tarixini götürsəniz, hələ 7-8 əsr bundan öncə Rusiyada da korrupsiya ilə mübarizə aparılıbdır. Mən Azərbaycanda korrupsiyaya qarşı mübarizə aparan ilk siyasi xadimlərdən biriyəm. Azərbaycanın prezidenti kimi bu gün də ölkəmizdə korrupsiya ilə mübarizə aparmağı özümün əsas vəzifələrimdən biri hesab edirəm.

Biz dərk edirik ki, korrupsiya hamıya zərər gətirir. Hesab edirik ki, bu, birinci növbədə ölkəmizin özünə zərər gətirir. Eyni zamanda qeyd etməliyəm ki, keçmiş Sovetlər İttifaqına mənsub olan, indi müstəqillik əldə etmiş ölkələrin hamısında bu problem mövcuddur.

Siz Gürcüstanla Azərbaycan arasındakı Qırmızı körpü haqqında danışdınız. Bəli, bu körpü vasitəsilə Gürcüstandan Azərbaycana, Azərbaycandan Gürcüstana mallar keçirilir. İddia edə bilmərəm ki, bu körpüdə korrupsiya yoxdur. Ancaq təkcə bu körpüdə, Azərbaycanda, Gürcüstanda deyil, regionun çox yerlərində korrupsiya vardır.

Əgər istəyirsinizsə ki, korrupsiyanı necə ləğv edəcəyimiz barədə sizə geniş məlumat verim, onda məni bir-iki saat dinləməlisiniz. Dözə bilərsinizmi? Düşünürəm ki, dözə bilməyəcəksiniz. Ona görə də qısaca olaraq onu demək istəyirəm ki, bu problem bizi sizdən də çox narahat edir. Biz dövlət, hökumət kimi bu problemin olduğunu etiraf etməklə, bəyan etməklə öz mövqeyimizi göstəririk. Mövqeyimiz də ondan ibarətdir ki, biz bu mənfi hallarla, korrupsiya və rüşvətxorluqla mübarizəni bundan sonra daha da sürətlə aparacağıq. [467-468]

Mən fantaziyaçı deyiləm, deyə bilmərəm ki, korrupsiya kökündən ləğv olacaqdır. Ancaq Azərbaycanda korrupsiyanın qarşısı ciddi surətdə alınacaqdır. Mən buna inanıram. Sağ olun.

**S u a l**: **Mənim adım Robin Rolsondur, «Morrison» şirkətini təmsil edirəm.**

**Cənab prezident, biz çox şadıq ki, həftənin əvvəlində Bakı Şəhər İcra Hakimiyyəti ilə mühüm bir sənəd imzaladıq. Ümid edirəm ki, Bakı şəhərindəki bulvarda «Hilton» otelinin inşasına başlayacağıq.**

**Cənab prezident, Siz dediniz ki, Şotlandiyaya ilk dəfə 38 il əvvəl gəlmisiniz. Mən isə Azərbaycanda 9 il bundan əvvəl olmuşam. Bu müddət ərzində Azərbaycanda böyük dəyişikliklər baş veribdir.**

**Sualım belədir: Azərbaycan bir məsələdə qonşularını, hər şeydən əvvəl Rusiyanı qabaqlaya biləcəkmi – əmlaka görə istiqrazlar qəbul olunacaqmı? Azərbaycan belə bir addımı tezliklə atsa, bu, xarici şirkətlərin də ölkənizə ürəklə gəlməsinə təkan verər.**

**H e y d ə r Ə l i y e v**: Sizin bu sualınıza iqtisadi siyasət üzrə dövlət müşaviri Vahid Axundov cavab verəcəkdir.

**V a h i d A x u n d o v**: «İpotek» krediti məsələləri indi bizdə nəzərdən keçirilir. Ölkəmizdə bu cür kredit ayrılmasına yol verən müvafiq qanunlar qəbul olunmuşdur.

Azərbaycanda özəl bank sektoru inkişaf etdirilib möhkəmləndirilir. Yəni bank sektorunun güclü şəkildə möhkəmləndirilməsi, onun nizamnamə fondunun artması nəticəsində respublikamızda kredit imkanlarının genişləndiyi aydın müşahidə olunur. Nəhayət, onu da deyim ki, Azərbaycanda qanunun formalaşması prosesi çox uğurla gedir. Məsələn, bizdə torpaqların özəlləşdirilməsi haqqında qanun var. İndi bələdiyyə, şəhər torpaqlarının özəlləşdirilməsi məsələsinin də həlli artıq başa çatmaqdadır. Bu, özəl mənzil tikintisinin inkişafı üçün də lazımi hüquqi baza yaradır. [468-469]

Bütün bunlarla əlaqədar onu da demək istəyirəm ki, Azərbaycanda həyata keçirilən düzgün siyasətin nəticəsində artıq bu il mənzil tikintisinə kredit buraxılması sahəsində də müəyyən inkişaf vardır. Zənnimcə, bu, gələn il böyük canlanmaya səbəb olacaqdır.

**S u a l: Mənim adım Pət Böcsdür, «Kəspiən Treyd Sentr» şirkətini təmsil edirəm. Mənim bir çox şirkətlərlə sıx ədaqəm vardır. Onlar gəlib Bakıda iş görmək istəyirlər.**

**Mənim sualım təhsil barədədir. Azərbaycanda Qərb texnologiyasını öyrənmək sahəsində nə kimi işlər görülür?**

**H e y d ə r Ə l i y e v**: Bəli, bu məsələ bizi də maraqlandırır. Biz də istəyirik ki, gənclərimiz müasir tələblərə uyğün həm təhsil alsınlar, həm də təcrübə qazansınlar. Biz bu işi artıq başlamışıq. Azərbaycanda təhsil sistemində ciddi islahatlar həyata keçirilir. Bilməlisiniz ki, bizim yaxşı kadrlarımız vardır.

Sizin ölkənin şirkətlərinin nümayəndələri deyə bilərlər ki, onların Bakıdakı ofislərində və respublikamızda imzalanmış müqavilələrin həyata keçirilməsi sahəsində görülən işlərdə çalışanların 90 faizini azərbaycanlı kadrlar təşkil edirlər. Hesab edirəm, Birləşmiş Krallıq şirkətlərinin işindəki müsbət cəhət ondan ibarətdir ki, Azərbaycandan müxtəlif sayda mütəxəssisləri vaxtaşırı Böyük Britaniyaya gətirib burada hazırlayırlar, onlara yeni təcrübə öyrədib respublikamıza qaytarırlar. Mənə məlumdur ki, Azərbaycandan bir qrup mütəxəssis gəlib Şotlandiyada təcrübə keçibdir.

Mən eyni zamanda, çox məmnunam ki, siz bu sahəyə diqqət yetirirsiniz. Dediniz ki, bu məsələ sizi həm maraqlandırır, həm də siz onunla məşğul olursunuz. Sizdən xahiş edirəm ki, bu məsələ ilə daha sürətlə məşğul olun. İndiyədək gördüyünüz işlərə görə mən sizə təşəkkür edirəm. Sağ olun.

Bugünkü görüşə görə mən sizə təşəkkür edirəm. Mən sizi bir daha Azərbaycana dəvət edirəm. Bazar iqtisadiyyatı yolu ilə gedən demokratik bir ölkə kimi, Azərbaycanın çox parlaq [469-470] gələcəyi vardır. Biz bu gələcəyə öz iradəmizlə, Azərbaycanla müştərək iş görən, ölkəmizlə tərəfdaşlıq edən dostlarımızla birgə gedirik. Biz sizi də Azərbaycanın dostları hesab edirik və gələcəyə doğru sizinlə birlikdə getmək istəyirik.

Sizə işlərinizdə uğurlar arzulayıram. Şotlandiyaya, Edinburqa sülh, əmin-amanlıq, səadət arzulayıram. Birləşmiş Krallığın bütün vətəndaşlarına sağlamlıq, səadət, xoşbəxtlik arzulayıram. Sağ olun. [470]

## LONDONDAKI AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNDƏ TÜRKİYƏNİN «SAMAN YOLU» TELEVİZİYASI MÜXBİRİNİN SUALLARINA CAVAB

*24 iyul 1998-ci il*

**S u a l: Cənab prezident, Birləşmiş Krallığa rəsmi səfərinizin yekunu barədə nə deyərdiniz?**

**C a v a b**: Bu, çox gözəl bir ziyarət oldu və mən rəsmi səfərimdən çox məmnunam. Mən beşinci gündür ki, bu ölkədəyəm. Burada gözəl görüşlər, çox əhəmiyyətli danışıqlar oldu, Böyük Britaniya ilə Azərbaycan arasındakı əlaqələrin yüksəklərə qaldırılması üçün yaxşı bir təməl qoyuldu.

Bizim əlaqələrimiz indiyədək də çox yaxşı idi. Amma indi Birləşmiş Krallıqla Azərbaycanın əməkdaşlığının sürətlə inkişaf etdirilməsi üçün möhkəm zəmin yaradıldı. Bu, çox vacibdir. Çünki Birləşmiş Krallıqda yeni hökumət fəaliyyətə başlayıbdır. Bilirsiniz ki, Böyük Britaniyada keçənilki seçkilərdə Leyboristlər partiyası qalib gəlibdir. Onlar 18 il müxalifətdə olublar. Yeni hökumət qısa vaxtda çox dəyərli işlər görübdür. Mən bunu əvvəllər də bilirdim. Leyboristlər partiyasının təmsil olunduğu yeni hökumət təkcə Azərbaycanla əlaqədar yox, ümumiyyətlə, xarici siyasəti daha da gücləndirir.

Böyük Britaniyanın Qafqaz regionuna, ümumiyyətlə, Avropa ilə Asiyanı birləşdirən bölgəyə çox böyük marağı vardır. Bu, təkcə iqtisadi yox, həm də siyasi maraqdır. Bilirsiniz ki, onlar öz bəyanatlarında da deyiblər ki, apardıqları xarici siyasətdə Azərbaycana xüsusi əhəmiyyət verirlər, yer ayırırlar. [471-472] Biz bütün bunların hamısını qəbul edirik. Çünki Azərbaycan Qərb ölkələri ilə, o cümlədən Böyük Britaniya ilə bütün sahələrdə əməkdaşlığı genişləndirmək istəyir.

Böyük Britaniyaya rəsmi səfərim zamanı gördüyümüz işlər bu baxımdan çox əhəmiyyətlidir, dəyərlidir. Mən bütün bunlardan məmnunam və hesab edirəm ki, Birləşmiş Krallığa rəsmi səfərim çox uğurlu olubdur.

Bilirsiniz ki, Londonda «Azərbaycanda biznes» mövzusunda böyük bir konfrans keçirildi və mən orada iştirak etdim. Bu konfransa dünyanın bir çox ölkələrindən iş adamları gəlmişdilər. Orada 300-dən çox nümayəndə var idi. Mən oradakı çıxışımda Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrdən və Bakı-Ceyhan boru kəmərindən də geniş danışdım. Mən Birləşmiş Krallığın Baş naziri cənab Toni Bleyr ilə keçirdiyim görüşdə də Bakı-Ceyhan boru kəməri barədə geniş söhbət açdım.

İyulun 22-də Londonda Beynəlxalq Münasibətlər üzrə Kral İnstitutunda da mənim böyük bir görüşüm oldu. Oraya da xeyli adam toplaşmışdı. Mən Kral İnstitutundakı çıxışımda da Bakı-Ceyhan kəmərinin çəkilməsinin zəruri olduğundan bəhs etdim.

**S u a l: Cənab prezident, xahiş edirəm ki, Edinburqa səfəriniz barədə məlumat verəsiniz.**

**C a v a b**: Mənim Edinburqa səfərim də çox gözəl oldu. Bilirsiniz ki, Şotlandiya, Edinburq Böyük Britaniyanın dəyərli bir hissəsidir. Londonda olduğu kimi orada da mənim səfər proqramım çox sıx idi. Mən proqramda nəzərdə tutulanların hamısını yerinə yetirdim. Bütün görüşlərim çox uğurlu oldu.

Mən iyulun 23-də Edinburqda Şotlandiyanın işgüzar dairələrinin nümayəndələri ilə görüşdüm. Biz ətraflı danışıqlar apardıq. Şübhəsiz ki, şəhərin lord-provostu ilə və digər rəsmi şəxslərlə də görüşlər oldu. Biz Edinqburqun tarixi abidələrinə də baxdıq. Biz «Britiş Petroleum» şirkətinin sənaye-istehsal [472-473] kompleksi ilə tanış olduq. Onlar Temza çayı üzərindəki körpünün yaxınlığındakı limandan neftin daşınması və ixracı prosesini mənə göstərdilər. Sənaye-istehsal kompleksində «Bi-Pi»nin böyük bir muzeyi vardır və bu şirkətin indiyədək gördüyü işlər orada öz əksini tapıbdır. Biz bütün bunlarla da tanış olduq.

Bilirsiniz ki, Edinburqda XI əsrdə tikilmiş bir qəsr vardır. O, Şotland krallarının yaratdığı bir qəsrdir. Bu qəsr, ümumiyyətlə, Böyük Britaniyanın ən dəyərli tarixi-memarlıq abidəsidir. Həmin qəsrdə böyük bir rəsmi qəbul təşkil edilmişdi. Bilirsiniz ki, həmin qəsr kraliçanın sərəncamındadır. Həmin rəsmi qəbula Birləşmiş Krallığın xarici işlər üzrə dövlət naziri cənab Henderson da xüsusi olaraq gəlmişdi. Biz orada birlikdə olduq, çox səmərəli danışıqlar keçirdik.

Şübhəsiz ki, Şotlandiya Böyük Britaniyanın bir hissəsidir. Amma onların da istəkləri, arzuları vardır. Şotlandiyalı iş adamları Azərbaycanda çox iş görürlər. Biz bu işlərin daha da genişləndirilməsi üçün yaxşı danışıqlar apardıq. Mən Edinburqa səfərimdən çox razıyam. Biz oradan çox gec qayıtdıq.

**S u a l: Cənab prezident, xahiş edirik, əlahəzrət kraliça ilə görüşünüz barədə bizə bir qədər ətraflı məlumat verəsiniz.**

**C a v a b**: Əlahəzrət kraliça ilə mənim çox yaxşı söhbətim, danışıqlarım oldu. Biz bir çox məsələləri müzakirə etdik. [473]

# LONDONDAKI AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNDƏ AZƏRBAYCAN RƏSSAMLARININ SƏRGİSİNDƏKİ SÖHBƏTDƏN

*24 iyul 1998-ci il*

Xanımlar və cənablar! Əziz soydaşlarımız.

Bu gün burada, London şəhərindəki Azərbaycan Mədəniyyət Mərkəzində dünya şöhrətli Azərbaycan rəssamlarının əsərlərinin nümayiş etdirildiyi sərginin açılışında iştirak etmək mənə xüsusi zövq verdi. Vətənimizdən çox uzaqlarda, Avropanın ən qabaqcıl ölkələrindən birində xüsusi zövqlü Qərb tamaşaçısını əsasən, neft mövzusunda çəkilmiş Səttar Bəhlulzadənin «Neft ritmləri», Ömər Eldarovun «Fəhlə portreti», Elbəy Rzaquliyevin «Kompozisiya», Tağı Tağıyevin «Neft Daşlarında gecə», Mirismayıl Cəfərovun «Neft Daşları», Ələkbər Rzaquliyevin «Bayılda rezervuarlar», Nadir Qasımovun «Xəzər mənzərəsi», Arif Hüseynovun «Abşeron motivi», Mirzağa Qafarovun «Xəzər mənzərəsi», Anar Ələsgərovun «Qara sahil», Toğrul Dadaşovun «Konstruksiya» əsərləri ilə tanış edən Azərbaycan Mədəniyyət Mərkəzi bu məqsədlə, göründüyü kimi, rəssamlarımızın ən maraqlı əsərlərini cəlb etmişdir. Xalq rəssamı, görkəmli heykəltəraşımız Ömər Eldarov mənimlə yanaşı, mədəniyyətimizin burada toplanan pərəstişkarlarını, Londonda yaşayan soydaşlırımızı, eləcə də ölkəmizdə iş görən və sərginin açılışında iştirak edən bir sıra xarici şirkətlərin rəhbərlərini əsərləri sərgidə nümayiş etdirilən rəssamların işləri və fəaliyyəti ilə tanış etdi. [474-475]

Mən Londonda belə bir sərginin təşkil edilməsini yüksək qiymətləndirir, sərginin təşkilatçılarına təşəkkür edirəm.

Burada mənə Londonda buraxılan «Kəspiən» jurnalının son nömrəsi təqdim edildi. Belə bir jurnalın nəşr olunması, əlbəttə ki, çox təqdirəlayiq işdir. Jurnalın naşirlərindən olan Müslüm Eldarov bu son nömrədə dərc edilmiş materiallar haqqında mənə məlumat verdi. Jurnalın səhifələrində maraq doğuran vacib məsələlər əhatə olunur.

Bir daha sərginin təşkilatçılarına təşəkkürümü bildirir, sizə vətənimiz haqqında həqiqətləri, mədəniyyətimizi dünyaya çıxarmaq işində uğurlar diləyirəm. [475]

## LONDONDAKI AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNDƏ BİR SIRA ŞİRKƏTLƏRİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ* SÖHBƏT

*24 iyul 1998-ci il*

**Tim Eqqar** *(«Monument Oyl ənd Qaz» şirkətinin baş direktoru):* Cənab prezident, Böyük Britaniyada bir daha Sizi görməkdən şərəf duyduğumu və məmnun olduğumu bildirirəm.Təəssüflənirəm ki, Şotlandiyaya sizinlə bərabər gedə bilmədim. Amma eşitdim ki, Edinburqa səfəriniz də çox uğurlu olubdur.

**Heydər Əliyev**: Səmimi sözlərə görə minnətdarlığımı bildirirəm. Bəli, Şotlandiyaya səfərim də çox uğurlu oldu. Birləşmiş Krallığın xarici işlər üzrə dövlət naziri cənab Henderson da oraya gəlmişdi. Biz onunla həm söhbət etdik, həm də o, orada böyük bir rəsmi qəbul təşkil etdi. Həmin rəsmi qəbul Şotlandiyadakı qədim kral qəsrində keçirildi.

**Tim Eqqar**: Cənab prezident, həmin qəsrdə çörək yemək mənə nəsib olmayıbdır.

**Heydər Əliyev**: Oraya hər adamı buraxmırlar. Əgər mənimlə getsəydiniz, bəlkə də mümkün olardı. Gələn dəfə gələndə sizi oraya apararam.

Həmin kral qəsrində böyük bir rəsmi qəbul oldu. Şotlandların qədim müsiqi alətində ifa olunan müsiqi də çox xoşagələndir. [476-477]

**Tim Eqqar**: Cənab prezident, iyulun 22-də Londonun «Viktoriya və Albert» müzeyində Azərbaycan incəsənət ustalarının konserti çox gözəl oldu. Kaş onların daha 2-3 gün Londonda qalıb Azərbaycan musiqisini Böyük Britaniyanın gözəl salonlarında təbliğ etmək imkanları olaydı. Buna çox ehtiyac vardır.

**Heydər Əliyev**: Bəli, buna ehtiyac vardır. Biz həmin konsertə sizinlə birlikdə baxdıq. Muzeyin salonuna Böyük Britaniyanın çox dəyərli insanları toplaşmışdılar. Azərbaycanın incəsənət ustaları xalqımızın musiqisini orada çox gözəl nümayiş etdirdilər. Mən bu ifaçıları dəfələrlə dinləmişəm. Amma mən həmin konsertdə çox böyük hisslər keçirdim.

**Tim Eqqar**: Cənab prezident, Sizi əmin edirəm ki, Britaniya-Azərbaycan Cəmiyyəti belə tədbirlərin keçirilməsini bundan sonra da davam etdirəcəkdir.

**Heydər Əliyev**: Bilirsiniz, mən Edinburqda təşkil olunmuş rəsmi qəbuldakı nitqimdə də bir çox məsələlərdən bəhs etdim, Britaniya-Azərbaycan Cəmiyyəti yaradılmasının çox tarixi bir hadisə olduğunu qeyd etdim. Cənab Eqqar, siz və Azərbaycanın Britaniyadakı səfirliyi bu sahədə çox böyük iş görmüsünüz. Çünki dörd il bundan əvvəl mən buraya ilk dəfə gələndə bu sahədə heç bir iş görülmürdü, necə deyərlər, hər şey tamam quru yerdə idi. Amma indi böyük bir cəmiyyət vardır.

Şübhəsiz ki, bizim dövlətlərarası əlaqələrimiz qurulub inkişaf edəcəkdir. Amma Britaniya-Azərbaycan Cəmiyyətini siz mənə bu səviyyədə təqdim etdiniz, - bu, çox böyük hadisədir. Mən ümid edirəm ki, bu işi davam etdirəcəksiniz və cəmiyyətin sədri kimi siz bu işləri irəliyə doğru aparacaqsınız.

**Heydər Əliyev**: Mən bizim bu görüşümüzdə iştirak edən Böyük Britaniyanın «Şell» və Amerikanın «Teksako» şirkətlərinin rəhbərləri ilə də görüşməyimə şad olduğumu bildirir və onları səmimiyyətlə salamlayıram. Bu şirkətlərin [477-478] Azərbaycanla əlaqələrinin daha da möhkəmləndirilməsinin vacib olduğunu vurğulayıram.

**Fil Vots**: (*«Şell» şirkətinin icraçı direktoru):* Hörmətli cənab prezident, Sizinlə görüşdən şərəf duyduğumu bir daha bildirirəm və eyni zamanda, Sizin Birləşmiş Krallığa rəsmi səfərinizin Böyük Britaniyada hədsiz maraq doğurduğunu nəzərinizə çarpdırıram.

**Heydər Əliyev**: Ümidvaram ki, ölkələrimiz arasında yaranmış yaxşı münasibətlər həm «Şell», həm də «Teksako» şirkətləri ilə də əməkdaşlığımızın genişlənməsinə səbəb olacaq və bunun üçün Azərbaycanda hər cür şərait yaradılacağını vurğulayıram. [478]

---

* Görüşdə Böyük Britaniyanın «Monument Oyl ənd Qaz», «Şell» və Amerikanın «Teksako» şirkətlərinin rəhbərləri iştirak etmişlər.

## LONDONDAN BAKIYA QAYIDARKƏN BÖYÜK BRİTANİYAYA RƏSMİ SƏFƏRİN YEKUNLARI BARƏDƏ TƏYYARƏDƏ JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*24 iyul 1998-ci il*

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına səfər başa çatıbdır. Biz vətənə dönürük. Bir saatdan sonra Bakıda hava limanına enəcəyik. Siz bütün bu səfər zamanı mənimlə bərabər olmusunuz, görüşlərin demək olar ki, əksəriyyətində iştirak etmisiniz. Güman edirəm ki, özünüzün müşahidələriniz vardır. Amma mən, eyni zamanda, müəyyən qədər ümumiləşdirmələr edərək, səfər haqqında sizə bir neçə söz çatdırmaq istəyirəm.

Bildiyiniz kimi, bu, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri cənab Toni Bleyrin dəvəti ilə rəsmi səfər idi. Bu səfər artıq başa çatandan sonra hesab edirəm ki, o, çox əhəmiyyətlidir, görüşlərimiz, danışıqlarımız məhsuldar olubdur. Səfərə yekun vuraraq hesab edirəm ki, o, Azərbaycan üçün çox uğurludur.

Böyük Britaniya ilə Azərbaycan arasındakı əlaqələr Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra yaranıbdır. Amma dövlətlərarası, hökumətlərarası görüşlər, imzalanmış müqavilələr1994-cü ilin fevral ayında mənim Londona ilk rəsmi səfərim zamanı olmuşdur. Mən hesab edirəm ki, o vaxt – Azərbaycanın müstəqilliyinin ilk illərində həmin səfər çox əhəmiyyətli oldu. Biz bir çox vacib müqavilələr, sənədlər imzaladıq. Mən və Baş nazir Birləşmiş Krallıqla Azərbaycan [479-480] arasında dostluq və əməkdaşlığa dair siyasi bəyannamə imzalamışdıq. Mənim Böyük Britaniyanın Baş naziri ilə ondan sonrakı illərdə də həm Londonda, həm də beynəlxalq təşkilatların toplantılarında bir çox görüşlərimiz, danışıqlarımız olmuşdur. Mən Böyük Britaniyanın bir sıra nazirləri ilə də görüşlər keçirmişəm. Böyük Britaniyanın xarici işlər naziri Azərbaycanda səfərdə olmuşdur və hökumətlərimiz arasında bir neçə digər mühüm sənədlər imzalanmışdır.

Amma bilirsiniz ki, keçən il Birləşmiş Krallıqda hökumət dəyişikliyi olmuşdur. Orada parlament seçkiləri keçirilmiş və 18 il hakimiyyətdə olan Mühafizəkarlar Partiyası seçkilərdə uduzmuş, Leyboristlər partiyası hakimiyyətə gəlmişdir. Beləliklə, onların qayda-qanunlarına görə hökumət tamamilə dəyişilmişdir. Bu səfərin mənası yeni hökumətin, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycana dair siyasətini daha da genişləndirmək, inkişaf etdirmək arzusundan ibarətdir və bu məqsədi daşıyır. Ona görə də mənim bu səfərim baş veribdir. Mənə rəsmi dəvət gəlibdir, məhz rəsmi dəvətə görə bu səfəri həyata keçirmişəm.

Deyə bilərəm ki, çoxsaylı danışıqlarımız olubdur. Dilarə Seyidzadə mənə bildirdi ki, hesablayıb, - 46 görüş olubdur. Amma iş görüşlərin sayında deyildir,baxmayaraq ki, sayın da özünəməxsus mənası vardır. Bilirsiniz ki, mən iyulun 20-də səhər saat 9-dan görüşlərə başlamışam və bu gün hava limanına gələnə qədər görüşlər keçirmişəm. Hesab edirəm ki, qarşıya qoyduğumuz məqsədə nail olmaq üçün ötən beş gün çox məhsuldar olubdur. Çoxsaylı görüşlərin hər birinin özünəməxsus əhəmiyyəti və mənası vardır. Onların hamısı birlikdə Azərbaycan ilə Birləşmiş Krallıq arasında bugünkü əlaqələrin vəziyyətini əks etdirir və eyni zamanda, bu əlaqələri gələcəkdə daha da inkişaf etdirmək üçün çox möhkəm zəmin yaradır.

Şübhəsiz ki, bu görüşlər içərisində əlahəzrət kraliça ilə görüşüm xüsusi əhəmiyyət daşıyır. Bilirsiniz ki, bu ölkənin [480-481] özünəməxsus tarixi ənənələri vardır və onlar öz ənənələrinə sadiqdirlər. Kraliça çox az xarici ölkələrin başçıları ilə görüşür. Mən İkinci dünya müharibəsində qələbənin 50 illiyi münasibətilə 1995-ci ildə Londonda keçirilən böyük mərasimdə iştirakım zamanı kraliça ilə görüşüb söhbət etmişdim. Ancaq həmin görüş mərasim çərçivəsində olmuşdu. Bu dəfəki görüş isə Azərbaycan Respublikasının dövlət başçısının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının kraliçası ilə görüşü idi. Biz bu görüşdə bir neçə məsələ barədə fikir mübadiləsi apardıq. Onların əksəriyyəti siyasi xarakter daşıyır. Kraliça Azərbaycanın tarixi, mədəniyyəti ilə də çox maraqlandı.

Mənim hökumət üzvlərinin demək olar ki, çoxu ilə görüşlərim oldu. İyulun 21-də Baş nazir Toni Bleyrlə görüşümüzün, danışıqlarımızın nəticəsi olaraq çox mühüm əhəmiyyətli sənədlər imzalandı. Toni Bleyrlə mən İkinci dünya müharibəsində qələbənin 50 illiyi münasibətilə 1995-ci ildə Londonda keçirilən mərasimdə, o, - hələ müxalifət partiyasının rəhbəri olduğu zaman görüşmüşdüm. Sonra biz beynəlxalq təşkilatların Madriddə və Strasburqda keçirilmiş toplantılarında görüşmüşdük. Ancaq onlar məhdud xarakter daşıyır. Bu görüş isə, hesab edirəm ki, mənim Böyük Britaniyaya səfərimin əsas, zirvə görüşüdür. Biz ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi barədə bir çox məsələləri ətraflı müzakirə etdik. Mən bütün başqa görüşlərdə olduğu kimi, burada bir daha hiss etdim ki, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Azərbaycanla əlaqələri daha da genişləndirmək, yüksəklərə qaldırmaq, çoxşaxəli etmək istəyir.

Baş nazir Toni Bleyr özü bir neçə dəfə təkrar etdi ki, şübhəsiz, biz iqtisadi əməkdaşlığın genişləndirilməsinə çox böyük əhəmiyyət veririk. Bu əlaqələr indi yaxşı səviyyədədir. Ancaq biz siyasi sahədə də əmək-

daşlığımızı genişləndirməliyik və inkişaf etdirməliyik. Hökumətin bütün üzvləri ilə gö[481-482]rüşlərdə bu, öz əksini tapan əsas fikir idi. Ancaq Baş nazir bunu geniş mənada ifadə etdi.

Mən ümumiyyətlə, hiss etdim ki, Birləşmiş Krallığın hökuməti regionumuza, yəni Qafqaz, Mərkəzi Asiya regionuna çox böyük maraq göstərir və bu bölgədə həm iqtisadi, həm də siyasi cəhətdən daha fəal rol oynamaq istəyir. Baş nazirdən sonra xarici işlər naziri də bəyan etdi ki, onlar Azərbaycanda öz səfirliklərinin ştatını artıracaqlar, səfirliyi genişləndirəcəklər. Hətta məndən xahiş etdilər ki, səfirliyə təzə ştatlara münasib olan yeni bina verilməsində onlara yardım edim. Bunlar hamısı mənim bu dediklərimi bir daha təsdiq edir.

Nəhayət, bunların hamısı bu fikrə gətirir. Baş nazir Toni Bleyr iyulun 21-də keçirdiyimiz görüşümüzdə bu fikirləri bəyan etmişdir. Xarici işlər naziri Daq Henderson da bu fikri bəyan etmişdir. Bilirsiniz ki, Birləşmiş Krallıqda Xarici İşlər Nazirliyi iki təbəqədən ibarətdir. Onlardan biri yüksək təbəqədir, ona Robin Kuk, ikincisinə isə Daq Henderson rəhbərlik edirlər. Cənab Henderson mənim səfərimlə əlaqədar iyulun 23-də Edinburqa gəlmişdi. Onlar Edinburqda bizim şərəfimizə böyük bir ziyafət verdilər. Daq Henderson oradakı nitqində bəyan etdi ki, bizim ölkələrimizin əlaqələri strateji tərəfdaşlıq xarakteri daşımalıdır. Mən də bu fikirlə razı olduğumu bildirdim.

Beləliklə, hesab edirəm ki, bu danışıqlar, görüşlər Azərbaycanı daha da çox tanıtdı, ölkəmizin bugünkü rolunu, əhəmiyyətini sübut etdi. İyulun 21-də sənədlərin imzalanması mərasimindəki çıxışında Baş nazir Toni Bleyr bəyan etdi ki, Azərbaycan dünya siyasətində açar rolunu oynamalıdır.

Mən bunların hamısından çox razıyam. Çünki Böyük Britaniya dünya siyasətinə təsir edən nüfuzlu dövlətlərdən biridir. Həm Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvüdür, həm ATƏT-də, həm də Avropa Birliyində, Avropa Şurasında çox güclü səsə malikdir. Ona görə də bu [482-483] ölkə ilə əlaqələrin genişləndirilməsinin bizim üçün çox böyük əhəmiyyəti vardır.

Şübhəsiz ki, Baş nazirlə danışıqlarımız zamanı biz bütün məsələləri müzakirə etdik. Biz xüsusən də Ermənistan-Azərbaycan münaqişəsinin başvermə tarixi, səbəbləri, bugünkü vəziyyət və ölkəmizin mövqeyi barədə məsələləri nəzərdən keçirdik. Böyük Britaniya hökuməti bizim mövqeyimizlə tam razıdır. İmzaladığımız birgə siyasi bəyannamədə bunlar hamısı öz əksini tapıbdır.

Bilirsiniz ki, cənab Toni Bleyrlə mən, Azərbaycan Respublikasının prezidenti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannamə imzaladıq. Həmin siyasi bəyannamədə Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini təmin edən bütün müddəalar, o cümlədən Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Lissabon zirvə toplantısında qəbul olunmuş üç prinsip əsasında həll edilməsi öz əksini tapıbdır. Şübhəsiz ki, biz, danışıqlara başlamamışdan əvvəl bu bəyannamənin mətni hazır idi. Ancaq mən söhbətimizdə bu məsələni xüsusi olaraq dərinləşdirdim. Mən dedim ki, biz Dağlıq Qarabağa dövlət müstəqilliyi verilməsinə heç vaxt razı ola bilmərik. Biz sülh istəyirik, məsələ sülh yolu ilə həll olunmalıdır. Ancaq biz ərazimizin hər hansı bir kiçik hissəsinin də başqa ölkəyə verilməsinə heç vaxt razı ola bilmərik. Bu bizim qəti, prinsipial mövqeyimizdir. Biz bu mövqeyimizdən heç vaxt geriyə çəkilmərik.

Baş nazir bu fikirləri yüz faiz dəstəklədi. Mən ona dedim, o da mənə dedi ki, beynəlxalq hüquq normaları, Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in prinsipləri var, bunlar dəyişilməzdir. Ona görə də mən həmişə demişəm, indi də deyirəm: Ermənistan tərəfi gec-tez bunu anlamalıdır və anlayacaqdır. [483-484]

Çox məmnunam ki, bu məsələ təkcə onunla yox, başqa görüşlərdə də ətraflı müzakirə olundu. Mən hətta konfranslardakı çıxışlarımda da bunların hamısını bəyan etmişəm.

Baş nazirlə görüşümüzdə xüsusi yer tutan bir məsələdə Avropa-Qafqaz-Asiya nəqliyyat magistralı məsələsi, böyük «İpək yolu»nun bərpa olunması sahəsində görülən işlər idi. Baş nazir bu məsələyə çox böyük maraq göstərdi. Mən bu məsələnin tarixini, mahiyyətini və əhəmiyyətini ona xəritədə çox ətraflı izah etdim. O, çox məmnun oldu. Böyük Britaniya bu işə qoşulub və qoşulur. Sentyabr ayının 7-8-də Azərbaycanda keçiriləcək zirvə görüşündə – konfransda şübhəsiz ki, Böyük Britaniya iştirak edəcəkdir.

Mən qeyd etdim, - Baş nazirlə görüşümüzün, danışıqlarımızın nəticəsi o oldu ki, onun iqamətgahında həm siyasi bəyannamə imzaladıq, həm də Böyük Britaniyanın iri şirkətləri ilə Azərbaycan arasında müqavilələr imzalandı. «Bİ-Pİ» şirkəti ilə imzalanan müqavilə çox böyük müqavilədir, Azərbaycanın Xəzər dənizindəki ən zəngin yataqlarından biri barədədir. Orada üç yataq var, keçmişdə, kəşf olunanda cürbəcür adlar qoyulmuşdu. Ancaq indi müqaviləni hazırlayanda yeni adlar qoyduq – «Araz», «Alov» və «Şərq» yataqları. Bunlar üçü birlikdə böyük bir blok təşkil edir. Bu yataqda pay bölgüsünün 30 faizinin «Bİ-Pİ/Statoyl» şirkətlərinə verilməsi haqqında müqavilə imzalandı. Hesab edirəm, bu, çox böyük müqavilədir. Orada dəniz çox dərindir və onların bu sahədə çox böyük imkanları və təcrübəsi var. Hesab edirəm ki, bu, çox perspektivlidir.

Başqa bir yataq var – «İnam» yatağı. O da zəngin yataqdır. Bu yatağa, - elə «Bİ-Pİ» ilə müqavilə imzaladığımız yataqlara da, - xarici şirkətlər çox böyük maraq göstərirdilər. Amma «Bİ-Pİ» ən yüksək iqtisadi təkliflər verdi, buna görə də biz müqaviləni onunla imzaladıq. [484-485]

Siz bilməlisiniz, bu müqavilələr böyük tenderlər nəticəsində hazırlanıb və imzalanıbdır. Çox şirkətlər hər bir yatağa maraq göstərirdilər. Nəhayət, ən yüksək iqtisadi göstəricilər təklif edən şirkətlərlə müqavilələr imzalamağa nail olmuşuq.

«İnam» yatağı barədə Böyük Britaniyanın «Monument oyl», Amerikanın məşhur «AMOKO» şirkətləri və Rusiyanın Moskva şəhərinə mənsub olan yeni bir şirkəti ilə müqavilə imzaladıq.

Muradxanlı adlanan yerdə yatağımız var. Mənim xatirimdədir, bu neft yatağı 70-ci illərdə kəşf olunubdur. O vaxt oradan çox yaxşı neft əldə edirdik. Sonra isə bəzi səbəblərdən bu yatağı yaxşı işlədə bilmədilər və indi o, çox az neft verir. Ancaq «Remko» şirkəti bu yatağa çoxdan maraq göstərirdi və bir sıra təkliflər verdi. Bu yatağın müştərək işlənilməsi haqqında da müqavilə imzaladıq.

Bilirsiniz ki, biz Bakıda otel və biznes mərkəzinin tikilməsi haqqında Bakı şəhəri ilə «Morrison» şirkəti arasında müqavilə imzaladıq. O, inşaat sahəsində fəaliyyət göstərən özəl şirkətdir.

Beləliklə, mən hesab edirəm ki, həm siyasi bəyannamə, həm də imzalanmış müqavilələr çox əhəmiyyətlidir. Ümumiyyətlə Böyük Britaniya ilə aramızda olan əlaqələri, xüsusən iqtisadi əlaqələri tənzimləyən hüquqi-normativ sənədlər çoxdur, lazımi qədərdir. Ona görə də indi əlavə sənədlərin imzalanmasına ehtiyac yox idi.

Dedim ki, mən hökumət üzvlərinin bir çoxu ilə görüşdüm. Bu görüşlərin hər biri çox əhəmiyyətli, vacib və bizim üçün lazım idi. Bu təşəbbüs onların tərəfindən oldu.

Ancaq bir neçə başqa görüş də oldu. Məsələn, Britaniyada Azərbaycanda təhsil sahəsində bəzi tədbirlər aparan bir şura var. Onun rəhbəri də gəlib mənimlə görüşdü. Mən xüsusən Britaniya-Azərbaycan Cəmiyyətinin yaranmasını və bu səfərim zamanı oteldə böyük bir salonda onun üzvləri ilə [485-486] görüşümü bildirmək istəyirəm. Bu da böyük hadisədir. Çünki mənim xatirimdədir, 1994-cü ilin fevral ayında buraya gələndə Böyük Britaniya Azərbaycan üçün yalnız bir dünya dövləti idi. Orada səfirliyimizi təzəcə açmışdıq, bundan savayı heç bir şey yox idi. Amma bu dörd il müddətində əlaqələrimiz o qədər genişlənib, Azərbaycana maraq o qədər artıb ki, Britaniya-Azərbaycan Cəmiyyəti yaranıbdır. Bu cəmiyyəti yaradanlar da İngiltərənin tanınmış adamlarıdır – keçmiş nazirlər, ölkənin ictimai- siyasi həyatında çox böyük yer tutan adamlardır və Azərbaycana maraq da çoxdur. Bu, çox əhəmiyyətlidir. Mən buna çox yüksək qiymət verirəm.

Mən hesab edirəm ki, bu görüşlərdən ən əhəmiyyətliləri geniş auditoriyalardakı görüşlərimdir. Bilirsiniz ki, ayın 22-də Londonda böyük bir iqtisadi konfrans açılmışdı. Konfransı Böyük Britaniyanın «Ay-Bi-Si» şirkəti təşkil etmişdi və altı-yeddi ay idi ki, buna hazırlıq aparırdı. Bu, beynəlxalq konfrans idi və onda iştirak edənlər hərə öz xahişi ilə və öz pulu hesabına gəlmişdi. Konfransda iştirak etmək üçün pul vermək lazım idi, adi konfrans deyildi. İndi görün, Azərbaycana nə qədər böyük maraq var ki, həmin salonda, - siz özünüz orada idiniz, - üç yüzdən artıq adam vardı. Bunların hamısı iş adamları idi – həm Böyük Britaniyanın, həm də bir çox başqa ölkələrin nümayəndələri iştirak edirdilər. Çoxları çıxış etməyə həvəs göstərirdi, bəziləri də çıxış etmək imkanı olmadığına görə çox məyus olmuşdular. Konfransa Azərbaycandan bir çox nazirlər dəvət edilmişdi.

Mən orada giriş sözü söylədim. Siz iştirak edirdiniz və çıxışımın məzmunu sizə məlumdur. Ancaq konfransın əhəmiyyəti bundan ibarətdir ki, Azərbaycanın iqtisadiyyatına olan böyük marağı və Azərbaycanda işləmək istəyən adamların sayının get-gedə artmasını göstərir. Eyni zamanda göstərir ki, xarici investorların Azərbaycanda işləməsi üçün normal şərait, imkan var. Əgər bunlar olmasa, onlar Azərbaycana gəl[486-487]məzlər. Dəfələrlə bu rəqəm səsləndi və Baş nazir də, başqa nazirlər də fərəh hissi ilə dedilər ki, indi Azərbaycanda Böyük Britaniyanın 100-dən artıq şirkəti işləyir. Xatirinizdədirmi, hətta mən bundan istifadə edərək, iki-üç yerdə dedim ki, hesab edirəm, Böyük Britaniyaya səfərimin ən böyük nailiyyəti ondan ibarətdir ki, Amerika Birləşmiş Ştatları ilə Böyük Britaniya arasında rəqabət yaradıram. Ancaq onlar hesab edirlər ki, artıq indi Azərbaycanda Böyük Britaniya şirkətlərinin sayı Amerika Birləşmiş Ştatlarının şirkətlərindən çoxdur. Çoxdur və hesab edirəm ki, bu, gözəl bir göstəricidir. Ona görə mən həmin beynəlxalq iqtisadi konfransa da çox əhəmiyyət verirəm. O, çox böyük nəticələr verəcəkdir.

Bununla bərabər, mən hesab edirəm ki, Beynəlxalq Əlaqələr üzrə Kral İnstitutunda görüşüm də çox əhəmiyyətli oldu. Orada keçən dəfə də görüşüm olmuşdu. O vaxt da Azərbaycana böyük maraq var idi. Ancaq bu dəfə gördüm ki, maraq ondakından qat-qat artıqdır. Salon ağzına qədər dolu idi. Orada olan adamların da hamısı öz arzusu ilə gəlmişdi və siyasət sahəsində iş aparan, siyasət institutlarında işləyən adamlar, jurnalistlər, ayrı-ayrı ölkələrin səfirləri və səfirliklərin nümayəndələri idilər.

Görüş sırf siyasi xarakter daşıyırdı. Ona görə də, xatırinizdədir, mən ancaq siyasi məsələlər haqqında danışdım və imkandan istifadə edib, birinci növbədə Ermənistan-Azərbaycan münaqişəsinin tarixini və bugünkü vəziyyətini açdım ki, qoy bilsinlər. Çünki, təəssüf ki, keçmiş zamanlarda təbliğatımız, izahat işimiz zəif olduğuna görə, Dağlıq Qarabağ problemini başlayan, Azərbaycana təcavüz edən, torpaqlarımızı işğal edən, bir milyona qədər azərbaycanlını yerindən-yurdundan didərgin salan ermənilər olsa da, onların təbliğatı güclü olmuşdur. Onların diasporu çox güclü olmuşdur. Ümumiyyətlə, bu sahədə daha mahir olduqlarına görə üstünlük həmişə onlarda olubdur. [487-488]

Çox zaman belə hesab edirdilər ki, bu problemdə günahkar guya Azərbaycandır. Mən hesab edirəm ki, son illər bizim xarici siyasətimizin, - təkcə bu ölkədə yox, ümumiyyətlə dünyada, - ən böyük nailiyyəti on-

dan ibarətdir ki, nəhayət, biz Azərbaycan reallığını, gerçəkliyini dünyaya çatdıra, dünyada ictimai-siyasi fikri dəyişdirə bildik. Şübhəsiz ki, Ermənistan tərəfi hələ də güc göstərməyə çalışır. Onların gücü, adamları çoxdur, diasporları güclüdür. Bəlkə də bu işləri Ermənistan hökumətindən çox, onların diasporu, lobbiləri görür.

Bizim nə bu qədər diasporumuz, nə də lobbimiz var. Ona görə də biz xarici siyasətimizin gücünə, öz imkanlarımıza istinad edirik, bunlardan istifadə edirik. Bizim gördüyümüz işlər öz nəticəsini verir və bu baxımdan Beynəlxalq Əlaqələr üzrə Kral İnstitutundakı görüş, mənim oradakı çıxışım çox əhəmiyyətlidir və buna böyük qiymət verirəm.

Edinburqa, yəni Şotlandiyaya səfərimiz də çox əhəmiyyətli oldu. Bilirsiniz ki, Şotlandiya Böyük Britaniyada çox mühüm yer tutur. Bilirsiniz ki, onların özlərinin daxili problemləri var. Vaxtilə Şotlandiya ilə İngiltərə arasında müharibələr gedib, qırıblar-öldürüblər, sonra birləşiblər. İndi də özlərinə müəyyən qədər səlahiyyət əldə etmək arzuları var. Bu arzular da müəyyən qədər yerinə yetirilir.

Şotlandiya bu ölkənin sənaye cəhətdən inkişaf etmiş hissəsidir və neft sahəsinin də əsası buradadır. Ona görə mən oraya dəvəti qəbul etmişdim. «Bİ-Pİ»nin oradakı işlərii ilə tanış olduq. Çünki «Britiş Petroleum»un gördüyü işlər, həm neft hasilatı, həm də neft emalı sahəsindəki texnologiyaları mənim üçün çox əhəmiyyətli idi. Bir də, şübhəsiz ki, ora qədim diyar, tarixi şəhərdir, tarixi abidələr şəhəridir, orada kraliçanın sarayı var, bunlar da onlar üçün müqəddəsdir.

Orada Meriyada görüşümüz, danışıqlarımız oldu. «Bİ-Pİ» ilə çox gözəl danışıqlar apardıq, mən işlərlə tanış oldum. Böyük bir ziyafət verdilər. Ondan öncə Şotlandiyanın işgüzar [488-489] dairələrinin nümayəndələri ilə görüşüm oldu. Bu da çox əhəmiyyətli görüş idi.

Nəhayət, XI əsrdə tikilmiş qəsrə getdik. Bu qəsri bizim üçün açdılar, - onu çox nadir hallarda, - açırlar. Orada bizə ziyafət verdilər. Amma təkcə ziyafət cəhəti deyil, bu həm də siyasi xarakter daşıyır. Orada nazir, hesab edirəm ki, səfərimizi yekunlaşdıran çıxış etdi, - siz o çıxışla tanış olacaqsınız. Orada mən də çıxış etdim.

Ümumiyyətlə, səfər çox əhəmiyyətlidir, maraqlıdır və çox məmnunam. Hesab edirəm ki, Azərbaycan xalqının mənə tapşırdığı səlahiyyətləri bu günlərdə də layiqincə yerinə yetirdim. Sağ olun. Həm də təşəkkür edirəm ki, mənimlə bərabər bu əziyyətlərə dözmüsünüz.

**Rəfael Hüseynov** *(«Amerikanın səsi» radiosunun Azərbaycan üzrə müxbiri):* Cənab prezident, suallara vaxt qalmasa da, bir məqamı demək istəyirəm. Siz adətən Bakıdakı görüşlərdə, beynəlxalq görüşlərdə bizə kifayət qədər imkan yaradırsınız ki, lazımınca məlumat alaq. Bir növ, belə öyrənmişik. Ümumiyyətlə isə, dünyada praktika belədir ki, jurnalistlərə çox məhdud imkan yaradırlar. Onların yaratdıqları məhdudiyyət Bakıda olsaydı, deyəcəkdilər ki, Heydər Əliyev guya demokratiyanı pozur.

**Heydər Əliyev**: İndi görün də, bizdə aşkarlıq, mətbuata münasibət necədir, inkişaf etmiş dövlətlərdə necədir. [489]

## LONDONDAN BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*24 iyul 1998-ci il*

**S u a l**: **Cənab prezident, səfərin nəticələrini necə qiymətləndirirsiniz**?

**C a v a b**: Səfərin nəticələri çox gözəldir. Məni müşayiət edən mətbuat nümayəndələrinə təyyarədə geniş, bir saat məlumat verdim. Yəqin ki, onu sabah televiziyada verəcəklər, dinləyərsiniz. Səfər çox yaxşı,uğurlu keçdi. Hər sahədə gözlənildiyindən də yaxşı oldu.

Başlıcası ondan ibarətdir ki, biz Böyük Britaniya ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf etdirilməsi üçün çox yaxşı əsas yaratdıq və əlaqələrimizin gələcək inkişafının yeni mərhələsi başlandı, Böyük Britaniyanın hökuməti, Baş nazir və nazirlər Azərbaycan ilə Böyük Britaniya arasında xüsusən siyasi sahədə əlaqələrin inkişafına çox maraq göstərirlər və arzularını bildirdilər, mən də bununla razı oldum.

**S u a l**: **Cənab prezident**, **Siz Londonda olarkən «Faynenşl tayms» qəzetinin yaydığı məlumata görə**, **«BiPi/Statoyl» alyansı Bakı-Ceyhan boru kəmərinin maliyyələşdirilməsini tamamilə öz üzərinə götürməyi təklif edib**, **Siz isə bunun qəti əleyhinə çıxmısınız**. **Bu**, **həqiqətə nə dərəcədə uyğundur**?

**C a v a b**: Bilirsiniz, bu, xırda bir şeydir. Onların belə bir təklifi var, mən buna etiraz etmədim. Biz sadəcə, onlara izah etdik ki, konsorsiuma daxil olan şirkətlər əvvəlcə gərək bizə Bakı-Ceyhan xətti barədə öz layihələrini versinlər. Biz bunu [490-491] oktyabr ayında gözləyirik. Bunu kim icra edəcək, - onu sonra müəyyən edəcəyik. Şübhəsiz ki, «Britiş Petroleum» şirkəti boru kəmərləri tikməkdə çox böyük təcrübəyə malikdir. Dünyanın ən böyük neft kəmərini onlar Alyaskada tikiblər. Bu barədə təcrübələri böyükdür, yaxşı texnologiyaları var.

Ancaq bu, ikinci mərhələnin işidir. Əgər gələcəkdə lazım olsa, bunu edə bilərlər.

**S u a l**: **Amma Azərbaycan dəfələrlə bildirmişdir ki**, **boru kəmərinin operatoru ARDNŞ olsa**…

**C a v a b**: Bilirsiniz, operatorluq ayrıdır, icraçılıq ayrı. Onlar operatorluq məsələsini qoymurdular. Onlar icraçı olmaq, bunu həyata keçirmək istəyirlər.

**S u a l**: **Cənab prezident**, **son müqaviləyə – London müqaviləsinə qədər** 12 **müqavilə imzalanıb**, **bunlardan yalnız biri – «Əsrin müqaviləsi» işləyir**.

**C a v a b**: Müqavilələrin hamısı işləyir və onlar ölkələrimiz arasındakı işlərin görülməsi üçün tam yetərlidir. Sağ olun. [491]

# Q E Y D L Ə R

1. **İtaliya**, İ t a l i y a  R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min km², əhalisi 57,5 milyon nəfərdir. Paytaxtı Roma şəhəridir. İnzibati cəhətdən 20 vilayətə bölünür. – 5-8.

2. **Oskar Luici Skalfaro** (d.1918) – İtaliyanın siyasi və dövlət xadimi, hüquqşünas, Xristian Demokratik Partiyasının rəhbərlərindən biri. Bir neçə dəfə İtaliya parlamentinə deputat seçilmiş, 1992-ci ildə parlamentin sədri olmuşdur. 1966-87-ci illərə qədər bir sıra nazirliklərə rəhbərlik etmiş,1992-ci ildə isə İtaliya Respublikasının prezidenti seçilmişdir. Hazırda sabiq prezident kimi ömürlük senatordur. –5

3. **Romano Prodi** (d.1939) – İtaliyanın siyasi və dövlət xadimi, hüquqşünas. 70-ci illərin axırlarında sənaye naziri, 80-ci illərin sonunda isə Sənaye Yenidənqurma İnstitutunun prezidenti olmuşdur. 1995-ci ildən sol mərkəzçilər koalisiyasına başçılıq edir. 1996-cı ildən Prodinin təmsil olunduğu «Zeytun ağacı» partiyası seçkilərdə qalib gəlir və Romano Prodi Baş nazir seçilir. – 5

4. **Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** – Respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 6,22,310.

5. **«Eni-Acip»** – İtaliyanın neft şirkətlərindən biri. Neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. – 6. [492-493]

6. «**Acip**» – dünyanın ən iri neft şirkətlərindən biri. İtaliyanın «Acip» şirkəti 1926-cı ildə yaradılmışdır. «Acip» 1995-ci ildən Azərbaycanın neft layihələrində fəal iştirak edir. Neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. – 6.

7. **«LUKoyl»** – «LUKoyl» neft şirkəti 1993-cü ildə Rusiya Federasiyası hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 6, 197.

8. **Avropa Birliyi** (AB) – 1951-57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi - AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi AAEB. AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun - vahid valyutadan istifadə etməsi - AVRO-dan) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986-1987-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra - AİB, AKPB və AAEB – Avropa Birliyi – 1993-cü ildə isə Avropa Şurası yarandı. –

9. **ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır.
1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. –

10. **ATƏT-in Lissabon zirvə görüşü** — 1996-cı il dekabrın 2-4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in 54 üzvünün dövlət və hökumət başçılarının iştirakı ilə növbəti Zirvə toplantısı keçirildi. Toplantıda müzakirə olunan məsələlər arasında Azərbaycan Respublikası nümayəndə heyətinin təkidi ilə gündəliyə salınan Ermənistan-Azərbaycan münaqişəsi geniş diskussiyaya səbəb oldu. Azərbaycan Respublikası nümayəndə [493-494] heyətinin başçısı Prezident Heydər Əliyevin qəti, prinsipial mövqeyi və gərgin səyi nəticəsində yekun sənədə əlavə kimi qəbul edilən ATƏT sədrinin bəyanatında ilk dəfə olaraq ən yüksək səviyyədə münaqişənin həllinin əsası kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü 53 dövlət tərəfindən qətiyyətlə dəstəkləndi və Dağlıq Qarabağın yalnız Azərbaycan Respublikasının tərkibində statusunun müəyyən olunması öz əksini tapdı. –

11. **Boris Yeltsin**, Boris Nikolayeviç (d.1931) – Rusiyanın siyasi və dövlət xadimi. 1991-2000-ci illərdə Rusiya Federasiyasının ilk prezidenti olmuşdur. –

12. **Qazaxıstan Respublikası** – Avroasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min km², əhalisi 16 679 min nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı – prezident, qanunvericilik orqanı birpalatalı Ali Sovetdir.

13. **Astana** (1961-ci ilə qədər Akmolinsk, 1961-92-ci illərdə Selinoqrad, 1992-1998-ci illərdə Akmola) – 1998-ci ildən Qazaxıstanın paytaxtı. Əsası 1830-cu ildə qala kimi qoyulmuş, 1832-ci ildən isə şəhərdir.

14. **Nursultan Nazarbayev**, Abiş oğlu (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989-91-cı illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-cı ildə Qazaxıstan SSR-in prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. –

15. **Transqafqaz nəqliyyat dəhlizi** (TRASEKA) – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transqafqaz nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 14, 15,32, 137, 484. [494-495]

16. «**İpək yolu**», «Böyük İpək Yolu» – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl 2-ci əsrin sonlarından eramızın 16-cı əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin «Böyük İpək Yolunun» yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də «Böyük İpək Yolu» üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – «Böyük İpək Yolunun» bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. –

17. **Avrasiya nəqliyyat dəhlizi** – bax Transqafqaz nəqliyyat dəhlizi .

18. **Ceyhan limanı** – Aralıq dənizi sahilində liman. Uzunluğu 1695 km olacaq Bakı–Tbilisi–Ceyhan neft kəmərinin çəkilməsi nəzərdə tutulmuşdur. 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Bakı–Tbilisi–Ceyhan neft kəməri 2005-ci ildə istifadəyə veriləcək. –

19. **TRASEKA** – bax Transqafqaz nəqliyyat dəhlizi .

20. «**Manas**» – qədim qırğız qəhrəmanlıq eposu. Eposun manasçılar tərəfindən söylənilmiş 18-dən çox variantı qeydə alınmışdır. Nə vaxt yarandığı hələlik dəqiq müəyyənləşdirilməmişdir.

21. **Əmir Teymur**, Teymurləng, Teymur, Topal Tey-mur (1336-1405) – Orta Asiya görkəmli dövlət xadimi, sərkərdə, əmir. Teymurilər imperiyasının banisi. Türkləşmiş barlas tayfasından idi; sağ çiynindən və dizindən aldığı zədədən ayağı qatlanmadığına görə «Teymurləng» (Topal Teymur) ləqəbi ilə tanınmışdır. Teymurləng üç yuruşündə (1386-87; 1392-97; [495-496] 1399-1404) Azərbaycanda olmuşdur. Əlincə qalası uğrunda 14 il mübarizə aparan Teymurləng buraya 4 dəfə (1387,1393,1397,1400) yürüş etmiş, ciddi döyüşlər aparsa da məqsədinə nail ola bilməmişdi. –

22. **Füzuli** Məhəmməd Süleyman oğlu (1494-1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. –

23. **Abay Kunanbayev** (1845-1904) – görkəmli qazax şairi, maarifçi, qazax realist yazılı ədəbiyyatının banisi. –

24. «**Kitabi-Dədə Qorqud**» – türk xalqları və Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi. «Kitabi-Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanının hələlik XV-XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) tapılmışdır. –

25. **YUNESKO** – BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. –

26. **Süleyman Dəmirəl** (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993-2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. Süleyman Dəmirəlin siyasi həyatının mənasını Türkiyəni iqtisadi cəhətdən dinamik inkişaf edən, demokratik dəyərlərə əsaslanan, Avropa ilə qovuşan bir dövlətə çevirmək əzmi təşkil etmişdir. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur. Süleyman Dəmirəl: «Türkiyə həmişə Azərbaycanın yanındadır, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir, onun inkişaf etməsi üçün əlindən gələn hər bir yardımı göstərmişdir və göstərməkdə də davam edəcəkdir» kəlamına əbədi sadiq dövlət xadimidir.

S.Dəmirəl Türkiyə-Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. –

27. **İslam Kərimov**, İ s l a m A b d u q ə n i o ğ l u (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989-1990-cı illərdə Özbəkistan KP MK-nın birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının prezidentidir. –

28. **Vəhhabilik** – ortodoksal islamda yaranmış dini-siyasi cərəyan. XVIII əsrin axırlarında Nəcddə yayılmışdı. Banisi Məhəmməd ibn Əbdül-Vəhhabdır. Başlıca ehkamı vahid allaha inamdır. Vəhhabilər Quranı qəbul etsələr də, islam dinində müqəddəslərə pərəstişi, dərvişliyi rədd edir, cihada böyük diqqət verirlər. Səudiyyə Ərəbistanında hakim ideologiya olan vəhhabilik Hindistan, Əfqanıstan, İndoneziya və bəzi Afrika ölkələrində də yayılmışdır.

30. **Əsgər Akayev** (d.1944) – Qırğızıstanın siyasi və dövlət xadimi, fizik, akademik. 1989-90-cı illərdə Qırğızıstan EA-nın prezidenti, 1990-2005-ci illərdə Qırğızıstan Respublikasının prezidenti olmuşdur.

31. **İssık-Kul** – Qırğızıstanın şimal-şərqində, Tyanşan dağlarında axarsız göl. Dünyada ən böyük dağ göllərindən biri. Uzunluğu 178 km, eni 60 km-ə qədər, sahəsi 6236 km$^2$-dir. Dərinliyi 668 metrə çatır. İssık-Kul axarsız olduğu üçün şordur.

32. **Ümumdünya Səhiyyə Təşkilatı** (ÜST) – BMT-nin ixtisaslaşdırılmış dövlətlərarası idarəsi, məqsədi bütün dünya xalqlarının sağlamlığını yüksək səviyyəyə qaldırmaqdır. 1946-cı ildə yaradılmışdır. ÜST ağır və infeksion xəstəliklərə qarşı mübarizə aparmaqda müxtəlif ölkələrə kömək göstərir, dərman preparatlarına, narkotik dərmanlara və s. nəzarət edir. Qərargahı Cenevrədədir.

33. **İsa Hüseynov**, İ s a M u s t a f a o ğ l u (d.1928) – Azərbaycanın xalq yazıçısı. Onlarla povest və romanlar müəllifidir. «Məhşər» tarixi romanı böyük Azərbaycan şairi İ.Nəsimiyə həsr olunmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur.

34. **Hacıbaba Bağırov** (d.1933) – respublikanın xalq artisti. 1962-ci ildən 1988-ci ilədək Ş.Qurbanov adına Musiqili Komediya Teatrında işləyib. 1989-cu ildə «Tənqid-təbliğ» satira teatrını yaradıb. 1996-cı ildən [498-499] Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru və bədii rəhbəridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur.

35. **Mstislav Rostropoviç**, R o s t r o p o v i ç M s t i s l a v L e o p o l d o v i ç (d.1927) – Bakıda doğulmuş böyük rus musiqiçi, violençelist, dirijor. Lenin mükafatı laureatı, SSRİ xalq artisti. Bakı Musiqi Akademiyasının fəxri professoru. Azərbaycan Respublikasının «İstiqlal», «Şöhrət» və «Heydər Əliyev» ordenləri ilə təltif olunmuşdur.

36. **Üzeyir Hacıbəyov**, H a c ı b ə y o v Ü z e y i r Ə b d ü l - h ü s e y n o ğ l u (1885-1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional müsiqi sənətinin və milli operasının banisi, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı.–

37. **Qalina Pavlovna Vişnevskaya** (d.1926) – görkəmli rus müğənnisi, SSRİ xalq artisti. M.Rostropoviçin arvadı. 1952-74-cü illərdə Böyük Teatrın aparıcı solistlərindən biri olmuşdur.

38. **Sovetlər İttifaqı**, S o v e t S o s i a l i s t R e s p u b l i k a- l a r ı İ t t i f a q ı (SSRİ) – 1922-1991-ci illərdə keçmiş Rusiya imperiyasının böyük hissəsində mövcud olmuş dövlət. SSRİ-nin yaradılmasına dair Müqaviləyə (dek.1922) əsasən onun tərkibinə Belorusiya (BSSR), Rusiya (RSFSR), Cənubi Qafqaz respublikaları (ZSFSR; 1936-cı ildən müttəfiq respublikalar – Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR) və Ukrayna SSR, 1925-ci ildə – Özbəkistan SSR, Türkmənistan SSR, 1929-cu ildə Tacikistan SSR, 1936-cı ildə Qazaxıstan SSR, Qırğızıstan SSR, 1940-cı ildə Moldaviya SSR, Latviya SSR, Litva SSR, Estoniya SSR daxil olmuşdular.

1991-ci ilin dekabrında Belorusiya, Rusiya və Ukrayna SSRİ-nin mövcudluğunun dayandırıldığını elan edərək Müstəqil Dövlətlər Birliyinin [499-500] (MDB) yaradılması haqqında Saziş imzaladılar (8 dekabr, Minsk). 1991-ci il dekabrın 21-də Latviya, Litva və Estoniya istisna olmaqla keçmiş SSRİ-nin digər müttəfiq respublikalarının başçıları Alma-Atada Bəyannamə imzalayaraq MDB-nin yaradılması haqqında məqsəd və prinsiplərə qoşulduqlarını bəyan etdilər. –

39. **Hacı Xanməmmədov**, H a c ı D a d a ş o ğ l u (1918-2005) – Azərbaycan bəstəkarı, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının (1952-54), Təbriz Filarmoniyasının (1946) bədii rəhbəri, Azərbaycan Dövlət Filarmoniyasının direktoru (1966-68) olmuşdur. H.Xanməmmədov müxtəlif janrlı əsərlərin müəllifidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur.

40. **Bakı Musiqi Akademiyası** – Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyası 1921-ci ildə yaradılıb. Bakı Musiqi Akademiyası Azərbaycanda ilk musiqi tədris müəssisəsidir. Buranın 4 fakültəsi var. Təhsil iki pilləlidir - bakalavr və magistratura. Bakı Musiqi Akademiyasının tərkibində Opera studiyası və musiqi məktəb studiyası fəaliyyət göstərir. –

41. **Bülbül**, M u r t u z a M ə ş ə d i R z a o ğ l u M ə m m ə- d o v (1897-1961) – Azərbaycan klassik vokal məktəbinin banisi, musiqi folkloru tədqiqatçısı. Bülbülün yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir. Azərbaycan Ali Sovetinin deputatı olmuşdur. SSRİ xalq artisti və SSRİ Dövlət mükafatları laureatı idi. –

42. **Qara Qarayev**, Q a r a Ə b u l f ə z o ğ l u (1918-1982) – böyük Azərbaycan bəstəkarı. Musiqisi geniş şöhrət qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Qarayevin müsiqi dili sahəsinə gətirdiyi yeniliklər Azərbaycan musiqisinin inkişafında olduqca mühüm rol oynamışdır. SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı idi. –

43. **Yuli Qusman**, Yuli Solomonoviç (d.1943) – tanınmış kinorejissor və ictimai xadim, Azərbaycan Əməkdar İncəsənət xadimi və xalq artisti. 1993-95-ci illərdə Rusiya Federasiyası parlamentinin deputatı olmuşdur. –

44. **Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhəridir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il [500-501] iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

1992-ci ildən Azərbaycan Respublikası BMT-nin üzvüdür. –

45. **Pikasso Pablo** (1881-1973) – dahi fransız rəssamı. Mənşəcə ispandır. Pikassonun yaradıcılığı mürəkkəb, ziddiyyətli və çoxcəhətlidir. Pikassonun müxtəlif dövrlərdə yaratdığı əsərlərdə ekspressionizm, neoklassizm, kubizm, sürrealizm və s. cərəyanların yaradıcılıq prinsiplərinə əsaslanmışdır. Erkən yaradıcılığı «mavi» və «çəhrayı» dövrlərə ayrılır. Pikassonun üslüb xüsusiyyətləri tez-tez dəyişirdi. 1910-cu illərin ortalarından başlayaraq neoklassizm və realizm ruhunda əsərlər yaradır. Pikasso müxtəlif boyakarlıq əsərləri ilə yanaşı heykəltəraşlıq, keramika və qrafika əsərləri yaratmışdır.

46. **Şaqal Mark Zaxaroviç** (1887-1985) – görkəmli fransız boyakarı və rəssamı. 1922-ci ilə qədər Rusiyada yaşamış, sonra isə Fransaya mühacirət etmişdir. Modernizmin ən güclü nümayəndələrindəndir.

47. **Araqon Lui** (1897-1982) – fransız yazıçısı, sürrealizmin banilərindən biri. 30-cu illərdə sosializm prinsiplərini fəal təbliğ etmişdir. Alman-faşist işğalı dovrundə Araqon Müqavimət hərəkatının təşkilatçılarından olmuşdur.

48. **Çarli Çaplin**, Ç a p l i n S p e n s e r (1889-1977) – dahi amerikan artisti, rejissor və ssenarist. Çaplinin yaradıcılığında qrotesk və parodiya üslubları, eləcə də pantomima, xalq teatrı, müzikholl və sirk sənətlərinin ifadə vasitələri əhəmiyyətli yer tutmuşdur. Onun filmlərində komiklik faciəliklə qovuşur, qəhrəmanları yoxsullar dünyasını təcəssüm etdirir. Dramatik, lirik və üumoristik səhnələrin və vəziyyətlərin üzvü uyarlığı Çaplin filmlərinin ən diqqətəlayiq cəhətlərindəndir. Dahi artist, rejissor, humanist olan Çaplin dünya kinosunun inkişafına böyük təsir göstərmişdir. –[501-502]

49. **Sikorski Vladislav** (1881-1943) – general, 1922-23-cü illərdə Polşanın Baş naziri və hərbi naziri, 1939-43-cü illərdə Polşa mühacirət hökumətinin Baş naziri olmuşdur.

50. **Nadejda Pavlova** (d.1956) – rus balet artisti. SSRİ xalq artisti. 1975-ci ildən Böyük Teatrda balet tamaşalarının əsas aparıcılarındandır.

51. **Vyaçeslav Qordeeyev** (d.1948) – rus balet artisti, baletmeyster, SSRİ xalq artisti. 1984-cü ildən Moskva balet ansamblının rəhbəridir. 1995-97-ci illərdə Böyük Teatr da balet truppasının bədii rəhbəri olmuşdur.

52. **Elbəy Rzaquliyev**, E l b ə y M i r z ə H ə s ə n o ğ l u (d.1926) – Azərbaycan boyakarı və kino rəssamı. Yaradıcılığında tarixi – inqilabi mövzular, əməyin tərənnümü, portretlər mühüm yer tutur. Elbəy Rzaquliyev kino rəssamı («Görüş», «Ögey ana», Arşın mal alan», «Sevil», «Tütək») kimi də məşhurdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni təltif olunmuşdur.

53. **Böyük Britaniya**, B ö y ü k B r i t a n i y a v ə Ş i m a l i İ r l a n d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Raytaxtı London şəhəridir. –

54. **Kraliça Yelizaveta** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georqin ölümündən sonra taxt-taca sahib olmuşdur. –

**55. «Bi-Pi» şirkəti** – bax «Britiş Petroleum»

56. **Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas mə[502-503]suliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. –

57. **Moskva Akademik Satira Teatrı** – 1924-cü ildə yaradılmışdır. Moskva Satira Teatrının repertuarında siyasi və məişət mövzularında yazılmış həcvlər, satirik səhnəciklər, rus dramaturqlarının komediyaları əsas yer tutur.

58. **Qriqori Qorin** (1940-2000) – rus yazıçısı, dramaturq. Rusiya Federasiyasının əməkdar incəsənət xadimi.

59. **Aleksandr Şirvindt** (d.1934) – rus teatr və kino artisti, Rusiya Federasiyasının xalq artisti. 50-ci illərin ikinci yarısından Moskva satirik teatrlarında çıxış edir. SSRİ Dövlət mükafatı laureatıdır.

60. **Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (azərbaycan) dili elan edildi. İctimai həyatın digər sahələrinin milliləşdirilməsi sahəsində xeyli iş görüldü. Azərbaycan

respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919-20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəs[503-504]sisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan dövlət bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı-Batum neft kəməri bərpa edildi. –

61. **Gəncə** – Azərbaycanın qədim şəhərlərindən biri. 18 günlük Tiflis fəaliyyətindən sonra Azərbaycan Milli Şurası və hökuməti Gəncəyə köçdü. Hökumətin burada olduğu dövrdə bütövlükdə dövlət, o cümlədən şəhərin həyatına dair 120-dən çox müxtəlif qərarlar qəbul olundu. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1918-ci il 30 iyul tarixli qərarı ilə Gəncə (1804-1918-ci illərdə Yelizavetpol) şəhərinin tarixi adı yenidən özünə qaytarıldı. –

62. «**Koroğlu**» – Azərbaycan, Yaxın Şərq və Orta Asiyada geniş yayılmış qəhrəmanlıq eposu. XVII əsr tarixçilərinin verdiyi məlumatda Koroğlunun və onun silahdaşlarının adı çəkilir. Zaman keçdikcə Koroğlu mərdliyinə, şücaətinə görə türk xalqlarının əfsanəvi qəhrəmanına çevrilmişdir. –

63. **Babək**, **Babək əl-Xürrəmi** (təqr.795/798-838) – xürrəmilər hərəkatının rəhbəri, görkəmli Azərbaycan sərkərdəsi və siyasi xadimi. Babək Azərbaycan xalqının ərəb istilaçılarına və Xilafətə qarşı azadlıq müharibəsinə başçılıq etmişdir.

Babəkin rəhbərliyi ilə xürrəmilər 20 ildən çox yadellilərə qarşı mübarizə aparmışlar. Babək hərəkatı Abbasilər xilafəti üçün ciddi təhlükəyə çevrilmişdi. Buna görə də Babək hərəkatının getdikcə güclənməsindən qorxuya düşən xəlifə Mütəsim Bizans dövləti ilə sülh bağladı və Xilafətin bütün hərbi qüvvələrini xürrəmilərə qarşı göndərdi. 838-ci ildə xəyanət nəticəsində Babəki ələ keçirdilər və işgəncə ilə öldürdülər. –

64. **Ehsan xan Kəngərli** ( ? - ? ) – Naxçıvanın sonuncu xanı. 1826-28-ci illər Rusiya-İran müharibəsi zamanı Abbasabad qalası qarnizonunun hərbi rəislərindən biri olan Ehsan xan rusların tərəfinə keçmiş və qalanın alınmasında onlara kömək göstərmişdir. Azərbaycanın şimalı Rusiyaya birləşdirildikdən sonra general-mayor rütbəsi alan Ehsan xan İrəvan və Naxçıvan xanlıqlarının, Ordubad dairəsinin səlahiyyətli nümayəndəsi kimi Türkmənçay müqaviləsini (1828) imzalamışdır. Sonralar Krım [504-505] müharibəsində (1853-56) də vuruşmuş, «Müqəddəs Georgi» ordeni ilə təltif edilmişdir. Ehsan xan Kəngərlinin adı Kremlin Georgi salonunda qızılı hərflərlə yazılmışdır.

65. **Kəlbəli xan Ehsan xan oğlu Naxçıvanski** (?- 1883) – hərbi xadim, general-mayor. Sonuncu Naxçıvan xanı Ehsan xan Kəngərlinin oğlu, İsmayıl xan Naxçıvanskinin qardaşıdır. Krim müharibəsində (1853-56) igidliklə vuruşmuş, 1855-ci ildə leyb-qvardiya Qusar polkuna komandir təyin olunmuşdur. 1877-78-ci illər Rusiya-Türkiyə müharibəsində böyük şücaət göstərmiş, üçüncü dərəcəli «Müqəddəs Stanislav» ordeni, iki «Müqəddəs Georgi» ordeni ilə təltif olunmuş, brilyantla bəzədilmiş qılıncla mükafatlandırılmışdır.

66. **Hüseyn xan Kəlbəli xan oğlu Naxçıvanski** (1863-1919) – hərbi xadim. Kəlbəlı xan Naxçıvanskinin oğlu, Ehsan xan Kəngərlinin nəvəsidir. Qafqazda və Rusiyanın müxtəlif şəhərlərində hərbi xidmətdə olan Hüseyn xan Kalbaliya polkovnik rütbəsi verilmişdir. Birinci dünya müharibəsi cəbhəsində qazandığı qələbələrə və sərkərdəlik məharətinə görə 1916-cı ildə Hüseyn xana tam süvari qoşunu generalı rütbəsi verilmişdlir. «Müqəddəs Georgi» ordeninin dörd dərəcəsi ilə, ikinci dərəcəli «Müqəddəs Aleksandr», «Müqəddəs Vladimir» və bir çox başqa ölkələrin yüksək dərəcəli ordenləri ilə təltif olunmuşdur. Qəbri Sankt-Peterburqdakı Aleksandr Nevski monastırının qəbristanlığındadır.

67. **İsmayıl xan Ehsan xan oğlu Naxçıvanski** (1819-1918) – hərbi xadim. General-leytenant. Uzun müddət Qafqaz əlahiddə ordusunda xidmət etmişdir. 1877-78-ci illər Rusiya-Türkiyə müharibəsində göstərdiyi sərkərdəlik fəaliyyətinə görə süvari qoşunu general-mayoru rütbəsinə layiq görülmüşdür. Birinci və üçüncü dərəcəli «Müqəddəs Stanislav», üçüncü və dördüncü dərəcəli «Müqəddəs Vladimir», dördüncü dərəcəli «Müqəddəs Georgi» ordenləri ilə təltif olunmuşdur.

68. **Cəmşid xan Səfərqulu oğlu Naxçıvanski** (1895-1935) – hərbi xadim, briqada komandiri. Birinci dünya müharibəsində müsəlmanlardan təşkil olunmuş süvari eskadronun komandiri olmuş, sücaətlə vuruşmuş, dördüncü dərəcəli «Müqəddəs Georgi» ordeni ilə təltif olunmuşdur. Azərbaycanın müstəqilliyi uğrunda Cəmşid xan inamla vuruşmuşdur. 1920-ci ilin martında onun alayı Qarabağda daşnaklara qarşı döyüş əməliyyatlarında fəal iştirak etmişdir. 28 aprel (1920) çevrilişindən sonra [505-506] Azərbaycanın ilk

milli atıcı  diviziyasının komandiri təyin olunmuş, yüksək ixtisaslı kadr hazırlığında mühüm rol oynamışdır. 30-cu illərin axırlarında Cəmşid xan guya başçılıq etdiyi «casus təxribatçı dəstəsi» ilə mühacirətdə olan qardaşları (İran)  ilə əlaqə saxlamaqda təqsirləndirilərək repressiya qurbanı olmuşdur.

69. **Bakıxanovlar sülaləsi** – Bakıxanovlar nəslindən olan hərbçilər. Bu nəsildən XIX  əsrdə 17 hərbçi olub. Bunlardan Cəfər qulu ağa Bakıxanov (1799-1867) general-leytenant, Həsən ağa Bakıxanov (1834-?) general-mayor, Abdulla ağa Bakıxanov (?-1878) general rütbəsinə qədər yüksəlmişlər.

70. **Talişxanovlar sülaləsi** – Talışxanovlar nəslindən olan hərbçilər. Bunlardan Talış xanı və Talış qoşununun sərdarı Mir Mustafa xan Talışxanov ( ? -1814)  general-leytenant; Mir Kazımbəy Talışxanov (1854-1938) general-leytenant; Əsəd bəy Talışxanov (?-1919) general-mayor rübtəsinə qədər yüksəlmişlər.

71. **Fərəc bəy Ağayev** (1811-1891) – general-leytenant. 1837-ci ildə Qafqaz Əlahiddə Ordusunda müsəlman  süvari polkunda xidmətə başlayıb. Xidmətinin yeddinci ilində Fərəc bəy eskadron komandiri kimi Peterburqa göndərilir. Pererburqda o, birinci Nikolayın  xüsusi qvardiya  kazak polkunda leybqvardiya komandiri vəzifəsinə təyin olunur. Fərəc bəy özünün hərbi qabiliyyəti və igidliyinə görə qızıl xəncərlə, çoxlu hərbi ordenlərlə – 2 dəfə 1-ci dərəcəli  «Müqəddəs Anna» ordeni ilə təltif olunmuşdur.

72. **Ağalarov Həsən bəy** (1812-? ) – general-mayor. 1890-cu ildə kadet korpusunu bitirdikdən sonra Qafqaz müsəlman-süvari polkunda xidmət etmişdir. 1852-ci ildə Həsən bəy Ağalarov Qafqaz müsəlman-süvari polkunun komandiri təyin olunur. Ağalarov ömrünün axırına qədər döyüşən hissələrdə  hərbi borcunu şərəflə yerinə yetirmişdir.

73. **Ərəblinski Balakişi** (1818-1902) – general – leytenant. B.Ərəblinski Peterburqdakı kadet korpusunu bitirmişdir. Müxtəlif hissələrdə qüsursuz xidmət edən Ərəblinski gənc ikən, podpolkovnik rütbəsində briqada komandiri kimi məsul vəzifəyə irəli çəkilmişdir. Sonralar diviziya komandiri olan general-leytenant B.Ərəblinski o vaxt Rusiyanın apardığı bütün hərbi döyüşlərdə iştirak etmişdir. Ərəblinski yazılı qılınc [506-507] və 1-ci dərəcəli «Müqəddəs Stanislav» «Müqəddəs Anna» ordenləri ilə təltif olunmuşdur.

74. **Səmədbəy Mehmandarov**, S ə m ə d b ə y  S a d i q b ə y  o ğ l u (1857-1931) – hərbi xadim. 1908-ci ildən  artilleriya general-leytenantı. 1918-20-ci illərdə Azərbaycan Demokratik Respublikasının hərbi naziri olmuşdur. 1921-28-ci illərdə Azərbaycan komandirlər məktəbində dərs demişdir. –

75. **Əliağa Şıxlinski**, Ə l i a ğ a  İ s m a y ı l  A ğ a  o ğ l u (1865-1943) – hərbi xadim, artilleriya general-leytenantı. Peterburqda artilleriya məktəbini bitirmişdir. Rusiya-Yaponiya müharibəsində (1904-05) Port-Arturun müdafiəsində göstərdiyi igidliyə  görə qızıl qılıncla mükafatlandırılmışdır. 1908-ci ildə polkovnik, 1912-ci ildə isə  general-mayor rütbəsi almışdır. Birinci dünya müharibəsində (1914-18) Petroqradın artilleriya müdafiəsi Şıxlinskiyə tapşırılmışdı. Şıxlinski Nikolay ordusunda «artilleriyanın allahı» hesab olunurdu. 1920-ci ildə Azərbaycan SSR Xalq Hərbi və Dəniz İşləri komissarının müavini işləmişdir. 1929-cu ildə istefaya çıxmışdı.

76.  **Fətəli Xan Xoyski** (1875-1920) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi. 1918-20-ci illərdə  Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri, daxili işlər, ədliyyə və xarici işlər naziri olmuşdur. 1920-ci ildə Tiflis şəhərində erməni terrorçuları  tərəfindən xaincəsinə qətlə yetirilmişdir. –

77.  **Sulkeviç Məmməd bəy** (1865-1920) – hərbi xadim. Uzun müddət  çar Rusiyası ordusunda xidmət etmiş, general-leytenant rütbəsinə qədər yüksəlmişdir. 1919- cu ilin martında Azərbaycana gəlmiş, Azərbaycan Xalq Cümhuriyyəti ordusunda Baş Ərkani hərb (Baş qərargah) rəisi olmuşdur. –

78. **İkinci dünya müharibəsi** (1939-45) –  Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya  girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin  ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi. 1940-cı il iyunun 10-da İtaliya Almaniyaya qoşuldu. [507-508]

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. Bununla da Böyük Vətən müharibəsi başlandı.

1942-43-cü illərdə Sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında  qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı. 1944-cü il iyunun 6-da Avropada 2-ci cəbhə açıldı. Bunun da nəticəsində Fransa daxil olmaqla Mərkəzi və Cənub-Şərqi Avropa azad olundu.

1945-ci il mayın 2-də Sovet ordusu Berlini  aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. –

79. **İsrafil Məmmədov**, İ s r a f i l M ə h ə r r ə m o ğ l u (1919-1946) – Sovet İttifaqı Qəhrəmanı. 1941-ci ildə Məmmədovun vzvodu Novqorod vilayətinin Rustınka kəndi yaxınlığında almanların 300 əsgər və zabitini qırmışdı.

80. **Qafur Məmmədov**, Q a f u r N ə s i r o ğ l u (1922-1942) – Sovet İttifaqı Qəhrəmanı. 1942-ci ildə Qafur Məmmədovun xidmət etdiyi batalyon Tuapse uğrunda gedən döyüşlərdə iştirak edirdi. Bu vuruşmada o, sinəsini qabağa verib komandirini ölümdən qurtarmışdı.

81. **Hüseynbala Əliyev**, H ü s e y n B a l a Ə l i o ğ l u (1918-1941) – Böyük Vətən müharibəsi qəhrəmanı, qırıcı-təyyarəçi leytenant. Yeysk Hərbi Dəniz Təyyarəçilik məktəbini bitirmişdir. Müharibə başlayarkən Baltik Donanmasının hərbi hava qüvvələrində xidmət etmişdir. O döyüş uçuşu zamanı düşmənin 3 təyyarəsi ilə döyüşə girmiş, ölümcül yaralanmasına baxmayaraq 2 təyyarəni vurmuşdur.

82. **Mehdi Hüseynzadə**, M e h d i H ə n i f ə o ğ l u (1918-1944) – Yuqoslaviyada və Şimali İtaliyada Müqavimət hərəkatı iştirakçısı, məşhur partizan, Sovet İttifaqı Qəhrəmanı, leytenant. Mehdi Hüseynzadə partizan hərəkatında fəal iştirak etmiş və hitlerçilərə qarşı mübarizədə cəsurluğu ilə əfsanəvi şöhrət qazanmışdı.- 86. [508-509]

83. **Həzi Aslanov**, H ə z i Ə h ə d o ğ l u (1910-1945) – tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı. Böyük Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən H.Aslanov Stalinqrad vuruşmasında, 55-ci əlahiddə tank polku feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. H.Aslanov Mitağa şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. –

84. **Akim Abbasov**, A k i m Ə l i o ğ l u (1911-1996) – general-mayor. Böyük Vətən müharibəsində iştirak etmişdir. Müharibədən sonrakı illərdə polk komandiri, diviziya komandirinin müavini və komandiri vəzifələrində işləmişdir. Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur.

85. **Mahmud Əbilov**, M a h m u d Ə b d ü l r z a o ğ l u(1898-1972) – hərbi xadim, general – mayor. Böyük Vətən müharibəsi zamanı Pribaltika, Polşa, Çexoslovakiya və Macarıstanda gedən döyüşlərdə rəşadət göstərmişdir. Müharibədən sonrakı illərdə diviziya komandirinin müavini, atıcı diviziya komandiri olmuşdur. SSRİ Ali Sovetinin deputatı olmuşdur.

86. 416-**cı Taqanroq diviziyası**, 416-cı Azərbaycan diviziyası – 1942-ci ilin mart-sentyabr aylarında Azərbaycanda yaradılmış milli diviziya. Diviziya Taqanroq şəhərinin azad edilməsi uğrundakı döyüşlərdə göstərdiyi yüksək əsgəri xidmətə görə diviziyaya «Taqanroq» diviziyası fəxri adı verildi. Sovet İttifaqı marşalı D.K.Jukov diviziyanı Berlinə ilk yol açan hissələrdən biri adlandırmışdır. Diviziya Berlinin qapısı sayılan Küstrin şəhərinin alınmasında, Berlin əməliyyatında, Kayzer sarayının təmizlənməsində fəal iştirak etmişdir.

87. **Hüseyn Rəsulbəyov**, H ü s e y n C ü m ş ü d o ğ l u (1917-?) – hərbi xadim, artilleriya general-leytenantı. Böyük Vətən müharibəsi zamanı Odessa, Kerç, Şevastopol və Şimali Qafqazın müdafiəsində iştirak etmişdir. Müharibədən sonra Bakı Hava Hücumundan Müdafiə dairəsi qoşunlarında məsul hərbi vəzifələrdə xidmətdə olmuşdur. Azərbaycan Ali Sovetinin deputatı olmuşdur.- 89. [509-510]

88. **Bərşadlı Valeh**, V a l e h Ə y y u b o ğ l u (1927-2003) – tank qoşunları general-leytenantı. SSRİ Silahlı Qüvvələrində komandirlik fəaliyyəti göstərmişdir. 1991-ci ildə Azərbaycan Respublikasının müdafiə naziri, 1992-ci ildə isə Müdafiə Nazirliyi Baş Qərargahının rəisi vəzifələrində çalışmışdır. Azərbaycan Ali Sovetinin deputatı olmuşdur.

89. **Qasımbəyov Həmid**, H ə m i d H ə b i b o ğ l u (1923-2005) hərbi xadim, vitse-admiral. Böyük Vətən müharibəsində istirak etmişdir. 1945-76-cı illərdə Sakit okean, Şimal və Baltik hərbi dəniz donanmalarında müxtəlif vəzifələrdə çalışmışdır. 1977-ci ildən Xəzər Donanmasının komandanıdır.

90. **Ağahüseynov Tofiq**, T o f i q  Y a q u b  o ğ l u (d.1923) – artilleriya qoşunları general-polkovniki. Böyük Vətən müharibəsi zamanı 1-ci Belorusiya cəbhəsində Visla-Oder və Berlin əməliyyat-larıfnda iştirak etmişdir. 1975-ci ildən Bakı Hərbi- Hava Müdafiə dairəsi komandanının birinci müavini və Azərbaycan Ali Sovetinin deputatı olmuşdur.

91. **Səfər Əbiyev**, S ə f ə r  A x u n d b a l a  o ğ l u (d.1950) – general –polkovnik. 1995-ci ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. –

92. **Atəşkəs rejimi**. 1994-cü il mayın 12-də Moskvada Ermənistan–Azərbaycan arasında atəşin mü-vəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı. Müqaviləyə görə müharibə aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. –

93. **ATƏT-in Budapeşt Zirvə görüşü** – 1994-cü il dekabrın 3-7-də Macarıstanın paytaxtı Budapeştdə keçirilmişdir. Görüşdə ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçıları, o cümlə-dən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə hey-əti iştirak etmişdir. Heydər Əliyev Budapeşt sammitində bütün regionlarda və bütünlükdə qitədə sülh konsepsiyasının həyata keçirilməsi üçün çox əhəmiyyətli fəaliyyət göstərdi. Budapeşt zirvə görüşündə ilk dəfə olaraq Dağlıq Qarabağ problemi xüsusi məsələ kimi müzakirə olundu və «Dağlıq Qarabağ münaqi-şəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi» haqqında qətnamə qəbul olundu. – [510-511]

94. **Şərifov Abid**, A b i d  Q o c a  o ğ l u (d.1940) – inşaatçı. 1995-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini, fövqəladə hallar üzrə dövlət komissiyasının sədridir. –

95. **Konqres**, A m e r i k a  B i r l ə ş m i ş  Ş t a t l a r ı  K o n- q r e s i – ali qanunverici haki-miyyət orqanı. İki palatadan - Senatdan və Numayəndələr Palatasından ibarətdir. ABŞ-ın ictimai-siyasi həyatında mühüm rol oynayır.

Senatın 100 nəfər üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr Palatası-nın 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun lay-ihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təs-diq edir. Hər ilin yanvar ayında ABŞ prezidenti Senata gələrək ölkənin vəziyyəti barədə hesabat verir. –

96. **Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları Saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Mol-dova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə [511-512] fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azad-lıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırıl-masında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və xarici sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici işlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. –

97. «907-**ci maddə**» – ABŞ Konqresinin 1992-ci il oktyabrın 24-də erməni lobbisinin təzyiqi ilə qəbul etdiyi «Rusiyanın və yeni müstəqillik qazanmış dövlətlərin azadlığını müdafiə aktı»na 907-ci düzəliş nəzər-də tutulur. Düzəliş ABŞ hökumətinin Azərbaycan hökumətinə yardımını qadağan edir. Buna baxmayaraq istər Bill Klinton, istərsə də ondan sonra ABŞ prezidenti seçilən Corc Buş hökumətləri bu düzəlişin reallığı nəzərə almadığını təsdiq edərək onun ləğv edilməsi təklifini müdafiə etmişlər. C.Buş hökuməti 2002 və 2003-cü illər üçün bu düzəlişin fəaliyyətdən düşdüyünü qərara almışdır. –

98. **Bill Klinton**, U i l y a m  C e f e r s o n  B l a y d (d.1946) – ABŞ-ın siyasi və dövlət xadimi. ABŞ-ın 41-ci prezidenti (1992-2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra yeni müstəqillik qa-zanmış dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir.

99. **Əliyev İrşad**, İ r ş a d  N a d i r  o ğ l u (d.1944) – 1992-ci ildə Prezident aparatında məs-ləhətçi, 1992-94-cü illərdə Respublika Qaçqınlar və Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin sədri iş-

ləmişdir. 1994-cü ilin oktyabr ayından 2004-cü ilə qədər Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri olmuşdur. Hazırda Beyləqan rayonunun icra hakimiyyətinin başçısıdır. – 121. [512-513]

100. **Əli Nağıyev** (d.1954) – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziridir (1996). I çağırış Milli Məclisinin deputatı olmuşdur.

101. **Eldar Həsənov**, Həsənov Eldar Hümbət oğlu (d.1955) – 1995-2000-ci illərdə Azərbaycan Respublikasının baş prokuroru olmuşdur. 2001-ci ildən Azərbaycan Respublikasının Rumıniyada Fövqəladə və Səlahiyyətli səfiridir.

102. **Artur Rasizadə**, Artur Tahir oğlu (d.1935) – Azərbaycanın dövlət xadimi. 1986-92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur.

103. **Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial inkişafına kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür.

104. **Zbiqnev Bjezinski** (d.1928) – Amerikanın siyasi və dövlət xadimi. 1953-1960-cı illərdə Harvard universitetinin Rusiya tədqiqatçıları mərkəzinin əməkdaşı olmuşdur. 1966-1988-ci illərdə Dövlət Departamentinin Siyasi Planlaşdırma Şurasının üzvü olmuşdur. 1977-1981-ci illərdə ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri, Təhlükəsizlik Şurasının əməkdaşı olmuşdur. 1981-ci ildən Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin rəhbəridir. 1987-1991-ci illərdə ABŞ prezidentinin xarici kəşfiyyat üzrə müşavirlər komitəsinin üzvü olmuşdur. 1989-cu ildən Con Norkins universietinin Nitse adına Dərinləşdirilmiş BeynəlxalqTədqiqatlar Mərkəzinin rəhbəri, Amerika–Azərbaycan Ticarət Palatasının fəxri müşaviridir.

10-dan çox kitabın və bir sıra tədqiqatların müəllifidir. –

105. **Sultan Məhəmməd** (1470-ci illərin sonu – 1555) – Azərbaycan rəssamı. XVI əsr Təbriz miniatür məktəbinin başçısı. S.Məhəmməd əlyazmaları üçün illüstrasiyalar, real həyat hadisələrini əks etdirən miniatürlər, portretlər yaratmış, süjetli xalçalar və bədii parçalar üçün eskizlər çəkmişdir. Azərbaycan miniatür sənətinin inkişaf zirvəsini təşkil edən Sultan Məhəmməd yaradıcılığı orta əsr mənbələrində, eləcə də muasir Avropa sənətşünaslığında yüksək qiymətləndirilmişdir. – 133. [513-514]

106. 1990-**cı ilin yanvarında Azərbaycanda faciə baş verdi**. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən Sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin Qanlı Yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu.

107. **Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 1000 nəfərdən artıq adam öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. –

108. **Rumıniya** – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 237,5 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunvericilik orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir.

109. **Emil Konstantinesku** (d.1939) – Rumıniyanın siyasi və dövlət xadimi. 1992-1996-cı illərdə Buxarest universitetinin rektoru. 1996-2000-ci illərdə Rumıniya Respublikasının prezidenti olmuşdur. –

110. **«Əsrin müqaviləsi»** – 1994-cü ilin sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının və «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə.

111. **Avropa- Qafqaz-Asiya nəqliyyat dəhlizi** – bax Transqafqaz nəqliyyat dəhlizi.

112. **ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3-9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə relsindən əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti fəal iştirak edirdi.

113. **Konstansa** – Qara dəniz sahilində Rumıniyanın mühüm portu. Konstansada XVIII–XIX əsrlərdə tikilmiş məsscid vardır.

**114. Ployeşti** – Rumıniyanın cənubunda şəhər, əsas neftçıxarma mərkəzi.- 151. [514-515]

115. **Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı** – bax ATƏT

116. **Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını qorumaq, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə nazirliklərinin müşavirəsi və katiblikdir. Azərbaycan 2001-ci ildən AŞ-nın üzvüdür. –

117. **Ümumdünya Ticarət Təşkilatı** – 1947-ci ildə qəbul edilmiş müqavilə 23 ölkənin beynəlxalq ticarətdə gömrük rüsumlarının aşağı salınmasına və başqa çətinliklərin aradan götürülməsində hökumətlərarası qəbul etdiyi çoxtərəfli müqavilədir. Bu müqavilə 1995-ci ildə beynəlxalq ticarətdə rüsumlar haqqında qəbul edilmiş müqavilənin hüquqi varisidir.

Təşkilatın əsas prinsipi bütün iştirakçılar üçün münasib mühit yaratmaqdır. Təşkilata 130 ölkə daxildir.

118. **Avropa- Atlantika Tərəfdaşlıq Şurası**. 1997-ci ildə Şimali Atlantika Əməkdaşlıq Şurasının Portuqaliya sessiyasında yaradılmışdır. Tərkibinə 44 ölkə, o cümlədən Azərbaycan Respublikası daxildir. –

119. **NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10-11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzilqərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Baş katibi Xavyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 444. [515-516]

120. **TASİS** – 1991-ci ildə Avropa Şurası tərəfindən MDB dövlətlərinə texniki cəhətdən kömək etmək üçün yaradılan proqram. Proqram 2 hissədən – hər bir ölkəyə, o cümlədən Azərbaycana, region ölkələrinə texniki köməkdən ibarətdir.

Azərbaycan Respublikası TASİS proqramına 1992-ci ildə daxil olmuşdur. –

121. **Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. –

122. **Ramil Usubov** (d.1948) – general- polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının daxili işlər naziridir.

123. **Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. ABŞ-ın sahəsi 9,14 milyon km$^2$, əhalisi 265,3 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştata, ştatları isə 3133 qraflığa bölünür. Ali qanunvericilik orqanı iki palatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Paytaxtı Vaşinqton şəhəridir. –

124. **Albert Qor** (d.1948 ) – Amerikanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1992-2000-ci illərdə ABŞ-ın vitse-prezidenti olmuşdur. –

125. **Madlen Olbrayt** (d.1937) – ABŞ-ın tanınmış diplomatı və dövlət xadimi. [516-517]
1989-cu ildən ABŞ-ın Milli Siyasət Mərkəzinin prezidentidir. 1993-cü ildə ABŞ-ın BMT-dəki daimi nümayəndəsi təyin edilmişdir. 1997-2000-ci illərdə ABŞ-ın Dövlət katibi olmuşdur.–

126. 1995-**ci ilin martında dövlət çevrilişi cəhdi**. Martın 12-13-də Qazax və Agstafa, martın 16-17-də isə Bakının 8-ci kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstələrinin bir qrup üzvünün silahlı çıxışı nəzərdə tutulur. Respublika rəhbərliyinin qəti tədbirləri nəticəsində çevriliş cəhdinin qarşısı alındı və silahlı dəstə tərksilah olundu.

127. 1994-**cü ilin oktyabrında dövlət çevrilişi cəhdi**. Oktyabrın 3-də Gəncə və Qazaxda, həmçinin Bakıda Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən dövlət çevrilişi cəhdi nəzərdə tutulur. Həmən gün Bakıda fövqəladə vəziyyət elan edilmiş və Azərbaycan Prezidenti Heydər Əliyev televiziya və radio ilə xalqa müraciət etmişdi. Gecə olmasına baxmayaraq Bakı və ona yaxın yerlərdə yüz minlərlə insan Prezident Sarayı qarşısına toplaşaraq milli və vətəndaşlıq həmrəyliyi nümayiş etdirərək Heydər Əliyevin siyasətini müdafiə etdiklərini bildirirlər. –

128. «**Rosneft**» – Rusiya Federasiyasının iri neft şirkətlərindən biri. –

129. «**Azərbaycan**» – Azərbaycan Respublikasında gündəlik, siyasi, ictimai qəzet. Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur. 1992-ci ildən yenidən nəşr edilir. Azərbaycan Respublikası Milli Məclisinin orqanıdır.

130. «**Xalq qəzeti**» – Azərbaycan Respublikasında gündəlik, siyasi, ictimai qəzet. 1919-cu ildən «Kommunist» adı ilə nəşr edilmişdir. 1991-ci ildən isə «Xalq» qəzeti adlanır. Qəzetin təsisçisi Azərbaycan Respublikası prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyətidir.

131. «**Respublika**» –Azərbaycan Respublikasında gündəlik, ictimai, siyasi, sosial iqtisadi qəzet. 1996-cı ildən nəşrə başlamışdır. Qəzetin təsisçisi Azərbaycan Respublikası prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyətidir.

132. **Qorbaçov**, M i x a i l S e r g e y e v i ç (d.1931) – 1985-91-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1990-91-ci illərdə SSRİ-nin ilk və son prezidenti. Qorbaçov «yenidənqurma» adı ilə «aşkarlıq və demokratiya» siyasi xəttini, «humanist, demokratik sosializm» şüarını meydana atdı. Sovet totalitar rejimi ilə uyuşmayan «yenidənqurma» ölkəni dərin siyasi və iqtisadi böhrana saldı. Qorbaçovun milli münaqişələrə səbəb [517-518] olan siyasəti, xüsusən Azərbaycana qarşı qərəzli, düşmənçilik mövqeyi ilə səciyyələnirdi. Ermənilərin Azərbaycana olan torpaq iddialarını dəstəkləyən Qorbaçov 1990-cı ilin yanvarında Bakıda baş verən Qanlı Yanvar faciəsinin, həmçinin Tbilisi və Vilnüsdakı qanlı hadisələrin təşkilatçısı və günahkarıdır.

133. **Helsinki aktı**. 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Nelsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi oldu. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzaladılar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır.

134. «**İzvestiya**» – Rusiya Federasiyasında gündəlik, ictimai-siyasi qəzet. İlk nömrəsi 1917-ci ildə çıxmışdır. –

135. «**Pravda**» – gündəlik ictimai-siyasi qəzet. 1912-ci ildən çıxır. İlk sayı Peterburqda, 1918-ci ilin martından isə Moskva şəhərində nəşr olunur. –

136. **İon İliesku** (d.1930) – Rumıniyanın siyasi və dövlət xadimi. 1989-cu ildə N.Çayşesku rejimi devrildikdən sonra ölkənin və dövlətin bütün məsuliyyətini öz üzərinə götürən Milli dirçəliş Cəbhə Şurasına başçılıq edib. 1992-96-cı və 2000-2004-cü illərdə Rumıniyanın prezidenti.

137. **Luçinski Petru** (d.1940) – Moldovanın siyasi və dövlət xadimi. 1971-ci ildən 1989-cu ilə qədər dövlət və partiya işlərində müxtəlif vəzifələrdə çalışmışdır. 1997-2002-ci illərdə Moldova Respublikasının prezidenti olmuşdir.

138. **Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi-siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatında birləşən 180 min üzvü var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. [518-519] Hazırda parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) o vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri mərhum prezident Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir.

139. **Lujkov Yuri Mixayloviç** (d.1936) – Rusiyanın dövlət xadimi. 1987-ci ildə Moskva Soveti İcraiyyə Komitəsinin 1-ci müavini, 1990-cı ildə sədri olmuşdur. 1991-ci ildə Moskva şəhərinin vitse-meri, 1992-ci ildən isə meri və Moskva hökumətinin Baş naziridir. SSRİ və Rusiya Federasiyasının Dövlət mükafatları laureatıdır.

140. **Marietta Şaqinyan** (1888-1982) – rus yazıçısı. Sosialist Əməyi qəhrəmanı, Dövlət mükafatı laureatı.

141. **Qromıko Andrey Andreyeviç** (1909-1989) – Rusiyanın dövlət və siyasi xadimi, diplomat. Müxtəlif illərdə SSRİ-nin ABŞ-da səfiri, SSRİ Xarici İşlər nazirinin müavini və eyni zamanda SSRİ-nin BMT-nin Təhlükəsizlik Şurasında daimi nümayəndəsi, Böyük Britaniyada səfir. SSRİ xarici işlər naziri, SSRİ Ali Sovetinin sədri vəzifələrində çalışmışdır.

142. «**Literaturnaya qazeta**» – Rusiya Federasiyasında ədəbi, ictimai, siyasi qəzet. 1929-cu ildən Moskvada (fasilələrlə) nəşr edilir. –

143. **Bibiheybət ziyarətgahı** – Bakının Şıx kəndində türbə. Rəvayətə görə, türbədə şiələrin yeddinci imamı Museyi Kazımın qızı Hökumə və onun Heybət adlı nökəri dəfn olunmuşdur. «Bibiheybət» adının da buradan yarandığı güman edilir. Başqa rəvayətə görə, səkkizinci imam Rzanın qızı və bacısı Bakı yaxınlığında məskən salmış, burada da vəfat etmişlər. Onların dəfn olunduğu yerdə türbə, onun yanında isə 20 metrlik minarəsi olan məscid tikilmişdi. Məscidin XIII əsrin sonunda tikildiyi ehtimal edilir. 1994-96-cı illərdə məscid yenidən bərpa edilmişdir. – 229, 235. [519-520]

144. **Həzrəti Hökumə**, Həkimə – VII əsrdə yaşamışdır. Təxminən 1257-ci ildə Şirvanşah Fərrux Zal tərəfindən Bibiheybətdə onun şərəfinə birinci türbə tikilmişdir.

145. **Məhəmməd Peyğəmbər**, Məhəmməd ibn Abdul-lah (570/571–632) – İslamın banisi, siyasi və dövlət xadimi. İslama görə Məhəmməd əleyhüssəlam böyük peyğəmbər və «allahın elçisi» sayılmış, «Qurani-Kərimi» xalqa çatdırmışdır. –

146. **Rəfael Allahverdiyev**, Rəfael Xanəli oğlu (d.1945) – 1993-2001-ci illərdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, 1995-2005-ci illərdə Milli Məclisin deputatı olmuşdur. –

147. **Hacı Hikmət (d**.1954) – din xadimi 1994-cü ildən Bibiheybət məscidinin axundudur.

148. **Şeyxülislam**, Paşazadə Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. –

149. **Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974-76 və 1986-88-ci illərdə Fransanın Baş naziri, 1977-95-ci illərdə Paris şəhərinin meri olmuşdur. 1974-76-cı illərdə qollistlərin Respublikanın Müdafiəsi naminə Demokratik İttifaqı partiyasının Baş katibi, 1976-cı ildən Respublikanın Müdafiəsi naminə Birlik partiyasının sədridir. 1995-ci ildən Fransa Respublikasının prezidentidir.

150. **Şahin Əliyev**, Şahin Məhərrəm oğlu (d.1960) – hüquq elmləri namizədi. 1991-ci ildən Prezidentin İcra Aparatının qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri. [520-521]

151. **Vasif Talıbov**, Vasif Yusif oğlu (d.1960) – dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, 1995-ci ilin dekabrından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. –

152. **Həsən Əliyev**, H ə s ə n Ə l i r z a o ğ l u (1907-1993) – torpaqşünas, ümumi əkinçilik və təbiəti mühafizə sahəsində alim, ictimai-siyasi xadim. Elmlər doktoru, professor. Azərbaycan Milli EA-nın akademiki, Azərbaycan Dövlət mükafatı laureatı. Ayrı-ayrı illərdə Azərbaycan Milli EA Botanika İnstitutunun direktoru, Azərbaycan Kənd Təsərrüfatı nazirinin birinci müavini və Azərbaycan KP MK katibi, Azərbaycan Milli EA-nın akademik katibi, Azərbaycan Milli EA Coğrafiya İnstitutunun direktoru vəzifələrində çalışmışdır. Azərbaycan SSRİ Ali Sovetinin deputatı olmuşdur. –

153. **Cəfər Vəliyev**, C ə f ə r C ə b r a y ı l o ğ l u (d.1930) – hüquqhünas. 1953-78-ci illərdə müxtəlif məsul vəzifələrdə çalışmışdır. 1979-87-ci illərdə Azərbaycan Respublikasının Daxili işlər naziri olmuşdur. 1992 - 1999-cu illərdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri vəzifəsində çalışmışdır.

154. **Fransa**, F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km², əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezidentə və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. –

155. **Əlimərdan bəy Topçubaşov** (1865-1934) – Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri. Görkəmli hüquqşünas, ictimai-siyasi və dövlət xadimi, diplomat. 1917-1920-ci illərdə Bakı Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin sədri, Azərbaycan parlamentinin sədri. Paris (Versal) sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı olmuşdur. Parisdə vəfat etmişdir. –

156. **Bastiliyanın alınması** – Parisdə qala, 1370-82-ci illərdə tikilmişdir. XV əsrdən həm də dövlət həbsxanası idi. Bastiliyada əsasən siyasi dustaqlar saxlanılırdı. 1789-cu il iyulun 14-də Paris üsyançıları Bastiliyanı hücumla aldılar. Bu, Böyük Fransa inqilabının başlanğıcı idi. Bastiliyanın alındığı gün Fransanın milli bayramı (1880) kimi qeyd olunur.

**157. Kofi Annan** (d.1938) –1997-ci ildən Birləşmiş Millətlər Təşkilatının Baş katibidir.–

158. **Toni Bleyr**, **E** n t o n i Ç a r l z L i n t o n (d.1953) – B.Britaniyanın görkəmli siyasi və dövlət xadimi. Hüquqşünas. 1983-cü [521-522] ildən parlamentə deputat, 1994-cü ildən Leyboristlər partiyasının sədri seçilmişdir.1997-ci ildən B.Britaniyanın Baş naziridir. –

159. «**ANS**» **televiziyası** – Azərbaycanda 1991-ci ildən fəaliyyət göstərən müstəqil televiziya kanallarından biri. –

160. **London** (B ö y ü k L o n d o n ) – Böyük Britaniyanın paytaxtı. Dünyanın ən böyük şəhərlərindən və limanlarından biri. Əhalisi 7 milyon nəfərdir. İdarəçilik funksiyalarının çoxunu Böyük Londonun Bələdiyyə Şurası və dairə şuraları həyata keçirir. XI əsrin sonu XII əsrin əvvəlində London rəsmən İngiltərənin paytaxtı oldu.

**161. Birləşmiş Krallıq** – bax Böyük Britaniya, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı.

162. «**Ramko**» – İngiltərənin aparıcı neft kompaniyalarından biri. 1977-ci ildə yaradılmışdır. Dünyanın bir çox ölkələrində neftin çıxarılması, emalı və satışı ilə məşğuldur. 1994-cü ildən «Bi-Pi» və «Şell» ilə birlikdə «Azəri- Çıraq» yatağında kəşfiyyat işləri aparmışdı.

163. **NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cü il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi [522-523] əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. –

164. **ÇUAM** - Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan iba-

rət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. –

165. «**Konoko**» – beynəlxalq korporasiya. 1875-ci ildə yaradılmışdır. Dünyada özəl neft şirkətləri arasında 9-cu yeri tutur. Baş ofisi ABŞ-dadır. Dünyanın 25-dən çox ölkəsində fəaliyyət göstərir. 17 minə yaxın işçisi var. «Konoko» şirkəti neft yataqlarının kəşfiyyatı, işlənməsi, xam neft və qaz hasilatı, habelə yüksəkqiymətli qaz emalı ilə məşğuldur. Şirkət, eyni zamanda, neft emalı və satışı ilə məşğul olur. –

166. «**Şell**» – infrastrukturların formalaşdırılmasında, neft və kəmərlərin çəkilməsində, onların layihələrinin həyata keçirilməsində fəaliyyət göstərən korporasiya. Dünyanın 100-dən çox ölkəsində şirkətləri var. Bu şirkətlər 50-dən çox ölkədə geoloji kəşfiyyat işləri aparır. Dünyanın 34 ölkəsində 53 neftayırma zavodu tam və ya qismən «Şell»ə məxsusdur. «Şell» korporasiyası Azərbaycanla uzunmüddətli əlaqələr qurmaq və ölkəmizə külli miqdarda sərmayə qoymaq niyyətində olduğunu bildirmişdir. –

167. «**Lazma**» – İngiltərə şirkəti. Əlcəzairdə, Qabonda, Liviyada İndoneziyada neftin çıxarılması ilə məşğul olur. 2001-ci ildə «Eni» şirkəti ilə birləşib «Eni-Lazma» adlanır.

168. **Daq Henderson** (d.1949) – 1987-ci ildən Britaniya parlamentində Leyboristlər partiyasından deputat. 1995-97-ci illərdə parlamentdə müxalifətin lideri olmuşdur. 1998-ci ildə Böyük Britaniya xarici işlər naziri olmuşdur. –303, 305, 482. [523-524]

169. **Terri Devid Adamc** (1938) – görkəmli ingilis mühəndis-neftçi, geoloq. Əmək fəaliyyətinə 1963-cü ildə başlamışdır. 1969-cu ildən «Britiş Petroleum» şirkətinin bir çox ölkələrdə nümayəndəsi olmuşdur.

1994-1998-ci illərdə Azərbaycan Beynəlxalq Neft Konsorsiumunun ilk prezidenti olmuşdur.

Azərbaycanda səmərəli fəaliyyətinə görə 1997-ci ildə Böyük Britaniya krallığının «Müqəddəs Mixail» və «Müqəddəs Georgi», 1998-ci ildə isə Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. –

170. **Viktor Stepanoviç Çernomırdin** (**d.**1938) – Rusiya Federasiyasının dövlət xadimi. 1992-98-ci illər Rusiya Federasiyasının Baş naziri olmuş, hazırda Rusiya Federasiyasının Ukrayna Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir. –

171. **Şəfiqə xanım**, Məmmədova Şəfiqə Haşım qızı (d.1945) – aktrisa. Azərbaycan Respublikasının xalq artisti. SSRİ və Azərbaycan Respublikası Dövlət mükafatları laureatı. 1995-2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı.

172. **Şekspir**, Vilyam (1564-1616) – dahi ingilis dramaturqu və şairi. Şekspir 37 pyesin - komediyaların, tarixi dramların, faciələrin, poemaların, çoxlu sonetlərin müəllifidir. Dünya dramaturgiyasında facienəvisliyin inkişafında Şekspirin əsərləri yeni mərhələdir. «Hamlet», «Otello», «Makbet», «Kral Lir», «Antoni və Kleopatra» faciələri dünya mədəniyyəti xəzinəsinə daxil olmuş, bütün xalqların sərvətinə çevrilmiş, müxtəlif dillərə tərcümə olunmuş, milli səhnələrdə təkrar-təkrar tamaşaya qoyulmuş, ekranlaşdırılmışdır. –320, 321. [524-525]

173. **Supsa limanı** – Qara dəniz sahilində liman. 1996-cı il martın 8-də Bakıdan Supsa limanına neft kəmərinin çəkilməsinə dair beynəlxalq saziş imzalanmışdır. 1999-cu il aprelin 17-də Bakı - Supsa ixrac boru kəməri, Supsa yerüstü terminalı istifadəyə verilmişdir. Açılışda Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti iştirak etmişdi. –

174. **Novorossiysk** – Rusiya Federasiyasının Krasnodar diyarında liman. Bakıdan Novorossiyskə neft kəməri çəkilmiş və 1997-ci ildə istifadəyə verilmişdir. –

175. **Avropa Yenidənqurma və İnkişaf Bankı** – Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 57 üzvü var, həmçinin Avropa İnvestisiya Bankı ora daxildir. –

176. **Azərbaycan Beynəlxalq Bankı** (**ABB**) – 1992-ci ildə Xarici İqtisadi Bankının əsasında yaradılmışdır. ABB beynəlxalq və daxili bazarda mövcud olan bütün bank xidmətlərini yerinə yetirir.

177. **Rəsul Quliyev**, Rəsul Bayram oğlu (d.1947) — 1993-1996-cı illərdə Milli Məclisin sədri olmuşdur. –

178. **Yuri Şafrannik**, Y u r i K o n s t a n t i n o v i ç (d.1953) – neftçi – mühəndis. 1993-94-cü illərdə Rusiya Federasiyasının yanacaq və energetika naziri olmuşdur. Hazırda Mosneft şirkətinin rəhbəridir.

179. «**AMOKO**» – Dünyanın ən böyük neft və qaz istehsalçılarından biri. 1989-cu ildə yaradılmışdır. Müxtəlif ölkələrdə 42.000 işçisi var. «AMOKO» Şimali Amerikada ən böyük təbii qaz istehsalçısıdır. Şirkət energetika, neft və qaz emalı, kimya və neft-kimya sahələrində də fəaliyyət göstərir. –

180. **Dauninq – Strit** – Londonda küçə, Böyük Britaniyanın Baş nazirinin iqamətgahı və Xarici İşlər Nazirliyi bu küçədə yerləşir.

181. **Avropada adi silahlar haqqında müqavilə** 1990-cı il noyabrın 19-da NATO ilə Varşava Müqaviləsi Təşkilatı arasında imzalanmışdır. Onun əsasını 5 kateqoriya üzrə silahların və texnikanın (döyüş tankları, zirehli döyüş maşınları, 100 mm-dən yuxarı kalibrli artilleriya sistemləri, döyüş təyyarələri və zərbəçi vertolyotlar) hər bir iştirakçı dövlət üçün Müqavilə ilə icazə yerilmiş maksimum səviyyəsinədək azaldılması və onların məhdudlaşdırılma sına sonrakı nəzarəti təşkil edir. SSRİ dağıldıqdan sonra 1992-ci il mayın 15-də Daşkənddə bu Müqavilə üzrə hüquqverici olan 8 müstəqil dövlət arasında (Azərbaycan, Belarus, Qazaxıstan, Ermənistan, Gürcüstan, Moldova, Rusiya, Ukrayna) Müqavilənin yer[525-526]inə yetirilməsi prinsipləri haqqında saziş və adi silahların və texnikanın maksimum səviyyələri haqqında protokol imzalandı.

Bu protokola uyğun olaraq Cənubi Qafqazın üç dövlətinin hər biri üçün Müqavilə ilə müəyyən edilmiş məhdudlaşdırılmalar Azərbaycanın zərərinə olaraq onun hərbi-siyasi parametrlərindəki fərqi nəzərə almır. Hazırda Vyanada Avropada adi silahlar haqqında Müqavilənin birgə məsləhət qrupu çərçivəsində Müqavlənin müasir reallıqlara uyğunlaşdırılması barədə danışıqlar gedir. –

182. **Corc Robertson** (d.1946) – İngiltərənin siyasi və dövlət xadimi. Müxtəlif illərdə 6 dəfə parlamentə deputat seçilib. 1999-2004-cü illərdə NATO-nun Baş katibi olmuşdur.

183. «**Britiş Petroleum**» (Bi-Pi) – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğuldur. Bi-Pi 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. –

184. **«Statoyl» şirkəti** – Norveçin «Statoyl» şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. –

185. **Bi-Bi-Si**, B r i t i ş B r o d k a s t i n q K o r p o r e y ş e n – Böyük Britaniya radioverilişləri korporasiyası. Əsası 1927-ci ildə Londonda qoyulmuşdur. 1936-cı ildə televiziya ilə verilişlərə başlamışdır. 1932-ci ildən xarici verilişlər şöbəsi bütün sutka ərzində ingilis və 37 xarici dildə dünyanın hər yerinə xəbərlər yayır.

186. **ABƏŞ**, A z ə r b a y c a n B e y n ə l x a l q Ə m ə l i y y a t Ş i r k ə t i –1994-cü ilin axırlarında yaradılmışdır. «Xəzərin Azərbaycan sektorunda neft yataqlarının müştərək işlədilməsi və istifadəyə verilməsi» haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin və dünyanın bir neçə böyük neft şirkətləri ilə imzalanmış müqavilənin payçıları adından onun şərtlərini həyata keçirmək məqsədilə yaradılmış əməliyyat şirkətidir. Buraya 7 ölkəni (B.Britaniya, Yaponiya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanı) təmsil edən 11 iri neft şirkəti daxildir. –

187. **Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. –

188. «**Niçimen**» – yapon şirkəti. Azərbaycanda 1993-cü ildən fəaliyyət göstərir və 1997-ci ildə Bakıda öz nümayəndəliyini açmışdır. Şirkət, əsasən qara metallurgiya, yanacaq, elektrotexnika, kimya və yüngül sənaye sahələri ilə məşğuldur. –

189. «**Neft Daşları**» – Abşeron yarımadasından 42 km cənub-şərqdə, açıq dənizdə, polad dirəklər üzərində salınmış neft «şəhəri». Bu ərazi oradakı daşların (təqr. 20 ədəd) bəzilərində neft-qaz nişanələrinin

olması ilə əlaqədar Neft Daşları adlandırılmışdır. Neft Daşları rayonunda geo[526-527]loji kəşfiyyat işlərinə 1946-cı ildən başlanılmışdır. Çıxarılan neft həm tankerlər, həm də boru kəmərləri vasitəsilə sahilə nəql edilir. –

200. **Robin Kuk** (d.1946) –İngiltərənin siyasi və dövlət xadimi. 1974-cü ildən İngiltərə parlamentinin deputatıdır. 1997-2001-ci illərdə İngiltərənin xarici işlər naziri vəzifəsində çalışmışdır. 2001-2003-cü illərdə İngiltərə parlamentində Nümayəndələr palatasının lideri olmuşdur.

201. **Şotlandiya** – Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş krallığının inzibati –siyasi hissəsi. Sahəsi 78,8 min km$^2$, əhalisi 5,2 milyon nəfərdir. Əsas şəhəri Edinburqdur.

202. **Edinburq** – Böyük Britaniyada, Şotlandiyanın əsas şəhəri. Mühüm nəqliyyat qovşağı. Edinburq haqqında ilk məlumat VI əsrə aiddir. II Yakovun vaxtında (1437-60) Şotlandiyanın paytaxtına çevrildi.

203. **Georq V** (1865-1936) – 1910-cu ildən İndilis kralı. Saksen- Koburq-Qot sülaləsindəndir.

204. **Vahid Axundov** (d.1942) – iqtisadçı, elmlər doktoru, professor. 1993-cü ildən Azərbaycan Respublikası İqtisadi siyasət üzrə Dövlət müşaviridir. –

205. **İpotek krediti** – Dövlət tərəfindən vətəndaşların tikintisinin kreditləşdirilməsi.

206. **Leyboristlər partiyası**, Böyük Britaniya Leyboristlər partiyası – İngiltərədə iki aparıcı partiyadan biri. Əsası 1900-cü ildə qoyulmuşdur. İkinci dünya müharibəsindən sonra 1945-51, 1964-1970,1974-79 və 1997-ci ildən hakimiyyətdədirlər.

207. **Səttar Bəhlulzadə**, Səttar Bəhlul oğlu (1909-1974) – görkəmli Azərbaycan rəssamı, müasir Azərbaycan boyakarlıq sənətində mənzərə janrının yaradıcılarından biri. Azərbaycan Respublikası əməkdar incəsənət xadimi, Azərbaycanın xalq rəssamı. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Bəhlulzadənin əsərlərində doğma torpağa və onu dəyişdirən zəhmət adamlarına hədsiz məhəbbət motivləri başlıca yer tutur. Azərbaycanın səfalı guşələri onun lirik mənzərələrində real əksini tapmışdır. Bəhlulzadənin yaradıcılığında poetik əhvali-ruhiyyə və kompozisiya quruluşu, işlətdiyi boyalarda isə kolorit gözəlliyi çox güclüdür. Əsərlərində real mənzərə motivlərini rəssam təxəyyülünün məhsulu olan [527-528] şərti təsvir formaları ilə əlaqələndirir. Mənzərələrinin koloritində açıq rənglərin vəhdəti əsas yer tutur.–

207. **Ömər Eldarov**, Ömər Həsən oğlu (d.1927) – görkəmli Azərbaycan heykəltəraşı. Azərbaycan MEA-nın həqiqi üzvü Rusiya rəssamlıq Akademiyasının müxbir üzvü. Heykəltəraşlığın müxtəlif janrlarında (monumental abidə, portret, büst, qorelyef və s.) əsərlər yaradır. 1995-ci ildən Milli Məclisin deputatıdır. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. Hazırda Dövlət Rəssamlıq Akademiyasının rektorudur. –

208. **Tağı Tağıyev**, Tağı Əzizağa oğlu (1917-1993) – Azərbaycan rəssamı, müasir Azərbaycan boyakarlığının yaradıcılarından biri. Portret ustası kimi daha məşhurdur. Azərbaycan Respublikası əməkdar incəsənət xadimi, Azərbaycanın xalq rəssamıdır.

209. **Ələkbər Rzaquldiyev**, Ələkbər Ələsgər oğlu (1903-1974) – Azərbaycan boyakarı və qrafiki. Yaradıcılığının erkən dövründə inqilabdan əvvəlki Azərbaycan məişətinin xarakterik səhnələri təsvir olunan boyakarlıq əsərləri çəkmişdir. Ə.Rzaquliyev qrafika sahəsində daha geniş fəaliyyət göstərmiş və misli-bərabəri olmayan linoqravuralar yaratmışdır.

210. **Qasımov Nadir**, Nadir Sadiq oğlu (1928-2000) – Azərbaycan Respublikasının xalq rəssamı. Əsasən, tematik tablolar, portret və mənzərə əsərləri çəkmişdir. Yaradıcılığında Xəzər neft mədənlərinin və Abşeron sənaye müəssisələrinin təsviri də mühüm yer tutur.

211. «**Teksako**» – neft şirkəti. Fəaliyyətini 1902-ci ildən Spinditor Hilldə (ABŞ,Texas ştatı) ilkin neft hasil olan vaxtdan başlamışdır. O vaxtdan genişlənərək «Teksako» şirkəti dünyanın ən nəhəng beynəlxalq enerji şirkəti sırasına çıxmışdır. Dünyanın təxminən 150 ölkəsində neft və qaz sənayesi sahəsində fəaliyyət göstərir. İllik gəliri 30 milyarddan çox ABŞ dolları təşkil edir. –

212. **Mühafizəkarlar partiyası** – İngiltərədə iki aparıçı partiyadan biri. 1867-ci ildə torilər partiyası əsasında yaradılmışdır. İkinci dünya müha[528-529]ribəsindən sonra 1951-64, 1970-74, 1979-97-ci illərdə hakimiyyətdə olmuşlar.

213. **Rafael Hüseynov** (d.1955) – ədəbiyyatşünas, publisist. Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Nizami adına Ədəbiyyat muzeyinin direktorudur. –

214. «**Amerikanın səsi**» – ABŞ hökumətinin xarici radioverilişləri idarəsinin adı. 1942-ci ildən fəaliyyət göstərir.Verilişləri 38 dildədir. Retranslyasiya xidmətləri ABŞ-dan başqa B.Britaniyanın, Almaniyanın, Yunanıstanın, bir sıra Asiya və Afrika ölkələrinin ərazisində yerləşir. –

215. «**Faynenşl tayms**» **qəzeti** – Böyük Britaniya işgüzar dairələrinin gündəlik maliyyə-iqtisadi qəzeti. 1888-ci ildə Londonda təsis edilmişdir.- 490. [529]

# Şəxsi adlar göstəricisi


| | |
|---|---|
| Abay | -15 |
| Abbasov Akim | -86 |
| Adams Terri | -305,310,312,315,316 |
| Ağahüseynov Tofiq | -90 |
| Ağalarov Həsən bəy | -83 |
| Ağayev Fərəcbəy | -83 |
| Akayev Əsgər | -25 |
| Anderson Deyvid | -451-452 |
| Annan Kofi | -269 |
| Araqon Lui | -65 |
| Aslanov Həzi | -86 |
| Babək | -82 |
| Battl Con | -318,320,369-372,409 |
| Baysak Kamal | -273 |
| Bekett Marqarett | - 365-368 |
| Bertari Renato | -301-302 |
| Bəhlulzadə Səttar | -474 |
| Bərşadlı Valeh | -90 |
| Bjezinski | -127 |
| Bleyr Toni | -277,333,337-346,349,350,351,352-35( 369,373,376,378,382,398,436,441,447-454,462,463,472,479,481,482,483 |
| Bloxin Apleksandr | -213 |
| Bolşakov Aleksey | -220 |
| Bots Fill | - 299-300 |
| Braun Con | - 363-364 |
| Braunbək Sem | -119,186 |
| Bülbül | -59 |
| Cəfərov Mirismayıl | -474 |
| Cəmşid xan | -573 [530-531] |
| Çaplin Çarli | -65 |
| Çernomırdin Viktor | -315 |
| Dadaşov Toğrul | -474 |
| Darbi Co | -301-302 |
| Deyvid II | -451 |
| Dəmirəl Süleyman | - 19,29-32,132,273 |
| Dizem Dani | -396 |
| Driyuri Devid | - 306-308 |
| Ehsan xan | -83 |
| Eqqar Tim | -309-312,314,315,318,320,321,396,476 477 |
| Eldarov Müslüm | -475 |
| Eldarov Ömər | -474 |
| Əbilov Mahmud | -86 |
| Əbiyev Səfər | -90,91 |
| Ələsgərov Anar | -474 |
| ƏliyevHəsən | -259 |
| Əliyev Hüseynbala | -86 |
| Əliyev İrşad | -121 |
| Əliyev Natiq | -396 |
| Əliyev Şahin | -240 |
| Əmir Teymur | -15 |
| Ər Gültəkin | -397 |
| Ərəblinski Balakişi | -83 |
| Füzuli | -15 |
| Forrenst Ken | -466 |
| Foulks Corc | - 296-298 |
| Frank Çarlz | - 357-359 |

Frolov -208
Hacı Allahşükür -233
Hacıbəyov Üzeyir -41,59
Henderson Daq - 303-305,396,453-457,473,482
Həsənov Eldar -122
Həzrəti Hökümə -229,230,231
Hörd Duqlas -318,319,320,322
Hüseyn xan -83
Hüseynov Arif -474
Hüseynov İsa - 38-39
Hüseynov Rəfael -489
Hüseynov Surət -121 [531-532]
Hüseynzadə Mehdi -86
Xalad Ruben -286
Xanməmmədov Hacı - 56-57
Xoyski Fətəli xan -84
İliesku İon -211
İmam Museyi - Kazim -229
İmam Rza -229
İsmayıl xan -83
Kəlbəli xan -83
Kərimov İslam - 19,23,33-34
Klinton Bill -118,128,184
Koçaryan Robert -205,426
Kokov Valeri -99
Konstantinesku Emil -135-166,209,211
Kormak Patrik - 323-328
Korzayn Robert -293
Kraliça Yelizaveta -71,304,332-336,400,441,447,454,462
Kuk Robin _ 440-445,482
Qafarov Mirzağa -474
Qarayev Qara - 59,63
Qasımbəyov Həmid -90
Qəhrəmanov Gülabbas -117,121,123
Qinqriç -185
Qor Albert -184
Qorbaçov Mixail -201,226,227
Qordeyev Vyaçeslav -67-68,75
Qorin Qriqori - 74-76
Qromıko Andrey -226
Quliyev Əli -253-261
Quliyev Fuad -121
Quliyev Rəsul -331
Qusman Yuli -59,60,61
Lokvud Kristofer -283
Luçinski Ryotr -212
Lujkov Yuri -214
Maqomedov Maqomedali -98
Mehdiyev Ramiz -238
Mehmandarov Səməd bəy -83,84,85
Məhəmməd Peyğəmbər - 229,230 [532-533]
Məmmədquliyev - 399
Məmmədov İsrafil - 86
Məmmədov Qafur - 86
Miliqan Erik - 446-448,449-450
Morqan Piter - 373-374
Mur Robert - 288
NağıyevƏIi -121
Nazarbayev Nursultan - 12,13,19,20,24,35,37

Nenaşev - 208
NikolIsRiçard -375-381
Olbrayt Madlen -184
Pavlova Nadejda - 67-68,75
Pikasso Pablo - 65
Prodi Romano - 5
Rasizadə Artur - 115,124
Rəsulbəyov Hüseyn - 89
Riçards - 305
Ritkınd -315
Robertson Corc - 360-362
Rolson Robin - 468
Rostropoviç Leopold -41
Rostropovic Mstislav - 41-49,58-61,62-66,75,127
Rüstəmov İzzət - 117,120,123
Rzaquliyev Elbəy - 69-70,474
Rzaquliyev Ələkbər - 474
Sane Pyer - 266
Sergeyev - 428
Seyidzadə Dilarə - 480
Sədəfçi Həmdi - 273
Sikorski Vladislav - 65
Skaltaro - 5
Skott Plamer Saymon - 293
Sulkeviç Məmməd bəy - 84
Sultan Məhəmməd -133
Şafrannik Yuri - 214,349,436
Şaqal Mark - 65
Şaqinyan Marieyetta - 225,226
Şekspir -320-321
Şəfiqə xanım - 320 [533-534]
ŞərifovAbid -117,251
Şıxlinski Əliağa - 83,84,85
Şirak Jak - 236,237,263,264,265
Şirvindt Aleksandr - 76
Tağıyev Tağı - 474
Talıbov Vasif - 255
Ter-Petrosyan Levon - 204,205,425
Topçubaşov Əlimərdanbəy - 236,262-263
Uoqstil Stefan -291
UsubovRamil -172
Vəliyev Cəfər - 261
Vişnevskaya Qalina - 49
VotsFil -478
Yeltsin Boris - 9,209,213,217,218,219,220,288,290 [534]

# Coğrafi adlar göstəricisi


Abxaziya -161,227,427
Aktau - 358,432,443
Almaniya -90,150
Amerika Birləşmiş Ştatları - 16,93,110,117,118,119,120,122,127,128, 138,143,151,164,183-187,196,197,204,205, 238,239,260,263,282,311,321,334,344,349, 353, 391,401,402,408,424, 428,436,442
Ankara -15
Arahq dənizi - 326,343,358,443
Asiya - 14,139,142,144,148,163,430, 431,471
Astara -251,252
Aşqabad -210
Atlantik okeanı - 151
Avropa - 14,23,139,142,144,147,149,150, 160,163, 164,165,196,340,341,345,376,401,428,430, 431,440,471
Avstriya -150
Bakı -9,10,11,14,15,17,22,23,25,32,39,40,41, 44,58,59,60,61,62,63,64,65,67,89,90,98, 99,108,127,130,137,142,147,149,151,158, 169,187,191,195,201,221,222,225,232,236, 237,246,268,272,273,274,276,280,286,288, 299, 300,310,325,326,335,342,351,358,364, 366,371,379,390,396,397,408,419,420,421, 430,432,433,443,448,464,472
Balkan -149
Baltik ölkələri -188
Belarus - 292
Biləsuvar - 251
Bolqarıstan - 431
Braziliya -301-302
Cənubi Qafqaz - 283,287,291 [535-536]
Çeçenistan -161,227,427
Çikaqo -185
Çin -151,165
Dağıstan Respublikası - 98,195,256
Dağlıq Qarabağ - 16,72,100,101,102,103,110,113,143,156, 184,185,190,204,205,224-225,226,227,263, 281,282,343, 344,345,350,349,352,361,362, 384,385,399,403,406,407,418,424,425,426, 442,483,487
Daşkənd - 23
Dunayçayı -165,431
Ədrnə - 273
Əfqanıstan - 20
Əlcəzair - 301
Fərqanə -103
Fransa - 16,44,93,110,119,138,143,151,165,184, 185,204,205,236,237,262-265,282,334,344, 353,402,424, 428,442
Füzuli - 203
Gəncə - 225
Gürcüstan -22,103,150,161,165,203,210,212,283,286, 290, 292,326,343,364,390,427,429,430,431, 443,466, 467
Həştərxan -214
Hindistan -18,24,299
Hyüston -185
Xaçmaz - 206
Xankəndi - 225
Xəzərdənizi -22,23,31,60,137,141,146,150,151,162,164, 165,185,196,221,222,285,286,302,315,326, 338,342,349,350,354,358,364,365,370,373-374,430,431,432,433,443, 460,461
Xorvatiya -149
İliçovsk - 436

İnıişli - 251
İndoneziya -301
İran - 203, 215, 216, 222, 285, 286, 292,425,429
450
İrlandiya -165,212 [536-537]
İspaniya -151,165
İsrail -198
İtaliya - 5-8
İzmir - 274
Kabarda-Balkar Respublikası - 99 Kanada - 26,27,260
Kapri - 6
Kislovodsk - 220
Kişinyov - 209
Kiyev -116
Komi -116
Krım - 205
Kronştadt - 90
Qafqaz - 23,89,139,146,147,150,161,162,164, 280,
291,294,337,340,383,428,430,433,440,460, 471
Qaradəniz -22,23,137,141,146,149,150,162,165,286,
325,390,431,443
Qazaxıstan - 10-37,150,203,221,222,285,286,326, 358,
431,432,433,443
Qırğızıstan - 26
Qırmızı körpü - 466,467
Quba - 206
Laçın - 345,425
Latviya - 202
Lerik -251,252,258,259,261
Lənkəran -209,251,252
Liviya -301
London - 279-445,455,460,462,466,472,474-491
Macarıstan -149
Madrid - 360
Masallı -251
Mərkəzi Asiya - 19,20,165,340,430,440
Mərkəzi Avropa - 148,149,164,337
Moldova -212,292,436
Moskva -41,44,51,52,63,116,191,195,197,200,201,
205,207,208,209,210,212,214,215,217,218, 219,222,224,225,226,227,260,287,288,315, 316,349,418,419 [537-538]
Naxçıvan -10,130,201,217,221,255,360,425
Neapol - 6
Norveç -197
Novorossiysk -22,141,150,213,286,325,364,390,431,432,
443
Nyu-York -63,152,185
Odessa - 436
OrtaAsiya -103,107,410
Osetiya - 227
Oş -103
Özbəkistan - 20,21,22,33-34
Pakistan -18,24,301
Paris - 44,63,236,264
Peyn çayı - 165
Roma - 6
Rostov - 89,90
Rummiya -135-166,108,211
Rusiya Federasiyası -16,22,25,26,50-55,83,93,98,99,110,116,

138, 143,150,184,185,188,189,195,196,198,200,203,204,205,206,207,208,260,263,282, 283,284,285,286,287,288,289,290,291,292,294,316,325,334,344,349,353,370,391,408, 413,424,428,429,430,436,442,467,468
Sakitokean -150
Sankt- Peterburq - 63,223
Serbiya -149
Sərəxs -14
Sloveniya -149
Strasburq - 425
Supsa -22,137,141,150,286,325,364,390,396, 397, 432,436,443
Şimal dənizi - 365,371,461,466
Şimali İrlandiya - 72
Şimali Qafqaz - 210,215,220,227,427
Şuşa - 345,425
Tacikistan - 20,25
Tatarıstan -214
Temza çayı - 462,473
Təbriz -451 [538-539]
Tokio -63
Türkiyə -19,23,25,29-32,132,150,273,274,292,326, 331,343,358,364,430,432,443,472
Türkmənbaşı (liman) -430
Türkmənistan -14,25,150,222,285,286,326,432,433
Ukraynna - 150,292,436
Uzaq Şərq -148
Vaşinqton -63,184,185,394
Venesuela -301
Volqa-Don kanalı -212
Volqoqrad - 89,90
Yaponiya -83,151,165,212,398
Yardımlı - 251,252,253,254,255,256,257,258,259, 260,261
Yerevan -225 [539]

Kitabı çapa hazırlayan *Tofiq Babayev*

Rəssamı *Fuad Fərəcov*
Texniki redaktoru *Zoya Nəcəfova*
Yığım üzrə operator *İlhamə Kərimova*
Kompüter tərtibatı *Məhəbbət Orucov*

Cildin hazırlamnasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı 1. Şərti çap vərəqi 34,5
Uçot vərəqi 35 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı - Mehdi Hüseyn küç. 61. dalan 2/3.
"Qismət» Nəşriyyat, Poliqrahya və Ticarət LTD tərəfmdən çap olunmuşdur.